*https://youthfoundation.az/*

*www.dgtyb.az*
*www.bizimyazi.az*

**Bu kitab Azərbaycan Respublikasının Gənclər Fondunun (AGF) maliyyələşdirdiyi, Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) tərəfindən icra edilən "100 yaşlı Cümhuriyyət: yaradıcı gənclərin gözündə və sözündə..." layihəsi çərçivəsində gün üzü görüb.**

*Kitab DGTYB tərəfindən hazırlanıb,*
*onun içərisi hər hansı formada*
*Fondun mövqeyini əks etdirmir.*

**ELMİN NURİ**

# CÜMHURİYYƏT
## *anılar və anlar*

***(məqalələr toplusu)***

**BAKI- 2018**

*Layihə rəhbəri və*
*baş redaktor:* **Əkbər QOŞALI**

*Məsləhətçi:* ***Dr.* Cavanşir FEYZİYEV,** *Millət vəkili*

*Rəyçilər:* ***Prof.Dr.* Cəfər CƏFƏROV,**
**Elşad EYVAZLI,**
***"Modern.Az" portalının baş redaktoru***

***Redaktor:*** ***Əfsanə ƏLƏSGƏRLİ***

**Elmin NURİ.** ***"Cümhuriyyət-anılar və anlar"***
***Kitab müəllifin dövri mətbuatda-Modern.az, Moderator.az saytların-da, eləcə də bir çox qəzet-jurnallarda yayımlanan və maraqla qarşılanan məqalələri əsasında hazırlanıb.***
Bakı, "Zərdabi LTD" MMC, 2018, 416 səh.

İSBN 978 9952 476 96 5

**© DGTYB, 2018,**
**© Elmin NURİ, 2018**
**© "Zərdabi LTD" MMC, 2018**

*“...Xalqımızın böyük insanları 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycanın “İstiqlal Bəyannaməsi”ni elan edərək respublikamızın müstəqilliyinin əsasını qoydular. Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. Məlumdur ki, o vaxt əvvəlcə Milli Şura yaranmışdı və Milli Şuranın qərarı ilə də “İstiqlal Bəyannaməsi” elan edilmişdi. Beləliklə, XX əsrin əvvəlində Azərbaycanda xalqımız milli azadlığını bəyan etdi, öz milli dövlətini yaratmağa başladı.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, “İstiqlal Bəyannaməsi”nin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o gün, o il, o ay bu tarixi addımı atdılar.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çox çətinliklərlə başa gəlmişdir. Çünki məlumdur ki, buna kənardan mane olmaq istəyən qüvvələr də çox idi və Azərbaycanın həyatında da vəziyyət çox qarmaqarışıq, ağır, çətin idi. Ancaq Xalq Cümhuriyyəti yaranandan sonra onun fəaliyyəti də böyük çətinliklərlə, problemlərlə, böyük müqavimətlərlə, maneələrlə rastlaşmışdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün bu çətinliklərə*

*baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaşamış, fəaliyyət göstərmiş və iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur.*

*...\Azərbaycanın bir müstəqil dövlət kimi yaşaması üçün artıq bütün əsaslar yaranıbdır. Bu gün Azərbaycanın dövlət müstəqilliyi təmin olunubdur və əmin ola bilərsiniz ki, bu dövlət müstəqilliyi etibarlı əllərdədir.*

*Mən bu gün Azərbaycanın milli azadlığı, müstəqilliyi yolunda xidmət göstərmiş, həlak olmuş, özünü qurban vermiş insanların ruhu qarşısında baş əyirəm. Azərbaycan xalqını, Azərbaycanın bütün vətəndaşlarını əmin edirəm ki, biz bundan sonra da Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli varisləri olacağıq, xalqımızın milli azadlığını qoruyacağıq, saxlayacağıq. Biz Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyacağıq və günü-gündən möhkəmləndirəcəyik, daha da yüksəklərə qaldıracağıq!*

*Eşq olsun Azərbaycan xalqına!*

*Yaşasın sarsılmaz əbədi, müstəqil Azərbaycan!”*

**Heydər ƏLİYEV,**
***ÜMUMMİLLİ LİDER***

***(1998-ci il mayın 27-də***
***Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə***
***həsr olunmuş təntənəli mərasimdəki nitqindən)***

*“Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır.*

*...Biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. ...Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrin-*

*də qəbul edilmişdir.*

*Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.*

*...Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.”*

**İlham ƏLİYEV,**
***AZƏRBAYCAN PREZİDENTİ***

***(2018-ci il mayın 28-də***
***Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi***
münasibətilə rəsmi qəbuldakı nitqindən)

# ÖN SÖZ

Ölkə başçısı cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə 7 il bundan öncə yaranan Gənclər Fondu Azərbaycanın hər bir bölgəsində, regionunda hətta ucqar kəndlərində belə yaşayan gənclərimizə xidmət etməklə hər kəs tərəfindən tanınır və dəstəklənir. Beləki, yarandığı gündən Fond gənclər siyasəti ilə bağlı ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmiş, gənclər siyasətini həyata keçirən qurumların elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsindəki innovativ ideyalarını dəstəkləmişdir.

Bununla yanaşı, cənab Prezidentin mart ayında imzaladığı müvafiq Fərmanla Fondun imkanları və təqdim etdiyi xidmət sahələri daha da genişlənərək gənclərin sosial rifahının yüksəldilməsi, elmi potensialının artırılması, təhsil və məşğulluğunun dəstəklənməsi, innovativ fəaliyyətinin təşviq edilməsi və s. digər sahələri əhatə etməsi kimi əlavə vəzifə və səlahiyyətlərlə şaxələndirildi.

Gənclər Fondunun qarşısına qoyulan ən vacib məqsəd və vəzifələrdən biri məhz ölkəmizin hər bir yerində yaşayan gənclərimizi əhatə edərək Azərbaycan gəncliyinin mənəvi və intellektual inkişafını təmin etməkdən ibarətdir. Bu məqsədlə Fond 2018-ci ildə həyata keçirdiyi fəaliyyətində bir çox ilklərə imza atdı. Bu fəaliyyətlərə sosial qayğıya xüsusi ehtiyacı olan gənclərin təhsil xərclərinin qarşılanması, beynəlxalq təşkilatların

təcrübə proqramlarında gənclərin iştirakının təmini, gənclərlə yanaşı gənclər təşkilatlarının rəhbərlərinin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsi və s. aid etmək olar. Həyata keçirilən bütün fəaliyyətlər məhz gənclərimizin mənəvi, intellektual inkişafına töhfə vermək məqsədi daşıdığı üçün təqvimin tarixi önəm kəsb edən ölkə əhəmiyyətli günləri Fondun əsas prirori-tetlərindən təbii ki, geridə qala bilməzdi. 2018-ci il Xalq Cümhuriyyətinin 100 illiyinin tamam olduğu şanlı tarixin yubiley ili olaraq millətimiz və dövlətimiz üçün xüsusi önəm kəsb edir. Cənab Prezidentimiz İlham Əliyev 2018-ci ili “Xalq Cümhuriyyəti” ili elan etdi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ölkədə təntənə ilə qeyd edildi. Yubiley tədbirləri Azərbaycan xalqının yaşadığı bütün ərazilərdə ümumxalq səviyyədə bayram edildi.

Mütəmadi olaraq gənclərlə çalışan qurum olaraq Azərbaycan Respublikasının Gənclər Fondu da Xalq Cümhuriyyətinin 100 illik yubileyi münüsibəti ilə silsilə tədbirlər həyata keçirmişdir. Bu qəbildən olan tədbirlərə 2018-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olmuş Gəncə şəhərində və Tbilisidə AXC-nin yaranmasının elan edildiyi tarixi binada reallaşan tədbiri, 21 iyun 2018-ci il tarixində Sabunçu rayon Gənclər Evində həyata keçirilən “Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Simulyasiyası” layihəsini və eləcə də 11-ci qrant müsabiqəsində prioritet istiqamətlərdən biri olan “Azərbaycan Xalq Cümhuriyyəti 100 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi” üzrə qalib olmuş 10 layihəni diqqətə çatdırmaq olar. Hal-hazırda da icra edilməkdə olan layihələr ölkə gənclərinin tariximizin şanlı səhifələrindən olan istiqlaliyyətimizin 100 illiyini daha yaxından öyrənmələrinə xidmət etməkdədir.

Şanlı istiqlal tariximizi qələmə aldığı yazıları ilə yaşatmağa çalışan dəyərli gənc Elmin Nurinin "CÜMHURİYYƏT - anılar və anlar" kitabı məhz gənclər arasında tariximizi öyrətməyə, təbliğ etməyə və sevdirməyə yönəldiyi üçün Gənclər Fondunun dəstəyini almağa müvəffəq oldu. Gənc yazarın istiqlala, dövlətimizə və dövlətçiliyimizə duyduğu sevgi hər bir gənci milli məsuliyyətə cəlb edən amil kimi oxucuların diqqətini cəkəcəyindən əminik.

Biz, Gənclər Fondu olaraq gələcəyimiz olan gənclərin hər zaman tarixi həqiqətlərimizi öyrənməsi, təbliğ və təşviq etməsi, vətənpərvər ruhda yetişməsi istiqamətində qurduğumuz fəaliyyəti davam etdirməkdə maraqlı və əzimli olmaqla yanaşı, eyni zamanda hər bir gəncimizi dəstəkləməyə hər zaman hazır olduğumuzu gənc dostlarımızın diqqətinə çatdırmaq istəyirik.

**Fərid CƏFƏROV,**
***Azərbaycan Respublikasının***
***Gənclər Fondunun***
***İcraçı direktoru***

## Müəlliflər adına "müəllif"dən

Əziz oxucu, əlinizə aldığınız kitabın müəllifi deyil, "müəllif"i olmasının sevincini sizinlə bölüşmək üçün bir neçə dəqiqəlik vaxtınızı alacağam...

Peşəkar çalışma sahəsi etirabrı ilə jurnalistəm və bir neçə dəfə mənə "araşdırmaçı jurnalist" deyilən zaman utancqlıq hissi keçirdiyimi də gizlətmirəm. Və bu gün də, nədənsə, özümü jurnalist, araşdırmaçı sözlərinə yox, məhz həmin qızartıya daha yaxın hiss edirəm.

Cümhuriyyət barəsində nəsə yazanda həmin qızartını bir fon kimi üzərimdə hiss etmişəm...

Niyə? – Niyəsiz! "Mən doğrudanmı, Cümhuriyyət kimi şanlı bir mövzudan, Rəsulzadə, Üzeyir bəy, Xoyski, Nəsib bəy Yusifbəyli kimi dəyərlərdən yazmağa layiq bir insanam?! Yəni, mən bu qədərmi böyümüşəm?!" sualını mənə həmin qızartı "söyləyib"...

Anladığım isə bir həqiqət olub – müəllif yox, "müəllif" olmaq gerçəkliyi...

Əziz oxucu, eynilə əlinə aldığınız kitabda olduğu kimi... Bu kitabın müəllifləri çoxdu – Rəsulzadənin, Nəsib bəyin, Topçubaşovun, Ceyhun Hacıbəylinin ağrılı həyatında, sözə sığmayacaq Vətən eşqində, ürəkdən bağlanıb, ömürlərini fəda etdikləri milli birlik ideyasındadır bu kitabın müəlliflik hüququ...

Rəsulzadənin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Ankaradakı məzarından eşidilən iniltidədir Cümhuriyyətlə bağlı əsərlərin müəlliflik hququ...

Bu və Cümhuriyyətlə, Vətən həsrəti ilə bağlı əsərlərin müəlliflik hququnu, Üzeyir bəyin AXC-nin Versal Sülh Konfransına göndərilən, bir daha Vətənə qayıda bilməyən, ömrünün sonuna qədər ailəsinə həsrət qalan qardaşı Ceyhun bəy üçün öz məzarının yanında saxlatdırmağı vəsiyyət etdiyi boş qəbir yerində axtarmalıyıq, bəlkə də...

Özü Baş nazir ola-ola, qoca atasına məktub yazaraq, ondan borca pul istəyən Nəsib bəyin boş cibidir, bu kitabın müəllifilik hququnun ünvanı...

Ən nəhayət... Ömürlərini arxivlərdə, kitabxanalarda keçirib, əl boyda bir kağız üçün maddi durumunu gözönünə almadan xaricə gedən araşdırmaçılardır belə kitabların müəlliflik hüququ...

Oxuyacağınız kitabın müəllifi – Şirməmməd Hüseynov, Ramiz Abutalıbov, Nəsiman Yaqublu, Ədalət Tahirzadə, Vilayət Quliyev, Asif Rüstəmli, Lətif Şüküroğlu, Mehman Süleymanov, Akif Aşırlı, Firdovsiyyə Əhmədova, Anar İsgəndərov, Zaur Əliyev, "Azərbaycan Cümhuriyyəti Ensiklopediyası" və Azərbaycan Cümhuriyyət parlamentinin stenoqramlarını hazırlayan şəxslərdir...

Mənsə, sadəcə, "müəllif"əm... Onların ərsəyə gətirdiklərini öz pəncərəmin bayrağımız rənginə çalan şüşələrindən keçirərək, kitaba daxil etmişəm...

Əziz oxucu, "müəllif" sizi ona görə narahat etdi ki, əsl müəlliflərlə sizi tanış etsin...

***"Təmənnasızlıq dövləti"***

Azərbaycan Cümhuriyyəti mənim üçün şanlı tarix olması ilə yanaşı, həm də "təmənnasızlıq" anlayışının özüdür...

Əlinizdəki kitabda demək olar, bütün yazıların bətnində təmənnasızlıq var... O, təmənnasızlığın içində görsənən "milli birlik – mənəvi dirilik" teoremi var...

Bu təmənnasızlığı duymaq Cümhuriyyətin qurulduğu ərəfədə rəsmi dövlət qəzetində – "Azərbaycan"da təmənnasız çalışan, maaşsız işləyən, bütün digər işlərini saxlayaraq, parlament müxbiri kimi çalışan Üzeyir bəyi anlamaqdır; azyaşlı övladının, gənc xanımının ehtiyacı olmasına baxmayaraq, elə həmin qəzetdə pulsuz baş redaktorluq edən Ceyhun Hacıbəylini qavramaqdır; vəziyyət nisbətən düzələndən sonra Baş nazir Nəsib bəy Yusifbəyliyə qəzetdə ona veriləcək qonorarı Ceyhun bəyin adına yazdırmasını xahiş edən Rəsulzadəni başa düşməkdir; və... həyat tərzi ilə "təmənnasızlıq" anlayışını hərfbəhərf bir bina kimi tikən bu insanları yaşamaqdır..!

Əziz oxucu, əgər bunu yaşaya bilməyəcəksinizsə, burada bir "müəllif" kimi öncədən sizdən üzr istəyirəm. Amma əsl müəlliflərin əsla, burada bir qəbahəti yoxdur...

***Hədiyyə***

Ölkə başçısı İlham Əliyev cənablarının həm Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam, həm də, 2018-ci ili "Xalq Cümhuriyyəti İli" elan etməsi Azərbaycan xalqına, özəlliklə, aydınlarımıza misilsiz töhfədir.

İstər elm qurumları, istər müxtəlif ictimai birliklər, rəsmi orqanlar, təhsil müəssisələri və b. Cümhuriyyət İli ilə bağlı nə mümkündürsə həyata keçirməyə çalışdı.

Ayrı-ayrı alim və araşdırmaçıların bu istiqamətdə müxtəlif səpkili kitabları gün üzü gördü.

Əlinizə aldığınız kitab təkcə "müəllifi" olduğum kitab yox, həm də Azərbaycan Respublikasının Gənclər Fondunun bir gənc qələm adamının timsalında gənclərə hədiyyəsidir – Cümhuriyyət hədiyyəsi...

Bu, millilik ruhundan doğan bir cəhdin (bəli, məhz cəhd) bu gün də, sabah da, şəxsən mənə bağışlayacağı izaholunmaz qürur sözə sığmayacaq (heç zaman köhnəlməyəcək, mənə Cümhuriyyət kimi bir dəyəri nə qədər sevdiyimi aşılayacaq!) bir hədiyyə çələngidir..!

Mən gələcəkdə də bu hədiyyəyə baxdıqda, AXC-ni, Cümhuriyyət anlayışını necə bildiyimlə yox, onu necə sevdiyim üçün sevinəcəyəm, qürurlanacağam...

***Üç nöqtənin edamı...***

Kitabdakı məqalələrin biri “Cümhuriyyət parlamentinin son iclasından “reportaj”...” adlanır... Təbii, söhbətin nədən getdiyi hamımıza bəllidir. 1920-ci ilin 27 aprelindəki son iclas AXC-nin, təəssüf ki, devrilməsi demək idi, əslində... Yazı bu cümlələrlə bitir:

“Bu da 23 aylıq dövlətin 15 aylıq parlamentinin son iclası… Amma hələ son qərar qəbul olunmayıb. Son qərar gecə saat 23:00-da qəbul ediləcək. Ona sədr Məmməd Yusif Cəfərov qol çəkəcək. Və beləcə…”

“Və beləcə” sözündən sonrakı üç nöqtənin içində düz 70 il var! Nə az, nə çox, 70 il! Və bu kitab, əslində, həmin üç nöqtəyə böyük bir etirazdır..!

Bunun üçün isə MÜƏLLİFLƏRƏ alqışlar!

***BAKI-2018***

# I bölüm - Cümhuriyyət fədailəri – ruhla tarix yazanlar

## "Xanımımdan sonra bütün həyatım məhv oldu" – Cümhuriyyət generalının fəryadı

1943-cü ilin isti avqustu... Bir zamanlar bütün Qafqazın, Çar Rusiyasının, hətta az qala, dünyanın yarısının tanıdığı əfsanəvi general son nəfəsini yaşamaqdadır. Həyat yoldaşı Nigar xanımdan sonra onsuz da yaşamaq istəmirdi. Lakin yarıcan halda 12 il yaşayır və dünya tarixinin bəlkə də, ən ağır ilində - müharibənin tüğyan etdiyi 1943-cü ildə Bakı kənarındakı kiçik bir evdə vəfat edir. Övladı olmamışdı. Sevimli arvadına da "xəyanət" edib, başqası ilə evlənməmişdi. Öləndə də onu Nigarın yanında dəfn etmələrini istəmişdi. Nə yaxşı ki, Şıxlinskinin bu istəyi baş tutdu. O, uzun ayrılıqdan sonra sevimli həyat yoldaşına əbədiyyən qovuşdu.

İndi isə daha uzaq illərə, generalın cavanlıq çağlarına baş vuraq. Vətəndən uzaqlarda xidmətdə olan general doğma ana dilini unutmadı. Onun ümumi dəftər həcmində olan şer və tərcümələrinin əlyazması Azərbaycan Tarixi Muzeyindəki şəxsi qovluğunda və Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmaları Fondunda saxlanılır. O, bir-birindən gözəl şeirlər də

yazırdı. Bunlardan ən yaxşısı isə  həyat və məslək yoldaşı, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanıma yazdığı "Ey sevdiyim, ey dilrüba" şeiridir. Həmçinin, generalın məşhur rus alimi, Port-Artur qalasının qəhrəmanı vitse-admiral Stepan Osipoviç Makarovun ölümünə və qalanın yapon samuraylarına təslim olunmasına dair şerləri var.

Hərb tarixçisi Şəmistan Nəzirlinin arxivdən əldə etdiyi məlumatda maraqlı bir fakt var:

"1909- cu il oktyabrın iyirmi yeddisində əmisi qızı Nigar xanımla  ailə həyatı quran Əliağa Şıxlinski sonralar yazırdı: "Bu dəyişiklik mənim həyatımı işıqlı bir yola, parlaq bir səadətə yönəltdi. Bir yerdə keçirmiş olduğumuz iyirmi iki illik həyatın aydın səmasında bir bulud ləkəsi belə görünmədi. Fitrətən istedadlı olan, yaxşı təhsil görmüş, mülayim xasiyyətli Nigar xanım ailə səadəti üçün yaradılmış bir qadın idi. Mən bu səadətə tam mənası ilə nail oldum. Lakin 1931-ci il avqustun on beşində Nigar xanımın ölümü mənim üçün ən ağır bir zərbə oldu. Mənim hər şeyim: həm səadətim, həm də səhhətim onunla getdi".

Sonsuz bir məhəbbətlə sevdiyi Nigarını o ilhamla tərənnüm edirdi:

*Ey sevdiyim, ey dilrüba,*
*Səbrim, qərarımsan mənim.*
*Səd mərhəba, səd mərhəba,*
*Nə türfə yarımsan mənim.*

*Görən səni ey nazənin,*
*Deyər: pəh-pəh, səd afərin!*
*Dünyada mislin yox yəqin,*
Əcəb dildarımsan mənim!

*Gözəl zahirdə surətin,*
*Gözəl batin, təbiətin.*
*Gözəl hər işdə qeyrətin,*
*Namusum, arımsan mənim.*

*Mənim baharda bülbülüm,*
*Mənim qızılca sünbülüm.*

## Sürgündən sonra Bağırova "yox" deyərək, güllələnməyi seçən Cümhuriyyət naziri

Azərbaycan Cumhuriyyətinin parlament və V Nazirlər Kabinetinin üzvü, əmək və torpaq naziri olan Əhməd bəy Pepinov işğalçı Qırmızı Ordunun Bakıya yürüşünü ləngitmək məqsədilə 1920-ci il aprelin əvvəllərində parlamentin digər üzvü Rəhim bəy Vəkilovla danışıqlar aparmaq üçün Qroznı şəhərinə göndərilir. Aprel işğalından sonra Bakıya qayıdan Pepinov Azərbaycanda mədəni-maarif və nəşriyyat işlərinə rəhbərlik edir. Amma köhnə AXC naziri kimi ona münasibət birmənalı olmayıb. Davamsız təqiblərlə üzləşən Pepinov 1930-cu ildə Ulyanovsk şəhərinə köçməyə məcbur olub. Daha sonra Alma-Ataya gedir və 1934-cü ildən etibarən Qazaxıstan SSR maarif nazirinin müavini işləyib.

Pepinov repressiyaya Qazaxıstandan getsə də, onun bütün həyatı Azərbaycanla bağlı olub. 1919-cu ildə Cümhuriyyət parlamentinin sədri Həsən bəy Ağayevin qızı ilə ailə quran Pepinov 1920-ci ildə Yusifbəyli hakimiyyətinin istefasından sonra vəzifəsindən kənarlaşdırılıb. Amma bəzi tarixi əsaslara görə

sovet rejimi başqa cumhuriyyətçilər kimi Pepinova toxunmayıb, ondan öz kadrları kimi faydalanmağa çalışıb. Böyük təcrübəyə malik Pepinov yenidən başqa sahədə nazir vəzifəsinə gətirilsə də, bu postda çox qala bilməyib. Repressiyaya məruz qaldıqdan sonra isə ailəsinin aqibəti xeyli çətinləşib.

Pepinovun ömrünün son 18 ili təqib və təzyiqlər içində keçib. Ona ən pis təsir edən məsələlər isə repressiyalar zamanı həbs olunduqdan sonra dindirilmələri olub. Pepinov böyük diplomat və yüksək intellektə malik şəxs idi. Təbii ki, onun üzərinə hansısa cinayəti yıxmaq, onu kiminsə üzünə durdurmaq asan deyildi. Amma NKVD cəlladları işgəncələrlə buna qismən də olsa, nail olurlar. Bir neçə maddə ilə onu "cinayətkar" kimi ən ağır cəzaya məhkum edirlər.

Əhməd bəy Pepinovun dindirilmələrindən ibarət qovluq 255 səhifədir. Yəni, ortabab kitab həcmində.. İlk dindirilmələrinin birindən bəzi sitatlar:

4-cü şöbənin 6-cı bölməsinin rəisi baş leytenant Qriqoryan Pepinovu mühakimə edir:

**SUAL**- Siz bu gün öz əksinqilabi fəaliyyətiniz barədə danışmaq fıkrindəsinizmi?

**Cavab:** Mən heç bir əksinqilabi iş aparmamışam.

**Sual:** Siz əksinqilabi mövqedə dayanan elmi işçilərdən kimi tanıyırsınız?

**Cavab:** Heç kimi tanımıram.

**Sual:** Professor Bəkir Çobanzadə sizə əksinqilabçı millətçi kimi tanışdırmı?

**Cavab:** Professor Bəkir Çobanzadəni mən ancaq millətçi kimi tanıyıram.

**Sual:** Daha kimi tanıyırsınız?

**Cavab:** Professor Qubaydulin və Kazımovdan başqa daha heç kimi tanımıram.

**Sual:** Onlar öz əksinqilabi millətçi görüşləri barədə sizə danışırdılarmı? **Cavab:** Professor Çobanzadənin millətçi görüşləri mənə onunla şəxsi söhbətlərdən məlum idi, Qubaydulini onun əsərlərindən, Kazımovun fəaliyyətini isə universitetdən bilirdim.

**Sual:** Siz onların əksinqilabi görüşləri ilə şərik idinizmi?

**Cavab:** Mən ayn-ayrı məsələlərdə onların millətçi görüşləri ilə, milli kadrlar yetişdirilməsi sahəsində akademik mübarizələri ilə şərik idim.

**Sual:** Məgər partiya və hökumət milli kadrlar yetişdirməyin əleyhinə idi?

Cavab:…. Pepinov şantaj xarakterli olan bu suala cavab verməkdən imtina edir."

**(*Qaynaq: Lətif Şüküroğlu "Cümhuriyyət hökuməti repressiya mənganəsində"*)**

**Yuxarıda adını çəkdiyimiz araşdırmaçı Lətif müəllim arxivdən Əhməd bəy Pepinovun bütün dindirilmə sənədlərini və ona aid başqa dəyərli məxəzləri əldə edib. Burada Pepinovun həbsxanada çəkdiyi zillət də öz əksini tapıb.Lakin ən maraqlısı bolşeviklər üçün "qara qutu" rolunu oynayan Pepinovun diplomatik bacarıqla suallardan qaçması faktıdır. L.Şüküroğlu yazır:**

"Əhməd bəyin dindirilməsində başlıca diqqət yetirilən məsələlərdən biri onun və təmsil etdiyi təşkilatın mühacirətdə yaşayan keçmiş hökumət üzvləri vasitəsilə xarici dövlətlərlə hansı əlaqələr saxlanılmasına yönəldilmişdi. Bu baxımdan 19 yanvar 1938-ci il dindinnəsi istisna deyildi:

“**Sual:** Mühacirətdən hansı maddi köməklik alınırdı və o, necə bölüşdürülürdü?

**Cavab:** M.Hacınskinin sözlərinə görə, Topçubaşov Azərbaycan əksinqilabi millətçi təşkilatına maddi köməklik göstərirdi. Bir dəfə 1930-cu ildə, payızda mən Ordubadskinin yanında olarkən dedi ki, Hacınski ona təşkilatın ehtiyacları üçün 40.000 rubl pul göndərib. Bu vəsaitin necə alındığı barədə o, heç nə demədi, ancaq onu bildirdi ki, həmin vəsait təşkilat üzvlərinin rayonlara getmələrinə yol xərci kimi onlar arasında paylanmaq üçün nəzərdə tutulub. Mənə məlum idi ki, bu məqsədlə Mollayevə, Mirzəyevə, Bəylərbəyova hərəsinə 5000 rubl verilib.

**Sual:** Sizə şəxsən bu puldan nə qədər çatmışdı?

**Cavab:** Mən şəxsən Ordubadskidən pul almamışdım, çünki uzun müddət olduğum üçün yerlərə gedib, əksinqilabi iş aparmağa imkanım olmamışdı.

**Sual:** Xarici kəşfiyyat orqanlarından hansının təşkilatla əlaqəsi vardı?

**Cavab**: Xarici ölkə kəşfiyyatları ilə əlaqəni şəxsən M.Hacınski Parisdə mühacirətdə olan Topçubaşov vasitəsilə saxlayırdı. 1930-cu ildə Tiflisə xidməti işlə bağlı gedərkən mən ondan eşitdim ki, bizim işə maddi köməklik Topçubaşovla razılıq əldə edilmiş fransız hökuməti tərəfindən göstəriləcəkdir.

**Sual:** Kəşfiyyat orqanlarına hansı casusluq məlumatları və kimin vasitəsilə verilirdi?

**Cavab:** Hacınskinin mənə verdiyi məlumata görə, Fransa dövlətindən alınmış maddi yardımın müqabilində əksinqilabi təşkilat tərəfindən ölkənin müdafiə qabiliyyəti, yük daşımaları, neft sənayesinin vəziyyəti barədə kəşfiyyat informasiyaları əldə edilməli idi. Müdafiə qabiliyyəti haqqında məlumatlar Azərbaycanın diviziya komandiri Ş.Naxçıvanski, dəmiryol üzrə

Mirzəyev, neft sənayesi üzrə F.Rüstəmbəyov və Azneftdə işləyən digər mühəndislər tərəfindən əldə olunurdu. Bu mühəndislərin kimliyi barəsində o, heç nə demirdi. Həmin materialların Hacınskiyə çatdırılıb-çatdırılmadığı barədə o, heç nə deməmişdi.

**Sual:** Ş.Naxçıvanski komanda bey'ətindən kimi əksinqilabi təşkilata cəlb edə bilmişdi?

**Cavab:** Mən həbsxanada olarkən öyrəndim ki, Ş.Naxçıvanski təşkilata keçmiş çar ordusunun polkovniki Novruzovu, keçmiş ordunun zabiti Vəkilov və Mirzəyevi cəlb edə bilib…

**Pepinov şəxsiyyətini ən yaxşı tanıdan simalardan biri də qızı Sevda Pepinova olub. Sevda xanım Cümhuriyyətin parlament sədri Həsən bəy Ağayevin nəvəsi, Pepinovun qızı, komediya aktyoru Lütfəli Abdullayevin isə həyat yoldaşı olub. Onun "Günay" qəzetinin 26 fevral 2000-ci il 8-ci sayında yayımlanan müsahibəsindən sitatlar:**

"Mənim atam milliyətcə məshəti türküdür. Baxmayaraq ki, o, Axaltsixi rayonunda anadan olub, ancaq onun uşaqlığı Şamaxıda və Tiflisdə məşhur dayısı Ömər Faiq Nemanzadənin himayəsi altında keçib. Əhməd bəy Tbilisidə gimnaziyada oxuyub və oranı qızıl medalla bitirib. Onun dayısı ilə yaşadığı binanın birinci mərtəbəsində mətbəə yerləşib, ikinci mərtəbədə isə onlar Cəlil Məmmədquluzadə ilə qonşu olublar. M.Cəlil mənim atama ağır xəstə olan böyük Azərbaycan şairi Sabirə qayğı göstərməyi tapşırıb. Sabir onun gözü qarşısında, az qala qollan arasında həyatla vidalaşıb. Gimnaziyanı bitirdikdən sonra atam oxumaq üçün Moskvaya gedib və orada eyni vaxtda iki fakültədə ali təhsil alıb - hüquq və iqtisadiyyat. O, poliqlot idi, çoxlu dil

bilirdi. Moskvadaca da o, eser partiyasına daxil olub. Azərbaycan Xalq Cümhuriyəti elan ediləndə Əhməd bəy, mənim babam, Zaqafqaziya Seyminin üzvü Həsən bəy Ağayevlə birlikdə əvvəl Gəncəyə, sonra isə Bakıya gələrək 1918-ci ildə Parlamentin Rəyəsət Heyətinin katibi, sonra isə əmək və torpaq naziri təyin edilib. Sovet hakimiyyəti illərində atam müxtəlif vəzifələrdə işləyib, həbs edildiyi son dövrlərdə isə maarif naziri olub, ali təhsil və mədəniyyət sahəsinə rəhbərlik edib... XX əsrin əvvəllərində böyük bir ziyalılar dəstəsi yetişmişdi. Onlar xalqa fədakarlıqla xidmət edirdilər və xeyli ardıcılları vardı. 1937-ci ildə mənim fikrimcə, Azərbaycan xalqına qarşı əsl soyqırımı tətbiq edildi. Adamlar məhv olundular, ailələr dağıdıldı, uşaqları internat məktəblərə verdilər, çünki qohumlar onları öz yanlarında saxlamağa qorxurdular. Mənim atamı əvvəlcə 1930-cu ildə həbs etdilər, güllələmək istəyirdilər, sonra sürgünə göndərdilər. Sürgündən o, 1935-ci ildə qayıtdı, ona şəxsən M.Bağırov partiya sıralarına keçməyi təklif etmişdi, o, etiraz etmişdi - vicdanına qarşı çıxmaq istəməmişdi. Buna görə cavab verməli oldu, onu yenidən, il yarım sonra Alma-atada həbs edib Bakıya gətirdilər. Burada onu M.Bağırov şəxsən özü güllələmişdi. Bu onun məhkəməsində sübut olundu. Həmin dəhşətli illərdə cəmiyyətin qaymaqlarının məhv edildiyi dövrdə bizim ziyalılara ağır zərbələr dəydi..."

2 iyul 1938-ci il ... SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hazırlıq yığıncağında 6 saylı protokol tərtib edildi. Elə həmin gün Ə.Pepinova ittihamın surətini aldığına imza atdırıldı. Və səhəri gün onun dünyanın son gününü təyin edən qərar çıxarıldı. 3 iyul 1938-ci ildə SSRİ ALİ Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının qapalı iclası Kolpakov və Kulikin

sədrliyi altında saat 21:40-da işə başladı və cəmi 15 dəqiqə ərzində, 21:55-də Ə.Pepinovun ən ağır cəzaya layiq görülməsi ilə əlaqədar mühakimə edilməsi qərarı hazırlandı. Şevelyevin imzaladığı məxfi arayışa əsasən Ə.Pepinovun barəsində hökm elə həmin gün yerinə yetirilmişdi. …

## Cümhuriyyətin xaricə yolladığı tələbələrin acınacaqlı taleyi - Bəziləri dözməyib intihar etdi

Təəssüf ki, Cümhuriyyət böyük ümidlə dünyanın bir neçə nöqtəsinə yolladığı tələbələrdən faydalana bilmədi. Çünki qısa müddətdən sonra devrilən ADR-dən sonra o tələbələr artıq təhsillərinin əsas mahiyyətindən uzaq düşdülər. Onlar gənc dövlətə xidmət etmək üçün oxuyurdular. Amma heç bir il keçməmiş həmin dövlət işğal edildi. Pulları və arzuları kəsilən tələbələr isə çox pis durumda qaldılar. O haqda az sonra…

İndi isə bir az əvvələ, həmin tələbələrin xaricə göndərilmə tarixindən danışaq:

Azərbaycan Parlamentinin 1919 il sentyabrın 1-də keçirilən 70-ci iclasında Bakı Dövlət Universitetinin təsisi ilə yanaşı, 1919-20 tədris ilindən başlayaraq, yüz nəfər azərbaycanlı gəncin Hökumət hesabına təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərilməsi haqqında məsələ də müzakirə edildi. Bu məsələ ilə əlaqədar Əhməd bəy Pepinovun məruzəsi ətrafında müzakirələrdə Rəhim Vəkiləv, Abdulla bəy Əfəndizadə, Rza bəy Ağabəyov, Məmmədrza Ağavəkiləv, Qasım bəy Camalbəyov, Qara bəy Qarabəyli, Muxtar Əfəndizadə, Ağa Aşurov, xalq maarifi naziri Rəşid Qaplanov və b. çıxış edərək, ölkə iqtisadiyyatının elm, təhsil və mədəniyyətinin gələcək inkişafı üçün

tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsinin əhəmiyyətini vurğuladılar. 1919-20 tədris ilində xaricdə təhsil almağa göndəriləcək tələbələr barədə Azərbaycan Cümhuriyyəti Parlamentinin "Xaricdə təhsil almağa göndərilən azərbaycanlı tələbələrə vəsait ödənilməsi haqqında" qərarı ilə bu iş üçün dövlət xəzinəsindən xalq maarifı nazirliyinin sərəncamına 7 milyon manat vəsait ayrıldı.

**Azərbaycan Cümhuriyyəti Ensiklopediyasının ikinci cildində bu barədə daha müfəssəl məlumatlar verilib. Bu məlumatların arasında smeta xərcləri də nəzərdə tutulmuşdu:**

"Avropa ali məktəblərinə göndərilən hər tələbəyə ayda 400 frank təqaüd və 1000 frank yol xərci, Rusiya ali məktəblərinə göndəriləcək tələbələrə isə hər ay 3 min rubl təqaüd və 1000 manat yol xərci ayrılmalı idi. Xaricə göndəriləcək tələbələri seçmək üçün Xalq Maarifı Nazirliyi yanında Məhəmməd Əmin Rəsulzadə (sədr), Əhməd bəy Pepinov, Qara bəy Qarabəyli, Mehdi bəy Hacınski və Abdulla bəy Əfəndizadədən ibarət çox nüfuzlu münsiflər heyəti yaradıldı. Münsiflər heyətinin diqqətlə seçdiyi tələbələrdən 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə göndərilməsi nəzərdə tutulurdu. Nəticədə isə Xalq Maarifi Nazirliyi tərəfından xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransnın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verildi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmamışdı. Xaricə göndərilən tələbələr 1920 il yanvarın 14-də Parlament və

Hökumət üzvlərinin, tanınmış xeyriyyəçilərin, iş adamlarının, din xadimlərinin, ictimaiyyət nümayəndələrinin və valideynlərin iştirakı ilə təntənəli surətdə yola salındılar. Tələbələrin Batuma getmələri üçün xüsusi vaqon ayrılmışdı. 1920 il fevralın 11 -də Parisə çatan tələbələr burada Paris Sülh Konfransında (1919-20) iştirak edən Azərbaycan nümayəndə heyəti tərəfindən hərarətlə qarşılandı. Nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov tələbələr qarşısında böyük nitq söylədi. Bundan sonra tələbələr təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə yollandılar".

Amma səd heyf… Cümhuriyyətin tez bir zamanda bolşevik istilaçıları tərəfindən işğal edilməsi bir çox böyük arzular kimi bunu da yarımçıq qoydu. 1920-ci ilin aprelində süquta uğrayan Hökumətin 100 tələbəsi taleyin ümidinə qaldı. Çətinliklər bundan sonra başlayacaqdı.

Azərbaycan Cümhuriyyəti Hökumətinin belə diqqətlə seçərək, böyük ümidlərlə xarici ölkələrin ali məktəblərinə yola saldığı bu tələbələrin taleyi Aprel işğalından (1920) sonra çox acınacaqlı oldu. Ölkənin bolşevikləşdirilməsi nəticəsində vəziyyət kəskin şəkildə dəyişdi. Tələbələrə pul göndərilmədi. Onlar bu barədə Nəriman Nərimanova müraciət etdilər. Azərbaycan İnqilab Komitəsinin 1920 il avqustun 9-da Nəriman Nərimanovun şəxsi təşəbbüsü və sədrliyi ilə keçirilən iclasında keçmiş Azərbaycan Hökumətinin xaricə göndərdiyi tələbələrin təhsillərini başa vurması üçün vəsait buraxılması və ümumiyyətlə, onlara maddi yardım göstərilməsi məsələsi müzakirə edilərək, müsbət qərar qəbul olundu və xaricdə oxuyan tələbələrə lazımi maddi kömək göstərilməsi yollarının müəyyənləşdirilməsi və

göndərilməsi məsələlərinin həlli xalq maarifi və xalq xarici işlər komissarlıqlarına tapşırıldı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri kimi Nəriman Nərimanov xaricdə təhsil alan azərbaycanlı tələbələrə yardımın davam etdirilməsi haqqında xüsusi qərar imzaladı. Nəriman Nərimanov hələ 1919-cu ildən xaricdə oxuyan azərbaycanlı tələbələrin işinə məşğul Bəhram Axundovu 1921-ci il iyunun 18-də xaricdə oxuyan azərbaycanlı tələbələrin işləri üzrə xüsusi müvəkkil təyin etdi. Həmin il iyulun əvvəllərində B.Axundov xaricdə oxuyan azərbaycanlı tələbələrin maddi vəziyyətini öyrənmək və onlara əməli köməklik göstərmək üçün azərbaycanlı tələbələrin oxuduğu Qərbi Avropa ölkələrinin paytaxtlarına ezam olundu. O, bütün maneələri dəf edərək, yalnız həmin il oktyabrın axırlarında Parisə gəlib çata bildi. 1922 ilin yanvarına qədər Paris, Berlin və Avropanın digər şəhərlərinə səfər edən B.Axundov Fransanın müxtəlif məktəblərində 28, Almaniyanın ali məktəblərində 49, İtaliyada 3 nəfər tələbənin oxuduğunu müəyyənləşdirdi. Bakıya qayıtdıqdan sonra, o, 1922 il martın 2-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun adına əhatəli hesabat təqdim etdi.

**Bundan sonra gözlər Nərimanovda idi. O, 100 tələbənin taleyini həll edəcək qərar verməli olacaqdı. “Azərbaycan tarixi” yeddi cildliyinin Cümhuriyyətə həsr olunan sonuncu cildində bu haqda oxuyuruq:**

“Bu hesabat əsasında Nəriman Nərimanovun şəxsi göstərişi ilə xaricdə oxuyan tələbələrə təhsillərini müvəffəqiyyətlə davam etdirmələri üçün lazımi şərait yaradılması tapşırıldı. 1922 ilin sonlarında Nəriman Nərimanov Moskvaya işə keçirildikdən sonra, xaricdə oxuyan tələbələrə münasibət yenidən dəyişdi.

Xaricdə oxuyan tələbələr "sədaqətli" və "sədaqətsiz" adı ilə iki qismə bölündü. Onlara münasibət də bu yöndə quruldu. Nəticədə, təhsil haqqını ödəyə bilməyən tələbələrdən gündəlik çörəyə möhtac olaraq, ən ağır şəraitdə işləmək məcburiyyətində qalanlar, həbsxanalara düşənlər, hətta böhranlı vəziyyətdən çıxış yolu tapmayaraq, intihar edənlər də oldu. Çox çətinliklə təhsilini başa çatdırıb, yüksək ixtisaslı mütəxəssis kimi vətənə qayıdan tələbələrin əksəriyyəti isə sonralar "qırmızı terror"un qurbanı oldular".

**Qeyd: Yazıda Ədalət Tahirzadə və Oğuztoğrul Tahirlinin "Azərbaycan Cümhuriyyəti tələbələri", Azərbaycan Cümhuriyyəti Ensiklopediyası və "Azərbaycan tarixi"nin yeddinci cildindən istifadə edilib.**

## Cümhuriyyətin baş nazirlərinin sirli qətli

Azərbaycan ideyasına siyasi məna verən, müstəqillik savaşının ideoloqu, Azərbaycan Cümhuriyyətində iki dönəm baş nazir vəzifəsini yerinə yetirən Nəsib bəy Yusifbəylinin həyat və fəaliyyəti təəssüf ki, geniş tədqiqatdan kənardadır. Çox sadə həyat tərzi keçirən, Odessada hüquq təhsilini yarımçıq buraxıb Türkiyədə və Azərbaycanda hürriyyət savaşına qatılan Nəsib bəyin ailə hekayəti də kifayət qədər maraq doğurur.

Çox qısa, cəmi 39 il ömür sürən Nəsib bəyin İsmayıl Qaspiralı kimi böyük şəxsiyyətin qızı Şəfiqə xanımla evliliyi, ailəsi və övladlarının taleyi sanki bir savaşla üz-üzə qalıb. Görünür, böyük amallar uğrunda savaşanların taleyi, ailə həyatı da qalmaqallardan mübarizələrdən gəlib keçir.

**Nəsib bəyin qatili kimdir?**

Nəsib bəyin ölümü də müəmmalarla doludur. Hətta nəinki ölümü, ölümündən sonrakı "həyatı" da, yəni, məzarının harada olması, harada dəfn edilməsi ilə bağlı versiyalar da dəqiq deyil. Nəsib bəyin qətli ilə bağlı öncə araşdırmaçı-jurnalist Akif Aşırlının bir məqaləsindəki faktlara diqqət edək:

"Azərbaycan Cümhuriyyəti lideri N.Yusifbəylini qətlə yetirənlər yanlış informasiyalar yaymaqla məşğul olurlar. İz azdırmaq üçün guya N.Yusifbəylinin ac-susuz İstanbulda, sərkərdan gəzdiyi şayiəsini ortaya atırlar. Şəfiqə xanım isə övladlarının atası barədə həqiqətləri öyrənməyə çalışır. İstanbulda təsadüfən Nəsib bəyin sürücüsü ilə qarşılaşır, onu sorğu-suala çəkir və qətlin təfərrüatını öyrənir. N.Yusifbəyli Yevlaxda dostu Cümhuriyyət parlamentinin üzvü Qarxunlu Əşrəf bəyin evindən ayrılıb Gürcüstana keçmək istəyərkən Kürdəmir ətrafında bolşevik xəfiyyələri tərəfindən qətlə yetirilir. Sürücü yaralı halda qaçmağa macal tapır.

Qətlin bolşeviklər tərəfindən deyil, Nəsib bəyin öz əqidədaşı, Qarxunlu Əşrəf tərəfindən tamah məqsədilə törədildiyi xəbəri yayılır. Bolşevik xəfiyyələri tərəfindən uydurulan bu şayiə günümüzədək gəlib çıxır və Nəsib bəyin qətlinin öz əqidədaşı tərəfindən həyata keçirildiyi bəzi tədqiqatçıların, o cümlədən Mövsüm Əliyevin yazılarında əks olunub. Tarixi araşdırıcı Şəmistan Nəzirli uzun tədqiqatdan sonra, həqiqəti ortaya çıxarır. Qətlin Qarxunlu Əşrəf bəy tərəfindən törədilmədiyi məlum olur.

**Başqa müəmmalı versiyalar-sənədlərin dili ilə…**

Yazımızı bir araşdırmaçının qeydləri ilə məhdudlaşdırmaq istəməzdik. Belə ki, Nəsib bəyin qətli ilə bağlı başqa versiyalar da var. Firdovsiyyə Əhmədovanın "Nəsib bəy Yusifbəyli" toplusunda, eləcə də araşdırmaçı Nazif Qəhrəmanlının Nəsib bəyin

ölümü ilə bağlı hazırladığı araşdırma yazısında baş nazirin qətli ilə bağlı bir neçə versiyalar var:

1992-ci ildə "Odlar yurdu" qəzetində yazılan yazıya əsasən, Nəsib bəyin qohumu Nağı bəy Xasməmmədov onun qatili sayılan Qarxunlu Əşrəflə 1932-ci ildə həbs düşərgəsində eyni kamerada qalıblar. Nağı bəy o zaman Əşrəfin dindirilməsinin şahidi olur və xatirələrində o barədə bunları deyir: "Əşrəf söyləyirmiş ki, guya, xəbərlər gəlir ki, Nəsib bəy Kürdəmirdən faytonla keçib gedəcək. Özü ilə AXC xəzinəsindən külli miqdarda pul da götürüb. Əşrəf pusquda durur və Yevlax meşəsində Nəsib bəyi qətlə yetirir. Ancaq sakvoyajda pul olmur".

Digər versiyada isə Nəsib bəy Əşrəfin evində qonaq qalır və o, gecəikən Nəsib bəyi qətlə yetirir. Meyidini isə Kür çayına atır. Yenə də heç bir pul tapa bilmir".

Araşdırmaçı alim Asif Rüstəmovun Azərbaycan Dövlət Arxivində tapmış olduğu bir rəsmi sənədə əsasən, Nəsib bəyin ölümü ilə bağlı daha bir versiya üzə çıxdı. Rus dilində olan bu sənəd Gürcüstan hökuməti tərəfindən Azərbaycan sovet orqanlarına göndərilmişdi. Hərb tarixçisi, publisist Şəmistan Nəzirli özünün "Qarxunlu Əşrəf bəy" povestində bu sənədə əsaslanaraq, Nəsib bəyin qatilinin Əşrəf olmadığını bildirir. Həmin sənəddə yazılır:

"Tiflisdə şənbə günü 1920-ci ilin iyun ayının 19-da saat 9-a yaxın Olginski küçəsinin başlanğıcında mauzerdən açılan atəş nəticəsində Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli öldürülmüşdür. Qətldə günahlandırılan 8 nəfər şəxs Gürcüstan hökuməti tərəfindən saxlanılmışdır".

Asif Rüstəmli isə özünün "Əbədi istiqlal" kitabında sənəddəki həmin məlumatın "Kommunist" qəzetinin 1920-ci il 22 iyun sayından götürüldüyünü qeyd edib.

Göründüyü kimi, Nəsib bəyin ölümü ilə bağlı versiyalar çoxdu. Bu zaman haqlı olaraq, belə bir sual ortaya çıxır? Necə qətlə yetirilməsindən asılı olmayaraq, Nəsib bəyin məzarı haradadır? Doğrudanmı, onun cəsədi Kür çayına atılıb? Yaxud, haradasa, gizlin dəfn edilib?

Əvvəlcə onu deyək ki, Nəsib bəyin Fətəli xanla birgə öldürülməsi versiyası tamamilə yanlışdır. Çünki Fətəli xan 1920-ci ildə qətlə yetirilməzdən əvvəl onun yanında yalnız bir nəfər olub-Cümhuriyyət rəsmisi və səfiri Xəlil bəy Xasməmmədov. Onlar Tiflisdəki opera teatrının yanından keçərkən, erməni terrorçuları ilə üzə-üzə gəlirlər. Ermənilərin atdığı atəş nəticəsində Fətəli xan ölür, Xasməmmədov isə ağır yaralanır. Nəsib bəy Yusifbəyli bu ikilinin yanında olmayıb ki, onların aqibətini yaşasın.

Həmçinin, Fətəli xan qətlə yetirildikdən sonra Tiflisdəki müsəlman qəbiristanlığında dəfn edilib. Onun ölümündən bir il sonra sabiq AXC naziri Həsən bəy Ağayev də Tiflisdə erməni qulduru tərəfindən qətlə yetirildi. Həsən bəy Ağayevin də ADR-in hökumət üzvlərindən biri olduğunu nəzərə alıb, onu Fətəli xanın yanında dəfn etdilər. Buradan da belə nəticəyə gəlmək olar ki, əgər baş nazir Yusifbəyli Fətəli xan Xoyski birliklə qətlə yetirilsə idi, bu məntiqlə onları yanaşı dəfn edərdilər. Təəssüf ki, Nəsib bəyin məzarının yeri indi də məlum deyil.

**Bir aktyorun etirafları - Canverən Xoyski...**

Fətəli xan Xoysinin ölümü ilə bağlı bir başqa mənbə isə məşhur aktyor Mustafa Mərdanovun yazdığı “50 il Azərbaycan səhnəsində” xatirələr kitabıdır. “O olmasın, bu olsun” filmində Məşədi İbada “meymun” deyən, onu şikayət etmək istəyən, hər zaman sərxoş olan “fransızdilli” Həsən bəy rolu ilə tanınan aktyor sən demə, sənətdən savayı işlərlə də məşğul olub. Onu hətta

Xoyskinin ölümündə də günahlandırırlar. Adıçəkilən əsərdən bir parçaya diqqət edək:

"1920-ci ildə mən siyasi idarə tərəfindən Azərbaycanda ilk dəfə təşkil edilən "Təşviqat qatarı"nın rejissoru, sonra isə komissarı vəzifəsinə təyin olundum.

...Elə bu vaxt məni mühüm bir tapşırıqla Gürcüstana yolladılar. Gürcüstanın gizlicə çalışan kommunist fəalları ilə görüşməli idim. O vaxt Tiflisdə menşeviklər ağalıq edirdilər.

Vəsiqələrim düzgün idi. Buna baxmayaraq, Tiflisə çatmamış Nəftuluq stansiyasında düşüb şəhərə piyada getdim.

Üç gün ötdü. Mənə tapşırılan işləri qurtarmaq üzrə idim. Bir gün "Kazyonnu teatr"da "Aşıq Qərib"i oynayırdılar. Məndən xahiş etdilər ki, suflyorluq edim. Razılaşdım. İkinci pərdə bitəndən sonra tamaşaçıların yanına gəlib, tanış-tunuşla salamlaşırdım ki, bir də gördüm Ağayev deyilən bir nəfərlə menşeviklərin "Xüsusi şöbə" rəisi Paçuliya mənə yaxınlaşdılar.

"Tutun! Budur, Xan Xoyskini öldürən"-deyən Ağayev mənə bərk bir şapalaq ilişdirdi. Məni tüfənglə döyə-döyə teatrdan çıxarıb maşına mindirdilər və harasa apardılar.

Sonra öyrəndim ki, Müsavat partiyasının sədri Fətəli xan Xoyskini "Pikadilli" sirkinə girən zaman üç güllə ilə vurublarmış. Ağayev deyilən adam da məni Gəncəyə "Təşviqat qatarı" ilə gələndə görüb və iki gündür ki, güdürmüş.

Məni rəis Paçuliyanın kabinetinə gətirdilər. O, üstümə qışqırdı:

"Alçaq bolşevik! Yoldaşların kim idi? Söylə!

Onları inandırmaq istədim ki, heç nədən xəbərim yoxdu. İnanmadılar Məni yenidən maşına mindirib evimizə apardılar.

Axtarış başlandı. Evi alt-üst edilər. Xan Xoyski vurulan yerdə dəsmala bükülmüş mauzer patronları tapıldığına görə, evdə

nə qədər cib və üz dəsmalı var idisə, hamısını apardılar. Məni isə "Xüsusi şöbə"nin qaranlıq zirzəmilərindən birinə saldılar"....

... "Sonra üç nəfər məni maşına mindirib apardı. Hara getdiyimi bilmirdim. Nəhayət, maşın bir xəstəxananın qarşısında dayandı. Məni düşürüb Fətəli xan Xoyski yatan palataya apardılar. Gördüm ki, Xoyski can verir. Yanında olan bir azərbaycanlı isə hey başına döyüb ağlayırdı. "Azərbaycan məhv oldu, Azərbaycan məhv oldu,"- deyirdi.

Məni bura ona görə gətirmişdilər ki, can üstündə olan Xoyski ona mənim güllə atıb-atmadığımı təsdiqləsin. Lakin buna imkan olmadı. Xan Xoyski bir söz deməyib keçindi. Məni də yenidən maşına mindirib apardılar və zirzəmiyə saldılar".

Təssüf ki, böyük Xoyski qatilin kim olmasından asılı olmayaraq, dünyasını dəyişdi. Mustafa Mərdanov isə yenidən zirzəmiyə aparılandan sonra "Xüsusi şöbə"nin rəisi ilə cəmi bir dəfə görüşdü. Qısa zaman aralığında nə olmuşdusa, rəis Paçuliya onu mehriban qarşılamış və "ehtiyatlı ol" deyərək, azad etmişdi.

Küçədə isə Mustafanı atası gözləyirdi. Mustafanı görən kimi, rəis Paçuliyaya onu azad etmək üçün 100 qızıl pul rüşvət verdiyini söyləmək üçün...

## Nəm kamerada aclıq və işgəncə içində dünyasını dəyişən Cümhuriyyət naziri

*"Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində Camo bəy haqqında yazılır:*

"Camo bəy Süleyman oğlu Hacınski (1888-1942) - AR-in dövlət və siyasi xadimi. Peterburq Universitetinin hüquq

fakültəsini bitirib. Bir müddət "Kaspi" qəzetinin müxbiri olub. 1914-1915- ci illərdə Batumda və Bakıda qaçqın müsəlmanların işi üzrə komitənin səlahiyyətli nümayəndəsi kimi çalışıb. 1917-ci ilin aprel-iyul aylarında OZAKOM-un səlahiyyətli nümayəndəsi. Zaqafqaziya seymində Müsəlman sosialist blokunun və Azərbaycan parlamentində sosialist fırqəsinin üzvü olub. ADR zamanında - F.Xoyski kabinetində Dövlət nəzarətçisi (iyun 1918), N.Yusifbəylinin birinci və ikinci hökumət kabinəsində poçt və teleqraf naziri (aprel 1919 - mart 1920) kimi vəzifələrdə çalışıb. Sovet Azərbaycanında xalq ədliyyə komisarlığında işləyib, "Köybirliyi", "Azərittifaq"da. 20-30-cu illərdə siyasi motivlərə görə həbs olunub. Həbsdə ölüb.

Onu qeyd edək ki, Camo bəy Cümhuriyyətin ən gənc nazirlərindən biri olub. O, həbsdə çox ağır məşəqqətlər yaşayıb. Faciəvi şəkildə də dünyasını dəyişib. Bu barədə bir qədər sonra…

Hələlik isə, AXC-in süqutundan sonra Camo bəyin həbs olunması və dəmir məngənələr arasında sorğu-sual edilməsindən danışaq. Maraqlıdır ki, Camo bəyin həbsinin ADR ilə bağlı olması kimsədə şübhə doğurmur. Amma dindirilmələr zamanı onun əsasən, AXC-dən əvvəlki fəaliyyətinə, eser-menşeviklərlə ortaq işlərinə toxunublar:

Camo bəy Hacınski ilk dəfə 29 may 1922-ci il Az.SSR FK-nın müvəkkili Valik tərəfindən dindirilir:

**Sual:** - Ötən il sentyabr ayında Səfikürdskinin mənzilində SİP-in Bakı təşkilatının nümayəndələri ilə sizin, Feyzullayevin, Səfikürdskinin iştirakı ilə yığıncaq olubmu?

**Cavab: -** Bəli, biz Səfikürdskinin mənzilində Krestovski, Osintsev və soyadını bilmədiyim bir nəfərlə görüşmüşük. Mən oraya gələndə artıq bütün adı çəkilənlər oturub çay içirdilər. Mənə qədər nə barədə danışmışdılar, bilmirəm. Mənim yanımda

SİP- də təmayüllər barədə söhbət getdi. Bizdən, ümumiyyətlə Azərbaycanın qəzalarında əhalinin ovqatı barədə somşdular. Dedilər ki, fəhlələr arasında vəziyyət eserlərin xeyrinədir, ancaq onlar indi adamlar çatışmadığı üçün işləyə bilmirlər. Konkret iş barəsində danışmadılar, çünki bizə inanmırdılar. Onlar bizə ədəbiyyat təqdim etdilər.

**Sual:** - Bundan sonra toxunulan məsələlər barəsində ancaq müsəlmanların ayrı yığıncağı keçirildimi?

**Cavab:**- Bəli, Qaraşarlının mənzilində biz dördümüz toplaşdıq. Mənə və Feyzullayevə həvalə edildi ki, eserlərin konkret nə təklif etmək istədiklərini aydınlaşdıraq. Mən Feyzullayevə dedim Krestovskiyə çatdırsın ki, hələlik onunla görüşmək istəmirəm. Görünür Feyzullayev çatdırmışdı və daha heç kim mənə müraciət etmədi.

**Sual:** Sizin müsəlman qrupu yaratmaq niyyətiniz olubmu?

**Cavab:** Azərbaycanın iki sosialist partiyasının çoxdan mövcud olmasını nəzərə alaraq vahid partiyanın yaradılmasını məqsədəuyğun hesab etdilər. Deyəsən bu barədə Pepinov və Ağamalıoğlu danışdılar.

**Sual:** Sizə Lənkəranda müsəlman eserlər qrupunun fəaliyyət göstərdiyi məlumdurmu?

**Cavab:** Mən Feyzullayevdən eşitmişdim ki, Krestovski orada hansısa müsəlmanlarla əlaqəyə malikdir. Orada hansı işləri, kimin bayrağı altında görüblər mən bilmirəm.

**Sual:** Siz Moskvadan ədəbiyyatı necə əldə etmisiniz?

**Cavab:** Təqribən 1921-ci ilin sentyabr-oktyabr aylarında yanıma komissarlığa türk təbəəsi Behcət Abaşidze adlı birisi gəlib, məni tapmamışdı. İşdə mənə bu barədə dedilər və mən onun mənzilinə getdim. O, qəzetə bükülmüş zərf, Şterninin mənə yazdığı şəxsi məktubu, Olqa Stepanovnanın adına iki məktub.

"Doktor"a məktub və içində pul olan məktub verdi. Həbs ediləndən sonra bildim ki, Olqa Stepanovna elə Samorodovadır.
Sual: Sizə eserlərin həbs ediləcəyi məlum idimi və bunu haradan bilirdiniz?

Cavab: Mən Feyzullayevə dedim ki, Krestovskiyə görüşdən imtina etdiyimi və eserləri həbs edilə biləcəklərini çatdırsın ki, qoy onlar ehtiyatlı olsunlar."

**(*Qaynaq: Lətif Şüküroğlu "Cümhuriyyət hökuməti repressiya mənqənəsində"*)**

Yuxarıda adını çəkdiyimiz araşdırmaçı Lətif Şüküroğlu C.Hacınskinin arxivini araşdırarkən çox faciəvi faktların şahidi olub:

"Onun arxiv-istintaq işində birinci dəfə həbs olunduğu dövrlə əlaqədar maraq doğuran sənədlər arasında biri diqqətimi xüsusilə cəlb etdi. Sosialist inqilabçılar partiyası Zaqafqaziya təşkilatının işi üzrə məhkum edilmiş və Butırsk həbsxanasında saxlanılan 12 nəfər məhbus tərəfindən yazılmış həmin ərizə bu şəxslərin ən ağır şəraitdə belə öz hüquqlarını müdafiə etməkdən çəkinmədiklərini göstərməklə yanaşı sovet rejiminin demokratik düşüncə tərzinə malik insanlara qarşı hər cür təzyiq üsullarına əl atdığını üzə çıxarmaq baxımından da əhəmiyyətlidir: "10 dekabr 1922-ci ildə biz Azərbaycan Ali İnqilabi Tribunalı tərəfindən müxtəlif müddətlərə sərt təcridetmə tətbiq olunmadan azadlıqdan məhrum edilmişik. 11 aprel 1923- cü ildə biz doğma şəhərdə verilmiş müddəti başa çatdırıb ailələrimizdən ayırılıb Moskvaya Butırsk həbsxanasına göndərildik. Burada həbsxananın müdriyyəti mövcud rejimin onsuz da sərt olmasına baxmayaraq, bizə münasibətdə göstərilən sərt mövqeni gündən-günə daha da sərtləşdirməkdədir və bunu guya həbsxananın istintaq üçün nəzərdə tutulduğu ilə izah edir. Bizə bayırdan heç

bir barat çatdırılmır. Bizə iki həftədir ki, verilməli olan ərzaqlar belə çatdırılmır, halbuki müəyyən olunmuş qaydaya görə hər beş gündən bir ərzaq verilməlidir, həm də həmin ərzaqların öz vəsaitimizlə alınması üçün şərait yaradılmır. Yalnız həkimin xəstələrin vəziyyəti ilə bağlı yoxlamasından sonra, özü də təkcə xəstələrə şəxsi vəsaitləri ilə ağ çörək almağa icazə verildi. Bizə az-çox yararlı yemək verilməli olduğu halda, çoxsaylı bəyanatlarımıza baxmayaraq bu sahədə heç bir dəyişiklik baş verməyib. 22 gündür ki, heç bir yağlı yemək almırıq, halbuki bizim üçün mətbəxdən yağ ayrılır. Sizdən aşağıdakı məsələlərin yerinə yetirilməsini xahiş edirik: l.Uzun müddətə məhkum edilmiş şəxslər kimi bizi hər birimizin məşğul olmasının mümkün olduğu və quru kameralarda yerləşdirsinlər, indi hamımız nəm kamerada saxlanılırıq. 2. Biz burada saxlanılan sosialist yoldaşlarımızla birləşdirilməyi tələb edirik. 3.Gəzinti müddəti uzadılmalıdır, indiki 1 saat kifayət deyil. 4.Ərzaq təminatının yaxşılaşdırılmasını tələb edirik. 5.Həbsxana müdiriyyətinin bizimlə nəzakətlə davranmasını tələb edirik. 6.Tamamilə yolverilməz və qəzəbləndiricidir ki, zəruri ehtiyacların ödənməsi üçün çıxmağa da icazə vermirlər. 7.Bizə həqiqi tibbi xidmət göstərilməsini tələb edirik. 8.Məktub, baratın ayda bir dəfə göndərilməsi bizi qane etmir, büna görə də onların sayının artırılması arzu olunur. Bütün bu tələblərin yerinə yetirilməsi ona görə vacibdir ki, iki il ərzində bu həbsxanada sağlamlığını xeyli dərəcədə itirmiş bizlər əlil olmayaq. Bizim 11 may 1923-cü il bəyanatımıza cavab olaraq bizə baş çəkəcəyinizə, qeyri-müəyyən vəziyyətimizi aydınlaşdıracağınıza vəd vermişdiniz, ancaq vədinizi yerinə yetirmədiniz. Mayın 15-nə qədər də gəlmədiniz. Buna görə də bu gün səhərdən (15 may) biz tələblərimizin yerinə yetilmədiyi vaxta qədər aclıq elan edirik. 12-ci dəhliz, otaq 52.”

Bu şəxslərin arasında Hacinski və Səfikürdski də vardı…

## Hüseyn Cavidin həbs olunduğu gecə üzünə duran nasir və onu ələ salan tələbə

### “Tabut” maşının-Qara “EMADİN”-in növbəti qurbanı

Yay vaxtıdır. Daha dəqiq desək, qanlı 1937-ci ilin 3 iyun gecəsidir. Amma işıqları sönən əksər evlərdə hakim olan səksəkə, qorxu heç kimi yatmağa qoymur. İnsanlar hər ayaq səsindən, hər maşın siqnalından diksinirlər. “Görəsən, bu dəfə kimi aparacaqlar” deyə düşünürlər. Qara “EMADİN” özünü Cavid əfəndi üçün gecikdirmir. Elə həmin 3 iyun gecəsi balaca evin daxması döyülür. (Həmin ev hazırda Əlyazmalar İnstitutunun yerləşdiyi binada Hüseyn Cavidin ev-muzeyi kimi qorunur) Əvvəlcə, Cavid əfəndi, sonra isə Müşkünaz xanım səksəkəli halda oyanır. Qapını açan şair DTX leytenantı Pavlovun idbar sifəti ilə qarşılaşır. Vəssəlam, bu da son... Artıq hər şey məlum idi. “Evinizdə axtarış aparmalıyıq” deyilir və içəri hərbi formada olan başqa bir neçə nəfər də daxil olur. Nə axtarış? Bu balaca, ikigözlü evdə nə olacaqdı ki, guya? Məram-məqsəd hamıya aydın idi. Cavid əfəndinin sümüyü səksənir. Bir-birini əvəz edən danlaq dolu iclasları, haqqında yazıları danosları gözünün önünə gətirir. “Axtarın, axtarın, hər yeri axtarın” deyə qışqıran Pavlovun səsi onu yenidən bu dar otağa qaytarır. Pavlov və qulbeçələri guya nəyisə tapırlar: Cavid əfəndinin əlyazma və məktubları, yazı üçün mürəkkəbqabı, qələm, kağızlar, 8 manat 56 qəpik də pul. Vəssəlam, şüttəmam. Yalandan nəyisə yazır, guya protokollaşdırırlar. Artıq uzatmağın bir mənasının da olmadığını görüb Cavid əfəndiyə hazırlaşmağını və onlarla gəlməyini buyururlar. Yalnız

indi eynəyini gözünə taxa-taxa, yuxulu halda otağa gələn oğlu Ərtoğrul nələrin baş verdiyini anlamır. Qızı Turan isə şirin-şirin yatır. Beləcə, böyük Cavid əfəndi bu otağı tərk edir...

Həbs olunan zaman evindən tapılan "külli miqdarda" məbləğ - 6 manat kağız, 18 ədəd gümüş pul, bir də kitablar tapılan şairin "günah"ını təsdiqləmək üçün əsaslı dəlillər az idi. Bu səbəbdən, əvvəllər də etdiləri bir "qəhrəmanlığı" etməli idilər – yəni, bir ziyalının üzünə mütləq başqa ziyalını duruzdurmalıydılar. Lazımı şəxs üçün çox da var-gəl etmirlər.

**Sibirə aparan "Duel"**

Çünki qorxu məngənəsində saxladıqları ziyalılardan çoxusunu soyuq DTK zindanlarında işgəncələrlə bu işə asanlıqla məcbur edə, yaxud da, hələlik azadlıqda olan bir aydını məhz qara zindanla qorxudub istədiklərinə nail ola bilərdilər. Bu dəfə ikinci məqama üstünlük verirlər və vaxtilə Hüseyn Cavidlə birgə işləmiş Mikayıl Rzaquluzadənin dostu ilə "duel"ə çağırırlar:

**Araşdırmaçı Aslan Kənan özünün repressiya qurbanlarından bəhs edən həddindən artıq maraqlı tədqiqat kitabında bu barədə yazır:**

"13.03.1938-ci ildə "Azərnəşr-"də tərcüməçi işləyən, şair Mikayıl Rzaquliyevi dindirmək üçün DTK-ya dəvət edirlər. Bu təsadüfi çağırış deyildi. Artıq onlara məlum idi ki, H.Cavid, M.Müşfiq və başqaları haqqında Yazıçılar İttifaqında müxtəlif fikirlər formalaşmaqdadır. Bunu yaxşı dərk edən xüsusi şöbənin əməkdaşları ittifaqın üzvlərindən istifadə etməyi qarşılarına məqsəd qoyurlar...

Rzaquliyev DTK-nın zirzəmisindəki izahatında aşağıdakıları deməyə məcbur edilir:

"H.Cavidlə 1926-cı ildən tanış olsam da, lakin onunla 1933-cü ildən yaxınlıq etmişəm. H.Cavidlə yaxınlıq etdiyim gündən bir əksinqilabi, burjua-millətçi kimi tanımış, o ədəbi yaradıcılığını Türkiyəyə tərəf yönəltdiyini bildirmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulanda H.Cavid yazıçı, şair və dramaturq kimi yazılarında sovet həqiqətlərini düzgün əks etdirmir, əsərlərini bir əksinqilabi, millətçilik ruhunda qələmə alaraq, sovet mövzusunun əksinə yönəldirdi. O, "Peyğəmbər", "İblis", "Siyavuş", "Topal Teymur" və s. kimi əsərlərini panislamizm, pantürkizm şəkildə yazmış, osman idealogiyasını həmişə tərifləmişdi. Onun bu əsərlərini Türkiyə mətbuatı xüsusi diqqət mərkəzində saxlayırdı. H.Cavid "İblis" əsərində Türk ordusunu tərifləyib. H. Cavidi xırda burjua şairi adlandıranda əsəbiləşər və deyərdi ki, o görkəmli burjua şairidir. Yazıçılar İttifaqı və başqa təşkilatlar ondan tələb edirdilər ki, sovet dövründən yazsın. Lakin o etiraz edərək, böhtancasına təsdiq etməyə çalışırdı ki, guya sovet ölkəsində daimi qəhrəman yoxdur, onlar hər an dəyişirlər. H.Cavidə öz bədii yaradıcılığında dəyişiklik etmək məsləhət bilinsə də o əksinqilabi, millətçi baxışları ilə "mən çəkməçi deyiləm və sifariş qəbul etmirəm"-deyərək, sovet mövzusunda əsərlər yazmaqdan imtina edirdi. H.Cavid mənimlə hər söhbət edəndə ÜİK(b)P və Sovet dövlətinə qarşı böhtanlar atar, Azərbaycan ədəbiyyatına və onun yaradıcılarına "rusifikasiya" siyasəti apardığını qeyd edirdi."

Çox təəssüf ki, özünü Sibirdən qorumaq üçün başqasını Sibirə yollatmağa məcbur olan Mikayıl həmin açıqlamadan 17 il sonra təhlükəsizlik zabitlərinə başqa məzmunda açıqlama verdi. Təbii ki, Cavidi bir şair və şəxsiyyət kimi təriflədi:

"Müstəntiq 1938-ci ildə M.Rzaquliyev tərəfindən verilmiş cavablara münasibətini bilmək istəyəndə məlum olur ki, onun

nə dediyi yadında deyil. Ona H.Cavidin əksinqilabi, millətçi fəaliyyəti haqqında heç nə məlum olmadığını, ümumiyyətlə o ifadələrin müstəntiq tərəfindən dəyişdirildiyini iddia edirdi.

Sonda isə 13.03.1938-ci ildə yazılı fikirlərinin tam əleyhinə olduğunu bildirir.

**Repressiyadan əvvəlki repressiya**

Qara EMADİN Hüseyn Cavidi 1937-ci 1937-ci ilin 3 iyun tarixində evindən aparıbsa, bu o demək deyil ki, dahi dramaturq məhz həmin gün repressiya olunub. Cavidin mənəvi repressiyası uzun aylar idi ki, davam edirdi. Bu gün də adı ədəbiyyat tarixində qalmayan sədr Seyfulla Şamilov və əlaltıları bütün iclaslarda onu haqsız surətdə tənqid edir, barəsində daha sərt tədbir görülməsi üçün əllərindən gələni əsirgəmirdilər. Bu minvalla partiyadan, ittifaq sıralarından çıxarılan Cavid sonradan işdən də azad edilir. Ailənin səfalətli günləri bundan sonra başlayır. Həm də Cavid əfəndiyə əvvəllər hörmət bəsləyən şəxslər sonradan ya qorxularından, ya da hansısa səbəbdən bunun tam əksinə hərəkət etməyə başladılar. Hüseyn Cavidin həyat yoldaşı Müşkünaz xanım özünün xatirələrində bu barədə maraqlı bir faktı səsləndirir:

“Cavid sevmədiyi adamlarla oturub-durmaq istəməzdi. Bir dəfə söhbət zamanı dedi:

-Bilmirəm nə sirdi, Şaiqin tələbələri (maarifçi, şair Abdulla Şaiqi nəzərdə turur) yüksək vəzifələr tutur, hətta xalq komissarları olurlar. Ancaq mənim tələbələrim arasından nədənsə vəzifəcə böyük adamlar çıxmır. Sonra da bir tələbəsindən danışdı:

-Mən bu adama beş-altı ay dərs demişəm. Gözlərim bərk ağrayırdı. “Tatarski” küçəsində yaşayırdıq. İşsiz qalmışdım,

vəziyyətim də çox ağır idi. Metropol mehmanxanasının yanından keçirdim. Həmin tələbəmlə rastlaşdıq. Əynində xəz palto var idi. Salam vermədən mənə dedi:

-Cavid (!) nə düşmüsən, boş-boş küçələri gəzirsən? Gedib bir yerdə işə girsənə?

Elə bildim ki, mənə güllə vurdu. Cavab vermədən kədərli halda yoluma davam etdim".

## Ceyhun Hacıbəylinin Üzeyir bəyə məktubu: " Borclular məni əldən saldı, arvadımdan çox utanıram"

Üzeyir bəy Hacıbəyli kimi ictimai xadim, dahi musiqiçi haqqında nə qədər danışılsa, nə qədər yazılsa azdır.

Bəyin musiqiçi və maarifçi kimi fəaliyyəti kifayət qədər araşdırılıb. Amma onun həyatı, xüsusən də uşaqlığı haqqında yenə də bilməli olduğumuz məqamlar çoxdur.

Təqdim edəcəyimiz qısa yazıda Üzeyir bəyin uşaqlıq yox, ağır gənclik illəri haqqında iki kədərli epizodu diqqətə çatdırılacaq. Həmin faktları birləşdirən ümumi səbəb var: Üzeyir bəy və ailəsinin çəkdiyi ağır maddi sıxıntı....

Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini Aslan Kənan Üzeyir bəyin həqiqətən də, maddi durumunun çox ağır olduğunu, böyük ailənin məsuliyyətinin onun çiyinlərində cəmləşdiyini bildirir. Çünki, Üzeyir bəy 1905-ci ildə bütün qardaş-bacılarını, yaşlı anasını, hətta əmisi uşaqlarını da özünün Bakıdakı evinə gətirmişdi. Onların sosial təminatı isə çox ağır idi:

"Üzeyir bəy 1912-ci ildə Peterburqda təhsil alırdı. O zaman kiçik qardaşı Ceyhun bəy Bakıda yaşayırdı. Həmin ərəfədə

Üzeyir bəyə belə bir məktub yazır. Məktubda onların ailəsinin necə ağır bir durumda yaşadığını görmək olar:

*"Borclular məni əldən saldı. 30 manat "Kaspi"dən avans almışdım, o da getdi. Zulyanın (arvadı Zöhrə xanımı nəzərə tutur) məvacibinin həpsi də getdi. Amma yenə də düzəlmir. Mən Zulyadan utanıram. Yazığın vallahi geyməyə paltarı, yatmağa dəxi təxti yox. Amma külfət üçün pul tapır".*

Bu məzmunda məktublar çox olub. Bu onu göstərir ki, Hacıbəyli ailəsi həqiqətən də, çox kasıb yaşayıb. Üzeyir bəyin böyük bacısının oğlu Camal 1913-cü ildə dayısına yazır:

"Dünən Müslüm (bəstəkar Maqomayevi nəzərdə tutur) Nicatdan (Nicat Cəmiyyəti) 150 manat alıb mənə 75 manat verdi. Dedi ki, qalanını sizə göndərəcək. Bir qismini də Pənah mənə kağız yazıb, deyib, pulum yoxdur, mənə pul göndər, ona yollayacağam. (Pənah həm Müslümün, həm də Üzeyir bəyin bacanağı olub)

Daha sonra Camal Müslümün onlara göndərdiyi həmin 75 manatı öz borcları üçün bölür və bu bölgünü Üzeyir bəyə məktub halında yazır:

*"Bu puldan 10 manat nöyütçüyə, 13 manat 80 qəpik çörəkçiyə filan qədər də başqa adama verəcəyik. Ümumi dükançıya 42 manat, südçüyə 3, suçuya 8, çörəkçiyə 10 manat borcumuz qaldı. Lombarda qoyulan qızıllar da cəmi 35 manat edir. Bütün xərclər 156 manat edir. Bunların hamısı 16 baş külfətə sərf olunur".*

Hacıbəylinin ailəsi böyük idi. Əmisioğlu İsmayıl Hacıbəyovu da gətizdirmişdi. O da ailəsi ilə birlikdə onlarla yaşayırdı. Məşhur bəstəkar Soltan Hacıbəyov İsmayılın oğludur.

Bu epizodda Üzeyir bəy hələ gəncdir. Min bir çətinlik hesabına Peterburqda bəstəkarlıq təhsili alır. Amma sonradan onun maddi durumu qismən də olsa düzəlir. Həm yaxşı yerlərdə işlə təmin olunur, həm də opera və operettalarından yaxşı pul qazanır. Amma yenə də onun könlünü sıxan maddi problem meydana gəlir. Bu, qürbətdə yaşayan qardaşı Ceyhunla bağlıdır. Fransada mühacir həyatı sürən Ceyhun heç bir iş tapa bilmir. Bütün ehtiyatları tükənir. Övladını oxuduğu pullu məktəbdən xaric edirlər. Belə bir vaxtda Ceyhunun arvadı Zöhrə xanım Üzeyir bəyə ondan gizli məktub  yazır. Məktub Üzeyir bəyi çox kövrəldir və birbaşa qardaşına belə bir cavab göndərir:

"Zöhrənin məktubları gəlib bizə çatdı. Ceyçikin (Ceyhunun oğlu) kefsizliyi və sənin əsəbiliyin bizi çox qəmgin etdi. Fəqət bir qəm-qüssə ilə il keçməz olduğunu bildiyimiz üçün qət etdik ki, sizə "realnı" dəstək olaq. Zülfüqarla (bəstəkarın qardaşı) məsləhətləşib məsələnin həllini üç qismə böldük: birinci, sizə hər ay "requlyarnı" yardım göndərəcəyik. İkincisi, sizin buraya gəlmək məsələnizdi. Üçüncüsü, mənim "zaqranitsa"da ali musuqi təhsilimin bir qədər təxir edilməsidir.

Birinci qismi biz Zülfüqarla öz boynumuza götürdük və qərara gəldik ki, sənin etirazına baxmayaraq hər ay uşaqlar üçün pul göndərək, bir şərtlə ki, həmin pul 50 manatdan az olmasın. Bu bizim üçün mümkündür, ağır deyildir. Çünki hər ikimizin gəlir yerimiz vardır.

Sabah və ya biri gün sizə teleqrafla pul göndərəcəyik. Bu xüsusda arxayın ola bilərsən. Göndərəcəyim pullar sizə bir aya çatmasa da maddi pərişanlığınızı bir qədər intizama salar.

Sizin bura gəlməyinizi isə Zöhrənin qardaşı Musaya həvalə etdik. Musa buradakı yoldaşlar ilə danışıbdır. Bu günlərdə

Moskvaya gedəcək və mərkəzdən sizin bura gəlişiniz üçün izn almaq istəyəcək. Sən buraya gələn kimi yaxşı qulluq sahibi olarsan. Baxüsus ki, firəng dilini bilirsən.

Nənəm (analarını nəzərdə tutur. Çünki qürbətdə olan Ceyhun bəy anasının xəstəliyini eşidib ondan çox narahat qalmışdı) sizlərə dualar göndərir. Hamınızı öpür və deyir ki, inşallah görüşərik, təki sağ olsunlar.

Bu yay nənəmi Barjom tərəflərə aparacağam ki, canı qüvvətə gəlsin və havasını dəyişsin.

Zöhrəyə söylə ki, qorxmasın, köməkçiləri çoxdur".

## Əsgərin yemək payını onun oğlu və arvadına gətirdiyi üçün aşpazı cəzalandıran Cümhuriyyət zabiti

General Tərlan Əliyarbəyov ilk hərbi şücaətlərini Çar ordusunda nümayiş etdirir. 1908-ci ildə orduda xidmət etməyə başlayan şamaxılı balası, düz 1916-cı ilə qədər "əlahəzrət çar" üçün döyüşür. Bu 8 ildə dörd dəfə yaralanır. Sonuncu dəfə isə 1916-cı ildə yaralanaraq, hospitala yerləşdirilir. Bu hadisə onun Cümhuriyyət ordusunun sıralarına qatılmasına yardımçı olur. Amma bu barədə az sonra. İndi isə, Tərlan bəyin əfsanəvi general Əliağa Şıxlinski ilə görüşünü təqdim edək. Qeyd edək ki, o zaman hələ onların hər ikisi Çar ordusunda xidmət edirdi. Amma zaman keçəcək və iki hərbçi eyni cəbhədə-müqəddəs məram saydıqları Azərbaycan Cümhuriyyəti üçün savaşacaqdılar

**Əfsanəvi generalla görüş**

Hərb tarixi üzrə araşdırmaçı Şəmistan Nəzirlinin arxivdən əldə etdiyi materialların birində Tərlan bəyin Əliağa Şıxlinski ilə görüşü belə təsvir olunur:

"General Şıxlinski hərbçi qaydası ilə onu başdan-ayağa süzüb:

-"Səsini-sorağını eşitmişəm, eloğlu, əsl igid kimi vuruşursan", - dedi.

Əlini onun çiyninə qoyub: "Böyük şair Puşkin vaxtilə Şamaxı gözəlini vəsf eləyib, indi yeni bir Puşkin lazımdır ki, sənin Şamaxı Tərlanının qəhrəmanlığını qələmə alsın".

Sonra maraq dolu baxışlarını Tərlana zilləyib:

- Bir de görüm, hansı hərbi məktəbi bitirmisən, oğul?

- Tiflisdəki hərbi gimnaziyanı...

General Şıxlinski sevinclə:

- Hə, demək ikimiz də bir yuvadan pərvazlanmışıq. Çox şadam. Bu qürbət diyarda sevindirdin məni, oğul. Onsuz da bir neçə gündür ki, sevincimdən ürəyim köksümə sığışmır. Xəbərin varmı, bu günlərdə bir eloğlumuz qeyri-adi igidlik göstərdiyinə görə Müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsi ilə təltif olunub.

- Xeyr, eşitməmişəm. Düzü, cəbhəyə gələndən heç bir eloğlumla görüşə bilməmişəm. Cəbhədə sizdən başqa heç bir azərbaycanlıya rast gəlməmişəm, cənab general. İcazənizlə soruşum, kimdi belə yüksək təltifata layiq görülən?

- Nijeqorod draqun alayının rotmistri Teymur Novruzovun igidliyi haqqında qəzetlər barbar bağırır. Sən isə burdan-bura eşitməmisən. Eloğlumuz Teymur özünün eskadronu ilə bir ay əvvəl düşmənin piyada süvarilərinə hücum edərək onların hamısını qılıncdan keçirib. Hələ üstəlik də iki gün sonra üç ağır topunu qənimət götürüb. Cəmisi iki ay yarımlıq döyüşdən sonra həmyerlimiz Teymur Novruzov Georgi ordeninin dörd dərəcəsi ilə təltif olunub. Bu çox böyük fəxrdir. O, artıq kavalerdir".

**Cümhuriyyət ordusuna gəlişi**

1916-cı ilin yayında general A.A.Brusilovun ordusu Pripyat çayından Rumıniya sərhədinə kimi uzanan 400 kilometrlik cəbhə boyunca hücuma keçib düşmənin müdafiə xəttini yardı. Ağır şəraitdə vuruşan qoşunlar güclü düşməni xeyli geriyə qovdu. Tərlan Əlyarbəyov bu döyüşlərdə sinəsindən ağır yaralanır. Bu, müharibə başlanandan Tərlanın aldığı dördüncü yara idi. Ştabs-kapitan bir müddət Brest şəhərindəki qospitalda müalicə olunduqdan sonra Bakıya göndərilir.

Təbii ki, bu cür peşəkar və fədakar hərbçiyə Azərbaycan Cümhuriyyəti laqeyd qala bilməzdi. O, yeni qurulan orduda gündüz vaxtı çıraqla axtarılan bir peşəkar idi.

Odur ki, 1918-ci ilin avqustunda Cümhuriyyət ordusuna çağrılan Tərlan Əlyarbəyov ikinci alayın komandir köməkçisi təyin edilir.

Çox keçmədi ki, bu vəzifədə ilk rəşadətini də göstərdi. Denikin ordusu pərən-pərən düşüb ölkənin hər yerinə dağılmışdı. Dərbəndi tutan ağqvardiyaçılar Azərbaycana soxulmaq istəyirdilər. Tərlan bəyin Qusarda yerləşən ikinci alayı gecə-gündüz vuruşaraq düşməni Azərbaycana buraxmadı.

Onun bu şücaəti tezliklə qiymətləndirildi; iyirminci ilin baharında Tərlan Əlyarbəyov Bakı hərbi idarə rəisinin müavini vəzifəsinə gətirildi.

**Növbəti mərhələ-Sovet ordusu və müharibə**

Lakin təəssüf ki, onun vəzifəyə gətirilməsindən bir neçə ay sonra AXC bolşeviklər tərəfindən işğal edildi. Hələ Cümhuriyyətə təzə-təzə fayda verən Tərlan bəyin bütün planları suya düşür. Amma o, o dərəcədə peşəkar hərbçi idi ki, AXC istila

ediləndən sonra, hətta generalları da bağışlamayan bolşevik hökuməti Tərlan bəyə həmən elçi düşdü. Çünki onun həm çar, həm də Cümhuriyyət ordusunda nələr etdiyini yaxşı bilirdilər. Tərlan bəy haqqında bolşeviklərin verdiyi əmrlərin birini Şəmistan Nəzirliyi istinadən təqdim edirik:

"Azərbaycan Sovet Sosialist Respublikası hərbi Dəniz Xalq Komissarlığının 1922-ci il 9 dekabr tarixli 525 nömrəli əmrində deyilirdi: "Mənə etibar olunmuş Komissarlığın qərargah rəisi Tərlan Əlyarbəyov yoldaş Azərbaycanda Sovet hakimiyyəti qurulan ilk günlərdən məsul vəzifələr daşımış, vicdanlı, səliqəli olması, ona tapşırılan vəzifələri can-başla yerinə yetirməsi və proletar hakimiyyətinə sədaqəti ilə fərqlənmişdir. Hərbi işi tam bildiyini göstərmiş və Azərbaycan SSR-də mahal hərbi komissarlıqlarının təşkili işinə böyük qüvvə və qayğı sərf etmişdir. 1920-ci ildə Bakı qəzasında və 1921-ci ildə bütün respublikada səfərbərliyi yüksək bacarıqla keçirmişdir. Hazırda HDXK-nın qərargahı ləğv edildiyi üçün Əlyarbəyov yoldaşı Azərbaycan SSR Hərbi Komissarlığının müavini vəzifəsinə təyin etməklə inanıram ki, onun öz biliyi və Sovet hakimiyyətinə sədaqəti sayəsində Azərbaycanda səfərbərlik işi həmişə yüksək səviyyədə olacaqdır. Təxminən üç il müddətində hərbi idarədə birgə çalışdığımız vaxtlar gənc Sovet Azərbaycanının yaradılması işinə böyük zəhmət və enerji sərf etdiyinə görə Tərlan Əlyarbəyova rəhbərlik adından təşəkkür elan edir və əmr edirəm ki, şəxsi xidmət kitabçasına yazılsın.

Hərbi Dəniz Xalq Komissarı və Əlahiddə Qafqaz Ordusu Hərbi İnqilab Şurasının üzvü Əliheydər Qarayev.

Qərargah rəisi əvəzi Məğrubov"

Məncə, arvixdən əldə edilən bu əmrdən artıq hər şey aydındı. Məlumdur ki, bolşeviklər qara qaşa, qara gözə aşiq olan

deyildilər. Bilirdilər ki, Tərlan bəy onlara nə cür faydalar verəcək. Bu ehtimalları da düz çıxdı. II Dünya Müharibəsində bir neçə diviziyaya komandanlıq edən Tərlan bəy, göstərdiyi rəşadətlərə görə 1944-cü ildə general rütbəsi ilə təltif edilir.

## Xatirələrdəki general

Generalın övladları sonradan ataları barəsində bir neçə dəfə xatirələrin dili ilə danışıblar:

“Atamın söhbətləri yaxşı yadımdadır. Danışardı ki, 1908-ci ildə Şamaxıdakı altı illik şəhər məktəbini bitirəndən sonra Vladiqafqaza gedib kadet korpusuna daxil olmaq istəyirdim. Lakin babam Abdullanın qəfil ölümü onun hərbi məktəbə getməsinə mane olur. Atam yalnız 1910-cu ildə Tiflisə gedib Mixaylovsk hərbi piyada məktəbinə daxil olur. Atam özü haqqında çox az danışardı. Evdə də az olardı. O, daim əsgərlərin yanında olar, onların ailə həyatı ilə, güzəranı ilə maraqlanardı. Yadımdadır, atamın ölümündən sonra bizə bir jurnalist gəlmişdi. Atam haqqında yazmaq istəyirdi. Anam Lətifə xanımdan atam haqqında danışmağı xahiş etdi. Anamsa, nə deyim, nə danışım, ay oğul, - dedi, - bir doyunca üzünü gördüm ki... Qonaq kimi gəlib-gedərdi.

Anam - “Tərlan bizə gələndə belə oldu, Tərlan belə dedi”, - deyə danışanda qonşular gülərdilər. Atamı tanıyanlar - döyüş yoldaşları, dostları həmişə deyərdilər ki, Tərlan özü üçün yaşamadı, eli, obası üçün yaşadı. O, məzuniyyət, istirahət nə olduğunu bilməzdi. Onun xidmətləri Lenin ordeni, Qırmızı Bayraq ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif olundu. Doğma Şamaxıda adına abad küçə qoyuldu. Şahidi olduğum bir xatirəni heç vaxt unuda bilmirəm. Atam hərbi qulluqda idi. Anamla mən bir dəfə onun yanına getmişdik. Bizim

gəlişimiz günorta vaxtına düşmüşdü. Aşpaz üç qabda yemək gətirdi. Atamın bərk acığı tutdu. Aşpazı geri çağırıb dedi: - Bunlar buraya yeməyə gəlməyiblər ki... Sən niyə əsgərin payından kəsib bunlara gətirirsən. Bu saat qaytar... Sonra anama "niyə nahar vaxtı gəlmisiniz?" - dedi. İllər keçib, evimizdə bir Tərlan da böyüyüb. Atamın adını daşıyan oğlum Tərlan bu il Bakıdakı Azərbaycan SSR Ali Soveti adına hərbi məktəbi bitirib, zabit rütbəsi ilə qulluğa başlayıb, babasının yolunu seçib". (xatirələr Şəmistan Nəzirlinin "Azərbaycan generalları" kitabından götürülüb)

## Aldığı maaşı işçilərinə bağışlayan, ölüm gününü bilən parlament sədri

Görkəmli ictimai – siyasi və dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin rəhbərlərindən olan Həsən bəy Ağayev Hacı Zeynalabdin Tağıyevin maddi köməkliyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olub və 1901 ildə oranı müvəffəqiyyətlə bitirib. Həsən bəy Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet və jurnallarda məqalələr də dərc etdirirdi.

1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaradır.

1917-ci ildə Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılan "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın yaradıcılarından biri də Həsən bəy idi. Elə həmin ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə Nəsib bəy Yusifbəylinin "Türk Ədəmi-Mərkəziyyət Partiyası" birləşərək, "Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası adlandırılır. "Müsavat"ın 1917 il oktyabrın 26-31-də keçirilən

birinci qurultayında Həsən bəy partiyanın mərkəzi komitəsinin üzvü, ilin axırlarında isə Ümumrusiya Müəssislər məclisinə nümayəndə seçilir.

1918-ci il mayın 27-də Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan edir və Şuranın rəyasət heyəti seçilir. Bu vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə Şuranın sədri, Həsən bəy Ağayev isə onun müavini seçilir.

Azərbaycan Milli Şurasının 1918 il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilən təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalayır.

Azərbaycan Parlamentinin 1918 il dekabrın 7-də Bakıda təntənəli açılışına qədər Həsən bəy Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi vəzifəsində çalışır. Parlamentin ilk iclasında isə parlament sədrinin birinci müavini seçilir. Parlamentin sədri seçilən Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından ona rəhbərliyi Həsən bəy həyata keçirir. O, 1919 ilin dekabrında yenidən Parlament sədrinin birinci müavini seçilir və 1920 il fevralın 2-nə qədər ona rəhbərlik edir. Vəzifəsindən istefa verərkən, mühüm xidmətləri nəzərə alınaraq, bütün Parlament üzvlərinin imzası ilə ona təşəkkür elan edilir. Aprel işğalından (1920) sonra Tiflisə mühacirət edən Həsən bəy Ağayev həmin il iyulun 19-da muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilir və Tiflisin müsəlman qəbiristanlığında dəfn olunur.

**Həsən bəyin ölümü…**

Bu o zaman idi ki, Cümhuriyyət devrilmişdi və dövlətin başqa rəhbər şəxsləri kimi Həsən bəy Ağayev də Bakıdan

uzaqlaşmağa məcbur qalmışdı. O, Tiflisə gedir. Gözünün qabağında Xoyski kimi nəhəng güllələnir. Özü üçün də bu cür təhlükənin olacağını hiss edib Bakıya qayıtmaq istəyir. Bu barədə akademik Rafael Hüseynovun "Millətin zərrələri" kitabında geniş məlumat verilib:

"Mayın sonlarında Nəriman Nərimanova kağız göndərir ki, "siyasi fəaliyyətimi dayandırmışam. Həkimliyimi etmək istəyirəm, şərait yaradın, Bakıya qayıdım...".

Nəriman cavabı fövrən verir: "Nəinki Azərbaycana qayıtmağın, heç Tiflisdə qalmağın da məsləhət deyil".

Və onda Həsən bəy həqiqətin təsəvvür etdiyindən də qat-qat dəhşətli olduğunu dərk edir. İyunun 19-da Tiflisdə Fətəli xan Xoyski güllə ilə kürəyindən vurulanda Həsən bəy çılpaqlığı ilə anlayır ki, Nərimanın məsləhəti doğrudur, bu həna o hənalardan deyil. Yeganə nicat mühacirətdir. Artıq bileti də cibindəymiş. İyulun 20-də Tiflisdən Batuma, oradan da gəmi ilə Türkiyəyə gedəcəkmiş...

İyulun 19-u axşam qapı döyülür. Aktyor Mustafa Mərdanov gəlir. Deyir ki, "yaxın dostlarından bir neçəsi burda bir evdə yığışıblar, səni görmək istəyirlər". Həsən bəy qalxır kostyumunu geyinməyə. Ev yiyəsi onu dilə tutur: "Görmürsənmi vəziyyət pisdir? Səni izləyirlər. Hara gedirsən? Qoy kim ki, səni görmək istəyir, gəlsin bizə".

Həsən bəy sözə baxmır: "Yox, yaxşı deyil, 10 nəfərəcən adam məni orada gözləyir. O qədər adamı ayağıma gətirim?".

Mustafa Mərdanov da onları arxayın edir ki, "narahat olmayın, necə aparıram, elə də qaytarıb gətirəcəyəm...".

2 saat keçir... Qapının zəngi çalınanda ev yiyəsi hövlnak ayağa qalxır, qapının zənginin çalınmasıyla güllənin açılması bir

olur. Yüyürürlər qapıya. Baxırlar nə Mustafa var, nə bir başqası. Həsən bəyin qana bulaşmış və artıq cansız cəsədi sərilib yerə...

"Həyat yoldaşı Xədicə xanıma sonradan bəlli olur ki, sui-qəsdi təşkil edən Əliheydər Qarayevmiş, Mustafa Mərdanov da onun agentlərindənmiş... İzi azdırmaq üçün Qarayev Bakıda söz çıxarır ki, Həsən bəyi qətlə yetirən ermənilərdir".

Hadisədə adı hallanan digər şəxs isə hamımıza "O olmasın, bu olsun" kinokomdeiyasından yaxşı tanıdığımız və sərxoş olaraq Məşədi İbada sataşan Həsən bəy rolunun ifaçısı aktyor Mustafa Mərdanovdur. Sonradan sovet vaxtında "Qanun naminə", "Əhməd haradadır", "Fətəli xan" və s. filmlərdə rol almış Mustafa Mərdanov Həsən bəyi birbaşa öldürməsə də, ona sui-qəsdin təşkilində iştirakçılardan olub.

Tarixçi Ədalət Tahirzadə, yazıçı-tarixçi Eldar İsmayılov da bu fikirdədir ki, Həsən bəy Ağayevi sovet çekistləri öldürüb. Onu erməni terrorçuları öldürmüş olsa belə, onlar yalnız icraçı olublar.

Həsən bəy Ağayev də Fətəli xan Xoyski kimi Tiflisdə, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin məzarı yanında dəfn edilib.

**Həsən bəy fədakarlığı**

Həsən bəy yüksək vəzifələrdə çalışdı. Tələbə ikən bir falçının ona yaxınlaşaraq, əlinə baxandan sonra dediyi kimi 45 yaşında dünyasını dəyişdi. O zaman bu fal ona gülünc gəlmişdi. Ürəkdən qəh-qəhə çəkib gülmüşdü. Amma 1920-ci ilin ağır günlərində yenidən həmin falçını xatırlamışdı. Xanımına da "ömrümün sonuna 8 ay qalıb demişdi". Səkkizinci ayda isə ermənilər tərəfindən qətlə yetirilmişdi.

Azərbaycan Cümhuriyyətinin Parlamentinin sədri Həsən bəy Ağayevin nəvəsi Sevda xanımın dediklərindən: "Nənəm danışırdı ki, Həsən bəy həkim işləyəndə yaxşı dolanırdıq, ən çox korluğu onun parlaman sədri işlədiyi dövrdə çəkmişik. Dövlət yeni yaranırmış, kasıb imiş, parlamentin katibliyini maaşla təmin etməyə pul çatmırmış. Babam öz maaşını katibliyin işçiləri arasında bölüşdürürmüş. Bəzən, çatmayanda xahiş edər, 2-3 aylıq məvacibini alıb tabeçiliyində olan işçilərə paylayarmış. Nənəm deyirdi ki, soruşdum, bəs biz necə dolanaq? Babamın cavabı isə belə olub:

-Dözümlü ol, ay Xədicə, sənin müəllimə maaşın bizə kifayətdir. Hə olar, bir az qənaətlə yaşayarıq" - təsəllisi ilə başımı qatardı. (Rafael Hüseynov, *"Millətin zərrələri"*)

## Bolşeviklər adına şayiə çıxardıqları Məhəmməd Hadini sorğu-sualsız güllələdirlər

1879-cu ildə Şamaxının sayılan seçilən tacirlərindən olan Əbdülsəlim kişinin ailəsində anadan olub. Əsl adı Ağa Məhəmməd olub, gəncliyində özünə "Hadi" (Ərəbcə-doğru yol göstərən) təxəllüsünü seçib. Quranı əzbərdən bilirdi və oxuya-oxuya mənasını deyirdi, tərcümə edirdi. "Şahnamə"-dən çoxlu şer bilirdi. Firdovsi, Nizami, Xəyyam, Hafiz, Sədi və başqa dahi şairlərin şerlərindən bəzilərini tərcümə etmişdi. Fransa şair və alimlərindən Valter, Russo, Hüqo və başqa sənətkarların əsərlərindən xəbərdar idi. Rus demokratik ədəbi cərəyanını izləyirdi. Hadi şerlə yanaşı ədəbi, ictimai, siyasi və elmi məqalələr də yazırdı. İstanbulda oxumağa gedir, işləyir, lakin başına olmazın müsibətlər gəlir".

## Müsibətlərdən yalnız bir neçəsi

Araşdırmaçı alim, siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Əliyev Hadinin İstanbul həyatı ilə bağlı faciələrindən birini bu cür qeyd edir:

"Yüksək rütbə sahibini təhqir etmək üstündə onu həbsə alırlar və Salonik şəhərinə sürgün edirlər. Yunanlar Hadinin əlinin incə və ağ olmasından, nəzakət və rəftarından onu türk casusu hesab edir, öldürmək istəyirlər. Bir yunan keşişi onu himayəsinə alıb, xilas edir. Salonikdə, sürgündə olanda çox ağır və acı həyat keçirir. Günlərlə ac qalır. Sürgündən qayıdandan sonra Bakıya dönür. Ruhi xəstəxanada yatır. Müalicə olunub xəstəxanadan çıxdığı vaxt Birinci dünya müharibəsi başlayır. Məhəmməd cənub-qərb cəbhəsinə könüllü xidmətə gedir. 1915-ci ildə Qafqaz ordusunda feldşer sifəti ilə çalışdığı zaman Avstriya cəbhəsinə, Karpata gedir, müsəlman əsgərləri arasında alay mollası vəzifəsini icra edir.

## Aclıq illəri, dilənçi kökündə həyat

Manaf Süleymanovun məşhur "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" kitabında Hadinin acı həyatı ilə bağlı bunlar qeyd olunub:

"Hadi sürgündən sonra qayıdıb gəlir, aclıq keçirir. Hər gün Məhəmməd Hadi üç vərəqə şeir yazıb Qubernator bağına çıxıb hər vərəqi satırdı. Qazandığı pula qara çörək, soğan və araq alıb evə gedirdi. Hər gün şeir həvəskarları bağda onu gözləyirdilər ki, heç olmasa şairin bir vərəqə öz əli ilə yazdığı şeiri alıb oxusunlar.

Onun vəziyyətindən xəbər tutan Azərbaycan Cümhuriyyət naziri Cavanşir bəy Behbud şairin yanına gəlir və deyir "Hadi əfəndi, xahiş edirəm, buyurun maşına, bərabər gedək. Siz bizə lazımsız". Şair onu dərin, mənalı tərzdə süzüb, məğrur bir səslə dedi: "Gedin! Şairinki nazirlə tutmaz!"

İyirminci il may ayının ilk günlərində "Çanax Qala" kafesində oturub, Hadi ilə bərabər qayğanaq yedik, kofe içdik. Birlikdə çıxıb Nikolaysk küçəsinə tərəf gedəndə xalq ədliyyə komissarı Əliheydər Qarayevə rast gəldik. Ayaq saxlayıb bizimlə görüşdü, Hadidən hal-əhval xəbər aldı. Hadi: "Belə inqilabi kəbirdən sonra, mən də hamı kimi xoşbəxt, azad dünyaya qədəm qoymuşam, - dedi". "Ağakərim oğlu Əliheydər, tarix bəşərdə baş vermiş bütün qovğa, məğlubiyyət və qələbələrdə heç bir zaman, heç kəs şərabı qadağan etməmişdi. Siz bolşeviklər qadağan etdiniz. Bəşəriyyəti bu bəladan da, bu faciədən də xilas edə bilsəniz, alqış sizə. - Azca fikirləşib əlavə etdi. - Heç yerdə şərab tapılmır. Amma - əlini qoltuğuna salıb araqla dolu balaca bir şüşə çıxartdı, - amma mən tapmışam. Mənzilə gedib içəcəyəm, hər şeyi unudacağam. Mənzil dedikdə, güman etmə ki, sizin burjuylardan müsadirə etdiyiniz təm-təraqlı kaşanalardandır. Xeyr! Quba meydanında, karvansaranın bir küncündəki "qapıdan" zorla yanakı keçə bildiyim kahadır".

**Hadinin ölümü**

İndi keçək yazının ən maraqlı tərəfinə-Hadinin ölümünə. Hadi barəsində yazılan elmi və bədii əsərlərdə onun ölümü ilə bağlı müxtəlif versiyalar var. Amma Z. Əliyev ilk dəfə olaraq onun ölümü ilə bağlı yeni versiya irəli sürür:

"M.Hadi isə 1920-ci ildə Gəncədə bolşeviklərin əleyhinə baş qaldıran məşhur Gəncə üsyanında bolşeviklərin qurbanı oldu.

Lakin bu haqda şairin qələm dostu Abdulla Şaiq belə yazırdı ki: "Hadi təxminən 1919-cu ilin axırları, 20-ci illərin əvvəllərində Gəncədə birdən-birə qeyb oldu. Şairin "yox olmasını" o zaman ancaq dostları, qələm yoldaşları hiss edə bildi, onu çox axtardılar, gördüm deyən olmadı".

Mollanəsrəddinçi Əli Nəzmi isə 1945-ci ildə bu haqda belə yazırdı ki: "Hadi 1920-ci ilin may ayında Gəncədə soyuq dəymədən vəfat etmiş və orada da dəfn olunmuşdur".

Bu, şair barədə bolşeviklərin və ruspərəstlərin ortaya atdığı şayiə idi. Məhəmməd Hadi Gəncə üsyanı zamanı əhalinin qarşısına çıxaraq "Qırın bu kafirləri, onlar bizim dövlətimizi əlimizdə aldı" deyərək çağırış edir. Bundan sonra onu üsyan zamanı ələ keçirən bolşeviklər sorğusuz-sualsız güllələyib".

## Hüseyn Ərəblinskinin müəmmalı qətli – Aktyorun dəfn günündən "reportaj"

Köhnə Bakı... 1919-cu ilin 7 martı... Bakı əhlinin yazın gəlişini qeyd etdiyi vaxtda bir evdə dəhşət dolu matəm səsləri eşidilməkdədir. Xəbər sorağında olanlar çox keçmir ki, qara-qışqırığın səbəbini öyrənirlər: aktyor Hüseyn Ərəblinski qətlə yetirilib.

Heç kəsi yoxdu. Daha doğrusu, qohum-əqrabası çoxdu. Lakin hamı sağlığında guya "oyunbazlıqla məşğul olan" Hüseyndən üz çevirmişdi. Bir anası, bir də bacısının ah-naləsi kəsilmək bilmir. Hüseynin Bakı qoçularından "məharət" öyrənən dayısı oğlu onu qətlə yetirib. Özü də, guya yenə də səhnədə aktyorluq etdiyi üçün. Amma təbii ki, belə deyildi.

Gəlin, həmin günə - 1919-cu ilin martına xəyali səfər edək. Ərəblinskinin dəfnində də "iştirak edib" geri qayıdaq: Hüseynin ölüm səbəbi tamamilə başqa idi. Dayısı oğlu onu tamam başqa səbəbdən öldürmüşdü. Məsələ isə bu cür olmuşdu: Tatyana Maslennikova adlı bir müğənni qadın kazinoda, restoranlarda gitarada özü çalar, özü də oxuyardı. Gözəl, qəşəng olduğu qədər də məlahətli səsi vardı. O, oxuyanda salonda adam əlindən tərpənmək olmurdu. Hüseyn bir sənətkar kimi Tatyananın həm səsini, həm də gözəlliyini qiymətləndirirdi. Tatyana isə Hüseynə məftun idi. Ailəvi gediş-gəlişləri vardı. Xudmani məclislər qurub öz dostları, yaxın adamları ilə bir yerdə çalıb-oxuyar, o qaranlıq mühitdə vaxtlarını xoş keçirməyə çalışardılar. Hüseynin dayısı oğlu da demə Tatyanaya vurulubmuş və onu pul gücünə, ya da zorla ələ keçirməyə, ram etməyə cəhd edirmişsə də, cəhdləri boşa çıxır, hər dəfə oxu daşa dəyirmiş. Bəxtinin gətirmədiyinin günahını Hüseyndə görür, onu müqəssir hesab edir və bu maneəni aradan qaldırmağı, rəqibini yolundan çıxarmağı qərara alır və Hüseyni qətl edir.

Yəni, aktyorun ölüm səbəbi əslində, bu olub. Biz isə yenidən qətl gününün səhərinə "yollanaq". Hə, onu da xatırladaq ki, bu "səyahətimizdə" biz heç də yaradıcı təxəyyülümüzə yer ayırmamışıq. Qeyd olunanların hamısı həqiqətən də o gün baş verənlər olub.

Mart ayının yeddisində, səhər saat ondan camaat mərhumun yaşadığı evin qabağına axışmağa başladı. Tezliklə ətraf küçələrdə adam əlindən tərpənmək olmurdu.

Yeganə qardaşını itirmiş ağı deyən bacının naləsindən, qəmli avazından təkcə müsəlmanlar yox, ruslar, yəhudilər, sözləri başa

düşməsələr də, ifadə tərzindən, yanıqlı ahəngindən dərin faciənin mənasını duyurdular. Cənazəni qaldırmamışdan əvvəl qısa mitinqdə mərhumun bacısı qara libasda hönkürtü ilə göz yaşları axıda-axıda, üzüntülü və ürəkyandırıcı bir dildə camaata xitab edir: “Tək qardaşımın ana və bacıdan başqa kimsəsi yoxdur... Yalvarırıq, qatilə ən ağır cəza verdirin, qoymayın Hüseynin nahaq axıdılmış qanı yerdə qalsın...”.

Cənazəni Təzəpir məscidinə aparırlar. Meyit namazı qılınır, matəm mitinqi başlayır, natiqlər mərhumun bir sənətkar kimi xalqa göstərdiyi misilsiz xidmətindən danışırlar. Səhnəmizin mahir ustadının uzun illər əleyhinə mübarizə apardığı cəhalətin, nadanlığın qurbanı olduğunu söyləyirlər. Tabutu məsciddən qaldırıb, orkestrin çaldığı həzin matəm təranələri və nəğmələri altında Quberniski (Nizami) küçəsinə gətirib, Hacıbəyov qardaşları müdiriyyəti idarəsinin qarşısında saxlayırlar... Bəstəkar Üzeyir atəşli nitqində Ərəblinskinin fitrətən böyük aktyor və istedadlı rejissor olduğunu söyləyir. Müsəlman artistləri tərəfindən Məhəmmədəli Sidqi danışıb Hüseynin ömrünün bahar çağında amansız xəzana tutulduğunu, səhnəni tərk etdiyini, faciənə qətl edildiyini yanıqlı bir dillə, təəssüflə bəyan edir.

Ən təsirli çıxışı isə o zaman tələbə olan Cəfər Cabbarlı edir. Manaf Süleymanovun “Eşitdiklərim, oxuduqlarım, gördüklərim” əsərində Cəfərin hönkürə-hönkürə etdiyi çıxış ətraflı verilib:

“Bu təlatümlü, qeyri-sabit, ixtişaşlı dövrdə, dünyanın, xüsusən Bakının bu ağır günlərində, duman və tüstüyə bürünmüş mühitdə böyük sənətkarı qətl etdilər. Üfüqdə bahar havası duyulur, ana təbiət ayılır, qarlar əriyib çaylar daşır, təbiət oyanıb hər yeri yaşıl örtüyü ilə bəzəyir, çiçəklər yer-yerdən baş qaldırır,

səhralarda və meşələrdəki yaz təravəti insanlara ümid verir, qışın tufanından, şaxta və soyuğundan sonra hər yerdə yeni həyat nəfəsi duyulur. İctimai, siyasi həyatda insan tarixi dəyişdiyi kimi, təbiətdə də dəyişmə gedir. Şaxtalı qışı gülərüz yaz, şən bahar əvəz edir. Yeni il bayramı, novruz şənlikləri yaxınlaşır, bütün insanlar bu şənliyə hazırlaşdığı bir vaxtda, gözlənilmədən şiddətli qara xəzan yeli, səmum küləyi əsib pak, günahsız, təmiz insanı, sənət aşiqini aramızdan aparır. Xalq sənətkarı, yüksək qayələr məftunu Hüseyn Ərəblinski bizi tərk edir... Əlvida, xalqının böyük sənətkar oğlu".

Cəfər özünü toxdada bilmir, yol boyu göz yaşı axıdır. Deyilənə görə, Həsən bəy Zərdabinin dəfnindən sonra Bakıda ikinci ən izdihamlı dəfn Ərəblinskinin olub. Cənazəni qəbiristanlığa aparan zaman da həzin musiqi sədaları susmayıb. Yenə həmin mənbədən oxuyuruq:

"Tabutu qəbiristanlığa aparırlar. İzdiham sel kimi axırdı. Tabut və mafə güllərlə bəzədilmişdi. Camaat böyük gül-çiçək əklilləri aparırdı. Mərhumun bir neçə portretini müəllimlər, artistlər əllərində aparırdılar, Yol uzunu musiqinin ürək yandıran təranələri və matəm nəğmələri susmurdu. Bələdiyyə idarəsi ilə üzbəüz olan "Müqəddəs Nina" məktəbinin qabağına çatanda cənazəni saxlayırlar. Müəllimlərdən bir nəfər Ərəblinskinin səhnəyə göstərdiyi böyük xidmətlərindən danışır.

Müsəlman ziyalıları tərəfindən Xəlil İbrahim mərhumun səhnəyə göstərdiyi on yeddi illik fədakar xidmətini nəql edir. Şair Salman Mümtaz gözəl, dərin mənalı, kədərli, şairanə bir nitq söyləyir və mərhumun az vaxtda çox iş gördüyünü, onun məharətlə ifa etdiyi rolları görüb, Türküstan tamaşaçılarının qəlbdən alqışladıqlarını, indi onların da matəm tutduqlarını deyir. Müsəlman tələbələri tərəfindən hənifi Zeynallı danışır".

Daha sonra cənazəni yenidən qaldırıb, qəbiristana qədər əl üstündə aparırlar. Meyiti qəbirə qoyandan əvvəl qocaman artist Mirzə Muxtar Məhəmmədov cənazə ilə vidalaşır: "Hüseyn, mən də tezliklə dalınca gələcəyəm... Tez... çox tez gələcəyəm. Səni qara torpaq altında tək qoya bilmərəm... Gərək sənin yerinə mən öləydim. Bu xalqa, bu millətə sən daha çox lazım idin. Cəhalətin, nadanlığın qalın, qara pərdəsini parçalamaq üçün sənin şimşək təki çaxan istedadın mənim kimilərinin minini əvəz edərdi... Əlvida... əzizim". Musiqi təranələri altında meyiti torpağa tapşırırlar.

Qeyd: Hüseynin dəfnindən iki ay yarım sonra Nəriman Nərimanovun "Nadir şah Əfşar" faciəsi tamaşaya qoyulur. Məqsəd Hüseyn Ərəblinskinin qəbirinin üstünü götürmək, kimsəsiz qalmış qoca anasının məişətini qismən də olsa təmin etmək idi. Bütün aktyorlar küçələrdə bilet satırdılar. Teatr kassası səhərdən axşama qədər açıq idi... Bu məqsədlə ianə də qəbul edilirdi və ianə verib, kömək göstərən adamların adları qəzetdə elan edilirdi. Nadir şahın rolunu Abbas Mirzə Şərifzadə, mərhum Hüseynin öz zövq və səliqəsilə tikdirdiyi Nadir şah libasında çıxış edəcəkdi…

## Onun layihələri AXC-ni dünyanın ən güclülərindən birinə çevirəcəkdi - Kasıb və ixtiraçı Cümhuriyyət naziri

*Araşdımaçı Əli Şamilin Cümhuriyyət mühazirələrindən*

### İxtiraçı nazir

Xudadat bəy Ağa bəy oğlu 1879-cu ildə Şuşada anadan olub. Elə ilk təhsilini də oradakı real məktəbində (Şuşa Real Gimnaziyasında) alıb.

Xudadat bəy dövlət xadimi olmaqla yanaşı, həm də ixtiraçı-mühəndis və inşaat sahəsində ilk elm xadimlərindən biri olub.

O, 1912-1917-ci illərdə Peterburq elmi jurnallarında dəmir yollarının sonrakı perspektiv texniki inkişafı yolları haqqında bir sıra məqalələrlə çıxış edib.

1918-ci ildə Zaqafqaziya dəmir yolu tarixindən kitab nəşr etdirir.

Azərbaycan Cümhuriyyəti elan olunduqdan sonra, hökumətin birinci kabinetində dəmir yol, teleqraf və poçt naziri olur. İkinci, üçüncü, dördüncü kabinetlərdə dəmir yolu naziri, beşinci kabinetdə dəmir yolu eyni zamanda sənaye və ticarət naziri və həm də hökumətin birinci müavini olur. Eyni zamanda Azərbaycan parlamentinin üzvü seçilib.

1919-cu ildə bilavasitə Məlik-Aslanovun iştirakı ilə dəmir yolunu kadrlarla təmin etmək üçün Bakıda dəmir yolu texnikumu açılır.

Sovet hakimiyyətinin ilk günlərində Məlik-Aslanov əvvəlcə tikinti komitəsində şöbə müdiri, sonra komitənin sədri olur. 1923-1933-cü illərdə Xalq Təsərrüfatı Şurasında, Dövlət Plan komissiyasında, işləmiş Politexnik İnstitutunda dekan olub. SSRİ-nin və Azərbaycanın müxtəlif elmi texniki cəmiyyətləri və komissiyalarının üzvü olur. İki monoqrafiya bir sıra elmi məqalələr nəşr etdirir.

Azərbaycanda dəmir yollarının inkişafında əvəzsiz xidmətlər göstərməyinə baxmayaraq, 1934-cü ildə əsassız ittihamlarla ikinci dəfə həbs olunur və 1935-ci ildə düşərgədə həlak olur.

**Bir həsir, bir Məmmədnəsir**

Təqdim edəcəyimiz yazıda da əsasən, Məlikaslanovun həbsi və o ərəfədəki həyatı barəsində məlumat verəcəyik. Çünki ən stajlı nazir olmasına baxmayaraq, Məlikaslanovun necə ədalətli və sadə insan olması ən çox elə onun həbsi zamanı üzə çıxır. Çünki onu həbs edərkən, evində araşdırma aparırlar və görürlər ki…

Araşdırmaçı Lətif Şüküroğlunun arxivdən əldə etdiyi sənədə istinad edərək, araşdırma zamanı evindən nə tapıldığından xəbər tutaq:

Xudadat bəyin həbsi ilə bağlı arxivdəki 109 saylı anketdə qeyd olunub: "Xudadat bəy Ağa oğlu Məlikaslanov. Anadan olduğu yer Gəncə quberniyasının Şuşa qəzası, 1879-cu il təvəllüdlü, milliyyəti azərbaycanlı, türk, 42 yaş, Peterburqda yol mühəndisliyi institutunu bitirib, qohumları - anası Minə, Bakıda yaşayır, arvadı Mariya, Bakıda yaşayır, musiqi ilə məşğul olur, heç bir partiyanın üzvü olmayıb, iş yeri Zaqafqaziya dəmiryolu, sahə rəisi. Məlikaslanov 1.03.1917-ci ildən dəmiryolu sahəsində komissar vəzifəsində və sonra nazir işləyib, heç bir əmlakı olmayıb, məsuliyyətə cəlb edilməyib, hərbi xidmətə çağrılmayıb, 30 oktyabr 1920-ci ildə, xüsusi şöbənin orderi ilə İrəvan küçəsi ev 5-də həbs edilib. 11-ci ordunun komendantı Uvarov."

Yəqin ki, anketdəki bir cümlə sizi də çox cəlb etdi- "Heç bir əmlakı olmayıb".

Qeyd edək ki, o, ömrünün 4 ilə yaxın bir dövrünü yüksək vəzifələrdə keçirib və büün bunlara rəğmən hətta düşmənlər də belə onun heç bir əmlakı olmadığını yazmağa məcbur qalıblar.

İstintaq-arxiv işində saxlanılan başqa bir sənədə də nəzər yetirək:

"Həbs olunduğu 30 oktyabr 1920-ci ildə Xudadat bəy Ağa oğlu Məlikaslanovun mənzilində axtarış aparılır və heç nə tapılmır. Axtarışda İ.İsayevlə bərabər, Klenjevskaya Klavdiya və İvan İqnatyev iştirak ediblər. Xudadat bəy Ağa oğlu Məlikaslanovun 11-ci ordu yanında İnqilabi Hərbi Şuranın xüsusi şöbəsinin açdığı PS 20219 saylı istintaq işinin üstündə belə bir qeyd var: "Y.Mudrak, xüsusi şöbə, order №308".

**(Qaynaq: Lətif Şüküroğlu "Cümhuriyyət hökuməti repressiya məngənəsində")**

## Bir danosun dedikləri

Biz Məlikaslanov haqqında, onun fəaliyyəti barəsində çox şeylər yaza bilərdik. Amma Xudadat bəyi ən yaxşı təqdim edəcək sənəd isə Cümhuriyyətin bir başqa naziri M.Hacınskinin həbsdə olan zaman onun əleyhinə verdiyi ifadədir. O ifadə Məlikaslanovun əleyhinə deyilsə də, biz orada Cemhuriyyət fədaisinin necə mükəmməl bir şəxsiyyət olduğunu görürük.

Məmmədhəsən Hacınski 29 dekabr 1930-cu ildə verdiyi ifadədə aşağıdakıları bildirirdi:

“Məlikaslanovu Müsavat hökuməti dövründən tanıyıram. Qatı millətçidir, 1919-cu və 1920-ci illərdə bolşeviklərlə saziş əleyhinə mübarizə aparıb və 28 apreldə bolşeviklərə qarşı silahlı müqavimət göstərmək tərəfdarı olub. Mən Dövlət Plan komitəsinə gələndə o, sənaye və nəqliyyat bölməsinin sədri idi. Bundan əlavə o, Zaqafqaziya dəmiryolunun idarə heyətinin üzvü, ASSR-in əksər müəssisələrində məsləhətçi idi, ASSR ali müəssisələrində böyük nüfuzu vardı və etibar edilirdi...

1926-cı ildə ASSR Xalq Komissarları Şurası məni Azərbaycan Dövlət Plan komitəsinə sədr təyin etdi, ancaq mən razılaşmadım və S.Orconikidzenin vasitəsi ilə qərann dəyişdirilməsinə nail oldum. İmtinanın səbəblərindən biri bu idi ki, mən gərək Məlikaslanovu kənarlaşdıra idim. Onu dəmir yol və şosse yollarının tikintisi, elektrikləşdirmə və su təsərrüfatı maraqlandırırdı. O çox inadcıl və səbatlı adam idi, çoxları ilə məsləhətləşməyi sevirdi, ancaq həmişə özü bildiyi kimi edirdi. Onun bütün xalq təsərrüfatı məsələlərinə yanaşması dar milli məhdudiyyət dairəsində qalmırdı, hər bir addımı, hər bir tədbiri gələcək müstəqil Azərbaycanın mənafeyi naminə qiymətləndirirdi. Bu

onun tərəfindən deyilirdi, yaxud fəaliyyətindən görünürdü, o, bu barədə məndən çox irəli getmişdi. Bir sıra faktları mən əvvəl göstərmişəm. 1928-ci ildə Kislovodskda mənimlə Volqa-Don kanalının layihəsi barədə danışarkən, o, dedi ki, bu kanalın Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyəti var. Bu kanal neft məhsullarını xarici bazara çıxarmaqda bizi Gürcüstanın asılılığından xilas edir. Belə bir söhbəti də xatırlayıram. Mən qatı rus millətçisi kimi tanıdığım professor Vasilyevə və onun əməkdaşlarına çox şübhəli yanaşırdım. Onun Muğanın və Milin suvarılması ilə bağlı işləri məndə ora rusların köçürülməsi ilə bağlı ciddi narahatlıq yaradırdı. Mən bu barədə Məlikaslanova dedim. Məlikaslanov Vasileyevə çox yaxşı münasibət göstərirdi. O dedi ki, layihə heç kimə mane olmur və gələcəkdə bu hazır bir sistemdir. Şabanov da bu cür fikirləşirdi. Bu da Azərbaycanın gələcəyi ilə bağlı idi ki, Məlikaslanov bir neçə dəfə mənimlə söhbətində bizim siyasi dostlarımız olduqlan üçün Gürcüstan ziyalıları ilə yaxın əlaqələr qurulması zərurətindən danışmışdı. Milli məqamlar Məlikaslanov üçün başlıca stimul idi. Culfa-Bakı dəmir yolunun tikintisi də yadımdadır, o, bu işi Müsavat hökuməti dövründən başlamışdı. Sovetləşmə dövründə bir müddət o ancaq bu işlə məşğul idi. Sonrakı dövrdə də, sonadək bu işin əsl ilhamçısı və vətənpərvəri idi. O, həmişə deyirdi: bu yolun tikintisinin vacib milli məqamı təkcə ondan ibarət deyil ki, bu dəmir yolu Azərbaycanın ucqar əyalətlərinə getmək imkanı verəcək, həmçinin Naxçıvanı Azərbaycanla yaxınlaşdırıb, birləşdirəcək. Bu baxışlarla bütün ziyalılar, o cümlədən mən də şərik idim”.

## Dueldə gözünü zədələyən, həbsdə ölümdən son anda qurtulan Cümhuriyyət naziri

Tədqiqatçı Əli Şamilin "Cümhuriyyət mühazirəsi"

Xosrov bəy Sultanov 1880-ci ildə Qarabağda, Şuşa şəhərində anadan olub. İbtidai təhsilini Şuşada alan X.Sultanov rus dilini mükəmməl öyrənib və Xarkov şəhərində institutun tibb fakültəsinə daxil olub. Atasının arzusu onu tibb, qardaşı Sultanı isə hərb elminə yiyələnmiş şəxslər kimi görmək idi və Paşa bəy bu yolda bütün qüvvəsi ilə səy göstərir. Xosrov bəy tibb təhsilini Xarkov şəhəri ilə yanaşı, bir müddət Odessa şəhərində davam etdirir, burada N.Nərimanovla tanış olur və dostluq edir. Tələbəlik illərində bir rusla duelə çıxan bu qızğın gənc sol gözündən zədə alır. Ancaq bu zərbədən qəti özünü itirməyən Xosrov bəy həmin oğlanı bir atəşlə yerə sərir.

Aradan çox illər keçir. Xosrov bəy sonradan həm həkim, həm hərbçi kimi Vətənə çox xidmətlər göstərir. Cəllad Andranik və onun quldur dəstəsinə qardaşı Sultanla birlikdə qan uddurur. Andranikin qulağının kəsilməsi əhvalatı da onların adı ilə bağlıdır.

1918-ci ilin 28 mayında Tiflisdə Azərbaycan Milli Şurası adından Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə-İstiqlal Bəyannaməsinə imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olub. Xalq Cümhuriyyətinin həmin gün təşkil edilən birinci hökumət kabinetində Xosrov bəy hərbi nazir postunu tutdur. O, Zaqafqaziya Seyminin və Azərbaycan parlamentinin üzvü, əvvəl "Müsavat"ın (1917-ci il) üzvü olub, sonra da "İttihad" partiyasının qurucularından olub. ADR Hökuməti 1918-ci ilin yayında Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl qəzalarını Gəncə quberniyasının tərkibindən çıxarıb

Qarabağ general-qubernatorluğu yaratdı. Xosrov bəy Sultanov 1919-cu ilin 15 yanvarında Gəncə general-qubernatorluğundan dəyişdirilib Qarabağın general-qubernatoru təyin olundu. Müavini isə məşhur bolşevik Çingiz İldırım idi. Həmin ilin 21 martında erməni-daşnak hərbi dəstələri Qarabağa yeganə keçid olan Əsgəran keçidini zəbt etmişlər. Amma daşnak generalı Njdenin hərbi dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən mayın 30-da darmadağın edilmiş, Xankəndi və Şuşa geri alındı.

Xosrov bəyin həyatında ən ağır illər isə təbii ki, Cümhuriyyətin devrildiyi vaxtlar olub. Bolşeviklərin Azərbaycanı işğalından sonra da Xosrov bəy Nərimanov, Çingiz İldırım kimi nüfuzlu söz sahiblərinin sayəsində Şuşada İnqilab Komitəsinin rəhbərliyində saxlanıldı. Lakin tezliklə həmin vəzifədən götürülərək, erməni fitnəkarlığı nəticəsində həbs edildi. Ermənilər onların mənfur niyyətini hər zaman ürəklərində saxlayan Xosrov bəydən nə yolla olursa olsun, intiqam almaq istəyirdilər. Bunu isə arvadı erməni olan Orcanikidze və onların tərəfində olan başqa səlahiyyət sahiblərinin əli ilə həyata keçirdilər. Hətta Xosrov bəy həbs olunan gün ermənilərin toy bayram etdikləri də deyilir. Amma bununla da ürəkləri soyumur, Xosrov bəyi həbsxanada aradan götürmək istəyirlər.

Araşdırmaçı Baba Allahnəzərov onun bundan sonrakı həyatı barəsində deyir:

“Təzə bolşevik hökumətində Hərbi Dəniz Donanmasının komandanı Çingiz İldırım çox sevdiyi əmisi oğlunun haqsız həbsinə, onu gözləyən labüd ölümə laqeyd qala bilməzdi, məhz onun qurduğu əməliyyatla Xosrov bəy həbsxanadan qaçırılır. Bəzi araşdırmaçılar burda Nərimanovla Xosrov bəyin tələbəlik illərindən yaxın dostluq münasibətlərinin də rol oynadığını yazırlar. 1923-cü ildən general Xosrov bəy Sultanovun həyatında

mühacirət dövrü başlanır. 1924-cü ildə İstanbulda yaradılan Qafqaz Konfederasiya Komitəsinin 3 azərbaycanlı təsisçi rəhbərindən biri olur, o biriləri Ə.Əmiraslanov, Ə.Şeyxzamanov idi. Əlimərdanbəy Topçubaşov və digərlərinə qarşı Türkiyədə çıxan tənqidi yazı, çıxışlara "Yeni Kafkazya" dərgisində və digər qəzetlərdə tutarlı cavablar verib, Azərbaycan istiqlalı ilə bağlı yazıları çıxıb. O, Türkiyə, İranda (1926), daha sonra Fransa və Almaniyada yaşamış, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışır. Azərbaycanlı əsirlərin müalicəsi, xilası, onlardan ibarət xüsusi dəstələrin yaranmasında xüsusi səylər göstərib. Yüzlərlə insanın nicat tapmasına yardımçı olub.

Türkiyəyə qayıdıb çox güman ki, başqa adlarla həmişə onu gözləyən erməni terrorçularından gizlənərək yaşayıb.

Xosrov bəy Sultanov 1947-ci ildə Trabzonda vəfat edib.

Bəzi məlumatlarda Xosrov bəylə M.Ə.Rəsulzadə arasında ixtilaf olduğu , Xosrov bəyin müsavatçılardan ayrıldığı və Milli Demokratik Cümhuriyyət Partiyası qurmaq istəyi öz əksini tapır".

## Müşfiqin üzünə duranlar, xanımını döyüb, bacısına şər atanlar

Qanlı 1937-ci ildə hələ 30 yaşı olmayan şairin düşmənlərinin nə qədər çox olduğu, ona həsəd aparanların kəmiyyəti Müşfiqi qaralamaq üçün hazırlanan süni oyunlarda özünü göstərirdi. Bu zaman əllərinə fürsət düşən və Müşfiqi sıradan çıxarmaq üçün danoslar yazan şairlərin ard-arası kəsilmir. Onlardan biri də Mirmehdi Seyidzadə olub. Halbuki, həmin hadisələrdən əvvəl o, Müşfiqlə eyni bağda dincəlib. Özləri ilə bərabər, ailələri də yaxın dost olublar. Amma səd heyf... Aradan

çox keçmir ki, o, Müşfiqi bada verən bir məktubu Yazıçılar İttifaqına göndərir. O zaman üzə duranlar üç qrupa bölünürdü: məcburən bu işə təhrik olunanlar, rəhbərliyin yanında yerlərini yaxşı etmək üçün bu işi görənlər və paxıllıq girdabına düşdüyü üçün bu işə qol qoyanlar.

Deyilənə görə, Mirmehdi Seyidzadə birincilərdən imiş. Amma heyhat! Məktubda heç 30 il ömür sürməyən, nakam taleli Müşfiq elə təhqir olunub ki, onu yazıb təqdim etmək belə çətindir! Lakin bu tarixdir! Yazılmalıdır ki, tarixdə necə hadisələrin olması, Müşfiq, Cavid kimi insanların necə əzab çəkmələri bilinsin. Elə məktubun yer aldığı kitab, arxiv bilicisi və araşdırmaçı Aslan Kənanın “XX əsrdə repressiyaya məruz qalanlar” kitabı da bu məqsədlə yazılıb. Tarix, keçmiş bilinməlidir. İbrət dərsi üçün bilinməlidir!

“Sizin tələbinizə görə, …. kontrrevolyusioner (nöqtələrin yerinə Cavid və Müşfiqin şanına yaraşmayan söz yazıldığı üçün silmək qərarına gəldik. E.N.) Hüseyn Cavid və Müşfiqlə olan əlaqəm haqqında aşağıdakı məlumatı verirəm: …. Mikayıl Müşfiqi mən Yazıçılar Cəmiyyətində tanımışam. Onunla birlikdə Firdovsinin şeirlərindən tərcümə etmişik… Müşfiq haqqında danışmaq istəmişəm, iki dəfə sədrə yanaşmışam mənə söz verilməyib. Müşfiqin yazdıqları haqqında yazdığım materialları iclasdan sonra (Məmməd Rahim – A.K.) Rahim yoldaş məndən alıb məqalə üçün istifadə edəcəyinə söz verdi”.

Yazmağa məcbur edilən bu söz müəllifinin bir neçə il sonra M.Müşfiq haqqında yazdığı xatirə insanda ikrah hissi doğurmaya bilmir:

“…Müşfiq bəzən gecələr də bizdə qalırdı. Mikayıl Müşfiq fitrətən şair yaranmışdı. O bütün varlığı ilə ədəbiyyata, sənətə bağlı idi. Müşfiq həyatında bir gün də olsun ilhamsız yaşamırdı”.

1934-cü ildə biz Müşfiqlə bərabər Mərdəkanda bir bağa köçmüşdük. Səhərlər və axşamlar dəniz sahilinə gedərdik".

Bu, M.Seyidzadənin daxilindən gələn həqiqi səs idi. Bu fikirləri demək üçün şair uzun illər gözləmişdi. Gələcəkdə böhtan dolu yazılacaq məqaləsi üçün "danos" yığan, bunun üçün də M.Seyidzadədən ustalıqla istifadə edən "söz ustadı" Məmməd Rahim həmin materiallardan "lazımınca" bəhrələnməyə  müvəffəq olur".

Adı ədəbiyyat tarixinə heç vəchlə düşməyən, bir zamanlar başqalarını repressiyaya məruz qoyan, sonradan isə özü bu acı taleyi yaşayan Seyfulla Şamilov isə Müşfiqə qara yaxmaq üçün çox gülünc detallara əl atırdı. Birini təqdim edək:

"Müşfiq nə üçün Səməndər kimi əfsanəvi bir quşla maraqlanır, ancaq bizim sovet quruluşu ilə maraqlanmır?!  Bizim sovet qəhrəmanları ilə maraqlanmır?! Bax, bu Səməndər sizin fikrinizə haradan gəlib?! (Müşfiqə müraciətlə) Biz demirik, filankəs sənin qohumundur. Bəlkə ola bilər, demişik ki, sənin qohumun Müsavatın qohumudur. Ancaq sən öz yaradıcılığın haqqında danışmalısan. Sən bu gün sovet ədəbiyyatını ifşa etməyə çalışmırsansa, bəs bu Səməndəri nə üçün yazmısan, kim səni məcbur etmişdir ki, bunu yazasan"

Müşfiqə qarşı çıxan növbəti qələm adamı isə Məmməd Rahim olub. Məmməd Rahim Müşfiq haqqındakı yazıda onu üç maddəyə əsasən suçlayır:

Birinci "maddə": zahirən sovet, lakin bütün daxili quruluşu etibarı ilə  qəddar kontrrevolyuson ruhu ilə dolu olan" əsərlərin müəllifi kimi;

İkinci "maddə": "Müşfiq dili və şeirlərindəki kontrabanda yolu ilə gətirdiyi fikirləri etibari ilə" proletariat sadiq şair" olmadığını sübut kimi;

Üçüncü "maddə": Sinfi qardaşı Çobanzadədən oğurluq etdiyinə görə.

Məmməd Rahim "qatı millətçi" saydıqları Bəkir Çobanzadənin kitabından "Buludlar" adlı şeiri oğurlayaraq, onu "Küləklər" adlı şeirlər əvəzləməsini yazır.

Amma Müşfiqə hədyan qoşanlar, yazdıqları məqalələrlə onu güllə qarşısına çıxaran təkcə bu üçlük olmayıb. Sanki özünü kimlər üçünsə təsdiqləmək istəyənlərin əlinə Müşfiq kimi fürsət düşmüşdü.

Bu yerdə xüsusi olaraq qeyd edək ki, Müşfiqə qarşı çıxanların arasında Hacıkərim Sanılı kimi günahsız bir ziyalı da vardı. Təsəvvür edin, bu vicdanlı adama o dərəcədə dəhşətli işgəncələr verirlər ki, ağrılardan xilas olmaq üçün məcbur qalıb Müşfiqin əleyhinə ifadə verir:

"Mikayıl Müşfiq qatı millətçi olub. Mənim iştirakımla hər dəfə Müşfiq həvəslə əks-inqilabi fikirlərlə çıxış edərək deyirdi:"Azərbaycan əhalisi başqa millətlərdən fərqli olaraq gözdən salınmışdır. Başqa millətlər –rus və ermənilər- Azərbaycana öz mədəniyyətini inkişaf etdirməyə imkan vermədikləri səbəbindən son nəticədə gözdən düşən xalq olub".

Bu ifadələrdən sonra Sanılıya verilən işgəncə səngiyir. Lakin aldığı zədələr çox keçmir ki, onun həyatına son qoyur.

Bu cür danosların "sayəsində" 1938-ci ildə qısa müddətli davam edən sorğu-sualdan sonra Müşfiq güllələnir. 1938-ci ilin 5 yanvarında saat 11:20-də başlanan "məhkəmə" 20 dəqiqədən sonra- saat 11:40-da bitir. Qərar isə artıq hamıya məlumdur.

Bundan sonra isə Müşfiqin ruhunu rahat buraxmırlar. Özü güllələnsə də, təqib növbəsi bacısı və həyat yoldaşına keçmişdi.

Müşfiqə görə çox keçmir ki, müəllimə işləyən bacısını işdən çıxarırlar. İşdən azad olduğunu bilən Balacaxanım İsmayılzadə (Şükürlü) həmin gün Voroşilov rayon (indiki Səbail) xalq maarif

şöbəsinin müdiri olmuş Axundovaya müraciət edir. Lakin ondan bir müsbət cavab ala bilməyən müəllimə Voroşilov (Səbail) rayon partiya komitəsinin katibi Ankişeviçə müraciət edir. Ankişeviç müəllimənin M.Müşfiqin bacısı olduğunu bilib, onu xalq düşməni, əksinqilabçı, antisovetçi kimi təhqir edib, kabinetindən qovur. Bu azmış kimi bir qrup öyrədilmiş şəxsləri yanına çağırıb Balacaxanım Şükürlüyə qarşı akt tərtib etdirir. Həmin şəxslər tərəfindən rayon polis şöbəsinə müəllimənin "xuliqanlığı" barədə müraciət edilir.

Təsəvvür edin, xanım müəlliməni həbs etdirməkdən ötrü polis orqanı nə dərəcədə gülünc bir iddia irəli sürür. Aslan Kənanın yuxarıda adını çəkdiyimiz kitabına yenidən istinad edərək, həmin gülünc, biabırçı iddianı diqqətə çatdıraq:

"13 sentyabr 1937-ci ildə 3 saylı şəhər polis şöbəsi belə bir nəticəyə gəlir ki, doğrudan da 1906-cı ildə Bakı şəhərində anadan olmuş, bitərəf, evli, orta təhsilli müəllimə İsmayılzadə (Şükürlü) Balacaxanım Qədir qızı Axundova Ankişeviçi təhqir etmiş, əksinqilabi, antisovet sözlər deməklə kifayətlənməmiş, mürəkkəbqabını onlara tərəf atmışdır.

Bunu nəzərə alaraq qərara alınır ki, Balacaxanım İsmayılzadə (Şükürlü) həbs edilsin.

Məhz "İttihamnamə"də də İsmailzadə (Şükürlü) əvvəlcə "sestroy razoblaçennoqo vraqa naroda İsmailova Mikaila" yazmaqla B.İsmayılzadəni xuliqanlıq üstə yox, məhz xalq düşməni Mikayıl İsmayılzadənin bacısı olduğuna görə həbs edildiyi bir daha aydın olur. Şahverdiyanın sədirliyi ilə məhkəmə Balacaxanım Qədir qızı İsmayılzadəni (Şükürlü) altı il müddətində azadlıqdan məhrum edilməsi üçün qərar çıxarır.

5 iyun 1954-cü ildə bəraət alan Balacaxanım İsmayılzadə (Şükürlü) haqqında H.Abramova, S.Hüseynov, Q.İ.Qolusi

tərəfindən verilən şahid ifadələrindən məlum olur ki, müəllimə atılan böhtanlardan biri də "doşlo do takoqo stepeni çto razbila qrafin" ifadəsi olmuşdur. Guya müəllimə həmin şəxslərə qrafin atmış, lakin istənilən nöqtəyə dəyməmiş və nəticədə sınmışdı".

## Xoyskinin ailəsinin aqibəti və daha bir tarixi nitqi

İlk olaraq Fətəli xanın qətlindən sonra onun ailəsinin düşdüyü aqibət barəsində… Araşdırmaçı alim Nəsiman Yaqublu tədqiqatlarında bu barədə bəzi məlumatları verir:

"1920-ci ilin aprel işğalından sonra Azərbaycanın görkəmli dövlət qurucuları demək olar ki, ölkələrini tərk etmək məcburiyyətində qaldılar. Məmməd Əmin Rəsulzadə Lahıcda gedib gizli həyat yaşamağa başladı. Fətəli Xan Xoyski, Həsən bəy Ağayev Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Çünki, onlar başa düşürdülər ki, onlara qarşı ciddi cəza tədbirləri görüləcək. Belə bir zamanda Nəsib bəy Yusifbəyli yenə də Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Amma onlar Gürcüstana gedirdilər.

Çünki, Gürcüstan hələ bolşeviklər tərəfindən işğal edilməmişdi. Onlar düşünürdülər ki, orada qalacaqlar və özlərinin siyasi fəaliyyətlərini davam etdirəcəklər. Yenidən Azərbaycanın bütövlüyü üçün çalışacaqlar. Fətəli Xan Xoyski də bu istəklə Gürcüstana üz tutdu. Orada bir müddət qaldıqdan sonra bolşeviklər tərəfindən təqib edilməyə başlayıb. Bu dəfə isə ermənilər tərəfindən bu iş görülməyə başladı. Erməni quldurları tərəfindən 1920-ci ilin iyun ayında qətlə yetirildi və Tiflis qəbirsanlığında Mirzə Fətəli Axundovun yanında dəfn olundu. Bir qədər keçdikdən sonra digər görkəmli xadim Həsən bəy Ağayev də eyni

qaydada qətlə yetirildi. Bir müddət keçdikdən sonra Gürcüstana keçmək istəyən Nəsib bəy Yusifbəyli də eyni qaydada qətlə yetirildi. Fətəli Xan Xoyski Azərbaycanın görkəmli dövlət xadimidir. Onun ailəsi də 1920-ci ildən sonra təqib olunmağa başladı. F.X.Xoyskinin qızı maraqlı da olsa bolşevik Mirzə Davud Hüseynovun həyat yoldaşı idi. Mirzə Bağır Hüseynov 1930-cu illərdə represiyaya uğradıqdan sonra F.X.Xoyskinin qızı Tamara xanımı 10 il müddətinə həbs etdilər".

İkinci məqamı isə biz sizə təqdim edirik. Fətəli xan Xoyski parlamentdən tariximizin ən uğurlu işlərindən birini – Paris Sülh Konfransında təsdiqlənməmizi elan edir. Bu tarixi çıxışda hər şey var. Yaxşısı budur ki, oxuyaq:

1920-ci ilin yanvarı… İclas saat 12-yə 45 dəqiqə keçmiş açılır. Sədr iclası açaraq birinci sözü xarici işlər naziri Fətəli Xan Xoyski cənablarına verir. Fətəli Xan Xoyski - (alqışlar içərisində kürsüyi-xitabətə çıxır).

- Möhtərəm məbuslar! May ayının 28-də 1918-ci ildə Azərbaycan xalqı öz istiqlaliyyətini aləmə məlum etmişdi. Məlum etməklə onu özgə millətlər tərəfindən təsdiq etdirməyin çox qayəti vardır. İstiqlalını elan etdikdən sonra bir millət gərək cəmi aləmə göstərsin və isbat etsin ki, dörhəqiqət kəndisinin istiqlaliyyətə layiqi vardır. Bu surətdə onun istiqlalı təsdiq edilə bilər. Habelə bu bir il on ay müddətində Azərbaycan milləti öz həyatını, dolanacağını Avropaya, cəmi mədəniyyət aləminə məlum edib özünü öylə göstərdi ki, Avropa onun həqqini verməklə və istiqlalını təsdiq etməkə vadar oldu.

Əfəndilər! Sırağa gün Tiflisdən bizim Gürcüstanda olan nümayəndəmizdən bir teleqraf gəldi ki, məzmunu şöylədir. (Oxuyur). "Bu gün ingilis nümayəndəsi vürud olub məlum etdi ki, lord Kerzon sülh konfransında nümayəndələrə təklif etmiş ki,

Azərbaycan və Gürcüstan istiqlaliyyətləri gərək təsdiq olunsun. Sülh konfrası nümayəndələri bu təklif mütəda qəbul etmişlər. Bu ayın 11-də olmuşdur. Lakin biz srağagün gəlib yetişdi. Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə bir il yarım içərisində qazandıq. Böylə az müddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm. Bugünki bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman da hökumət başında mən idim. Və indidə təsdiqini sizə mən elan edirəm".

## Nəsib bəy Yusifbəylinin sirli qətli haqqında daha bir neçə söz

Cümhuriyyətin baş naziri Nəsib bəyin ölümü Qarxunlu Əşrəf bəyin üzərinə yıxılır. Yazıda Qarxunlu Əşrəfin Nəsib bəyi öldürüb-öldürməməsi ilə bağlı iki fərqli mənbəni təqdim edəcəyik. Hər iki mənbə tanınmış tədqiqatçılara məxsusdur. Sadəcə, hansının səhv, hansının düz olması isə hələ də sual altındadır. Əvvəlcə görək, Əşrəf bəyin özü kimdir?

Əşrəf bəy Həsən bəy oğlu Tağıyev 1867-ci ildə Şirvan dairəsinin Qarxun kəndində anadan olub. Dini təhsillə yanaşı, Tiflisdə də oxuyub. Yuxarı Qarxunda ilk rus-tatar məktəbini açan Əşrəf bəy Tağıyev 1918-20-ci illərdə rus-türk ordu komandirlərinin tərcüməçisi olub. O, Ərəş mahalının bəylərbəyi, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, hökumət nümayəndəsi

idi. Əşrəf bəy həmçinin millətçi Əhrar Partiyasının yaradıcısı olub, daşnaklarla mübarizədə böyük rol oynayıb. 1918-ci ildə Gəncəyə gedən Nuru Paşa onun evində qonaq qalıb. Əşrəf bəy Həsən oğlu Tağıyev 1930-cu ildə antisovet fəaliyyətdə ittiham olunaraq, güllələnib. 1998-ci ildə bəraət alıb.

**İndi isə dediyimiz iki mənbədən birinə diqqət edək. Həmin mənbə XX əsrin əvvəllərindəki Bakının, Azərbaycan tarixinin ensiklopediyası sayıla biləcək bir əsərdir. Yəqin, təxmin etdiniz- yazıçı Manaf Süleymanovun "Oxuduqlarım, eşitdiklərim, gördüklərim" kitabındandır:**

*"Qatar Ucar stansiyasına çatanda Müsavatın iki nömrəli lideri və hökumət başçısı Nəsib bəy Yusifbəyli vaqondan düşür, köhnə dostlarından Qarxunlu Əşrəfə pənah aparır. Tələsdiyindən Bakıdan çıxanda pul götürə bilmədiyindən istəyir Əşrəfdən borc pul götürsün. Nəsib bəyin əlində çox təmtəraqlı gözəl bir sakvoyaj olur, diqqəti uzaqdan cəlb edir. Əşrəf bəy dostu Nəsib bəyi aparır Qarxuna. Və güman edir ki, sakvoyaj qızılla doludur. Gecə vaxtı Qarxunlu Əşrəf dostu Nəsib bəyi boğub boynuna daş bağlayıb tullayır Kür çayına. Sakvoyajı açanda içində bir kostyumdan savayı heç nə olmur. 1930-cu ildə cinayətin üstü açılır və Qarxunlu Əşrəfi mühakimə edirlər".*

**Qarxunlu Əşrəf bəy tarixi şəxsiyyət olmasa da, bu suallara aydınlıq gətirmək üçün hərb tarixçimiz Şəmistan Nəzirli onun adına sənədli bir povest yazdı. Elə adını da "Qarxunlu Əşrəf bəy" qoydu. O povestdə kiçik bir məqama diqqət edək:**

"*Sədr: Söz verilir daşnak fraksiyasının üzvü Arşak Malxazyana.*

*Malxazyan: Ağalar, bizim erməni Milli Komitəsinin verdiyi məlumata əsasən Ağstafada polis məmurları və uryadniklər başda olmaqla 40 nəfər ermənini vəhşicəsinə döyüblər. Gəncədə bir erməni yoxa çıxıb. Ələtdə beş nəfər erməni döyülüb. Bu barədə Azərbaycan Hökumətinə məlumat verəcək və təvəqqe edəcəyəm ki, tədbir görsünlər…"*

*Sədr: "Natiq Malxazyan sözünə ikmal etdi. Əlavəsi olan varmı? Buyurun. Söz Hökumət üzvü Əşrəf bəy Tağıyevə verilir".*

*Əşrəf bəy Tağıyev: "Ağalar, cənablar, Malxazyanın dediyi hürriyəti-şəxsiyyə barədə danışmaq istərdim. Cənab Malxazyan bilməlidir ki, Ağstafada, ya Ələtdə 3-5 erməni döyülübsə, təkcə İrəvan quberniyasında iki yüzdən çox Azərbaycan və kürd kəndləri dağılıb viran edilmişdir. Cənab Malxazyan, deyirsiniz ki, Ələtdə beş erməniyə iki şapalaq vurublar. Mən də deyirəm ki, daşnakların hücumundan qaçıb Araz çayını keçərkən 300-ə yaxın dinc müsəlman həlak olub. Hansı daha acınacaqlıdır, cənab Malxazyan?"*

*Malxazyan: "Mastavimə and olsun, mən bu faciələrdən xəbərdar deyiləm".*

Yuxarıdakı bənddə Əşrəf bəyin kimliyini, daxili dünyasını görmək olar. Belə bir şəxs heç vaxt Nəsib bəyə əl qaldırmazdı.

**İki müəmmalı versiya**

Daha doğrusu, daha iki müəmmalı versiyanı da diqqətinizə çatdıraq. Çünki Nısib bəyin ölümü barəsində deyilən bütün sözlər zatən müəmmalarla dolu olub. Məsələn, mənbələrin birində-Şəfiqə xanımın xatirələrində guya yazılır ki, Nəsib bəy Tiflisdə öldürülüb. Qardaşı Həmid bəy bir müddətdən sonra ora gedərək, onun məzarını tapır.

Növbəti memuar mənbədə isə Nəsib bəyin ölümünün guya şayiə olduğu bildirilir. Hətta yazılır ki, qoca atası ölən günə qədər Nəsib bəyin yolunu gözləyib…

**Əsərlərində əxlaqsızlığı "yayan", Mir Cəfər Bağırovu "öldürmək" istəyən yazıçı**

Qanlı 1937-ci ilin məşhur anti-qəhrəmanı Seyfulla Şamilov yenə də öz işindədir. O Seyfulla Şamilov ki, cəmi bir neçə aydan sonra onun özünü də repressiya qurbanı edəcəkdilər. Hələlik isə onun Tağı Şahbazi haqqında çıxışına nəzər salaq:

*"Şura vətəndaşı hər şeydən əvvəl, hər bir xırda hərəkətdə prinsipial olmalıdır. O sovet vətəndaşı simasını göstərməlidir. Tağı Şahbazi də öz sifətini göstərmişdir. Bunun hekayəsi iki fahişə haqqındadır. Məsələn, "Bahar gecəsi" bizim ədəbiyyatımızda çap olunmuş. "Bahar gecəsi" bir qadına "uxajıvat" etmək haqqındadır. Mən elə zənn etdim ki, bunu Tağı Şahbazi axırda ifşa edəcəkdir və bir ideya ilə bağlayacaq. O hekayəni məmləkətimizdə olan qızlar, ölkəmizdəki gənclər oxuyanda deməzlərmi həyat nə ilə məşğuldur, partiya nə ilə məşğuldur, Tağı Şahbazi nə ilə məşğuldur." (Aslan Kənan, "XX əsrdə repressiyaya qurban gedənlər")*

Hər şey bu gülməli ittihamdan sonra başlandı. Partiya sıralarında və ədəbiyyat aləmində get-gedə böyük nüfuz qazanan yazıçını da əllərinə düşən böyük fürsət dalğasında- repressiyada məhv etmək istəyirdilər. Yuxarıdakı ittiham onu sırf bir yazıçı kimi gözdən salmaq, ittifaq sıralarından xaric etməkdən yana idi. Buna da nail oldular. Tağı Şahbazinin insanlar təbiətin ülvi vəhdətini çox gözək əks etdirən və əxlaqsızlıqdan deyil, saflıqdan bəhs edən əsərini "fahişəliyin təbliği" hesab edərək onun yazıçı fəaliyyətini şikəst edirlər.

Artıq birinci mərhələ yerinə yetirilmişdi. Növbədə ikinci mərhələ- B planı var idi. Buna əsasən, Şahbazi ömrünün 22 ilini həsr etdiyi və böyük nüfuz qazandığı partiya işindən ayrılmalı, sıradan çıxmalı və bununla da repressiyanın caynağına düşməli idi.

Növbəti qurğu özünü çox gözlətmir. Birinci iftirada Şahbazi bir yazıçı kimi təhqir olunmuşdusa, ikincidə onun şəxsiyyəti də təəssüf ki, tapdanır. Onun kimi nəcib və ədəbli bir insanı kiməsə təcavüz etməkdə ittiham edirlər. İftiranın ağırlığı Tağı Şahbazinin əl-qolunu bağlayır.

Təsəvvür edin, o dövrün qanunlarına görə, əgər kimsə başqasına qarşı cinsi təcavüz edərdisə, kimliyindən asılı olmayaraq, onu ölüm cəzası gözləyirdi. Tağını isə yalnız işdən və partiya sıralarından çıxarmaqla kifayətləndilər. Çünki onlara elə bu lazım idi. Amma fərqində deyildilər ki, bu addımla özlərini ifşa etmiş olacaqlar.

Aslan Kənan bu barədə yazır: ”Leçkomissiya”nın (müalicə komissiyası) direktoru olarkən həbs edilir. Həbs edilməsində əsas göstərilir ki, guya Tağı Şahbazi öz kabinetində tibb xidmətçisini zorlayıb. Nədənsə “hadisədən” sonra Oktyabr rayon partiya komitəsinin qərarı ilə T.Şahbaziyə töhmət verilir və onu işdən azad etməklə məsələni bu yolla “həllinə nail olurlar.”

Doğrudur, o zaman Tağı Şahbazi həbs olunmur. Amma bu ittiham onun üçün əsl fəlakət demək idi. Həm də bilirdi ki, hansısa böyük oyunun önəmli bir detalı da bu idi. Belə bir ittihamla gözdən salınan dövlət xadimi 1937-ci il hadisələri gələndə bu faktı göz qabağına gətirdi. Bildi ki, məhz həmin qurama oyun səbəbindən partiyada yerini, dövlət işində vəzifəsini itirən yazıçını şərləmək bu dəfə daha asan olacaqdı...

Yenə 1937-ci il... Bu dəfə yaydı. Tağı bilir ki, artıq bundan o tərəfə yol yoxdu. Onu da Əhməd Cavadın, Müşfiqin, Cavidin

yolu gözləyir. Təkcə qoca ata-anası və gənc ailəsi, qızı Dilarə haqqında düşünür. 11 iyunda isə həbs edilir. Həbsdə nə illah edirlərsə, heç nəyi boynuna almır. Nəticədə Cəfər Bağır, Həmid Sultanov və başqalarını onun üzünə saxlayırlar.

Ona o qədər işgəncələr verirlər ki, axırda qələm götürüb özü-özünü cinayətkar adlandırır. Ruhulla Axundov, Sultanovla birgə əks-inqilabçı fəaliyyətindən danışır. Amma adamda böyüklüyə baxın ki, özü haqqında elə yazsa da, Səməd Vurğun və başqaları barədə mənfi nəsə demir. Nəhayət həbs olunur:

*"Hazırki ərizəmlə nəzərinizə çatdırıram ki, bugünkü günə qədər mən istintaqa düzgün ifadə verməmişəm. Başa düşdüm ki, bu susmağım mənasızdı. Ona görə də vinayətlərimi səmimi etiraf etməyi qərara aldım".*

Tağı Şahbazi daha sonra könüllü surətdə etiraf edir ki, o, doğrudan da əksinqilabçı olmuş, 1935-ci ildən H. Sultanov, Cəfər Bağır və Ruhulla Axundovun təsiri altına düşməsini deməklə yanaşı sovet hökuməti əleyhinə hərbi çevrilişdə və Kommunist Partiyasının rəhbərlərinə qarşı terrorda iştirak etdiyini də bildirib.

Təbii ki, bunların hamısı cəfəngiyyat idi. Sağlamlığını itirən və tezliklə ölümdən başqa heç nə arzulamayan yazıçı son istəyinə çatmaq üçün bunları deyirdi. Çünki başqa repressiya qurbanları ilə müqayisədə Tağı Şahbaziyə qarşı "barıtın miqdarı çox olmuşdu". Onu partiya liderlərinə, əsasən də, Mir Cəfər Bağırova qarşı terrorda suçlayırdılar ki, bunun da cəzası birbaşa güllələnmə demək idi. Şahbazi isə bu "günahlarını" etiraf etməklə yalnız ona doğru tələsirdi.

Sovetin mənfur güclərinin ən rüsvayçı iftiralarına tuş gələn Tağı Şahbazi ölümünü çox gözləmir. 1938-ci ildə cəmi 15 dəqiqə ərzində keçirilən məhkəmə prosesində barəsində ölüm hökmü çıxarılır. 15:30-da başlayan məhkəmə prosesi 15:45-də

bitir. O boyda Tağı Şahbazinin ömrünə 15 dəqiqəlik prosesdə son qoyulur.

Amma bu son deyildi. Tağı Şahbazinin cismani xilasının bayramı uzun müddət davam etmir. Bundan sonra onun ruhunu incitməyə başlayırlar. Çox sevdiyi həyat yoldaşı Mariya Şahbazi vətən xaininin arvadı itttihamı ilə həbs olunur. Qoca anası və 9 yaşlı qızı kimsəsiz- kimsənəsiz qalır. Mariya Kirilovna 8 il azadlıqdan məhrum edilir. Tağı Şahbazidən yadigar qalan 3 nəfərlik bədbəxt ailənin bütün iztirablarına yalnız 1956-cı ilin bəraətindən sonra son qoyulur.

## "Koroğlu"nu ermənilərdən qoruyan, Bağırov və Beriyaya "sui-qəsd edən" alim

Vəli Xuluflu yeni əlifba islahatının əsas ideoloqlarından biri olub. Tanınmış folklorşünas alim cəmi 43 il ömür yaşamasına baxmayaraq, milli yaddaşın mühafizəsində dura bilib. Elə bu səbəbdən də bir çox təzyiqlərə, haqsızıqlara məruz qalıb və nəhayət, 1937-ci ilin qanlı repressiyasında qurban gedən aydınlardan biri olub.

1937-ci ilin apreli... Artıq növbə Vəli Xulufluya da çatıb. Çünki bir neçə ay bundan əvvəl həbs edilən və aramsız işgəncələrə məruz qalan başqa ziyalılar cismani əziyyətlərə dözməyərək, alim haqqında "həqiqətləri" söyləmişdilər. Xuluflunu həmkarı  Hənəfi Zeynallı ilə sonradan həbsxanadaca üzləşdirəcək və səbirsizliklə ölümünü arzulayan Hənəfi Zeynallı dostunun əleyhinə ifadə verəcəkdi. (Yalnız ona görə ki, çox arzuladığı güllələnməyə məruz qalaraq, canını cəllad əlindən qurtarsın). Yəni, vəziyyət bu dərəcədə ağır idi. Amma bu haqda az sonra.

İndi isə 1937-ci ilin yazıdır... Vəli Xuluflunun iki darotaqlı mənzilində DTK-nin aidiyyatlı şöbəsi axtarış aparır. Nə tapsalar yaxşıdı?- partiya bileti, pasport, Buxarin, Trotski, Zinovyevin şəkilləri, hərbi bilet, kitablar, dəftərlər və fotoşəkillər. Başqa heç nə!

Amma görün təkcə bunlardan istifadə edərək, folklorçuya nə cür ittihamlar irəli sürürlər: "1 dekabr 1934-cü ildə trotski-zinovyevçi terrorçu təşkilatının üzvü, Kirovun qətlində iştirakı, 1934-37-ci illərdə partiya və hökumət rəhbərlərinə qarşı terrorda günahlandırılır". (Aslan Kənan, "XX əsrdə repressiyaya qurban gedənlər")

Görün, öz işi ilə məşğul olan, zəif cüssəli folklorşünas onlar üçün nə dərəcədə təhlükəli şəxs imiş ki, onu iki rəhbərə – S.M. Kirov və Mir Cəfər Bağırova qarşı sui-qəsddə, terror cəhdində günahlandırılırdı.

Ona qarşı irəli sürülən 6 maddədən ən əsasları da elə bunlar idi.

Yox, hələ bu da tam deyildi. Onu sonradan Stalinin sağ əli olan Beriyaya qarşı sui-qəsd cəhdində də günahlandırdılar. Məhz bundan sonra Vəli Xuluflu həbs edilir. Amma gözləri zəif görən, fiziki baxımdan o qədər də hazırlıqlı olmayan Vəlinin dözümü işgəncə işlərini yerinə yetirən erməni leytenantları belə heyrələndirir. Xuluflu başqa ziyalılardan fərqli olaraq, işgəncələrə 6 ay dözə bildi ki, bu da görünməmiş bir zaman müddəti idi. Amma hər şeyin də bir sonu var. İnsan orqanizmi müəyyən həddə qədər nələrəsə dözə bilər. Artıq ağır durumda olan Vəli Xuluflu bundan sonra nəyinsə düzələcəyinə, səhhətinin yenidən bərpa olacağı inamından əl çəkərək, hər şeyi "etiraf edir". Bəli, guya o boyda Beriya, Kirov və Bağırova məhz o, sadə bir folklorçu sui-qəsd təşkil edib. Xuluflu həm də ona görə boynuna alırdı ki, bu maddə ilə təqsirləndirilən şəxsləri

Sibirə göndərməyib, birbaşa güllələyirdilər. Özü də maksimum 15 dəqiqə çəkən məhkəmə proseslərindən sonra.

Amma bir detalı da vurğulamaq lazımdır: Vəli Xuluflu öz "günahlarını" etiraf etsə də, ondan Əli Nazim, Seyid Hüseyn və Ruhulla Axundovla bağlı böhtan dolu ifadələri almaq mümkün olmur. Məhz ondan sonra DTK-nın qanlı şöbələrinin birində inləyən növbəti "kozer" –Hənəfi Zeynallı Vəli Xuluflu ilə üzləşdirilir. Bu üzləşməni iki erməni qaniçən müstəntiq – Avanesyan və Qalstnyan həyata keçirirdi. Hənəfi Zeynallı Vəli ilə görüşməzdən əvvəl müstəntiq onunla xeyli söhbət edir və bir növ tənqidçini həmin dialoqa "hazırlayır".

Taleyin ironiyasına baxın ki, ömürlərini elmə qurban verən, iki vicdanlı alim bu iki qaniçən ermənininin təzyiqləri səbəbindən üzləşməli olurlar:

"Müstəntiq:- Vətəndaş Vəli Xuluflu haqqında sizə nə məlumdur?

-Hənəfi Zeynallı:- Mənə məlumdur ki, Vəli Xuluflu millətçidir və əksinqilabın üzvüdür.

Müstəntiq Vəli Xulufluya: -Siz Hənəfi Zeynallının bu ifadəsini təsdiq edirsiz?

Vəli Xuluflu: -Doğrudan da mən əksinqilabçıyam. Amma əksinqilabi hərəkatın üzvü olmamışam". (Aslan Kənan, yenə həmin kitabdan)

Daha sonra çox vacib bir detal barəsində söhbət açılır ki, sorğu-sual edən ermənilərin də dərdi o zaman yenidən təzələnir. Sən demə, onların Vəli Xulufluya bu qədər acıqlı olmağının həm də başqa səbəbi var imiş- "Koroğlu" dastanı...

Aranın qarışıb, məzhəbin itməsindən istifadə edən erməni "alimləri" "Koroğlu"nun məhz onlara aid olduğunu və onun erməni çarı Arşakın oğlu olduğunu iddia etmək istəyirdilər. Məhz

o zaman bu iki alim qollarını çırmayaraq, dastanı ermənilərdən xilas edirlər. Ortaq türk dastanı olan "Koroğlu" H.Zeynallı və Vəli Xuluflu tərəfindən tarixi və etnoqrafik, folklorşünaslıq müstəvisində araşdırılır. Alimlərin gətirdiyi elmi dəlillər qarşısında susan ermənilər iddialarından əl çəkməli olurlar. Lakin bu xəbər artıq DTK-da işləyən ermənilərə çoxdan gedib çatmışdı. Odur ki, indi bu iki alimi bir-birinə qarşı qoyub onlara mənəvi işgəncə verməkdən həzz alırdılar. Amma Hənəfi Zeynallı son nəfəsində də olsa belə "Koroğlu" adı gələn kimi yenidən erməni müstəniqlərə qarşı çıxır və bu işdə Vəli Xuluflaya kömək etdiyini deyir:

"Vəli Xuluflu danışırdı ki, erməni Kananyan "Koroğlu"nun onlara məxsus olduğunu və çar Arşakın oğlu olduğunu "sübut etmək" istəyir. Mən də cavab verdim ki, "Koroğlu" Azərbaycanın qəhrəmanıdır və onun erməni çarının oğlu olduğunu tanımaq belə istəmir. Bu mühakimə milli zəminə keçdiyindən mən Xulufluya dedim ki, "Koroğlu" üzərində işlərimi davam etdirəcək və onun müstəqil Azərbaycanın milli qəhrımanı olduğunu göstərəcəyəm. Xuluflu mənimlə razılaşdı və dastanın tarixi hissəsini işləməkdə mənə kömək etdi".

Bu da son... Erməni cəlladlarının yanında bu iki yarımcan alim onlara son zərbəni vurur. Daha sonra isə özləri qalib ədasıyla güllə qarşısına keçirlər.

1937-ci ilin 13 oktyabrında Xuluflu güllələnir. Daha sonra isə univermaqda tikişçi işləyən arvadı Fatma xanım işdən qovulur. Evdə azyaşlı uşaqlarına verəcək çörəyin olmadığını görüb bütün əşyalarını satır. Amma bu da uzun çəkmir. Vəlini öldürməklə ürəyi soyumayan cəlladlar onun arvadını da "vətən xaininin həyat yoldaşı" ittihamı ilə 8 il müddətinə həbs edirlər.

Amma Fatma xanım dözür. Həbsdən çıxır, uşaqlarına qovuşur. Hətta 1956-ci ildə ərinin bəraət kağızını da özü alır və

sevinir ki, onun, ümumlikdə bu xalqın övladları, nəvə-nəticələri "Koroğlu" dastanını alın açıqlığı ilə oxuya biləcəklər...

## Qohumları tərəfindən məzarı axtarılan Cumhuriyyət naziri

Çar Rusiyası dövründə Dumaya seçilən tək-tük azərbaycanlılardan biri olan bu şəxs başqa deputatlardan öz cəsarəti ilə fərqlənirdi. Birbaşa Dumada bildirirdi ki, Azərbaycana muxtariyyət verilməlidir, həm də, ya azərbaycanlılar başqa millətlərin nümayəndələri kimi hərbiyə getməli, ya da verdikləri vergidən azad olunmalıdır. Bu təklifləri etmək, o zaman rus çarının üzünə vurulan şilləyə bərabər idi. Amma tək bununla bitmir. Haqqında danışacağımız şəxs peşəkar bir hüquqşünas kimi heç nədən çəkinmir, azərbaycanlıların ana dilində təhsil alması, torpaq islahatına dair qanun layihələri təklif edirdi. Daha sonra çar Dumanı buraxdı. XX əsrin əvvəllərindəki ağır ictimai-siyasi proseslər nəticəsində yaranan Azərbaycan Xalq Cumhuriyyəti də Əsgər və Ələkbər adlı iki qardaşı ilə hər zaman ideoloji proseslərin önündə gedən bu şəxsi unutmur. Elə həmin gün yəni, bizim üçün müqəddəs sayıla biləcək 28 may günündə AXC-in Ədliyyə Nazirliyinin yaradılması barədə qərar qəbul edilir və Xəlil bəy Xasməmmədov Azərbaycanın ilk ədliyyə naziri təyin edilir.

O, müstəqil hökumət dövründə formalaşdırılan beş hökumətdən dördünün tərkibində iştirak edib. İki dəfə ədliyyə naziri, iki dəfə daxili işlər naziri vəzifələrində çalışıb.

O dövrdə daxili işlər orqanları hərbi nazirlik, təhlükəsizlik və xüsusi xidmət orqanları ilə sıx əlaqəli şəkildə fəaliyyət

göstərirdi. Bunun da əsas səbəblərindən biri o idi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə qarşı işləyən təxribatçı qüvvələrin xeyli hissəsi milli ordunun və digər qurumların tərkibində əsgər, çavuş, zabit, polis və s. vəzifələr daşıyırdılar. Ona görə də hökumətin əleyhinə planlaşdırılan hər hansı bir təxribatın qarşısını almaq üçün birgə fəaliyyət zəruri idi.

Xəlil bəy Xasməmmədovgil ailədə dörd qardaş olublar. Qardaşlardan üçü – Xəlil, Ələkbər, Əsgər hüquqşünas idi. Böyük qardaş Ələkbər ideoloji cəbhənin önündə gedərək özünü bu yolda fəda edənlərdən idi. O, ayrı-ayrı vaxtlarda “Qeyrət”, “Difai” kimi təşkilatların yaranması və idarəetməsində aktiv rol oynayıb. Amma 1925-ci ilin məşhur qətliamlarında Ələkbər bəy də güllələnir.

Qardaşlardan yalnız axırıncısı Nağı bəy Xasməmmədov hüquqşünas olmayıb. Amma bu gün həmin ad bizə daha yaxşı tanışdır. Çünki onun qızı Dilguşə xanımı, həyat yoldaşı Çingiz bəyi, Azərbaycan elitar zümrəsi yaxşı tanıyır. Daha dəqiq desək, Xəlil bəyin qardaşı qızı Dilguşə xanım mərhum akademik Çingiz Cuvarlının həyat yoldaşı, ekspert-analitik Toğrul Cuvarlının isə anasıdır. Gəncənin iki məşhur ailəsinin - Cuvarlılılar və Xasməmmədovların qovşaq nöqtəsi olan bu ailə sonradan hər iki nəslin adının yaşaması üçün kifayət qədər çalışıb. Bir neçə il bundan əvvəl dünyasını dəyişən Dilguşə xanım o zamankı tarixi hadisələrin bir növ canlı kitabxanası olub. Amma heç onun özü də əmisi Xəlil bəyi, o cümlədən digər əmilərini görməyib. Çünki bolşevik rejimi 1920-ci ildə AXC-nin müstəqilliyini məhv etməklə onun liderlərini pərən-pərən saldı. Bu zaman gəncəli liderlər – Xəlil bəy Xasməmmədov və Nəsib bəy Yusifbəyli (baş nazir) də ölkədən kənarda idilər.

Nəsib bəy o hadisədən sonra Gürcüstana gedib və yolda xəyanət nəticəsində öldürülüb. Xəlil bəy isə süqutun astanasında İstanbula səfir göndərilib və AXC-nin istilasını da orada eşidib. Amma bu o demək deyil ki, bolşevik istilaçılar Xəlil bəydən belə asanlıqla əl çəkdilər. Əsla yox, həm Xəlil, həm də qardaşları Əsgər və Ələkbərin ictimai fəaliyyəti səbəbindən bolşeviklər onların Gəncədəki ailələrini çox incidib. Ailə demək olar ki, didərgin düşür. Hətta ən kiçik qardaş Nağı bəyin oğlunu da (Toğrul Cuvarlının dayısı) təqiblərlə üz-üzə qoyub onu hər şeydən təcrid edirlər. Əsas səbəb isə elə nazir əmisi Xəlil bəy olur.

Xəlil bəyin özü isə başqa silahdaşları kimi Azərbaycana qayıtmağın mümkünsüzlüyünü dərk edir. Bütün həyatını elə qardaş Türkiyə ilə bağlayır. Orada Xəlil bəy Gurgören imzası ilə publisistik fəaliyyətlə məşğul olur. O zaman Azərbaycan mühacirləri iki cəbhədə - həm Avropa, həm də Türkiyədə məskunlaşıb öz ideoloji mübarizələrini davam etdirməyə çalışırdılar. İstanbuldakı Xəlil bəylə Avropdakı Məhəmməd Əmin Rəsulzadə arasında elə ideoloji məsələlərdə fikir ayrı-seçkiliyi yaranır və onlar daha sonra münasibət qurmurlar. İncikliyin səbəblərindən biri də Xəlil bəyin Avropaya getməyib Türkiyədə qalmasına üstünlük verməyi idi.

Türkiyədə də olsa, sabiq nazir çox tənha bir ömür yaşayır. Ətrafında vur-tut bir neçə yaxın ailə var idi. Bunlar Xoyskinin ailəsi və ona qohum olan sabiq baş nazir Yusifbəylinin ailəsi idi. İstanbulda Xəlil bəy Suat adlı bir gənc türk qızı ilə evlənir. Amma çox təəssüf ki, onların varisi olmur. Xəlil bəy haqqında xatirələri Nəsib bəyin qızı Zöhrə xanım sonradan onun yaxınlarına danışıb. Yaxınları deyərkən, konkret olaraq professor **Toğrul Cuvarlı** anasının xahişi ilə iki dəfə İstanbula, babasının

qardaşı olan Xəlil bəyin məzarını ziyarət etməyə gedib. Amma nə Xəlil bəyin məzarını ziyarət edə, nə də Zöhrə xanımla görüşə bilib. Zöhrə xanımın evini tapsa da, artıq o dünyasını dəyişmişdi. Toğrul Cuvarlı sonradan mətbuata Xəlil bəyin qürbət ömrü və onun dəfn olunduğu yer barəsində bunları danışıb:

"Xəlil bəy Xasməmmədovun ölüm tarixi bəzən 1947, bəzən isə 1945-ci il göstərilir. Mənim anam, yəni onun qardaşı qızı Dilguşə xanım həmişə deyirdi ki, o, 1945-ci ildə vəfat edib. Amma mənim yadıma gəlir ki, "Amerikanın səsi" radiosunda "Azərbaycan" adlı veriliş var idi. SSRİ-yə qarşı "soyuq müharibə" məqsədilə təzə-təzə görülən işlərdən biri idi. Mən Xəlil bəyin səsini 1946-cı ildə oradan eşitmişəm. O zaman alman "pryomnik"lərinə gecə vaxtı qorxa-qorxa qulaq asırdıq. Elə bil ki, mən onun səsini radiodan eşitdim. Anama dedim ki, onun səsini eşitmişəm. Anam inanmadı. O, həmişə deyirdi ki, əmisi 1945-də ölüb. Mən iki dəfə İstanbula getdim. Anamın xahişi ilə Xəlil bəyin də məzarını ziyarət etməliydim. Eşitmişdim ki, orada Feri Köy qəbristanlığında basdırılıb. Birinci dəfə axtarış çox uğursuz oldu. Baxmayaraq ki, Xoyskinin qohumları məzarın yerini mənə demişdilər. Sxem də çəkmişdilər. Amma mən birinci dəfə tapa bilmədim. Özü də Nağı bəy Şeyxzamanlının yanında dəfn olunub. Həm də həyatda da yaxın dost olublar. İkinci dəfə isə mən məsələyə rasional yanaşdım. Orada basdırılanların adı əks olunan kitabça var idi. Lazımı adamlara yaxınlaşdım, məsələni dedim. Onlar da kitabçaya baxdılar. Soruşdular ki, adı nədir. Mən də onun Türkiyədəki yazılarında işlətdiyi təxəllüslə dedim. Dedim ki Xəlil Gurgören. Orada adını tapdılar. Vəfat ili 1945-ci il yazılmışdı. İnanmıram ki, o kitabda səhv yazıla.

## Amma Xəlil bəy Xasməmmədovun qardaşı nəvəsi Toğrul Cuvarlı bundan sonra da qohumunun məzarını tapa bilmir:

“Elə həmin adamlar mənə dedilər ki, məzar ya 22, ya da 23-cü cərgədə ola bilər. Getdim, amma tapa bilmədim. Araşdırmaçı Xanlar Bayramov da bu istiqamətdə işlər görüb. Amma o, Nağı bəy Şeyxzamanlının qəbrini tapıb şəklini çəkmişdi. Mən Nağı bəyin qəbrinin yanına gedib Xəlil bəyin məzarını tapa bilmədim. Deyilən işarələrlə də tapılmadı. Bu dəfə istəyirdim ki, gedim, anamı sevindirim. Deyim ki, Xəlil bəyin məzarını ziyarıt etdim. Amma mümkün olmadı. Mən Türkiyədə yaşayan azərbaycanlı tələbələrlə, orada çalışanlara deyirəm ki, onlar da Feri Köy məzarlığına gedib ya 22, ya da 23-cü cərgədə Xəlil bəyin məzarı üçün bir daha baxsınlar. Mən yaşlanmışam, o məzarı tapa bilmədim. Onların gözü məndən daha iti görə bilər. Ola bilsin ki, həmin məzarın yeri bilinər və onlar da həmyerlilərinin məzarını ziyarət edər”.

**Toğrul Cuvarlının anası, Xəlil bəyin isə qardaşı qızı Dilguşə xanım bir neçə il bundan öncə vəfat edib. Amma o, bu gün də öz arzusunun həyata keçməsini gözləyir...**

## Əlimərdan bəy Topçubaşovun Rəsulzadəni ağladan məzarı

***“Millət yolunda çalışanlarımızdan bir böyüyü ilə halallaşırıq.***

***Heyhat! Azərbaycan parlamentinin şanlı rəisini, Nümayəndə Heyətinin sayğılı başçısını müsafiri olduğumuz Fransa torpağına əmanət buraxırıq.***

***Parlamento rəisi, Nümayəndə Heyətinin başçısı, Milli Mərkəz üzvü və sairə kimi mərhumun daşıdığı ünvanları zikr etməklə Əli Mərdan bəy adının mənasını tamamilə anlatmaq, mövzunu bütün şümülü ilə qavramaq qətiyyən mümkün deyildir".***

Bu sözləri 1934-cü ilin payızında uzaq Fransa məzarlıqlarının birində Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə məsləkdaşı Əlimərdan bəy Topçubaşovun dəfnində deyib. Aralarında xeyli yaş fərqi olmasına baxmayaraq maarifçi, millətçilik meylləri onları çox yaxın dosta çevirmişdi. Təsadüfi deyil ki, qürbət ellərdə canlarını torpağa tapşıran bu aydınlar son nəfəslərinə qədər Azərbaycan məfkurəsi uğrunda döyüşməkdən yorulmadılar.

O, ilk dəfə çar Rusiyasının Dumasına seçilən ilk dörd müsəlmandan biri olub. Daha sonralar da seçkilərdə onun adı həmişə öncüllərin cərgəsində səsləndi və Topçubaşov Dumadakı "Müsəlman fraksiyasının " rəhbəri oldu.

AXC-in süqutundan sonra ölkəni tərk etməyə məcbur olan və ömrünün qalan 14 ilini qürbətdə yaşayaraq məzarına da orada məskən seçən bu şəxsin bəzi ziyalı nöqtələrinə toxunmaq lazımdır. Məhz bu nöqtələr onu qürbətdə, mühacirdə belə öz missiyasından kənarlaşmağa qoymadı. Vaxtilə ABŞ prezidenti Vudro Vilsonu da öz zəkası ilə təəccübləndirən, Amerika və Avropalıların nəzərində müsəlmanlara olan baxışı dəyişdirən Topçubaşov mühacir olanda da Paris kitabxanalarında belə Azərbaycan uğrunda gərgin çalışmalarda olub.

1920 -1934-cü illərə qədər Parisdə yaşayan mütəfəkkir orada ciddi şəkildə maarifçi işlərlə məşğul olur. Maarifçilik missiyasını davam etdirərək Azərbaycanın görkəmli şəxsiyyətləri, tarixi, ədəbiyyatı haqqında qəzet jurnallarda silsilə məqalələr

yazır. Əslində mühacir olmasına baxmayaraq Fransa dairələrində yüksək intellektinə görə sayılıb seçilən adamlardan olan Topçubaşov bu hörmətini Azərbaycanın mənafeyinə xərcləyir.

Topçubaşov 1934-cü ildə ağır və uzun sürən xəstəlikdən sonra vəfat edir. O, Paris yaxınlığındakı Sen-Klo məzarlığında dəfn olunur. Sonralar məlum olur ki o, həmin dövrün Azərbaycan siyasətçiləri arasında ən məşhur fiqurlardan biridir. Onun ölümü Rusiyadan gedən mühacirlərin əhəmiyyətli hissəsinin sarsılmasına səbəb olur. Ə. Topçubaşovla vida mərasimi ciddi siyasi nümayişlə müşayiət olunur. Dəfn mərasimində azərbaycanlı mühacirlərin böyük hissəsi ilə yanaşı Gürcüstan, Ukrayna, Türküstan, Şimali Qafqaz mühacirətinin nümayəndələri də fəal iştirak edirlər. Beynəlxalq təşkilatların nümayəndələri də onun dəfninə gəlirlər. Hətta erməni mühacirlər də onunla vidalaşmaq üçün mərasimə qatılır. Müxtəlif mühacir milli icmaların nümayəndələri: Akaki Sereteli, Mustafa Çokayoğlu, Vladimir Prokopoviç və başqaları mərhum haqqında son sözlərini dilə gətirirlər.

1993-cü ildə Azərbaycanın o zamankı, Ulu Öndər prezidenti Heydər Əliyev Ə. Topçubaşovun məzarını ziyarət edib. O, mərhumun məzarının üzərində abidənin ucaldılması ilə bağlı dövlət vəsaitinin ayrılmasına sərəncam verib. İndi Ə. Topçubaşovun özünün, xanımının və oğlanlarının uyuduğu məzarın üzərində Ə. Topçubaşovun uğrunda canını fəda etdiyi böyük məfkurənin ideallarını tərənnüm edən yadigar daş abidə ucalmaqdadır...

Həmin üzücü payız günündə Topçubaşovun dəfninə gələn insanlar Məhəmməd Əminin bu son akkordları qarşısında özlərini saxlaya bilmirlər: "Yetmiş beşi haqlayan yaşının heç olmasa əllisini, mərhum durmadan, yorulmadan camaat işinə və millət yoluna vermişdir. Əlli il ömür; yarım əsrlik həyat! Qoca bir dövr!..

Bəli, Əli Mərdan bəyin keçinməsi ilə biz, milli həyatımızda başlı-başına bir dövrü təmsil edən mühüm şəxsiyyətdən ayrılırıq; çünki, Topçubaşi Əlimərdan bəyin ismi müəyyən bir nəsli və müəyyən bir dövrü andırır.

Rusiyada ali təhsil görmüş, Türk və müsəlman ziyalısını barmaqla saymaq qəbul olduğu bir zamanda idi ki, Əli Mərdan bəy meydana çıxmışdı.

...Çox çəkməz məmləkət qurtular; və o zaman mütəşəkkir millət ilk parlamentinin rəisini, istiqlal davasının vəkilini xatırlar, gələr, səni oğlunla bərabər buradan alar, arzu etdiyin vətən torpağına götürər və xatirəni əbədiləşdirər...

***Budur sənə söyləyəcəyim son söz!..***
***Sənə bizlərdən minlərlə rəhmət!..***
***Sənə bizlərdən minlərlə hörmət!..”***

## Ömrünü soyuq daxmada başa vuran Cümhuriyyət generalı

Çar Rusiyasının müxtəlif ərazilərində (əsasən də Türkmənistanda) hərbi xidmət keçmiş bu azərbaycanlı general istefa verəndən az sonra I Dünya Müharibəsi başlayır və o, yenidən zabit formasını geyinib, savaşa yollanır. Çar Rusiyası devriləndən sonra isə Azərbaycanda müstəqil Xalq Cümhuriyyəti bərqərar olduqda Xoyskinin rəhbərlik etdiyi milli hökumət gənc generalı yeni qurulan Daxili İşlər Nazirliyinə nazir müavini kimi dəvət edir. O zaman heç kim inanmazdı ki, 10 minə yaxın polisə rəhbərlik edən bu zabit vaxt gələcək Ukraynanın məşhur professor-şərqşünası olacaq və hətta elə bir vaxt gələcək ki, o, soyuq bir daxmada həyatına vida deyəcək.

Sadıq bəy Ağabəyzadə 1865-ci il mart ayının 15-də Bakı quberniyasının Göyçay şəhərində dünyaya gəlib. 1883-cü ildə Bakı real məktəbini bitirib. Məktəbi bitirdikdən sonra Peterburq şəhərində II Konstantinov hərbi məktəbinə daxil olub.

1886-cı ildə, Qafqazda podporuçik (çar ordusunda hərbi rütbə) rütbəsində xidmət etməyə başlayıb, 10 il keçdikdən sonra - 1896-cı ildə imtahanlarını müvəffəqiyyətlə verərək Sankt-Peterburq şəhərində Şərq Dilləri İnstitutuna qəbul olur. Həmin institutu bitirdikdən sonra, 1899-cu ildə hərbi xidmət keçmək üçün Türküstan vilayətinə göndərilib.

1913-cü ildə Sadıq bəy xəstəliyinə görə general-mayor rütbəsində istefaya çıxıb.

O, Cümhuriyyətin 21 generalı arasında elm xadimi olması ilə fərqlənirdi. Həm o zaman, həm də indiki dönəmdə Sadıq bəy bir döyüş generalından çox, alim kimi xatırlanmaqdadır. Heç kəsin ağlına gəlməzdi ki, çar ordusunun Türkmənistana xidmətə göndərdiyi bir zabit ora gedib türkmənlərin, ümumən türklərin tarixi rəvayətlərini, dastanlarını, əsatirlərini toplamaqla məşğul olacaq. Amma o bunu edib. Topladığı materialları bir yerə yığaraq "Türkmən ləhcəsi" adlı bir dərslik tərtib edib. Şərq elmləri, türk tarixi üzərində araşdırmalar onu hərbdən get-gedə soyudub. Nəhayət o, 1913-cü ildə Türkmənistandan başqa yerə təyinat alan zaman istefa vermək qərarına gəlir. Bu zaman 48 yaşlı zabit artıq rus ordusunun tək-tük türk generallarından biri idi. General-mayor rütbəsində istefa verən Sadıq bəy I Dünya Müharibəsi başladıqda qıraqda qalmağı öz "çiyin"lərinə yaraşdırmır. Səhhətində ağır problem yaşamasına baxmayaraq, savaşa qatılır. Tam olmasa da, 2 il rus ordusuna qulluq edir. 1916-cı ildə isə ağır xəstəlik səbəbindən tərxis olunur və hərbdən uzaqlaşaraq doğma Göyçaya qayıdır...

## Cümhuriyyət generalı

Azərbaycan hərb tarixi üzrə mütəxəssis, ehtiyatda olan polkovnik-leytenant Şəmistan Nəzirli onun haqda belə deyir:

"Ümumiyyətlə, o general kimi Şıxlinskiyə, Mehmandarova, İbrahim Vəkilova baxanda elə də güclü general olmayıb. Amma şərqşünas kimi çox əla alim idi. O gün televizorda da onun haqqında danışdılar. Deyirdilər ki, o, guya Xalq Cümhuriyyətinin müdafiə naziri olub. Bu boyda yalan olmaz axı. O, AXC-in daxili işlər nazirinin müavini oldu. O da bir neçə aylıq. Səhhəti imkan vermirdi ki, işləsin. Ümumiyyətlə, çox cansız insan idi. Sonradan da ancaq elmlə məşğul oldu. Lvovda tələbələri son günə qədər ona yaxşı baxdılar".

Hərb tarixçimizə etiraz etmək fikrimiz yoxdur. Onun elmə marağı hərb marağına güc gələ bilər. Amma bu o demək deyildi ki, Ağabəyzadə hərbçi kimi parlaq fəaliyyətə malik olmayıb. Təsəvvür edin ki, azərbaycanlıların hərbiyə çağırılmadığı bir dönəmdə çox az bir müddətdə çar ordusunun "əjdaha"ları arasında general rütbəsinə qədər yüksələn Sadıq bəyi milli hökumətə birbaşa nazir müavini kimi işə dəvət edilib. O polis və güc orqanlarında müəyyən islahatlar apara bilib. Amerika prezidentinin gənc Azərbaycan dövlətinə göndərdiyi şəxsi nümayəndəsi olan generalı da məhz Sadıq bəy qarşılayıb. Həmin general da Hacı Zeynalabdin Tağıyevin evində bütün rəhbərləri bir qırağa qoyaraq ancaq onun sağlığına badə qaldırıb.

## Lvovun yediyi professor

"General-mayor Ağabəyzadə şərqşünas alim kimi daha çox məşhurdur. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətində daxili

işlər nazirinin müavini olub. 1920-ci ildə İstanbula, əmisi oğlu, professor Əli bəy Hüseynzadənin yanına gedib. Bir il orada yaşadıqdan sonra Fransaya mühacirətə gedib. Ali məktəblərdə fars və türk dillərindən dərs deyən Məmmədsadıq bəy fransızcanı da gözəl bilirdi. Bəxtinə cəlayi-vətənlik düşən görkəmli Azərbaycan oğlu Məmmədsadıq bəy Ağabəyzadə 1927-ci ildən Lvov universitetinin professoru Ziqmund Smoqjevskinin dəvəti ilə Lvov universitetində işləyib. O, ərəb, fars, türk dillərindən dərs deyir, İslam paleoqrafiyasını, epiqrafiyasını və kaliqrafiyasını tədris edirdi. Məşhur polyak şərqşünasları Teofil Volodarski, Olqa Bak, Tadeuş Levitsin və başqaları həmyerlimiz, general-professor Məmmədsadıq bəyin yetirmələri olub. Hərbi fəaliyyətilə yanaşı, şərqşünas kimi də böyük şöhrət qazanan Ağabəyzadə 1904-cü ildə rus dilində "Türkmən ləhcəsi", 1931-ci ildə polyak dilində "Türk dili", 1932-ci ildə "Fars dili", 1934-cü ildə "Ərəb dilinin qrammatikası" kimi sanballı əsərlərini nəşr etdirib. 1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən alınanda bir alman zabiti tənha yaşayan professor Məmmədsadıq bəyin mənzilini öz qərargahına çevirir. Yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məmmədsadıq bəyin zəif vücudu daha da pisləşir. Elm fədaisi və müsavat generalı Məmmədsadıq bəy Ağabəyzadəni 1944- cü il noyabrın 8-də sevimli tələbəsi Tadeuş Levitski Lvov şəhər qəbiristanlığında dəfn edib".

Sadıq bəyin ömrünün son illəri əzab içində keçib. Faşist işğalı zamanı hitlerçilər qocaman alimi öz mənzilindən çıxarırlar. O, pis qızdırılan, çox soyuq və şəraitsiz yerdə yaşamalı olur. Sadıq bəy Ağabəyzadə 1943-cü ildə ağır xəstələnir və 9 oktyabr 1944-cü ildə Lvov azad ediləndən sonra vəfat edir. Son günlərində tələbəsi Olqa Bak və onun əri alimin qayğısını çəkir.

Ömrünün sonunda yazdığı bu vəsiyyət onun qürbət taleyi haqqında hər şeyi özündə əks etdirir:

"Əgər qardaşlarım gəlib çıxmasalar, onda nəyim varsa, T. Levitskiyə qoyub gedirəm. Mənə uzun müddətli sədaqətli xidmətinə görə pani Severina Vilkoşinskayaya üç yüz zlot, Teodozi Krulyovaya yüz zlot, Olqa Voşçaka, mənim şagirdimə bir kitab və istədiyi üç qramafon val verərsiniz".

Bu əslində qürbətin yazdırdığı bir epiloqdur. Çar generalının, universitet professorunun həyat epiloqu məhz bununla bitməli idi. Qürbətdə hamıdan əli üzülmüş və bircə tələbəsi Levitskidən asılı qalan bir ömrün epiloqu nə qədər də təsirlidir...

## Öldürüləndə çantasında bir köynək və diş fırçası olan baş nazir – Tanımadığımız NƏSİB BƏY

O, 1881-ci ildə Gəncədə, ziyalı ailəsində dünyaya gəlib. İlk təhsilini Gəncədə ruhani məktəbində alıb. 1902-ci ildə Odessaya gedərək, Hüquq fakültəsinəə daxil olub. Nəriman Nərimanovun tələbə yoldaşı idi. Baxmayaraq ki, Nərimanov tibb, Nəsib bəy isə hüquq üzrə təhsil alırdı, amma onlar çox yaxşı dost olublar. Onlarla birlikdə daha bir azərbaycanlı Xosrov bəy Sultanov da Odessada təhsil alıb. Bu üç tələbə sonradan Azərbaycanın ictimai-siyasi həyatında, dövlət quruculuğunda çox müstəsna rol oynayıblar. Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru olub. Azərbaycanın ilk hərbi naziri olsa da, sonradan nazirlik Qafqaz İslam ordusunun Azərbaycana gəlişi səbəbindən ləğv olundu. Amma mülki qiyafədə ilk dəfə nazir o olmuşdu.

## Osmanlı jurnalisti ilə müsahibə

Azərbaycana 1918-ci ildə reportaja gələn Osmanlı dövlətinin jurnalisti ilə Azərbaycan Cümhuriyyətinin 2-ci baş naziri Nəsib bəy Yusifbəylinin arasında maraqlı dialoq yaşanır. Bu o zaman idi ki, hələ AXC yeni qurulmuşdu və hökumət Bakıya köçməmişdi. Bir sözlə, vəziyyət ağır idi. Belə məqamda Nəsib bəy AXC-nin mövqeyini ortaya qoyan sözlərlə türk jurnalistə müraciət edir:

**Nəsib bəy:** – Azərbaycana bir türk ordusu gələ bilər və lazımdır da. Ancaq qorxduğumuz bir mətləb var, türklər bizi İstanbuldan idarəyə qalxmasınlar. Bizim ədəmi-mərkəziyyət üzərinə qurulmuş proqramınız vardır, ona uymaq gərəkdir.

**Jurnalist:** – Siz bu ədəmi mərkəziyyət üsulunu rus idarəsinə qarşı irəli sürmüş bulunuyorsunuz. Türklərə gəlincə, onların ruslardan bir fərqi olmayacaqmı? Bu ədəmi-mərkəziyyətə nə lüzum var?

**Nəsib bəy:** – Azərbaycanın sosial yapısı tam başqadır. Bakı bir industri və işçi mərkəzidir. Sultan rejimi buradakı əhvala uymaz. Biz xalqın sinif və təbəqəsinin müsavatı üzərinə dayanan bir hökumət qurmaq fikrindəyiz. Çarlıq dövrünün aristokratik və feodal idarəsinə son verəcəyiz. Milliyyətçi və demokratik bir idarə istiyoruz. Halbuki, Osmanlı padşahlığı rejim etibarı ilə çarlıq idarəsindən fərqsizdir. Əlbəttə ki, bu konu irq məhfumundan ayrılır. Əlbəttə ki, Osmanlı türkləri azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə ediləməz, bunun üçün Müsavat firqəsinin ədəmi mərkəziyyət prinsipi Osmanlı idarəsinə qarşı da var olmalıdır (Baykara H. Azərbaycan istiklal mücadelesi tarihi. İst., 1975 s.269-270).

## "Vallah, billah, yoxdu"

1919-cu il… Təsəvvür edin ki, Nəsib bəy baş nazir ola-ola yaşamaq üçün atasından borc pul istəyir. Bu tərəfdən də Cümhuriyyətin Ukraynadakı diplomatik nümayəndəsi olan Yusif Vəzir Çəmənzəminli oradakı həmvətənlərimizin ağır həyat şəraitini Nəsib bəyə çatdırır və ondan, Azərbaycan dövlətindən bir kömək istəyir. Ən maraqlı məqam isə budur ki, həmin vaxt səfir olmasına baxmayaraq, Yusif Vəzirin özü də məvacib almırdı. Kirayə qaldığı evin pulunu belə, zorən ödəyirdi.

"Mənə məvacib təyin edin. Heç olmasa kirayə pulunu verə bilim"- deyə müraciət etmişdi.

Yusif Vəzirə tapşırılan əsas missiya Ukrayna ilə Azərbaycan arasında münasibətləri bərpa etmək və Azərbaycan tarixini, ədəbiyyatını, mədəniyyətini orda təbliğ etmək idi. Yusif Vəzir işə çox həvəslə başlayır. Simferopolda olarkən səfir təyin edilir. Səfir təyin olunması barədə etimadnamə ona gedib çatmır. Çünki Xarici İşlər Nazirliyinin diplomatik kuryeri etimadnamə ilə birgə 8000 manat pulu səhvən Kiyevə aparır. Yollar və Kiyevdəki vəziyyət təhlükəli olduğundan işin arxasınca getmirlər. Yusif Vəzir mədəniyyətin və ədəbiyyatın təbliğində aktiv fəaliyyətə başlasa da, bəzi çətinliklər – ev və maliyyə problemi onun işini zora salır. Qeyd edək ki, hökumət diplomatik nümayəndə kimi ona maaş təyin etməmişdi. Buna görə də Yusif Vəzir hətta kirayə qaldığı evin pulunu verə bilmirdi. Bu haqda o, Cümhuriyyətin Xarici İşlər Nazirliyində Odessadan göndərdiyi məktubunda yazırdı:

"Xahiş edirəm tutduğum vəzifəyə görə mənə məvacib verəsiniz, işçilərin ştatını isə özüm sizə yollayacağam. Odessada

pulsuz bir vəziyyətdə yaşayıram. Ayda 1200 manat mənzilpulu verirəm, çörəyin girvənkəsi isə 20 manatdır”.

Nəsib bəy əfsuslar olsun ki, onun bu xahişini yerinə yetirə bilmir. Amma Yusif bəy onunla görüşəndən sonra İstanbulu, Avropanı və oradakı universitetləri çox tərifləyir. Azərbaycanlı tələbələrin orada təhsil almasının vacibliyini vurğulayır. Nəsib bəy bu yolda əlindən gələni əsirgəmir. “Cümhuriyyətin məşhur 100 tələbəsi”nin xaricə göndərilməsinin ideyasını o verir və bu işdə müstəsna xidmətlər göstərir.

## Xain plan

1920-ci il 28 aprel çevrilişindən sonra Nəsib bəy öldürüləcəyini bilib Gürcüstana keçmək istəyir. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən çoxu yenidən təşkilatlanmaq və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gürcüstana yerləşmişdi. O zaman Gürcüstan hələ sovetləşməmişdi, bolşeviklərin nəzarətində deyildi. Nəsib bəy sürücüsü ilə yola çıxır. Yevlaxdan Qarxunlu Əşrəf bəy adlı çox mötəbər bir bəy vasitəsilə Gürcüstana keçmək istəyir. Əşrəf bəy çox adlı-sanlı bir adam idi və son dönəmdə parlamentin üzvü də olmuşdu. Lakin Nəsib bəy sürücüsü ilə yolda gedərkən onları izləyən bolşevik xəfiyyələri tərəfindən qarşısı kəsilir. Nəsib bəy Cümhuriyyətin aparıcı şəxsi olduğundan, böyük nüfuza sahibləndiyindən onun aradan götürməsinin planını qururlar. Yolda onların qarşısını kəsib maşını güllləbaran edirlər. Bu hadisə Kürdəmirdə baş verir. Nəsib bəy ölür, amma sürücü ağır yaralansa da, aradan çıxır. Nəsib bəyin də cəsədini maşından çıxarıb bir tərəfə atırlar. Bolşeviklər elə bilirlər ki, Nəsib bəyin çamadanında qızıl, bahalı əşyalar, pul, Cümhuriyyətin varidatı ola bilər. Açanda görürlər

ki, orda çamadanda bir dəst köynək, diş fırçası yəni, gündəlik lazım olan bir-iki əşya var.

## Rəsulzadənin iki misra ilə tanıtdırdığı nakam şair GÜLTƏKİN kim olub?

Məhəmməd Əmin Rəsulzadənin yeganə səs yazısında yaradıcılığından sitat gətirilən Gültəkinin kimliyi bu gün də hamını maraqlandırır. Baxmayaraq ki, Gültəkin imzası, daha doğrusu, həmin  iki "Sən mənimsən, mənimsən durduqca bədəndə can, yaşa, yaşa çox yaşa, ey şanlı Azərbaycan!" misraları həm Əmin Abid, həm də onun ümümi yaradıcılığından hələ ki daha məşhurdur.

Atası daş yonan fəhlə, anası isə qadınlara "Quran" dərsləri keçən Əmin Abid 1898-ci ildə kasıb bakılı ailəsində anadan olub. Zəif fiziki imkanlarına, gözlərindəki problemə baxmayaraq, o, elmə, təhsilə, maarifə marağı ilə seçilib. Hətta zabitlər məktəbində gözlərinin zəif gördüyü üçün seçilməyən gələcək ziyalı maarif nazirinə şəxsən özü məktub yazır. Orada bildirir ki, bu gün vətənə kiçik zabitdən daha çox elmlə silahlanan bir müəllim vacibdir.

İndiki "Nizami" metro stansiyasının yanındakı "Novxanılılar" adlanan məhəllənin sakini olan gənc Əmin Abidi (əsil adı Zeynalabdin olur) III Oğlanlar Gimnaziyasına qəbul edirlər. Buranı bitirdikdən sonra isə Türkiyəyə yollanır, əvvəlcə pedoqoji məktəbdə, sonra İstanbul Universitetinin ədəbiyyat fakültəsində təhsilini davam etdirir.

Onun Türkiyədə qələmə aldığı şeirlər siyasi mühacirlərin köməyi ilə sonradan "Buzlu cəhənnəm" adı altında ayrıca

kitabda nəşr edilir. 1919-cu ildə Azərbaycana qayıdıb Bakı Dövlət Universitetində çalışır.

## Bayraq proqnozu

Məhəmməd Əmin Rəsulzadənin "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində də xüsusi olaraq vurğuladığı Gültəkin imzalı şair uzun müddət arxivlərdə sirr kimi saxlanılıb. Məşhur Gültəkin imzasının Əmin Abidə məxsus olmasını sübuta yetirmək üçün araşdırmaçılar uzun müddət çalışıb. Onlardan biri də hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda çalışan filoloq alim **Əli Şamildir.** Əli Şamil həm onun nakam həyatı, həm də gizli qalan yaradıcılığı barəsində xeyli sirləri ortaya çıxarıb. Onlardan biri də budur ki, hələ 1928-29-cu illərdə Əmin Abidin Dədə Qorqud haqqında fundamental sanballı araşdırmaları olub. Amma Azərbaycan ədəbiyyatşünaslığında Dədə Qorqud haqqında ilk araşdırmalar 1939-cu ildə akademik Həmid Araslıya aid edilir. Bu fakt həm də onun göstəricisidir ki, Əmin Abid  Azərbaycan ədəbiyyatında Dədə Qorqudun ilk araşdırmaçısı olub.

Ana tərəfdən böyük Rəsulzadəyə qohum olan Əmin Abid həm də məşhur şair Əliabbas Müznibin qardaşı idi. Araba düzəltməklə məşğul olan Müznib sonradan Bakının ən talantlı şairi və naşirlərindən biri olub. Əmin Abidin də püxtələşməsində böyük qardaşının rolu az olmayıb. Əmin Abid hələ gənc ikən "Dirilik", "Babayi əmir" jurnallarında onunla birlikdə çalışıb. Bütün bunlar fiziki cəhətdən zəif olmasına baxmayaraq, iradə baxımından yüksək səviyyədə formalşan Əmin Abidi ən üsyankar istiqlal şairi kimi formalaşdırıb.

Əmin Abid hələ o zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin asdığı üçrəngli bayrağın bir gün yenə də formalaşacağını yazırdı:

**Qürbət, şair və Nafiyə xanım**

Əmin Abid birinci dəfə oxumaq üçün Türkiyəyə gedəndə darülfünun yoldaşı Nafiyə xanımla tanış olur və onların arasında böyük eşq münasibəti yaranır. Münasibətlər sonradan evliliyə çevrilir və əslən yunan qızı olan Nafiyə xanım Əmin Abidin ömrünün sonuna qədər ona sadiq qalır. Sonda 1937-ci ildə onun kimi sürgün olunur. Amma güllələnmir, müəyyən tədbirlərdən sonra Türkiyəyə gətirilir və ömrünü orada başa vurur.

Amma kütləvi cəzaya məruz qalmazdan qabaq Əmin Abid ikinci dəfə Türkiyəyə yollanır və orada Azərbaycan ədəbiyyat tarixi, eləcə də folklorşünaslığına aid sanballı əsərlər yazır. İlk dəfə "Oğuznamələr"dən bəhs edir, Füzulinin "Söhbətül Əsmar" alleqorik əsərini ilk dəfə o, meydana çıxarır. Amma onun Türkiyədən Bakıya qayıtma səbəbini isə dəqiq məlum olmur. Araşdırmaçısı Əli Şamil bu haqda danışır:

"Mənə elə gəlir ki, onları mühacir təşkilatı Bakıya göndərmişdi. Gəlməyə bilməzdilər. Məhəmməd Əmin Rəsulzadə belə məsləhət bilibsə, gəlməliydilər. Onu Bakıda yaxşı qarşılayırlar. Darülmüəllimdə dərs verdilər. Pedaqoji texnikumda, universitetdə dərs deməyə başladı, Tədqiq Tətəbbö Cəmiyyətində işlədi. Ona Azərbaycan ədəbiyyatı tarixini yazmağı tapşırdılar. "Kommunist" qəzetində məqalələri çap olunmağa başladı.

"Oğuznamə" ilə bağlı mühazirələr oxudu. "KQB" gördü ki, bunun dedikləri Sovet Hökumətinin istədiyi şey deyil... O, türkçülükdən, milli məsələdən, "Oğuznamə"dən danışırdı, onlarasa şüarlar söyləyən, mədhiyyələr oxuyan adamlar lazım idi.

1929-cu ildə Əmin Abidin adı ilk dəfə "qara siyahı"ya düşdü. Əmin Abidin Nigar Rəfibəyliyə bəzi hekayələrini oxutdurduğu, tələbələrə Türkiyədən gətirdiyi milli hisslər aşılayan jurnallar verdiyi, millətçi iş apardığı "KQB"nin arayışlarında əksini tapıb. 1929-cu ildə tələbələrin gizli "Gənc Azər" təşkilatının üzvləri həbs ediləndə Əmin Abidin də adı istintaqda millətçi kimi hallanıb. Əmin Abidi Bakıdan uzaqlaşdırıb, rayonlarda işləməyə - orta məktəblərdə, texnikumlarda dərs deməyə göndərirlər. Bunun adı sürgün idi. Qubada, Ağdamda, Ağdaşda, Kürdəmirdə işləyir, amma elmi yaradıcılığından da qalmır.

Əmin Abid tutulandan sonra Nafiyə xanım da Türkiyəyə qayıtmaq istəyir. Batumdan viza almaq istərkən, onu da tuturlar. Əmin Abid 1938-ci ilin iyulun 14-də casusluqda suçlandırılaraq həbs edilir və... 3 ay sonra oktyabrın 21-də saat 21:30-da güllələnir".

**"Buzlu cəhənnəm"**

1929-cu ildə Türkiyədə Azərbaycandan olan mühacirlərin şeirlərindən ibarət "İstiqlal uğrunda" kitabını tərtib etmək istəyirlər. Amma məlum səbəblərdən bu proses baş tutmur. Lakin böyük Mirzəbala Məmmədzadə həmin kitabdan Gültəkinin (Əmin Abidin) şeirlərini ayıraraq onları "Buzlu Cəhənnəm" adı ilə ayrıca çap edir. "Buzlu Cəhənnəm"dən bir şeiri təqdim edir:

*Sibirya ey soyuq, ey qorxunc dəniz*
*Şimalın köksündə uyuma səssiz.*
*Qalx, bir müsafirin gəldi, diqqət et.*
*Sənə hədiyyələr gətirdi vəhşət!*

***

*Sən ey, bu gün yalnız qatilin deyil*
*Haqq deyən başın da qəbri olan yer.*

"İstiqlal uğrunda" kitabı tərcüməçi-şair İbrahim İlyaslı tərəfindən tərtib edilərək "Qələm" nəşriyyatında kitab halında çap olunub.

## Əfsanəvi təyyarəçi – Cümhuriyyət yetirməsi

1916-cı ilin sentyabrı... Remarkın məşhur "Qərb cəbhəsində irəliləyiş yoxdur" konsepsiyası tam qüvvəsindədir. Buna baxmayaraq hələ ki, məğlub olan  Qərb cəbhəsinin bir hərbi təyyarəçisi, 11-ci Aviasiya Korpusunun pilotu almanları neçə vaxtdır ki, bərk narahat edir. Onu və onun üzvü olduğu heyəti zərərsizləşdirmək üçün dəfələrlə gizli pusqu qururlar. Əksər hallarda da bu əməliyyatlar uğursuzluqla nəticələnir. Yalnız 1916-cı ilin sentyabrında Belarusiyanın Boruna səmalarında 4 alman təyyarəsi Qərb cəbhəsinin həmin təhlükəli pilotunu təkləyir. O zaman alman cəbhəsində sevinc işartıları əmələ gəlir. Xüsusi heyət havada 4 alman təyyarəsinin bir təyyarəyə necə qalib gəlməsini izləmək üçün tələsir. Amma vəziyyət başqa məcrada davam edir. Almanlar bir də ayılıb görürlər ki, özlərinə məxsus olan iki təyyarə artıq yanır. Digər iki təyyarə isə

mübarizə etməkdən çəkinir. Budur, üçüncü “Albatros” modelli alman təyyarəsi də yandı və yerə düşdü. Artıq almanlar şokdadırlar. Əlavə yardım göndərmək istəyirlər. Amma alman xarakteri buna imkan vermir. Sonun nə olacağını gözlərkən qəfildən axırıncı alman təyyarəsi Qərb cəbhəsinin səma şahininə hücum edir. Yarımcan halda olan təyyarə möcüzə göstərərək, sonuncu alman təyyarəsinə də hücum çəkə bilir. Beləliklə, hər iki təyyarə alovlanmış halda yerə düşür. O zaman Belarusiyanın məlum hissəsi almanların tabeliyində idi. Odur ki, onlar hadisə yerinə təcili gələrək qəhrəman pilotun kimliyi ilə maraqlanırlar. Ona aid olan salamat əşyalar arasında kimliyini də müəyyən edirlər: **Fərrux ağa Məmmədkərim ağa oğlu Qayıbov.**

Bu zaman alman xarakteri və “düşmən”ə münasibət özünü müsbət yönü ilə nümayiş etdirir. Almanlar onun qəhrəmanlığı ilə bağlı məktub yazıb salamt qalan əşyaları ilə birgə Qərb cəbhəsinə atırlar. Həmçinin həmin məktubda pilotun elə onlar tərəfindən hörmətlə dəfn olunacağı da qeyd edilir. Beləcə, cəmi 25 yaşı təzə tamam olan, çar ordusunun poruçiki, Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov alman zabitlərinin atəşfəşanlığı altında elə həmin ərazidə Belarusiyanın Boruno qəsəbəsində dəfn edilir.

1891-ci ildə Qazaxın Salahlı kəndində anadan olan F.Qayıbov 1916-cı ildə az öncə dediyimiz ərazidə vəfat edib və orada dəfn olunub. Qayıbovun məzarı hələ də oradadır.

Yəqin ki, Qayıbovlar nəsli haqqında uzun-uzadı danışmağa o qədər də gərək yoxdur. Nəslin tarixi düz XV əsrə gedib çıxır. İlk məşhur nümayəndələrindən biri isə məşhur şair Molla Vəli Vidadidir. Daha sonra Azərbaycanın ilk şəfqət bacısı olan Nigar

xanım Qayıbova (Əliağa Şıxlinskinin həyat yoldaşı), ilk pianoçu xanım Xədicə xanım Qayıbova, dövrün görkəmli alimi, eləcə də hərbçi Əbdülkərim Qayıbovu misal göstərmək olar. Nəslin sonuncu məşhur nümayəndələrindən biri isə müstəqil Azərbaycan Respublikasının ilk baş prokroru İsmət Qayıbovdur.

Fərrux ağa hələ çox erkən yaşlarında olan zaman atası vəfat edib. Amma əmiləri, xüsusən də Səməd Qayıbov onu himayəsinə götürüb və təhsili ilə məşğul olub. Daha sonra isə Çar ordusunun ən böyük zabitlərindən biri Əliağa Şıxlinski onu hərb tərəfə istiqamətləndirib və Tiflis Kadet Məktəbinə yazdırıb. Orada təhsili tamamlayandan sonra (1913-cü ildə) podporuçik rütbəsi ilə 39-cu artilleriya briqadasına göndərilib. Daha sonra isə onu məşhur edəcək "İlya Muromets" hərbi hava ekipajına qəbul edirlər. O zaman Fərrux ağanın cəmi 22 yaşı var idi. Bundan cəmi 3 il sonra onun qəhrəmanlığı bütün Qərb cəbhəsinə yayılacaq.

**Qayıdaq yenidən 1916-cı ilin sentyabrına... Hərb tarixi üzrə araşdırmaçı Şəmistan Nəzirli Fərrux ağa Qayıbova həsr etdiyi kitabda onun dəfn yeri barədə bunları qeyd edir:**

"Onun qəhrəmanlığı Kayzer ordusunun zabitlərini o qədər mütəəssir etmişdi ki, onlar qəhrəmanlığa ehtiram göstərmək qərarına gəldilar. Odur ki, onu ehtiramla özləri dəfn ediblər. Borunadakı məzarlıqda onunla bərabər heyətin başqa üzvləri də basdırılmışdı. Bu məzarlığın axtarışları uzun çəkib. Çox illər əvvəl ilk azərbaycanlı təyyarəçinin qohumları Krevo yaxınlığına səfər etsə də, həlak olmuş təyyarəçilərin məzarını tapa bilməyib. Yalnız sonralar Belarus mütəxəssisləri - Smorqonşinada Birinci Dünya Müharibəsinin tarixini həvəslə tədqiq edən N.Markova, V.Prixaç və A.Bumay məzarı tapmağa müvəffəq olublar.

Hərçənd, artıq Azərbaycan, Rusiya və Belarus vahid dövlətin tərkibində deyillər və bu suveren dövlətlərin hər birinin öz yeni tarixi və inkişaf yolu var".

Fərrux ağanı bir hərbçi kimi yetişdirən və müharibədə onunla eyni cəbhədə mübarizə aparan general leytenant Əliağa Şıxlinski gənc qohumu haqqında öz xatirələrində bunları yazır:

"Birinci Cahan savaşında 25 yaşlı Fərrux ağa Qayıbov azərbaycanlılardan birinci olaraq hərbi təyyarəçi peşəsini məharətlə öyrənmişdi. Fərrux ağa "İlya Muromets" adlanan böyük bir təyyarə dəstəsinə qəbul edilmiş və "İlya Muromets-16" təyyarəsinin heyətinə daxil olmuşdu. Fərrux ağa bu təyyarədə topçu zabiti vəzifəsini ifa edirdi. O, bombalar salır, düşmənin müxtəlif tikililərini dağıdır, hava vuruşmalarından pulemyotdan atəş açır və düşmən mövqelərinin fotoşəklini çəkirdi. Fərrux ağa Qayıbov ilk uçuşu zamanı Neman çayının üzərində böyük hərbi əhəmiyyəti olan körpünü dağıtmış və beləliklə də alman qoşunlarının və onların müxtəlif hərbi yüklərinin daşınmasını xeyli ləngitmişdi.

Almanlar "İlya Muromets-16" təyyarəsini güdüb məhv etmək istəyirdilər. Onlar dəfələrlə təyyarədən kağız salıb bizi qorxudurdular ki, cəbhənin qərargahı yerləşən Minsk şəhərinə basqın edəcəklər. Almanlar bir neçə dəfə uçub bu şəhərin üzərinə gəlsələr də, o zamankı sadə təyyarəvuran topların atəşi nəticəsində geri qayıtmağa məcbur olmuşdular. 1916-cı il sentyabrın 12-də bir dəstə təyyarəmiz almanların Vilno tərəfindəki cəbhəsinə hücum etməyi qərara aldı. Bu hücumda on iki yüngül təyyarəmiz və bir "İlya Muromets-16" təyyarəsi iştirak edirdi. Az sonra qızğın hava vuruşması başlandı. Almanlar onları lərzəyə salan təyyarəni gördükdə dəlicəsinə vuruşmağa başladılar. Nəhayət, almanlar təyyarələrimizin sıralarına soxulub, "İlya

Muromets-16" təyyarəsini yoldaşlarından ayıra bildilər. Bu təyyarənin igid heyəti almanların dörd təyyarəsinə qarşı bir saat vuruşdu. Sonradan almanlar etiraf etməyə məcbur oldular ki, Fərrux ağa Qayıbovun pulemyotu onlara çox ağır tələfat verdi. Nəhayət, "Albatros" adlanan alman təyyarələrindən biri "İlya Muromets-16" təyyarəsində yanğın törətməyə və təyyarəni yerə salmağa müvəffəq oldu. Təyyarədəki igidlərin dördü də yanıb həlak olmuşdu... Dövlət Dumasının qərarı ilə təyyarənin komandiri poruçik Dmitri Makşeyev və son nəfəsinədək pulemyot güllələri ilə düşmənə divan tutan zabit Fərrux ağa Qayıbov "Müzəffər Georgi" ordeni ilə təltif edilmişdir".

Çox təəssüf ki, uzun müddət Fərrux ağanın harada dəfn olunması ilə bağlı çox az adamda dəqiq məlumat olub.

yalnız son illərdə köhnə məzarlıqda yenilənmə işləri aparan zaman onun məzarı üzə çıxır. Belarus hökuməti Azərbaycan tərəfinə məktubla da müraciət edir. Sovet dövründə isə ilk Azərbaycan təyyarəçisi, çar zabiri Fərrux ağa haqqında danışmağa o qədər də yaxşı baxmırdılar. Odur ki, araşdırmaçıların da çoxusu bu barədə susurdu. Bunu aşağıdakı misal bir daha təsdiq edir:

"1971-ci ildə aviasiya marşalı Pavel Kutaxov Qazax-Tovuz bölgəsindən SSRİ Ali Sovetinə deputat seçilib. Bir il sonra seçiciləri ilə görüşə gələn marşala Qazax ağsaqqalları, ziyalıları deyiblər ki, Birinci Dünya Müharibəsində təyyarəçi həmyerlimiz Fərrux ağa Qayıbov igidliklə həlak olub. Marşal inanmayıb. Ona sənəd, şəkil tapıb, sübut eləyə bilməyiblər. Onda marşal deyib ki, Moskvaya qayıdanda arxivi yoxlatdıracaq. "Əgər doğrudan da sizin həmyerliniz təyyarəçi olubsa, söz verirəm ki, ona bir heykəl, bir nişangah qoyduracağam".

Arxivi yoxlatdırıb-dəqiqləşdirəndən sonra, marşal Pavel Kutaxov bir nömrəli heykəl - təyyarə göndərib. Üzərində də belə

bir lövhə: "İlk azərbaycanlı təyyarəçi Fərrux ağa Qayıbovun xatirəsinə". Lakin o vaxt raykom katibinin göstərişi ilə Fərrux ağanın adına olan lövhəni heykəltəyyarədən sökdürüb, əvəzində belə bir lövhə qoyurlar: "Böyük Vətən Müharibəsində ölənlərin xatirəsinə".

Sonradan həqiqət öz yerini tapmasa da, bu gün uzaq Belarusda belə, onun məzarı bir qəhrəmanlıq obyekti kimi ziyarət olunur. Qürbətin doğma məzarını uzaqdan həmən seçmək olur. Nə zamansa, yolunuz o tərəflərə düşsə, Boruna qəsəbəsindəki məzarlıqda yanında təyyarə abidəsi olan məzarın Fərrux ağa Qayıbova aid olduğunu görərsiniz...

## Əbdürrəhman Fətəlibəyli-Düdənginski haqqında

O, bütün sahələrdəki fəaliyyətində Azərbaycan xalqının müstəqilliyi uğrunda çalışıb. Həm II Dünya Müharibəsindən sonra yaradılan "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının, həm də mühacirətdə iki dildə çıxan "Azərbaycan" qəzetinin baş redaktoru olub.

Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olmuş Əbdürrəhmanın ailəsi nəsilliklə hərbçi idi. Atası Əli bəyi hələ Əbdürrəhman Düdənginski uşaq olarkən rus ordusunun zabitləri qəsdən zəhərləyib öldürüblər. Ağır uşaqlıq illərinə baxmayaraq, Əbdürrəhman bəy öz gücünə yüksək təhsil alır və hərbi akademiyaya qəbul olur. Akademiyanı bitirəndən sonra isə orduya cəlb olunur. II Dünya Müharibəsi zamanı Düdənginski almanlara əsir düşür, digər iddiaya görəsə könüllü olaraq almanlar tərəfinə keçir. Ondan sonra Düdənginskinin əsas

işi Almaniyada olan azərbaycanlı əsriləri azad etmək olur. O, Məhəmməd Əmin Rəsulzadə ilə birləşərək, əsirlərin hüquqlarının artırılması yönündə iş görür.

Düdənginskinin həyat və yaradıcılığı barədə hələlik yeganə kitab yazan tədqiqatçı **Nəsiman Yaqublu** qeyd edir ki, onun Rəsulzadə ilə birgə fəaliyyəti öz nəticəsini verir.

“1941-ci ildə müharibə başlayanda Düdənginski almanlar tərəfə keçir. Bundan sonra isə onun əsas mübarizə istiqaməti hərbi əsirlərin azad edilməsi olub. Çünki onun özü də hərbi əsir idi. O dövrdə də bəzi mənbələrdə 40, bəzi mənbələrdə isə 70 minə yaxın azərbaycanlı əsirin olduğu bildirilirdi. Fətəlibəyli də bu əsrilərdən biri olub. Amma tədricən əsirlərin müəyyən qrupuna bəzi imtiyazlar verilməyə başlanıldı. Onları əvvəlcə “xivilər” (yəni köməkçi hissə) adlandırırdılar, sonra isə “legioner” deyilməyə başlandı.

Məhəmməd Əmin Rəsulzadə siyasi, Düdənginski isə hərbi istiqamətdə Azərbaycanın mənafeyi üçün danışıqlar aparırdılar. Bu danışıqların müsbət nəticəsi olaraq azərbaycanlılardan ibarət hərbi hissələrin yaradılmasına icazə verildi. “Bozqurd”, “İgid”, “Dönməz” batalyonları yaradıldı ki, Düdənginski də o batalyonların komandiri oldu. Azərbaycan hərbi könüllü birləşmələri çox uğurlu döyüşlər aparmışdılar. Onlar hətta Qafqaza Mazdoka qədər gəlib çıxmışdılar”.

Lakin “ikinci cəbhə”nin açılması və SSRİ-yə Qərbin kömək etməsi almanların məğlubiyyətini labüdləşdirir. Almanların artıq məğlub olacağını görən Düdənginski azərbaycanlı legionerləri də ətrafına yığaraq İtaliyaya gedir. Orada da öz siyasi fəaliyyətindən qalmır. Daha sonradan ABŞ-la SSRİ arasında gərginliyin artması Düdənginski və silahdaşlarının yenidən səhnəyə

qayıtmasına səbəb olur. Çünki SSRİ-yə soyuq müharibə elan edən ABŞ-a məhz Düdənginski kimi sovet rejiminə nifrət edən səriştəli insanlar lazım idi.

N.Yaqublu da bu faktın üstündən keçmir: "Onun üçüncü dəfə Almaniyaya qayıtdığı vaxtda artıq Amerika bu kimi insanlardan sui-istifadə etməyə çalışırdı. Çünki görürdülər ki, bu insanlar hələ də sovet rejiminə qarşı mübarizə aparır. O zaman da artıq ABŞ-la SSRİ arasında münasibət gərginləşmişdi. Bu gərginlik 1948-49-cu illərdə özünün pik nöqtəsinə çatdı. Bu məqamda ABŞ-ın görkəmli siyasətçisi olan Eyzenhauerin başçılığı ilə SSRİ-yə qarşı psixoloji müharibə planı hazırlandı. Bu proqrama Qafqazdan olan başqa hərbi siyasi əsirlərlə yanaşı Fətəlibəyli-Düdənginski də cəlb edildi. 1953-cü ildə "Azadlıq" radiosunun Azərbaycan redaksiyası açıldı və Fətəlibəyli-Düdənginski həmin redaksiyanın baş redaktoru oldu. Maraqlıdır ki, həmin redaksiyada ilk buraxılış Stalinin öldüyü gün, yəni 1953-cü il martın 5-də efirə verildi. 1953-54-cü ildə Düdənginski həmin radioda SSRİ-yə qarşı çox kəskin çıxışlar etdi".

## Azərbaycanlının azərbaycanlı qatili

Almaniyadan edilən bu çıxışlar rəsmi SSRİ-ni narahat edirdi. Çünki ABŞ-ın gələcəkdə SSRİ-ni yıxacaq psixoloji müharibəsi özünün pik nöqtəsində idi. Nə olursa olsun, oranın kadrlarını aradan götürmək lazım idi. Sovet DTK-sının Əks-kəşfiyyat İdarəsi bu barədə əsaslı işə keçir. Mühacirətdə olan antisovet fəalları aradan götürmək planında ilk rast gəlinən adlardan biri də Düdənginski olur. Bu məqsədlə Düdənginskinin köhnə legion yoldaşı Mikayıl İsmayılovdan istifadə etmək qərarına

gəlirlər. Belə ki, o zaman vətənə qayıdan İsmayılovun ailəsini girov saxlamaqla qarşısına Düdənginskini öldürmək şərti qoyurlar. Əks halda isə ailəsi və özünü öldürəcəkləri ilə hədələyirlər. Beləliklə, köhnə dost qiyafəsində Düdənginskinin yanına gələn İsmayılov 2 aya yaxın Almaniyada qalır. Düdənginskinin vasitəsilə işlə təmin olunur. Ondan bir çox yaxşılıq görən İsmayılov Fətəlibəylini öldürməkdən vaz keçir. Nəticənin olmadığını görən sovet DTK-sının sarışın xanımı İsmayılova yaxınlaşaraq Düdənginskini öldürməyəcəyi təqdirdə Bakıdakı ailəsinin məhv olacağını bildirir. İsmayılov nəhayət işə keçir.

## Gözlənilən qətlin tarixçəsi

Nəsiman Yaqublu həmin qətl hadisəsini bu cür nəql edir: "Hadisə bir alman xanımın- Böhmün evində baş verir. Əvvəlcə yeyib-içirlər. Bir az keçəndən sonra İsmayılov əlində olan xüsusi maddəni onun içkisinə qatır. Müvazinətini itirəndən sonra isə usta Föstledən aldığı çəkiclə Əbdürrəhman bəyin başına vurmağa başlayır. Düdənginski bir təhər ona müqavimət göstərir, amma ölümdən qurtula bilmir. İsmayılov Düdənginskini öldürəndən sonra isə öz paltarlarını ona geyindirir, öz sənədlərini onun cibinə qoyur və oranı tərk edir. Səhəri gün alman qadın evə gələrkən cəsədi aşkarlayır. Polisə məlumat verəndən sonra gəlib meyitin sənədlərinə baxırlar və orada "Mikayıl İsmayılov" yazıldığını görürlər. Düdənginksini elə Münhendə "Mikayıl İsmayılov" adıyla dəfn edirlər. Bir həftə keçəndən sonra "Azadlıq" radiosunda görürlər ki, Düdənginski işə çıxmır. Soraqlaşandan sonra son günlərdə ölən müsəlmanın harada basdırıldığını öyrənirlər. İcazələrdən sonra meyit ekspertizaya gətirilir və "Azadlıq" radiosunda işləyən İsmayıl Əkbər, Məcid Musazadə Düdənginskini tanıyırlar.

Bu hadisədən bir il əvvəl Düdənginskinin qardaşı da rəhmətə getmişdi. Deyilənə görə, qardaşı da DTK tərəfindən motosiklet qəzasına məruz qalaraq öldürülüb. Oradakı azərbaycanlılar Düdənginskini Münhendən 150 km uzaqda yerləşən Nyu-Umi şəhərində dəfn edirlər. Fətəlibəylinin cənazəsi, 1954-ci ildə avtomobil qəzasından həlak olmuş qardaşı Seyfulla bəy Fətəlibəylinin uyuduğu məzarın yanındadır".

## Dünya siyasi tarixində aclıq aksiyası keçirən ilk şəxs - Azərbaycanlı Əli Yusif

Əli Şamilin Əli Yusif və Şalovki mühazirələrindən kollaj.

"İndi soyuq Sibirin uzaq tundralarında, sovet cəlladlarının vəhşi işgəncələrinə davam gətirməyərək vətən mücahidlərinin bəxtinə əcəl camını içmiş şair Əli Yusif hadisələrin inkişafını bu ilhamlı beytlərlə təsvir edirdi:

Çox dolaşdım əski Şərqin ölü, hissiz yurdunu *Sübh olmuşdu, fəqət bir oyanan görmədim Anlamazdı kimsə onun o şübhəli dərdini. Ağlamazdı ona kimsə, qəlbi yanıq görmədim"*

Bu sözlər Azərbaycan Xalq Cümhuriyyətinin lideri Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur. O, "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı əsərində Azərbaycan poeziyasının bəlkə də ən nakam şairi və nakam olduğu qədər də öyrənilməyən fədaisi Əli Yusif haqqındakı qeydlərdindən götürülüb. O Əli Yusif ki, heç 40 il də yaşamadı və ən acınaqcaqlısı da odur ki, 38 illik ömrünün az qala tən yarısını sürgün və məşəqqətlərdə keçirdi.

## Buzun dəhşət çaları

1926-cı il... Şair Əmin Abid GÜLTƏKİNin “Buzlu cəhənnəm” adlandırdığı Salovki sürgün düşərgəsi... Şimal Buzlu Okeanının qonşuluğunda yerləşən bu ərazi SSRİ-in ən ağır cəza yeri, hamının yaddaşında dəhşətin buzlu obrazı kimi qalmaqdadır. 1926-cı il martın 10-da istiqlal uğrunda gizli mübarizəyə görə həbs edilən bir qrup azərbaycanlı gənc Bakı həbsxanasında da öz mücadilələrini davam etdirir. Bunu görən bolşevik təhlükəsizlik qoçuları onları ən ağır cəza məntəqələrindən biri sayılan Salonikiyə göndərməyi qərara alır. Amma onlar yenə də qürurludur. Çünki bu gənclər onları heç nədən qorxmayaraq uzaq və gedər-gəlməz Salovkiyə yola salan həmvətənlərinin, azərbaycanlı kəndlilərin göz yaşının istisinə bürünüb və uzaq Sibir meşələrində də onları bir müddət bu göz yaşının istisi qoruyacaqdı. Kəndililər ağlaya-ağlaya onlara deyir:

- Sizdən əvvəl gedən qəhrəman gəncliyə Azərbaycan köylüsündən salamlar aparın…

Gənclər sevinirlər ki, onları yola salmaq üçün bu qədər insanlar gəlib. Deməli, Azərbaycan uğrunda mübarizə aparmağa dəyərmiş! Odur ki, qatara minən kimi “şarkı, şarkı” deyərək, bir ağızdan “Ağlama sən, gəlib vətən” mahnısını oxumağa başlayırlar. Onlar bilirlər ki, Şimal buzlu adalardakı meşələrə, şaxtanın içinə, ağır əmək düşərgələrinə göndərilirlər. Onlar bilirlər ki, özlərindən qabaq Salonikiyə sürgün olunanlar ya ölürlər, ya da ölüyə bənzər bir məxluqa çevrilirlər. Amma aralarında Kələntərli Cabbar, B.Səfizadə, Muradxan Naxçıvani, Abbasqulu, B.Həmid Kəngərli, Səlimzadə və başqa Azərbaycan fədailərinin olduğu bu heyəti ayaq üstə saxlayan nəsə var idi. Onlarla eyni vaxtda Salonikiyə sürgün olunan B. Ağaoğlu adlı istiqlal

savaşçısı sonradan yazacağı "Salonikidə gördüklərim" adlı xatirə əsərində bunun səbəbini belə qeyd edəcəkdi:

Salonikiyə çatarkən onları şaxta ilə bərabər şaxtadan da kəsərli və öldürücü olan bir rejim qarşılayır. Əvvəlcə özlərindən əvvəl burada həbsdə olan istiqlal savaşçıları ilə görüşüb qucaqlaşıb ağlayırlar. Məhz şair Əbdürrəhman Dai və onun kimi bir neçə yerli dustağın halını görəndən sonra gələcəklərinə inam tamamilə itir. Çünki onlar artıq o vəziyyətdə idilər ki, fiziki baxımdan həyatdan çox ölümə aid idilər. İlk gün bu qrupu soyuqda üç saat saxlayaraq ac-susuz onlara ağır təlim keçir, Salovki qaydaları ilə tanış edirlər. 40 dərəcə şaxtadan sonra düşərgəyə gətirilən həmvətənlərimiz yerlilərini görən kimi kövrəlirlər. Ağaoğlu kitabında həmin dəqiqəni bu cür təsəvvür edir:

"Bu qrup çox məşəqqətlərə tab gətirə bilir. 18-19 saatlıq ağır əmək, 45 dərəcə şaxtada meşə işləri, aclıq və zəhərli yeməklər istiqlal savaşçılarını tamam əldən salır. Ən pisi də o idi ki, 19 saatlıq ağır əməyin nəticəsində onlara verilən bir parça çörək və balıq şorbasının əzabı daha dözülməz olur. Çünki uzun müddətdir saxlanılan və xarab olan balıqlardan çıxan qurdlar şorbanın üstündə var-gəl edirdilər.

**Növbəti qrup və Əli Yusif**

1927-ci il martın əvvəllərində bura azərbaycanlılardan ibarət növbəti qrup gətirilir. Həmin qrupun tərkibində yazının qəhrəmanı Əli Yusiflə bərabər Vəkilli İsfəndiyar, Muin Niyazi,

Sultanzadə Mehdi, İmanaə Sadıq, Rizabəyli Nəsrüllah, Bəkdəmirzadə Muhsin bəy və başqaları da olur. Qrupda əsasən zabit və maarifçi ziyalılar var idi. Əli Yusifin ölüm düşərgəsi olan Salonikidəki faciələrindən, oradakı aclıq aksiyasından

danışmamışdan əvvəl onun kimliyi ilə tanış olmamız yerinə düşər. Əli Yusifin azsaylı araşdırmaçılarından olan Əli Şamilə istinad edərək deyə bilərik ki, 17 yaşında Şuşa realnı məkətbini bitirdikdən sonra aktiv ictimai-siyasi fəaliyyətə baş vuran şair Müsəlman Xeyriyyə Cəmiyyətində iştirak edir və orada bir sıra lazımı problemlərin həllinə səy göstərir. 1911-20-ci illərdə dövri mətbuatda Əli Yusif və Əli Yusif Rai (yəni, çoban) imzaları ilə çıxış edir. Cümhuriyyətin ali təhsil almaq üçün xaricə yolladığı 100 tələbədən biri olan Əli Yusif 1920-ci ildə Parisdə Siyasi Elmlər Akademiyasında təhsil alır. 1923-cü ildə Bakıya qayıdan maarifçi artıq fəaliyyət göstərməyən Müsavata sadiqliyi ilə seçilir. Bu sadiqlik onun 1924-cü ildə həbsi ilə nəticələnir. Amma adından bir daha siyasətlə məşğul olmayacağı barədə yazılı qeyd aldıqdan sonra azad edilir. Buna baxmayaraq, ona təhsil və hürriyyət eşqi verən Müsavata yenidən sadiq qalır, 1925-ci ildə Azərbaycan Ədəbiyyat Cəmiyyətinin əsasını qoyanlardan biri olur. Bununla yanaşı, Azərbaycan Tətbiq və Tətəbbö Cəmiyyətində də çalışır. Bütün bu açıq siyasi fəaliyyətin sonunda o yenidən həbs edilir və bu dəfə "buzlu cəhənnəmə", Şimal buzlu adalarındakı Saloniki düşərgəsinə göndərilir. O zaman 1927-ci ilin 28 fevralı idi...

**İlk siyasi aclıq keçirən azərbaycanlı**

Əli Yusifi tanıdıqdan sonra yenidən Salonikiyə qayıdırıq. Özü də 1927-ci ilin dəhşətli şaxtalarının ağalıq etdiyi Salonikiyə... Bu elə bir zaman idi ki, burada dustaqlara heç bir güzəştlər edilmir, faciə insanları isə 40 dərəcədən çox şaxtanın altında yırtıq ayaqqabı, nazik və cırıq üst geyimləri ilə, ac qarınları və azarlı vücudları ilə dəhşətin oxşarı olan həyatı yaşamalı idilər. Bəziləri dözmür, meşəyə odun doğramaq üçün getdikləri zaman

balta ilə özlərinə xətər yetirir, hətta əllərini, ayaqlarını kəsmək-dən belə çəkinmirdilər. Sibir həkimlərinin narahatlığını görən həkimlər qərargah rəisinə məlumat verirlər. Qərargah rəisinin qərarı isə belə olur:

-Lazım gəlsə, əlləri və qolları kəsilmiş halda işləməlidirlər.

Beləcə, Salonikidə hər gün onlarla adam dünyasını dəyişirdi.

Əli Yusif də bu məqamda Salonikiyə sürgün edilir. 10 il həbs cəzasına məruz qalan Əli Yusif Azərbaycan və gürcü dustaqla-rı ilə bərabər aclıq aksiyasının ideyasını verir və ona rəhbərlik edir. Salonikidə cəmi 4 sinif bitirmələrinə baxmayaraq, ali təh-silli ziyalılara qan udduran düşərgə zabitləri gözləmədikləri bir vəziyyətlə qarşılaşırlar. Onsuz da əziyyətlərin dəhşətlərinə tab gətirə bilməyən başqa dustaqlar da bunlara qoşulur. Günlərin birində 40 ukraynalı dustaq heç bir səbəbdən gecə vaxtı çölə çıxarılaraq 45 dərəcə şaxtada səhərə qədər işgəncəyə məruz qa-lırlar. Ağaoğlu Saloniki xatirələrində bunları yazır:

“1927 sənəsinin qışında Solovkiyə Azərbaycandan 30 nəfərlik bir millətsevən qəfilə gətirilmişdi. Bunlar vəhşi rejimə təhəmmül etməyərək aclığa qərar verdilər.

...“Bu qrupun qəti ölüm qərarı Solovkidə bulunan bütün azə-rilər tərəfindən qəbul olundu və qrev ümumi bir şəkil aldı. Qrev tam 22 gün davam etdi. İnsanlar acından bütün-bütünə bir skletə döndülər. Haqlarında bir cüzi təhfifat yapıldısada, demək olar ki, bu aclıq qrevlər heç bir şey dəyişmədi. Biləkis Azərbaycan, gürcü və ukrayna millətsevənlərinin bu inadla müqavimət və mücadilələrini Q.P.U. idarəsinin bunlar haqqında daha vəhşicə-sinə və barbarcasına tədbirlər almağa sövq edirdi. Hər bir bəşə-ri, insani hiss və duyğulardan məhrum bulunan bolşeviklərdə insanın insanı tələblərinə qarşı vəhşi bir istehzadan başqa bir şey mövcud deyildir”.

Əli Yusifin həbsxanadakı dəhşətli rejimin əleyhinə qaldırdığı bu etiraz forması onun ən yaxın dostlarının, gəncəli İbrahim Axundzadənin və şəkili Əlövsət Nəcəfovun acından ölümünə səbəb olur.

Buna baxmayaraq, Əli Yusifdən başlayan bu etiraz sonradan başqa millətləri - qazax, qırğız, başqırd və dağıstanlıları da ayağa qaldırır.

Azərbaycan istiqlal şairi, mədəni nəslin nümayəndəsi Əli Yusif dünya siyasi tarixində ilk aclıq aksiyası edən insan kimi tarixə düşməklə yanaşı, vəhşi Solonikinin ilk qəddar düşməni olur.

1935-ci ilin yanvarında sürgündən azad edilir, amma yenə vətənə buraxılmır. Bir sürgündən çıxıb o biri sürgünə düşür. 1937-ci ildə həbs olunur, elə həmin il də dünyasını dəyişir...

Bu gün çox təəssüf ki, istiqlala öz həyatını qurban verən və Rəsulzadə ideologiyasından dönməyən Əli Yusif insanlarımıza o qədər də tanış ad deyil. Fikrimizcə, bu etinasızlığın özü həm onun, həm də məsləkdaşlarının özü üçün ayrıca bir Salonikidir...

## Ömrü boyu bolşeviklərlə mübarizə aparan, bolşevik qayınatası Fətəli xan Xoyski

Azərbaycan ictimai-siyasi və dövlətçilik tarixində bir sıra ilklərə məhz o, imza atıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin ilk dəfə olaraq hökümətini formalaşdırıb. İlk dəfə olaraq o, Azərbaycanda ali təhsil ocağının yaranmasının vacibliyini qeyd edib. Azərbaycan təhsilinin flaqmanı olan Bakı Dövlət Universitetinin təşəbbüskarıdır. Ən nəhayət məhz o Azərbaycanda baş nazir idarə formasının əsasını qoyub və Azərbaycanın ilk baş naziri kimi tarixə düşüb.

“Bizim də həyatda yaşamağa, bizim də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır.”

Bu sözləri Fətəli xan Xoyski 1918-ci il sentyabrın 15-də Bakının yadellilərdən azad olunma münasibətilə səsləndirib. Bu çıxşdan əvvəl də çox çıxışları olmuşdu. Amma Fətəli xan Xoyskinin bəlkə də heç özü də bilmirdi ki, bu qısa 23 ay ərzində ən vacib çıxışlarını edəcək və bu çıxışlar Azərbaycan dövlətçilik tarixinin əsas məramnamələrindən olacaq. Azərbaycan tarixinin və şərqşünaslıq elminin bilicilərindən olan mərhum akademik Ziya Bünyadov da özünün irihəcmli və zəngin faktlarla dolu “ Fətəli xan Xoyski” məqaləsində baş nazirin dövlət quruculuğu sahəsində gördüyü işləri həm keyfiyyət, həm də kəmiyyətinə görə yüksək qiymətləndirir:

1918-ci il iyunun 17-də M.Ə. Rəsulzadənin sədrliyi altında Azərbaycan Milli Şurasının iclası oldu, yeni hökumət kabinəsini təşkil etmək Fətəlixan Xoyskiyə tapşırıldı. O, Azərbaycan Respublikasının ikinci kabinəsini təşkil etdi. F.Xoyski ikinci kabinədə Nazirlər Şurasının sədri və Ədliyyə naziri vəzifələrini yetirdi.”

Ziya Bünyadov bir ictimai xadim kimi Xoyskinin portretini AXC-in rəsmi parlament iclasında Məhəmməd Əmin Rəsulzadədn sonra etdiyi çıxışı səsləndirməklə açmağa çalışır: “Möhtərəm Azərbaycan parlament üzvləri! Bu gün öylə böyük, əziz və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görməzdik. Bu gün o gündür ki, milli müqəddəratınızı öz əlinizə

aldınız. Hökumət bəni vəkil etmişdir bu bayram münasibətilə sizi və sizinlə bərabər özümü təbrik edəyim! Hökumət sizin hüzurunuzda məsul olduğundan borcudur, öz fəaliyyəti və nə kibi şərait altında işlədigi haqqında sizə bəyanət versin. Bən bu gün ümum hökumətin fəaliyyəti haqqında sizə müfəssəl məlumat verəcəyəm; hər vaxt istəsəniz hər nazir öz nəzarətiniz fəaliyyəti haqqında məruzə təqdim edəcəkdir. Bən isə bu gün ancaq hökumətimizin nə kibi şərait altında təşkil edib fəaliyyətdə və müxtəsər tarixi ərz edəcəyəm.

Azərbaycan hökuməti o vaxt Gürcüstan Zaqafqaziyasından ayrılaraq elani-istiqlal etdi. O vaxt xarici ən mühüm bir neçə məsələ var idi. Qafqaz cəbhəsinin ilqası (ləğvi) və Türkiyə ilə mübahisəli olan məsələlərin həlli, hökumətimizin təşkili haman “Türkiyə ilə sülh müzakiratı ehrası əsnasında vaqe olmuşdur.

Daxili vəziyyətimiz isə qayət (son dərəcə) fəna idi. Hökumətimiz öylə bir zamanda təşkil etmişdi ki, bir kənddən digərinə getmək qorxulu idi, heç kəsin irzi, namusu, canı, malı əlində deyildi; rus qoşunları Qafqazdan çəkildikdən sonra dəmir yollarında vüqü bulmuş (baş vermiş) hadisatdan dolayi dəmir yolları tamamilə yarmış kibi idi; post (poçt) və teleqraf müxabiratı (əlaqəsi) bilmərrə kəsilmişdi, dövlətin ən artıq möhtac olduğu maliyyə naminə heç bir şey yox idi.

Dövlət maginəsini (aparatını) təşkil edən idarələrin həpsi dağılmış, xidmətçiləri qaçmışdı, idarələrin bəzilərinin adı vardısa da, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun veriyordı. Hər kəs özü özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdı. Hökumətimiz təsdiq edilməmişdi.Hökumətin səyilə, Türkiyə ilə müzakirat tez qutarıb sülhnamə bağlandı. Fəqət

bununla bərabər daxili işlər o qədər pərişan olan zamanda hökumət daxilində qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz vardı, nə silahımız, biltəbii daxildən düzəltməm mümkün deyildi. Binaənileh (ona görə də) xarici bir qüvvəyə lizum görülərək türklərə müraciət edildi. Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaqt lazım olsa, hüququmuz müdafiəsi üçün türklər bizə bir qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda bu çarəyə təvəssül edildi, türklər iltizamlarında əməl və vəzifələrini hüsn ifa etdilər. Əlbəttə, qoşunsuz, gücsüz görülməsi pək müşkül olan işlər çox çətinlik ilə yavaş-yavaş işləniyordu."

**Amma Xoyskinin siyasi cəbhədəki fəaliyyəti çox böyük maneələrin bazasında formalaşır. Ziya Bünyadovun məqalədə təqdim etdiyi məktub bu gərginliyi çox gözəl əks etdirir:**

"Azərbaycan parlamanı sədri hüzuri-alilərinə - Alişanım Həsənbəy Əfəndi – vücudimə ariz olan əsəbiyyət son günlərdə üzərimə tövdi olunan ağır vəzifəyi lazıma-rəhatül-qəlb üzrə həqq ilə ifa edə bilməyəcəyimə şübhə qaldırıyor. Buna binaən artıq iş başında qalmayacağımı ərz və bu xüsusda məclisi-məbusanın ilk iclasında bəndənizin istefasını təqdim və hökumət təşkili üçün yeni bir zat intixab (seçmə) etmənizi rica edirəm, əfəndim! Səmimanə hörmət və iradətimin zati-aliniz tərəfindən qəbuk ümidindəyəm, əfəndim! Rəisi Vükala Fətəlixan Xoylu". Mövzuya qayıdaq. Əslində o məktubla Xoyskinin qürbətdəki doğma məzarına yaxınlaşırıq. Çünki o məktubun yazıldığı tarixdən sonra Xoyski həyatda çox yaşamır. Araşdırmaçı alim Nəsiman Yaqublu F.X.Xoyskinin ölümü barədə bunları danışır:

“1920-ci ilin aprel işğalından sonra Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Azərbaycanın görkəmli dövlət qurucuları demək olar ki, ölkələrini tərk etmək məcburiyyətində qaldılar. Məmməd Əmin Rəsulzadə Lahıcda gedib gizli həyat yaşamağa başladı. Fətəli Xan Xoyski, Həsən bəy Ağayev Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Çünki, onlar başa düşürdülər ki, onlara qarşı ciddi cəza tədbirləri görüləcək. Belə bir zamanda Nəsib bəy Yusifbəyli yenə də Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Amma onlar Gürcüstana gedirdilər.

Çünki, Gürcüstan hələ bolşeviklər tərəfindən işğal edilməmişdi. Onlar düşünürdülər ki, orada qalacaqlar və özlərinin siyasi fəaliyyətlərini davam etdirəcəklər. Yenidən Azərbaycanın bütövlüyü üçün çalışacaqlar. Fətəli Xan Xoyski də bu istəklə Gürcüstana üz tutdu. Orada bir müddət qaldıqdan sonra bolşeviklər tərəfindən təqib edilməyə başlayıb. Bu dəfə isə ermənilər tərəfindən bu iş görülməyə başladı. Erməni quldurları tərəfindən 1920-ci ilin iyun ayında qətlə yetirildi və Tiflis qəbirsanlığında Mirzə Fətəli Axundovun yanında dəfn olundu. Bir qədər keçdikdən sonra digər görkəmli xadim  Həsən bəy Ağayev də eyni qaydada qətlə yetirildi. Bir müddət keçdikdən sonra Gürcüstana keçmək istəyən Nəsib bəy Yusifbəyli də eyni qaydada qətlə yetirildi. Fətəli Xan Xoyski Azərbaycanın görkəmli dövlət xadimidir. Onun ailəsi də 1920-ci ildən sonra təqib olunmağa başladı. F.X.Xoyskinin qızı maraqlı da olsa bolşevik Mirzə Davud Hüseynovun həyat yoldaşı idi. Mirzə Bağır Hüseynov 1930-cu illərdə represiyaya uğradıqdan sonra F.X.Xoyskinin qızı Tamara xanımı 10 il müddətinə həbs etdilər. F.X.Xoyskinin həm özü həm də ailəsi təqib olunub.

## Ceyhun bəy Hacıbəyli – nakam taleli insan

Mühacirət həyatının son illərini daha da ağır nisgillə keçirən Ceyhun Hacıbəyli xatirələrində çox xəfif və kövrək bir şəkildə ötənlərə boylanaraq yazırdı: "Doğmalarımdan ayrılmağımın həsrətini bu qırx il ərzində tez-tez çəkirəm. Ən çox da yadıma düşən bacılarımdı. Bəzən də anamın və ortancıl qardaşımın surətləri bacılarımın surətlərini əvəz edirdi. Yadımdadı, mən Fransaya gələndə bacılarım necə acı göz yaşları tökdülər. Anamın dolu gözləri xəyalımdan çəkilmir. Mən onları inandırırdım ki, cəmisi iki aylığa gedirəm. Nə üçün ağlayırsınız? Amma mən özüm də bilmədən onları aldatmışam. İndi məmləkətimdən ayrılmağımın 41 ilini yaşayıram. Onları bir daha görmədim və heç vaxt da görməyəcəyəm. Doğmalarım - kişilər və qadınlar bir-birinin ardınca dünyadan köçürlər. Elə mən özüm də köçəcəyəm..."

Bunu yazanda həmin adam az qala 70 yaşı haqlayacaqdı. Amma qürbətə gələndə onun cəmi 28 yaşı var idi. O, Azərbaycan istiqlal mücadiləsinin, azadlıq hərəkatının ən gənc mühaciri olmaqla yanaşı, qürbətdə ən acı və ən çox ömür keçirən bir şəxs kimi yadda qaldı:

1981-ci ilin fevralında Şuşada anadan olmuş Ceyhun bəy nüfuzlu Hacıbəylilər ailəsinin Azərbaycan maarifçiliyinə daha bir hədiyyəsi idi. Əsasən bədii, elmi ədəbiyyat və publisistika ilə məşğul olmasına baxmayaraq, bir şuşalı balası kimi musiqi sahəsində də qardaşı Üzeyirə kömək edirdi. Şərqin ilk operası olan "Leyli və Məcnun"un ərsəyə gəlməsində onun da müəyyən xidmətləri var. Hətta 1908-ci ildəki ilk premyerada Ceyhun Hacıbəylinin İbni Səlam və Nofəl rolunu da oynadığı deyilir.

Amma təbii ki, ictimai arena onu özünə daha çox çəkirdi. Murtuza Muxtarovun maliyyə dəstəyi hesabına əvvəlcə Sankt-Peterburqda, daha sonra isə o zamanın ən nüfuzlu universiteti sayılan Parisin Sorbonn Universitetində Siyasi işlər fakültəsində təhsil alıb. Bu təhsil sayəsində Ceyhun bəy geniş dünyagörüş qazanmaqla yanaşı, bir neçə xarici dili də öyrənməyə macal tapdı. Elə bu üzdən də 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin Versal sülh konfransında müşaviri təyin olunur. Əlimərdan bəy Topçubaşov komandasının əsas simalarından olan C.Hacıbəyli bundan əvvəl parlamentin rəsmi orqanı olan "Azərbaycan" qəzetində redaktor kimi də öz bacarığını göstərmişdi.

Paris Sülh Konfransı respublika üçün ciddi əhəmiyyət daşıdığından 1919-cu ilin yanvar ayının 7-də orada iştirak edən Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "general" mandatı təqdim olunur.

Versala ezam olunan nümayəndə heyəti öz işini çox böyük ustalıqla yerinə yetirir. Fasilələrlə davam edən konfransın yekununda "Antanta" ittifaqı Azərbaycanın müstəqilliyini tanıyır. Bu, təbii ki, sovet Rusiyasını qəzəbləndirməyə bilməzdi.

Nümayəndə heyəti məcburiyyət qarşısında qalıb elə Avropada məskunlaşmalı olur. Ceyhun Hacıbəyli də vətənə qayıda bilməyəcəyini qərarlaşdıraraq, ailəsini Fransaya gətirtməli olur. Həyat yoldaşı Zöhrə Hacıqasımova-Hacıbəyli 2 yaşı hələ tamam olmamış uşağını da götürüb Ceyhun bəyin yanına gedir.

O zaman Ceyhun bəyin cəmi 28 yaşı var idi. O hələ bilmirdi ki, həyatdakı bütün çətinliklər məhz bundan sonra başlayacaq. Doğrudur, o, hələ daha gənc ikən qürbət şəhərlərdə aclığın , səfalətin dadını görmüşdü. Elə bu səbəbdən də təhsilini yarımçıq

qoyub Bakıya qayıtmışdı. Amma bu dönəm tamam ayrı bir dönəm idi.

## Üzeyir və Ceyhun Hacıbəyli qardaşları

Siyasi mühacir kimi heç yanda iş tapa bilməyən Ceyhun bəy məcburiyyət qarşısında qalaraq ödənişli məktəbdə oxuyan oğlunu da oradan xaric etdirir. Yalnız Parisdə yaşayan dostu Topçubaşovun məktəb direktoruna yolladığı xahiş məktubundan sonra oğlu yenidən dərsə bərpa edilir. Bu haqda əvvəlcə Zülfüqar Hacıbəyovla məktublaşır. Öz ağır güzəranını ondan gizlətməsə də, böyük qardaşı Üzeyirin həssas olduğunu bilib ondan sirr kimi saxlayır. Amma təbii ki, tanınmış bəstəkar da qardaşının vəziyyətindən bir gün xəbər tutur. Bütün gücü ilə onun vətənə qayıtmasına çalışır. Amma hakim dairələr arasında böyük nüfuzu olan Üzeyir bəy də çox qabağa gedə bilmir.

Ceyhun bəy özü də inanmırdı ki, Sovet rejimi onu nə zamansa bağışlaya bilər. Amma Bakıdakı ailəsi, xüsusən də Üzeyir bəy onun vətənə dönüşünü ömrünün sonuna qədər gözləyib.

Araşdırmaçı-jurnalist Qərənfil Quliyevanın danışdığı bir fakt bunun əyani sübutudur:

"Fəxri Xiyabanda Hacıbəylilər ailəsinin dəfn olunduğu hissədə Üzeyir bəyin məzarının yanında bir boş yer var ki, onu da Ceyhun Hacıbəyli üçün saxlamışdılar. Ailəsi istəyirdi ki, o, Üzeyir bəyin yanında dəfn olunsun. Yəni onun vətənə qayıdacağına axıradək inanırdılar".

Ceyhun bəy isə buna heç inanmırdı. Elə yazının əvvəlində onun adından verilən qeydlərdə bildirildiyi kimi, Ceyhun bəy

ömrünün axırına qədər bunun acısını çəkib: “Onları bir daha görmədim və heç vaxt da görməyəcəyəm. Doğmalarım - kişilər və qadınlar bir-birinin ardınca dünyadan köçürlər. Elə mən özüm də köçəcəyəm...”

Onu haqqında xatirələrin birində deyilir: “Ceyhun bəy Parisə özü ilə birgə daim həsrətini çəkdiyi, ömrünün sonuna qədər xəyallarında yaşatdığı Qarabağı da gətirmişdi. O, qürbətdə iki həyat yaşayırdı - bir real Paris həyatını, bir də xəyallarında qurub-yaratdığı nisgillərdən, gümanlardan, xatirələrdən ibarət vətən həyatını”.

Azərbaycanı Avropada tanıtdıran bir şəxsi sovetlər birliyi təbii ki, bağışlaya bilməzdi. Lap elə bağışlasaydı da, onun özü buna razı olmazdı. Baxmayaraq ki, Şuşa üçün az qala burnunun ucu göynəyirdi. Bunun səbəbini Qərənfil Quliyeva belə əsaslandırır:

“1960-cı ildə Ceyhun bəy Fransanın bir jurnalına verdiyi müsahibədə ona ünvanlanan suala cavab olaraq yaxın zamanlarda SSRİ-nin çökəcəyini deyib. Qeyd edib ki, “mən inanmıram ki, o quruluş 100 il yaşasın”.

Ceyhun Hacıbəyli bu müsahibədən 2 il sonra dünyasını dəyişdi. Parisdə dəfn edilən Ceyhun Hacıbəylinin vətəndə də hələ qazılmamış məzarı var. Üzeyir bəy hələ də onu “gözləyir...”

## Mustafa bəy Vəkilov

Mustafa ağa Vəkilov 1943-cü il aprelin 30-da sürgündə vəfat edib və orada da dəfn olunub. Repressiya qurbanı olan Mustafa

ağanın məzarının yeri tam bəlli deyil. Amma tarix tarix kimi, fakt da faktlığında qalır. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC)-yə ehtiyac yoxdur, belə yetərlidir: gələcəyinə ümidlə baxan bu gənc və Azərbaycanın hüquq üzrə ilk professoru olmuş **Mustafa ağa Vəkilovun** da qürbətdəki doğma və doğma olduğu qədər də naməlum məzarı, eləcə də onun şəxsiyyəti bir daha xatırlanmalıdır.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 1919-cu il sentyabrın 1-də keçirilən iclasında Bakı Dövlət Universitetinin təsis olunması və hökumətin təklifinə əsasən bu sahədə milli kadrların hazırlanması üçün 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etdi.

Mustafa ağa Vəkilov da həmin gənclərdən biri kimi, parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Paris Universitetinə göndərilib. Tale elə gətirdi ki, Vəkilov Bakıya qayıdanda artıq AXC süquta uğramışdı. Buna baxmayaraq, o zaman hüquq sahəsi üzrə magistr dərəcəsinə sahiblənən və bir neçə xarici dildə sərbəst danışan Vəkilov bolşeviklərə də lazım idi. Bu səbəbdən o, ədliyyə və hüquq sistemində məsul vəzifələrdə çalışır. 1935-ci ildə SSRİ-in Konstutsiyasının türk mətninin redaktoru olur.

Elə həmin ildə dövlət və hüquq elmləri namizədi alimlik dərəcəsi alaraq, təsərrüfat-hüquq kafedrasının professoru olur. Beləliklə o, Azərbaycanda hüquq professor adını alan ilk azərbaycanlı kimi tarixə düşür.

## Stalin repressiyalarının qurbanı

Bütün bunlara baxmayaraq, 1937-ci ilin qanlı repressiyaları zamanı Vəkilov da şərlənəndən biri olur. Onu güllələməsələr də, gedər-gəlməzə yollayırlar. Mətbuatda bu barədə yazılır:

“1937-ci il repressiyaları Mustafa ağa Vəkilovdan da yan keçmədi. 1937-ci il noyabrın 21-i Mustafa ağa Vəkilovun evində axtarış apararaq, onu həbs edirlər. Onun mənzilində Firudin bəy Köçərlinin (Badisəba bibisinin əri) Azərbaycanın müxtəlif regionlarından min bir əziyyətlə topladığı folklor nümünələri götürüldü. Mustafa Vəkilovun istintaqını XDİK DTİ 4-cü şöbəsi 6-cı bölməsinin operativ əməliyyat müvəkkili Haqverdiyev aparırdı.

Sorğu-suallar aylarca vaxt apardı. Anasının Tehranda yaşayan qardaşı ilə (Məmməd bəy Şıxlinskini nəzərdə tuturdular), siyasi baxışları ilə maraqlanırdılar. Rəsmən ona qarşı irəli sürülən ittiham isə bundan ibarət idi ki, Mustafa Vəkilov əksinqilabi millətçi təşkilatın üzvüdür, onu bu işə hüquq fakültəsinin keçmiş dekanı Məcid Quliyev cəlb etmişdi.

Onları tələbələr arasında əksinqilabi iş aparmaqda, onların beyninə Azərbaycanın əsarətdə olduğu, ölkənin sərvətlərinin talanıb aparıldığı, ruslaşdırma siyasəti yürüdüldüyü haqqında fikirlər doldurmaqda ittiham edir, lakin bunu sübut edə bilmirdilər. Ondan hər şeyi etiraf etməyi tələb edirdilər. İnstitutun bəzi müəllimlərindən onun əleyhinə alınan ifadələrdə göstərilirdi ki, guya Mustafa Vəkilovun mühazirələri qəlizdir, ruscadan bir kitab belə tərcümə etməyib, onun rəhbərliyi altında müdafiə edən Baratzadə dissertasiyasında burjua inqilabının rolunu

düzgün izah etməyib, buna görə zalda olan tələbələr hay-küy salıblar, Vəkilov ictimai işlərə əhəmiyyət vermir, kütlələrdən qaçır, kafedraya yaxşı rəhbərlik etmir, zaçot vaxtı azərbaycanlı tələbələrə aşağı qiymət yazıb və onlar bundan narazı qalıblar və sair. Kamera yoldaşları onu "professor" deyə çağırırdılar. Mustafa dindirilərkən özünü mərdanə aparır, ittihamları cəsarətlə rədd edirdi...

İl yarım çəkən məşəqqətli məhbəs həyatından, heç nəyi sübut edə bilməyən üzücü istintaqlardan sonra Mustafa Vəkilov 1939-cu ilin martında edamlar, güllələnmələr dalğası ötdükdən sonra nisbətən yüngül cəza ilə canını qurtardı. 1941-ci il yanvarın 25-də XDİK yanında Xüsusi Müşavirədə Mustafa Vəkilova antisovet-millətçi təşkilatda iştirakına görə cəzasını islah-əmək düşərgəsində çəkməklə 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Taleyin acı istehzasından Mustafa Vəkilov sürgün vaxtını bitirsə də, azad olub vətənə dönə bilmir. Onun son məktubunu ürək ağırısı olmadan oxumaq mümkün deyil: "Əzizim Müqəddənisə! Təzə gətirildiyim yerdən sənə ikinci məktubumu yazıram. Birinci məktubun çatıb-çatmadığını bilmirəm. Buraya sürgün müddətinin bitdiyi səbəbincə azad edilmək üçün çağırılmışdım. Lakin son dəqiqədə elan etdilər ki, müharibə bitdikdən sonra azad ediləcəyəm. Mustafa..."

Lakin təəssüflər olsun ki, M.Vəkilov 1943-cü il aprelin 30-da sürgündə vəfat edib.

1955-ci il dekabrın 25-də SSRİ-nin Baş Hərbi Prokurorluğu tərəfindən barəsində başlanan cinayət işi üzrə cinayət tərkibi olmadığı üçün cinayət işinin icraatına xitam verilir."

Jurnalistika tarixi üzrə araşdırmaçı **Nəsiman Yaqublu** isə Mustafa ağa Vəkilovu fərqli tərəfdən xarakterizə edir:

"Mustafa ağa Vəkilov uzun müddət Türkiyədə fəaliyyət göstərib. Azərbaycan mühacirətinin önəmli simalarındna biri olub. Bir müddət Polşada da yaşayıb. Azərbaycanlı mühacirlərin Promotey hərəkatında ən fəal üzvlərdən biri olub. Oğlu Polşada yaşayırdı. Sonradan dedilər ki, İstanbula köçüb. Rəsulzadə ilə yaxın dost olublar. Polşanın rəsmi nümayəndələri olan Taber Qolovka ilə şəxsi yazışmaları var. Polşa dövlətinin rəsmiləri ilə yazışmaları olub. Onları Polşanın arxivindən gətirmişəm. Qeyd edim ki, Polşa arxivində Mustafa ağa Vəkilov haqqında toplu məlumatlar var. Həm də çoxlu şəxsi məktubları saxlanılır."

Hazırda Mustafa ağa Vəkilovun adını və soyadını həm onun məşhur nəsli, həm də nəvə-nəticələri qoruyur. Ailə üzvi Nadir Vəkiloğlu Türkiyədə tanınmış basketbolçulardan biridir. Nadir bəyin oğlu Arda Vəkiloğlu isə basketbolçu olmaqla bərabər, bu idman növünün təbliği ilə də məşğuldur. Onların İstanbulda təsis etdikləri basketbol məktəbləri son illərdən başlayaraq öz yarışlarını da keçirir.

## Nuru Paşanın özünə qardaş sandığı, Beriyanın ilk rəisi olan Cümhuriyyət fədaisi

Nağı Şeyxzamanlı 1883-cü ildə Gəncədə anadan olub. Azərbaycan Xalq Cümhuriyyəti dövründən təhlükəsizlik orqanlarında çalışıb. Əksinqilabla Mübarizə Təşkilatının rəhbərlərindən biri olub. Qardaşı Məmmədbağır Şeyxzamanlı ilə birlikdə 1918-1920-ci illərdə Əksinqilabla Mübarizə Təşkilatı yaradıb. Milli Təhlükəsizlik Nazirliyinin ilk forması belə olub. Nağı Şeyxzamanlının Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında da böyük rolu olub. Türkiyə ilə ilk danışıqları aparanlardan biri idi.

Qafqaz İslam Ordusunun Azərbaycana dəvət edilməsində böyük səy göstərib. Nuru paşanın qardaşı Ənvər Paşa ilə görüşüb.

Sonradan məlum səbəblərdən Türkiyəyə gedib və siyasi mühacirət həyatı yaşayıb. Avropa ölkələrində yaşasa da, əsas yaşayış yeri Türkiyə olub. Nağı Şeyxzamanlı çox zəngin irs qoyub gedib. Türkiyədə "Xatirələrim" adlı kitab yazıb. Bu kitabında XX əsr Azərbaycan istiqlal mücadələsi tarixi ilə bağlı çox zəngin məlumatlar var. Xüsusən də Qafqaz İslam Ordusunun, Nuru paşanın Azərbaycana dəvət edilməsi ilə bağlı həmin kitabda çox ciddi məqamlara rast gəlmək olar. Nağı Şeyxzamanlının evi hazırda Gəncə şəhərində qalır və qorunur. Türkiyənin əvvəlki prezidenti Abdulla Gül də Azərbaycana gələndə Nağı Şeyxzamanlının evini ziyarət edib. Qafqaz İslam Ordusunun komandiri Nuru paşa 1918-ci ildə Gəncəyə gələndə Nağı Şeyxzamanlının evində qalırmış. Həmin otağı indi də muzey kimi qoruyub saxlayırlar. Nağı Şeyxzamanlının bir əqidəsi olub. O da Azərbaycanın müstəqilliyi, Azərbaycan xalqının azad yaşaması və bunun uğurda apardığı mübarizədən ibarətdir. Bu gün onun nəslindən çox dəyərli insanlar qalır. Onlardan biri də Amerika Birləşmiş Ştatlarında yaşayan Tomris Azəridir. Tomris xanım Nağı Şeyxzamanlının fəal davamçısıdır. Nağı Şeyxzamanlının yazılarına ən çox Türkiyədə 50-ci illərdə "Mücahid " jurnalında rast gəlmək olardı. Çünki, o jurnalın redaktoru Çingiz Göygöl idi. O da əslən Gəncədən idi. Nağı Şeyxzamanlının da yaxın dostu idi. "Mücahid" jurnalında Nağı Şeyxzamanlının hələ də öyrənilməyən, toplanılmayan maraqlı yazıları, məqalələri dərc olunub. Nağı bəy 1967-ci ildə də İstanbulda dünyasını dəyişib".

Nəsiman müəllimin tanıtımı Nağı bəy Şeyxzamanlı haqqında səthi də olsa, məlumat toplamağa imkan verdi. Buradan

öyrəndik ki, həm Nuru Paşa, həm də eks-prezident Abdulla Gül ayrı-ayrı vaxtlarda Azərbaycanın ilk xüsusi xidmət orqanı zabitinin evində qonaq olublar. Təbii ki, biri həqiqi, ikincisi isə məcazi mənada. Amma oxşar cəhət də ondan ibarətdir ki, hər iki məqamda Nağı bəy Türkiyə ilə Azərbaycan arasında yaxınlıq əlaqələrinin daşıyıcısı olub. O, Nuru Paşa hələ Yevlaxa gələrkən komandanı qarşılamayan ilk 3 nəfərdən biri idi. Nuru Paşa da Cumhuriyyətin başqa liderlərinə nisbətən Nağı bəyə daha çox inanırdı. Həm Nağı bəy, həm də qardaşı Məmmədbağır bəy möhkəm xarakterli əks-kəşfiyyatçı kimi Nuru Paşanın rəğbətini qazana bilmişdilər. Bu iki qardaşın əsasını qoyduğu Əksinqilabla Mübarizə Təşkilatının kəşfiyyat və əks-kəşfiyyat komandası min bir əziyyətlə formalaşmışdı. Çünki onun işi hökumətin yerləşdiyi Bakıda separatçılıq işləri aparan bolşevik və ermənilərlə mübarizə idi. Odur ki, müəyyən xarici qüvvələr onların fəaliyyət göstərməsini qəti istəmirdi. Amma Şeyxzamanlı qardaşları nəhayət ki, 1919-cu ilin yayında bu təşkilatı yarada bildilər. İlk sədri də Məmmədbağır bəy oldu. Amma o, bir neçə aydan sonra könüllü olaraq istefa verdi və qardaşının bu vəzifədə daha bacarıqlı olacağını vurğuladı.

Bu iki qardaş arasındakı qarşılıqlı hörmət hər zaman heyrətamiz səviyyədə olub. Nağı bəyin Türkiyədə yaşayarkən yazdığı "Xatirələr" kitabında qardaşı ilə son görüşü çox kədərli şəkildə əks olunub *(Ümumiyyətlə, yazının əvvəlində Nəsiman Yaqublunun da bəhs etdiyi "Xatirələrim" əsəri o dövrün ictimai-siyasi xarakterini öyrənmək üçün çox dəyərli əsərdir. Kitab bir neçə dəfə Bakıda nəşr olunub)*:

"Həbs olunduğunun ertəsi gün xəbər tutdum. Onu qurtara bilmək barədə düşünürdüm və çalışırdım. Öyrəndim ki, onu

həbs edən “ÇK” (Çerezvıçaynaya Komissiya – Fövqəladə Komissiya) mənsubları “qardaşın gəlsin, səni buraxaq” deyiblər. Bunun üçün həmin gün üzə çıxıb “ÇK”ya getdim. İdarənin qapısına yaxınlaşanda böyük qardaşım saxlanıldığı nəzarət otağının kiçik pəncərəsindən mənim gəldiyimi görərək, qışqırdı:

– Niyə hələ bir tərəfə getməyibsən?!

Mən elə oradanca yavaşca ona nə üçün gəldiyimi söylədim. O, mənə:

– Çıx get, mənə heç bir şey etməyəcəklər. Əgər məni eşitməyib qapıdan içəri girsən, özümü pəncərədən atacam! Tez uzaqlaş burdan, Gəncəyə get. Burda qalma”.

Bu, onun  qardaşı ilə son görüşü olur. Tiflisə gedərkən Gəncədə eşidir ki, bolşeviklər qardaşı Məmmədbağır bəy Şeyxzamanlını güllələyiblər.

Yenə əsl qızıl mənbə rolunu oynayan “Xatirələrim”ə müraciət edək:

“Beriyanı Hümmət Partiyasının tövsiyəsi ilə işə götürdüm. Bilirdim ki, Beriya bir sosialist kimi Çar rejiminin düşməni idi. Bizim işimizə yarayacağını bildiyimdən qəbul etmişdim. O, son dərəcə məsuliyyətli bir işçi kimi görünürdü. Onu senzura şöbəsinə işə götürdüm, qısa müddət ərzində özünü çalışqan işçi kimi göstərdi. Mən də onu şöbənin rəisi təyin etdim. Anası ilə çox ehtiyac içində yaşadığını mənə demişdi. Vicdanla çalışması, enerjisi, qafqazlı, gürcü olması və ruslara qarşı vuruşması ilə özünü mənə sevdirmişdi. Beriyanın Xəzər dənizi ilə limanımıza üzən gəmilərin sərnişinlərindən ələ keçirdiyi çox maraqlı və təşkilatımıza lazım olan məlumatlara sahib ola bilirdik.

Bolşeviklər Qafqazda çarizmi yenidən bərpa etmək istəyən general Denikinin ordusunu məhv etdikdən sonra bizim üçün “ağların” təhlükəsi qalmadı. Ancaq Denikinin yerinə Moskvaya

arxalanan çox təhlükəli bir qüvvə var idi – bolşeviklər. Artıq biz də fəaliyyətimizi bolşeviklərə qarşı yönəltmişdik. Mən bununla bərabər Beriyanı işdən azad etməmişdim. Yerli bolşeviklər bizə qarşı fəaliyyətə keçmişdilər. Biz də onları hər yerdə sıxışdırır, göz açmağa fürsət vermirdik. Bu vaxt Beriya aradan çıxdı. Çox axtardım. Nəhayət, belə qənaətə gəldim ki, Azərbaycandan çıxıb gedib. İki ay ərzində onun maaşını anasına göndərdim".

Söhbət Stalinin vuran əllərindən biri olan Baş Dövlət Təhlükəsizlik komissarı, Sovet İttifaqı marşalı Lavrenti Beriyadan gedir.

Həmin kitabdakı fakta görə, ömrünün sonunda İstanbulda əntiq əşyalar satan Nağı bəyə bir rus yaxınlaşır. İki dəfə dialoqdan sonra onun kim olduğunu öyrənir. Bundan sonra isə qəribə bir xahişdə bulunur. Belə ki, o zaman 1953-cü il idi. Həmin rus ondan bu xahişi edir:

"Siz dünya barışığının olmasını istərdinizmi? Bilirsiniz ki, Stalin öldükdən sonra SSRİ-ni üç nəfər idarə edir: Beriya, Molotov və Malenkov. Eşitdiyimə görə, Beriya Müsavat dövründə Azərbaycanda sizin məmurunuz olub və bu gün Beriya Moskvada fikir cəhətdən başqalarından seçilən yeganə insandır. Staländən sonra Beriya SSRİ-də kolxoz təsərrüfatının dağıdılmasının tərəfdarıdır…

Siz indi Beriyaya bir məktub yazın və orada ikinizin də bildiyiniz hadisələrdən bəhs edin ki, məktubun sizdən olmasını anlasın. Mən də məktubu kuryer ilə ona göndərərəm".

Nağı bəyin cavabı isə konkret olur:

– Mən Beriya kimi adama heç nə yazmaram.

İstanbulun Feri Köy məzarlığında iki qərib məzar var. Sağlıqlarında mühacirətdə olduqları kimi bir-birlərinə necə sığınmışdılarsa, öləndən sonra da bir-birlərini yalnız buraxmırlar.

O məzarladan biri AXC naziri Xəlil bəy Xasməmmədovun, o biri isə Nağı bəyindir. Xəlil bəy 1945-ci ildə vəfat edib. Nağı bəy 1957-ci ildə öləndə onun yanında dəfn olundu. Xəlil bəyin nəvəsi Toğrul Cuvarlı o məzarlıqda babasının qəbrini axtararkən Nağı bəyin məzarına rast gəlib:

"Məzarlıqda çalışan adamlar mənə dedilər ki, məzar ya 22, ya da 23-cü cərgədə ola bilər. Getdim, amma tapa bilmədim. Araşdırmaçı Xanlar Bayramov da bu istiqamətdə işlər görüb. Amma o, Nağı bəy Şeyxzamanlının qəbrini tapıb şəklini çəkmişdi. Mən Nağı bəyin qəbrinin yanına gedib Xəlil bəyin məzarını tapa bilmədim. Deyilən işarələrlə də tapılmadı. Bu dəfə istəyirdim ki, gedim, anamı sevindirim. Deyim ki, Xəlil bəyin məzarını ziyarıt etdim. Amma mümkün olmadı. Mən Türkiyədə yaşayan azərbaycanlı tələbələrlə, orada çalışanlara deyirəm ki, onlar da Feri Köy məzarlığına gedib ya 22, ya da 23-cü cərgədə Xəlil bəyin məzarı üçün bir daha baxsınlar".

Nağı bəyin yadigarı Tomris xanım hazırda Amerikada yaşayır və orada Amerika Azərbaycanlıları Cəmiyyətinin prezidenti kimi fəaliyyət göstərir. Azərbaycan diaspor hərəkatının demək olar ki, ən aktiv xanımıdır. Bu da gendən gələn bir ənənədir. Vaxtilə Nağı bəy Cumhuriyyət daxilində erməni təxribatının qarşısını almağa çalışdığı kimi Tomris Azəri də bu gün Amerikada həmin işləri görür.

## Cümhuriyyətin gizli qəhrəmanı – quldur erməniyə qan udduran qaçaq oğlu

Təqdim edəcəyimiz məlumat Ağbaba mahalı Düzkənd kəndinin sakini Yusif Rəhim oğlu Heydərovun (Aşıq Heydərin

nəvəsi) xatirələri əsasında işıq üzü görüb. Bu xatirələr "Ağbaba Süvari Alayının" İgidlərinin xatirəsinə İthaf olunmuş "Aşıq Heydər"" kitabında səh-265-279 tam şəkildə işıqlandırılıb.

4-cü Şərqi erməni dviziyasının -Baş komandan ordu generalı Andranik Ozanyan- Axırkələk polkunun məqsədi Gümrü və Gümrü ətrafı kəndlərdə, həmçinin Şörəgəl və Ağbaba, Kars, Çildır, Axırkələk və.s bölgələrdə qətliamlar vastəsilə erməni-daşnaq idarəçiliyini qoruyub saxlamaqdan ibarət idi.

1918-ci ildən etibarən Qərbi Azərbaycanın (indiki Ermənistanın) Ağbaba mahalında şərqi erməni dviziyasının Axırkələk polkunun qarşısında Kərbalayı Məhəmməd ağanın rəhbərliyi altında 700 nəfər könüllülərdən təşkil olunmuş "Ağbaba Süvarı Alayı" dayanmışdı.

Qırx ildən artıq müddətdə müəyyən fasilələrlə müharibə meydanına çevrilən Şərqi Anadolu əhalisi yenə də "Olüm, ya dirim" dilemması qarşısında qalmışdı. Birinci Dünya müharibəsində məğlub olan Osmanlı imperiyasını parçalamaq üçün, düşmənlər hər tərəfdən hücuma keçmişdilər.

Noyabrın ayında Ağbaba Milli Şurası təşkil edilir. Ağbabanın Köhnə İbiş kəndində olan Hacı Abbas oğlu Kərbalayi Məhəmməd ağa Şurasının sədri və konqresə nümayəndə seçilir. Şuranın tərkibində 7 nəfərdən – Hacı Abbas oğlu Kərbalayi Məhəmməd ağa, qardaşları Mahmud və Əsəd ağalar, Babaş ağa Bayram oğlu, Haşım Ağbaba, Xəlil Vəli oğlu Budaq və İbişli Hamza ağalardan ibarət idi.

Geri çəkilən türk ordusunun zabiti yüzbaş Xurşud bəy Ağbabada qalıb könüllü dəstələrin təlimi vəzifəsini öz üzərinə götürür, Ağbaba süvari dəstələri ermənilərə qarşı mücadilə edəcək bir gücə sahiblənir.

1918-ci ildə Ağbaba Milli Şurasının sədri Kəlbəlayı Məhəmməd ağa Kiçik Şiştəpə kəndindən qərargahını Böyük Təpəköy kəndinə köçürüb nahiyəni idarə eləməyə başladı.

4-cü xüsusi təyinatlı taborun 1-ci dəstəsinin başçısı yüzbaşı Hacıvəli Usub oğlu və 2-ci xüsusi təyinatlı dəstənin başçısı yüzbaşı Həşim Ağbabanin vəzifələri, Hacıabbas oğlu Məhəmməd ağa və Borçalı Mahalının Kəpənəkçi kəndində anadan olmuş Çənubi - Qərbi Kars Hökumətinin millət vəkili Emin ağanın iştirakı ilə gürcü generalları arasında aparılan gizli danışıqlardan sonra böyük məbləğdə nikolay qızılına (qızıl pul nəzərdə tutulur) alınmiş silah – sürsatı Axırkələkdən Ağbabaya tam təhlükəsiz şəkildə gətirib, Ağbaba Süvarı Alayını silah və sürsatla təmin etməkdən ibarət idi. 1917-1921-ci il tarixidə Qars – Çıldır bölgəsi rus, ingilis və erməni daşnaq birləşmələrinin nəzarəti altında idi. Ağbaba və Şörəgəlin müdafiyəsi üçün silah-sürsat yalnız Axırkələkdən gətirilirdi. Axırkələk yolu çox təhlükəli idi. Axırkələk Gürcüstanın nəzarətində olmasına baxmayaraq, bu yerlərə nəzarət ermənilərin əlində idi. 1919 -cu ilin dekabr ayında gürcü generalları sılah-sürsatın Ağbabaya aparılmasına zəmanət vermədilər. Üstəlik gürcü generalları Hacıabbas oğlu Məhəmməd ağaya xəyanət edərək silah daşıyan dəstələrinin yerlərini daşnaq alay komandanı Marzmanova bildirdilər.

1920-ci ilin yanvar ayının qarlı-şaxtalı qışında Ağbaba süvarı alayının yüzbaşısı Hacıvəli Usub oğlunun xüsusi təlim keçmış 20 nəfərdən ibarət dəstəsi Axırkələyin girişində “Dəmir Körpü” deyilən hissəsində şərqi Erməni diviziyasının Axırkələk polku tərəfindən mühasirəyə alınır və 6 saatdan artiq qanlı döyüşlər başlanır. Bu döyüşdə Ağbaba Süvarı Alayının xüsusi təlim

keçmış 20 nəfər cəngavəri və Ağbaba süvarı alayının 4-cü qrupunun yüzbaşısı Qaçaq Usubun oğlu Hacıvəli ermənilər tərəfindən qətlə yetirilir. Deyilənə görə bu döyüşdə ermənilər tərəfindən 83 nəfər öldürülür.

Bu döyüşlərdə Ağbaba mahalının Düzkənd kəndindən Mustafa Abbasəli oğlu, Usub İmamverdi oğlu, Qərib Bayrampaşa oğlu və Rus Əhməd (İrəvandan gəlmədir, rus dilini mükəmməl bildiyinə görə el arasında belə adlandırılıb) şəhid oldular.

1920-ci il yanvar ayında Ağbaba mahalının Güllübulaq kəndinin görkəmli el şairı Aşıq Nəsib "Ağbaba Süvari Alayının" ərənlərinin xatirəsinə ithaf etdiyi şerini Sizə təqdim edirik.

*Kalvayı Məhəmməd ağa, gördü düşüb dara vətən,*
*Kömək yoxdu, arxa yoxdu, qalıb baxtı qara vətən,*
*Xalıd paşanı çağırdı, almasın min yara vətən,*
*Pul verdi o, silah aldı, yurd olmasın sara vətən,*

*Igidlərə xəbər verdi, yeriyin ərlər, yeriyin,*
*Tüfəngləri hərləyərək, göstərin hünər yeriyin,*
*Düşmən görsə boyunuzu, daldaya sinər, yeriyin.*
*Məhmud ağa qabaqdadı, düşməni izləyən qlavuz,*

*Qoşun nizamın saxlayan, onu gözləyən qlavuz,*
*Kafirlərin qlavuzun, qəfil düzləyən qlavuz,*
*Aslan kimi nərə çəkir, "olmaz para-para vətən".*
*Hacıvəli bir cəng atdı, ermənilər pərən oldu,*

*Dağıldılar sərçə kimi, sanki qıran-qıran oldu.*
*Qaçaq Usubun bu oğlu, bu döyüşdə ərən oldu.*
*Yurd uğrunda öldü getdi,yenə düşdü dara vətən,*

*Aşıq Nəsib nə görübdü, hamısını düz söylədi.*
*Çoxusunu unudubdu, bəlkə hələ az söylədi.*
*Mən deyirəm hacavatnan, saz səsləndi, saz söylədi.*
*Yağı olan saqqat getdi, axır tapdı carə vətən.*

## Çəmənzəminlinin həyatı haqqında "reportaj"

Azərbaycanın dövlət adamı və yazıçısı, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəli ilk səfiri Yusif Vəzir Çəmənzəminliyə aid olan bu cümləni epiqraf kimi seçməyimiz heç də təsadüfi deyil. Çünki Çəmənzəminli həm şəxsiyyət, həm də yazıçı kimi başlanğıcını məhz, bu şəhərdən götürüb, Şuşadan... Şuşa öz saflığını, böyüklüyünü Yusif Vəzirdən keçirərək bizə çatdırıb və çatdırmaqdadır. Yusif Vəzir Çəmənzəminlidən bəhs edəcək müsahibə-reportajın da bu epiqrafla başlaması fikrimizcə, məntiqi addım olardı.

Beləliklə, Azərbaycanın böyük yazıçısı, Cumhuriyyət dövründə Ukrayna və Türkiyə kimi ölkələrdə səfir işləmiş diplomat, folklorşünas alim Yusif Vəzir Çəmənzəminlinin oğlunun evindən, ailəsindən hazırladığımız reportajı sizlərə təqdim edirik. Oğlu Orxan Vəzirov 2010-cu ildə rəhmətə getsə də, bu gün böyük yazıçının gəlini Fəridə Vəzirova və nəvəsi Leyla Vəzirova onun haqqında heç kəsin bilmədiyi bilgilərə sahibdilər. Nəvəsi Leyla xanım Çəmənzəminlinin bir alim kimi davamçısıdır. Azərbaycan Pedaqoji Universitetində kafedra müdiridir. Elmlər doktoru olan Leyla xanımın namizədlik işi elə məhz, "Yusif Vəzirin

publisistikası" olub. Elə özü də yarızarafat deyir: "Anam Yusif Vəzirin həyati bilgilərini çox bilir, mən isə kitabi bilgilərini...". Elə söhbətimizi də "kitabi bilgilərin müəllifi" olan Leyla xanımla davam etdiririk. Əvvəlcə Çəmənzəminlinin nəsil şəcərəsindən, atasından – babasından danışır:

**Qacar tərəfindən edam olunan baba və erkən vəfat edən qardaşlar...**

-Yusif Vəzir Çəmənzəminlinin atası Məşədi Mirbaba bəy Şuşa bəylərindən olub. Onun bəyliyini 1873-cü ilin aprel ayının 13-də Şuşa qəza idarəsi tərəfindən təsdiq edib və bu haqda şəhadətnamə də veriblər. Vəzirov familiyası XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olan Mirzə Əliməmməd ağaya hörmət və ehtiram əlaməti olaraq götürülüb. Mirzə Əliməmməd ağa Vəzirovlar nəslinin ulu babasıdır. O, İbrahimxəlil Xan tərəfindən Osmanlı dövlətinə fövqəladə və səlahiyyətli səfir vəzifəsinə təyin edilib. Lakin İran hökmdarı şah Qacar onu dustaq etdirərək dərhal qətlə yetirir. *(Çəmənzəminli özünün "İki od arsında" romanında Əliməmməd ağadan ehtiramla söhbət açır-* ***E.N.****).*

Bütün bunlara baxmayaraq, taleyin qisməti belə gətirir ki, uzun illərdən sonra Türkiyədə səlahiyyətli səfir olmaq həmin nəslin nümayəndəsi, Yusif Vəzir Çəmənzəminliyə nəsib olur. O, 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədə ilk fövqaladə və səlahiyətli səfiri təyin edilir.

Yusif Vəzirin anası Seyid Əziz Seyid Hüseyn qızı isə rəhmdil, ədalətli və cəsur bir qadın olub. Həyat yoldaşının işlə əlaqədar vaxtının çox hissəsi Ağdamda keçib. Ailənin idarə olunması və uşaqların tərbiyəsi əsasən bu qadının üzərinə düşüb. Babam

yazılarında anasını çox böyük hörmət və məhəbbətlə xatırlayır. Bir sıra əsərlərində "Bir cavanın dəftəri", "Cümə axşamı", "Məlik Məmməd", "Son bahar" hekayələrində anasının prototipini yaradıb.

Yusif Vəzirgil ailədə 4 bacı və 3 qardaş olublar. Kiçik qardaşı Mir Əbülhəsən Şuşa realnı məktəbində oxuyub və oxuduğu illər zamanı bir nümunəvi tələbə kimi tanınıb. O, türk, rus, fars və ərəb dillərini mükəmməl bilir, alman və fransız dillərini də öyrənirmiş. Şeirlər və pyeslar də yazırmış. Onun evdə düzəltdiyi dünya və rus klassiklərinin əsərlərindən ibarət zəngin kitabxanası da olub. Lakin ömrü qısa olub. Gözlənilmədən Əbülhəsən ağır xəstələnir və müalicələr qəbul etməyinə baxmayaraq, 21 yaşında vəfat edir. Yeri gəlmişkən, onu da demək lazımdir ki, "Son bahar" adlı kədərli hekayəsini babam qardaşının ölümü ilə əlaqədar yazıb.

Digər qardaşı Mirabdulla (Miri) Parisdə siyasi elmlər məktəbinin diplomatiya fakültəsində təhsil alıb. O, 1922-ci ildə təhsilini başa vuraraq, Paris banklarından birində məmur işləyib. Lakin orada vərəm xəstəliyinə tutulduğundan 1925-ci ildə 29 yaşında vəfat edib. Onun barəsində 1907-ci ildə Yusif Vəzir yazırdı: "Miri təbiətin nadir töhfəsidir! O hər şeyə qadirdir... Ondan yeni dövrün Yevgeni Onegini gözlənilir. Miri tamamilə kübar dairələrinə mənsub bir adamdır, onun söhbətləri qısa və yumorla dolu olur".

Bu qardaşın da ömrü qısa olur. Atası öləndən sonra ailənin bütün ağırlığı babamın öhdəsinə düşür. Çıxış yolu kimi atasından qalma əttar dükanını satmaq istəyir. Lakin bu ərəfələrdə də

ağır yatalaq xəstəliyinə tutulur. Xəstəliyinin elə bir məqamı olub ki, onun yanına kimsəni buraxmayıblar. Amma atasının sağlığında Güney Azərbaycanın Çəmənzəmin kəndindən gəlib onlara sığınan üç qardaş Yusifi tək buraxmır, ona əllərindən gələn yardımı göstərirlər. Babam da söz verir ki, əgər sağ qalsa və nə vaxtsa tanınmış bir adam olsa, mütləq Çəmənzəminli təxəllüsünü götürəcək.

**Gəlini Fəridə xanım, nəvələri Leyla və Yusif...**

Nəsil şəcərəsindən danışandan sonra Leyla xanım Yusif Vəzirin hazırki ailə üzvlərindən bəhs edir. Leyla xanımdan "Yusif Vəzirin ailəsindən indi kimlər qalıb" deyə soruşduqda əvvəlcə belə cavab verdi:

"Böyük nəsillər adətən çox artmır". İndi də Qarabağın nüfuzlu Vəzirovlar nəslinin cəmi beş nümayəndəsi qalıb. Ən yaşlıları Çəmənzəminlinin gəlini Fəridə xanım Vəzirovadı. Bu ziyalı xanıma "Çəmənzəminli ensiklopediyası" desək, heç də yanılmarıq. Çəmənzəminlinin nəvəsi, həmçinin adını və peşəsini daşıyan Yusif Vəzirov isə hazırda Azərbaycanın Avropadakı diplomatı kimi fəaliyyət göstərir. İki nəticəsi də Avropada böyüməkdədir. Bir də ki, müsahibimiz Leyla xanım. Elə o özü Çəmənzəminlinin ailəsi haqqında bizə məlumat verir:

-Gəlini, yəni mənim anam Fəridə Vəzirova ixtisasca geoloq olsa da, çox güclü humanitar biliyə malikdir. Çəmənzəminlinin oğlu, atam Orxan müəllimdən sonra deyərdim ki, Çəmənzəminlinin həyatı barədə ən dəqiq bilgilər anamdadır. Hazırda təqaüddədir. Yusif Vəzirin nəvələri də ki, bizik-mən və qardaşım Yusif.

Nəvələri çox da ola bilərdi. Lakin babamın üç övladından yalnız atam ailə qura bilib. O biri iki övladı – Fikrət və Gülarəyə isə ailə qurmaq qismət olmayıb. Bunun səbəbini mən onların repressiya illərində ağır uşaqlıq  çağları yaşamaqlarında görürəm.

Yenə qayıdaq özümüzə. Özüm filologiya elmləri doktoruyam. ADPU-da rus dili kafedrasının müdiriyəm. Namizədlik dissertasiyam da "Çəmənzəminlinin publisistikası" mövzusunda olub, eyniadlı monoqrafiyam  da var. Yusif Vəzirin bir pedaqoq və alim kimi yolunu davam etdirirəm. Babam həmçinin Özbəkistanda pedaqoji fəaliyyətlə də məşğul olub. Folklorumuzun isə ilk alimidir. Qardaşım Yusif Vəzirov isə Çəmənzəminlinin diplomat və yazıçı kimi davamçısıdır.. Amerika, Çin səfirliklərində işləyib,  hazırda Avropada diplomatik nümayəndədir. Bundan savayı, Yazıçılar Birliyinin üzvüdür, bir neçə kitabın müəllifidir.

**Əliməmməd Vəzirdən Vəzirova estafet kimi ötürülən diplomat peşəsi**

Leyla xanım babasının bir yazıçı kimi tədqiqindən elə də narazı deyil. Amma onu da vurğulayır ki, Yusif Vəzir diplomat kimi az araşdırılıb. Çəmənzəminlinin bu məqamından çox az danışıldığını bildirir. Elə bu vurğulama sualımızın da yerinə düşdüyünə bir işarə olur. Leyla xanım babasının diplomat kimi fəaliyyətinə azacıq da olsa toxunur:

-Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri Fətəli Xan Xoyski babamın qeyri-adi diplomatik keyfiyyətlərini, kritik vəziyyətlərdə düzgün istiqamət vermək qabiliyyətini qiymətləndirərək, 14 yanvar 1919-cu ildə Yusif Vəziri Azərbaycan Respublikasının Krım hökuməti yanında nümayəndəsi təyin edir.

Yusif Vəzir Simferopolda Milli Krım Hökümətinin Ədliyyə Direktorluğunda əvvəlcə məsləhətçi, sonra isə direktor vəzifəsinə təyin olunur. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi 15 aprel 1919-cu ildə Yusif Vəzir Çəmənzəminlini Azərbaycan Respublikasının Ukraynada, Polşada və Krımda diplomatik nümayəndəsi təyin edib.

Yusif Vəzir Simferopolda olduğu vaxt Azərbaycan Xalq Cümhuriyyətinin Ukraynada fövqaladə və səlahiyyətli səfiri təyin edilir. O, Ukraynaya ilk səfir təyin olunduğu zaman cəmi 32 yaşı var idi...

**Yusif Vəzirin görünməyən tərəfi**

Böyük yazıçının gəlini Fəridə xanım Çəmənzəminlinin həyatının qaranlıq məqamlarını detallarına qədər bilən yeganə insandı. Həyat yoldaşı Orxan Vəzirov ömrünün sonuna qədər atasının irsinin toplanması və təbliği yönündə çalışıb. Fəridə xanım da bəlkə o səbəbdən bu qədər informasiyaya sahibdir. Yusif Vəzirin hələ ki heç kimə məlum olmayan şəkillərini bizə göstərir. Hər şəkil özü-özlüyündə bir tarix və həyat şəcərəsini əks etdirir. Birdən Fəridə xanım Orxan Vəzirovun atasına həsr etdiyi memuar kitabda Çəmənzəminlinin özü tərəfindən çəkilən rəsmlərini görürük. Yusif Vəzirin 1905-1909-cu illərdə realnı məktəbdə oxuduğu vaxt çəkdiyi rəsmlər həqiqətən də heyrətamizdi:

"Bax bunların hamısını Çəmənzəminli özü çəkib. Bu Turgenevin rəsmidir, bu isə Həsən bəy Zərdabinin.. Onun 1972-ci ildə Şuşanın Gövhərağa məscidində diyarşünaslıq muzeyində şəkillərindən ibarət stendi də açılıb".

Daha sonra Fəridə xanım Çəmənzəminlinin digər məziyyətlərinə toxunur. Bu əsnada təbii ki, həyat yoldaşı Orxan Vəzirov və Çəmənzəminlinin digər oğlu mərhum Fikrət Vəzirova istinad edir. Nəvə Leyla xanım bu əsnada söhbətə qoşulur:

- Qardaşlar atalarından çox danışırdılar. Sanki ürəklərində nisgil qalmışdı. Axı onu uşaq ikən görüblər və hər dəfə də danışanda özlərinin yox, həmin uşaqların dilləri ilə danışardılar. Atam da, əmim Fikrət də canlı ensiklopediya idilər. Bu məhz, Çəmənzəminlinin təsirilə olub. Çünki atamgil yaşca kiçik olmalarına baxmayaraq, babam həmişə onlarla məşğul olub. Elə balacalıqdan uşaqlarını yetişdirib. Babam hər bir məclisin yaraşığı olub. Mütaliə ilə bərabər, gəzməyi də çox sevib. Atamgili uşaqlıqdan Nalçikə və Bakı bağlarına apardı. Bakı bağlarında Üzeyir Hacıbəyli ilə qonşu olublar. Yeri gəlmişkən, Hacıbəylinin özü də Çəmənzəminlinin qohumu idi. Nənəm Bilqeyis xanım da çox gözəl bir qadın idi. Babamı həmişə göz yaşı ilə xatırlayardı. Çox gözəl pionina da çalardı. Yeri gəlmişkən mənə də bu alətdə ifa etməyi o öyrədib. Uşaq vaxtı məni dizlərinin üstünə qoyub pianino çalardı. Alətə iki əl o atanda, üçüncü əli də mən atardım.

Daha sonra Leyla xanım Yusif Vəzirin publisistikasına da toxunur:

- Yazıçının publisistikası XX əsr ədəbiyyatımızın ayrılmaz hissəsi kimi onun mühüm problemlərini əhatə edir. Çəmənzəminlinin publisist əsərlərində Azərbaycan müstəqilliyi, istiqlalı, tarixi keçmişi, gələcəyi, xarici və daxili siyasəti, elm, maarif, ədəbiyyat, qadın məsələsi və sənət məsələlərinə problemlərə toxunulub. Bunların əksəriyyəti bu gün də öz əhəmiyyətini saxlayır.

**Repressiya illəri... Sürgündə yazılan əlyazmalar və əlacsız qalan ailə...**

1938-ci il... Hazırda evində olduğumuz mərhum Orxan Vəzirov evə gələrkən qəribə bir mənzərə il rastlaşır. Görür ki, evdə hər şey dağıdılıb, aləm bir-birinə qarışıb. Anası Bilqeyis xanım isə bir küncdə oturub ağlayır. Artıq hər şey bitmişdi. O illərin "qara yeli" bu dəfə onların qapısına doğru əsirdi. Deməli, artıq Yusif Vəzir həbs edilmişdi. Sonradan əlyazmaları və ailəsini də bu aqibət gözləyirdi. Özü soyuq Qorki vilayətinə göndərilən Çəmənzəminlinin ailəsi Bakıda Keşlədə həbsdə qalmalı olur. Bir ana və 3 uşaq həddindən artıq rütubətli bir yerdə əzablara dözür. Lakin ən pisi də bu idi ki, ordan çıxandan sonra ailəyə Bakıda yaşamağa icazə vermirlər. Damğalanmış bir ailə nə edəcəyini bilmir. Amma Bilqeyis xanımın qardaşı Fərhad onlara sahib duru. Beləliklə, Çəmənzəminlinin uşaqları dayısının himayəsində qalmalı olurlar. Həmin vaxt Orxan Vəzirovun on yaşı var idi. O, ömrünün sonundək bu xatirələri on yaşlı uşağın gözü ilə danışacaqdı. Bu gün də onun qızı o "on yaşlı uşağın" söhbətlərindən bəzilərini bizə danışır:

- Babamı 1938-ci ildə işlədiyi yerlərdən ixtisara salırlar. O, da köhnə sənətinə-vəkilliyə qayıdır. Üç ay vəkil işlədikdən sonra yenə ixtisar adı ilə işdən azad edilir. Dolanışığı çətinləşən yazıçı ona haqsız münasibət haqda yuxarı təşkilatlara ərizə ilə müraciət edir. Lakin ərizələrinə cavab almayan, heç yerdə işə götürülməyən Çəmənzəminli ağır günlərin birində "Kommunist" qəzetində bir elan oxuyur. Orada bildirilirdi ki, Özbəkistan SSR-nin Ürgənc şəhərində, Xarəzm vilayəti Pedaqoji İnstitutunda rus dili tədrisi məqsədilə assisent yeri tutmaq üçün

konkurs elan olunur. Babam da sənədlərini Ürgəncə göndərir və konkursdan keçir. 1938-ci ilin avqust ayında Ürgəncə yola düşür və institutda müəllim olur. Həmişə olduğu kimi, Ürgənc Pedaqoji İnstitutunda da yüksək mədəniyyət sahibi, mükəmməl bilikli bir müəllim kimi kollektivin hörmətini qazanan ədib sonra isə orada rus və xarici dillər kafedrasının müdiri olur.

1940-cı ilin yanvarında isə babam Ürgəncdə həbs edilib Bakıya gətirilir. 1940-cı il fevralayında Yusif Vəzirin ittiham edilməsi barədə qərar çıxarılır. Altı aya yaxın Keşlə həbs düşərgəsində saxlandıqdan sonra onu iyul ayında həmin həbs düşərgəsindən Qorki vilayətinin Suxobezvodnoya stansiyasındakı həbs düşərgəsinə göndərirlər. Heç bir günahı olmayan ziyalı repressiya qurbanına çevrilir. Ağır fiziki işlər gördüyünə baxmayaraq, babam yazıçılıq fəaliyyətindən əl çəkməyib. Orda da yazıb–yaradıb. Lakin xəstə olduğundan yazdıqlarını orda çalışan bir rus qadınına verib ki, saxlasın. Lakin sonradan məlum olub ki, bütün saxlanılan yazılar nəm şəraitdə qaldığından çürüyərək məhv olub. Bütün bu məlumatları bizə, uzun illər keçəndən sonra onunla həbs düşərgəsində olan hörmətli yazıçı-araşdırmaçımız Əzizə Cəfərzadənin qardaşı (heyif ki, adını bilmirik) deyib. Uzun müddətdən sonra atam və əmim Fikrət Vəzirov bu məlumatları gec eşitdiyinə görə çox heyifisləndilər. Artıq heç bir ipucu yox idi. Çox güman ki, həmin qadın da ölmüşdü. Bizə onun heç bir əşyası gəlib çatmadı. Həmişə ziyalı ömür yaşayan bir insanı ağır fiziki əmək, aclıq, düşərgədəki həyat tərzi xəstəliyə salır. Babam pellaqra xəstəliyinə tutulur. Beləliklə də, bu xəstəlik səbəbindən yəni, acından şişmə nəticəsində 1943-cü il yanvar ayının 3-də vəfat edir. Lakin ailəsinin onun vəfatından heç bir xəbəri olmur.

**1956-cı ilin bəraəti... "Xalq düşməni"ndən qəhrəmana çevrilən Çəmənzəminli**

Ailəsi onun ölümündən xəbər tuta bilməmişdi. Çünki Çəmənzəminlidən heç bir məktub gəlməmişdi və ona göndərilən bağlamaların da çatıb- çatmadığını bilmirdilər... Amma o, səkkiz il həbs cəzasının üçüncü ilində vəfat etdi. "Gecikmiş 56" isə heç nəyi dəyişmədi. Leyla xanım da bu "gecikmiş 56 bəraəti" və ondan sonrakı vəziyyət barədə danışır:

-1956-cı ilin fevral ayının 28-də Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası Yusif Vəzirin 8 il həbs cəzasına məhkum olunması qərarını əsassız edərək, onu ləğv edib Çəmənzəminliyə bəraət verdi. Onun 80, 90, və 100 illik yubileyləri keçirildi. Çox təəssüf ki, onun sürgündə heç bir əşyası bizə gəlib çatmadı. Evdə qalan əşyalarından da bəzilərini Ədəbiyyat Muzeyinə bağışladıq. Aralarında həmişə istifadə etdiyi gümüşü qənddan, eynək, rəsmlər və s. var idi.

Çəmənzəminlinin keçdiyi həyat yolunun səhifələrini vərəqləyəndə, həqiqətən əmin olursan ki, ədib məşələ dönmüş bir ömür yaşayıb. O məşəlin işığını isə həmişə çox sevdiyi xalqının maarifi, müstəqilliyi, azdlığı yolunda yandırmışdır.

**Nəticə...**
**Gülən gözlər və ağlayan şəhər....**

Leyla xanım nitqini məşəllə bitirdi. Babası Yusif Vəzir haqqında bu cür danışmağa tam haqqı çatır. Mən isə reportaj əsnasında söhbətlərə qulaq asa-asa otaqda sanki kimlərinsə göz yaşı içində gülüşünü görürdüm. Bu, 1938-ci il repressiya qurbanının uşaqlarının göz yaşları idi. Yaşca ən böyüyü Orxan idi ki, onun da 10 yaşı var idi. Onu da hiss edirdim ki, bizə hər şeyi bu

"10 yaşlı ağsaqqal" danışır. Özü də qızı Leyla və həyat yoldaşı Fəridə xanımın gözüylə. Özünün isə ancaq sevincdən gülən gözlərini xəyalən göstərə bilirdi. Ona görə sevinirdi ki, ömrünü həsr etdiyi Çəmənzəminçilik mahiyyəti bu gün də unudulmur..

Gülən uşaq gözləri ilə bərabər, uzaqda bir ağlayan şəhər də var... Şuşa... Hələ ki, dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər ağlamaqda davam edir. Bu onun şəhəridir...

## Cümhuriyyətin 100 tələbəsindən biri – İsmayıl Saryalın nəvəsi: "Babam Bakıda güllələnməyini istəyirmiş" – MÜSAHİBƏ

Nilgün xanımın Bakıya ikinci səfəri idi. Bu dəfə Azərbaycan Xalq Cümhuriyyətinin xaricə təhsil almağa yolladığı 100 tələbədən biri olan babasının "Bakı rüzgarı" xatirə-romanının təqdimatı üçün gəlmişdi.

Nəsib bəy Yusifbəylinin xalası oğlu olan babası Məhəmməd Əmin Rəsulzadənin də xüsusi rəğbətini qazanan insanlardan biri olub. Elə onun evlənməsinə də Rəsulzadə həyat yoldaşı Leyla xanımla birlikdə yaxından dəstək olub.

Nilgün xanımın zamanı çox dar idi. Təqdimatın əsas təşkilatçısı və kitabın redaktoru Nüşabə Vəkilovanı (Vaqif Səmədoğlunun həyat yoldaşı) ləngidib, Nilgün xanımla qısa da olsa söhbətləşdik.

**DOSYE:** İsmayıl Saryal (Seyidzadə) 1896-cı il fevralın 13-də Gəncədə Vəqflər müdiri Mir Hacı Seyid Əhməd və Minabəyim xanımın ailəsində dünyaya gəlib. O, ibtidai təhsilini

Gəncədə alıb, Lənkəranda gimnaziyanı bitirib, Kiyev Politexnik İnstitutunun elektrik mühəndisliyi fakültəsinə daxil olub.

1917-ci il inqilabından sonra təhsilini davam etdirə bilməyən İsmayıl Seyidzadə Bakıya qayıdıb, Milli Hökumət tərəfindən Almaniyaya, Berlin Texniki Universitetinə göndərilib. 1924-cü ildə təhsilini tamamlayan gənc mühəndis evləndiyi alman qızı Helena ilə Azərbaycana qayıdıb, Bakı-Sabunçu-Suraxanı dəmir yolunda mühəndis kimi çalışıb, eyni zamanda N.Nərimanov adına Politexnik Texnikumunda dosent və M.Əzizbəyov adına Politexnik İnstitutunda assistent işləyib. Amma amansız Stalin repressiyası təhlükəsi altında 1929-cu ilin sentyabrında ailəsilə birgə İrana, 1930-cu ilin yayında isə Türkiyəyə qaçmağa məcbur olub.

Sonradan Saryal soyadını götürən İsmayıl Seyidzadə Ankarada məskunlaşıb, Elektrik və qaz fabrikində işə girib, həmin müəssisənin baş mühəndisi vəzifəsinədək yüksəlib.

İsmayıl Saryal 1982-ci il fevralın 13-də Ankarada vəfat edib.

Onu da qeyd eləyək ki, İsmayıl Saryal Cümhuriyyət Hökumətinin sədri və naziri olmuş Nəsib bəy Yusifbəylinin yaxın qohumu, unudulmaz şairimiz Vaqif Səmədoğlunun ömür-gün yoldaşı Nüşabə xanımın dayısıdır.

**Bakı təəssüratları, burada gördüyü mehribanlıq Nilgün xanımı çox kövrəldib. Elə söhbətə də “babamın vəsiyyəti yerinə yetdi” deyərək başladı. Çünki babasının ən böyük arzularından biri də “Bakı rüzgarı” kitabının Bakıda təqdimatının keçirilməsi, Azərbaycan oxucularının onunla tanış olmasıymış. Lakin ömrünün çox hissəsini Türkiyədə yaşayan Saryal heç zaman özünü qürbətdə hiss etməyib:**

- Doğrudur, öz ölkəsindən kənarda idi. Amma onun qürbətdə yaşadığını demək düzgün olmaz. Babam Almaniyada oxudu. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, Məhəmməd Əmin Rəsulzadə 99 tələbə ilə birlikdə onu da ölkə xaricinə oxumağa yollamışdı. Babam Almaniyada mühəndislik ixtisası üzrə təhsil aldı. Elə orada alman qızı ilə evləndi. Ömürlərinin çox hissəsi Türkiyədə keçdi. Yəni, əslində qürbətdə yaşayan babam yox, nənəm olub. Çünki İsmayıl baba üçün Türkiyə də vətən torpağı idi. Azərbaycanda çıxan dərgiləri, qəzetləri, kitabları izləyir, hamısını bir-bir oxuyurdu. Azərbaycanı çox yaxından izləyirdi. Burada nə baş verirdisə, hamısından xəbərdar olurdu. O zaman mən uşaq idim. Bütün bunlar xəyal kimi gözlərimin qarşısına gəlir. Ən çox da rus, sovet siyasətini təqib edir, orada nələrin baş verdiyini bilmək istəyirdi. Çünki bilirdi ki, SSRİ-də baş verənlərin özü də birbaşa Azərbaycana təsir edəcək. İnanırdı ki, Azərbaycan nə zamansa tarixi şansı dəyərləndirib, yenidən müstəqil dövlət olacaq. Amma çox təəssüf ki, babam Azərbaycanın müstəqil olduğu günü görmədi. Hər dəfə bu haqda danışanda kövrəlirəm.

**AXC dövründə Məhəmməd Əmin Rəsulzadə özü arasında İsmayıl Saryal da olan tələbə qrupunu təhsil almaq üçün xaricə yola salmışdı. Hələ zarafatla onlara tapşırmışdı ki, buraya əcnəbi gəlinlərlə qayıtmayın. Amma əksəriyyət rəhbərin sözünü qəribçiliyə salmışdı. Həmin 100 tələbənin böyük faizi - 64 nəfəri Almaniyaya göndərilmişdi. Onlardan biri də gəncəli İsmayıl olub. Həmin vaxt –Sabunçu vağzalında Rəsulzadənin öyüd-nəsihəti ilə Bakıdan ayrılanda hələ bilmirdi ki, bir də bu şəhərin belə xoşbəxt günlərini görməyəcək. 1924-cü ildə qayıdacaq və Avropa təhsilinə**

**rəğmən, bolşevikləşmiş şəhərdə savadsız rus və erməninin əlinin altında çalışacaq.... İsmayıl Saryal bunu özünə sığışdıra bilmədiyi üçün Türkiyəni özünə əbədi vətən seçdi. Nəvəsini dinləyək:**

Babam ömrünün son illərində çox kövrək olmuşdu. Azərbaycan həsrəti onda daha da artmışdı. Görün, bu insan öz vətənini nə cür sevirdi ki, ora bir də qayıtmayacağını, daha doğrusu, qayıda bilməyəcəyini bilə-bilə vətənin bütün adətlərini, mədəniyyətini, mətbəxini övladlarına və nəvələrinə öyrədirdi. Biz Azərbaycanla bağlı hər şeyi babamızdan öyrənmişik. O, bizə Azərbaycan musiqisi, mədəniyyəti, ədəbiyyatı haqqında hər şeyi danışardı. Mən ilk dəfə Bakıya 5 il bundan əvvəl gəldim. Yaşım 50-ni haqlamışdı. Amma Azərbaycan türkcəsində hər şeyi başa düşürdüm. Burada bişirilən yeməkləri mən də bilirdim. Elə bilirdilər ki, mən hər zaman Azərbaycanda olmuşam. Bütün bunlar babamın sayəsində olub.

Bir də xatırlayıram ki, ömrünün son günlərində tez-tez “Ayrılıq” mahnısını oxuyardı. Onun ilk misralarını tez-tez öz-özünə zümzümə edərdi: “Ayrılıq, ayrılıq, aman ayrılıq. Hər bir dərddən olur yaman ayrılıq”...

**İsmayıl Saryal həm də xoşbəxt idi. Çünki Türkiyədə Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Əli bəy Hüseynzadə və başqa bu kimi aydınların ailələri ilə dostluq edər, övladlarını o mühitdə böyüdərdi. Türkiyənin böyük fikir adamlarından biri Nuri Saryal da (müsahibimizin atası) məhz bu mühitdə yetişdi. Bu da son deyil. Bakıdan da tanınmış ziyalılar Türkiyəyə gedərkən məhz bu ailənin qapısını açardılar. Nilgün xanımın bu barədəki xatirələri də maraqlıdır:**

-Bakıdan bizə bir çox dəyərli ziyalılar, incəsənət xadimləri qonaq gələrdilər. Daha çox gələn isə Mayestro Niyazi idi. Hər dəfə gələndə bizə Bakıdan bir torba konfet gətirərdi. İndi o konfetlərdən Bakıda axtarsam da, tapa bilmirəm. Niyazinin bizə hədiyyələri arasında "Koroğu" operasının valı da var idi. Babam mənə "Koroğlu" operasını başdan-ayağa əzbərlətmişdi. Hərdən evdə "Koroğlu"nu babamla biz "oynayırdıq". O, Koroğlunun səsi ilə danışar, biz isə cavab verərdik. Niyazi kimi adamlar həm də Vətəndəki qohumlarımız barəsində məlumat mənbələri idilər. Onların heç biri ilə əlaqəmiz yox idi. Amma babam Niyazidən hamısını bir-bir soruşardı. Çox təəssüf ki, başqa cür əlaqə yaratmaq mümkün deyildi. Məsələn, babam Nüşabə xanımın dayısı olub. Onun anası qardaşı İsmayıl Saryaldan, o da bacısından 35 il xəbər tuta bilməyiblər.

Mən sonradan öyrəndim ki, əslində, onlar –yəni, babamla qohumları gizli-gizli məktublaşıblar. Çünki bəzən, söhbətlərində nə dərəcədə məlumatlı olduqları görünürdü. Bütün bunların hamısını sizə mənim atam, İsmayıl Saryalın oğlu Nuri Saryal daha yaxşı danışa bilər. Ondakı xatirələr tükənməzdir. Babamın dostları, əqidədaşları, mühiti hamısı onun gözləri önündə keçib. Mənim danışdıqlarım isə 10 yaşlı bir uşağın uşaqlıq dünyasından süzülənlərdi.

**Nəsib bəy Yusifbəylinin ailəsi isə onlara bir köynək daha yaxın olub. Çünki əqidə sirdaşı olmaqla yanaşı, onlar həm də yaxın qohum idilər. Bu barədə yuxarıda məlumat vermişik. Nilgün xanım indi də Nəsib bəyin xanımı Şəfiqə xanımı kövrəkliklə yad edir:**

-Nəsib bəy Yusifbəylinin Türkiyədə yaşayan ailəsinin evinə tez-tez gedərdik. İndi də onun xanımı Şəfiqə xanımı, qızı

Zöhrəni yaxşı xatırlayıram. Şəfiqə xanım sadəcə, möhtəşəm qadın idi. Bizim ailədə heç zaman əl öpməzdilər. Bu, bizdə adət deyildi. Amma onlara gedəndə anam hər dəfə deyərdi ki, Şəfiqə xanımın əlindən öpüm. Mən bunun səbəbini sonradan anladım. Şəfiqə xanımın necə bir qadın olduğunu, həqiqətən də əl öpülməyə layiq olduğunu sonradan bildim. Zöhrə isə çox "tatlı" insan idi. Oğlanları atamla dostluq edib.

**"Bakı rüzgarı"ndan əsintilər...**

**Adıçəkilən kitab həqiqətən də çox maraqlıdır. Oradakı xatirələr AXC dövrü və ondan sonrakı illəri çox gözəl təsvir edir. Quru tarixi-xronikal kitablardan, sənədlər toplusu olan monoqrafiyalardan dafa faydalıdır... "Bakı rüzgarı" həm də İsmayıl Saryalın hansı əziyyətlərdən çıxmasının bir sübutudur. Nilgün xanım o əziyyətlərdən yalnız cüzi bir hissəni danışır:**

-Babam həyatında çox əziyyətlə çəkib. Bunların hamısı "Bakı rüzgarı" kitabında verilib. O kitab başdan-başa atamın öz həyatı haqqındadır. Xatirə romandır. Amma bəzi səbəblərdən qəhrəmanı öz adı ilə yox, Oğuz adlandırıb. Romandakı bütün hadisələr babam haqqındadır. Bizə isə o əziyyətlər barəsində nəsə danışmazdı. Daha çox nənəmiz bundan bəhs edərdi. Biz də ondan nələrisə öyrənirdik, bir də təbii ki, adını çəkdiyim kitabdan...

Azərbaycan Xalq Cümhuriyyəti devriləndən sonra İsmayıl babanın ömrünün acı illəri başlayıb. Sonradan Bakıya gəlsə də, artıq burada işləyə bilməyib. Bir neçə ildən sonra gizli yollarla İrana, oradan isə Türkiyəyə gedib. Romanı oxusanız, onun Türkiyəyə necə böyük çətinliklə getdiyini görərsiniz. Çünki artıq burada qaralanmışdı və təqib edilirdi. Elə özü kimi izlənilən bir neçə adamla birlikdə böyük çətinliklər hesabına Türkiyəyə gediblər.

Almaniyada oxuyub Bakıya gələndən sonra özünü çox bəlli etməməyə çalışıb. Amma yenə də təqib olunub. Alman xanımla evli olması və türkçülüklə bağlı düşüncələri səbəbindən ona qapılar bağlı olub. Həm də universitetdə çalışırdı. Orada tələbələrinə türkçülüyü aşılayırdı. Bu fakt artıq lazımi yerlərə çatdırılmışdı. Bir gəncəli komissar atamın uşaqlıq dostu idi. Ona deyir ki, "sən buradan mütləq get, yoxsa səni də güllələyəcəklər". Amma getmək istəmir. Deyir ki, "güllələyəcəklərsə, güllələsinlər. Bura mənim vətənimdi, buradan heç yerə gedən deyiləm". Ondan sonra nənəm deyib ki, "oğlun sarışındı, mən də almanam. Səni güllələyib, məni sürgün edəcəklər və simaca onsuz da rusa bənzəyən oğlunu rus təfəkküründə böyüdəcəklər". İsmayıl babam buna hiddətlənir. Deyir, "bu mənə ölümdən də ağır olar". Məhz bu səbəbdən Türkiyəyə getməli olur. Yəni, o, ölümdən qorxduğu üçün deyil, oğlunun rus zehniyyəti ilə böyüməməsi üçün bu addımı atır. Bütün bunların hamısını bizə sonradan nənəm danışıb.

**İsmayıl Saryalı tanıyanlar onun haqqında ortaq bir fikirdədirlər: o, əsasən, alman düşüncəsi ilə yaşayırdı. Yəni intizamlı, məntiqli və yalana yol verməyən bir insan kimi ömür sürürdü. Amma Şərq tolerantlığı onda hər zaman qalıb:**

-Babam çox tolerant insan idi. Heç zaman hansısa millətə qarşı pis fikirdə olmazdı. Deyərdi ki, rusun da, ingilisin də, erməninin də yaxşısı var. Amma onları pis edən başlarında olan rəhbərlər və onların idarəçiliyidir. Danışardı ki, mənim babam Gəncə qiyamı zamanı ermənini ölümdən xilas edib. Özü onu sərhədə kimi gətirib və deyib ki, bununla işiniz olmasın. O günahsızdı.

**Nilgün xanımın son olaraq danışdığı fakt isə babasındakı Azərbaycan sevgisinin nə dərəcədə böyük olduğuna bir işarədir:**

-Həyatında çox ağrı-acı görmüşdü. Amma onların heç birini bizə danışmazdı. Uşaq idik, bunları həzm edə bilməyəcəyimizi anlayırdı. Amma vətən həsrətini öz içində çəkirdi. Atam uşaq olanda ona ilk öyrətdiyi Azərbaycanın himni olub. Atam balaca olarkən ona himnin sözlərini öyrədirmiş. "Azərbaycan, Azərbaycan" deyəndən sonra, "Nurinin yurdu Azərbaycan" misralarını da ona söylədərmiş. Elə ömrünün axırına qədər bu sevgi ilə yaşadı.

**Son söz əvəzi...**

-Bakıda Saryallar ailəsinə, bizim yaxın qohumlara olan münasibətdən çox razı qaldım. Elə qohumlarımız var idi ki, onları birinci dəfə idi görürdüm. Amma fikir verin ki, hamımız eyni cür düşünür, eyni yeməkləri yeyir, eyni musiqidən zövq alırıq. Çoxlarının yaşı 50, 60-ı ötüb və onları ilk dəfə idi ki görürdüm. Amma elə bil, bu neçə illər ərzində hər zaman birlikdə yaşamışıq.

Bakıya diqqətimi bir məqam çəkdi: tellərin üzərində quşlar oxuyurdular. Mən ilk dəfə 2012-ci ildə Bakıya gələndə də o səhnəni görmüşdüm. Bu dəfə də görəndə məni çox ağrıtdı. Demək, biz insanlar o quşlar qədər də olmadıq. Onlar köçdükləri yerlərdən aid olduqları yerlərə hər il gəlirlər. Amma mən yaşı 60-dan çox olan yaxın qohumumu ilk dəfə görürəm.

# II bölüm - Cümhuriyyət naxışları – ağ-qara rəngi hadisələr

## Cümhuriyyətin Milli Matəm elan etdiyi Mart soyqırımının ildönümü: "Həmin gün məscidlərdə…"

Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə Münhen şəhərində nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci sayı demək olar, bütünlüklə 1918-ci ilin martındakı Bakı qırğınlarının 15 illiyinə həsr edilib. Azərbaycan Cümhuriyyəti Hökuməti həm 1919-cu, həm də 1920-ci il martın 31-ni Milli Matəm günü kimi qeyd edib.

Xüsusən də, 1919-cu ildə-yəni hadisələrin birinci ildönümü tamam olanda istər parlament, istər hökumət, istərsə də ADR mətbuatı vasitəsilə faciənin ildönümü, milli matəm acı ilə xatırlanıb.

Cümhuriyyət parlamentinin rəsmi qəzeti olan "Azərbaycan"ın 1919-cu il 31 mart sayında baş redaktor əvəzi Xəlil İbrahim matəmin ildönümü ilə bağlı yazırdı: (müəllifin dəsti-xətti, yazı üslubu qorunub)

"Bu gün 18-31 mart hadiseyi-ələmkiyyəsi sənəyi-dövriyyəsi münasibətilə Azərbaycan türk-islamları milli matəm elan

ediyorlar. Bu gün bütün hökumət və cəmaət idarələri, məktəblər, qəzetlər, bazar, dükan, emalatxana və sayir müəssisələr tətil ediyorlar, şəhərdə həyat dayandırılıyor. Zira: Bu gün gözəl ideya, böyük şüar altında qara fikir yürütən bir taqım alçaq qara güruhun əlində məqtul düşənlərin illiyidir. Bu matəmdə azərbaycanlılar məscidlərə yığılaraq günahsız ölənləri, irz və namusuna toxunulan məzlumları, canilər əlində tələf olmuş məsum cocuqları yad edəcək, Quran oxuyacaq, məlumlara rəhmət, zalimlərə lənətxan olacaqlardır. Təzə Pir məscidində - həmən keçən il bu günlərdə düşmən mərmiləri dəydikcə, yaralanan pəhləvan kibi nərə çəkərək güya zəban halilə "Ey türk milləti! Namusun qəbul etməsin; Allah, götürmə bu zülmü!" deyə fəryad edən bu böyük məscidin həyətində cəm kəsirin iştirakilə ictima tərtib verəcəklərdir. Fəqət Azərbaycan türkləri bu matəmdə yadlarından çıxarmamalıdırlar ki, keçən il ibtida Bakıda və Şirvanda, daha sonra Qubada və sair yerlərdə bizim başımıza gələn müsibətlərin təsirlərinin çoxu özümüzdədir. Həm də o mənayəni cəmaətimizin bir qismi məsqə geymiş canilərə inanaraq onlarla sosyalist kibi rəftarda bulunmaqla özlərini aldatmış oldı: nə o mənayə ki, cəmaətimizin bir qismi məhzi firqəbazlıq xatirinə özünü üzə çıxarmaq və şərəfi-müqabili nəzərdən salmaq niyyətilə xalqı yoldan çıxardı. Heç bir fitnə və fəsaddan çəkinmədi. Doğrudur, həyatımızda bu mövsuf amillər böyük rollar oynadılar, doğrudur on minlərcə günahsız olan vətən övladı bu hərəkətlərin qurbanı oldu! Lakin bir şeyi xatırda tutmalıdır. Bizim zəifliyimiz və düşmənin güclülüyü, bizim aramızda firqənin təfriqə kibi təəlliyisi, dillərdə əzbər olan ittihadsızlığımız və sayirə həp iki şeydən nəşət etmişdir: İdrak və etirafi-milliyyə yoxluğu və sadəlövh, saf durunluğumız. Həyat bir məktəb və tarix bir ayineyi-ibrətdir yaşayışın. Acı həqiqətlərinə açıq gözlə baxalım da. - İşləmiş

olduğumuz xətaları islah edəlim, əks surətdə belə faciələr həyatimizdə təkrar-təkrar oyana bilər. Keçən il haman bu günkü gün müsəlman türk firqələri, cə-maəti sakit etmək məqsədilə buraxmış olduqları bir intibahnamədə. "erməni qonşularımız dəxi bu məsələdə bizimlə bərabərdirlər" yazmışdılar. Halbuki dörd saat sonra başlanmış dəvayi-milli qitalə döndərən yənə haman "bizimlə bərabər olan qonşularımız" oldular. Yalnız o gün deyil həmişə bu surətlə aldanmışız. Bu da hər şeydən ziyadə siyasi xanlığımızdandır. Siyasətdə millətə dövlət və firqə mənafei hər şeydən yuca tutulduğundan şübhəsizdir ki, hər dövlət, hər millət və hər firqə ancaq mənafei üzürə bir və bərabər olanlara inana bilərlər. Digər tərəfdən yenə haman keçən il mart hadiseyi-ələmiyyəsindən bir az qabaq, faciənin oynayacağını qabaqcadan görmüş olanların "Açıq söz" qəzetəsində yazmış olduqları "Birlik gərək", "Birlik tələb olunur" və sayir bu kibi bir çox məqalələrinin qalması həp cəmaətimizin milli mənafei dərk etmiş olmasındadır. Ona görə ki, cənnət ana vətəninin xərabəzarə döndərilməsi səneyi dövriyyəsini matəm saxlayan Azərbaycan türkləri: əski Roma imperiyası Leqiyonlarının ayaqları altında əzilmiş millətini və dağılmış vətənini görən Hannibalın müqəddəs atəşgədə və qoca atası hüzurunda etdiyi kibi, bu gün, düşmən qomparasilə minarəsi dağılmış müqəddəs Təzəpir məscidi qabağında əllərini döşlərinə qoyaraq başlarını aşağı dikərək qism yad etməlidirlər ki, gözəl Azərbaycan və nəcib türk millətini hər cəhətdən sahili-nicat və səadətə çıxaranadək başlarını yuxarı qaldırmayacaq və Azərbaycan istiqlalına, türk azadlığı, millət səadəti yolunda son qətrə qanına və son nəfəsinədək heç bir fədakarlıqdan geri durmayacaqlardır"!

## Cümhuriyyətin baş nazirini pərt edən şair-
## "Mənimki nazirlə tutmaz"

1919-cu ildir…Cümhuriyyət hökuməti intellekt sahiblərini bir-bir öz cərgəsinə qatmaq istəyir. Baş nazir Nəsib bəy Yusifbəyli buna xüsusilə maraqlıdır. O, təbii ki, Məhəmməd Hadini də unutmur. Amma Hadi əvvəlki Hadi deyil. Türkiyədən qayıtdıqdan sonra Bakı küçələrində həyata olan inamı təmiz itib. İndi onu heç nə maraqlandırmır. Hər gün yazdığı şeirləri bazar meydanında bir qarın çörək qiymətinə satıb özünü dolandırardı. Belə bir vaxtda isə Cümhuriyyətin baş naziri Nəsib bəy Yusifbəyli onun qabağına çıxır.

O dövr Bakısının araşdırıcısı Manaf Süleymanova bu görüş barəsində Hadinin yaxın dostu, müəllim Əliməmməd Mustafayev danışıb:

"Hadi artıq taqətdən düşmüşdü, əynində nimdaş çuxa, qara şalvar, ayaqlarında köhnə çəkmə gəzərdi. On doqquzuncu ildə Nikolayevski küçəsində durmuşduq. Bu vaxt bizdən aralı bir maşın dayandı. Avtomobildən Müsavat hökumətinin baş naziri düşdü, şairə yaxınlaşıb salam verdi və dedi: "Hadi əfəndi, xahiş edirəm, buyurun maşına, bərabər gedək. Siz bizə lazımsız".

Şair onu dərin, mənalı tərzdə süzüb, məğrur bir səslə dedi: "Gedin! Şairinki nazirlə tutmaz!"

Bu, o demək deyil ki, Hadi Cümhuriyyətə, onun hökumətinə gileyli olub. Xeyr! Ömrü faciələrlə keçən, heç nədən sürgün edilən, sürgündə daxili xəstəlikdən, sürgündən sonra isə ruhi xəstəlikdən əziyyət çəkən Hadini artıq bu dünyada nə iləsə maraqlandırmaq mümkün deyildi. O, cəmi bir ildən sonra AXC-yə

tam müxalif olan bolşevik hökumətinin böyüklərindən birinə də eyni cavabı verir. Ona –yəni Qarayevə replikalar ünvanlayır:

"İyirminci il may ayının ilk günlərində "Çanax Qala" kafesində oturub, Hadi ilə bərabər qayğanaq yedik, kofe içdik. Birlikdə çıxıb Nikolaysk küçəsinə tərəf gedəndə xalq ədliyyə komissarı Əliheydər Qarayevə rast gəldik. Ayaq saxlayıb bizimlə görüşdü, Hadidən hal-əhval xəbər aldı. Hadi: "Belə inqilabi kəbirdən sonra mən də hamı kimi xoşbəxt, azad dünyaya qədəm qoymuşam, - dedi. – Ağakərim oğlu Əliheydər, tarix bəşərdə baş vermiş bütün qovğa, məğlubiyyət və qələbələrdə heç bir zaman, heç kəs şərabı qadağan etməmişdi. Siz bolşeviklər qadağan etdiniz. Bəşəriyyəti bu bəladan da, bu faciədən də xilas edə bilsəniz, alqış sizə.

Azca fikirləşib əlavə etdi: -Heç yerdə şərab tapılmır.

Əlini qoltuğuna salıb araqla dolu balaca bir şüşə çıxartdı, - amma mən tapmışam. Mənzilə gedib içəcəyəm, hər şeyi unudacağam. Mənzil dedikdə, güman etmə ki, sizin burjuylardan müsadirə etdiyiniz təm-təraqlı kaşanalardandır. Xeyr! Quba meydanında, karvansaranın bir küncündəki "qapıdan" zorla yanakı keçə bildiyim kahadır".

Qarayevdən ayrıldıq. Məhəmməd Hadi nə fikirləşdisə, astadan şer oxumağa başladı:

*Ey ol vəqti görən məsud, unutma, bizləri yad et,*
*Bu yolda həsrət ilə can verən əhbabi tədad et,*
*Məzarım üzrə gəl, dur, qəmli-qəmli ağla, fəryad et.*
*Oxu bu şeri qəbrimdə ələttəkrar övrad et,*
*Dur, ey zindani-nisyanda yatan, azad olub aləm,*
*Sürurabad - hürriyyət gəlib, dilşad olub aləm.*

## Şıxlinskinin Cümhuriyyətin Müdafiə naziri təyinatına etirazı – “Hökumət iradlarıma baxmadı”

Əziz oxucu, Cümhuriyyətin hərb siyasətindən ən önəmli iki fiqurdan biri olan Əliağa Şıxlinski ilə bağlı maraqlı faktı təqdim edirik:

Lakin fakta keçməzdən qabaq, Şıxlinskinin xatirələrindən bir detala nəzər salaq:

“Azərbaycanın müstəqil respublika elan edilməsi mənə may ayının 27-də (1918-ci ildə) qəzetlərdən aydın oldu. Mən mayın 28-də yeni dövlətin hərb nazirliyinin layihəsini artıq hazırlamışdım; layihənin arxasında izahedici qeyd olan müfəssəl sxem əlavə edilmişdi”.

Vəziyyətlə əlaqədar Əliağa Şıxlinski layihəsində təklif edir ki, vaxtilə türk zabitlərinin köməyi ilə yaradılan hərbi korpus ləğv edilsin. Çünki müharibə şəraitində yaşayan dövlət üçün bu azlıq təşkil edir. Əvəzində diviziyalar təşkil edilsin. Onlar da hərb nazirinə və onun köməkçisinə tabe olunsun.

Şıxlinski layihədə incə bir mətləbə də toxunmuşdu. Hərb tarixçisi Şəmistan Nəzirlinin araşdırmasında həmin incə mətləb birbaşa müdafiə naziri (o vaxt hərbiyyə nazirliyi adlanırdı) ilə bağlı idi.

Xatırladaq ki, mayda ilk müstəqil Azərbaycan hökuməti yarananda hərb naziri doktor Xosrov bəy Sultanov təyin edildi. O da mülki şəxs idi. Xosrov bəy türk zabitlərinin köməyi ilə ordunun təşkilində bəzi təxirəsalınmaz işlər görsə də, bu, ölkədəki ağır vəziyyəti yüngülləşdirmədi. Azərbaycanın həm daxilindəki, həm də qonşuluğundakı amansız düşmənə qarşı güclü ordu yaratmaq vacib idi. Təhlükə o qədər artmışdı ki, ölkənin

qərb rayonlarında hərbi vəziyyət elan olunmuşdu. Belə şəraitdə mülki şəxsin hərb naziri olmasını peşəkar hərbçi olan Əliağa Şıxlinski məsləhət bilmirdi.

Şəmistan Nəzirlinin araşdırmasında oxuyuruq:

"Şıxlinski ona görə də haqlı olaraq yazırdı ki, hərb naziri - əgər o mülki şəxsdirsə - onda o özünün yanında səlahiyyətli şəxslərin çox kiçik sayından hərbi şura yaratmaq və qoşunların təlim və tərbiyəsinə bilavasitə nəzarət etmək üçün köməkçi təyin etməlidir. Mətndən o da məlum olur ki, general Əliağa Şıxlinski layihəni artıq ikinci, bəlkə də üçüncü dəfə hökumətin ünvanına göndərib".

Şıxlinski də öz xatirələrində bu məsələ ilə bağlı etirazını gizlətməyib.

"Hökümət Gəncə şəhərinə köçən kimi (iyun ayının əvvəlində) mənim layihəm hərb nazirliyi müəssisələrinin müfəssəl sxemi şəklində Nazirlər Sovetinin sədrinə təqdim edilib. Ehtimal edilirdi ki, hökümətə tam məlumatı, yəqin ki, Nazirlər Sovetinin müvafiq iclasına dəvət ediləcək korpus komandiri şəxsən özü təqdim edəcək. Lakin mən heç bir yerə dəvət edilməmişəm və layihə haqqında heç bir xəbərdarlıq almamışam. Güman edirəm ki, layihə heç müzakirə edilməyib. Çünki Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi və bunun üçün lazım olan xarici kömək ilə əlaqədar olaraq yaranan xüsusi şəraitə görə hökümət hərb naziri təyin etməkdən imtina edib".

Nəhayət, hökümətin əmrilə 1918-ci il dekabrın 25-də tam artilleriya generalı Səməd bəy Mehmandarov hərb naziri oldu və həmin gün yanıqlı bəyanatla xalqa müraciət etdi. Dekabrın 29-da isə general-leytenant Əliağa Şıxlinski hərb nazirin müavini təyin edildi.

## Cümhuriyyətin aşağılandığı Azərbaycan filmləri

Kinomuzun yaxşı inkişaf etdiyi sovet dövründə çəkilən bir neçə bədii filmdə Cümhuriyyət dövrü birbaşa olmasa da, dolayısı ilə, ayrıca bir xətt kimi keçir. Və çox təəssüflər olsun ki, həmin filmlərin hər birində Azərbaycan Cümhuriyyəti və onun fədailəri öz layiqli qiymətini almayıblar. Biz indi həmin filmləri tənqid edib, onun rejissor, ssenariçi və aktyor heyətinə irad tutmaq fikrimiz yoxdu. Burada təbii ki, dövrün diktəsi öz sözünü deyir. Əks addım atan yaradıcı qrup təbii ki, Mərkəzin “təriflərinə” tuş gələcəkdi. Həmçinin, filmdən də  müəyyən hissələr kəsilib atılacaqdı.

Beləliklə, Azərbaycan Cümhuriyyətinin “qara lentlərlə” əks olunduğu filmləri təqdim edirik:

**“Səhər”-** 1960-cı ildə lentə alınan filmdə Cümhuriyyət “Qatır Məmməd” və “Səmt küləyi” filmlərindəki kimi birbaşa baltalanmır. Burada filmin adı Cümhuriyyət tariximizə vurulan əsas zərbədir. “Səhər”! Nəyin səhəri? Hansı qaranlığın səhəri?! Bolşeviklərin silah gücünə gətirdiyi bu “səhər” özünün aydınlıq funksiyasına nə dərəcədə əmindir?! Belə mətnaltı mənalar çoxdu. Filmin bir qütbündə böyük aktyor Ələsgər Ələkbərovun yaratdığı Rəhim bəy, digər qütbündə isə Əzizbəyov və Aslan kimi bolşeviklərdir. Təəssüf ki, kino o zaman “mənim yarım Sevdadır” oxuya-oxuya güllələnən inqilabçını əsas qəhrəmanlardan biri kimi göstərir və onun ölümünü yeni açılan səhərin doğuşu kimi göstərir. Lakin bu xalqın “səhəri” bir də 71 ildən sonra açıldı...

**"Ulduzlar sönmür"-**1971-ci ildə çəkilən film Azərbaycanın tanınmış ictimai xadimi Nəriman Nərimanovun həyat və yaradıcılığından bəhs edir. Özü-özlüyündə bu filmin çəkilməsi çox müsbət hadisədir. Çünki Nərimanov həqiqətən də iki od arasında qalmasına baxmayaraq, yenə də əlindəki imkanlardan xalqı üçün yararlanan şəxs olub. Lakin bir əmma var idi ki, filmi birbaşa Moskva – "Mosfilm" çəkirdi. Təkcə bu fakt ssenaridə nələrin dəyişəcəyinə, hansı ixtisarların hansı istiqamətdə olacağına sübutdur. Doğrudan da, elə olur. Ssenari müəllifi İsa Hüseynovla rejissor Əjdər İbrahimova çox basqı olunur. Nəticədə rejissor filmdən uzaqlaşaraq Aşqabada gedir. İsa Muğannanın yazdığı ssenariyə isə hədsiz müdaxilələr edilir. Hətta Məşədi Əzizbəyovun qızı da həmin ssenariyə baxır və nələrinsə çıxarılmasını istəyir. Həmin "nələrin" nə olduğu isə birbaşa mövzumuzla bağlıdır. Daha sonra ssenari "Mosfilm" tərəfindən bir rus şairə verilir. Ssenari anlayışı olmayan şair film üçün ssenari yerinə 200 səhifəlik poema yazır. Lakin İsa Hüseynovun qətiyyətli olması və bir ay yarım məzuniyyət götürürək ssenarini yazmaq üçün Moskvaya yollanması filmi xilas edir. Min bir çətinlik hesabına çəkilən filmdə Nərimanovla bağlı olan, xüsusən də onun AXC rəsmiləri ilə normal münasibətini göstərən kadrlar qayçılanır. Ən pisi isə ssenaridəki Hacı Zeynalabdin Tağıyev obrazı çıxardılır...

Filmdə Cümhuriyyət aşağılanmasa da, onunla bağlı olan kadrların kəsilməsi, tarixi hadisələrə birtərəfli baxmağa gətirib çıxarır. Amma bunda yaradıcı heyətdə bir günah yox idi. Təkrar edirik, filmi birbaşa "Mosfilm" çəkirdi...

"**Sevinc buxtası"** – 1977-ci ildə çəkilən film haqqında bildiriş bu cürdü: "1920-ci il. Azərbaycanda sovet hakimiyyəti yenicə qurulub. Neft maqnatları üçün yalnız bir yol qalıb: iqtisadi

blokada. Ümid yeri də birdir: müharibə nəticəsində əldən düşmüş sovetlər ölkəsi müstəqil şəkildə öz iqtisadiyyatını dirçəldə bilməyəcək. Belə bir şəraitdə Azərbaycan hökuməti qərar qəbul edir: mühəndis Potyomkinin) cəsarətli layihəsini həyata keçirmək, dənizin dibindən neft çıxarmaq üçün mədən salmaq. Minlərlə adam, fəhlə-neftçilər, dağ kəndlərindən gələn əhali də bu möhtəşəm tikintiyə toplaşır...

Kinopovest XX əsrin əvvəlində Azərbaycanda baş verən dramatik hadisələri ekranda canlandırır. Burada 20-ci illərdə dünyada birinci dəniz neft mədəninin salınmasından və Bakı fəhlələrinin göstərdikləri misilsiz qəhrəmanlıqlardan, eyni zamanda Sovet Rusiyasının taleyinin Bakı neftinin hasilatından asılı olduğu tarixi şəraitdən bəhs olunur".

Nə yaxşı ki, belə filmlər indi göstərilmir və gənc nəsil onlardan xəbər tutmur. Guya, 1920-ci ildəki iqtisadi böhranın əsas səbəbi bundan əvvəlki hökumətdir. Yəni, ADR hökuməti… Guya, bolşeviklər Bakını ona görə tutur ki, bu iqtisadi böhranı aradan qaldırsın. Guya, indiyə qədər maqnatların əlində olan neft bundan sonra xalqa sərf olunacaq… Guya, guya, guya….

Bolşeviklər bir gənc dövləti iki il qorxu altında saxladı və sonra 28 aprel istilası ilə istəyinə çatdı. Bəs bundan sonra hansı iqtisadi rifahdan danışır?!

Nə yaxşı ki, baxmadığımız filmin əsas qayəsi elə budur.

## "Əsgərlərin isti otaqları, yorğan-döşək və yeməkləri olacaq" – Mehmandarovun xalqa müraciəti

Əvvəlcə onu deyək ki, ADR qurulan zaman ən vacib, həmçinin, ən çox boşluqların olduğu sahə də elə hərbi sahə idi. Bütün

Çar Rusiyasının, Yaponiyanın ayaq üstə alqışladığı generallar Əliağa Şıxlinski və Mehmandarov Azərbaycan Cümhuriyyətinə yardım etmək üçün vətənə qayıdanda mülki bir şəxsin nazir olduğunu görürlər. Sonradan növbəti hökumət kabinetləri formalaşır və bu iki şəxs hərbi sahənin əsas simasına çevrilir. Hər şey də onların çiyinlərində idi.

Onların iştirakı və tövsiyyəsi ilə Cümhuriyyət hökuməti gəncləri orduya cəlb etmək üçün 1919 ilin sonunda praporşiklər məktəbinin əsasında Hərbiyyə məktəbi, Azərbaycan ordusu üçün milli hərbi kadrlar hazırlayan İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi və Hərbi feldşer məktəbi də açdı.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının birinci cildində oxuyuruq: "Hərbi Nazirliyin fəaliyyəti sayəsində, çətinliklər olsa da, orduya çağırış işi yeni sistem əsasında quruldu. Nəticədə, əhali orduda xidmətə müsbət münasibət bəsləməyə başladı. Bir sıra məmurların qanunsuz hərəkətlərinə, varlıların rüşvət verərək, övladlarını hərbi xidmətdən azad etməsinə, fərarilik, zabitlər arasında intizamsızlıq hallarına baxmayaraq, ordu quruculuğunda müsbət dəyişikliklər üstünlük təşkil edirdi".

Hərbi nazir Səməd bəy Mehmandarov ordu quruculuğundakı çətinliklərdən bəhs edərkən hələ 1918 ilin dekabrında göstərirdi ki, fərariliyin əsas səbəblərindən biri çağırış orqanlarının fəaliyyətinin düzgün qurulmaması ilə bağlıdır. O, açıqca bildirirdi ki, hərbi xidmətə yalnız rüşvət verib "canlarını qurtara bilməyən" şəxslər cəlb olunurlar və buna görə də qoşun hissələrində bir nəfər də olsun imkanlı adamın övladı yoxdur. İmkanlı adamların övladlarına yalnız praporşiklər məktəbində rast gəlmək olardı ki, onlar da öz arzuları ilə təhsil almağa gəlmişdilər. Hərbi mükəlləfiyyətin əsas ağırlığı kasıbların üzərinə düşiirdü. 1918

il dekabrın 25-də Səməd bəy Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Müraciət Azərbaycan və rus dillərində çap edilərək əhali arasında yayıldı:

"İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları, istər fəqir, istər dövlətli, əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyinəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam".

Həyata keçirilən bu tədbirlər Azərbaycan ordusunun formalaşdırılması işini xeyli sürətləndirdi: "Güclü ordu formalaşdırılması üçün vacib olan müxtəlif hərbi strukturun yaradılması, qoşunların ərzaq və digər vasitələrlə təmin olunmasının yaxşılaşdırılması, həmçinin zabitlərin maaşlarının vaxtaşırı artırılması həm Hökumətin, həm də Hərbi Nazirliyin daimi nəzarətində idi. Bu sahədə hərbi nazirliklə Nazirlər Şurası arasında sıx əlaqə yaradılmışdı. Hərbi nazir 1919 ilin aprelində ordunun formalaşdırılması üçün büdcədən ayrılacaq vəsaitin miqdarı barədə Hökumətə təklif verdi. Hökumət bu təklifi təsdiq etdi. Həmin vəsait 399,4 milyon manata bərabər idi ki, bu da dövlət büdcəsinin 27,7%-ni təşkil edirdi". (həmin mənbədən)

## "Ağlaya-ağlaya zabitə dedim ki, məni atama görə niyə döyürsüz?" – Cümhuriyyət generalı və nazirinin oğlu

"Odlar yurdu" qəzetinin 13 iyul 1989-cu il tarixli 13-cü sayında böyük sərkərdənin həyatının bundan bir qədər sonrakı dövrü, daha kokret desək 15 il keçəndən sonrakı xidmət illəri

haqqında yazan M.Əliyev aşağıdakı məlumatları çatdırırdı: “Səməd bəy 1890-cı ildə kapitan rütbəsi almış, 1891-ci ildə isə ikinci dərəcəli “Müqəddəs Stanislav” ordeninə layiq görülmüşdür. 1894-cü ildə Səməd bəy hərbi komandanlığın əmri ilə Varşava hərbi dairəsinin sərancamma göndərilmişdir. 1896-cı ildə o, ikinci dərəcəli “Müqədds Anna” ordeni ilə təltif edilmişdir. 1898-ci ildə podpolkovnik rütbəsi alan Səməd bəy Mehmandarov Zabaykalye artilleriya diviziyasının komandiri təyin edilmişdir. O illərdə diviziya Mancuriyada yerləşirdi. 1900-1901-ci illərdə Çində antiimperialist hərəkatının yatırılmasında Səməd bəy Mehmandarovun komandir olduğu diviziya da iştirak etmişdir. Lakin Səməd bəy Mehmandarov silahsız Çin əsgərlərinə atəş açmağa razı olmamışdır. 1901-ci ildə S.Mehmandarov polkovnik rütbəsi və üçüncü dərəcəli “Müqəddəs Vladimir” ordeni, habelə üstündə “Qəhrəmancasına fərqlənməyə görə” sözləri yazılmış qızıl qılınc almışdır. Rus-yapon müharibəsi zamanı Port-Artur şəhərini qəhrəmancasına müdafiə edən Səməd bəy Mehmandarov 1904- cü il oktyabr ayının 22-də general-mayor rütbəsinə və dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeninə layiq görülmüşdür. 1907- 1910-cu illərdə Səməd bəy Mehmandarov 3-cü Sibir ordusunda artilleriya rəisi işləmişdir. 1908-ci il iyulun 13-də hərbi xidmətlərinə görə ona general-leytenant rütbəsi verilmişdir.

## Qarabağ səfərindən reportaj

Baş Nazir N.Yusifbəylinin və hərbi nazir S.Mehmandarovun Qarabağa gəlmələri haqqında məlumat verən “Azərbaycan” qəzeti 3 avqust 1919-cu il sayında yazırdı:

"Qarabağın həyatında daha əlamətdar bir hadisə - bu 29-30 iyul günləri oldu. Bu günlərdə Qarabağ özünün ən əziz və sevimli qonaqlarını - Gəncə qubernatoru Rəfıbəyovun müşayət etdiyi Baş nazir N.Yusifbəylini və hərbi nazir S.Mehmandarovu qəbul etmək sevincini yaşadı. Qonaqlar iyulun 29-da Xankəndinə gəldilər, orada qoşunların paradı oldu. Paradı Baş nazir N. Yusifbəyli qəbul etdi...

İyulun 30-da əziz qonaqlar Şuşaya gəldilər. Şəhərdə qonaqlar ruhanilər və əhali tərəfindən duz-çörəklə qarşılandılar. Sonra qonaqlar Azadlıq meydanına gəldilər və burada ruhanilər və əhali tərəfindən nitqlər söyləndi. Cavab nitqi söyləyən Baş Nazir müsəlmanların başqa millətlərin nümayəndələri ilə dinc yanaşı yaşamalarının zəruriliyindən danışaraq, qeyd etdi ki, bunsuz Azərbaycanın rifahı mümkün deyil." İndisə Nəsib bəyin, Səməd bəyin nitq söylədiyi gözəl Şuşa torpağı erməni tapdığı altında öz xilaskarını gözləyə-gözləyə inləyir. Ancaq qəvi düşmən də yaxşı bilir ki, Şuşanın və başqa işğal edilmiş ərazilərimizi əsrin əvvəllərində Azərbaycandan qopardığı toıpaqlara qata bilməyəcək, tez-gec o yerlər azad ediləcək.

**12 yaşlı oğluna təzyiq**

Aşağıdakı təsirli fakt isə araşdırmaçı Lətif Şüküroğlunun arxivdən əldə etdiyi material əsasında təqdim olunur:

İqor Səməd bəyin 3-cü Sibir korpusunda artilleriya rəisi təyin edildiyi 1908-ci ilin 18 noyabrında anadan olub. Qeyd etdiyimiz kimi, həmin il iyul ayının 13-də 53 yaşlı hərbçi generalın həyatında daha mühüm bir hadisə baş verdi, o, general- leytenant rütbəsi aldı. Oğlu dünyaya gəlməsindən hədsiz şad olan S.Mehmandarov onun adını Pir qoyub, sonra isə bu ad dəyişdirilərək İqor edilib. Səməd bəy 1915-ci ildə 2-ci Qafqaz

ordusu korpusunun komandanı təyin ediləndə İqorun iki yaşı. 55 Azərbaycanın ikinci hökumətində nazir olanda 11, həbs olunanda isə cəmi 12 yaşı vardı və təbii ki, bu yaşda uşağın atasının fəaliyyətində hansı şəkildəsə iştirakı qeyri-mümkün idi. Ancaq "çeka", "enkevede" cəlladları üçün bütün bunların heç bir əhəmiyyəti yox idi, əhəmiyyətli olansa, onun kimin oğlu olması, yeri gəlsə, hətta əsli-köküydü. Pirin xatirələrindən: "Atamdan sonra tez-tez anamı və məni "çekaya" çağırırdılar. Min cür hədələyici suallar verirdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi döyüb incidirdilər. Bir dəfə lap cana doyub ağlaya-ağlaya soruşdum ki, axı məni niyə döyürsünüz? Verdiyiniz sualların cavabını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənim günahım nədir? - Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideynlər seçməmisiniz."

Butırsk həbsxanasının rəisinə 3 noyabr 1920-ci ildə 1512 saylı talon göndərən ÜFK-nın xüsusi şö'bəsi "bu sənədi alan kimi Səməd bəy Mehmandarovu təcili həbsdən azad edəsiniz" tapşırığı verir.

Həbsdən buraxılan keçmiş hərbi nazir 1921-ci ilin payızında Moskvadan Bakıya qayıdır. Elə həmin il Səməd bəy Mehmandarov Azərbaycan SSR hərbi-dəniz komissarlığında məsləhətçi vəzifəsində işləmiş, 1924-cü ildən 1927-ci ilin axırına qədər isə Azərbaycan hərbi məktəbində və Zaqafqaziya hərbi-piyada məktəbində dərs demiş, həmçinin Bakı Zabitlər evində fəaliyyət göstərən "Hərbi-elmi cəmiyyət"inin sədri olub. 1928-ci ildə istefaya buraxılan Azərbaycanın ilk hərbi generalı, dalbadal dörd hökumətində hərbi nazir postunu tutmuş Səməd bəy Mehmandarov 1931-ci ilin fevral ayında Bakıda vəfat edib.

## Cümhuriyyət nazirinin Nərimanovun həbsi barəsində sərəncamı – Arxiv faktı

Təqdim edəcəyimiz fakt o zaman bütün ADR hakimiyyətində rezonansa səbəb olmuşdu:

***"Daxili İşlər naziri X.Xasməmmədovun Şuşa şəhərinin general-qubernatoruna***

***N.Nərimanovun həbs edilməsi barədə" Sərəncamı...***

***8 aprel 1919-cu il.***

***Müvəqqəti general-qubernator doktor X. Sultanova***

"Hərbi nazirin aldığı agentura məlumatına görə bolşevik Nərimanov Bakıya gəlib orada parlamentin "Hümmət'dən olan üzvləri, başlıcası isə Sanıyev və Qarayevlə görüşmüş, sonra isə Şuşa və Qazax qəzalarının əhalisi ilə görüşmək və imkan daxilində qoşun daxilində bolşevizmi təbliğ etmək məqsədilə həmin qəzalara getmişdir. Hərbi nazir təsdiq edir ki, belə təbliğatın nəticəsində orduya gənclərin axını xeyli azalmış və təhlükə doğuracaq həddə çatmışdır. Bu barədə Sizə məlumat verməklə mən əlahəzrətinizdən Sizin general-qubernatorluğun ərazisində göründüyü vaxt Nərimanovun tutulması üçün sərancam verməyinizi xahiş edirəm. Bu barədə tərəfimdən Gəncə qubernatoruna da teleqrafla bildirilmişdir. Daxili İşlər naziri Xasməmmədov"

(ARDA, f 1054; siy. 1, iş 4a, səh. 2).

**Araşdırmaçı alim Lətif Şüküroğlu arxivdən əldə etdiyi bu fakt barəsində yazır:**

"Bu xahişin nəticəsi barədə əlimizdə hər hansı arxiv sənədi yoxdur. Ancaq Xosrov bəyin vəzifə borcunu yerinə yetirmək

üçün necə çətin bir durum qarşısında qaldığını güman edirik. O, neçə illər dostluq etdiyi bir şəxsi həbsə almalı, yaxud vəzifə borcuna əməl etməməli idi. Əsl həqiqətdə necə olduğunu isə yəqin gələcək tədqiqatlar deyəcəkdir".

N.Nərimanovun Azərbaycan tarixində hansı rolu oynaması barədə mübahisələrə qoşulmadan və bu böyük şəxsiyyətin xalqımız qarşısındakı danılmaz tarixi xidmətlərini azaltmadan yalnız onu deyə bilərik ki, Azərbaycan daxilində aparılan bolşevik təbliğatı nəticədə respublikanın dövlət müstəqilliyinin itirilməsinə, Rusiya imperiyasının yeni cilddə sərhədlərimizdə peyda olmasına və vətənimizi işğal edilməsinə gətirib çıxardı. Yerli xəyanətkarların əli ilə baş tutmuş həmin çevriliş aktından təqribən iki il sonra vaxtilə bolşevik təbliğatı aparan N.Nərimanov bir nömrəli bolşevik Leninə yazacıqdı: "Müstəqil Azərbaycan sözü məgər sizin dilinizdən çıxmamışdırmı". Ancaq onun az qala acı fəryad kimi səslənən bu sualına yalnız 71 ildən sonra cavab veriləcəkdi.

## Zakir Sadatlının üzə çıxardığı Cümhuriyyət sirləri və ağrıları - "AXC araşdırmaçıları"

Başlayaq, mərhum Zakir Sadatlıdan. O, elmi dərəcəsi olan alim olmayıb. Lakin yazıçılıq və jurnalistika ilə yanaşı, Cümhuriyyət dövrü ilə bağlı çox ciddi araşdırmaar aparıb. Bu araşdırmalar o zaman həm dövlət radiosunda, həm də o vaxtın mətbuat orqanlarında yayımlanırdı. Qeyd edək ki, Zakir müəllim Cümhuriyyətlə bağlı araşdırmalar aparan zaman bu işlə çox az adam məşğul olurdu. Elə isə başladıq. Zakir Sadatlı "İz - Cümhuriyyətdən Cümhuriyyətə" silsilə yazılarında AXC barəsində çox maraqlı fikirlər səsləndirib:

İz haqqında yaddaşımdakı izlər

“...Başımız oynamağa qarışardı. Bir də o vaxt xəbər tutardıq ki, quzular yoxdu...

Ətraf qalın meşə, kol-kos və hava da qır duman... Evdə döyülmək qorxusu... Tap itiyini, görüm necə tapırsan...

Dərhal başlayırdıq əl ağacını qarışlamağa:

Əl ağacı...

*Bel ağacı...*

*Mal itirib –*

*Mal tapan!*

Əl ağacını qarışlaya-qarışlaya ölçüb, bu ibtidai nəğmələri təkrarlaya-təkrarlaya dodaqlatı vird eləyərdik. Bu “inanc nəğməsi”nin şərti beləydi ki, axırıncı misranı deyəndə “qarış” ağacın son ucuna çatırdısa, deməli, narahat olmağa dəyməzdi. Hər şey yaxşı qurtarmalıydı – itiyimiz tapılmalıydı...

Biz o vaxtlar çox uşaq idik. Bütün inamların sehriylə yaşayırdıq. Ürəyimizə, ruhumuza şübhələr, tərəddüdlər yol açmamışdı, cığır salıb iz qoymamışdı.

...Bir-iki saat ora-bura vurnuxardıq. Quzular tapılmayanda narahatlıq hissiylə o “mahnı” da, onun sehri də cəfəng söhbət kimi duyğularımızda küt bir iz qoyub qeybə çəkilirdi...

Uşaq hisslərini qamarlayan bu inam öz zəhmli görkəmindəki ciddiliyi “uzun müddət qoruyub” saxlaya bilməzdi.

Şərəfli tariximizin **Bir il on bir ayı!**

**Tarixin tabutu üstündə ağı**

Fərqi yoxdu. Bu müddəti aylara bölüb iyirmi üç ay da demək olar. Lap bu ayları günlərə, günləri saatlara, dəqiqələrə,

saniyələrə bölüb yuvarlaq bir rəqəm də almaq mümkündür. Lakin bu "riyazi əməliyyatlarla" zamanın konkret ölçüsünə, olub keçmiş vaxtın məna tutumuna heç nəyi əlavə edə bilmərik. Bu tarixə hansı səmtdən yanaşsaq da, duya biləcəyimiz qürur və şərəf hissi artıb-azalmayacaq.

***Bu, bizim Tariximizdir!***
***Bu Tarix bizimdir!***
***Bu bizim alın yazımız, tale payımızdır!***

Yerlərdən, göylərdən şəfa diləyəndə, dünyadan möcüzə istəyəndə, inancımıza and yeri axtaranda o İyirmi Üç Ayın mübarək dərgahına üz qoymalı olacağıq. Axı insan dünyanın bütün müqəddəsliyinə inanır. Tarix də vaxtın keçmişdə qalan bütöv və müqəddəs bir parçasıdır. O daim bu gün və gələcək üzərində öz hakimi-mütləqliyini saxlayır.

Tarix üçün "köks ötürmək qədər" qısa bir vaxt olan Müstəqil Azərbaycan Dövlətinin 23 aylıq mövcudluğu xalqımızın son yüzilliyindəki həyatında əsl siyasi intibahy dövrüdür. Bütün Yaxın Şərqdə, habelə müsəlman dünyasında ilk demokratik respublikanın təsisi, milli dövlət quruculuğu xalqımızın azadlıqsevər, milli-bəşəri keyfiyyətlərinin təcəssümüdür.

**Rəhmətlik Zakir müəllim çox peşəkar yazıçı idi. Dilinin rəvanlığı və səlisliyi publisistikası və ADR-lə bağlı araşdırmalarında özünü göstərir. Qarşımızdakı qəzet səhifəsini vərəqləyirik.... Zakir müəllim Cümhuriyyət tarixinə, onun fədailərinin ağrılı taleyinə necə gözəl işıq salır...**

**Tiflis qəbirstanlığına ezamiyyət**

...Sənədləri sahmanlayıb asudə nəfəs almaq istəyirdim ki, kinooperatorumuz hövlank özünü yetirdi.

Deyəsən, harasa tələsirdi.

- *Qədeş, Tiflisə nə vaxt çıxırıq?*

- *Sabah axşam... qatarla.*

- *Orada nəyi çəkməliyik?*

Düşünürəm: “Buna noolub, niyə narahatdı? Deyəsən, at almamış axur hazırlamaq istəyir”...

“Yox, zarafatsız ötüşmək mümkün deyil”.

- *Fətəli xan Xoyskidən müsahibə almalıyıq – deyirəm.*

- *Hə...ə... (üzündəki ciddi təsdiq işarəsiylə demək istəyir ki, guya hər şeyi kamali-ədəblə başa düşdü).*

Duzsuz və yarılaqeyid zarafatımla heyrətamiz bir “kələfin ucunu ələ keçirmişəm” deyəsən. Hər halda, şübhələrimi tam dağıtmaq marağıyla dilimi dinc qoymuram:

- *Fətəli xan Xoyskini tanıyırsan da?*

- Əlbəttə, qədeş!

- *Görəsən, heç onu televiziyaya çəkən olubmu?*

- *Vallah, deyəsən “Xəbərlərin” uşaqları keçən il ondan müsahibə almışdılar. İndi mən öyrənib deyərəm sənə...*

Operator dostum getdi “faktı” dəqiqləşdirməyə...

Mən isə başımı tutdum... getdim o illərə...

İz haqqında yaddaşımdakı 2-ci iz

...Sonralar özlüyümüzdə itik axtarışının guya bir az “sivil”, bir az da “ağlabatan” formasını tapmışdıq: İki çöp götürüb onlara gizlincə ad qoyardıq – “Əli püşkü”...

Və çöpləri, belə “adqoyma məşvərəti”ndən xəbərsiz olan üçüncü yoldaşımıza verərdik. O da “ad”ını bilmədiyi çöplərin hərəsini

bir səmtə tullayardı. “Qanun beləydi ki, biz mütləq “Əli püşkü...” tuşlanan tərəfə getməliydik. İtiyimiz i səmtdən tapılmalıydı.

Belə “axtarışlar”ın da təcrübəmdə gah uğurlu, gah da uğursuz nəticəsini görmüşəm. Amma insafla deyəndə noolar, “birinciyə” baxanda “ikinci” inacımızın üstün tərəfləri olurdu. “Birinci” inancımızı sırf arxayınçılıq müşayiət edirdisə, “ikinci”də hərəkət, istiqamət və axtarış varıydı.

Amma bu o demək deyil ki, Zakir müəllimin Cümhuriyyətlə bağlı yazılarının ancaq bədii gücü, esseistik göstəricilərinə diqqət yetirib. Xeyr! Faktlarla, arxiv materialları ilə işləmək, tarixə düzgün qiymət vermək onun yazılarının əsas xətti olub:

“Birinci Dünya Müharibəsi, Rusiyada fevral inqilabı və bütövlükdə dövrün ziddiyyətli prosesləri əsarətdə yaşayan xalqların azadlıq meyllərinin reallaşması üçün şərait yaratdı. Güney Qafqaz xalqlrı öz milli mənafeləri naminə mübarizəyə qoşuldular.

1918-ci ilin fevralında Tiflisdə “Zaqafqaziya Seymi” yaradıldı. “Seym”in tərkibində fəaliyyət göstərən “müsəlman fraksiyası milli mənafeyimizi əzmlə müdafiə edirdi. “Seym”in üzvü Hacı Mirzə Səlim Axundzadə xatirələrində yazır: “...Üç millət bir milyard manat pul çıxarmağa qərar qoydular. Bu miqdarın dörd yüz milyonu Azərbycanın öhdəsinə , erməni və gürcülərin hərəsinə üç yüz milyon miqdarında taranı təəhhüd etdilər. Seymin pulunda üç millətin imzası var idi. Sağdan oxuyanda Azərbaycan qabaqda, sonra erməni və gürcü...”

Lakin Zaqafqaziya Seymi bir dövlət kimi formalaşa bilmədi. 1918-ci ilin aprelində Zaqafqaziya özünün müstəqilliyini elan etdi.

Hadisələrin sürətli axarı, ziddiyyətli və mürəkkəb tarixi proseslər, milli maraqların önəmliyi, xaricdən ötürülən intriqalar Zaqafqaziya Seymini və Federativ Respublikanı parçaladı. 1918-ci il mayın 26-da sonuncu iclas zamanı Seym buraxıldı. Gürcüstan özünün müstəqilliyini elan etdi.

Mövcud siyasi proseslərin nə vaxtsa gəlib boşluğa dirənəcəyini əvvəlcədən hiss edən "müsəlman fraksiyası" vaxtaşırı analitik təhlillər aparırdı. Baş verə biləcək bütün olaylara hazır idi. Elə həmin gün, yəni 1918-ci il mayın 26-da müsəlman faksiyasının iclasında "Milli Şura" yaradıldı. Azərbaycanın da müstəqil dövlət elan olunması haqqında qərar qəbul olundu.

Köhnə qəzet səhifələrindən Zakir müəllimin Cümhuriyyətin elan olunması ilə bağlı cümlələrini oxuyarkən, onun o zaman necə həyəcanlandığını hiss edirəm. Həqiqətən də, vətən sevdalısı olan Zakir müəllim üçün bu cümlələri yazmaq ancaq göz yaşının müşahiyiəti ilə baş tutub:

**"1918-ci il mayın 28-i.**
**Axşam saat 19:00.**
**Tiflisin "Oriant" mehmanxanası...**

"Zaqafqaziya Seymi"nin 28 nəfərdən ibarət azərbaycanlı nümayəndəsi müşavirə keçirir. İclasa "Azərbaycan Milli Şurası" sədrinin müavini, doktor Həsən bəy Ağayev sədrlik edir. Mustafa Mahmudoğlu isə katib seçilib. Hamı həyəcan içindədi. Ermənilərin fitvasıyla "Oriant" mehmanxanası mühasirəyə alınıb. Azərbaycanın görkəmli siyasi xadimlərinin ünvanına nalayiq sözlər söylənilir. Hamı bir himə bənddi. Ara qarışıb, çaxnaşma düşə bilər.

Sədr doktor Həsən bəy nə qədər təmkinli olmağa çalışs da, həyəcanını gizlədə bilmir, səsi titrəyir: **"... Biz bu gün Qafqazın**

**qiymətli bir diyarının – Azərbaycanın Müstəqilliyini və İstiqlalını elan edəcəyik. Hər kəs bunun əleyhinədirsə, rica edirəm, zalı tərk etsin! ”**

... Həyəcan dolu, qısa bir **SÜKUT!**

Heç kəs oturduğu yerdən tərpənmir.

Katib adbaad soyadlarını oxuyur. **Adları çəkilən 28 nəfərdən 2-si “bitərəf” qalır.** 26 nəfər “Azərbaycanın İstiqlal aktı elanı”nın lehinə sevinclə səs verir. Səsvermədən sonra katib bir daha 26 nəfər Vətən fədaisinin ad və soyadlarını iclasın nəzərinə çatdırır. Daha doğrusu, əyilib Tarixin qulağına pıçıldayır ki, bu şəxsləri yadında saxlasın.

**1. Həsən bəy Ağayev**
**2. Mustafa Mahmudoğlu**
**3. Fətəli xan Xoyski**
**4. Xəlil bəy Xasməmmədli**
**5. Nəsib bəy Yusifbəyli**
**6. Mir Hidayət Seyidov**
**7. Nəriman bəy Nərimanbəyli**
**8. Heybətqulu Məmmədbəyli**
**9. Mehdi bəy Hacınski**
**10. Ələsgər bəy Mahmudbəyli**
**11. Aslan bəy Qardaşoğlu**
**12. Sultan Məcid Qənizadə**
**13. Əkbər ağa Şeyxülislamzadə**
**14. Mehdi bəy Hacıbababəyli**
**15. Məhəmməd Yusif Cəfərov**
**16. Xudadat bəy Məlikaslanlı**
**17. Hacı Mirzə Səlim Axundzadə**
**18. Həmid bəy Şahtaxtinski**

**19. Firudin bəy Köçərli**
**20. Cəmo bəy Hacınski**
**21. Şəfi bəy Rüstəmbəyli**
**22. Xosrovpaşa bəy Sultanov**
**23. Cəfər Axundzadə**
**24. Məhəmməd Məhərrəmoğlu**
**25. Cavad bəy Məlikyeqanlı**
**26. Rəhim bəy Vəkilov**

Ertəsi gün ayrı-ayrı ölkələrin Xarici İşlər Nazirliyinin ünvanına bir teleqram yola çıxdı...

(Qaynaq: Günyadın" qəzeti, 6-7 iyun 2000, №34 (267)

## Rədd edilən eşq, qocalıqda evlilik, olmayan övlad-Nuru Paşanın uğursuz ailə həyatı

Bakı qurtuluşun memarı olan Nuru Paşanın həyatı hərbi fəaliyyəti qədər uğurlu alınmayıb. Nuru Paşa yalnız ölümündən 3 il əvvəl ailə həyatı qurdu. O izdivacdan da heç bir övlad olmadı. Araşdırmaçı Mehman Süleymanovun "Nuru Paşa və silahdaşları", yazıçı Manaf Süleymanovun "Hacı Zeynalabdin Tağıyev" adlı əsərlərindən istifadə edərək Nuru Paşanın uğursuz ailə həyatı haqqında bir neçə faktı təqdim edəcəyik:

Nuru Paşanın gec ailə qurmasına səbəb bəlkə də Hacı Zeynalabdin Tağıyev olub.

Nuru paşa Bakıda olarkən Hazı Zeynalabdin Tağıyevin qızı Sara xanımla ailə həyatı qurmaq istəyirmiş. Sara xanımın bu barədə xatirələrini Manaf Süleymanov öz kitablarında çap

etdirmişdi. Sara xanım bildirirdi ki, ona Buxara əmiri də elçi düşübmüş. Amma uzaqda olduğu üçün Hacı Zeynalabdin Tağıyev Sara xanımı verməyib. Məlumdur ki, Nuru Paşa Bakıda olarkən Hacı Zeynalabdin Tağıyev onu böyük təntənə ilə qarşılamışdı və Xəlil paşaya da Bakıda qaldığı günlərdə evində yer vermişdi. Nuru paşa da ona Sara xanımla ailə həyatı qurmaq istədiyini demişdi. Sara xanım bu hadisəni belə xatırlayırdı:

"Adı dillər əzbəri olan İslam türk ordusunun baş komandanı Nuru Paşa Bakını almışdı. Bir neçə dəfə görüşmüşdük. Hər şeyi başa düşürdüm. Romantik, şairanə arzularla yaşayırdım... Paşa bir neçə dəfə ziyafətdə olmuşdu. Bağımıza gəlmişdi... Gözlərimdə, elə hamının nəzərində qeyri-adi qəhrəman kimi görünürdü... Tək mənim yox, elə hamının... Hacıya ağız açıb mənə evlənmək istədiyini demişdi... Atam ona da Buxara əmirinə verdiyi cavabı vermişdi... O zaman Nuru Paşanın 29 yaşı var idi. Hacı Zeynalabdin Tağıyev Nuru Paşaya dərin ehtiram bəsləsə də övladının gözündən uzaqda olmasına razılıq vermədi. Başqa bir kitabında Manaf Süleymanov Nuru Paşa ilə Sara xanımım görüşləri zamanı Nuru Paşanın ona şer oxumasını da qələmə almışdı. Sonradan Nuru Paşa uzun müddət ailə həyatı qurmaq fikrinə düşmədi. Çox güman ki, rastlaşdığı ağır həyat və sınaqlar onu ailə qurmaqdan çəkindirdi. 1921-ci ildə Nuru Paşa bir də ailə həyatı qurmaq barədə fikirləşməyə başladı. Yuxarıda qeyd edildiyi kimi, 1921-ci il avqust ayının 22-də Ənvər Paşaya göndərdiyi məktubunda ailə həyatı qurmaq istəməsindən söz açır və onun nəzərində olan xanımlar barəsində Ənvər Paşaya məlumat verirdi. Nuru Paşa iki xanımın adını çəkir. Biri Karçıbaşılardan olan Həmidə xanımın qızı, bir də prinses İffət xanımın qızı . Əlavə olaraq Nuru Paşa Həmidə xanımın qızının gənc və gözəl bir xanım olduğunu bildirirdi. Amma həmin ildə

M.Süleymanovun adıçəkilən əsərində Nuru Paşanın ailə həyatı haqqında bu cür bilgilər verilir:

"Nuru Paşa ailə həyatı qurmadı. O bir də 1946-cı ildə, həlak olmasından 3 il əvvəl Ənvər Paşaya məktubunda adını çəkdiyi prinses İffət xanımım qızı Misli Mələk xanımla ailə həyatı qurdu. 1901-ci ildə doğulmuş olan Misli Mələk xanımın anası İffət xanım Misir prinsesi idi. Nuru Paşa ilə Misli Mələk xanımın övladı olmamışdı. Nuru Paşanın həlak olmasından sonra Misli Mələk xanım uzun bir həyat yaşamış və 1989-cu ildə dünyasını dəyişmişdi".

## Quba dəhşətləri ilə bağlı protokol:"Bir erməniyə görə, 200 müsəlman öldürüldü, 75 qadın zorlandı"

1918-ci ilin dəhşətli mart qırğınları təkcə Bakı ilə bitməyib. Bakıdan əvvəl və sonra bir neçə bölgədə də bu qırğınlar həyata keçirilib. Ermənilər bir neçə bölgəmizdə yerli əhalini qətlə yetirib, onlara olmazın işgəncələr veriblər. Bu bölgələrdən biri də Bakıya daha yaxın Quba olub. Qubadakı Soyqırımı məzarlığı da göstərir ki, orada baş verən qırğın dünya miqyaslı bir faciədir. Ermənilərin azərbaycanlıların başına gətirdiyi bu oyunlar barəsində zatən nə qədər yazılsa, yenə azdır.

Araşdırmaçı-alim Zaur Əliyevə istinadən, Quba hadisələri ilə bağlı dindirilmə protokollarından birini təqdim edirik

Dindirmə protokolu 1918-ci il 15 dekabra aiddir:

"Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının üzvü Novatskinin Cinayət Prosessual Məcəllə-

sinə uyğun olaraq şahid qismində dindirdiyi aşağıda adı çəkilən şəxs göstərib: Əli Abbas bəy Əlibəyov, Quba şəhər rəisi, 49 yaşlı.

"Quba həbsxanasında qırx nəfər erməni təcrid edilmişdi, çünki, biz qorxurduq ki, bəzi şübhəli şəxslər onlara qarşı hər hansı bir zorakılıq törədə bilər və onları mühafizə edirdik. Bolşevik Georgi (David) Gelovani hesab etdi ki, bu erməniləri heç bir təhlükə gözləmir və onları həbsxanadan buraxdı. Altı gündən sonra o, 170 nəfərlik bolşevik dəstəsi və pulemyotlarla yenidən Qubaya qayıtdı. Dəstə rus, yəhudi və bizim qoruduğumuz ermənilərdən ibarət idi.Bizim köməyimizə ləzgilər gəldilər. Atışmada mülki əhalidən 70 nəfər həlak oldu. Ləzgilərdən 200 nəfər ölmüşdü. Ermənilərin əsas mərkəzi qərargah isə yəhudi qəsəbəsindəki təpədə yerləşirdi. Ermənilərin azğınlıqları davam edirdi: onlar ikinci gün şəhərin 1-ci və 2-ci hissələrində, 1012 nəfər - əksəriyyəti şəhərin kasıb təbəqəsindən və iranlı təbəələrdən ibarət olan kişilər qətlə yetirildilər. Şəhərdən Nikolay pulları ilə üç milyona yaxın pul, 6 milyona yaxın məbləğdə bütün qızıl və qadınların qızıl zinyət əşyaları toplanmışdır, öldürülmüş hər bir erməniyə görə 200 müsəlman öldürülmüş, 75 müsəlman qadın və qız zorlanmış, təxminən 90 evə od yandırılmışdır. Ayrapetov öz məruzəsini aşağıdakı sözlərlə bitirdi: "İş başa çatdırılmışdır, kifayətdir, gedək".

Hadisədən sonra yəhudilərin 6 min nəfərə qədəri şəhəri tərk etdi və ermənilərlə çıxıb getdi. Bizi sona qədər bolşevik-ermənilərin əlindən ləzgilərlə-türklərin birliyi xilas elədi" Quba şəhər rəisi Əlibəyov Əli Abbas bəy. İmza. Komissiyanın üzvü: A.Novatski (imza). AR DA, f. 1061, s. 1, i. 96, v. 34-39. Sənəd № 57 Dindirmə protokolu"

## Ermənilər axundun burnunu, qulağını kəsib, başının dərisini soydu - Mart qırğınları

Ermənilər 1918-ci ilin martında bir neçə bölgəmizdə yerli əhalini qətlə yetirib, onlara olmazın işgəncələr veriblər. Bu bölgələrdən biri də Bakıya daha yaxın olan Şamaxı idi. Şamaxıya daxil olan ermənilər əvvəlcə hiyləyə əl atdılar. Onlar il anda yerli əhaliyə toxunmayacağını bildirdilər.

Lakin erməni məkri çox davam edə bilmədi, tezliklə Şamaxı şəhəri top atəşinə tutuldu. Axşamüstü isə silahlı erməni dəstələri şəhərə daxil olub, əvvəlcədən nəzərdə tutduqları qırğını həyata keçirtdilər. İki gün ərzində şəhərdə azərbaycanlıların evi yandırıldı, talan edildi, günahsız insanlar amansızcasına qətlə yetirildilər. Heç bir silahı olmayan dinc əhali özünü müdafiə edə bilmədi. Hadisənin üçüncü günü soyqırımı müvəqqəti olaraq dayandırıldı. Vahimə içində olan şəhər əhalisi qorxudan küçəyə çıxa bilmir, müqavimət göstərmirdi. Hadisələrin qarışıqlığından istifadə edən ermənilər Şamaxıda özlərinin yerli hökumətini yaratdılar. Qondarma erməni hökuməti hamıya evdə oturmaq, küçəyə çıxmamaq barədə göstəriş verdi. Əhaliyə belə bir fikir aşılandı ki, küçəyə çıxmayanlara qarşı heç bir cəza tədbirləri görülməyəcəkdir. Əslində isə bu, qondarma erməni hökumətinin məkrli niyyəti idi. Bir qədər sonra bu niyyət üzə çıxdı. Şəhərə tam hakim kəsildikdən, yəni, yiyələndikdən sonra erməni silahlı dəstələri salamat qalmış, yandırılmamış müsəlman evlərinə soxuldular, silah, hədə qorxu gücünə soyğunçuluq etməyə başladılar. Onlar kişiləri guya “idarəyə aparırıq” adı ilə evdən çıxarıb kütləvi şəkildə öldürdülər. Şamaxı qırğınının sədası tezliklə hər tərəfə yayıldı. Ermənilər Gəncədən müsəlmanların silahlı

dəstələri gələnə qədər öz çirkin fəaliyyətlərinin davam etdirir, hər yerdə azərbaycanlıları vəhşicəsinə öldürürdülər. Gəncədən köməyə gələn silahlı dəstələr Şamaxı şəhərini tezliklə bu qaniçənlərdən azad etdilər. Xalq bu qırğın zamanı qətlə yetirilənləri hələ ayırd etməmiş, dəfn eləməyə macal tapmamış Bakıdan gələn erməni silahlı dəstələrinin təzyiqi altında Gəncə silahlıları şəhəri tərk etməyə məcbur oldular, Şamaxı yenə də ermənilərin əlinə Şamaxı əhalisinin başına bu dəfə daha dəhşətli bəlalar açıldı. Şəhərdən qaçan azərbaycanlılar qarşılarına çıxan müsəlman əhalisinə öz canlarını xilas etməyə, Şamaxının mərkəzində ermənilərin görünməmiş vəhşiliklər elədiyini bildirdilər.

**Zavallı axundun faciəsi**

Əhali özünü xilas etmək üçün başqa yerlərə qaçırdı. Amma Göyçaydan gəlmiş bir nəfər axund bu "şayiələrə" inanıb qaçmamağı, ermənilərlə danışıqlar aparacağını və bundan sonra müsəlman əhalisinə heç bir xətər toxunmayacağını vəd etdi. Başlarına min bir müsibət gətirilən azərbaycanlılar axundun dediyinə, danışıqların bir səmərə verəcəyinə inanıb qaçmadılar. Şəhər sakinlərinin xeyli hissəsi ev eşiklərini tərk etməyib daha bu dəhşətli qırğına məruz qalmayacaqlarına inandılar. Bir neçə gün sonra isə Şamaxı ikinci dəfə qan ocağına çevrildi. Azərbaycanın başqa ərazilərində qırğınlar törədən erməni quldurları Şamaxıda misli görünməmiş cinayətlərə əl atdılar. Onlar qadınların və kişiləri tənasüf üzvlərini kəsmiş, körpə uşaqları yerə mıxlamış, meyidlərin başına min bir oyun açmışdılar. Əhalinin qabağını kəsib şəhərdən çıxmağa qoymayan, onlara şirin vədlər verən axundun özü də ermənilərin qəzəbinə düçar olmuşdu. Əvvəlcə onun dilini, qulaqlarını, burnunu kəsmiş, sonra isə başının dərisini soymuşdular.

**Dəhşətdən də o tərəfə**

Araşdırmaçılar Vaqif Arzumanlı, Vəli Həbibov və Kamran Muxtarlının mart soyqırımılarına həsr etdikləri tarixi araşdırmalarda Şamaxı qırğınları barəsində dəhşətdən də o yana olan qeydlər verilib. Hələ araşdırmaçılar bəlkə də çox şeyi yazmamışdılar. Amma onlar üçün nə qədər çətin olsa da, tarixi həqiqəti çatdırmaq üçün yazmağa məcbur olduqları bəzi qeydləri sizə təqdim edirik:

“S.Lalayevi əmri ilə erməni quldurları cavan qadınları, qızları onun Şamaxıdakı evinə aparırdılar. Burada onları soyunduraraq, əvvəlcə spirtli içki içdirir, sonra da silah gücünə onları zurna altında rəqs elətdirir, elə oradaca zorlayır və bir qismini öldürür, bir qismini isə hündür eyvandan küçəyə atırdılar. Şamaxıya türk qoşunlarının gəlməsi ilə bu qadınlardan cəmi 8 nəfəri xilas edilə bildi. Erməni azğınları bu köməksiz qadınları, qızları öz vəhşətlərinin, ehtiraslarının qurbanı etdikdən sonra, vəhşicəsinə öldürmüşdülər”.

## Bakı Dövlət Universitetinin yaranma tarixi

“Azərbaycan” qəzetinin 1918-ci il, 17 noyabr tarixli nömrəsində “Darülfünun açılması” başlığı altında məqalədə müsəlman Şərqində ilk Avropa tipli ali məktəb olan Bakı Darülfünu–indiki BDU-nun açılması barəsində geniş məlumat verilib. Universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: “Azərbaycan öz maarif ocağını yaratdı, türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni bir məşəl yandı.

“Qafqaz **Zaqafqaziya Respublikası kimi Rusiyadan ayrıldı və gürcülərdən, ermənilərdən, türklərdən ibarət qarışıq hökümət təşkil edildi. Bu dövrdə Xalq maarifi naziri Fətəli xan Xoyski idi. Biz Tiflisdə “Rus universiteti”nin təşkili üçün apardığımız işdən istifadə etməyi həmin hökümətə təklif etdik. Nazir bizi dinlədi, Qafqazda rus universitetinin təsis edilməsinə rəğbətini bildirdi, lakin əlavə etdi ki, “**Bəs niyə Tiflisdə? Tiflisdə Politexnikum var, indi də gürcü universiteti... Bəlkə universiteti Bakıda açmaq daha düzgün olardı?”

Danışıqların gedişində Azərbaycan hököməti, Tiflisdəki universitetin Bakıyaya köçürülməyəcəyi halda belə, öz universitetini yaratmaqda israrlı olduğunu nümayəndə heyətinin diqqətinə çatdırır. Bu müddət ərzində Həmid bəy Şahtaxtinski V.İ.Razumovskiyə teleqram göndərib, Bakıda yeni universitetin açılacağını bildirdi və bu universitetin təşkilini öz üzərinə götürməyi ona təklif etdi...

AXC quruldüqdan sonra hökumət 1919-cu iyunun 16-da universitet komissiyasının ştatlarını təsdiq edib, maaşları müəyyənləşdirdi. Ölkənin iqtisadi vəziyyətinin mürəkkəb olduğu bir şəraitdə universitet üçün tələb olunan maliyyə vəsaiti komissiyanın təklif etdiyi 3,5 milyon manatdan 5 milyon manata qədər artırıldı. Amma 1919-cu il avqustun 21 də Parlamentdə universitetin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi göstərdi ki, universitetin açılmasına əksəriyyətin tərəfdar olması ilə yanaşı, bunun əleyhdarları da var. Onlar rus dilində açılacaq universitetin ruslaşdırma ocağı olacağından ehtiyat edirdilər. Amma belə fikirlərə baxmayaraq, 1919-cu ilin sentyabrın 1-də Parlament “Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında qanun” layihəsini qəbul etdi.

Universitetin açılması haqqında qanunda onun dörd fakültədən: tarix- filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilirdi. Xüsusi qeyd olumuşdu ki, Azərbaycan (türk) dili bütün fakültələrdə icbari fənn kimi tədris olunmalıdır.

Universitetə həm kişilər həm də qadınlar bərabərhüquqla qəbul olunurdular. Qəbulda Azərbaycan vətəndaşlarına isə üstünlük verilirdi.

Universitetin təşkilat komissiyası V.İ.Razumovskini universitetin rektoru, görkəmli tarixçi, publisist N.A.Dubrovskini tarix-filologiya fakültəsinin, prof.İ.İ.Şirokoqorovu tibb fakültəsinin dekanı seçdi. Universitet Şurasının 1919-cu ilin noyabrın 10-da keçirilən birinci iclasında universitetin akademik heyəti də təsdiq olundu. 1919-cu ilin noyabrın 15 də universitetdə birinci dərs günü elan edildi .

Universitetdə 4 fakültə açılması qəralaşdırılsa da, 1919-1920 tədris ilində ancaq tibb və tarix-filologiya fakültəsini açmaq mümkün oldu. Tarix-filologiya fakültəsində Məhəmməd Əmin Rəsulzadə və maarif naziri Rəşid Qaplanov Osmanlı ədəbiyyatından, Məhəmməd ağa Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular.

İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa 217 nəfər azad dinləyici qəbul edilmişdi.

## Gizli qalmış fədai

BDU-nun yaranma tarixindən danışarkən Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli ilə yanaşı, hökumətin ən gənc naziri olan Rəşid xan Qaplanovun da fəaliyyətini demək lazımdır. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi dördüncü hökümət kabinəsində

xalq maarifi və dini etiqadlar naziri təyin edilən Qaplanov eyni zamanda "Əhrar" partiyasının üzvü kimi ölkənin siyasi həyatında yaxından iştirak etməyə başlayır. Azərbaycanda ilk universitetin açılmasında, xaricdə oxumağa tələbələr göndərilməsində, ümumtəsil məktəbləri şəbəkəsinin genişləndirilməsində onun rolu olduqca böyük olur. Universitet açmaq üçün uyğun vaxt olmadığını söyləyən parlament üzvlərinə, hətta partiyadaşlarına belə çox sərt cavablar verərək, bu işi ləngitməyi böyük günah sayır. Universitet işə başladıqda isə kadr çatışmadığına görə özü Osmanlı tarixi və ədəbiyyatından dərs deyir. Onun fikrincə, universitet yalnız tədris deyil, daha çox milli-mənəvi mərkəz kimi fəaliyyət göstərməli, buradakı elmi personal Azərbaycanı öz qədim tarixi, mədəniyyəti, zəngin yeraltı və yerüstü sərvətləri ilə dünyaya tanıtmalıdı.

**Yubiley olarsa…**

"Həqiqətən, BDU-nun 2019-cu ildə 100 illik yubileyi qeyd olunarsa, nə kimi işlər həyata keçirilməlidir?"- Cümhuriyyət dövrünün araşdırıcısı, tarixçi alim Nəsiman Yaqublu bəndənizin bu sualına ətraflı cavab verib. O, universitetin yubileyi çərçivəsində aşağıdakı təkliflərin də həyata keçməsinin vacibliyini vurğulayıb:

"BDU-nun 100 illiyinin keçirilməsi çox yaxşı hal olar. Zaqafqaziyada yaradılan ikinci universitetdir; birincisi Kutaisidə yaradılıb.

Yubiley əsnasında diqqət edilməli məsələlərdən biri də universitetin ənənələri olmalıdır. Yəni, yarandığı ildə hansı ənənələri olub? Universitet hansı əsaslarla fəaliyyət göstərməyə başlayıb? Şəxsən mənim üçün bu sualların cavabı çox maraqlıdır.

İkincisi, universitetin ilk Azərbaycan müəllimləri haqqında bilgilər verməк lazımdır.

Üçüncüsü, yarandığı ilk illərdə burada hansı tədris prosesi mövud idi? Ümumiyyətlə, orada nə tədris edirdilər? Tədris necə aparılırdı?- Yubiley keçirilərsə, bu məsələləri də öyrənmək yaxşı olardı.

Yubiley keçirilsə,yaxşı olardı ki, ora qəbul olan ilk tələbələrin ad-soyadından ibarət kataloq buraxılsın. BDU-nun ilk tələbələrinin ad-soyadlarından ibarət kataloq çox vacibdi. Görək, ilk ildə burada kimlər oxuyub.

Həmçinin, burada AXC dövründə dərs deyən milli müəllimlərin biblioqrafiyası hazırlanmalıdır. Diqqət edirəm ki, Cümhuriyyət dövründə universitetdə dərs demiş, sonradan isə buradan mühacirətə gedən müəllimlərin üstündən xətt çəkilir. Məsələn, Rəsulzadə orada dərs deyən ilk müəllimlərdən biri olub . Məşhur aydınımız Əhməd Cəfəroğlu universitetin ilk məzunlarındadır. Türk dünyasının ən böyük alimlərindən biri olub. Özü də Almaniyada müdafiə edib. Biz bilməliyik ki, onun və onun kimi xeyli dəyərli ziyalıların ilk təhsil aldığı qurum Bakı Dövlət Universitetidir.

İstərdim ki, universitetin 100 illik yubileyi standart yubileylərdən olmasın. Mənim verdiyim təkliflər reallaşsa, tələbələr də Bakı Dövlət Universiteti haqqında lazımı bilgi alarlar.

Yarandığı ildə universitetin 3 fakültəsinin açıldığı yerlərdə xatirə lövhələri asılmalıdır. İnsanlar bilməlidirlər ki, bu obyektlərdə ilk universitetimizin fakültələri açılıb. Fakültələrdən biri indiki Pedaqoji Universitetində, digəri , yəni, tibb fakültəsi indiki 4 saylı xəstəxanada olub. Bu məkanlarda xatirə löhvələri asılsa, yaxşı olar.

Ən nəhayət, əgər BDU-nun 100 illik yubileyi keçirilsə, onda arzu edərdim ki, bu münasibətlə universitetin həyətində Məhəmməd Əmin Rəsulzadənin heykəli qoyulsun. Çünki uzun illərdir ki, orada Rəsulzadənin heykəlinin qoyulacağını bildirən qara lövhə qoyulub".

## Nərimanovun sirli qətli –
## "Məni tez xəstəxanaya aparın, ölürəm"

1925-ci ilin yazı...Doktor Nəriman Nərimanov uzun müddətdir ki, gərginlik və əsəblə yüklənmiş bir ömür yaşayır. Yenə də vəzifədədir. Yenə də bütün Qafqaz müsəlmanları özlərinin Mərkəzdəki yeganə təmsilçisi kimi ondan nəsə gözləyirlər. Amma dövran daha o dövran deyil. Stalin özünün rus-gürcü-erməni əlaltıları ilə onu güclü nəzarətdə saxlayır, daşıdığı hökümsüz, formal vəzifəsində də nəsə etməsindən çəkinirlər. Özlərini bu işdə haqlı sayırlar. Çünki vaxtilə onlara görə, Rəsulzadə, Tağıyev, Xoyski kimi nəhənglərlə üz-üzə duran Nərimanov sonradan səhvini anladı və bəzi məsələlərdə Stalin əlaltılarına da mane oldu....

Amma indi çox şey dəyişib. Xoyski erməni gülləsinin güdazına gedib. Rəsulzadə ailəsinin və vətənin həsrəti ilə qürbətdə zülüm çəkir, Tağıyev isə... Doktor artıq gücünün tükəndiyini hiss edir. Elə bu məqamda son olaraq doğma torpağa baş çəkir; Qızılhacılı kəndində gedir. Vaxtilə işlədiyi, mübarizə meydanına qədəm qoyduğu yerə...

Məqsədi isə əslində insanlarla halallaşmaqdır.

Qızılhacılı kəndinin ədəbiyyat müəllimi Hüseyn Tanrıquliyev xatırlayırdı: "Nərimanov Qızılhacılıya bir də ömrünün son

günlərində, 34 il ayrılıqdan sonra gəldi. SSRİ MİK sədrlərindən biri kimi Tiflisə gəldiyi zaman vaxtının məhdud olmasına baxmayaraq, Qızılhacılıya baş çəkməyi unutmadı. 1925-ci ilin martın 6-da Nəriman Hacılıya qonaq oldu. Böyüklü-kiçikli hamı onu qarşılamağa tələsirdi. Qonşu kəndlərdən tökülüb gələnlər də vardı. Nərimanov faytondan düşəndə onu dövrəyə aldıq. Bizimlə bir-bir görüşdü. O, əvvəlcə özünün üçsinifli məktəbinə baş çəkdi. Şagird və müəllimlərlə görüşdü. Məsləhətlər verdi. Keçmiş şagirdləri Məmməd İsa oğlu, Mehdi Nayib oğlu, Rəhim Atakişiyev... öz müəllimləri haqqında danışdılar. Nəriman xəstə idi. Aram-aram danışırdı. Birdən uzaqdan bir səs eşitdik:

- Bu bizim Nərimanın səsidir? Dönüb arxaya baxdıq. Gələn çiynində yapıncı, əlində çomaq qoca Rzaqulu kişi idi. Onun gözləri görmürdü. Nərimanov vaxtilə onun evində yaşamışdı. Doktor üzünü bizə tutub dedi:

- Ay camaat, bu kişi olmasaydı, sizin bəylər məni öldürəcəkdilər. O məni xilas edib, gecə ikən köç yoluynan Tiflisə yola saldı.

Adəti üzrə yenə də Nəriman Rzaquluya qonaq oldu. Martın 7-də isə Nərimanov Tiflisdə yaradıcılığına həsr olunmuş yığıncağın sonunda söyləyirdi: "Mən sizə ancaq məsləhət vermək istəyirəm. Mənim ömrümə az qalıb"

Elə sonuncu cümlədə bir ömürlük ağrını oxumaq mümkündür. Təcrübəli dövlət xadimi Kremlin bütün paxırlarına bələd idi. Bilirdi ki, bu paxır onun bədənində bir gün zəhərə çevriləcək. Elə onu öldürən acı zəhərə…

Stalinin buyruq qulları bu işi ləngitmədilər. Bu işi Orconikidze həyata keçirməliydi. Doktoru məclisə dəvət edərək Azərbaycandan göndərilmiş yarpaq dolmasına qonaqlayıb, zəhərləməli, ömrünə son qoymalıydı. Kobanın hazırladığı plan yerinə

yetirildi. Gözünü xəstəxanada açıb oğlu Nəcəflə, xanımı Gülsümü axtara-axtara söyləyirdi: - Məni Serqo zəhərlədi.

Araşdırmaçı Akif Aşırlı özünün "Nərimanovun Kremldə qətli" adlı dəyərli əsərində bu barədə ətraflı yazır:

"Kreml ambulatoriyasının xidmətçisi, Stalin "KQB" -inin "plaş, xəncər" qiyafəli agenti Yuliya İvanovna Litvin MK-ya necə hesabat göndərəcəyinin detallarını ölçüb-biçərək, sakit bir tərzdə heç nə olmamış kimi davranırdı. Yuliya Kremlə bu məznunda məlumat göndərdi: "Mən, Kreml ambulatoriyasının xidmətçisi Yuliya İvanovna Litvin 1925-ci il martın 19-da, iş qurtarandan sonra, axşam saat 9-a 15 dəqiqə işləmiş, ya da 9-un yarısında Aleksandr bağının hasarı yanındakı səki ilə Trotskiyə darvazasından İnqilab meydanı tərəfə gedərkən, bir nəfərin hasara söykəndiyini və bərk öskürdüyünü gördüm, deyəsən halı pis idi. Kömək etmək üçün yaxınlaşanda əvvəllər ambulatoriyamızda bir neçə dəfə gördüyüm MİK sədri Nərimanov yoldaşı tanıdım. O da məni tanıyıb dedi: "Məni tez xəstəxanaya aparın, ölürəm". Təzədən soruşdum: "Evə getmək istəyirmi?" O qəti tapşırdı ki, Kremlin xəstəxanasına aparaq. Yolda hey inildəyir, deyirdi ki, halı pisdir, biz xəstəxanaya çatanda keçindi".

## Əhməd Cavadın Nuru Paşaya imzalayaraq bağışladığı kitabın aqibəti

Əhməd Cavadın ilk şeirlər kitabı "Qoşma" adlanır. Bu kitab ondan xəbərsiz olaraq çıxıb. Şairin şeirlərinin oxucular tərəfindən böyük sevgi və rəğbətlə qarşılanmasından, Əhməd Cavadın yaxın dostu, Türkiyə "Qardaş Yardımında" birlikdə çalışdığı Xosrov bəy Sultanov qəzet və jurnallarda çıxan şeirlərini

toplayaraq bunları öz hesabına çap etdirmişdi. Bu kitabdan birini də Əhməd Cavad Bakını işğaldan azad etmiş Nuru Paşaya imzalayıb. İmzalanmış kitabda bu sözlər yazılıb:

"Kafkas Ordusu kumandanı Nuri Paşa Hazretlerine müellif tarafından değersiz bir armağan. Cevad (imza) 30 mayıs 1918. Gence"

***Həmin kitabın sonrakı taleyi ilə bağlı Cümhuriyyət dövrünün araşdırıcısı bu sətirlərin müəllifinə maraqlı məqamı açıqlayıb:***

"Kitab bu gün Türkiyədə tanınmış alim, publisist, kolleksiyaçı Haluk Oraldadır. Bu günlərdə mətbuatda oxudum ki, Haluk Oral deyib ki, kim ona 1928-ci ildə Bakıda Nazim Hikmətin ilk çıxmış kitabı olan "Günəşi İçənləri Türküsü" kitabını tapıb gətirsə Əhməd Cavadın imzalı kitabını ona hədiyyə edəcək".

## Nuru Paşa ordusunun Azərbaycana daxil olduğu gün yaşanan təsirli hadisə – "Hamı bu mənzərəyə ağlayırdı"

28 May tarixi bizim üçün nə qədər önəmlidirsə, Bakının xilas olunduğu 15 sentyabr da (1918) o dərəcədə əhəmiyyətlidir. Odur ki, bu şanlı tarixi gün və onun səbəbkarları da unudulmamalıdır.

Nuru Paşanın Azərbaycana gəldiyi zaman çox maraqlı və təsirli hadisə yaşanıb. Azərbaycan Cümhuriyyətinin böyük

fədakarı Nağı bəy Şeyxzamanlının xatirələrində bu fakt çox təsirli əks olunub:

"Gəncədə mənə xəbər verdilər ki, Nuru Paşa Qarabağa çatmış bir gün sonra da Gəncədə olacaq. Mən dərhal ertəsi gün Yevlax stansiyasına hərəkət etdim. Yevlaxda bir saat gözlədik. Gəncədən gedən heyət Nuru paşanı Qarabağda qarşılamışdı. İzdihamlı bir süvari dəstəsi arasında Nuru Paşa Yevlax stansiyasına gəlib çatdı. Görüşməmiz zamanı Nuru Paşa "Görüşdüklərimdən hey səni soruşdum" dedi. Xalqımız Nuru paşanı çox təmtəraqla qarşıladı. Nuru Paşa ilə İstanbulda Heydərpaşa vağzalında ayrılmışdıq. Ondan sonra başıma gələnləri ona anlatdım. Nuru Paşa özü ilə bərabər gətirdiyi zabitləri, çavuşları və hərli ştab rəisi polkovnik Nazim bəyi Bakı cəbhəsinə göndərdi. Batumdan göndərilən və Nuru Paşanın əmrinə veriləcək hərbi qüvvə ilə əvvəldən almanlarla anlaşmış olan gürcü milləli tərəfindən dəmiryolu ilə keçib Gəncəyə getməklərinə icazə verilirdi. Bu vəziyyət qarşısında Cəmil Cahid bəyin komandanlığında olan alay Qarsdan quru yolla Ermənistana, sonra Dilican üzərindən Qazax şəhərini ilə keçirərək Ağstafa vağzalına gəlib çatdılar və oradan da qatarla Gəncəyə gəldilər. Onları Gəncə xalqı çox təntənəli qarşıladı. Qarşılanına mərasimi aşağıdala kimi olmuşdur: Gəncə xalqı şəhər meydanına toplaşmışdılar. Dövlət idarələri və məktəbləri həmin gün işləmirdi. Ona görə də müəllimlər dəstə halında öz yerlərini tutmuşdular. Müharibə illərində Türkiyənin ruslar tərəfindən işğal edilmiş Şərq vilayətlərindən Xeyriyyə Cəmiyyəti tərəfindən toplanaraq Azərbaycanın bir çox şəhərlərindəki uşaq evlərində saxlanan sahibsiz uşaqlardan dörd yaşından yuxarı olanlar da meydanda dəstə halında düzülmüşdülər".

Həmin hadisə də o zaman baş verir. Meydanın ətrafını əhatə etmiş əhali sevincdən gözləri yaşarmış halda əsgərlərə baxırdılar. Uşaq evlərindən gəlmiş uşaqlar əsgərlərə yanaşaraq onlara sarılırlar və haralı olduqlarını bildirirlər. Əsgərlər uşaqların hər birisi ilə mehribanlıqla görüşür və əzizləyirlər. Bu zaman maraqlı bir hadisə olur. Əsgərlərlə görüşən uşaqlardan biri atasını tanıyır və ata-oğul sevincdən bir-birinə sanlaraq ağlayırdılar. Ətrafdakı minlərlə adam bu yaranmış vəziyyətə dözə bilməyib ağlayırdı. Onlar dərddən, qəmdən yox, sevincdən ağlayırdılar.

## Cümhuriyyət nazirinin qapısında partlayan bomba – Baş tutmayan sui-qəsd

Don, Terek və Kuban baş dairəsi nümayəndələri Mixail Zazuliya, Nikolay Baqiyev və Pyotr Kovalyov Azərbaycan Cümhuriyyətinin hökumət başçıları ilə görüşmək üçün Tiflisdən Bakıya gəlirlər. Onlar Azərbaycanın hərbi naziri tam topçu generalı Səmədbəy Mehmandarovu ziyarət məqsədilə Sahil (Neftçilər) küçəsində yaşadığı 51 nömrəli evə də baş çəkirlər. Bir saatlıq söhbətdən sonra binadan çıxıb, faytona əyləşəndə gözlənilmədən faytonun arxasında çox güclü bomba partlayır. Zazuliya özünü kənara birinci tullayır, onun dalınca Kovalyov düşəndə faytonun kənarına ilişib yıxılır, Baqiyev sıçrayanda ikinci bomba eyni şiddətlə partlayır. Yan-yörəyə səpələnən qəlpələrdən Kovalyovun sol əli, hərbi nazirin qapısı ağzında növbədə olan Qulu Məmməd oğlunun üzü yaralanır. İkinci növbətçi Rəsul Mikayıl oğlu bombanı atıb qaçan üç nəfər sui-qəsdçiyə tapançadan atəş açır, lakin güllələr hədəfə dəymir.

O dövrün bilicisi, yazıçı Manaf Süleymanov özünün məşhur "Eşitdiklərim, gördüklərim və oxuduqlarım" kitabında həmin hadisə barəsində bunları yazır:

"Hərbi nazir Mehmandarov partlayış səsinə küçəyə, hadisə yerinə gəlir, tələsdiyindən papağını da qoymağı unudur. Tezliklə hər şey aydınlaşır. İçərişəhərdə bir dükanda naməlum bir şəxs yaxalanır - qara paltoda, başında kepka, cibindən çıxan iki pasportdan onun şəxsiyyəti müəyyənləşir: Filipp Fenoqenoviç Novıkov. Onun üstündə 2 bomba, tapança, 9 dənə patron, 275 manat Azərbaycan pulu varmış. Novikovu liman polis şöbəsinə gətirirlər. Daxili işlər naziri və onun iki müavini, ədliyyə nazirinin müavini, general qubernator Tlexas, qalabəyi Yusifov, şəhər komendantı general-mayor Firidunbəy Vəzirov, polismeyster Mirzəyev və məhkəmə palatası prokuroru Nəzərov hadisə yerinə gəlirlər. Polis şöbəsinə dəvət edilən nümayəndələri sorğu-sual etdikdə, yağış olduğundan sui-qəsdçiləri görmədiklərini, tanıya bilmədiklərini söyləyirlər".

İstintaq prosesində hərbi nazirin mühafizəçiləri üç nəfər bomba atanın birisi Novikovun olduğunu təsdiq edir. Təsadüfən, yoldan keçən 14 yaşlı gimnaziya şagirdi Baraşvili də Novikovu geyimindən tanıyır və deyir ki, bomba atanlardandır. Novikov sərxoş olduğundan əvvəl diş texniki olduğunu, Bakıda işlədiyini, hadisə yerinə təsadüfən gəlib çıxdığını, bomba tullamadığını söyləyir. Üstündə tapılan bombaları ona tanımadığı, naməlum gürcünün verdiyini deyir.

Bəs bu Navıkovun özü kim olub və ən əsası, kimin sifarişini yerinə yetirib? Yuxarıda adınıçıkdiyimiz mənbədə bu suala qismən də olsa cavab verilir:

"Novikovu polismeyster Rüstəmbəy Mirzəyevin iştirakı ilə təkrar dindirəndə deyir ki, Batumda "Amur" gəmisində ocaqçı

işləyib, içki məclisində gürcü yoldaşları onu şirnikdirib Bakıya gətiriblər, "Astrabad" hərb gəmisinə işə düzəldəcəklər. Onun üçün təfavütü yoxdur, hara olursa-olsun, təki araq, şərab olsun. Bu ilin (1920) fevral ayının 7-də Bakıya gəlib. Hər iki pasportu da gürcülər ona verib, saxta pasportları da ona gürcülər düzəldib. Novikov əvvəlcə Nobel qardaşlarının 172-ci mədənində işə düzəlir, amma bir həftədən sonra oradan çıxır. Balaxanı küçəsində Yakov, ya da ki, Əli adlı tatarın otağında yaşayıb. Bekar-bekar veyillənirmiş. Bakıda Qriqori adlı bir gürcü ilə tanış olur. Axır günlərdə Parapetin yaxınlığında, zirzəmidəki meyxanada gürcülərlə içib kef eləyirmiş. Martın 11-də səhər saat 8-dən 11-ə qədər onu bərk içirdiblər; meyxana yiyəsi də onlarla içirmiş. Gürcülərdən biri bomba doldurulmuş bir karzinka gətirir; ona iki dənə bomba, bir də "Parabellyum" markalı tapança verirlər. Bulvara göndərirlər. Gürcülər özləri isə, içərisində 12 bomba olan karzinka ilə "Metropol" mehmanxanasına gedirlər; dediklərinə görə orda tanışları var imiş. Novikov bulvara gedəndə yolüstü İçərişəhərdəki örtülü bazara girib, orada da onu tutublar".

Sonradan Novikovun söyləntilərindən yola çıxan prokuror, polismeyster və digər vəzifə sahibləri Parapetin yaxınlığındakı şərab anbarı və "Qruziya" meyxanası olan zirzəmiyə yollanırlar. Lakin axtarış zamanı heç nə tapa bilmirlər. Meyxana sahibi Qriqori Davidoviç Paridzeni çəkməçi dükanında tapırlar. Çəkməçi emalatxanasının yiyəsi Lavrenti Stepanoviç Sikulyadır. Bunlar Novikovun dediyi gürcülər idi. Onların yanındakı ucaboy, cüssəli naməlum gürcü Novikova iki bomba və bir tapança verib. Gürcülər həbsə alınır, evləri axtarılır, heç nə tapılmır:

"Təzədən istintaqa başlayanda Novikov deyir ki, 8-ci polis şöbəsinin əməkdaşı Tatarenko da zirzəmidə idi. Yoxlayış nəti-

cəsində məlum olur ki, Tatarenko martın 12-də səhərdən polis şöbəsində növbətçi olub, heç yerə getməyib, verilən telefonoqramları qeyd dəftərinə yazıb, 8-ci şöbənin pristavına xidmət raportu verib. Mixaylovsk xəstəxanasının aşpazı Ağa Hacı oğlunu gətirib sorğusuala başlayıblar. O, valideynləri getdiyinə görə elan yazıb pəncərəyə asıbmış ki, tək, subay adama otaq kirayəyə verir. Novikov gəlib otağı kirayələyib, dostunu da yanına gətirib. Sakit dolanırdılar, tez-tez harasa gedirdilər. Novikov arabir içib sərxoş olurdu. Yanlarına şübhəli adamlar gəlmirdi. 20 gündən sonra kirayə pulunu vermədiyinə görə Ağa Hacı oğlu onları qovur. Ondan sonra rastlaşmayıblar".

## Partlayışın zərərləri

Hərbi nazirin yaşadığı ikimərtəbəli mülkün üst mərtəbəsindəki pəncərələrin şüşələri sınır. Növbətçilərin hər iki budkası zədələnir, sağ tərəfdəki isə yerindən tərpənir, taxtalar çatlayır. Partlayış yerində çuqun və qurğuşun qəlpələr aşkarlanır. Məlum olur ki, bombalar əllə hazırlanıb. Forma və görkəmləri yarımsilindrikdi. İş hərbi səhra məhkəməsinə verilir. Mart ayının 19-da Novikov əlavə məlumat verir:

"28 yaşım var. Orlov quberniyasındanam. Baltik donanmasında "Amur" kreyserində matros olmuşam. Axır vaxtlarda Tiflisdə və Bakıda yaşayırdım. Mən, İvan Levin və Razin tapşırığa görə Don, Terek və Kuban baş dairələrinin nümayəndələrini öldürməli idik. Dallarınca Aleksandropol şəhərinə getmişdik. Fikrimizdən daşınıb Tiflisə qayıtmalı olduq. Sonra həmin nümayəndələrlə bir qatarda Bakıya gəldik. İstəyirdik stansiyada onlara bomba ataq, adam çox idi. Günahsız adamların yersiz ölümünə səbəb olmaq istəmədik, həm də polis məmurlarının

orada hərlənməsi mane oldu. Nümayəndələrin "Metropol"da yerləşdiklərini bizə bildirdilər. Marşrutları öyrənib izləməyə başladıq. "Metropol"dan çıxanda istədik bomba ataq, yenə qələbəlik mane oldu. Faytonda hərbi nazirin evi olan yerə gəldik. Münasib yerdə dayanıb, nümayəndələrin çıxmağını gözləyirdik. Şəxsən mən mühafizlərdən birinə (üzündən yaralanana) yaxınlaşıb, rus dilində xəbərdar etdim ki, uzaqlaş, indi burada partlayış olacaq, buradan çıx get…

Çox təəssüf ki, sonradan bu sui-qəsd hadisəsi bir o qədər də çox araşdırılmadı. Həm də buna çox da vaxt olmadı. Çünki Mehmandarovu o zaman öz şəxsi təhlükəsizliyi yox, hər şeydən vacib bildiyi bir məsələ daha çox maraqlandırırdı-Azərbaycan ordusunu formalaşdırmaq!

## Zakir Sadatlının üzə çıxardığı sirlər və ağrılar - II Hissə - "AXC araşdırmaçıları"

"...Ən peşəkar oğrular da nə qədər "ustalıqla işləsələr" belə, yenə də hadisə yerində bir iz qoyurlar. (Nə vaxt oxumuşam bu fikri, neçə vaxtdır xatırlaya bilmirəm. Amma bu yazının "bismillahı" üçün deyəsən, heç o qədər də uğurlu başlanğıc deyil).

Sözümü tarixin üstünə gətirmək istəyirəm. Tarixin başına nə oyun açırsan aç, onun bu dünyada qalan izini tər-təmiz süpürüb atmaq olmur.

...Öpölü daşların üstündə dipdiri bir nişanədi tarix...

"Konstantinopol, Vyana, Berlin, Paris, London, Vaşinqton, Sofiya, Roma, Buxarest, Tehran, Moskva, Kiyev, Xristiyanina, Kopenhagen Xarici İşlər Nazirliyinə.

Gürcüstanın Zaqafqaziya Federativ dövlətindən çıxması ilə bu qurum dağıldı. Azərbaycanın Milli Şurası bu ilin 28 mayında Şərqi və Cənubi Zaqafqaziya ərazisində təşkil edilmiş müstəqil Azərbaycan dövlətini – Cümhuriyyəi elan etdi. **Azərbaycan Demokratik Cümhuriyyəti yaratdı.**

Bu haqda Sizi xəbərdar etməklə zatilərinizdən bunu öz hökumətinizə çatdırmağı xahiş etmək şərəfində bulunuram.

**Zakir Sadatlı arxivlə işləməyi çox sevərdi. Cümhuriyyətlə bağlı hansı mövzudan danışılardısa, daha çox ümumi söhbətlərə yox, məhz arxivdən əldə etdiyi faktlarla danışmağı üstün tutardı. Çünkü yaxşı bilirdi ki, bir saat uzun-uzadı danışmaq, Cümhuriyyət xadimlərinə aid bircə orijinal faktı göstərməyin yanında heç nədir. Həm dövlət radiosundakı müzakirələrdə, həm də mətbuat orqanlarında da bu üsuldan yan gəzməzdi. Həmin arxiv faktlarının biri də budur- Fətəli xan Xoyskinin Cümhuriyyət naziri Hacınskiyə məktubu:**

” ...Çox hörmətli Məmmədhəsən!

Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında teleqramı göndərməyə burda çox mane olurlar.

Teleqramın rus və fransız mətnlərini Sizə göndərirəm ki, radio ilə verəsiniz. Ermənilərlə bütün mübahisələrimizə son qoymuşuq. Onlar ultimatumu qəbul edəcək və müharibəyə son qoyacaq. Biz İrəvanı onlar verəcəyik. **Hökumət Yelizavetpolda – Gəncədə yerləşəcək.**

**29 may 1918-ci il.**

**Sizin Fətəli Xoyski ”**

**Zakir müəllim Azərbaycan Cümhuriyyətinə aid həddindən artıq dəyərli mənbələrin yerləşdiyi Tiflis Arxivində də araşdırmalar aparmışdı. Qarşımızdakı qəzet səhifəsində Tiflis xatirələrindən birini bu cür təsvir edir:**

“... Tiflisin Nəbatət küçəsiylə üzü yoxuşa qalxırıq. Küçənin sonunda – “Ботанический сад”ın kandarında, üçtağlı, ikiqapılı dəmir darvazanın yanında iki gürcü polisi bizi saxlayır. Məqsədimizi deyirik. “Qonaqsınız da... buyurun keçin, amma çox yubanmayın”.

Qalın park və onun ətrafı sıx meşəni xatırlladır. Müsəlman qəbirstanlığına dırmanan dolayı yolla irəliləyirik. Alça və ərik ağacları çiçəkləyib. Yuxarı qalxdıqca arabir qanrılıb arxaya baxıram. Tiflisin ümumi mənzərəsi buradan ovuc içi kimi görünür.

... Görən hansı sehrli duyğunun sifarişiylə gəlmişik buraya...

Dünyanın bütün ölüləri bir-birinə bənzəyir. Amma qəbirstanlıqlar heç də hamısı oxşar deyil.

Ölülər də sahibli, sahibsiz olur.

Qəbirlər də arxalı və tənha olur...

Sərhədləri o qədər də dəqiq müəyyənləşməyən bu “müsəlman qəbirstanlığı”nda balaca istirahət komaları tikilib. Oturub dincəlməyə skamyalar qoyulub, şumallanmış göyərti ləkləri düzəlib, torpaq axmasın deyə ləklərin ətrafı qəbir daşları ilə “hörülüb”. Dırmaqlanıb sahmana salınmış səthin ətrafındakı qəbir daşları yaşayan bitkilər üçün sövq-təbii qoyulmuş baş əlhədidir elə bil...

“Bu nə nizamdır, ilahi? Məgər bitkilər də ölür?..”

Və birdən yadıma düşür ki, onlara da elmdə canlı aləm de-

yirlər axı... Hm...deməli belə...

Bu yerlərin mənzərələrini hər şeydən öncə göz yaddaşımıza köçürmək istəyirik. Hamı yan-yörəyə baxmaqda davam edir. Kolların arasındakı skamyaların birində əyləşən bir cavan kişiylə xanım sarmaşıblar bir-birinə. Öpüşürlər. Deyəsən, ətrafdakıları heç veclərinə alana oxşamırlar (Lənət sənə kor şeytan). Biz də onların yanından guya saymazyana ötürük.

Qəbirstanlığın lap yuxarılarında – çapıq qayanın yaxınlığında, kol-kosun içində üç qəbirüstü nişanə: **Mirzə Şəfi Vazeh, M.F.Axundov və F.X.Xoyski...**

Və üstü ərəb əlifbasıyla yazılı yeddi sinə daşı dəmir barmaqlıqlarla çəpərlənib **(Doktor Həsən bəy Ağayev 1920-ci il iyulun 19-da Fətəli xanı öldürən muzdlu erməni qatili tərəfindən qətlə yetirilib. Deyilənə görə, o da Xoyskinin yanında dəfn olunub. Əgər bu fakt səhihdirsə, deməli, bu yazılı sinə daşlarından biri onunkudur. Bəs 6-sı?).**

Dünyanın fanilik duyğusundan başqa ürəyimdə heç nə yoxdur (“ Dünya duracaq yer deyil, ey can səfər eylə” (Nəsimi). “Biz torpaq olub getdik, sən də diri torpaqsan; Çox gülməlidir burda ağlamayan insan”. (Xəqani)).

Ətrafdakı dağların kölgəsi sürünür üzüaşağıya – qədim və yorğun şəhərə sarı. Aydın havada dağ küləyinin gətirdiyi güclü sazaq üşüdür məni. Rejissorla operator canları hayındaymış kimi ayrı-ayrı kadrları lentə alırlar.

Sazaqdan azca da olsa qorunmaq üçün Xan Xoyskinin məzar daşının böyründə daldalanıram. Sığındığım yeri o qədər də külək tutmur.

Ağlıma gələn qəfil kövrək bir fikirdən gözlərim dolur – sağlığında sinəsini Milliətin İstiqlalı keçiyində sipər edən Fətəli xan

öləndən sonra məni məzar daşıyla soyuqdan qoruyur. Boğazıma tıxanan qəhərdən qurtula bilməyib, yoldaşlarımdan aralanıram.

Göz yaşımı saxlaya bilmirəm...

Duyğularım korşalır...

Möcüzənə şükür, Tanrım!

Ölümsüzlüyün mübarək, Böyük İnsan – Fətəli xan!...”

**Lakin o, həm də yazıçı idi. Hər araşdırması fatklara nə qədər söykənirdisə, orada bədii qat da bir o qədər güclü olurdu. Araşdırmaçının yazdıqlarının başqa müəlliflərin quru, fakt yığını olan araşdırmalarından fərqləndirən əsas cəhət də elə bu idi. Aşağıda Fətəli xan Xoyskinin qısa bioqrafiyasını çatdırır. Amma baxın necə... Xoyski o sətirlərdə anadan olandan ta ölüm gününə qədər diridir... Elə erməni gülləsindən sonra (ard-arda 10 güllə) yenə də diri qalmağı bacarır:**

“Bu nəslin adamları sağlığında özünə kəfən ehtiyatı görərdi.

Bu nəsildə bir adət də vardı: dünyaya gələcək körpələr üçün ad saxlancı hazır olardı...

1875-ci il dekabrın 7-də Şəkidə İsgəndər kişinin ailəsində dünyaya göz açan oğlan uşağının adını Fətəli xan qoydular. Soyadı bəlli idi – Xoylu.

Onların əsli-nəsli Azərbaycanın Cənub şəhərlərindən birindən – Xoydan idi.

Şəki (Nuxa – “No” “Xoy” – yeni Xoy şəhəri) təbiətinə görə Xoy şəhərinə çox oxşayırdı. Və bu nəsil başqa xoylular kimi buraya adi bir təsadüf ucundan gəlməmişdi. Xoy xanı olan ulu babası Cəfərqulu xan İran şahı Fətəli xanla müharibədə məğlub olandan sonra 20.000 qoşunla el-obadan didərgin düşmüşdü. Əvvəlcə Üçkilsəyə (Eçmiədzinə) gəlmiş, sonra döyüş xidmətlərinə görə çar I Aleksandr ona general-leytenant rütbəsi verərək,

Şəki xanı təyin etmişdi.

Ulu babasının ölümündən 65 il adlayandan sonra dünyaya gəldi Fətəli xan.

Bəs, görəsən, nəsil üçün tarixi düşmən olan bir şəxsin adını niyə tapşırdılar bu körpəyə? Bəlkə keçmişdən gələcəyə gedən yolda nifrət və kin köhləninin cilovunu dartıb, bu gərdişi, bu yerişi səngitmək üçün? Bəlkə insan ruhunun çox dərin və naməlum qatlarında mürgüləyən sevgi və nifrətqarışıq laciverd hissin təkidiylə?

Və bəlkə də bu məsələ dünyanın özü qədər qəliz və mürəkkəb idi, heç "bəlkəlik" də deyildi...

Şərəfli nəslin layiqli davamçısı oldu Fətəli xan.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Tiflisdə elan olunan gün hökumət kabinəsinin sədri seçildi.

1918-ci il iyunun 17-də və dekabrın 26-da təşkil olunan Nazirlər Şurasının sədri və xarici işlər naziri vəzifəsini tutdu. 1919-cu ilin martında onun başçılıq etdiyi Hökumət Şurası istefa verdi. Nəsib bəy Yusiflinin təşkil etdiyi Nazirlər Şurasında xarici işlər naziri oldu.

Bakını bolşeviklər işğal edəndən sonra sahibsiz bir ölkənin məğlub rəhbərlərindən biri kimi doğma diyarı tərk edib, ailəsi ilə Tiflisə üz tutdu.

1920-ci il iyunun 19-da muzdlu erməni qatili on güllə ilə qətlə yetirdi.

O vaxtdan M.F.Axundovun qəbrinin yanında bir məzar daşı göyərdi.

Fətəli xan Xoyskinin məzar daşı...

Bir xalqın Milli İstiqlaliyyətinin torpağa gömülən köklü-köməcli bir şüyü".

## Dustaq səs cığırında iz yaxud son söz əvəzi

"Hacı Səlim Axundzadə xatirələrində yazır: "...Tiflisdə iş belə oldu ki, hər üç millət ayrılıb özlərini müstəqil respublika elan etdi. Əvvəlcə gürcülər "Qruzinskaya Respublika" adı ilə ayrıldılar. Sonra ermənilər özlərini "Araratskaya Respublika" adlandırdılar.

...Biz "Orient" mehmanxanasında qalırdıq. Bizim 28 nəfərdən ibarət olan və "Seym"in işində iştirak edən heyətimiz orada müşavirə keçirib Qafqazın bu qiymətli diyarını "Azərbaycan Cümhuriyyəti" adlandırmağı qərara aldı".

*Qaynaq: "Günaydın qəzeti", 8-9 iyun 2000, №35 (268)*

## Üzeyir bəyin ağrılı günləri – Səməd Vurğunun göz yaşları, qardaşına yolladığı çörək pulu…

Başlayaq, bəstəkarın ən böyük nisgili qardaşı Ceyhun Hacıbəylidən... Versal Sülh Müqaviləsi üçün Parisə yollanan və daha geri qayıda bilməyən jurnalist Ceyhun Hacıbəyli ömrü boyu ailəsinin həsrəti ilə yaşadı. Onlar ancaq məktub vasitəsilə görüşürdülər. Təsəvvür edin ki, Üzeyir bəy öz sosial təminatını ömədəklə yanaşı, Parisdə ağır durumda olan qardaşı üçün də pul yollayırdı. Məktublarının birində Üzeyir bəy qardaşı Ceyhuna belə yazır:

*"Mən sənə 2  mart tarixli məktub və pul göndərdim. Alıb-almadığın barədə məlumat vermirsən. Yenə bu kağızla sənə pul yollayıram. Yetişdiyi barədə mənə xəbər verərsən".*

*Burada Maarif Komisarlığı tərəfindən "Maarif və mədəniyyət" adında yaxşı jurnal nəşr edilir ki, ayda bir kərə çıxır. Sən o jurnala hər ay bir məqalə yazıb göndər ki, məzmunu ədəbiyyata aid olsun. Xüsusən də fransız ədiblərinin türk ədəbiyyatı haqqındakı fikirlərini, qərəz ədəbi şeyləri yazsan 200-300 sətirlik məqalənin qonararı 20 manatdan çox edər. Alıb hər ay sənə yolladığım pulun üzərinə əlavə edərəm. Məqaləni mənim üstümə göndərərsən. Əlavə, buradakı türk qəzetlərindən biri üçün Paris həyatından mütəmadi məqalələr yazsan, o da mədaxili artırar. Bu xüsusda mənə yazıb bildirsən, mən vasitəçilik edərəm".*

Üzeyir bəy ilk dəfə qardaşına pul yollayan zaman məktubda bu sözləri yazır:

"*Biz bunu Zülfüqarla öz boynumuza götürdük və qərara gəldik ki, sənin etirazına baxmayaraq hər ay uşaqlar üçün pul göndərək, bir şərtlə ki, həmin pul 50 manatdan az olmasın. Bu bizim üçün mümkündür, ağır deyildir. Çünki hər ikimizin gəlir yerimiz vardır".*

*Sabah və ya biri gün sizə teleqrafla pul göndərəcəyik. Bu xüsusda arxayın ola bilərsən. Göndərəcəyim pullar sizə bir aya çatmasa da maddi pərişanlığınızı bir qədər intizama salar".*

Bu kimi faktlar bitdikcə bitən deyil. Üzeyir bəy öldüyü gün də "Ceyhun" deyərək, dünyasını dəyişdi. Bir gün qardaşı vətənə dönüb burada vəfat edərsə, onun öz məzarının yanında dəfn edilməsini vəsiyyət etdi.

Leninqradda oxuduğu zaman hər manatı ehtiyatla xərcləyən Üzeyir bəy yaxın dostu Müslüm Maqomayevdən (bu gün həm də onun da ad günüdür)borc pul istəməyə utanarmış. Bəyin ömrünün sonuna təsadüf edən daha bir kövrək xatirəni təqdim

edək. (Bu xatirə  "Elm və həyat" jurnalı, 1971-ci il buraxılışından götürülüb)

Üzeyir bəyin ömrünün son günləri idi. Neçə gün idi ki, çarpayısında xəstəhal yatırdı. Səməd Vurğun ağır, asta addımlarla içəri keçdi. Yataq otağının qapısı açıq idi. Üzeyir bəy əlləri sinəsi üstə çarpaz, maddım-maddım ona baxırdı. Qəmgin və tutqun idi. Səməd özünü tox göstərməyə çalışaraq addımlarını bir az yeyinlətdi… Yatağına yaxınlaşdıqda Üzeyir bəy qalxıb ona əl vermək istədi, bacarmadı… Səməd həyəcanını boğmağa çalışaraq əyilib onun soyuq əllərindən öpdü. … – Sən yaxşı bilərsən, oğul, necə deyib o şair? Gözlərini bir nöqtəyə dikərək asta-asta öz sualına cavab verdi:

- Köçmək gərək bu dari-fənadan yavaş-yavaş…

Səmədin ürəyi hüznlə sızladı. Artıq özünü saxlaya bilməyib, dizi üstə yerə çökərək onun taxtını qucaqladı və uşaq kimi ağlamağa başladı. Xəstə titrəyən ipək əlləri ilə onun saçlarını oxşayıb dərindən köks ötürdü və bir az həzin və bir az sakit və aramla:

- Yox, yox, vaxtdır, – dedi, – köşmək gərək, köçmək bu dari-fənadan yavaş-yavaş!.."

## Xalq Cümhuriyyətinin əlifba və ana dili uğrundakı çabaları – Dil və Əlifba Günü

1 avqust  Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. 2001-ci ildə Azərbaycanda latın əlifbasına keçid başa çatdırıldı. 1992-ci ildən başlanan latına keçid prosesi uzun müddətdən sonra müsbət sonluqla başa çatdı.  O vaxta qədər isə "Xalqlar həbsxanası"nın 70 illik əsarəti öz buxovunu əlifbanın da üzərinə saldığından Azərbaycanda slavyan mənşəli kiril əlifbasından istifadə edilirdi.

Sovetin idarəçiliyi başladığı andan Şərqin ilk müsəman demokratiyası olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk islahatlarından olan - əlifba islahatı da belə boğulmuş oldu.

100 illik yubileyinə hazırlaşdığımız Xalq Cümhuriyyətinin dil və əlifba islahatları barəsində verdiyi rəsmi qərarları elə o dövrün yazı üslubunu saxlamaqla təqdim edirik:

**Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı (27 iyun 1918)**

*"Dövləti lisan türk dili qəbul edilərək, içəridə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin".*

Üstündən çox keçmir ki, AXC-nin yeni hökuməti daha bir qərar qəbul edir: (qaynaq: Azərbaycan Milli Ensiklopediyası. Mətn ruscadan tərcümə edilib)

**Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Qərarı (28 avqust 1918)**

1. Bütün birinci dərəcə ibtidai təhsil müəssisələrində təhsil, dövlət dili olan türk dilini artırılmış həcmdə məcburi qaydada tədris etməklə, şagirdlərin ana dilində aparılsın;

2. İkinci dərəcə ibtidai məktəblərdə və orta təhsil müəssisələrində tədris dövlət dili olan türk dilində aparılsın. Lakin ikinci dərəcə ibtidai məktəblərin milliləşdirilmiş siniflərində tədris şagirdlərin ana dilində davam etdirilsin və eyni zamanda 1918-1919-cu illərdə, lazım gələrsə ondan sonrakı tədris ilində də türk dilinin həcmi artırılmış tədrisi də tətbiq edilsin ki, həmin müddət başa çatanda dövlət dilində təhsil almayan şagirdlər bütünlüklə türk dilində tədrisə keçə bilsinlər;

3. Orta tədris müəssisələri siniflərinin bütünlüklə erməni dilində (milliləşdirilmiş) dərs keçilən paralel şöbələri, habelə həmin tədris müəssisələrinin kiçik və böyük yaşlı uşaqlar üçün olan hazırlıq siniflərinin bütünlüklə rus dilində (milliləşdirilmiş) dərs keçilən paralel şöbələri ləğv edilsin;

4. Həmin tədris müəssisələrinin birinci, imkan olduqda həmçinin ikinci sinifləri milliləşdirilsin və tədris türk dilində aparılsın; bununla belə, əgər həmin siniflərdə türk dilini bilməyən şagirdlər olsa, onlar üçün paralel şöbələr açılsın və həmin şöbələrdə tədris rus dilində aparılsın. Həm bu siniflərdə, həm də 4-cü sinif daxil olmaqla sonrakı siniflərdə dövlət dili elə həcmdə tədris olunsun ki, iki il sonra bütün şagirdlər türk dilində təhsilə keçə bilsinlər;

5. Orta tədris müəssisələrinin 5-ci sinfindən etibarən isə şagirdlər həmin tədris müəssisələrinin kursunu bitirənədək tədris rus dilində aparılsın; bununla yanaşı xalq maarif nazirinə bir vəzifə olaraq tapşırılsın ki, orta təhsil müəssisələrinin bütün siniflərində türk dilinin artırılmış həcmdə tədris olunmasına nəzarət etsin.

Gördüyümüz kimi, dil islahatı sahəsində ilk praktiki addımlar 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra atılıb. Bunu əlifbaya da şamil etmək gərəkir. AXC hökuməti latın qrafikasına keçidə başlar-başlamaz süqut etdi. Təəssüf ki, o dövrün mətbuatının əsas hissəsi əski əlifbada çıxası oldu.

1919-cu ildə milli hökumət yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya yaratdı. Komissiyaya üç müxtəlif layihə təqdim olunsa da, Abdulla bəy Əfəndiyevin hazırladığı və Azərbaycan yazısının latın qrafikasına keçirilməsini nəzərdə tutan layihə bəyənildi.

AXC hökumətinin əlifba sevgisi və onun vacibliyini anlamaq məsələsi təbii ki, birdən-birə meydana çıxmamışdı. Axundov və Zərdabidən başlanan əlifba islahatı modeli AXC-nin yarandığı dövrdə- XX əsrin əvvəllərində də aşağıdakı şəxsiyyətlərin sayəsində davam etdirildi:

**Məhəmməd ağa Şahtaxtinski** – Azərbaycanın ilk professoru olan maarif xadimi mətbuat, təhsil və ictimai sahələrlə yanaşı, dil və əlifba sistemində də müstəsna işlər görüb. O, O, 1871-ci ildə Almaniyanın Leypsiq universitetinin Tarix, Fəlsəfə və Hüquq fakültəsində ali təhsil alıb. 1873-1875-ci illərdə Parisdə yaşadıqdan sonra Tiflisə qayıdıb. O, sonradan "Təkmilləşdirilmiş müsəlman əlifbası" layihəsini hazırlayıb nəşr etdirib.

**Sultan Məcid Qənizadə** - Azərbaycan maarif tarixində əsas simalardan biri olan Qənizadənin diqqət etdiyi ən ümdə

amillərdən biri də dil idi. Çoxsaylı lüğətləri ilk dəfə o, azsaylı məktəblilər üçün hazırlayıb. İlk orta təhsil məktəbinin yaradıcılarından biri də Sultan Məcid Qənizadədir.

**Əhməd bəy Ağaoğlu**: Əhməd bəyin çoxşaxəli işlərindən biri də əlifba məsələsi olub. O, ərəb əlifbasının mətbuata əsl zərbə vurduğunu qeyd edirdi. Yazırdı ki, əsasən poetik və elmi üslub üçün keçərli olan ərəb qrafikası qəzet dilinə qətiyyən uyğun gəlmir. Bir sətri başa düşmək üçün oxucu xeyli fikirləşməlidir. Qəzet dili isə yüyrək olar.

## Ermənilərin şərlədiyi, ingilislərin tutduğu Nuru Paşanın həbsxanadan qaçırılması - Xatirələr

Hadisə 1919-cü ilin avqustunda baş verib. Nuru Paşa Bakını xilas edib Azərbaycan Cümhuriyyətinə təhvil verməklə, başda ingilislər olmaqla, bir qrup yadellinin mənfur planlarını pozdu.O səbəbdən ingilislər, bir müddətdən sonra Nuru Paşanı həbs etdilər. Paşa öz xatirələrində bu barədə yazır:

"İstanbul hökumətinin son əmri ilə, Azərbaycanda bir nəfər də Osmanlı zabiti və əsgərinin qalmasına icazə verilmədiyi üçün qalmaq istəyənlərin sayı bir neçə nəfərə qədər azaldı. İngilislər Azərbaycan hökumətinə təzyiq göstərərək osmanlıların qalmasına mane oldular. İngilislərin təsiri ilə, Azərbaycan hökuməti Osmanlı komandanlığı vasitəsilə şəxsən özləri mənə müraciət edərək Azərbaycandan uzaqlaşmağımı istədilər. Əslində, ingilis komandanlığı Azərbaycanın müstəqilliyini ordumuz kimi müdafiə edirdi. Qarabağda müsəlmanlara hücum etmək istəyən erməniləri qorxutmuş və uzaqlaşdırmış, Lənkəran və Muğanın

Azərbaycana tam birləşdirilməsinə yardım etmişdi. İngilislərin bu əlverişli hərəkətlərinə mane olmamaq üçün Azərbaycanı tərk etməyə qərar verən bir neçə yoldaşla, gələcəkdə qayıtmaq fikrilə Batuma getdik. Artvin və Ərdəhan yolu ilə Qarsa gəldim. Şevki Paşanın qərargahında bir gün qalıb, sonra Ərzurum yolu ilə Trabzona gəldim. İstanbula gedəcəyim gün gəmidən polis tərəfindən çıxarılaraq, Müdafiə Nazirliyinə gətirildim. Bir gün Bəkirağa hərbi hissəsində qaldım. O biri gün məni ingilislərə təhvil verdilər. İngilislər də məni Batuma apararaq beş ay Ərdəhan qışlalarında, bir ay da İvanovka hərbi hissəsində həbsdə saxladılar".

Məhz belə bir vaxtda Cümhuriyyətin baş naziri Nəsib bəy Yusifbəyli Əks Kəşfiyyat İdarəsinin rəisi Nağı bəy Şeyxzamanlının yanına çağıraraq deyir ki, bizim Nuru Paşaya dövlət borcu ilə yanaşı, həm də bir qeyrət borcumuz var. Onu mütləq xilas etmək lazımdır.

Ancaq rəsmi yolla Nuru paşanı azad etmək mümkün deyildi. Bir tərəfdən ingilis qoşunları komandanlığı, digər tərəfdən də erməni daşnakları Nuru paşanı sağ buraxmaq istəmirdilər. Belə olanda başqa vasitələrə də əl atıldı.

Bu barədə Nağı Şeyxzamanlı öz xatirələrində çox maraqlı faktları qeyd edir:

"Günlərin bir günü Gəncədə idim. Eşitdim ki, ingilislər Nuru Paşanı tutub Batuma gətiriblər. Orada ingilis hərbi tribunalına verəcəklər. Buna səbəb guya Bakının azad olunması vaxtı "erməni qırğını" törədilib. Tez Bakı ilə telefon danışığı apardım və xəbərin doğru olduğunu öyrəndim. Gəncə ermənilərindən bir arayış almaq lazım idi ki, Nuru Paşa Gəncəyə gəlişində ermənilərə heç bir pislik etmədiyi kimi, erməniləri mühasirə-

dən qurtarıb hürriyyət verdiyini, həyatlarını təhlükəsizlik altına aldığını, bu yaxşılığa qarşı ermənilərin bir heyət göndərərək Nuru Paşaya təşəkkür etdiklərini isbat etmək mümkün olsun. Arayışın alınması üçün Gəncənin irəli gələnləri ilə bərabər erməni milli təşkilatına müraciət etdim. Arayışı alacağıma qəti şəkildə inanırdım. Çünki həqiqət barədə arayış istəyirdim. Ancaq ermənilər xahişimizi rədd etdilər: "Biz uşaq deyilik. Çox yaxşı bilirdik ki, Nuru Paşanın bizə pislik etməməsi məqsədli idi. O gözlədi ki, Bakını tutub oradakı qırğını bitirsin və ondan sonra bizə "hücum etsin". Ancaq mütarikə oldu, Osmanlı ordusu buna vaxt tapa bilmədi".

Biz əliboş geri qayıtdıq. Bakıya gəldim, mərhum Nəsib bəylə görüşərək arayışı almadığımı və çox kədərli olduğumu söylədim. Nəsib bəy dedi: -Bəli, mən səni heç bu qədər kədərli görməmişdim. "

Mən də dedim: "Nəsib bəy, ermənilər çox naşükürlük etdilər. Nuru Paşanın haqqı olan arayışını mənə vermədilər". Nəsib bəy gülərək dedi: -Üzülmə, Nuru Paşanın azad olmasının daha asan yolu var. Batumdan xəbər aldım. Hopa bəyləri plan hazırlayıblar. Nuru Paşanı basqın ilə qurtaracaqlar. Ancaq pula ehtiyacları var. Sən 200 min manat götür Batuma get". "Əmr et, pul versinlər, axşam yola düşüm" - sevinərək dedim. Pulu alıb Batuma gəldim. Azərbaycan konsulu doktor Mahmud bəylə görüşdüm. Məsələni ona anlatdım və Nuru Paşa ilə görüşüb-görüşməyəcəyimi soruşdum. Doktor dedi ki, imkan yoxdur. Ancaq Mürsəl Paşa ilə görüşə bilərsən. İngilis komandanlığında nəzarət altındadır. Mən tez gedib Mürsəl paşa ilə görüşdüm. Mürsəl Paşa dedi: "Aman, mənə bir şey etməyəcəklər. Ancaq Nuru Paşanı edam edəcəklər. Onun qaçırılmasının yolunu tapın. "Mən də gəlişimin səbəbini anlatdım. Çox razı qaldı... Beləliklə, vaxtilə

nicatına yetişmiş olduğu irqdaşlan da Nuru paşanı real ölümdən xilas etdilər və onu ingilislərin həbsxanasından qaçırtdılar".

Nuru Paşa sonradan öz xilası ilə bağlı bunları deyəcəkdi:

"Bu zaman məni qaçırmaq istəyən azərbaycanlı və batumlularla razılaşıb, silahlı mübarizə vasitəsilə qaça bildim. Mübarizə zamanı bir zabit, iki əsgər olmaqla üç ingilis, bizdən də bir batumlu öldü. Bir həftə Batumda gizləndikdən sonra Acarıstandan yola çıxıb ilə yenidən Artvin, Ardanuç və Oltu təriqi ilə Ərzuruma gəldim".

**Mənbə: M.Süleymanov-"Nuru Paşa və silahdaşları"**

## "Gözlədiyimdən çox yaşadım, nəyim var idisə hamısını satdım" – Şıxlinskinin vəsiyyəti

1943-cü ilin isti avqustu... Bir zamanlar bütün Qafqazın, çar Rusiyasının, hətta az qala, dünyanın yarısının tanıdığı əfsanəvi general son nəfəslərini yaşamaqdadır. Həyat yoldaşı Nigardan sonra onsuz da yaşamaq istəmirdi. Lakin yarıcan halda 12 il yaşayır və dünya tarixinin bəlkə də, ən ağır ilində - müharibənin tüğyan etdiyi 1943-cü ildə Bakı kənarındakı kiçik bir evdə vəfat edir. Övladı olmamışdı. Sevimli arvadına da "xəyanət" edib, başqası ilə evlənməmişdi. Odur ki, ölümündən bir neçə il əvvəl yazdığı vəsiyyətnamədə olan "əmlak"ını cəmi iki nəfərə vəsiyyət edir: onu müalicə edən həkiminə və onun xanımına.... Bu vəsiyyəti (əslində, bir neçə cümləlik sözləri) bir neçə dəfə yazdı. Hər dəfə də çoxdan gözlədiyi ölümünə yaxınlaşdığını hiss etdi. Amma son dayanacaq 1943-cü il idi....

Beləliklə, əfsanəvi general, dünyanın ən güclü artileriya mütəxəssislərindən olan general Əliağa Şıxlinskinin vəsiyyətini

təqdim edirik. Burada siz hər şey görəcəksiniz: bir generalın, şərəfli zabitin ömür yolunu və ömrünün acı sonunu...

“Mənim ölümümdən sonra, əmlakımdan nə qalarsa: mebel, qab-qacaq, geyim şeyləri və başqa əşyalar, eləcə də qalmış nəğd pul məbləğini - həyatımın kimsəsiz illərində mənə qayğı göstərmiş həkim Bahadır Qayıbova və onun arvadı Qayıbovaya vəsiyyət edirəm”.

**Yazılanları öz şəxsi imzam ilə təsdiq edirəm. 30 oktyabr 1933-cü il.**

“Əziz Bahadır və Varya! Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim “əmlakım” mənim dəfn olunma və ən sadə qəbr daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar. Lakin, ona əvəz olaraq, unudulmaz həyat yoldaşım Nigar xanımın vəfatından sonra, siz məni qayğı ilə hərtərəfli əhatə edərək, onsuz yaşadığım günləri mənim üçün mümkün və dözümlü etdiyinizə görə, mənim Sizə qarşı olan minnətdarlığımın həddi-hüdudu yoxdur. Bu qəni minnətdarlığı mən özümlə qəbr evinə aparacağam. Sizin mənə qarşı mərhəmətinizə görə Allah Sizdən razı olsun”.

**Sizi sevən: Əliağa Şıxlinski. Bakı, 3 yanvar 1938-ci il**

“Vəsiyyətnamə yazılarkən, mənim bəzi qiymətli şeylərim var idi ki, onlar Bahadır və Varyanın mənə göstərdikləri qayğı və mənəvi köməklikdən əlavə, maddi yardımlarını qismən ödəyə bilərdi. Lakin mən gözlənildiyindən də artıq yaşadım, satmalı

nə vardısa, satıb xərclədim və bununla da vəsiyyətnamə öz mənasını itirmiş oldu. Əgər evdə qalmış əşyaların dəyəri dəfn mərasiminə və sadə qəbr daşına kifayət edərsə, ona da şükr. Heç bir ehsan və elan lazım deyil. Qohumlara telefon vasitəsilə, telefon yoxsa, məktubla xəbər vermək olar.

Qəbir daşı yalnız onun üçündür ki, mənim adım unudulmaz həyat yoldaşım Nigar xanımın adı ilə yanaşı yazılsın"

***Son ricam:***

*1. Əgər mən yataqda qalası xəstə olsam, məni xəstəxanaya göndərin;*

*2. Əgər xəstəxanada ölsəm, nəşimi evə yox, xəstəxanadan qəbristanlığa aparın;*

*3. Qəzetdə elan verməyin;*

*4. Dəfnetmə xərclərinin az olmasına çalışın. Yorğan ağına bükülmüş cəsədi rənglənməmiş, üstünə ağkilim salınmış tabuta qoyun;*

*5. Heç bir ehsan verməyin, bunu etmək həmişə gərəksizdir, müasir çətinlikləri nəzərə alsaq isə qəbahətdir.*

*5. Mənə əziz olan Nigar xanımın qəbri ilə yanaşı qəbri yastı tava daşı ilə örtüb, üstünə yazarsınız: Əliağa Şıxlinski - heç bir tarix lazım deyil.*

*6. Nə tabutun içinə, nə də tabutun üstünə bir dənə də olsun gül qoyulmasın.*

Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də indiki Musa Nağıyev adına xəstəxanada kardiosklerozdan vəfat etdi. Amma ömrünün sonundakı nigarançılığı əbəs idi. Çünki onun dəfnini

tanınmış alim, sonradan intihar edən filosof Heydər Hüseynov öz üzərinə götürdü və generalı son iztirabdan bu cür xilas etdi….

*Qeyd: Yazıda hərb tarixçisi Şəmistan Nəzirlinin Əliağa Şıxlinskiyə həsr etdiyi monoqrafiyadan istifadə olunub*

## Almas İldırım

*“Gizli yol kəsmədim, qaçaq olmadım,*
*Sakit bir həyatı pozmadım mən ki?*
*Dost üçün qanlı bir bıçaq olmadım,*
*Heç bir qətlə fərman yazmadım mən ki?!”*

Bu misralar yaradıcılığının ən məhsuldar dövründə mənfur qüvvələr tərəfindən təzyiqlərlə üzləşərək, vətəni tərk etmək məcburiyyətində qalan bir şairə məxsusdur. Hansı ki, onun əsl yaradıcılığı məhz bu misralardan sonra başlanır. Bu misralardan sonra o, düz dörd ölkədə ağrılı-acılı günlər keçirir və həyata da qürbət eldə vida edir.

Qəhrəmanımız isə 3 ölkədə sürgün, birində isə mühacir həyatı keçirən Almas İldırımdır.

“ Bir gün vali atamın iş masasında başının üzərində üçrəngli bayrağı görüb hiddətləndi və onların arasında belə bir dialoq yaşandı:

- Bu nə deməkdir?

- Bu vətən deməkdir!

- Bəs bura nədir?

- Azərbaycan mənim birinci vətənim, Türkiyə isə ikinci vətənimdir”.

Bu dialoq 1930-cu illərdə qardaş Türkiyəyə sığınan və ömrünün sonunadək orada yaşayan bakılı şairlə bir türk valisi arasında baş verib. (xatirə şairin oğlu Araza məxsusdur –red.)

Bu şair üçün validən fərqli olaraq, üçrəngli Azərbaycan bayrağı ilə ay-ulduzlu al türk bayrağı arasında heç bir fərq yox idi. Türkiyəni özünə vətən bilib bura gələrkən Türkmənistan, Dağıstan, İranda keçirdiyi bütün sarsıntıları unudacağına səmimi qəlbdən inanırdı...

**Amansız Türkmənistan**

Almas İldırım üst-üstə 23 il qürbətdə yaşayıb. Yad ellərin ilk dayanacağı Dağıstan, son dayanacağı isə Türkiyənin Elağız şəhəri olur. Gənc ikən Bakıdan uzaqlaşır və 52 yaşında bir dünyagörmüş şəxs kimi qardaş Türkiyədə canını tapşırır. Dağıstana sürgün ediləndə hələ çox gənc idi. Qadağan olunmuş ideologiyanın təbliği, mövzuların işıqlandırılması və pantürkistliyi bəhanə göstərilərək, Yazıçılar İttifaqından qovulur. Artan təzyiqlər Dağıstan sürgünü ilə nəticələnir. Amma gənc ruhlu, gənc ovqatlı şair Almas İldırım orada nəinki həvəsdən düşür, hətta əvvəlkindən də yüksək qətiyyətlə mübarizə aparır. Bu səbəbdən də onu daha namünasib yerə Türkmənistana sürgün edirlər.

1931-ci ildə gənc şair Türkmənistana göndərilir. Orada başqa yerlərdən də olan türk əsilli ailələr məcburi sürgün həyatı yaşayırdılar. Almas İldırım belə ailələrdən birinin qızı ilə - güneyli Zivər xanımla ailə qurur. 1932-ci ildə ilk övladları Azər dünyaya gəlir. Lakin tale Türkmənistanda da A.İldırımın üzünə gülmür.

Almas İldırım araşdırmaçılarından olan Maarif Teymur onun Türkmənistan həyatı barəsində maraqlı qeydlərlə çıxış edib: “Onu burada da rahat buraxmırlar. Şair daim təqib olunur,

izlənilir və onu tutduğu millilik yolundan sapındırmağa çalışırlar. "Zəhmət" qəzetinin 27 aprel 1932-ci il tarixli sayında dərc olunmuş "Öz haqqımda" adlı məqaləsindən məlum olur ki, vətənində də şairin əleyhinə kampaniya davam etdirilir, ona müxtəlif damğalar vururdulur. Hətta şairin sürgündəki fəaliyyətinə nəzarət etmək üçün, Azərbaycan SSR Baş Siyasi İdarəsi xüsusi nümayəndəsini Aşqabada ezam edibmiş.

Bu agent öz bədxah vəzifəsini iki istiqamətdə yerinə yetirirdi: bir tərəfdən şairin hər bir addımını izləyərək öz idarəsi üçün donos hazırlayır, digər tərəfdən isə türkmənlər və respublikadakı azərbaycanlılar arasında onu gözdən salmaq üçün məqalələr yazıb nəşr edirdi.

A.İldırım ya bolşevik rejiminin təklifini qəbul edib, həmin ideolojinin cəbhəsinə keçməli, ya da milli ideala sadiq qalaraq, istiqlal mücadiləsini davam etdirməli idi.

Heysiyyətini, şərəf və ləyaqətini hər şeydən üstün tutan şair, təbii ki, ikinci yolu – mücadilə yolunu intixab edirdi. Artıq Türkmənistanda qalmaq özü və ailəsi üçün təhlükəli olduğundan mühacir həyatını, yəni xaricə getmək yolunu seçir. 1933-cü ilin iyununda həyat yoldaşı Zivər xanımı və üç aylıq körpə oğlu Azəri də götürüb, xəlvəti olaraq İrana doğru istiqamət alan qaçaqmalçı dəvə karvanına qatılır.

## 25 günlük faciə

İranda isə Alması əsl insanlıq zülmü xoş gəldin deyərək qarşılayır. Almasla Zivərin İrana gəlməsi, yoldakı əzab-əziyyət elə sürgünün ən ağır üzü idi. Onlar uzun yol qət edərək, qaçaqmalçılardan ayrılıb dağ və təpələrə üz tuturlar, ayaqları daş və tikanlardan yaralı, özləri ac və susuz, üzülmüş halda İranla sərhəd xəttinə yaxınlaşırlar.

Yenə Maarif Teymurun vacib qeydlərinə nəzər salaq: "Sərhəd məntəqəsində Almas İldırımı dərhal həbs edir, 24 saat soyuq suda saxlayırlar. İran sərhədçiləri şairi bolşevik agenti zənn edərək, ona 25 gün müxtəlif işgəncələr verir, sinəsinə qədər soyuq suyun içərisində sual-cavaba tuturlar. Bütün bu işgəncələr Almas İldırımın səhhətinə mənfi təsir göstərir və o, böyrək xəstəliyinə tutulur. Nəhayət, Tehran rəsmilərinin göstərişi ilə şair azad edilir, ailəsi ilə birlikdə Məşhədə göndərilir".

**Xilas yeri –Türkiyə**

Almas İldırım 1935-ci ildə min bir çətinliklə Türkiyəyə gəlib çatanda artıq bir çox xəstəlikləri sürgündən yadigar kimi özü ilə gətirmişdi. Əvvəlcə qardaş ölkədə sıravi müəllim kimi çalışır. Daha sonra isə nisbətən məsul vəzifələrə cəlb olunur. Elə ölüm yeri olan Elağız şəhərində də 1952-ci ilə qədər bucaq müdirliyində (qəsəbə bələdiyyəsində ) çalışır. Ağır xəstəlik ona cəmi 37 il yaş yaşamağa imkan verir. Almas İldırım 1952-ci ilin qışında Elağızda dünyasını dəyişir.

Aşağıdakı öz dilindən deyilən misralar şairin bütün həyatını özünə tam dolğun əks etdirir:

"Ey, Azəri türkü... Ey vətəndaşım. Sənin qarət olmuş haqqından doğan çaşqınlığına tərcüman olayım deyə, hayqırdım. Nə yazıq ki, bu hayqırış sonunda qırıq-tökük çıxan hıçqırlarımdan ibarət boğuq bir səs oldu".

Şairin dörd oğlu ondan sonra Almas İldırım adını yaşadırlar. Avropada ali təhsil alan Azər İstanbulda biznesmen, Bakıxan Almaniyanın Frankfurt şəhərində sürücü, Araz və Odxan isə Türkiyədə ziyalı kəsimləri təmsil edirlər. Onlardan yalnız son övladı Araz atasının yolunu davam etdirir.

## Hüseyn Cavidin bədxahlara möhtəşəm cavabı

Araşdırmaçı Aslan Kənan "XX əsrdə repressiyaya məruz qalanlar" kitabına istinadən böyük şair-filosof Hüseyn Cavid haqqında maraqlı bir detalı təqdim edir:

1938-ci il.... DTK zabiti bir müddət əvvəl həbs etdikləri şair Hüseyn Cavid haqqında əsaslı dəlillər tapa bilmədikləri üçün əlavə dindirmələrə ehtiyac duyurlar. Çünki həbs olunan zaman evindən cəmi 6 manat kağız, 18 ədəd gümüş pul, bir də kitablar tapılan şairin "günah"ını təsdiqləmək üçün əsaslı dəlillər az idi.

Aslan Kənanın bu barədə yazır:
"Məhz buna görə də 13.03.1938-ci ildə "Azərnəşr-"-də tərcüməçi işləyən, şair Mikayıl Rzaquliyevi dindirmək üçün DTK-ya dəvət edirlər. Bu təsadüfi çağırış deyildi. Artıq onlara məlum idi ki, H.Cavid, M.Müşfiq və başqaları haqqında Yazıçılar İttifaqında müxtəlif fikirlər formalaşmaqdadır. Bunu yaxşı dərk edən xüsusi şöbənin əməkdaşları ittifaqın üzvlərindən istifadə etməyi qarşılarına məqsəd qoyurlar...

***M.Rzaquliyev DTK-nın zirzəmisindəki izahatında aşağıdakıları deməyə məcbur edilir:***

"H.Cavidlə 1926-cı ildən tanış olsam da, 1933-cü ildən yaxınlıq etmişəm. H.Cavidlə yaxınlıq etdiyim gündən bir əksinqilabi, burjua-millətçi kimi tanımış, o ədəbi yaradıcılığını Türkiyəyə tərəf yönəltdiyini bildirmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulanda H.Cavid yazıçı, şair və dramaturq kimi

yazılarında sovet həqiqətlərini düzgün əks etdirmir, əsərlərini bir əksinqilabi, millətçilik ruhunda qələmə alaraq, sovet mövzusunun əksinə yönəldirdi. O, “Peyğəmbər”, “İblis”, “Siyavuş”, “Topal Teymur” və s. kimi əsərlərini panislamizm, pantürkizm şəkildə yazmış, osman idealogiyasını həmişə tərifləmişdi. Onun bu əsərlərini Türkiyə mətbuatı xüsusi diqqət mərkəzində saxlayırdı. H.Cavid “İblis” əsərində Türk ordusunu tərifləyib.

H.Cavidi xırda burjua şairi adlandıranda əsəbiləşər və deyərdi ki, o görkəmli burjua şairidir. Yazıçılar İttifaqı və başqa təşkilatlar ondan tələb edirdilər ki, sovet dövründən yazsın. Lakin o etiraz edərək, böhtancasına təsdiq etməyə çalışırdı ki, guya sovet ölkəsində daimi qəhrəman yoxdur, onlar hər an dəyişirlər. H.Cavidə öz bədii yaradıcılığında dəyişiklik etmək məsləhət bilinsə də o əksinqilabi, millətçi baxışları ilə “mən çəkməçi deyiləm və sifariş qəbul etmirəm” deyərək, sovet mövzusunda əsərlər yazmaqdan imtina edirdi. H.Cavid mənimlə hər söhbət edəndə ÜİK(b)P və Sovet dövlətinə qarşı böhtanlar atar, Azərbaycan ədəbiyyatına və onun yaradıcılarına “rusifikasiya” siyasəti apardığını qeyd edirdi”.

Çox təəssüf ki, özünü Sibirdən qorumaq üçün başqasını Sibirə yollatmağa məcbur olan Mikayıl Rzaquluzadə (sonradan “zadə”sonluğu ilə əsərlər yazdı-E.N.) həmin açıqlamadan 17 il sonra təhlükəsizlik zabitlərinə başqa məzmunda açıqlama verdi. Təbii ki, Cavidi bir şair və şəxsiyyət kimi təriflədi:

“Müstəntiq 1938-ci ildə M.Rzaquliyev tərəfindən verilmiş cavablara münasibətini bilmək istəyəndə məlum olur ki, onun

nə dediyi yadında deyil. Ona H.Cavidin əksinqilabi, millətçi fəaliyyəti haqqında heç nə məlum olmadığını, ümumiyyətlə o ifadələrin müstəntiq tərəfindən dəyişdirildiyini iddia edirdi.

Sonda isə 13.03.1938-ci ildə yazılı fikirlərinin tam əleyhinə olduğunu bildirir".

## Nuru Paşa bu xəbəri eşidib təcili Azərbaycana doğru yola düşdü

Nuru Paşa Bakıya gəlişi ilə bağlı xatirələrində yazır: "1918-ci ilin yanvar ayının əvvəllərində Trablusqərbin vəziyyətini müzakirə etmək üçün Afrika Qrupları Komandanlığının mərkəzi olan Mısratadan sualtı gəmi ilə və Pola yolu ilə İstanbula gəldim. Bu dövrdə rus inqilabı səbəbi ilə Qafqaz və Şərqin vəziyyəti əhəmiyyətli dərəcədə dəyişməyə başlamışdı. Şərq cəbhəmizin irəliyə əməliyyatlarını asanlaşdırmaq məqsədilə Qafqazın müsəlman və türk əhalisi yaşayan məntəqələrində təşkilatlanmaq vəzifəsi Baş Hərbi Qərargah tərəfindən məqsədəuyğun görülmüşdü. Əsasən, Qafqaz müsəlmanları tərəfindən də yardım məqsədi ilə 1917-ci ilin oktyabr ayında bir heyət Mosula, 1918-ci ilin mart ayında isə Batum yolu ilə bir heyət İstanbula göndərildi. 6-cı ordu vəziyyəti tədqiq üçün üç zabitini Qafqaz nümayəndə heyətinə daxil edərək Qafqaza göndərdi. Bu zaman Qafqazda hərbi quruculuq işləri görmək vəzifəsi bir neçə nəfərə təklif edilmiş və nəticədə Baş Hərbi Qərargah mənim namizədliyimi məqsədəuyğun bilib bu vəzifəni israrla mənə tapşırmışdı. Təxminən iyirmi zabitdən ibarət bir heyətlə dərhal yola çıxaraq 1918-ci il martın 25-də Mosula çatdıq. Əvvəlcə, 6-cı ordudan

Qafqaza göndərilən artilleriya baş leytenantı Müzəffər bəyin (hazırda Hərbi Akademiya müəllimlərindən qərargah polkovnikleytenantı) Mosula geri qayıtdığını gördük". Müzəffər bəyin məlumatına əsasən Qafqazdakı vəziyyət hərbi quruculuq işləri görmək üçün şəraitə uyğun idi. Nuru Paşa Mosulda ikən Müzəffər bəydən aldığı məlumat mart qırğınlarından sonra Azərbaycanda vəziyyətin xeyli mürəkkəbləşdiyini təsdiqləyirdi. Eşitdiyi bu xəbərdən sonra Nuru Paşa Azərbaycana doğru hərəkəti sürətləndirməyə çalışdı. Ancaq Mosulda da o, bir sıra təşkilati işlərlə məşğul olmalı idi. Hər şeydən əvvəl isə Qafqaz İslam Ordusunun təşkili üçün zəruri olan kadrlar seçilməli idi. Bu məqsəd üçün Mosulda 6-cı Ordudan 149 zabit və məmur, 488 gizir və əsgər seçildi. Bütün bu şəxslər də 1918-ci il aprel ayının əvvəllərində Azərbaycana yola salındı.

***Qeyd:*** **Yazıda araşdırmaçı Mehman Süleymanovun "Nuru Paşa və silahdaşları", yazıçı Manaf Süleymanovun bir neçə araşdırma yazısından istifadə edilib.**

## Nuru Paşanın erməni bərbərə möhtəşəm cavabı

Hadisə 1918-ci ilin sentyabrında baş verir. O vaxtlar idi ki, Bakı yadellilərdən tamamilə azad edilmişdi və Azərbaycan Cümhuriyyəti yalnız indi azad nəfəs ala bilərdi. Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu Bakını azad edəndən sonra şəhərdə bir neçə ay idi ki, ağalıq edən, günahsız müsəlmanlara təzyiq göstərən, daşnak, bolşevik və digər yadelli qüvvələr şəhəri tərk edirdilər.

Lakin müəyyən vaxtdan sonra geri qayıdanlar da olurdu. Çünki həm Nuru Paşa, həm də AXC hökumətinin qarşısında

xeyli mürəkkəb və təcili görüləsi işləri var idi. Bu səbəbdən də cəmi bir neçə gün bundan əvvəl öz xalqına ağalıq etmək istəyən mənfur qüvvələri nəzarətdə saxlaya bilmirdilər.

Yazıçı, araşdırmaçı Manaf Süleymanov məhz belə tarixi günlərlə bağlı maraqlı bir epizodu nəql edib. Qeyd edək ki, həmin hadisəninin iştirakçısı olan ermənininin özü Süleymanova danışıb.

"Dəllək qonşumuz Akopyan on səkkizinci ildə başına gələn qəzanı danışırdı: "İngilislər, daşnaklar gəmilərdə qaçdılar, fağır-füqəranı qoydular Allah amanında. Dükanı bağlayıb, iki zənbilə yemək şeyləri doldurub, getdim çıxdım yeddi mərtəbənin damına. Gördüm məndən savay baÄ¢qa adamlar da var. Üç gündörd gecə gözümüzu yummadıq. Dördüncü gün dözə bilmədim, fikrim qalmışdı dəlləkxananın yanında, Allaha pənah deyib, düşdüm küçəyə, adam az idi, öz adamlarımız idi, türklər görünmürdü. Divar dibi qorxa-qorxa, birtəhər özümü çatdırdım dükana. Qapıya əl vurmamışdılar. Açdım qapını, aralayıb girdim içəri, elektrik çırağını yandırdım, başladım şeyləri yerbəyer etməyə. Birdən ayaq səsləri eşitdim, mənə elə gəldi ki, aralı qapının qabağında kimsə dayandı, dönüb baxmaq istəyirdim ki, qapıda dayanan dedi: "Ber ber!" Cəld çevrildim. Bir türk çavuşu ilə iki əsgər dükana girdilər. Məni soyuq tər basdı, dilim söz tutmadı, yerimdən tərpənməyə taqətim qalmadı. Çavuş dedi: "Bərbər hərif, haydı, hacatlarını topla, gedəlim! Paşanı təraş yapmağa!" İri əlini üzünə ülgüc sayağı çəkəndə əhvalatı başa düşdüm. Balaca çamadana lazımı şeyləri qoyub, əlimə alıb dükandan çıxdım. Qapını qıfıllamaq istəyəndə çavuş qoymadı: "Hacət yox, kimsə toxunmaz, haydı gedəlim". Düzəldim yola. Gətirib məni saldılar bağnan üzbəüz olan dördmərtəbəli evə. Dəhlizdən iri bəzəkli otaqa keçdim. Baş qapıdan ucaboy, qəzəbli, zəhmli

türk paşası girdi keçib bədənnüma güzgünün qabağında, kresloda oturdu. Cəld xalatı geyib, işə girişdim, paşanın üzünü sabunladım, ülgücü yoxladım, ürəyimdə isə bütün cəddi əqrabamı söyürəm ki, niyə damdan düşüb, dükana gəldim. Paşanın üzünü qırxanda əlim əsirdi, qorxurdum birdən ülgüc üzünü cızıb qanadar... Boyum balaca, paşa da hündür, zorba, ayaq barmaqlarım üstə boylanıb işləyirdim... Üz-gözümdən tər axırdı... Nə isə.. Birtəhər üzünü qırxdım. Peysərini, gicgahlarını düzəldib, daradım... Paşa ayağa qalxdı, üstümə bir kağız pul tulladı. Mən də şeyləri cəld qamarlayıb çamadana yığıb çıxdım dəhlizə, bayır qapını açmaq istədim, gördüm bağlıdır. O vaxtacan ingilis qıfılı görməmişdim. Qayıdıb məsələni paşaya deməyə cürətim çatmadı, qorxdum. Siçan tələyə düşən kimi qalmışdım. Birdən paşa dəhlizə çıxdı, məni gördükdə təəccüblə soruşdu: "burda, pəzəvəng hərif, boş- boşuna nə yapıyorsun?"

Qapıya işarə edib dedim ki, ağa, qapını aça bilmirəm. "Ah!- paşa səsini istehza ilə ucaltdı, - abdal gavur, tüfəng atıb, günahsız İslam yavrularını qıra bilirsən?! Dostlarınız ingilislərin qıfılını açamazsan, - yaxınlaşıb qapını açıb dedi, - haydı, pırlan dışarıya!"-dedi.

**Şəfi bəy Rüstəmbəylinin göz yaşlarına ağı – Tarixlə söhbət**

Şəfi bəy Rüstəmbəyli haqqında tarixlə dialoqa girirəm… Kimini qəhrəman, kimini isə anti-qəhrəman kimi yaşadan tarixlə… Öncə sözə o başlayır:

**-Şəfi bəy də maraqlı şəxsiyyət olub. Məncə, xaraktercə də başqalarından fərqlənən bir ziyalı idi. Mustafa bəy kimi bir**

**şəxsin ailəsində böyümüşdü, həm də Kiyev mühiti onu bir şəxsiyyət kimi formalaşdırmışdı. Şəfi bəy sanki ömrünün axırında qədər Kiyevdəki hüquq təhsili zamanı əldə etdiyi dünyagörüş və qətiyyətə sahib qaldı"**

-Şəfi bəy Rüstəmbəyli Azərbaycan milli dövlətçilik tarixində önəmli yerlərdən birini tutur. O, Ukraynada hüquq təhsili alıb. Orada Azərbaycanla bağlı həmyerlilər təşkilatının fəaliyyətində iştirak edib.

Amma bundan sonrakı dövrlərdə Şəfi bəyin fəaliyyəti haqqında ciddi bilgilərə rast gəlinmir. Şəfi bəy Rüstəmbəylinin aktiv fəaliyyəti Türk Ədəmi-Mərkəziyyət Partiyası qurulandan sonra başlayıb. Partiyanı təsis edənlərdən biri də o idi. Həmçinin, Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasında iştirak edib. 1918-ci ilin 28 mayında Azərbaycanın istiqlaliyyəti elan olunarkən "İstiqlaliyyət bəyənnaməsi"ndə imzalardan biri ona məxsusdu. Azərbaycan Cümhuriyyəti yaradılarkən Şəfi bəy Xosrov bəy Sultanov, Nəsib bəy Yusifbəyli ilə birlikdə Azərbaycana göndərilir. Onların əsas işi Azərbaycan Cümhuriyyətini Bakıda elan etmək, burada müəyyən əmin-amanlıq yaratmaq, müəyyən işəri qaydasına salmaq idi.

**-Şəfi bəyin tələbəlik illərində çox vacib bir hadisə baş verir: yazıçı Yusif Vəzir Çəmənzəminli gizli şəkildə Müsəlman Demokratik Müsavat Partiyasının Kiyev şöbəsinin yaradır. Deyərdik ki, Şəfi bəyin bir neçə ildən sonra qurulacaq Cümhuriyyətə bağlılığı da elə buradan formalaşıb. Yəni, həqiqətən də o, Kiyev mühitinin Azərbaycana hədiyyəsi oldu.**

**1917-ci ildə Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının Mərkəzi Komitəsinin 8 üzvündən biri də Şəfi bəy olur. O, 1917-ci il noyabrın 15-də təsis edilən Zaqafqaziya Komissarlığının və Seyminin Müsəlman Fraksiyasının fəallarından idi. Həmin dövrdə Şəfi bəy Azərbaycan Milli Şurasının Tiflis və Gəncə bölmələrində çalışır, dövlət qurumlarının yaradılmasında böyük əmək sərf edir. Bütün bu təcrübə Şəfi bəyə həm parlament deputatı, həm də qəzet redaktoru kimi necə təsir göstərdi?**

-Ş.Rüstəmbəyli 1918-ci il dekabrın 7-də təsis edilən Azərbaycan parlamentinin ilk seçilən üzvlərindən olub. Özü də parlament quruculuğunda, iclaslarda, vacib qərarların qəbulunda aktiv iştirak edib. Parlamentin o dönəmdə əsas müzakirə mövzularından biri "Mətbuat haqqında qanun" olub. O qanunun əsas müəlliflərindən biri də Rüstəmbəyli idi.

**-Şəfi bəyin xidmətlərindən biri də rəsmi dövlət qəzeti "Azərbaycan"la bağlı olub. Səhv etmirəmsə, qəzetin rus bölməsinin baş redaktoru idi. Qəzetin ilk dörd sayı Gəncədə nəşr edilib, Bakıda beşinci saydan etibarən çıxmağa başlayıb..**

-Bəli, Şəfi bəyin əsas xidmətlərindən biri də elə bu qəzetlə bağlıdır. Rusdilli bölməsinə o nəzarət edirdi. Deyilənə görə, o zaman qəzetin rus bölməsindəki əksər yazıları elə Şəfi bəyin özü yazırmış. Daha çox ictimai-siyasi yöndə yazılar olub. Demək olar ki, hamısı da analitik qabiliyyət tələb edən. Burada da Şəfi bəyin Kiyevdəki hüquq təhsili öz sözünü deyib....

**-Şəfi bəy həm də usta publisist idi. O, ictimai rəyə necə təsir göstərməyin lazım olduğunu əla bilirdi. Bu da jurnalistikada çox vacib prinsipdir. Kütləyə nəyisə təlqin etmək, onları maarifləndirmək onun məqalələrində əsas xətt idi. Bir də ən çox daşnakların özbaşınalığından, erməni quldur dəstələrinin Azərbaycana müxtəlif yönlərdən edə biləcəyi hücumlar onu çox narahat edirdi. Yazılarında da bunu göstərirdi. Bəlkə də elə buna görə Şəfi bəy, sona qədər qəzetlə kifayətlənmədi. Daxili İşlər Nazirliyində dəftərxana müdiri, daha sonra isə nazir müavini kimi də işlədi:**

-Şəfi bəy Nəsib bəyin rəhbərlik etdiyi sonuncu hökumət kabinetində daxili işlər nazirinin-Mustafa bəy Vəkilovun-müavini olub.Bu vəzifədə çalışdığı müddətdə baş verən bir hadisəyə görə, Şəfi bəy xeyli vaxt müzakirə mövzusu oldu; Onu Əli Bayramovun qətlində ittiham edirdilər.

Nazir Vəkilov başqa yerdə olduğundan onun vəzifəsini müvəqqəti olaraq, Rüstəmbəyli icra edirdi. Bolşeviklər buna görə də, sonradan qətlin bütün məsuliyyətini Şəfi bəyin üstünə atdılar. Hətta onunla bağlı qiyabi olaraq ölüm hökmü çıxarılmışdı.

**-Doğrudur, onun özünü öldürə bilmədilər. Amma bolşeviklər sonradan Şəfi bəyə çox böyük mənəvi zərbələr vurdular. Atasının, dostlarının ölümünü buna misal çəkə bilərik...**

-Şəfi bəyin atası Mustafa bəy bütün quberniyada sayılıb-seçilən şəxslərdən olub. O, Azərbaycan ordusuna 20 min çəkmə hədiyyə etmişdi. Yaxşı bilirsiniz ki, o zamankı Azərbaycan ordusu üçün bu nə demək idi... Amma təəssüf ki, bolşeviklərin ilk aradan götürdükləri şəxslərdən biri də elə Mustafa bəy oldu.

**-Şəfi bəylə bağlı ən çox xatırlanan hadisə isə Cümhuriyyətin son fövqəladə iclasında baş verdi. Bildiyimiz kimi, o zaman bolşevik ordusu artıq şəhərdə idi və parlamentin nəsə mübarizə aparmaq şansı belə yox idi. Hakimiyyət məcburi şəkildə bolşeviklərə təhvil verilməli idi. İclasda bu müzakirə edilən zaman ən emosional reaksiyanı Şəfi bəy verir. O, gənc dövlətin süqutundan sarsılıb çarəni ağlamaqda görür. Rəsulzadəyə üzünü tuturaq "biz sizə inanmışdıq, biz ideallarımız uğrunda mübarizə aparmışıq. Qoruyaq gənc dövlətimizi",- deyərək, etiraz edir. Maraqlıdır, elə bir məqamda Rəsulzadə nə edə bilərdi ki? Çingiz İldırım dənizdən top mərmilərini elə onların oturduğu parlamentə tuşlamışdı...**

-Həmin məqamda Rəsulzadə ona cavab vermədi. Şəfi bəy də göz yaşları içində parlamenti tərk etdi.

Orada əslində Rəsulzadə ilə Şəfi bəy Rüstəmbəyli eyni mövqedən çıxış edirdilər; antibolşevik mövqeyindən. Parlamentin son iclasında Şəfi bəy o səbəbə ağlayırdı ki, yeni yaranan dövlətin, Azərbaycan Cümhuiriyyətinin istila olunmasına əsəbləri tab gətirə bilmirdi. Amma Cümhuriyyətin təhvil verilməsinin qəti əleyhinə idi. Parlamentin son iclasında onlar eyni mövqedə olublar.

**-AXC-nin süqutundan sonrakı dövrlərdə Şəfi bəyin göstərdiyi fəaliyyət haqqında danışaq:**

-Bu dövrlərdə o, müxtəlif mövqelərdə mübarizə aparıb. 1920-ci ildə Azərbaycan Cümhuriyyəti işğal ediləndən sonra Tiflisə gedir. Orada Cümhuriyytin bərpa edilməsi üçün bolşeviklərə qarşı müqavimətin yenidən başlanması ilə bağlı

müzakirələrə qoşulur. Sovetlərin Gürcüstanı işğal etməsindən sonra Türkiyədə məskunlaşır. Trabzonda, daha sonra isə İstanbulda yaşayır. Orada Azərbaycan siyasi mühacirətinin əsas təmsilçilərindən olur. Rəsulzadənin də Türkiyəyə gəlməsindən sonra mühacirətdəki Müsavat Partiyasının fəaliyyətində canlanma baş verir.

**-Bəs, Rəsulzadə ilə ixtilaflar nə zamandan və necə başlayır?**

-Sonradan mühacirlər arasında qarşıdurma olarkən Şəfi bəy Rəsulzadəyə qarşı müxaliflər qanadının üzvü olub. Şəfi bəy onun haqqında “Rəsulzadənin süqutu”, “Yıxılan bütlər” kitabını çap edir. Rəsulzadə isə ona qarşı “Şəfibəyçilik” kitabını yazır.

Onların aralarının dəyməsinə səbəb araşdırmaçıların fikirlərinə görə maliyyə məsələsi olub.
Amma bəzi qarşıdurmalardan sonra Ş.Rüstəmbəylinin siyasi fəaliyyəti o dərəcədə də hiss olunmur. Bu bəlkə də onun konfliklərdən iyrənib bir kənara çəkilməsindən irəli gəlir.

**-Bəli, tamam kənara çəkildi. Demək olar ki, daha siyasi eranada görünmədi. Təəssüf k, özündən sonra da bir varisi olmadı...**

Şəfi bəyin hazırda ailə varisləri yoxdu. Sadəcə sonradan onun yanına gedən qardaşı oğlu Bəhram Kürün qızı Pınar Kür xanım yaşayır.

## Cümhuriyyət hökuməti mart soyqırımını Milli Matəm Günü kimi qeyd etdi

Yazıda Azərbaycan Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin və ümumən ADR hökumətinin 31 Mart soyqırımı ilə bağlı qeydləri təqdim ediləcək.

Bu qeydlər Məhəmməd Əmin Rəsulzadənin seçilmiş məqalələrində və "Xalq cəbhəsi" qəzetinin 2009-cu il sayında işıq üzü görüb.

Məhəmməd Əmin Rəsulzadə həmin dövrdə mart soyqırımının canlı şahidi olan M.Kulqedən belə sitat gətirir:

"Kulqenin, digər əcnəbilərin o günlərin xatirəsi olmaq üzrə almış olduqları və bu gün əllərdə mövcud olan fotolar çox faciəli mənzərələri əks etdirir. Bir yığım qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məşum yavruları gəmirir... Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir..."

Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə Münhen şəhərində nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci sayı demək olar, bütünlüklə 1918-ci ilin martındakı Bakı qırğınlarının 15 illiyinə həsr edilib. Azərbaycan Cümhuriyyəti Hökuməti həm 1919-cu, həm də 1920-ci il martın 31-ni Milli Matəm günü kimi qeyd edib.

## Bir daha Nəsib bəy haqqında

Bu dəfə də Nəsib bəy Yusifbəyli barəsində danışacağıq. Daha konkret, onun həyatı ilə bağlı bir neçə faktı təqdim edəcəyik.

Yazıda araşdırmaçı alimlər Vilayət Quliyev və Akif Aşırlının araşdırmalarından istifadə olunub:

Nəsib bəyin şəxsi həyatı o qədər də fərəhli keçməyib. O, İsmayıl bəy Qaspiralının qızı Şəfiqə xanım Qaspiralı ilə evlənib. İki uşaqları da olub; Oğlunun adı Niyazi, qızının da adı Zəhra. Nəsib bəy 1909-cu ildə, Şəfiqə xanımdan mədəni şəkildə ayrılıb. Çox mədəni ailə olmalarına baxmayaraq, kiçik ailə ixtilafı nəticəsində bir-birindən ayrıldılar. İndi də o ailə ixtilafının nə olduğu dəqiq deyilmir. Şəfiqə xanım Qaspiralının özünün yazdığı kitabda bu barədə danışılır. Bunlar mədəni şəkildə ayrılsalar da əlaqələri hər zaman qalıb. Niyazi də, Zəhra da Şəfiqə xanımın himayəsi altında böyüyür. Nəsib bəy də bunlardan öz atalıq borcunu əsirgəmir. Vaxtı-vaxtında gedir, görüşür. Şəfiqə xanım da Nəsib bəydən ayrılmasına baxmayaraq, özünün məktublarında, xatirələrində onu çox yaxşı təsvir edir. Onların məhəbbəti sonsuz olur. Şəfiqə xanım axıradək heç kəslə evlənmir. Nəsib bəy evlənir, lakin həmin xanımdan övladları olmur. Yazıçı Əzizə Cəfərzadə həmin məktubları araşdırıb və çap edib.

1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaranır. Bundan sonra Şəfiqə xanım və övladları Bakıya gəlirlər. Amma sonradan 1920-ci il 28 aprel çevrilişində Şəfiqə xanım da övladlarını götürüb İstanbula gedir. Nəsib bəy isə burda qalır. Həmin vaxt da bolşeviklər Cümhuriyyət liderlərini hədəf götürmüşdülər. 28 apreldən sonra Nəsib bəy Gürcüstana keçmək istəyir. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən çoxu yenidən təşkilatlanmaq və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gürcüstanda yerləşmişdi. Çünki Gürcüstan hələ sovetləşməmişdi. Bolşeviklərin nəzarətində deyildi. Nəsib bəy sürücüsü

ilə yola çıxır. Yevlaxdan Qarxunlu Əşrəf bəy adlı çox mötəbər bir bəy, zadəgan vasitəsilə Gürcüstana keçmək istəyir. Əşrəf bəy çox adlı-sanlı bir adam idi və son dönəmdə parlamentin üzvi də olmuşdu. Lakin Nəsib bəy sürücüsü ilə yolda gedərkən onları izləyən bolşevik xəfiyyələri tərəfindən qarşısı kəsilir. Nəsib bəy Cümhuriyyətin aparıcı şəxsi olduğundan, böyük nüfuza sahibləndiyindən onun aradan götürməsinin planını qururlar. Yolda bunların qarşısını kəsib maşını güllələbaran edirlər. Bu hadisə Kürdəmirdə baş verir.

Nəsib bəyin maşınının qarşısını kəsib gülləyə tuturlar. Nəsib bəy ölür, amma sürücü ağır yaralansa da aradan çıxır. Bolşeviklər elə bilirlər ki, Nəsib bəyin çamadanında qızıl, bahalı əşyalar, pul Cümhuriyyətin varidatı ola bilər. Açanda görürlər ki, orda çamadanda bir dəst köynək, diş fırçası yəni, gündəlik lazım olan bir iki əşya var.

Şəfiqə xanım İstanbuldan onun ölümünü bilmir. Ümumiyyətlə, onun ölümündən çox sonradan xəbər tuturlar. Çünki qətli məxfi şəkildə həyata keçirilib. Onun meyitinin də tapılmamağının səbəbi budur. Şəfiqə xanım Qaspiralı axtarışa çıxır. Nəsib bəyi axtarır, məktublar yazır, ancaq onun məktublarına cavab gəlmir. Sonradan təsadüfən İstanbulda Nəsib bəyin sağ qalan sürücüsünü görür. O, Şəfiqə xanımla görüşdə bütün baş verənləri nəql edir.

## Nəsib bəy onun xidməti maşınından istifadə etdiyi üçün bacısını danladı

1919-cu ildə Nəsib bəy Yusifbəyli Azərbaycan Cümhuriyyətinin baş naziri olduqdan sonra birinci dəfə olaraq Gəncəyə gəlir.

Burada ona çox böyük təntənəli qarşılanma mərasimi verilir. Eyni zamanda ata evində onun şərəfinə nahar düzəldilir. Nələrsə süfrədə çatmırmış. Bacısı Şükufə xanım istəyir ki, piyada bazara getib, çatışmayan ərzaqları alsın. Bu zaman Nəsib bəyin sürücüsü onu avtomobilə mindirərək lazımı yerə aparır və gətirir. Bundan narazı qalan Nəsib bəy bacısına deyir: "Axı ay bacım, bu dövlətin avtomobilidir, axı bu dükan-bazar yolu üçün deyil".

Çox söz deyə bilərik. Amma məncə, artıq söz yazmağa zərrə qədər gərək yox"

İkinci əhvalat ( əslində, çox böyük məram və insaniyyət ensiklopediyası) isə Həsən bəy Ağayev barəsindədir.

Azərbaycan Cümhuriyyətinin Parlamentinin sədri Həsən bəy Ağayevin nəvəsi Sevda xanımın dediklərindən: "Nənəm danışırdı ki, Həsən bəy həkim işləyəndə yaxşı dolanırdıq, ən çox korluğu onun parlaman sədri işlədiyi dövrdə çəkmişik. Dövlət yeni yaranırmış, kasıb imiş, parlamentin katibliyini maaşla təmin etməyə pul çatmırmış. Babam öz maaşını katibliyin işçiləri arasında bölüşdürürmüş. Bəzən, çatmayanda xahiş edər, 2-3 aylıq məvacibini alıb tabeçiliyində olan işçilərə paylayarmış. Nənəm deyirdi ki, soruşdum, bəs biz necə dolanaq? Babamın cavabı isə belə olub:

-Dözümlü ol, ay Xədicə ,sənin müəllimə maaşın bizə kifayətdir.Hə olar, bir az qənaətlə yaşayarıq", təsəllisi ilə başımı qatardı

**Bir daha Zakir Sadatlıdan…**

Mərhum araşdırmaçı Zakir Sadatlı Azərbaycan mühacirlərindən biri Əziz Alpaudun "Həyatımın hekayələri" adlı çox

dəyərli bir əsərini vaxtilə əldə edərək, onu yenidən işlədi. O kitabda olan bir çox dəyərli materiallardan özünün sonrakı yazılarında da istifadə etdi.

Tarixi araşdırmanın ən mücərrəd qatı anologiyadır. Dövlətləri, cəmiyyətləri, millətləri və fərdləri bir-biri ilə müqayisə etmək və kortəbii nəzəriyyələri, nəticələri paralellər üzərinə daşımaq. Lirik təfəkkürün əksinə olaraq, tarixi faktlarla işləyən adam "tarix təkrar olunur" qənaətini haqlı olaraq mistifikasiya kimi qəbul edir. Amma konkret zaman müstəvisində anologiya bəzən qaçılmaz olur. Əziz Alpoud da öz subyektivliyi ilə onu əhatə edən şəxsiyyətlər arasında paralellər aparır. Hətta, səmimi rəğbət bəslədiyi insanlar da belə yanaşmadan kənarda qalmır. Məsələ heç də qiymətləndirmə və ya dəyərləndirmədə deyil. Dramatik məqamların elə dramatik müqayisələri də olur. Belə soyuq və sərt müqayisələrdən biri də Nəsib bəy Yusifbəylinin qismətinə düşür.

Zamanından qırx iki il (1961-ci il), məkanından da elə bir o qədər uzaqlarda Ankarada Əziz Alpoud həyatının hekayətlərini öz tənhalığı ilə bölüşür və gəldiyi nəticələri isə Gələcəyin rəfinə qoyur.

Belə ki, "Həyatımın hekayətləri", 157-ci səhifə... 1919-cu il... (yenə də ay və gün bilinmir) Siyasi liderlərdən biri kimi Nəsib bəy Yusifbəyli ön plandadır.

## XATİRƏ

"...Dünya səviyyəli bir dövlət adamı olan sabiq baş nazir Fətəli Xan Xoylunun yerinə keçmiş Ədəmi Mərkəziyyət Türk Federalisti, indi isə "Müsavat"çı ortağı (şəriki) Baş Nazir Nəsib bəy Yusifbəyli, çox təmiz bir vətənpərvər və türkçü olmaqla

bərabər, təəssüf ki, əvvəlki baş nazir səviyyəli bir idarəçi deyildi. Bu səbəbdən də, gündən-günə məmləkətdə narazılıqlar artırdı.

Arada Nəsib bəy partiyamızı da koalisiyaya qoşulmağa cəlb etmək məqsədilə, bizə iki nazir vəzifəsini təklif etdi.Qohumum və dostum Əli Qulubəyliyə Ticarət Naziri , mənə də Maarif Naziri vəzifəsini. Hər ikimiz də bu təklifi rədd etdik.Çünki seçkilər keçirilməyənədək, koalisiyada iştirak etməmək qərarında idik...”

***

Əziz Alpoudun “Həyatımın hekayətləri” əsərində Nəsib bəyin zamanın fonunda çəkilmiş ictimai-siyasi portreti ilə yanaşı, epizodik olsa da, sadə insani cizgiləri xatırlanır. Azərbaycanın Milli Əmniyyət naziri Nağı bəy Şeyxzamanlı ailə həyatı qurarkən Nəsib bəy Yusifbəyli öz məsləkdaşlıq və ağsaqqallıq missiyasını yerinə yetirir. Yeri gəlmişkən onu da qeyd edək ki, Əziz bəy sonralar Nağı bəyin baldızı Ruqiyyə xanımla evlənib.

Uzun müddət ötəndən sonra Əziz Alpoud Müstəqillik illərinin şirinliyini, insanlarda həyat eşqinin rənglərini, çalarlarını göz yaşına qarışdırıb damla-damla səhifələrə damızdırır. Beləcə, 1919-cu il.... Böyük səadətlə dolu kiçik bir həyat mənzərəsi “Həyatımın hekayətləri”ndə...

## XATİRƏ

“...Səlimənin elçiliyinə şəxsən Nəsib bəy Yusifbəyli özü gəlmişdi.Toy Əli bəygilin böyük salonunda keçirildi. Başda Nəsib bəy, bir çox nazirlər, millət vəkilləri, ordu generalları və Bakı şəhərinin sayılıb-seçilənlərindən, tanınmış şəxslər toyda iştirak edirdilər. Toy səhərə qədər davam etdi. Mən coşdum və

böyük masanın üstünə çıxaraq,"Şeyx Şamil" oynadım. Başımda kiçik, saçaqlı qara papaq, əynimdə yeni tikdirdiyim milli qiyafə və əlimdə qınından çıxardığım iti xəncərim masanın üzərində quş kimi uçurdum. Bu vaxt xəncərin ucunu dizimdən aşağı soxduğumu hiss etdim. İgidliyi əlimdən vermədim, axıra qədər oynadım. Alqışlar, öpüşlər arasında masadan endikdən sonra, gizlicə, Ruqiyyədən bir az yod, bir az da pambıq istədim. Narahat olmağa dəyməzdi, bir az qanamışdı.

Nağı bəy də ağ papaq və ağ rəngli milli qiyafədəydi. O da bizim milli oyunlarımızdan birini Səlimə ilə üz-üzə oynadı..."

***

Əziz Alpoudun xatirələrində 1920-ci il aprel ayının 28-i günü şahidi olduğu bir hadisənin mənzərəsi var. O görüntülərdə bolşevizmin Azərbaycanda törətdiyi saysız-hesabsız bəşəri cinayətlərdən biri təsvir olunur. Bəlkə də, Nəsib bəy Yusifbəylinin müəmmalı ölümünün və ya itkinliyinin həqiqi nöqtəsi elə oradan başlayır. Bilmirik. Amma "həqiqətin anası olan şübhə" dodağının altında nəsə pıçıldayır. Düzdür, bu şəhadətdən Nəsib bəyin və ya başqa bir kimsənin adı keçmir. Amma Vətəni tərk etmək istəyən nazir ailələrinin məhz həmin gün xüsusi qatarda ələ keçməsi və hamısının da bolşeviklərin zavalına gəlməsi açıq-aydın görünür. Əcəba, görəsən, Cümhuriyyətimizin ikinci baş naziri də o vaqondakı hökumət üzvlərinin, onların ailələrinin arasında deyildi ki?.. Axı, Yusifbəylinin qızı da sonralar qeyd edib ki, atası, məhz həmin gün "" yəni, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə onları tərk edib və qatarla yola çıxacağını bildirib. Nə isə...

"Həyatımın hekayətləri", 172-173-cü səhifə... 1920-ci il aprelin 28-nə açılan səhər... Əziz Alpoudun dəmir yolu vağzalında gördükləri...

## XATİRƏ

“...Ertəsi səhər, idarəmə getməzdən əvvəl stansiyaya getdim. Yan pilləkənlərdən perrona yaxınlaşdım və qəribə bir mənzərənin şahidi oldum. İkinci xətdə sərnişin vaqonlarından ibarət bir qatar dayanmışdı. Lokomativi yox idi... Sərnişinlər də yoxdu. Lakin rəflərdə çantalar var idi. Əlalxüsus, diqqətimi çəkən o dövrlərdə dəbdə olan, geniş dairəli qadın şapkalarının sarı rəngdə olan böyük dairəvi qutuları olmuşdu. Bu mənzərə məni çaşdırdı. Ağlımdan bir sual keçdi. Kimdir bu tərk edilmiş əşyaların sahibi? Nə üçün qoyub gedib? Bəs, özləri haradadır? Suallara cavab tapa bilmədən, tez perronu tərk etdim, arxa pilləkənlərdən sürətlə enib küçəyə çıxdım...

İdarəyə gəldikdən sonra həmin bu müəmma çözüldü: İdarəmizdə hərkəs,nazir ailələrinin sübhdən xüsusi qatarla qaçarkən tutulduqlarını danışırdı...”

Böyük şəxsiyyətlərin tərcümeyi-halı çox vaxt ölümlə yox, naməlumluqla tamamlanır. Amma “tamamlanma” dediyimiz bu anlayış da tam deyil. Çox qəribədir, elə bil zamanın gərdişi özü həmişə bilə-bilə həqiqətlə müəmmanın arasında izahsız boşluqlar saxlayır. Bəzən absurdu məntiqə gətirən, bəzən də məntiqin özünü absurda çevirən boşluqlar...

23 ay ömür sürən Cümhuriyyətimiz sanki Azadlıq adlı əsərimizin ön sözüdür. Bu, bütün müqəddimələr kimi çevik və yığcam bir şəkildə böyük-böyük təfərrüatları özündə kodlaşdırıb. Bizim bilgi qəlibimizlə kəsilmiş işarələr isə fərqlidir. Bəlkə də, elə ona görə, tarixi materiallar bizə bu qədər ciddi müqavimət göstərir. Onu öyrəndikcə, öyrənilməz qalır. Nəsib bəy Yusifbəylinin ölümünün müəmması onun maraqlı şəxsi həyatından

və parlaq ictimai-siyasi fəaliyyətindən də qat-qat sirli görsənir. Elə bil Zaman özü bu itkinliyi müəmmaya çevirib ki, böyük şəxsiyyətin obrazını bitib-tükənməyən versiyaların öhdəsinə buraxsın. Həm də bu müstəvidə onun üzərinə bir ölməzlik kölgəsi salsın.

Tarix və onu yaradan insanlar miflə başlayır və əfsanə ilə tamamlanır. Çünki Gələcək əfsanələri sevir. Nəsib bəy kimi insanlar hiddət və qəzəb əsrinin yeri və göyü titrədən tufanlarını öz üzərinə götürmüş dipdiri hədəflərdir. Millət gözünü yumur ki, onların necə yıxıldığını görməsin. Bəlkə də, xalqımız Cümhuriyyət üçün savaşan mücahidlərdən birini ”“ Nəsib bəy Yusifbəylini ölümsüzlük simvoluna çevirməliydi ki, bu məmləkətdə Azadlıq ideyası ölməsin. Çünki Azadlığın məzarı olmur, Vətəni olur.

## Cümhuriyyət ordusunun ilk marşının sözləri: *“Qardaşımı qurtarmaya, Türküstana gediyorum”*

Cümhuriyyətin ən çox diqqət ayırdığı sahə təbii ki, ordu quruculuğu olub. Hərb tariximizin ilk marşı da məhz Cümhuriyyət dövrünə təsadüf edir. Marşın sözlərinin müəllifi də sizcə kim ola bilərdi? Əlbəttə ki, Əhməd Cavad!

O, 1918-ci il 12 haziran (iyun ayının 12) tarixində Gəncədə qələmə alındığını qeyd edən Əhməd Cavad yazır: “Bu marş Qafqaz İslam Ordusu komandanı Nuru Paşa həzrətlərinin arzusuna müvafiq Azərbaycan Türk Ordusu üçün söylədim. Fəqət, hələlik bəstələnmədiyinə görə, nasıl çaxmağı bəlli deyil.

*Millətimin tarixinə,*
*Şan və şərəf əkməliyəm.*
*Şu qarşıda yad qanıyla*
*Bir al bayraq tikməliyəm.*

*Düşmənlərə göstərdim ki,*
*Mənim kimi əsgəri yox.*
*Mənim fateh Orxan-zatım,*
*Dünyanın heç yerində yox.*

*İsmarladım nişanlıma*
*Mən Turana gediyorum.*
*Qardaşımı qurtarmaya,*
*Türküstana gediyorum.*

*Şu bayrağa xain baxan,*
*Xain gözə bir tikanam.*
*Ölürəmsə, kölgəsində*
*Halal olsun ona qanım.*

*Şəhid olsam, dost elində,*
*Mənə məzar qazılmasın.*
*Qazanarsam əsir adı*
*Xaqanıma yazılmasın.*

***QEYD***: Marşın mətnini ilk dəfə "Şərq" qəzetinin baş redaktoru, tanınmış araşdırmaçı Akif Aşırlı aşkarlayıb. O, bu mükəmməl əsəri 1918-ci ildə işıq üzü görmüş "Gənclər yurdu" qəzetinin səhifələrində arasında aşkarlayıb. Qeyd edək ki, Akif müəllimin bu dəyərli işi mətbuatda və ziyalı mühitində rezonans yaratmışdı.

## Cümhuriyyətin "Xalq artisti" olan yeganə xanəndə kim idi?

1934-cü ilə aid olan bir sənəddə Azərbaycanın Xalq Maarif komissarı Müseyib Abbasov böyük xanəndə Cabbar Qaryağdıoğluna məhz bu cür xitab edib.

Musiqişünas Firudin Şuşinksiyə istinadən, həmin məktubu təqdim edəcəyik. Lakin bir məsələdə də diqqət ayıraq: 1934-cü ildə Cümhuriyyət adını çəkmək adi vaxtlarda belə qəti qadağan idi. O ki qaldı, rəsmi sənədlərdə. Lakin o zamankı komissar Müseyib Şahbazov bürokrat məmur yox, əsl ziyalı və nüfuzlu pedaqoq idi. O, 1935-36-cı illərdə bu vəzifədə çalışmışdı. Sonradan qısa fasilələrlə bir neçə məsul vəzifədə çalışsa da, 1937-ci ildə repressiyanın qurbanı olmuşdu. Görünür, təmiz pedaqoq simasını saxlamaq Müseyib Şahbazova bu aqibəti yaşadıb.

Cabbar Qaryağdıoğluna ünvanlanan təbrik məktubunun mətnini təqdim edirik:

"Cümhuriyyətin xalq artisti Cabbar Qaryağdı yoldaşa!

Musiqi incəsənəti cəbhəsində fəaliyyətinizin 60 illik yubileyi münasibəti ilə sizi təbrik edirəm. Vokal incəsənətinin ən yaxlı və ən köhnə nümayəndələrindən biri olaraq, siz öz həyatınızın 60 ili ərzində xalq mədəniyyətinin inkişafına, həmçinin gənc kadrlar yetişdirilməsinə böyük qüvvə və enerji sərf etmişsiniz. Ordenli Cümhuriyyətin hökuməti tərəfindən sizə Xalq artisti adı verilməsi münasibəti ilə sizi təbrik edərək, uzun illər yaşamanızı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər qazanmanızı arzu edirəm".

## Müsavat sıralarından qovulan Cümhuriyyət fədaisi – *Rəsulzadənin iradları*

1920-ci ilin Aprelin 27-də Cümhuriyyətin son parlament iclası. M.Ə.Rəsulzadə son sözünü - hakimiyyəti bolşeviklərə vermək qərarını açıqlayır. Bu anda parlament iclası keçirilən zaldan bir nəfərin hönkürtüsü eşidilir. Ağlayan Şəfi bəy Rüstəmbəyli idi. O, gənc dövlətin süqutundan sarsılıb çarəni ağlamaqda görür. Rəsulzadəyə üzünü tuturaq “ Biz Sizə inanmışdıq, biz ideallarımız uğrunda mübarizə aparmışıq. Qoruyaq gənc dövlətimizi”.

Rəsulzadə ona cavab vermir. Göz yaşları içində parlamenti tərk edən Şəfi bəy 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin deputatı seçilib.

O, “Azərbaycan” qəzetinin parlament üzvü olan ilk baş redaktoru idi. Azərbaycan mətbuat tarixində məhz 1919-cu ildə mətbuat qanununun hazırlanması onun sayəsində hazırlanmış idi. O, “Azərbaycan”ın redaktoru olmaqla yanaşı, AXC-nin Daxili İşlər Nazirliyinin dəftərxana müdiri, 1920-ci il martın əvvəllərindən isə nazir müavini vəzifəsini də icra edir.

AXC yıxılandan sonra Türkiyədə yaşayan Şəfi bəy Rəsulzadə ilə yola getmir və onu gənc dövlətin yıxılmasında günahkar görür.

Təəssüf ki, bu iki Cümhuriyyət xadimi arasındakı konflikt sonra da davam edir. Hər ikisi mühacirətə getsələr də, mətbuat səhifələrində, məktublarda bu mübahisəni davam etdirirlər. iş o

yerə çatır ki, onlar bir-birinə tənqid dolu kitab da yazırlar. Şəfi bəy "Yıxılan bütlər", Rəsulzadə isə "Şəfibəyçilik" kitabını yazır.

Adıçəkilən sonuncu kitabda Rəsulzadə "Şəfi bəyin fəsadları" adlı məqaləsində onun firqədən necə çıxarılmasını qeyd edir:

"Şəfi bəyin çoxdan bəri məşğul olduğu fəsadçılığın artıq hər cür səbr və dözümün fövqünə çıxan son dərəcəsi idi. Onun bu mərhələyə qədər yürütdüyü fəsad mənzillərini sizinlə bərabər izləyək. Bu xüsusda bizə yardımçı olmaq üçün Şəfi bəyin firqədən xaric edilməsini elan edən qətnaməni əsas tutaraq, oradakı dəlilləri birər-birər təhlil və isbat edək. Şəfi bəyin firqədən qovulma qərarında deyilir: "Bir çox illərdən bəri milli işləri pozan və firqənin təşkilatı əsalarını və nüfuz sahiblərini baltalayan təxribatçı hərəkət və intriqalarından dolayı müxtəlif zamanlarda, məsələn, 1927-ci ildə firqə təşkilatının yekdilliklə verilən ümumi qərarı ilə şiddətli töhmət və 1929- cu ildə isə İstanbul təşkilatından xaric edilməklə Divan üzvülüyündən çıxarılmaq kimi müxtəlif intizam cəzaları alaraq, bir müddətdən bəri əslində tədric halında olan Rüstəmbəyli Şəfi bəyin bugünlərdə firqə və milli mübarizə idealına sadiq bütün arxadaşların ümumi həyəcan və nifrətlərini cəlb edən çıxışı – yəni milli hərəkat rəisi və firqə lideri möhtərəm Rəsulzadə Məmməd Əmin bəyəfəndi haqqında bolşevik casuslarına və milli mücadilə düşmənlərinə məxsus tərzdə alçaq ittiham və böhtanlarla dolu sayğısız yazısı ilə, düşmənin qazancı üçün çalışdığını, pis niyyətli bir şəxs olduğuna artıq şək-şübhə qalmadığını nəzərə alaraq – Azərbaycan "Müsavat" Xalq Firqəsi rəhbərliyi firqə üzvlərinin mənən "Müsavat" ailəsi xaricində gördüyü və yuxarıda da qeyd olduğu kimi, bir müddətdən bəri məsul vəzifələrdən felən uzaqlaşdırılmış bu adamın, bu andan etibarən rəsmən də firqədən çıxarıldığını hamıya elan edir".

5 aprel 1934-cü il".

## Nəsib bəy haqqında daha bir neçə söz

Deməli, bolşeviklər Azərbaycanı işğal edəndə Cümhuriyyət rəhbərləri məcburi şəkildə mühacirətə getməli olurlar. Nəsib bəy də bir çoxları kimi Tiflisə yollanmaq istəyir. Təəssüf ki, yolda bir neçə nəfərin xainliyi səbəbindən amansızcasına qətlə yetirilir.

Cümhuriyyət hökumətinin xüsusi xidmət rəisi olan Nağı bəy Şeyxzamanlı özünün xatirələrində məhz həmin tarixlə bağlı çox maraqlı əhvalatı danışır:

"1920-ci il martın sonlarına doğru Nəsib bəyi evində ziyarət etmişdim. Bu görüş zamanı biz müxtəlif mövzularda söhbət etdik və sonra söhbətimiz Anadolu İstiqlal Savaşının üzərinə gəlib çıxdı. Bu zaman Nəsib bəy "gec də olsa, az da olsa Türkiyəyə bir az valyuta hazırlayıb yeznəm Pişnamazzadənin qardaşı oğlu Məmmədəli Əhmədzadə ilə göndərdim" dedi. Pulun miqdarını soruşmadım, o da açıqlamadı. 1961-ci ildə Əhmədzadə ilə Tehranda görüşdüm. Ondan yardım məsələsi haqqında soruşdum. İsrarıma baxmayaraq məlumat verməkdən imtina etdi. Mən də daha çox üz vurmadım. Daha sonra əldə etdiyim məlumata görə Əhmədzadə Nəsib bəyin göndərdiyi pulu İstanbula göndərmişdir. O zaman İstanbul ingilis və fransızların işğalı altında idi. O, Ankaraya gedib pulu lazımi yerə təhvil verə bilməmişdi. Artıq bu zaman, yəni 1920-ci il aprelin 27-də Azərbaycanı Moskvanın əmri ilə Qızıl Ordu işğal edir. O, 1920-ci ilin may ayında Azərbaycan dövlət xadimlərinin Gürcüstana keçdiklərini öyrənir. Əhmədzadə əlindəki pullardan min ingilis poundunu İtaliya bankı vasitəsilə İstanbuldan

Tbilisiyə Nəsib bəyin adına göndərir. Halbuki, Nəsib bəy Tbilisə gəlib çata bilmir, yəni yolda naməlum şəxslər tərəfindən öldürülür. İstanbuldan göndərilən bu min ingilis poundunu Nəsb bəyin dostları Gürcüstan səfirimiz Pərviz bəy Vəkillinin vasitəsilə alırlar. Əhmədzadə daha sonra Nəsib bəyin öldürülmüş olduğunu söyləyir. Onun 1920-ci ilin oktyabr ayında Ankara hökumətinə 19 min Türk kağız lirəsi və bir milyon fransız frankı vermiş olduğunu öyrəndim".

**Atasının Nəsib bəy Yusifbəyliyə məktubu: "Baş nazirsən, sənə pul yollayım, hasarını da mən salım?!"**

Nağı bəy Şeyxzamanlı Azərbaycan Cümhuriyyətinin Əksinqilab üzrə Mübarizə İdarəsininin rəisi olub. Ölkənin ilk "çekist"idir. Bu nəslin nümayəndələri bu gün də sayılıb-seçilən insanlardandırlar. Çox təəssüf ki, ömrünü qürbətdə başa vuran və Türkiyəyə dəfn olunan Nağı bəyin özü kimi, övladları, nəvə-nəticələri də vətən həsrətli bir ömür yaşamalı oldular və yaşamaqdadırlar.

Nağı bəyin xatirələri Cümhuriyyət tariximizi öyrənmək üçün zəngin material rolunu oynayır. Həmin xatirələrdən ən maraqlılarından biri də onun yerlisi, Nəsib bəy haqqında yazdıqlarıdır.

**Bir görüşün tarixçəsi**

"Azərbaycan Cümhuriyyətinin Əksinqilab üzrə Mübarizə İdarəsinin rəisliyinə hələ təyin olunmamışdım. Tez-tez Bakıya gələr və təbii ki, hər gedişimdə də Nəsib bəylə görüşərdim. Nəsib bəy o zamanlar Baş nazir vəzifəsinə yeni keçmişdi. Onu təbrik etmək üçün Gəncədən gəldiyim günün sabahı saat 10:00-

da Nazirlər Kabinetinin yerləşdiyi yerə gəldim. Dəftərxana müdiri vasitəsilə gəldiyimi və görüşmək istədiyimi bildirdim. Gözləməyi söylədi və 11:30-a qədər gözlədim. Sonra yenə dəftərxana müdirinə "qardaş, yəqin, unutdu. Zəhmət olmasa, bir də xatırladın" dedim. O, Nəsib bəyin kabinetinə girdi və çıxaraq mənə "unutmadım, gözləsin deyir" söylədi. Saat 14:00-a kimi gözlədim. Azərbaycanda məmurlar üçün iş vaxtı 8-dən 14:00-a qədərdi. Saat 14:00-da Nəsib bəy kabinetindən çıxdı. Ayağa qalxıb görüşdüm, saatlarla gözləməyim barədə heç nə demədim. Hər ikimiz ayaq üstə idik. Mən "Nəsib bəy, sabah səhər 8-də vəzifənizə gələnə qədər burada gözləyimmi?" dedim. Nəsib bəyin təbəssümlü çöhrəsinin təbəssümü bir az da artdı. "Yox canım, səni bərabər çıxmamız üçün bu qədər gözlətdim" söylədi. Binadan çıxaraq Baş nazirin avtomobili ilə onun evinə gəldik. Masanın arxasında oturaraq, iki nəfər üçün hazırlanmış nahar etdik. Nəsib bəy "əgər səni gələn kimi qəbul etsəydim, doyunca söhbət edə bilməyəcəkdim. İndi həm yemək yeyirik, həm də istədiyimiz qədər söhbət edirik" dedi. Vəziyyətini soruşduğum zaman Nəsib bəy belə cavab verdi: "Heç zaman səhhətimdən şikayət etməmişəm. Allaha şükür ki, sapsağlamam. Mənim sıxıntım hər zaman pul sarıdan olub".

### Atasının Baş nazirə məktubu

Nəsib bəylə onların evində olarkən atasının ona yolladığı məktubu mənə oxudu. Əvvəlcə bunları dedi: "Seym dövründə Tbilisidə maarif naziri idim. Aldığım maaş məni təmin etməzdi. Həmişə olduğu kimi, Gəncədən - atamdan pul istəyərdim. Azərbaycanın istiqlalını elan etdik. Cümhuriyyətimizin maarif naziri oldum. Aldığım maaş yenə də məni dolandırmadı. Parlamenti-

mizdə olsun, partiya daxilində olsun, ümumiyyətlə, xalqımızın hər sinfi məni sevir. Hər kəsdən hörmət görməkdəyəm. Elə gün olmur ki, cəmiyyətimizdə keçirilən gecələrə dəvət olunmayım. Hamısının da dəvətini qəbul edib, iştirak etmək lazımdır. Sən bilirsən, mən atamın icazəsi ilə bağlarımızdan birini müasir bağ yaratmaq qayəsi ilə ayırmışdım. Üç ildir ki, milli işlərdən baş açıb bağ ilə məşğul ola bilmirəm. Atama bir məktub yazaraq, bu il də bağ işləri ilə məşğul ola bilməyəcəyimi, yenə əvvəlki kimi qamış alıb basdırmalarını söylədim. Atamdan bu cavabı aldım. Məktubu sənə oxuyuram:

"Əziz oğlum, artıq səbrim tükənib, dözə bilmirəm. Hamısını yazacağam. Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim. Ali təhsil alıb Gəncəyə qayıdanda artıq hər şeyin rahat olacağını yəqin etdim. Sən Gəncəyə gəlib bələdiyyədə ərzaq işləri üzrə müdir oldun. Amma sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tbilisiyə gedib Seymin maarif naziri oldun. Aldığın pulla yenə özünü saxlaya bilmədin. Bir neçə dəfə pul istədin, göndərdim. Sonra Azərbaycanın istiqlalını elan etdiniz. Gəldin burada da maarif naziri oldun. Dövlətimizin mərkəzi olan Bakıda işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə də məndən pul istədin. Həmişə də göndərdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. Sənə o pullardan göndərdim. Bu gün isə Baş nazirsən. Dövlət başçısısınız, yəni, ölkənin padişahı olmusunuz. Yenə də bağının qamışını mən alım?!"".

**Son görüş**

Nağı bəy Şeyxzamanlı:

"Milli matəmimiz olan 27 aprel 1920-ci ildə ələ keçən Azərbaycan ziyalıları ruslar tərəfindən məhv edilirdilər. "ÇK"nın

azğın cəlladları Bakıda xüsusilə də müsavatçıları məhv etməyə çalışırdılar. Gizli olaraq Nəsib bəylə görüşə getmişdim. Bu, mənim onunla son görüşüm oldu. O, bir neçə yoldaşla birlikdə bir evdə saxlanılırdı. Çox kədərli idim. Çünki düşmən milli varlığımıza zəhərli xəncər saplamışdı. Danışmaq istədikcə, gözlərim dolurdu. Bir ara hamımız susduq. Nəsib bəyin çöhrəsindəki kədərli cizgilər hiss olunurdu. Bu sükutu Nəsib bəyin kədərli səsi pozdu: "Azərbaycan istiqlalını qurduq. Amma onu saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güclü qüvvələri ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey var ki, o da bizə təsəlli etmədədir. Ruslar zülmləri ilə xalqımızı nə qədər istərlərsə əzirlərsə, əzsinlər, ancaq əbədi olaraq qala bilməzlər. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumundan mənəvi varlığımıza hopmuş hürriyyət ruhunu söküb ata bilməzlər. Onlar buna nail olmaq üçün vəhşiliyi və qəddarlığı ilə məşhur olan Neronu köməyə çağırsalar da, yenə müvəffəq ola bilməzlər".

**Üzeyir bəyin məktubundakı Nəsib bəy**

Üzeyir bəyin məktublarındakı gizli Nəsib bəyi təqdim edək. Burada onun həm baş nazir kimi bacarığını, həm maliyyəçi kimi qənaətcilliyini, həm də insan kimi obyektivliyini görəcəyik:

"Nəsib bəy məmləkəti təhlükədən qurtardı"

Ceyhun bəy qürbətə yeni gedib. Lakin hələ mühacir sayılmaz. Çünki ADR hökuməti hələ süquta uğramayıb və Ceyhun bəy də həmin hökuməti dünyaya tanıtmaq üçün təşkil olunan nümayəndə heyətinin tərkibində Parisə yollanıb. Ara-sıra qardaşı

Üzeyir bəylə məktublaşırlar. Bu məktubların birində Üzeyir bəy ADR hökumətinin yeni baş naziri seçilən Nəsib bəy Yusifbəyli haqqında qardaşına bunları yazır:

“Siyasi işlərə gəldikdə, hal-hazırda hökumət böhranı mövcuddu. Nəsib bəy kabinəsi istefa etmişdir. Lakin bu yaxınlarda yenə başında Nəsib bəy olmaq üzrə, yeni kabinə düzələcəkdir. Nazirlərin sayı bir az azalıb, əlavə zənn edirəm ki, sosialistlərə yer verilməyəcəkdir. Əhvali-siyasimiz dedikcə yaxşıdır. Nəsib bəy işi çox gözəl apardı və məmləkəti demək olar ki, hər bir təhlükədən qurtarmaqla bərabər, abad, məmur və qüvvətli bir hala saldı. Bu saat tam mənası ilə müstəqil dolanırıq. İçimizdə heç bir biganə əl yoxdur. Qarabağ və Lənkəran məsələləri bizim nəfimizə olaraq, həmən qan tökülmədən həll edildi. Bir əndişəmiz varsa, o da şimaldandır. Lakin o barədə də bizə ümid verənlər az deyil. Qərəz, işimiz “xod”dur”.

**Ad günü qonaqlığı**

Məktubda Üzeyir bəyin Nəsib bəyə xoş münasibəti açıq-aydın görünür. Onlar həm də yaxın dost olublar. Üzeyir bəy hökumət rəhbərləri Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli ilə yaxından dostluq edib. Ceyhuna elə həmin ərəfələrdə yolladığı məktubda 18 sentyabr tarixində olan ad gününü bir yerdə keçirdiklərini və nümayəndə heyətinin üzvlərini də yad etdiklərini bildirir:

“O gün yaxşı bir qonaqlıq oldu. Nəsib bəy özü və arvadı, Məhəmməd Əmin, Şəfi bəy (Şəfi bəy Rüstəmbəyli) dəxi bizdə idilər. Sizin də sağlığınıza içdik və sizi dəxi yad etdik”.

**Baş tutmayan qastrol**

Ceyhun bəy Parisdəki konfransa yollandığı zaman Üzeyir bəyin əsərlərini Fransa teatrlarında tamaşaya qoymağa çalışır. Bunun üçün Üzeyir bəyin truppa ilə Parisə gəlməsini istəyir. Bü

xüsusda əlindən gələni də edir. Lakin çox təəssüflər ki, Üzeyir bəy Parisə yollana və qardaşını orada görə bilmir. Üzeyir bəyin bununla bağlı qardaşına yazdığı məktubda səbəblər də izah olunur və yenə Nəsib bəyin adı çəkilir:

"O ki qaldı Parisə truppa aparmaq işinə,  mən burada Nəsib bəylə danışdım. O tapşırdı ki,  mən smeta düzəldim. Düzəltdim verdim. Amma Nəsib bəy demədi ki, əgər bizi təsdiq etsələr,  o halda,  getməyə lüzum olmayacaqdır".

Məktubda müəyyən qədər şifrəli məsələlər var. O səbəbdən ilk baxışdan tam anlaşılmır. Məsələn, "əgər bizi təsdiq etsələr" ifadəsi... Bu, 1920-ci ilin yanvarı üçün çox aktual bir ifadə idi. Parisdə sülh konfransına yollanan nümayəndə heyətimiz də  dünyanın bizi tanımasına, təsdiqinə çalışırdı. Buna nail də oldular. Nəsib bəy də məhz bunu demək istəyirdi. Əgər dünyanın böyük gücləri bizi tanısa, sizin Parisə getməyinizə gərək olmayacaq. Çünki siyasi müstəvidə daha vacib işlər görülməlidir və bütün diqqət də bunlara ayrılmalıdır. İki vacib kadr- Ceyhunla Üzeyir də bu işlərin əsas aparıcı qüvvəsi olmalıdır.

**Baş tutmayan səfirlik**

Elə həmin vacib işlərdən biri də AXC hökumətinin Fransada səfirliyinin yaradılması  idi. Hökumət bu vəzifəyə elə Ceyhun bəyi əsas namizəd kimi görürdü. Üzeyir bəyin qardaşına növbəti məktubunda bunu daha dəqiq görmək olar:

"Əlavə burada bir məsələ var ki, Yevropaya səfarətlər təyin edilsin. Bu xüsusda mən Nəsib bəylə görüşmək istəyirəm ki, görüm sənin barəndə fikri nədir? Hərgah bir böylə plan olsa ki, sən Parisdə səfarət işləri ilə məşğul olasan, o halda sən buraya qayıtmalı olmazsan, səy edəcəyəm ki, özüm oraya gəlim".

**Qonarar məsələsi**

Üzeyir bəyin Ceyhuna yazdığı məktublarında Nəsib bəyin portretinin başqa bilinməyən üzü də açılır. Baş nazir ola-ola

atasından borc pul istəyən Nəsib bəy büdcəsini təsdiq etdiyi "Azərbaycan" qəzetində Məhəmməd Əmin Rəsulzadənin də məvacib alması üçün istəməyərəkdən bir addım atır. Bilirik ki, Üzeyir bəy qəzetdə baş redaktor kimi Ceyhun Hacıbəylini əvəz edirdi. Özü qonarar alır, baş redaktor maaşını isə qardaşına yollayırdı. Büdcənin azlığı səbəbindən Nəsib bəy smetada əlavə qonararı kəsməli olur. İndi ancaq Üzeyir bəy baş redaktor kimi aylıq maaşını alacaqdı. Məktuba diqqət edək:

"Qəzetəni idarəyə davam edirəm. Ancaq iş çox olduğuna görə yoruluram. Xeyli şrift gətirdik. Bu günlərdə qəzetəni böyüdəcəyik. Bizim qəzetədən sənə hər ay məvacib çıxmaq məsələsi də baş tutmadı. Çünki səndən sonra Nəsib bəy mənimlə görüşüb dedi ki, sən müdir olduğuna görə Ceyhunun məvacibini al, Məhəmməd Əmin də məvacib alsın. Deməli, daha sənə xüsusi məvacib yeri qalmadı və smeta dəxi öylə də yazıldı. Lakin Məhəmməd Əmin yalnız məqalə yazır, ağır iş mənim boynumadır. Bu məsələləri ona görə yazıram ki, Bakıda məvacibinizə ümidvar olmayasınız. Sonra məyusluq gələr".

Qeyd: Yazıda araşdırmaçılar Aslan Kənanın və Solmaz Tohidinin ərsəyə gətirdiyi məktublardan istifadə edilib.

**Mehmandarovun Yusifbəyliyə xəbərdarlıq məktubu: "Bolşeviklərdən ehtiyat edirəm"**

Budəfəki yazının mərkəzində Cümhuriyyətin iki fədaisi – baş nazir Nəsib bəy Yusifbəyli və Hərbiyyə naziri Səməd bəy Mehmandarov dayanır.

Araşdırmaçı Lətif Babayevin arxivdən əldə etdiyi materiallar- Səməd bəy Mehmandarovun baş nazirə məktubu və məruzəsi - o dövrün hərb siyasətini öyrənməyə imkan yaradır.

Amma əvvəlcə Cümhuriyyətin hərbiyyə nazirinin müavini təyin olunan gün Səməd bəy Mehmandarovun yazdığı yazıya diqqət edək:

"Nazirlər Şurasının qərarı ilə mən hərbi nazirin müavini təyin edilmişəm. Mən öz vəzifə borcumun yerinə yetirilməsinə başlayaraq görməli olduğum nəhəng işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini gizlətmədən, hərbi nazirliyin bütün rütbəli şəxslərinin işə birgə, dostcasına və vicdanlı münasibəti ilə onun öhdəsindən gəlməyin tamamilə mümkün olduğunu bildirirəm. Döyüşə qadir ordu yaradılması işinin uğuru bütünlüklə bu işin düzgün qoyuluşundan asılıdır. Hamını birgə, yoldaşcasına işləməyə çağırmaqla, mən bütün səviyyələrdəki rəislərdən qoşunun təlim-tərbiyəsi, öyrədilməsi və möhkəm nizam-intizam yaradılması işinə tam ciddi diqqət yetirmələrini, xidməti işə, qayda-qanuna, vəzifə borcuna məhəbbətlə yanaşmalarını, tabeliyində olanlara qayğıkeş münasibət göstərmələrini istərdim".

Səməd bəy Hərbi Nazirlikdən 21 aprel 1919-cu ildə Gəncə şəhərindən şəxsən Nazirlər Kabinetinin sədri N.Yusifbəyliyə çatdırılmalı olan 1663 saylı məxfi raport göndərir:

"Bu il aprelin 15-dəki 1631 saylı raportla mən bolşeviklər tərəfindən orduda təbliğata başlamağa hazırlıq barədə məlumat vermişdim. Bakıda öz işini başa çatdıran həmkarlar ittifaqları qurultayı belə bir bəyannamə qəbul etmişdir: "İttifaqın məqsədi Zaqafqaziya hüdudunda sovet hakimiyyəti qurulmasının həyata keçirilməsi üçün hərtərərfli siyasi cəhd göstərməkdən ibarət olmalıdır".

Bu bəyannamə yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv edib, onu Sovet Rusiyası ilə birləşdirmək cəhdləri ilə artıq şübhə doğurmur. Bəyannamə nəzərə alınaraq Hökumətin

fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyinin müdafiəsi durmalıdır və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən Bakı qarnizonunun qoşunlarına bolşeviklərin təsir göstərəcəklərindən ehtiyat edirəm, çünki Bakı hazırda Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzidir. Buna görə xahiş edirəm Bakı xəfiyyə bölməsi qarnizon qoşunlarında zərərli təbliğata yol verilməməsi üçün öz nəzarətini gücləndirsin və bu sahədə rəhbər şəxslərə hərtərəfli köməklik göstərsin. Mənim tərəfimdən, həmçinin, qoşunlarda daxili nizam-intizama nəzarəti gücləndirmək tələb edilmişdir. Bu barədə ona görə xahiş edirəm ki, hərbi nazirlik Bakıda kəşfiyyat işini təşkil etmək və həyata keçirmək üçün kifayət qədər hazırlıqlı, yerli şəraitə bələd olan agentlərə malik deyil. Ümid edirəm ki, ordunu və bununla da Azərbaycanın müstəqilliyini saxlamaq uğrundakı ümumi mübarizə işində Hərbi nazirlik Daxili İşlər Nazirliyindən ancaq Bakıda deyil, respublika ərazisinin hər yerində, hərtərəfli dostluq köməyi görəcəkdir. Bunun üçün mən Zati Alilərinizdən general-qubernatorlara və qubernatorlara müvafiq əmrlə bildirməyinizi xahiş edərdim. Tam artilleriya generalı Mehmandarov, Baş qərargah rəisi general-leytenant Sulkeviç”. (ARDA, f894, s.7, iş.5, v.50).

## Cümhuriyyət hökumətinin imzaladığı tarixi qərar və onun əsas memarı

Behbud ağa Cavanşir 1886-cı ildə Tərtər nahiyyəsinin Azad Qaraqoyunlu kəndində anadan olub. Orta təhsilini Tiflis real məktəbində alıb, sonra dünyada ilk ali-texniki məktəb olan Frayberq Dağ-mədən Akademiyasını (Almaniya) bitirib. O, bu

Akademiyanın ilk azərbaycanlı məzunu idi. Behbudağa Cavanşir Almaniyada təhsilini başa vurduqdan sonra İngiltərəyə gedərək təkmilləşdirmə kurslarında oxuyur, alman, ingilis, fransız, rus və gürcü dillərini mükəmməl öyrənir. 1916-cı ildə Azərbaycana qayıdan Behbudağa Bakının bir sıra neft müəssisələrində baş mühəndis vəzifələrində çalışır. B. Cavanşir Ə.Ağayevin 1905-ci ildə gizli şəkildə yaratdığı, qarşısma milli ideyalann həyata keçirilməsi kimi ali bir məqsəd qoymuş "Difai" partiyasının Mərkəzi Komitəsinə daxil olub. O, həmçinin "Nicat" cəmiyyətinin və "Rus texniki cəmiyyəti"nin Bakı şöbəsinin üzvü seçilib. Texniki cəmiyyətin elmi əsərlərində Behbudağa Cavanşirin xeyli elmi və elmi-kütləvi səpkili məqaləsi çap olunub.

Tarix emləri doktoru Nəsiman Yaqublu Behbud ağanın Cümhuriyyət üçün etdiyi tarixi bir missiyanı diqqətə çatdırır:

"1918-ci ilin noyabrın 28-də Azərbaycan Cümhuriyyəti hökuməti ilə Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası arasında tarixi müqavilə bağlanır. Həmin müqaviləni Azərbaycan hökuməti adından Ticarət və Sənaye naziri Behbud xan Cavanşir və Maliyyə Naziri Məhəmməd Həsən Hacınski, Dağlı Xalqları Respublikası tərəfdən Bahadur bəy Molaçixan və İbrahim bəy Heydərov imzalayır. Müqavilədə aşağıdakı bəndlər var idi: 1) Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası Azərbaycan Cümhuriyyətindən faizsiz olaraq iki il müddətinə on milyon rubl faizsiz pul alır və bu ilin noyabrın 1-dən qaytarılmasına başlayır; 2) Dağlı Xalqları İttifaqı Respublikasının əkinçilik rayonlarında hakimiyyəti reallaşdırarsa, bu respublika öz borcunu hazırkı müqvilənin 3 və 4-cü bəndlərinə uyğun olaraq buğda ilə əvəz edib ödəyə bilər; 3) Respublikaların

razılaşmış hər iki şəxsindən biri bir şəxsi təyin edir və sonuncular öz aralarında razılaşma əsasında üçüncü şəxsi seçir və bu üçlük komissiya formalaşdırır; 4) Bu müqavilənin 3-cü bəndinə əsasən komissiya müqavilənin müvafiq bəndləri üzrə Azərbaycan Cümhuriyyətinə veriləcək buğdanın növünü və çörəyin qiymətini müəyyənləşdirir...".

## Cümhuriyyətin Almaniyaya göndərdiyi tələbər nədə səhv etdilər?

Azərbaycan Xalq Cümhuriyyətinin xaricə oxumağa göndərdiyi 100 tələbədən biri, Nəsib bəy Yusifbəylinin xalası oğlu İsmayıl Saryalın "Bakı rüzgarı" kitabının təqdimatında araşdırmaçı-alim Ədalət Tahirzadə maraqlı faktlar səsləndirib:

"AXC hökumətinin xaricdə təhsil almağa göndərdiyi 100 tələbənin böyük əksəriyyəti- 64 nəfəri Almaniyada təhsil aldı. Məhəmməd Əmin Rəsulzadə onları Sabunçu vağzalından yola salarkən demişdi ki, bura əcnəbi gəlinlərlə dönməyin. Amma onların demək olar ki, hamısı alman qızları ilə ailə həyatı qurdular. 1937-ci ilin istintaq materialları ilə tanış olarkən gördüm ki, ölkədəkilər, daha doğrusu, sovetin idarəçiliyi altında təhsil alanlar məharətlə istintaqçıların suallarından yayınsalar, yalan danışmağı bacarsalar da, xüsusən, Almaniyada təhsil alıb qayıdanlar bunu edə bilməyiblər. Onlar dürüst olublar, verilən sualları olduğu kimi cavablandırıblar. Yəqin ki, bu alman mühiti ilə bağlı olub. Məsələn, sovet quruluşunda oxuyana sual verirdilər ki, sən filan partiyanın üzvü olmusan, and içirdi ki, yox. Amma təbii ki, ora ilə əlaqələri olub. Lakin Almaniyada oxuyanlarda bu cəhət yox idi. Onlar ancaq doğrunu deyirdilər. Elə "Bakı

rüzgarı" kitabında da bunu aydın görmək olar. İsmayıl Saryal o kitabı yazarkən ailəli idi. Amma vaxtıkən yaşadığı sevgiləri açıq-aydın kitabda yazıb".

## Xoyskinin general Tomsona sərt cavabı: "Sizdən ölkədən çıxmağı tələb edirəm"

Xoyskinin ən böyük işlərindən biri də o zaman xüsusi nüfuza sahib olan ingilis generalı Tomsonu susdurması və Cümhuriyyəti ingilis hökumətinə müstəqil ərazi vahidi kimi tanıtması oldu.

Tomson Fətəli xanla görüşündə Azərbaycan Cümhuriyyətini tanımadığını, müttəfiqi olan rusların torpağına gəldiyini söyləyir. Amma Cümhuriyyətin baş naziri belə bir dövlətin yarandığını, bunun Azərbaycan xalqının iradəsi olduğunu qeyd edir. Fətəli xan:

– Siz böyük bir millət, böyük imperiyasınız. Eyni zamanda mədəni bir millətsiniz. Bizim istiqlaliyyətimizi tanımalısınız.

General Tomson:

– Bu söylədikləriniz siyasi şeylərdir, iki dövlət arasında cərəyan edər. Halbuki mən bir əsgərəm

Fətəli xan:

– Madam ki, siz əsgərsiniz, mən də istiqlaliyyətini elan etmiş Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Biz sizi buraya dəvət etmədik. Sizdən ölkəmizi tərk etməyi tələb edirəm

Tomson tərcüməçiyə müraciətlə:

– Baş nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxarmaq üçün hərbi qüvvəyə sahib olmaq gərək. Bildiyimə görə, qurduğunuz Cümhuriyyətin ordusu hələ qurulmayıb.

Fətəli xan tərcüməçiyə:

– General həzrətlərinə söyləyin ki, o yalnız hərbi birliyə malikdir. Ya xalq qüvvələrin nə olduğunu bilmir və ya hər xalqı Hindistan xalqı zənn edir. Biz Azərbaycan Türkləri istiqlaliyyətimizi elan etməmişdən öncə 100 minə qədər rus əsgərini xalq qüvvələrimizin gücü ilə süpürüb sərhədlərimizdən kənara atdıq. Əgər inad edərlərsə, bir ovuc ingilis əsgərini dənizə tökmək qəhrəman xalqımızın gücü ilə bir neçə saatlıq məsələdir. Ancaq biz nə onlardan pislik görmək, nə də onlara pislik etmək istəyirik.

Amma bu sərt danışıq və ingilislərə qapını göstərən Xan Xoyskinin səsini tonu ingilis generalını yumşaldır. Xoyskinin Tomsonla apardığı diplomatik danışıqların nəticəsi özünü çox gözlətmədi. General Tomson dekabrın 29-da bəyanat verdi: ”Xoyskinin rəhbərliyi altında koalisyon Azərbaycan hökuməti yaradıldığını nəzərə alıb, elan edirəm ki, İttifaq Komandanlığı tərəfindən bu hökumət Azərbaycanın bütün hüdudlarında yeganə yerli qanuni hakimiyyət kimi tamamilə müdafiə ediləcək.

**Qeyd: Tarixi faktlara görə araşdırmaçı Elmar Həsənova təşəkkür edirik.**

## Cümhuriyyət hökuməti qərar verməzdən əvvəl bu jurnalistin yazılarından faydalanırdı

Mətbuat tarixi üzrə araşdırmaçı, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı Fərhad Ağazadənin Cümhuriyyət hökuməti üçün vacib bir fiqur olduğunu bildirib. Çünki yeni qurulan

Cümhuriyyət bir addım atmazdan əvvəl aidiyyatı məsələ ilə bağlı xarici təcrübələri araşdırır, onları Bakıda tətbiq etmək istəyirdi. Bu işdə isə ən yaxşı kadr bir neçə xarici dili bilən Fərhad Ağazadə olub. Məsələn, Bakı Dövlət Universiteti yaranmazdan (1919) haradasa bir il əvvəl onunıa bağlı araşdırmalar aparılıb. Bu işi isə Fərhad Ağazdə öz çiyinlərinə götürüb. Dünyanın Sarbonna, Oksford, Kembric, Lomonosov adına Moskva Dövlət Universiteti, Harvard və s. ali məktəblərin tarixin, təcrübəsini öyrənib ki, bizdə universitet qurulanda bundan nəzəri olaraq istifadə etsinlər:

"Bakı Dövlət Universiteti ilə bağlı çox vacib AXC sənədləri var. Onların arasında Cümhuriyyət parlamentinin materialları və Fərhad Ağazadənin dəyərli yazıları yer alır. Universitet açılmamışdan öncə bir hazırlıq prosesi keçirilmişdi. "Azərbaycan" qəzetində "Darülfünün tarixi" adlı silsilə yazılar var. Müəllifi nakam taleli jurnalist, publisisr Fərhad Ağazadədir. Məşhur dünya universitetlərinin tarixi, onların keçdiyi yol, qazandığı təcrübələrdən bəhs edirdi. Bu da yeni yaranacaq universitet üçün bir nəzəri materiallar idi. Fərhad Ağazadə ingilis, alman, rus dillərini sərbəst bilirdi. Onun başqa məsələlərlə bağlı nəzəri məzmunlu məqalələri var. Cümhuriyyət hökuməti bir işi görməzdən qabaq onunla bağlı xeyli araşdırmalar aparılırdı. Fərhad Ağazadə də bu araşdırmalarda fəal iştirak edir, vacib maarifləndirici yazılar yazırdı".

Qeyd edək ki, Fərhad Ağazadə 1880-ci ildə Şuşa şəhərində anadan olub. Yaradıcılığının ən bəhrəli çağında sağalmaz xəstəliyə tutulub və ömrünün sonuna qədər bu xəstəlik ona acı bir

tale yaşadıb. Bu xəstəliyə qədər xüsusən də Cümhuriyyət dövrü mətbuatının, "Azərbaycan" qəzetinin ən fəal yazarlarından olan Fərhad Ağazadə həm mətbuat, həm maarif sahəsində xeyli işlər görmüşdü. Əlifba islahatı aparan şəxslərdən biri də o idi. Lakin 1929-cu ildə sağalmaz xəstəliyə tutulur. Qida borusu get-gedə daralır. Mahaçqala, Sankt-Peterburq və Moskva kimi şəhərlərdə onu müalicə edə bilməyib əməliyyata salmaq istəyirlər. Lakin Ağazadə buna razı olmur. Həyat yoldaşına yazdığı məktubda "əgər əməliyyata aparsalar, gəlib evdə oturacağam" deyir. Bununla da ardıcıl olaraq faciələr bir-birini əvəz edir. XX əsrin böyük əlifba islahatçısı bunlara çox davam gətirə bilmir.

## Cümhuriyyətin 32 əfsanəvi əsgərinin faciəli sonluğu

Bu gün 300 spartalı, Kürşad Üsyanı, Çanaqqala qəhrəmanları haqqında çox yazırlar. Azərbaycanda 1 ay ərzində XI rus ordusuna qarşı mübarizə aparan 32 nəfər Azərbaycan Cümhuriyyətinin əsgər və zabitləri haqqında heç nə yazılmır. Düzdür bəzi yazılarda buna qısa toxunsalar da, tam ciddi araşdırılmayıb. Çox heyf ki, 32 nəfər qəhrəman haqqında tam olaraq araşdırma aparılmayıb və o sənədlər arxivdə tam olaraq incələnməyib.

**Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev bu naməlum tarixi qəhrəmanlar barəsində çox maraqlı məlumatlar verib:**

"Məlumdur ki, 1920-ci ildə bolşeviklərin Qırmızı ordusu Azərbaycanı işğal edib. Azərbaycan ərazisində onlara qarşı bir

çox üsyan baş versə də, hamısı qanla yatırılıb. 1920-ci ilin may ayında Qarabağda XI ordu hissələri ilə Azərbaycan Ordusunun əsgərləri arasında bir neçə lokal toqquşmalar baş verib. Ruslar onlara qarşı çıxan üsyançıları tutub XI Ordu qərargahına gətirərək, sorğu-sualsız güllələyirdi. Bunu eşidən milli ordunun əsgərləri və üsyançıların bəziləri gizlincə silahı atıb evlərinə və xaricə getsələr də 4 nəfər zabit və 28 nəfər əsgər son qanlarına qədər döyüşməyə and içirlər. Çox heyf ki, onların adları bəlli olmasa da bu qəhrəman döyüşçülər Bərdə tərəfdə IX Orduya qarşı ciddi müqavimət göstərilər. Rus ordusunun sayca üstünlüyü və silahlarının çoxluğuna baxmayaraq yaranmış əlverişli şəraitdən istifadə edən “32-lər” Bərdənin sağ sahilindəki qüvvələri şəhərin kənarına sıxışdırıb Qarabağa hərəkət üçün ciddi strateji əhəmiyyət kəsb edən bu mövqeyi bir həftəyə qədər nəzarət altında saxlaya bildilər. Onlar Bərdəyə rusların daxil olmasına ciddi müqavimət göstərirdi. Yerli caamat onlara tam dəstək olduğu üçün Lenin Bakıya xəbər göndərir ki, orda rus əsgərləri qırılır. Əgər azərbaycanlı bolşeviklər bir ciddi addım atmasalar onlar yerli hakmiyyətdə təmsil olunmayacaqlar. Bu xəbər Bakıya çatan kimi Çingiz İldırım və Dadaş Bünyadzadə dərhal Qarabağa gəlirlər. Bünyadzadə ilə birlikdə konspirativ şəkildə Ağdama, Şuşaya,Qaryaginə gedərək, yerli kommunistlərdən M. Məmmədxanov, A. Qaragözov, S. Səfərov, A. Saturyan və b. köməyi ilə özünü müdafiə komitələri, bolşeviklərdən ibarət könüllü birliklər yaratmağa çalışırdılar. Bərdədə isə “32-lər” hələ ki, XI orduya qarşı bütün təyziqlərə baxmayaraq döyüşürdülər. Vəziyyətin ciddiləşdiyini görən Ç. İldırım üsyan başçılarının təhvil verilməyəcəyi təqdirdə Bərdənin bombardman ediləcəyini bildirdi. Bu ultimatumdan sonra yerli əhalini

qırğına verməmək üçün “32-lər” şəhəri tərk etməyə məcbur olub Qarabağa irəliləyən birinci süvari alayı (Tatar alayı)-lə qarşılaşdılar. I Dünya müharibəsində “Vəhşi diviziya” adını almış bu hərbi birlik üç gün ərzində XI ordu hissələri ilə qanlı döyüşlər apardıqdan sonra, mühasirəyə düşmək ehtimalının erçəkləşdiyini görüb çəkilməyə məcbur oldu. . Dağıstandan bir qrup türk zabiti və əsgəri general Nuru paşanın rəhbərliyi ilə Şuşaya üsyan etmiş xalqa köməyə gəldi. Üsyançılar Qarabağda sovet hökumətini devirib Qarabağ inqilab komitəsinin üzvlərini həbs etdilər. Nuru paşa Qarabağın hakimi elan edildi. Onun ətrafında Azərbaycan ordusunun zabitlərindən Zeynalov, Səfiyev, sabiq pristav Kərimbəy Qalabəyov və başqaları var idi. İyunun 6-da yeni hakimin sərəncamı ilə Şuşa İnqilab Komitəsinin sədri B.Vəliyev, Türkiyə kommunisti Süleyman Nuru, qırmızı molla ləqəbli C.Hüseynov güllələndilər. Ancaq XI Ordunun əlavə kömək almış hissələri ermənilərin yaxından iştirakı ilə azadlıq uğrunda mübarizəyə qalxmış əliyalın əhalini qırmağa başladı. Bərdədə və Ağdamda xalqa divan tutan istilaçı ordu iyunun 15-də qüvvələr nisbətinin üstünlüyündən istifadə edərək Şuşanı da ələ keçirdi. Milli ordunun hissələri və Nuru paşa Qaryagin və Cəbrayıl istiqamətində geri çəkilib ölkəni tərk edərək Xiyabaninin nəzarəti altında olan Cənubi Azərbaycana keçdilər. Onlar heç kimdən və heç bir yerdən kömək almadıqlarından əllərindəki silahları sataraq Türkiyəyə keçib Mustafa Kamal paşanın ordularına qoşuldular”.

**Cümhuriyyət parlamentinin verdiyi ən son və ən ağır qərar – *97 yaşlı qəzet xəbəri***

Parlamentin son iclası isə qara bir tarixdə - 27 aprel 1920-ci ildə keçirildi. Səhər tezdən başlanan iclas saatlarla davam etdi və ancaq gecə saat 12-yə qalmış bitdi. Parlament üzvləri çətinliklə yaranan dövləti heç cür kommunistlərə təhvil vermək istəmirdilər. Amma başqa çıxış yolu da yox idi; şimaldan güclü bir fırtına yaxınlaşmaqda idi. O fırtına ki, onun qarşısını almaq 23 ay əvvəl yaranan dövlət üçün mümkün olmayacaqdı. Buna görə də ağır da olsa da hakimiyyətin kommunistlərə təhvil verilməsi qərarını imzalamaq lazım idi.

27 aprel 1920-ci il Axşam saat 23.00" Sədr Məmmədyusif Cəfərov çox ağır bir işə qol qoymalıdı" "ADR hakimiyyətinin kommunistlərə istəməyərəkdən, məcbur qalaraq təhvil vermək hamını əzir. Elələri var ki, ağlaya-ağlaya iclas zalını tərk edir. Amma kimsə bunu etməlidir. Əks halda, xalq müsibətlə üzləşə bilər": Beləcə həmin qərar imzalanır. Amma parlamentdəki komissiya yenə də öz şərtlərini irəli sürür. 1920-ci il 6 May tarixində "Kommunist" qəzetində çıxan həmin qərarı təqdim edirik:

"Sizin 27 aprel tarixli məktubunuzu müzakirə və onun məzmununu həyəcanlı anla müqayisə edib, sizin təklifinizi nəzərə alaraq bizim tərəfimizdən seçilmiş komissiya:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;

2. Azərbaycan kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;

4. Hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;

7. Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır. Azərbaycan Parlamentinin özünün fövqəladə iclasında bu şərtləri səs çoxluğu ilə qəbul etdiyini sizin nəzərinizə çatdırıram.

***Parlamentin sədri Məmməd Yusif Cəfərov***
***Dəftərxana direktoru: Vəkilov.***

## “Nəriman Nərimanov və başqalarının xəyanəti aprel istilasında əsas rol oynadı”

Uzun müddət Cümhuriyyıt  işğalının tarixi aprelin 28-də göstərilirdi. Ən pis məqam isə 28 apreli qətiyyən işğal kimi yox, ölkədə bolşevik rejiminin qurulması tarixi kimi qeyd edirdilər. Amma bir quruluş süquta yetirilməsə o biri heç zaman onu əvəzləyə bilməz! Elə bu gün də bəzi mənbələrdə 27 yox, 28 aprel istilası kimi həmin işğalın tarixi qeyd olunur.

Araşdırmaçı alim, Azərbaycan Xalq Cumhuriyyəti tarixinin bilicisi, Nəsiman Yaqublu  1920 –ci ilin aprel işğalı ilə bağlı bir çox maraqlı faktlara toxundu. Amma ilk olaraq həmin tarixin uzun illərdir ki, bilərəkdən, ya bilməyərəkdən yanlış yazıldığını qeyd etdi:

-Əvvəlcə onu deyim ki, bu 28 aprel yox, 27 aprel işğalıdır. Uzun müddət ərzində kitablarda, dərsliklərdə bu işğalın tarixi 28 aprel kimi göstərilir. Qeyd edirlər ki, guya bu tarixdə Azərbaycanda sovet hakimiyyəti qurulub. Əslində bu belə deyil! Həqiqət budur ki, aprelin 27-də Azərbaycan rus bolşevikləri tərəfindən işğal edilib. Bu tarix yalnız işğal tarixidir! Onu sovet hakimiyyətinin qurulması şəklində göstərmək kimi tendensiya bu günün özündə də bəzi alimlərin kitablarında yer alıb. Bu çox yanlış yanaşmadır. Çünki Azərbaycan Xalq Cumhuriyyətinin bütün sənədlərində, yazışmalarında, görkəmli şəxsiyyətlərin məktublarında 27 aprel işğal günü kimi qeyd edilir.

Hörmətli, oxucu sual edə bilər ki, axı bunun nə fərqi var? Bircə günlə nə dəyişəcək- ya aprelin 27-si olsun, ya da ki, 28-i. İşğal elə işğaldı! Amma tarix tam incəliyinə qədər araşdırılmalıdır. İşğal faktının aprelin 27-dəgöstərilməsinin çox böyük fərqi var. Çünki məhz həmin gün rus ordusu Yalama tərəfdən Azərbaycanərazilərinə işğala başladı. 1500 əsgərimizi öldürdü. Faktı aprelin 28-i kimi göstərmək əslində həmin kiçik işğalların və AXC əsgərlərinin ölümünü pərdələməkdir. Bu haqda araşdırmaçı daha dəqiq danışır:

-1918-ci il aprelin 26-dan 27-nə keçən gecə Dərbənddə Yalama yolunda Leninin və Orcanikidzenin əmri ilə rus qoşunları Azərbaycan sərhədlərini keçdilər. Azərbaycan ərazisini tədricən işğal etməyə başladılar. Yalama, Xaçmaz, Xudat ətrafında işğal get-gedə genişləndi. Onu da deyim ki, o ərazilərdə gedən döyüşlərdə Azərbaycan Xalq Cumhuriyyəti ordusunun 1500-ə yaxın əsgəri də qəhrəmancasına döyüşüb, bolşeviklərə qarşı münarizə aparıblar. Təəssüflər ki, həmin 1500 əsgər haqqında məlumat bu gün heç yerdə hallanmır. Xaçmaz, Xudat tərəfdə heç adi

xatirə lövhəsi də vurulmayıb ki, burada 1500 əsgər bolşeviklərə qarşı qəhrəmancasına vuruşub.

Azərbaycanı, Rəsulzadə hökumətini işğal etmək nə üçün bu dərəcədə vacibdir? Bu suala təbii ki, hamımızdan yaxşı o tarixi araşdıran təqdiqaqatçı cavab verə bilər:

-Çar Rusiyanın yerində yaranan bolşevik Rusiyası ətrafında yeni müstəqil dövlətlərin olmasını heç cürə qəbul edə bilmirdi. Rəsulzadə yazırdı ki, Nikolay Rusiyası ilə Lenin Rusiyası arasında heç bir fərq yoxdu. Nikolay Rusiyasında zəncirlərin rəngi ağ, Lenin Rusiyasında isə zəncirlərin rəngi qırmızıdır. Yəni Rəsulzadə Çarın ağ, bolşeviklərin qırmızı bayrağını nəzərdə tutaraq elə deyirdi. Amma hər ikisinin mahiyyəti eyni idi. Pyotrun qoyduğu vəsihət çar Rusiyasında necə yerinə yetirilirdisə, bolşevik Rusiyasında da o cür icra edilməyə başlandı. Yəni, Azərbaycanı Qafqazdakı müsəlman-türk qüvvələrini işğal etmək! Uzun əsrlər o tendensiya davam etdi".

Nəsiman Yaqublu 27 aprel işğalının bir neçə görünməyən səbəblərindən də danışır. Siz deməyin ki, burada başqa məsələlər də var imiş:

-Həmin illərdə Azərbaycanda qanlı terror rejimi yaradıldı. Azərbaycan birpartiyalı rejimin hökmü altında yaşadı. Azərbaycanın 27 aprel işğalının bir neçə səbəbləri var idi. Bəlli idi ki, Rusiya güclü bir dövlətdir. 70 minə yaxın qoşunla Azərbaycan ərazisinə daxil olmaq üzrə idi. Bunun qarşısını almaq çox çətin məsələ idi. Amma digər xırda səbəblər də var ki, onlar da 27 aprel istilasında əsaslı rol oynadı. O səbəblər olmasaydı işğalı bir az uzadıb, müəyyən qədər müqavimət göstərə bilərdik. Həmin səbəblər bunlardı: birincisi, Azərbaycandakı bolşeviklərin xəyanəti. Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Əliheydər Qarayev, Bünyadzadə, Ağamalıoğlu, və s. hamısı demək olar

ki, Rusiya bolşeviklərinin təsiri altına düşüb işğala imkan verdilər. İkincisi, əgər ermənilər xəyanət etməsə idi və Azərbaycanın ordu hissələri məcburi şəkildə Qarabağa göndərilməsə idi bu qədər boşluq yaranmazdı. Rus qoşunlarının ölkəyə daxil olduğu sərhədyanı ərazilərimizdə boşluqlar olmazdı. Çünki biz onlarla döyüşə bilərdik. Ordumuz var idi. Orada bayaq dediyimiz kimi cəmi 1500 əsgər rus qoşunlarına qarşı mübarizə apardı. 25 minlik ordunun döyüşməsi ilə 1500 əsgərin döyüşməsi bir ola bilməz ki! Üçüncüsü, Azərbaycanda o dövrdə olan türk zabit və əsgərlərinin xəyanəti oldu. XI Qırmızı ordu türkləri aldatdılar. Onlara dedilər ki, biz Azərbaycan ərazisindən keçib Türkiyəyə hərbi yardım edəcəyik. Amma AXC hökuməti buna icazə vermir. O zaman Türkiyədə də vəziyyət yaxşı deyildi. Amma təbii ki, bu bir hiylə idi. Rəsulzadə türk qoşunlarının komandanına dedi ki, ruslar sizi aldadır. Onların məqsədi Türkiyəyə kömək etmək yox, 1914-cü ildə itirilmiş sərhədləri bərpa etməkdir. Amma türklər Rəsulzadəyə inanmadılar. Əvəzində AXC hökumətindən rus qoşunlarını Bakıya buraxmağı tələb etdilər. Doğurdan da Rəsulzadənin dediyi kimi oldu. Rus qoşunları Bakını işğal etdilər. Çox təəssüflər ki, o zaman türk qoşunları da onlara müəyyən yardımlar etdi. Amma onu da qeyd edim ki, həmin vaxt türk qoşunlarının başçısı Xəlil paşanın yanında olan Tələt paşa Atatürk hakimiyyətinin qurulmasından sonra təsis edilən İstiqlal məhkəməsində bu səhvini etiraf etdi. Bildirdi ki, biz o zaman Azərbaycana qarşı ədalətli davranmadıq.

Bunlar da hələ son deyildi. 27 aprel istilasını tezləşdirən başqa səbəblər də olub. Onlardan da biri Milli Hökumət Kabinəsinin qurulmasının gecikməsi oldu. Məhəmmədhəsən Hacınskinin bu səvhi də əsaslı rol oynadı:

-AXC parlamentində olan partiya və fraksiyaların da yekdil

ola bilməməsi öz sözünü dedi. Bəzi partiyalar bildirdilər ki, onsuz da özümüzdən olan bolşeviklər ölkəni idarə edəcəklər.

Milli Hökumət Kabinəsinin qurulması da bu arada gecikdi. Bunda  əsas günahkar Məhəmmədhəsən Hacınski idi. Çünki o, istəyirdi ki, mövcud qüvvələrlə bolşeviklərin vahid hökumətini qursun. O, bunu qəsdən etmirdi. Azərbaycandakı bolşevik qüvvələr söz verdilər,  amma sonradan hökumətə daxil olmadılar.

Rəsulzadə deyirdi ki, bunların hamısından yuxarıda dayanan əsas səbəb isə bizə beynəlxalq  dəstəyin olmaması idi. Xarici dövlətlərdən nə Fransa, nə ABŞ, nə İngiltərə, nə də bir başqa dövlət Azərbaycanın mənafeyi üçün bircə addım da atmadı. Bizi bolşevik Eusiyasının canavar ağzaına atdılar. Biz tək qaldıq. Bax bdur, 27 aprelin mahiyyəti!

# III bölüm - Məhəmməd Əmin Rəsulzadə - anılar və anlar...

## İnildəyən məzar

1955-ci il, 6 mart tarixi, gecə saat, saat 11-ə 10 dəqiqə qalır...

Bu zaman ayrılıq və xəstəliyin əldən saldığı zəif bir vücud sahibi üç dəfə “Azərbaycan! Azərbaycan! Azərbaycan!” deyərək dünyasını dəyişir.

Hər aldığı nəfəsi belə, Azərbaycanın adına bağlayan bir dahi həmin gecə üç dəfə bu sözü deyib, dünyadan köçür.

Ankara Universitetinin tibb fakültəsində şəkər xəstəliyindən müalicə alan Rəsulzadə 71 yaşında vəfat edir…

1955 –ci ilin 6 mart tarixində üç dəfə söylənilən “Azərbaycan” kəlməsi neçə ildir ki, yol gəlir. Və yol gedə-gedə də özünün müthiş funksiyasını yerinə yetirir.

Ömrünün son illərində də Rəsulzadə üzücü xəstəliyə baxmayaraq, öz missiyasını layiqincə yerinə yetirir. Baxmayaraq ki, bu missiya ondan hər şeyi almışdı. Anası Maral xanım acından, xanımı Ümbülbanu isə ürəyi partlayaraq ölmüşdü. Oğlu Rəsul 21 yaşında ikən güllələnmiş, qızı Lətifə soyuqdan donaraq ölmüş, digər qızı isə itkin düşmüşdü. Bu dəhşətlərin hamısı məhz, bu ali missiyanın naminə edilirdi ki, Rəsulzadə də ömrünün sonuna qədər ona sadiq qalmaqla əsl dahi mərtəbəsinə yiyələnmişdi.

***Rəsulzadənin məzarı niyə inləyirdi?***

Ötən əsrin 50-ci illəri… Artıq qoca Məhəmməd Əmin tək döyüşməkdən yorulub… Polyak xanımı Vanda və çiyin dostlarından başqa o, heç kimi düşündürmür. Hətta öləndə belə onun məzar başına getməyə qorxurlar. Ankaranın Əsri qəbiristanlığındakı bu məzarı belə kimlər üçünsə "təhlükəli" idi. Amma Rəsulzadə irsinin araşdırıcısı Nəsiman Yaqublunun yaşadığı bir əhvalat bu məzarın belə nə qədər Azərbaycan fədaisi olmasına əyani sübutdur:

*Ankaradan çıxan günü Əsri məzarıstanlığına - Məhəmməd Əmin Rəsulzadənin məzarı ilə vidalaşmağa getdim. Məzarın yanında dolanarkən qəfildən bir qoca yaxınlaşdı mənə. Sorğusuz, sualsız sözə başladı.*

*- Keçən il bu vaxtlar (yəni 1990-cı ilin yanvar ayı ) məzarıstanlığa gəlmişdim. Elə bu qəbrin yanından birdən inilti səsi eşitdim. Yaxınlaşıb bir az da diqqətlə qulaq asdım. Yanılmamışdım, səs bu qəbirdən gəlirdi. Ağrılı, şikayətli bir inilti səsi idi. Mən xoflanıb bu qəbirdən uzaqlaşdım. Bir müddət özümə gələ bilmədim. Əhvalatı kimə danışdımsa, inanmadılar. Dedilər, səni qara basıb. Amma məni qətiyyən qara basmırdı. O qəbirdən inilti səsi gəlirdi:*

*Qəribə heyrət içində qocadan soruşdum:*

*- Siz kecən il yanvarın neçəsində olmuşdunuz burada?*

*Qoca dedi:*

*- Ayın ya on doqquzu idi, ya da iyirmisi. Çünki mən o vaxt gəlib yaxın adamımın qəbrini ziyarət edirəm. Amma indiki*

*kimi o səs yadımdadır. Qəbirdən ağrılı, şikayətli bir inilti səsi eşidilirdi.*

*Qoca bu sözləri deyib çıxıb getdi. Mən isə acı bir həqiqətin ağrısına bürünərək Ankaranın Əsri məzarıstanlığında, onun qəbri yanında donub qalmışdım. Və dərdli-dərdli düşünürdüm: Demək ayın 20-si günü o qanlı yanvarda xalqımızın günahsız qanı axıdılanda qəbirdə rahatlıq tapmamısan. İgid oğullarımız düşmən gülləsinə nahaqdan hədəf tutulanda dözə bilməyib soyuq məzarda inildəmisən. Qeyrətli cavanlarımız al qan içində çırpınanda, analar ağu deyib fəryad qoparanda dayana bilməmisən, ağlayıb şikayətlənmisən".*

## Cümhuriyyət nazirinin "üzrxahlıq" ifadəsi: "Rəsulzadə ilə fikir ayrılığında idim"

Cümhuriyyətin daha bir başıbəlalı fədaisi, ADR-in xarici işlər naziri Məhəmmədhəsən Hacınski haqqında çox yazmaq və danışmaq olar. Lakin Hacınskinin bəzi məqamlarda yol verdiyi səhvlər də olub ki, onlar Cümhuriyyət sevdalısı insanlarda təəssüf doğurmaya bilmir. Doğrudur, həm Hacınskinin özü, həm də aid olduğu ailənin ölkə üçün faydaları çox olub.  Onun özü də həm peşəkar mühəndis, həm də ictimai xadim kimi Cümhuriyyətə çox xeyir verib.  Araşdırmaçı Lətif Şüküroğluya istinadən təqdim etdiyimiz arxiv izahatında bəzi ürəkaçmayan məqamların şahidi oluruq. Kim bilir, bəlkə də işgəncələrdən sonra zorla yazdırılıb... Çünki o zaman Cümhuriyyətin repressiyaya uğrayan simalarına daha çox işgəncə verilirdi. Bəlkə də, bu səbəbdən Hacınski özünü saxlandığı kamerada asmışdı.

Məmmədhəsən Hacınski 21 dekabr 1930-cu ildə istintaqa verdiyi ifadəsində deyirdi:

*“Hələ sovetləşmədən əvvəl, 1917-ci ildə və sonralar mən Rəsulzadə ilə fikir ayrılığına malik idim. O belə hesab edirdi ki, fasiləsiz üsyan xalqı bərkidir... Mənsə bu fikirdə idim ki, bunu ancaq böyük xalqlar, rus qrupları edə bilərlər.*

*Mən deyirdim ki, müstəqil Azərbaycan müsavatın gücü ilə deyil, dünya hadisələrinin inkişafının nəticəsi kimi meydana çıxıb... Azərbaycanın taleyi bu ağır itkilərlə deyil, dünya hadisələrinin nəticəsində həll olunacaq... Sonra mən daim öz fikrimi deyir və buna qəti inanırdım ki, milliləşdirilmiş Zaqafqaziyada federasiya ola bilməz. Bu daim balıq, xərçənk, durna olacaq. Gürcüstan Avropaya meyl edir, Ermənistan Rusiyaya meyl etməklə Türkiyə ilə düşmənçilik edəcək, Azərbaycan isə əksinə Türkiyə ilə yaxınlaşmaqla Rusiya ilə ziddiyətdə olacaq... Mən daim deyirdim ki, sovet quruluşu keçmiş Rusiyanın hüdudlarından kənara çıxsa, SSRİ-yə heç olmasa, bir nəhəng Avropa dövləti (Almaniya) birləşsə, Azərbaycan Zaqfederasiya ilə yubanmadan Kominternə daxil olar və velikorus cəhdinə son qoyular. 1920-ci ildə Şahtaxtinskinin nümayəndə heyətinin tərkibində Moskvaya gedəndə belə düşünürdük ki, Kominternə gedirik (Nərimanovun göstərişi belə idi), ancaq Şahtaxtinski sonra mənə dedi ki, bu baş tutmur, hələlik Azərbaycan RKP-yə daxil olur... Mən daim faciənin həyəcanını keçirirdim. Görürdüm, yüz dəfə demişdim ki, əgər bu gün SSRİ məhv olsa, onunla birlikdə bir neçə dövlətin də müstəqilliyi itəcək. Mən daim tərəddüd edirdim... Sovet hakimiyyətinə milli zəmində düşmən olmaqla, mən elə bir il, ay olmayıb ki, özümlə mübarizə aparmayım”.*

## Seçilən komissiya üzvləri və Rəsulzadənin təxirə saldığı qanun layihəsi – Cümhuriyyət parlamentinin ilk iclası

Azərbaycan Cümhuriyyəti parlamentinin ilk iclası 1918-ci ilin 7 dekabr tarixinə təsadüf edir. O zaman ilk çıxışı Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə edib. O, tarixi çıxışında parlamenti Şərq tarixində ən böyük hadisələrdən biri sayıb.

Daha sonra isə baş nazir Fətəli Xan Xoyski parlament qarşısında hesabat verir. Üstəlik, özü başda olmaqla Cümhuriyyət hökumətini istefaya yollayır.

Daha sonra isə parlamentə sədr seçilir. Böyük diplomat Əlimərdan bəy Topçubaşov bu etimada layiq görülür. Lakin Bakıda olmadığı üçün onu parlamentə sədr müavini seçilən Həsən bəy Ağayev əvəzləyir.

İndi keçək, ilk iclasdakı bəzi məsələlərə… Birinci iclasda parlamentin komissiyaları və komissiya üzvləri təyin edilir. Xəyalən də olsa, 1918-ci ilin 8 dekabrına səfər edək. Özü də birbaşa iclas zalına: (Cümhuriyyət parlamenti ilə bağlı stenoqramlara istinad edərək, natiqlərin dil-üslubu qorunub saxlanılıb)

**Məmməd Əmin:** Təklif edirəm ki, hökumət təşkilinə vəkil şimdiki hökumət iş başında qalsın.

**Sədr:** Buna etiraz edən yoxdur? Deməli, təklif qəbul olunur. Əfəndilər! Üç komisyon intixabini təklif edirəm: Etimadnamə komisyonu, Tərtibat və ləvazimat komisyonu, Nizamnamə komisyonu. Hər komisyona neçə üzv intixab edilməsi barəsində rəyinizi deyiniz.

**Camalbəyov:** Hər firqədən bir nəfər.

**Səfikürdski:** Hər komisyon beş nəfərdən ibarət olmalıdır.

**Məmməd Əmin:** Hər firqədən birər, "Müsavat" və bitərəflərdən isə ikişər nəfər intixab olmağını təklif edirəm. Zatən "Müsavat" firqəsi ən böyük firqədir.

**Miryəqub:** Hələlik şəkli-fraksiyon məlum olmadığından naşi hər firqədən bir nümayəndə, əyalət, şəhərlər nümayəndələrindən isə bir nəfər üzv təklif edirəm.

**Məmməd Əmin:** Mən təklifimdə israr etmirəm.

**Səfikürdski:** Mən təklifimi geri götürürəm.

**Sədr:** Deməli "İttihad" firqəsinin təklifi qalır. Rica edirəm, namizədlərinizi göstəriniz.

Bu namizədlər təklif edilir: "Müsavat" və bitərəflərdən: Şəfi bəy Rüstəmbəyov Mandat komisyonuna, Məmməd Yusif Səfərov Nizamnamə komisyonuna, Kazımzadə Tərtibat və ləvazim komisyonuna;

Sosialistlər ittifaqı tərəfindən: Məhərrəmov Mandat, Səfikürdski Nizamnamə, Hacınski Tərtibat və ləvazim komisyonuna;

"Hümmət" firqəsindən: Qarayev Etimadnamə, Camalbəyov Tərtibat və ləvazim, Şeyxülislamov Nizamnamə komisyonuna!

"İttihad" firqəsindən Vəzirov Zeynal bəy Etibarnamə, Məhəmmədbəyov - Tərtibat və Ləvazim, Qarabəyov Nizamnamə komisyonuna;

**Sədr:** Buna etiraz edən var isə əlini qaldırsın! Deməli, təklif qəbul olunur.

**Daha sonra çox maraqlı bir qanun layihəsinin müzakirəsinə başlanılır. Lakin Rəsulzadə ilk iclas olduğundan həmin məsələnin müzakirəsini təxirə salır:**

**Qarabəyli:** Məclisi-Məbusanına güşadı münasibətilə "İttihad" firqəsi siyasi məhbuslar üçün əfvi-ümumi elanını təklif edir.

Şeyxülislamov: “Hümmət” firqəsi “İttihad”ın arzu etdiyi təklifi qəbul və təbrik edir. Bu məsələni fraksiya da qaldırmaq istəyirdi. Fəqət bugünkü iclasda müzakirə edilməyəcəyini nəzərə alaraq qaldırmadı. Bu məsələni firqələrin deklarasiyasında oxunmasına təsir etdik. Hər halda əfvi-ümumi əleyhinə heç kəs etiraz etməz. Biz təbrik və “İttihad”a təşəkkür edirik.

**Məmməd Əmin:** Təbiidir ki, Məclisi-Məbusan yığıldığı zaman əfvi- ümumidən sərfi-nəzər etməyəcəkdir. Şübhəsiz ki, Məclisi-Məbusan əfvi-ümumi məsələsinə yanaşacaqdır. Fəqət, bunu hər fraksiya öz deklarasiyasında bildirəcəkdir. Bununla belə, mən “Müsavat” və bitərəflər namindən “İttihad” firqəsinin işbu təklifini təbrik edirəm. Əfvi-ümumiyə heç kəs etiraz etməz. Fəqət, hələ bu xüsusda qəti bir qərarnamə qəbulundan sərfi-nəzər ilə bəyannamələrin nəşrinə təkin bu məsələni təxir edəlim”

## Rəsulzadəni qınadığı üçün sonralar ondan üzr istəyən Cümhuriyyət nazirinin oğlu

Məhəmməd Əmin Rəsulzadə ADR-in süqutundan sonra xaricə getməyə məcbur oldu. Amma orada yenə də Azərbaycanın istiqlalı uğrunda nəzəri-praktiki şəkildə mübarizə aparırdı. AXC dövründə, Cümhuriyyətin son iclasında  onunla razılaşmayan və Rəsulzadənin xaricə getməyini qınayan Şəfi bəy Rüstəmbəylinin tərəfdarları sonradan artdı. Şəfibəyçilik getdikcə inkişaf etdi. Amma çox keçmədi ki, Rəsulzadənin uzaqgörənliyi ilə onlar da barışmalı oldular. Belə şəxslərdən biri də ADR-in maliyyə nazirinin oğlu  olan  Fuad Əmircanlıdır.  Vaxtilə, Rəsulzadəni qınayan nazir oğlu sonralar ondan rəsmi surətdə üzr istəmişdi.

Azərbaycanın tanınmış mühacirlərindən biri, "Azərbaycan Milli Komitəsi"nin Başqan yardımçısı, Berlində çıxan Azərbaycan legionerlərinin "Azərbaycan" qəzetinin məsul redaktoru olan Fuad Əmircanın - O, AXC dövründə (1918-1920) Maliyyə Naziri vəzifəsində çalışmış Əbdüləli Əmircanovun oğludur –

**Etirafı**

*"Mənim vaxtı ilə M.Ə.Rəsulzadə bəyə və müsavatçılara qarşı aldığım vəziyyət heç kimsədən gizli deyildir və bunu heç bir zaman inkar etmədim. Fəqət, kürreyi-ərz üzərində dürüst heç bir insan mənim və vətəndaşların şəxsləri əleyhinə və ya vətənpərvərlik və ya milliyyətçiliklərindən şübhə edəcək bir tək kəlmənin belə ağzımdan çıxdığına dair bir tək misal göstərə bilməz... Mən vaxtı ilə müsavatçıların və M.Ə.Rəsulzadənin mühacirətdəki taktikalarını doğru anlamadığım üçün onlarla uyuşa bilmirdim. Bu gün onlara dostanə əl uzatdımsa, bundan qızaracaq bir insan deyiləm, zira Avropa kitabxanalarını dolaşıb Azərbaycana aid hər əsərin mühacirətdə yalnız onlardan çıxdığını gözlərimlə gördükdən, başqalarının ancaq fürsət zühur etdikcə və ya işlərinə gəldikcə milli fəaliyyətdə məşğul olduqları halda onların intizamlı, mütənasib, davamlı və fəal bir surətdə özlərini tamamilə bu işə verdiklərini müşahidə etdikdən və milli yolda sapsağlam durduqlarına... bütün mövcudiyyatımla inandıqdan sonra... proqramları, xətti-hərəkətləri aydın olan və üstəlik milli yoldakı mövqeləri uzun təcrübələrlə sınanan bu qrupla işbirliyi edəcəyim aşkardır".*

**Qaynaq: M. Kəngərli. Fuad Əmircan. "Azərbaycan" jurnalı, Ankara, N304, 1995-ci il. (Nəsiman Yaqublu, "Rəsulzadə Ensiklopediyası")**

## “Xəstəxana xarab, dərman tapılmır, fəhlə aclıqdan xəstələnir” – Rəsulzadənin parlamentdəki üsyanı

Milli Şuranın banisi Məhəmməd Əmin Rəsulzadə 1919-cu il 8 yanvar tarixində, paramentin sayca yeddinci iclasında tarixi çıxış edir. Onun bu kədərli çıxışında qara fəhlənin qara taleyi olduğu kimi əks olunur:

“Masai naziri (sosial müdafiə nazirliyi) yəqin bilir ki, Bakı əmələlərinin halı olduqca müşkül vəziyyətdədir ki, əvvəlcə “Sovet syezd” tərəfindən təsis olunmuş xəstəxanalar indi xarab bir haldadırlar, əmələlər dava-dərman tapa bilmirlər, əmələ mənzilləri hifzi-səhhə nöqteyi-nəzərindən fəna bir haldadır, zavod komissiyaları ilğa edilmiş, bu üzdən ərzaq paylamaq və s. bu kimi xüsuslarda fəhlələr bir çox təhsilatdan məhrum qalmışlardır. Yoxluğu üzündən əmələnin məvacibini azaltmışlar, verilən gündəlik maaş zəmanəmizdəki bahalığa nisbətlə məsarifin yarısını belə ödəmir. Bundan əlavə ümumi işsizlik üzündən əmələlər ac qalır, tədricən ölür, min cürə xəstəliklərə düçar olurlar. Əmələnin maddətən halı belə pərişan ikən mənəvi halı da qaranlıqdır. Gecə kursları, məktəblər, xalq yurdları yoxdur. Əmələ mühiti qaranlıq bir aləm təşkil edir. Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər. Əcəba, məsai nəzarəti əməlinin maddi və mənəvi ehtiyacını rəf’ eləmək, eyni zamanda da maaşını yoluna qoymaq və məsainin mənafeyinin qanunən mühafizə eyləmək üçün nə kimi planlar və tədbirlər düşünməkdədir”.

**Rəsulzadənin bu çıxışı çox yaxşı qarşılanır. Parlamentdəki bolşevik partiyaların nümayəndələri də Rəsulzadə ilə**

**razılaşır. Amma ən təsirli çıxışı ondan sonra Abbasqulu Kazımzadə edir**:

"Qızğın və həssas bir nitq söyləyərək fəhlələrin cahan hadisatındakı mövqeyi, demokratiya nümayəndəsi olan müttəfiqlər nümayəndələrinin Azərbaycanı qəbul və parlamenti mühafizə etmələri xırda millətlər və yeni hökumətlərin bu gün ancaq demokratiya, fikir hakimliyi nəticəsi olaraq sülh konfransında yer almağa müvəffəq olduqlarını, bu cür cahan əmələ və zəhmətkeşlərinin "istəsələr yaparlar, istəsələr yıxarlar" dərəcəsində mətin bir vəziyyət aldıqlarını qeydlə Azərbaycan fəhlələrinə nəqlikəlam edərək deyir ki, fəhlə Azərbaycanda da az deyildir, mis mədənlərində, balıq vətəkələrində, Bakı neft mədənlərində, Şəki ipək zavodlarında, təmbəki fabriklərində və s. yerlərdə işləyən on minlərlə fəhlələrin halı Azərbaycan hökumətini düşündürməlidir. Körürsünüz ki, bunlar hökumətin sütunu, istiqlalımızın əsgər məqamında xadimləridir. Hökumət onların istirahət və ehtiyaclarını təmin edərsə, haman o fəhlələr istiqbalda hökumətə zahir olurlar.

Madam ki, böylə bir qüvvəyə möhtacız, şimdidən bu qüvvənin yaşayışını, həyatını tənzim üçün yaxşı əsaslar hazırlamağı düşünməlidir. Möhtərəm məbuslar buna diqqət edilirsə bu məsələyə çox əhəmiyyət verər, bu qüvvəyə pasiban olarsınız. Kontrol qoymalıdır ki, onların hüququna təcavüz edilməsin, bu gün cahanda ədalət, ixvət, müsavat şüarı atan onlardır, onlar cəmi dünyaya "Yaşa, özgəyə də yaşamağa müsaidə ver!" deyirlər. Sorğumuzda bu gün biz onların fəna halını ancaq müxtəsərən yazmışıq. İnanırız ki, məsai naziri bu barədə təşəbbüslər etmiş, düşünmüşdür. Bu məsələyə əcələn baxılmalıdır. Biz deyiriz ki, fəhlənin ruhuna əza verən məktəblər, xalq yurdları qapalıdır, gecə kursları yoxdur. Yemək - içməkdən böyük əsirət çəkirlər, ucuz xörək məəttəssüf verilmir, yaşadıqları yerlər hifsi-səhiyyəyə müqayirdir, istinad

etdiyimiz o qüvvə bu gün məhv olub gedir. Səfalət və aclıq bəlasına düçar olur; uşaqları məktəbsiz, xəstələri mərəzxanəsizdir. Hətta uşaqları məktəbə, xəstələri xəstəxanaya aparmaq üçün araba verilirdi. İndi bu da yoxdur. Xəstəxanaların çoxu işləmir. Fəhlə hücrələrdə ölür. Kömək edilmir. Aldığımız məlumata görə xırda mədənlərdə 51, 16, 24-cü uçastoklarda fəhlələri işdən çıxarır və bəzi mədənlər 8 saat əvəzinə 14 saat işlədirlər. Bunların həpsi bir yerə toplandıqda görürüz ki, fəhlə məhv olub gedir. Ona görə ciddi çalışmaq lazımdır. Məsai naziri bunlar haqqında qəti və ciddi tədbirlər görməlidir”.

## Rəsulzadənin gizli yollarla Finlandiyaya keçməsi – Təsirli məktub

O, öz həyatını bütünlüklə xalqına qurban verdi. Çox çətinliklərdən keçdi. Elə biz də həmin çətinliklərin yalnız biri haqqında məlumat verəcəyik. Daha doğrusu, Rəsulzadənin özü bu harədə sizlərə “söhbət açacaq”.

O 1922-ci ilin 29 avqust tarixində məsləkdaşı Əlimərdan bəy Topçubaşova Finlandiyadan yazdığı məktubda deyir:

“Avqustun 25-də karantini tərk etdim və “Ziviki”11 adlanan stansiyaya gəldim. Orada bir günlik Nijnidəki qurultaylardan sizi çox yaxşı tanıyan Camaləddin babanın qonağı oldum. Zati-alinizə salam və ehtiramları vardır. 27-də Helsinqforsa gəldim. Mən gəldiyim gün Sədri Maqsudov əfəndi Berlinə yola düşmüşdü. Onunla görüşə bilməsək də, yazışdıq. Buranın müsəlmanları məni mehribanlıqla qarşıladılar. Tanıdıqlarımdam Abdulla Battal

ilə imam Lütfi İshaqov həzrətləri buradadırlar. Helsinqfors imamı Həkim əfəndi mənə lazım olan sənədləri və icazəni əldə etmək üçün çox böyük köməklik etdi. Finlandiya Xarici işlər nazirliyindən burada iki ay qalmağıma icazə verən razılıq sənədini aldı. Lakin Helsinqforsda yaşamaq üçün əlavə olaraq qubernatorun da icazəsi tələb olunur ki, bu da məndə yoxdur. Mənim yalnız şəhərə daxil olmaq icazəsi verən müvəqqəti sənədim vardır. İndi dostlar qubernatordan Helsinqforsda yaşamağıma icazə verən sənədin alınması üçün çalışırlar".

**Rəsulzadə məktubunda daha sonra Finlandiyaya necə gəlməsindən danışır:**

"Finlandiya torpağına gəlməyimin tarixçəsi belədir. Bəlkə də bilirsiniz, Moskvada Məmmədəli Rəsulzadə  və Abbasqulu Kazımzadə  ilə birlikdəydik və üçlükdə qaçmağı planlaşdırırdıq. Çünki birimizin qaçması digərləri üçün təhlükə yarada bilərdi. Hələ üstəlik Kazımzadə dövlət xidmətində çalışırdı. Məmmədəli ilə Kazımzadəni bir bəhanə ilə Bakıya göndərdim. Özüm isə yay tətilində elmi işlərlə məşğul olmaq bəhanəsilə Petroqrada gəldim. Burada iki fin qaçaqmalçısı ilə razılığa gəldikdən sonra, yağışlı və qaranlıq bir gecədə yelkənli qayıq ilə Qırmızı boğazın (Krasnı qorkanın)  yanından ötüb keçərək Finlandiya sahillərinə yan aldıq. Sonrası məlumdur. Finlandiya sərhəddini keçdiyim barədə məlumat aldıqdan dərhal sonra Məmmədəli ilə Abbasqulu İrana qaçmalı idilər. Moskvadan Petroqrada, oradan isə Helsinqforsa səfərim təqribən səkkiz min fin markası və bir milyard sovet puluna başa gəldi. Paltarlarımın bir hissəsi Petroqradda qaldı. Özümlə heç nə götürə bilmədim. Əşyalarımı sonradan göndərəcəklərinə söz veriblər".

**Qaynaqlar:** А.М. Топчибаши. Парижский Архив 1919-1940. Книга вторая 1921-1923. / Составители Г. Мамулиа и Р. Абуталыбов. Введение, перевод и примечания Г. Мамулиа. М., 2016. С. 453-455. Məktubun rus dilində tərcüməsi;

M.Ə. Rəsulzadə: “Məktublar. Şəfibəyçilik”

## Oğlunu itirən Topçubaşova Rəsulzadənin yazdığı kədərli məktub

1927-ci ildir... Çox şey dəyişib.... Topçubaşovun da Rəsulzadənin də həyatında çox ağır itkilər yaşanıb. Amma onlar yenə də möhkəmdirlər. Rəsulzadə öz məktubunda Topçubaşova bu cür təsəlli verməyə çalışır:

“29 mart tarixli təziyətnamənizi aldım. Hərarətli cümlələrlə bəyan etdiyiniz duyğular dərd görmüş bit atanın ağzından çıxdığı üçün atasını itirmiş bir oğulu  həm mütəəssir edir, həm də ona təsəlli verir. Nə edək, dözməliyik. Silsilədə bu həlqələr də varmış. Mərhumun ölüm ayağında, son nəfəsindəki duyğuları haqqındakı təsəvvürləriniz çox doğrudur. Könül arzu edərdi ki, bu qədər fəlakətdən sonra zavallı ixtiyarlarımız heç olmasa bir neçə gün də olsa məmləkətin qurtuluşunu görməklə məmnun olaydılar. Fəqət qədərin  quruluşunda məntiq nə gəzir? O, ixtiyarlara deyil, həyata hər cür haqları olan gənclərə belə qıyır. O, kürdür.  Bununla belə, böyük ədalətin mövcudluğunu düşünmürük. Bu ədalətdən gözləyirik ki, şəxsimizdən aldığını könlümüzə qaytarmaqla əvəzini versin. Duyğularınıza və dualarınıza görə çox-çox təşəkkür edirəm”

Rəsulzadənin bu məktubu 1927-ci il 12 aprel tarixində yazılıb. Amma Topçubaşova ünvanladığı bir başqa məktubda isə tamam ayrı məqamlara toxunub. 1927-ci il 25 mart tarixinə aid məktubu oxuculara maraqlı olar deyə, təqdim edirik:

"Xosrov bəy bundan səkkiz gün əvvəl İstanbula gəldi. Göndərdiyiniz əmanəti (beş min frankı) bu gün mənə təslim etdi. Özünə də söylədim: "Müsavat" Firqəsi bu pulu almaqdan imtina edir. Onun fikrincə, alaraq bölüşdürdüyünüz məlum pullar bütünlüklə İstanbulda yaradılmış Milli Mərkəz kassasına verilməlidir. Bunun üçün Xosrov bəydən aldığım göndərilən beş min frankı da Milli Mərkəz kassasına verdim. Milli Mərkəz isə bu pulları digər qisimlərin hesabatı və miqdarı müəyyən edilincəyədək depozito olaraq mühafizə edəcəkdir. İmkandan istifadə edib, hörmətlərimi yetirirəm, əfəndim".

**Qaynaqlar:** *А.М. Топчибаши. Парижский Архив 1919-1940. Книга вторая 1921-1923. / Составители Г. Мамулиа и Р. Абуталыбов. Введение, перевод и примечания Г. Мамулиа. М., 2016. С. 453-455. Məktubun rus dilində tərcüməsi;*
***M.Ə. Rəsulzadə: "Məktublar. Şəfibəyçilik"***

## Lahıcda Rəsulzadəni sataraq qoşalülə tüfənglə mükafatlandırılan satqının öldürülməsi

1920-ci ilin 28 aprelində Azərbaycan Cümhuriyyəti istilaçılar tərəfindən devrildikdən sonra Rəsulzadə Novxanıdakı evinə köçür. Müsavatçılardan Nəsib bəy Yusifbəyli vaxtaşırı onun yanına gedib-gəlir, Abbasqulu Kazımzadə isə şəhərdə baş verən xəbərləri aparıb-gətirirdi. Sonuncu dəfə Rəsulzadənin yanına gələndə o, dostuna dedi:

-Məhəmməd Əmin bəy, siz daha burada da qala bilməyəcəksiniz! Əliheydər Qarayev sizin həbs edilməniz haqqında qərar

çıxarıb. Bəylər qərara gəliblər ki, sizi Lahıca aparaq. Çünki şəhərlə Novxanının arasında elə böyük məsafə yoxdur. Bakıdan Şamaxıya, oradan Qaraməryamadək bütün yollara bolşeviklər nəzarət edirlər. Odur ki, təcili yığışın!

Bakını tərk etmək vaxtı çatmışdı. Qərara alındı ki, Sarı Ələkbərə müraciət edilsin. Sarı Ələkbər çoban olsa da, zirək adam idi. O, Rəsulzadəni Müsavatın güclü özəyi olduğu Şubanı dağlarının arasıyla Lahıca aparmağı məsləhət gördü.

**Etibarlı dostlar**

O, Lahıca çox böyük çətinliklə gedib. Çünki hər yerdə təqib olunurdu. Adicə faytona minəndə də ehtiyat etdiyi deyilir. Bu şübhələrində haqlı idi. Çünki ətrafda Rəsulzadəni satmaq üçün növbədə dayanan insanlar çox idi. Bu səbəbdən də faytonuna minmək istədiyi qoca faytonçunun ona baxışından şübhələnir. Lakin qorxulu heç nə yox idi. Sonradan hadisənin nə yerdə olduğunu biləndə dünyagörmüş faytonçu etiraf edəcəkdi: "Mən ömrümdə ilk dəfə idi ki, elə işıqlı, nurlu sifəti olan adam görürdüm. Necə ağıllı baxışı, mədəni davranışı vardı! Hiss olunurdu ki, çox da səliqəli adamdır".

Abbasqulu Kazımzadə Rəsulzadəni bu ağır səfərə tək buraxmamışdı. Atlar yəhərləndi. Dağların arasıyla Gimçi kəndinə gəldilər. Orada Seyid Zəki adlı hörmətli bir şəxsin evində yığışıb sonrakı addımlarını müzakirə etməyə başladılar. Gəmçidən Lahıca gedən Seyid Zəki oğlunu Rəsulzadəgilə qoşdu. Lahıca sağ-salamat çatıb dostunun evinə düşsələr də, burada uzun müddət ləngiməyib, tez-tez qaldıqları yeri dəyişirdilər.

**Fitnələrin oyunu**

Rəsulzadənin tədbirli tərpənib Bakını tərk etdiyini eşidən Əliheydər Qarayev də hər yana adam salıb, onu axtartdırırdı. Nəhayət, Rəsulzadəni Lahıcda yaxalaya bilib, Bakıya gətirdilər.

**Tədqiqatçı alim Ədalət Tahirzadə araşdırmalarının birində Rəsulzadənin Lahıcda necə həbs olunması barəsində maraqlı məqamlara toxunub:**

“1920-ci ilin aprelində Sovet hakimiyyəti qurulandan sonra Məhəmməd Əmin Rəsulzadə bir qrup silahdaşı ilə birgə İsmayıllı rayonunun Lahıc kəndində qalmalı olur. Lakin orada çox qala bilmirlər. Yerlərini dəyişmək məqsədilə yola çıxırlar və İsmayıllı rayonunun Aşıq Bayram kəndi yaxınlığında hökumət qüvvələri onları həbs edir. Rəsulzadənin və yoldaşlarının yerini isə Lahıc kənd sakini Əliabbas bəy Nəsrulla bəy oğlu Səfərbəyov xəbər verib. Bu “xidmətinə” görə kommunistlər ona qoşalülə tüfəng bağışlayıblar.

Bu hadisədən bir müddət sonra Ə.Səfərbəyovu həbs edirlər. O da hökumətə sədaqətini sübut etmək üçün o zaman M.Ə.Rəsulzadəni satdığını bildirir. Mən bu məlumatları Ə.Səfərbəyovun istintaqa verdiyi ifadələrindən götürmüşəm. Başqa mənbələrdə də bu haqda məlumatlar var. Lakin sonradan izi itirmək üçün onu güllələyirlər”.

**Qaytarılan borc**

Rəsulzadənin ömrünün bu ağır illərində-ölümün pəncəsindəki olduğu dönəmdə onun necə çətin yollarla xilas olması haqqında çox danışlıb. Əsasən də Stalinin adı çəkilib. Doğrudur, tarixdə belə fakt olub: Stalin Rəsulzadəni güllələnməkdən xilas edib, daha doğrusu, ona borcunu qaytarıb.

**Rəsulzadənin Lahıc səfəri barəsində bir başqa versiya**

Başqa bir versiyaya əsasən, Rəsulzadə əvvəlcə Xızının Təzəkənd kəndinə gəlir. Burada onu Xızı və Qarabulaq camaatı

qarşılayır. Onların arasında gənc Cəfər Cabbarlı da olub. Az müddətdən sonra Rəsulzadənin Təzəkənddə də qalması təhlükəli olur. Çünki casuslar artıq onun gizləndiyi yeri bilmiş və tezliklə hərəkətə keçmişdilər. Bu səbəbdən, onu Gimçi kəndinə-Hacı Seyid Zəki ağanın yanına göndərirlər.

Seyid Zəki ağanın nəvəsi Mirhəsənin sözlərinə görə, Seyid Zəki ağa Məhəmməd Əmin Rəsulzadənin uzaq qohumlarından olub. Ona görə də Rəsulzadənin özü də qohumunun yanında qalmağa, orada bolşeviklərdən qorunmağa maraqlı olub. Çünki Seyid Zəki ağa bütün ətraf kəndlərdə, qəsəbələrdə hamının xüsusi hörmət bəslədiyi insan idi. Odur ki, casusluq edən kəslər başqalarından fərqli olaraq, onun evini pusa bilməz, hətta bundan xəbərləri olsa da belə ağaya nəsə etməzdilər. Hər halda, Rəsulzadə bu cür düşünürdü. Amma təəssüf ki, onu seyidin evinə gətirən hər iki səbəb sonradan puç olur. Təzəkənddə yeri öyrənilən Rəsulzadənin Gimçidə də izinə düşürlər. Seyid Zəki ağanın şəxsi nüfuzu səbəbindən bir neçə kənd sakini gecə ikən gizlincə onun evinə gəlir və qonağı başqa yerə aparmağı, kənddən çıxarmağı məsləhət görürlər.

Seyid Zəki ağa vaxtı fövtə verməyib, qonağın yerini dəyişdirmək qərarına gəlir. Rəsulzadəni gizli yollarla Lahıca göndərir. O, Lahıcda  Seyid Zəki ağanın dostları və qohumlarının yanında qalır".

**Amma yenə də…**

Həbs olunandan sonra Rəsulzadə Pankratov kimi cəlladla üz-üzə qalmalı, onun tənəli suallarına və sərt rəftarına davam gətirməli olub. Rəsulzadəni  bir müddət çox şəraitsiz yerdə saxlayıblar. Lakin bir gün Bakıya Stalinin gəlişi hər şeyi dəyişdirir.

**Nəsiman Yaqublunun araşdırmalarına görə Məhəmməd Əmin Rəsulzadə həbs olunanda "Gizli müsavat"ın tapşırığı ilə Ağabala Qasımov Vladiqafqaza gedib Stalinə məlumat çatdırır. Və Stalin də keçmiş mübarizə dostunu - onu neçə dəfə ölümdən qurtarmış Məhəmməd Əmini xilas etməyə gəlir:**

"Stalinin göstərişi ilə Pankratov çölə çıxır. Köhnə mübarizə dostları tək qalır. Və aralarında açıq, yalnız həqiqət faktlarını üzə çıxaran söhbət gedir. Stalin Məhəmməd Əmin Rəsulzadəyə bildirir ki, vəziyyətiniz çox ağırdır.

"Azərbaycanlı kommunistlərin bir qismi güllələnməyinizi, digəri isə ömürlük həbsxanada qalmağınızı məsləhət görürlər. Amma mən bunların heç birini rəva bilmirəm və məqsədim sizi xilas etməkdir".

Stalin məsləhət görür ki, onunla birlikdə Moskvaya getsin, çünki azərbaycanlı kommunistlər onu sakit buraxmayacaqlar. Məhəmməd Əmin Rəsulzadə Stalinlə söhbətində çox məsələlərdən danışdı. Stalinə sübut etdi ki, "siz haqqımızı, istiqlalımızı tapdayıb buraya gəlmisiniz. Böyük millətlərdən kömək gözləməyin də faydası yoxdur. Çünki onlar Türkiyə ilə düşmən vəziyyətindədir. Siz isə "Türkiyəyə kömək" şüarını irəli sürüb xalqımızı əsarətə aldınız". Məhəmməd Əmin Rəsulzadə Stalinə çox həqiqətləri söylədi o görüşdə. Bir saata kimi aralarında danışıq getdi. Həmin o danışıqda Stalin Məhəmməd Əmin Rəsulzadəyə bir söz də dedi: "Nəriman bizimlə yox, biz Nərimanla anlaşdıq"...

Məhəmməd Əmin Rəsulzadə "dörd divar arasından" çıxmağa razı olub Stalinin təklifini qəbul edir. Stalin isə Pankratovu içəri

çağırıb deyir: "Bura bax, bu adamı qaranlıq bir mətbəxdə saxlayırsınız, dərhal onu münasib bir otağa köçürün və ailəsinə də onunla görüşmək imkanı verin".

Pankratov Stalinin göstərişini yerinə yetirir. Rəsulzadəni eyvanlı, münasib bir otağa köçürürlər. Bir neçə gündən sonra Stalinlə birlikdə Moskvaya yola düşürlər. Yola düşməzdən qabaq ailəsi ilə görüşmək imkanı verilir…

**Qeyd: Yazıda Nəsiman Yaqublunun "Məhəmməd Əmin Rəsulzadə" monoqrafiyasından və bir neçə sərbəst araşdırmalarından istifadə edilib**.

## "Parasızlıq məni düşündürür, ailəmi bura köçürmək istəyirəm" – Rəsulzadənin qürbət dərdi

Azərbaycan Cümhuriyyəti devriləndən sonra Rəsulzadə mühacirətə getməli olur. Yeni quruluş isə onun ailəsi və yaxın qohumlarını da təqdib edir. 19 yaşlı oğlu Rəsul güllələnir, həyat yoldaşı, anası, qızları və körpə oğlu Qazaxıstana sürgün edilir.

M.Ə.Rəsulzadə böyük cəhdlə ailəsini xilas etməyə - Türkiyəyə gətirməyə çalışıb. Oğlu Azərin dediyinə görə, hətta bir dəfə qatara minib getməyə də hazırlaşıblar. Lakin M.Ə.Rəsulzadənin atası Axund Hacı Ələkbər məsləhət bilməyib və onlar Bakıda qalıblar. 1932-ci ilə qədər isə M.Ə.Rəsulzadə müxtəlif adamlarla ailəsinə maddi yardımlar göstərib, hətta geyim, paltar da alıb göndərib. Sonradan sərhədlər bağlandığından bu mümkün olmayıb. Bakıda gizli fəaliyyət göstərən müsavatçılar isə imkan daxilində M.Ə.Rəsulzadənin ailəsinə müəyyən köməklik edib.

**Rəsulzadə 1923-cü ilin iyununda məslək yoldaşı Ceyhun Hacıbəyliyə yazdığı məktubların birində ailəsi barəsində də danışır:**

"Əzizim Ceyhun bəy! Mən Sizi Almaniyada bilirdim. Əli Yusif  hal-hazırda Parisdə olduğunuzu xəbər verdi. Sizə yazdığım məktuba cavab alamadım. Göndərdiyim kitabımı bilmirəm aldınızmı? Kitab haqqında fikiriniz nədir? Onu burada yazdım. Lazım gələn materiallar əl altında yox idi. Necə alınıb, bilmirəm. Mən sizin göndərdiyiniz son ünvanlara kitablar yolladım. Geri gəldi. Nə üçün, anlamadım. Əvvəlki məktubumda yazdığım kimi kitablar yandı. Əgər məktubunu alıb, doğru ünvanını öyrənsəm, yenə alıb göndərərəm. Sizə qəzetlər də göndərilir. Əcəba alırmısınızmı? Bugünlərdə "Yeni Kafkasya" adı ilə bir qəzet çıxarmaq niyyətindəyəm. İştirakınızı arzu edirəm. Hadisələr və məqalələrinizi gözləyirik. Lakin qəzet maddi cəhətdən kasıb olduğundan müəllif haqqı verməkdə acizdir. Gələcəkdə maddi durumumuz güclənərsə müəllif haqqı da ödəniləcəkdir. Qəzetin adı da yeni düşünülmüş bir şey deyildir. Keçmişdən mövcud olan bir münasib addan istifadə edirik.

Zöhrə xanıma ərzi-salam. Uşaqların gözlərindən öpürəm. Necədirlər? Məişətiniz necə keçir? Sıxılmırsınız? Yenə əvvəlki evinizdəmisiniz? Əcəba, Almaniyaya nə üçün köçmədiniz? Bəlkə baş verən gündəlik hadisələr Sizin fikirinizi dəyişdi? Yorğundurlarmı? Heyət  nə edir? Məhərrəmov yazılan kağızlara cavab verməyir. Yoxsa kağızlarımı almayır? Yoxsa oradamı deyildir? Kitabımdan bugünlərdə "Revue du Monde Musulman"a göndərəcəyəm. Misyo Yuraya məndən salam. Ona da göndərəcəyəm".

**Məktubun bu yerinə xüsusi diqqət edək. Rəsulzadə çox mətin adam olub. Amma elə dərdlər var ki, onları bölüşməmək sadəcə, mümkün deyil:**

"Vallahi parasızlıq məni çox düşündürür. Ailəliləri düşünürəm. Mən də ailəmin buraya köçürülməsi üçün çalışıram. Uşaqların tərbiyəsi məni düşündürür. Eşitdiyimə görə ingilis heyəti borcunu tələb etmək üzrə imiş. Gürcülərdən belə bir şey eşitdim. Səy edilirmi? İş nə yerdədir? Mir Yaqubdan şikayət vardı ki, kağızlarına cavab gəlməyir. Halbuki, dostumuzu itirdik. İndi Almaniyadadırmı? Son məktubuma da cavab almadım. Əkbər ağa Almaniyada imiş. Bakıdan gələnlərdən öyrəndiyimə görə ailəniz, qardaşınız salamatdırlar. Əli Yusif sağ-salamat Azərbaycana keçdi. Əli Mərdan bəyin yazdığına görə, bu yaxınlarda xarici dövlətlərə bir tağım protesto notaları göndərilmişdir. Cavablar alınmışdır. Təssüf ki, nə notanı, nə də cavabını, nə kopya surətilə, nə digər bir şəkildə nəql etməyir. Əldə olsaydı, İstanbul qəzetlərindən bəzilərinə müraciət edib, nəşr etdirərdik. Bir əsəri-mövcudiyyət olardı. Əbilovun ölümü fəna olmadı"..

*Qaynaqlar: М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков.*

*Məhəmməd Əmin Rəsulzadə "Məktublar. Şəfibəyçilik".*

## Rəsulzadənin Atatürkdən "incikliyi" – "O, qurtulan Şərqin simvoludur"

Azərbaycan tarixi üçün də Mustafa Kamal Atatürkün çox böyük önəmi var. Lakin tarixin bir mərhələsi var ki, orada Atatürk diplomatik məsələlər üzündən müəyyən addım atıb. Çox təəssüf ki, həmin addım səhvən onun Rəsulzadə şəxsiyyətinə yanlış münasibəti kimi anlaşılıb. Əslində, isə elə olmayıb. Onların hər ikisinin bir-birinə dərin hörmət və sayğıları olub. Atatürk yeni qurulacaq partiyaya Rəsulzadənin də dəvət olunacağını

eşidəndə İsmət İnönüyə “sizin partiyanızın taleyi çox şanslı oldu” cavabını verir.

İddialara görə, guya o zaman Rəsulzadə Atatürkdən bərk inciyib. Əslində, elə olmayıb. Söhbət 1930-ci ildən gedir. Yeni toparlanmaqda olan Türkiyə SSRİ ilə müqavilə imzalayır və o müqavilənin gizli bəndinə görə....

**Yaxşısı budur, elmi fəaliyyətini Rəsulzadə şəxsiyyətinə həsr edən Nəsiman Yaqublunu “dinləyək”:**

“Yox, o heç zaman türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkdən narazılıq etmədi. Heç zaman onun haqqında xeyirxahlıq və səmimiyyətdən başqa bir söz demədi. Ölkədən çıxıb getməyini tələb etdiyinə görə də Atatürkə olan hörmət və səmimiyyətini itirmədi. Dövrün, şəraitin belə olduğunu bilirdi. O, xırda hisslərlə yaşayan adam deyildi, onu böyük işlər, ən başlıcası isə Azərbaycanın taleyi maraqlandırırdı. Türkiyədə vətənini müdafiə etməsi, məcmuələr çıxarıb bütün dünyaya səs salması köhnə mübarizə dostunu, indi vətənini əsarətdə saxlayan Stalini, bolşeviklər hökumətini narahat edirdi. Getdikcə cəsarətli oğullarını qırıb, xalqı öz rejimlərinə tabe etdirdikləri Azərbaycanda Məmməd Əmin Rəsulzadənin səsi yenə eşidilirdi. Bu səs onları qıcıqlandırır, yerindən edirdi. Bu səsdən qorxur, həyəcan keçirirdilər. Bu səsin ən yumşaq eşidilməsi xalqı üsyana, azadlıq mübarizəsinə çağırış idi. Bu səsi boğmaq, kəsmək lazım idi. Bu səs boğulsa, Azərbaycandan ötrü narahatlıq keçirməyə dəyməzdi. Budur, belə imkan yaranıb. 1931-ci ildə Türkiyə ilə Sovetlər Birliyi arasında imzalanan dostluq müqaviləsinin gizli bir bəndi də bundan ibarət idi: Türkiyədəki mühacirlər ölkədən çıxarılsın, sovet hökuməti əleyhinə təbliğat işi aparmasınlar.

Atatürkün xəbərini çatdırmışdılar ona. Başqa yol yox idi. Türkiyədən çıxmalı idi. Türkiyəni belə bir addım atmağa məcbur

edən səbəbləri başa düşürdü. Dövrün, şəraitin mürəkkəbliyi Türkiyəni Sovetlər Birliyi ilə yaxınlığa məcbur edirdi. Bu yaxınlıq heç də Atatürkün Rusiyaya, yaxud kommunist rejiminə məhəbbətindən irəli gəlmirdi. Yox, Atatürk kommunist rejiminə nifrət edirdi. O həmişə türk və milliyyətçi olmağın tərəfində dayanırdı. O, türk şərəfi və heysiyyətini hər şeydən yüksək tuturdu. Bir dəfə Ankaradakı rus elçiliyindəki görüşdə Rusiyanın baş elçisi Qaraxan Türkiyə əleyhinə bəzi sözlər danışmışdı. Atatürk sovet diktatoru Stalini hədəfə alaraq Qaraxana ağır ittihamlar demişdi. Bəli, Atatürk milliyyətçi idi və kommunizmə nifrət edirdi. O deyirdi: "Burası unudulmamalıdır ki, türk aləminin ən böyük düşməni kommunistlikdir. Hər görüldüyü yerdə əzilməli!"

Əlahəzrət diplomatiya öz işini görmüşdü. Atatürk Rəsulzadə və onun silahdaşlarını taleyin ümidinə buraxmırdı. Hər şeyin öz vaxtı-vədəsi var idi. Paşa çox yaxşı bilirdi ki, qan qardaşı olan azərbaycanlılar qısa müddətdən sonra yenidən özlərinin ikinci Vətənlərinə pənah gətirəcəklər. İndi isə gözləmək lazımdır. Çünki söhbət yeni qurulan Cümhuriyyətin də taleyinə təsir edəcək qərardan gedir. Atatürkün uzaqgörənliyi bir daha sübut olundu. Çox keçmədən Rəsulzadə və bir çox aydınlarımız Türkiyəyə dönüb, ömürlərini orada başa vurdular:

"Atatürk onun və yurddaşlarının Türkiyədən çıxıb getməyini tələb edirdi. Və getməkdən başqa bir çıxış yolu yox idi. Amma o, incimirdi Atatürkdən. Atatürk haqqında həmişə məhəbbətlə danışırdı. Sonradan yazacağı bir məqalədə isə Atatürk haqqında bu sözləri deyəcək, onu "qurtulan Şərqin simvolu" adlandıracaqdı: *"XX əsrin şərqi, XIX əsr qərb tarixinin qeyd etdiyi Amerika ihtilalı ilə fransız inqilabını bir həmlədə yapmaq zərurətindədir.*

*Mustafa Kamalın böyüklüyü, işdə tarixin bu zərurətini qavrayışındadır. Bu şömüllü dahisi ilə türk milliyyətçiliyinin şanlı başbuğu, eyni zamanda qurtulan şərqin simvoludur!".*

Türkiyədən ayrıldılar. Türkün ikinci bir qapısı üzlərinə bağlanırdı. Birincisini bolşeviklər zorla, süngü gücü ilə bağlamışdılar. İkincisini isə bicliklə, siyasətlə, başqasının əli ilə qapayırdılar. Türkiyənin həmişə doğmalıq gördükləri torpağından ayrıldılar. Başı müsibətlər çəkmiş müsavatçılarla birlikdə o və əmisi oğlu Məmməd Əli tozlu-torpaqlı yolla üz tutub qərib ölkələrə gedirdilər. Hamısı düşkün, fikirli, xəyallı. Hamısı taleyin bu acı hökmünə içəridə ağrıyırdılar. Vətəndən qovulmuş müsavatçılar sonu, bucağı görünməyən qara bir yolla baş alıb gedirdilər. İstiqlal yolçuları! Yurdundan, obasından qovulmuş zavallılar, bu nə haldır düşmüsünüz? Nakam Azərilər, hara belə gedirsiniz? Sizi hər yerdən qovurlar, yaşamaq haqqınızı əlinizdən alırlar! Hara, hara gedirsiniz? Vətəninizi al qan içində, oğullarınızı başı kəsilən vəziyyətdə qoyub hara gedirsiniz? Siz ki, haqqınız, azadlığınız yolunda çalışırsınız. Deməк, haqqını tələb etmək azəri türkünə qadağan olunub. Qəribə məntiqdir! Türkiyədən çıxanda xoşagəlməz hadisə baş verdi. Onların hamısına Trakiyadan çıxıb getməyə icazə verdikləri halda, əmisi oğlu Məmməd Əlini Suriyadan çıxarmaq istədilər. Nəhayət, onu da dostlarından ayırmadılar. Hər ikisi bir-birinə bağlanmışdı. Hər iki əmioğlunun bir yaşayış amalı vardı – Azərbaycanı azad etmək! Elə bu istək onları bir-birinə daha da qırılmaz tellərlə bağlayırdı".

**"Rəsulzadənin oğlu Xəzəri görən kimi pal-paltarlı dənizə tullandı"**

...Azər iki aylıq ikən Məhəmməd Əmin evə gələrək öz körpəsini öpür, adının nə olduğunu soruşur. Ümbülbanu

xanım isə uşağın adını Əliheydər qoyduqlarını deyir. Məhəmməd Əmin oğlunu bağrına basıb narazılıq dolu coşğunluqla deyir: - Yox, bu, Əliheydər olmayacaq. Bu azəri oğludur: Azər olacaq!

Məhəmməd Əmin oğlu Azərlə belə görüşüb ayrılır. Və onlar bir daha görüşmürlər. Gözünün qabağında bütün ailəsi pərən-pərən olan Azər sonradan Qazaxıstan sürgünündən Bakıya bir dəfə gəlsə də, yenidən geri dönür. Onu həmin illərdə Rəsulzadənin övladı kimi yox, sıravi bir şəxs kimi çox soyuq qarşılayırlar.

**Bir ömürlük sürgün-yaxud, bir sürgünlük ömür…**

Azər bəyin Bakıya gəlişi barəsində az sonra danışacağıq. Əvvəlcə onun  Bakıdan gedişinin tarixçəsindən danışaq. Azər bəy ömrünün 17 ilini bu şəhərdə, Novxanı qumsallıqlarında, Xəzər xəzrisinin əhatəsində keçirmişdi. Məhəmməd Əmin irsinin araşdırmaçısı Nəsiman Yaqublu Azər bəylə Karaqandadakı (Qazaxıstan) olan söhbətində maraqlı bir detala toxunur. Ona Məhəmməd Əminin indi tamam başqa gözlə baxdıqlarını, bir qəhrəman kimi qəbul etdiklərini və Bakıya gələrsə, onun üçün də yaxşı olacağını bildirəndə oğul bu sualı verib: *“Görəsən, ora gəlsəm, mənə ev verərlərmi?”*

**Bu sualın cavabı indi o qədər də əhəmiyyət kəsb etmir. İndi heç Azər bəy də yoxdur. Amma onun sürgün yaşantılarını əks etdirən xatirələr bu gün də qalmaqdadır:** “Axşamüstü anam getmişdi  xalamgilə, maşınla bizi aparmağa gəldilər. Əvvəl anamın harada olduğunu soruşdular. Sonra məni də maşına mindirib apardılar xalamgilə. Anamı götürüb gəldilər. Evdəki şeylərdən heç nəyi götürməyə qoymadılar. Evimizdə bir tar var idi. Anam tarı o vaxtın pulu ilə 130 manata almışdı. Tarı götürmək istədim. İkisi etiraz etmədi, lakin üçüncüsü

tarı əlimdən alıb bir qırağa atdı. (Anasının aldığı o yadigar tarı Azər müəllim sonradan soraqlayıb tapır və geri alır). Sonra bizi maşına mindirib apardılar həbsxanaya. Yadımdadır ki, həmin gün güclü yağış yağırdı. "Azneft" meydanını su basmışdı. Bizi aparan maşın çətinliklə gölməcələri yarıb keçirdi. Əvvəl istədilər ki, hamımızı çoxlu kişilər olan kameraya doldursunlar, lakin bacım Xalidə etiraz etdi, qışqırıb hay-küy qopartdı... Ailəmizi həbs edəndən sonra bizi Gəncəyə apardılar. Düz bir ay Gəncə həbsxanasında qaldıq. Sürgünə göndərilənlər çox olduğundan biz növbə gözləyirdik. Nəhayət, gəlib sabah yola düşəcəyimizi dedilər. Vəziyyətimiz yaxşı deyildi. Özümüzlə, demək olar ki, heç nə götürməmişdik. Başqa ailələrə pal-paltar, yorğan-döşək götürməyə imkan vermişdilər. Bizim ailəyə isə hər şey qadağan olunmuşdu. Düz 28 gün qatarda yol getdik. Şəraitimiz dəhşətli dərəcədə dözülməz idi. Hər vaqonda beş-altı ailə gedirdi. Qoca nənəm dindar adam idi. Özgə kişilərin yanında bayıra çıxmamaq üçün düz, 28 gün heç nə yemədi, elə hərdən qəndi suya batırıb sümürürdü ki, aclığa tab gətirsin. Min bir əzablı, əziyyətli yol səfərindən sonra gəlib Qazaxıstana, Taldı-Kurqana çatdıq. Əvvəlcə bizi oradakı bir orta məktəbin siniflərinə doldurdular. Qazaxıstanın 40-50 dərəcə soyuğunda hamımız donurduq. Yerli qazax uşaqları gəlib maraqla bizə baxırdılar. Bəzən, gətirib çörək də verirdilər. Həmin vaxt ikinci bir ağır zərbə aldıq. 28 gün çörək yeməyən nənəm uzun müddətin aclığından və bizə verilən xörəyi yeyəndən sonra dünyaya göz yumdu...

**"Ey, şanlı Vətən"**

Yuxarıdakı qeydlər Nəsiman Yaqublunun "Məhəmməd Əmin Rəsulzadə" adlı monoqrafiyasından götürülüb. Lakin Azər bəyin Bakıya səfərlərini və təəssüratlarını öyrənmək üçün

bu ailənin yaxın dostu olan araşdırmaçı ilə əlaqə saxladıq. Nəsiman müəllim açıqlamasında həm Bakıdakı, həm də Karaqandadakı Azər Rəsulzadəni çox gözəl xarakterizə etdi:

"Azər Rəsulzadə bir neçə dəfə Bakıda olub. Sovet dövründə gizli şəkildə bura gələr, bir-iki gün qalandan sonra yenidən Qazaxıstana yollanardı. Çünki onun burada olmasına icazə verilmirdi. Ancaq SSRİ dağılandan sonra sərbəst Bakıya gəlmək imkanı oldu. 1991-ci ilin fevralında Bakıya gəldi. Onu qarşılaya bilmədim, Türkiyədə idim. Qayıdan kimi Azər Rəsulzadəyə baş çəkdim. O zaman oğlu Rəis Rəsulzadə "Əhmədli" tərəfdə yaşayırdı. Azər Rəsulzadə də oğlunun yanında qalırdı. Onda mən Rəsulzadənin indi hamıya məlum olan məşhur səs yazısını ilk dəfə özümlə Bakıya gətirmişdim. ( *Rəsulzadənin "Amerikanın səsi" radiaosu ilə müraciətini nəzərdə tutur. E.N).* Səsin yazıldığı kaseti maqentafona qoydum, istədim ki, Azər Rəsulzadə atasının səsini ilk dəfə eşidə bilsin. Siz bilirsiz, o hələ beşikdə ikən Məhəmməd Əmin ölkəni tərk etməyə məcbur olmuşdu. Ona görə də Azər onun səsini heç vaxt eşitməmişdi. Şəxsən mənim özümə də maraqlı idi; gözləyirdim, görüm ilk dəfə atasını eşidəndə nə kimi reaksiya verəcək. Dinlədi. Simasında çox qəribə əhval-ruhiyyə yarandı. Bəlkə, də həmin anı tam olaraq dərk edə bilmirdi. Ancaq "maraqlıdır", "çox maraqlıdır" deyə reaksiya verə bildi. Amma onun əsl reaksiyası dediklərində yox, üz-gözündəki hiss-həyəcanında idi. Bunu isə gözlə görmək lazım idi. Həmin gün Rəis Rəsulzadənin evində xeyli söhbətləşdik, dedik-güldük. Çox gülərüz, mehriban insan idi. Təəssüflər olsun ki, buradan qayıdan kimi Karaqandadakı evində xəstələndi. Səhv etmirəmsə, 1992-ci ildə bir dəfə də Bakıya gəldi. Amma qısa müddətli… Artıq o zaman xəstə idi və Qazaxıstana qayıdandan sonra da

yatağa düşdü. Ölümündən bir neçə gün əvvəl zəng edib onunla danışdım. Güclə danışırdı. Vəziyyətinin ağır olduğunu, ayaqlarının işləmədiyini dedi. Çox təəssüf ki, həmin telefon danışığından bir neçə ay sonra dünyasını dəyişdi.

Karaqandadakı evi həyət evi idi. Orada bir neçə dəfə olmuşam. Həyətdə hər şey əkirdi. Torpağa çox bağlı idi. Bir də, həmin evindən bir az irəlidəki gölə tez-tez gedər, demək olar ki, hər gün orada çimərdi. Deyərdi ki, mənim uşaqlığım Xəzərin kənarında, Novxanıda keçib. Mən susuz, Xəzərsiz yaşaya bilmərəm. Elə bununla bağlı sizə bir maraqlı hadisə də danışım: sürgün olunandan haradasa, 8-9 il sonra gizli şəkildə Bakıya gəlmək istəyir. Birbaşa icazə olmadığı üçün Türkmənistan vasitəsilə gəmi ilə bura keçməli olur. Azər hələ Xəzərin Türkmənistana aid hissəsini görən kimi özünü saxlaya bilmir. Elə paltarlı-zadlı özünü dənizə atır. Ətrafdakılar da başa düşmür ki, bu nə edir, nə üçün özünü pal-paltarlı dənizə atır. Amma anlamırdılar ki, o dəniz onun uşaqlığının acılı-şirinli xatirəsidir. Azər bəy ömrünün axırına qədər həmin xatirələrlə yaşadı. İstər bura gələndə, istərsə də biz ora gedəndə hər zaman ən birinci Xəzəri soruşardı.

Həyat yoldaşı da çox gözəl insan idi; rus qızı Mariya. Mariya onun ikinci evliliyi idi, birinci evli olduğu qadın azərbaycanlı olub. Dünyasını tez dəyişmişdi. Amma Mariya da çox gözəl qadın idi və Rəsulzadələrin kimliyini, Azər bəyin hansı ailədən olduğunu gözəl bilirdi. Hər zaman da bu soyada hörmətlə yanaşırdı”.

**Xatirələr arası toqquşmalar**

**Nəsiman Yaqublu Azər bəyin Bakı təəssüratları haqqında bir neçə maraqlı detalı da vurğulayır. Burada həm xatirələr, həm də hisslərin toqquşması var:**

"Onun Bakı haqqında təəssüratları nisbətən fərqli idi. Həyat elə gətirmişdi ki, o artıq uzun illər yaşadığı Karaqandaya alışmışdı. Bakıda isə ancaq Novxanıda və dəniz kənarı olan yerlərdə olmaq istəyirdi. Şəhərin mərkəzində qərar tuta bilmirdi. Bu səbəbdən də çox zaman kənar yerlərə gedirdi. Amma ümumiyyətlə, nəinki onun, bütün Rəsulzadələrin Bakıya, onun dənizinə sevgisi çox böyük olub. Azər bəy həm də yaxşı tar çalardı. İçərişəhərli Kor Həsənəli ona tar ifasını öyrətmişdi. Həm də çox gözəl rəssam idi. Əfsanəvi qəhrəman Mehdi Hüseynzadə ilə dostluq edərdilər. Bərabər rəsmlər çəkib satar, beləcə pul qazanardılar. Amma 1938-ci ildə Azər ailəsi ilə birlikdə Qazaxıstana sürgünə getdikdən sonra onların ortaq işinə son qoyuldu. Maraqlı bir faktı deyim: bir dəfə onlar rəsm çəkib satırlar. Lakin rəsmin pulunu almadan Azər bəy ailəsi ilə birlikdə sürgünə gedir. Mehdi Hüseynzadə sonradan rəsmin pulunu alıb ona göndərmişdi. Bu da Mehdinin güclü xarakterindən, düzgünlüyündən irəli gəlir.

Bayaq Azər bəyin yaxşı tar ifa etdiyini dedim. Karaqandadakı evində olanda tarda çox yaxşı "Bayatı-Şiraz" çalardı. Onun ifası həddindən artıq təsirli idi. Əvvəlcə, xatirələrə dalar, Bakıdan, ailəsindən danışar, daha sonra isə tara keçərdi. Bir dəfə nə təhər möhkəm kövrəldisə, indi də o anı unuda bilmirəm. Rəsulzadə ailəsi çox faciələrlə üz-üzə qalıb. Ailə pərən-pərən düşüb, kimisi donvurmadan ölüb, kimisi acından, kimisi də qəm-qüssədən… Amma bu ailənin ilk qurbanı Rəsulzadənin böyük oğlu Rəsul olub. Azər bəy qardaşından danışanda 70 yaşı olmasına baxmayaraq, çox kövrəlirdi. Bir dəfə də dedi ki, bağda qardaşımla uzanmışdıq. Birdən əsgərlər gəlib zorla qardaşımı bizdən ayırıb apardılar. Bütün ailə ah-nalə edir, fəryad qoparırdı. Amma onlara kimsə fikir vermirdi. Rəsul çox gözəl bilirdi ki, onu güllələməyə

aparırlar. Mən sonradan istintaq materialları ilə tanış oldum. Rəsul sorğu-sual zamanı cəmi bircə dəfə deyir ki, mümkünsə, məni güllələməyin. Gəncliyimə, cavanlığıma baxıb bunu etməyin. O, yalvar-yaxar etmir, sadəcə, yüksək təmkinlə bircə dəfə bunu deyir. Amma buna əməl edilmir, Rəsul güllələnir. Azər Rəsulzadə bu əhvalatı mənə danışanda çox möhkəm kövrəlirdi

**Son olaraq…Yaxud, bir arzunun tarixçəsi**

**Son olaraq Azər bəyin oğlu Rəis Rəsulzadənin atasının Bakı səfəri haqqında qeydlərini təqdim edirik:**

"1988-ci ildə də gəlmişdi bura. Meydanda toplantıları, tonqalları görürdü. Bu, onu təəccübləndirirdi. Bir yandan da çox sevinirdi. Azərbaycanın o vaxtkı prezidenti Əbülfəz Elçibəylə də yazışırdı. Onların bir-birlərinə məktubları var. Atam 1991-ci ildə yenə Bakıya gəlmişdi. Xəstələndi. Bir müddət Mərkəzi Klinikada yatdı. Qayıtmazdan qabaq Novxanıya getdi. Ulu babamızın məzarını ziyarət elədi. Gördüm əliylə göstərir ki, məni burda dəfn edərsiniz. Orda da yer az idi. Mən də dedim, nə danışırsan, o yan-bu yan… Getdi dəniz qırağına. Uşaqlıqda gəzdiyi yerlərə baxdı, xatirələrə daldı. Sonra Qazaxıstana getdi. İki ildən sonra ağır xəstələndi. Serroz oldu. Getdim, iki ay başının üstündə oturdum. Mənə deyirdi ki, gedirəm Bakıya, məni Bakıya apar. Yığışdıq ki, gedək, fikrini dəyişdi. Dedi, yox, mən getmirəm, amma orda dəfn eləyərsiniz məni. Dedim, niyə getmək istəmirsən? Dedi, orda məni istəyənlər də var, istəməyənlər də. Qoy məni zəif görməsinlər. Amma hərdən deyərdi ki, nə xoşbəxtlikdir Vətəndə ölmək!.. Böyük xoşbəxtlikdir…(kövrəlir). 1993-cü il iyulun 8-də rəhmətə getdi. Gətirib bir gün sonra Novxanıda torpağa tapşırdıq…".

## Rəsulzadənin məzarı tapılan xanımı zirzəmidə dünyasını dəyişib?

Rəsulzadə 1956-cı ilin martında dünyasını dəyişəndən sonra Leyla xanım uzun müddət həmin "məzar"da hək-tənha yaşadı. Düz, 18 il Rəsulzadəsiz, bir kimsəsiz "məzar" dediyimiz dar mənzildə ömür sürdü. 1974-cü ildə isə dünyasını dəyişdi. Ondan sonra isə Leyla xanım haqqında kimsənin məlumatı olmadı. Məzarı da heç axtarılmadı. Nədənsə, bizim tədqiqatçılar ömrünü Rəsulzadəyə xərcləyən bu böyük qadını unutdular.

**Nəsiman Yaqublu (tanınmış araşdırmaçı, Rəsulzadəşünas alim) özünün araşdırmalarının birində həmin ev barəsində bunları yazırdı:**

"Rəsulzadə və xanımının Ankaradakı yaşayışı çox da yüksək səviyyədə deyildi. Ankara milli kitabxanasında məmur işləyir, ayda 150 lirəyə qədər maaş alırdı. O pulun da 40-50 lirəsini kirə haqqına verirdi. Evi Ankarada, Sakariyə caddəsində zirzəmiyə oxşayan bir yerdə yerləşirdi. Evində zəngin şərait də yoxdu: Bir dəmir çarpayı, iki kreslo, stol vardı. O, sadə yaşamağa adət etmişdi. Otuz ildən də çox belə "köçəri" həyat yaşamışdı".

Vanda xanımla şəxsən görüşən türkiyəli araşdırmaçı-yazar Bülənt Danışoğlu onun barəsində yazdığı "Polşalı azəri gəlini Vanda Rəsulzadə" adlı məqaləsində maraqlı xatirələri işıqlandırıb. Bu xatirələrdə həmin "məzar"dan da söz açılır:

**"Leyla xanımı 1970-ci illərdə tanıdım. Qızılırmak sokakda, indi Ankapol sinemasının olduğu yerdəki binanın bir**

**zirzəmi qatında qalırdı. Həmin küçəyə köçdüyümüz gündən bəri hər gün itinin ipindən tutaraq titrək addımlarla yeridiyini görərdik. Arıq, ağbəniz, gülərüzlü, yaşlı, amma gözləri parıldayan bir qadındı. Məhəllə əsnafı ona "madam" deyə xitab edərdi. Ləhcəsindən türk olmadığı anlaşılırdı. Sonra bir gün anam onu evimzə dəvət etdi. Madamın adının Leyla olduğunu o zaman öyrəndim. Zatən, özü də bir müddət sonra adının Vandadan Leylaya dönüşməsinin hekayəsini anlatmışdı. Sevgili qocası "Leyli və Məcnun" əhvalatını danışmış və adının Leyla olmasını istəmişdi. Qocası, yəni Azərbaycan Cümhuriyyətinin qurucusu və ilk cümhur başkanı Məhəmməd Əmin Rəsulzadə...".**

Vanda xanım Ankarada yaşayarkən Bülənt Danışoğlu onun qonşusu olub. Uzun müddət tək yaşayıb. Çünki uşaqları da olmamışdı və bütün həyatını Məhəmməd Əminə qurban verən Vandanın (Leylanın) sədaqəti Bülənt bəyi heyrətə salmışdı. O, bu barədə yazır:

**"Leyla xanım Ankarada yaşayarkən universitetin coğrafiya fakültəsinin rus dili və ədəbiyyatı bölümündə dərs vermək təklifi alıb və mövcud işindən daha artıq maaş təklif olunduğu halda, dərhal rədd edib. Lakin rus dilinə düşmənçiliyi ruslara düşmənçilik demək deyildi, həyatının son günlərində bir rus qadınla dostluq edirdi.**

**Leyla xanımın savadlı və bacarıqlı olduğu bəlli idi. Varşavada fransız filologiyası fakültəsinin məzunu olub. Tələbəlik illərində öz dediyinə görə "inqilabçı" imiş. Şirin-şirin gülərək "hamımız inqilabçı idik" deyərdi. Bir gün Leyla**

**xanımla küçədə rastlaşdıq. Əynimdəki kürkə işarə edərək, "biz də mujik kaskası taxardıq" dedi. Mujik kaskası taxmaqla bərabər ailəsinin ona rahat həyat verdiyi bəlli idi".**

M.Ə. Rəsulzadənin mühacirət həyatı barədə yazan bir çoxları onun ikinci xanımı Vanda xanımın marşal Pilsudskinin qardaşı qızı olduğunu iddia edir. Polşa mənbələrində Vanda Piłsudski adlı xanımın 7 fevral 1918-ci ildə Polşada anadan olduğun yazır. Anası Aleksandra Szczerbinska və atası Jozef Pilsudskidir. Yəni Pilsudski ailəsində və nəslində bir Vanda olub və o da marşalın öz qızıdır. Yaxşı sonradan Leyla Rəsulzadə adın alan Vanda xanım kimdir?

Bütün arxiv sənədlərin ələk-vələk edirəm. O dövr üçün cəmi 3 Vanda adı xanım Rəsulzadə ilə eyni dövrdə yaşayan və onunla ailə qura biləcək şəxs var.

1. Wanda Bulhak - bu xanımın anası Maria Pilsudska və atası Piotr Pilsudskidir. Bu soyadın marşalın ailəsi ilə heç bir qohumluğu yoxdur. Bu xanım Antoni Bułhak adlı bir şəxslə ailəli olmuş, lakin nigahları uzun çəkməyib. Ehtimal böyükdür ki, fransızdilli məktəbdə oxuyan bu xanım ola bilsin.

2. Wanda Rosenberg -Eduard Rosenberg adlı tanınan Eston dissidentinin qızı. Polşaya köçən bu ailənin qızı Wandanın 1959-cu ildə Bakıda vəfat etdiyi qeyd edilir. Ola bilsin ki, bu xanım olsun və Bakıda deyil Türkiyədə vəfat etməsi dəyişik salına biliənər.

3. Wanda Dzerzhinsky-Rus və Polşa inqilab hərəkatının üzvü Feliks Edmundoviç Djerzinskinin bacısıdır.

## "Yerə sərilən çılpaq, ölü qadını canlı bir yavru əmməkdədir..." – Rəsulzadənin soyqırımı harayı

Öncə, bu qara səhifənin tarixinə diqqət edək. Təbii ki, erməni daşnakları bolşeviklərlə birlikdə azərbaycanlılara qarşı bir neçə dəfə soyqırımı həyata keçirmişdilər. Mart hadisələri isə bu faciələrin ən pik nöqtəsi oldu. Lakin mart hadisələri ancaq ayın 31-də-sonuncu gün başlamadı ki... Əksinə, tarixi ehtimala əsasən, Mart soyqırımının başlanma tarixi gözəl bayramımız olan Novruza-21 marta təsadüf edir.

1918-ci ilin martında Bakıda bir çox tikililəri məhv edərək insanları güllədən keçirən erməni və rus bolşevikləri Azərbaycan tarixində misli görünməmiş faciəyə qol qoydular. Deyilənlərə görə, o zaman Nəriman Nərimanovu da oğurlamaq istəyiblər. Hətta buna cəhd etsələr də fürsətdən yararlana bilməyiblər. Həmin günün əslində, martın 21-nə təsadüf etdiyini və Nərimanovun bahar bayramını qeyd etdiyini araşdırmaçı Teyyub Qurban vaxtilə mətbuatda açıqlayıb.

Onun sözlərinə görə, Nərimanov məcburi səbəbdən Şaumyanın evinə gedib xahiş edib ki, qırğını dayandırsın. Amma xahişi yerdə qalıb:

Ümumiyyətlə mart soyqırımı ayın 31-də yox, on gün qabaq, yəni 21-də olub. Rus və ermənilər Novruz bayramı günü xalqın başına bu oyunu gətiriblər".

Araşdırmaçı Adıgözəl Məmmədov 1918-ci ildə baş verən soyqırımının əslində, bütövlükdə mart soyqırımı olduğunu bildirib: "Yəni hadisə təkcə 31 mart günündə yox, on günlərlə davam edib. Çünki təkcə Bakıda yox, ölkənin bir çox yerlərində bu faciə törədilmişdi. Burada konkret tarix söyləmək olmaz.

Çünki soyqırımı bir günün içində törədilmədi. Azərbaycanın bir çox bölgələrində eləcə də Bakıda bir neçə gün qanlı hadisələr yaşandı".

Əsas məsələ odur ki, bu soyqırımı olub. Minlərlə insanın acılar içində ölməsinə səbəb olan dəhşət həmin ilin mart ayında törədilib.

**Azərbaycan Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin və ümumən ADR hökumətinin 31 Mart soyqırımı ilə bağlı qeydlərini təqdim edirik.**

(Bu qeydlər Məhəmməd Əmin Rəsulzadənin seçilmiş məqalələrində və "Xalq cəbhəsi" qəzetinin 2009-cu il sayında işıq üzü görüb.)

**Fikrimizcə, mart soyqırımı haqqında ən təsirli qeydlərdən biridir.**

**Məhəmməd Əmin Rəsulzadə həmin dövrdə mart soyqırımının canlı şahidi olan M.Kulqedən belə sitat gətirir:**

"Kulqenin, digər əcnəbilərin o günlərin xatirəsi olmaq üzrə almış olduqları və bu gün əllərdə mövcud olan fotolar çox faciəli mənzərələri əks etdirir. Bir yığım qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məşum yavruları gəmirir... Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir..."

Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə Münhen şəhərində nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci sayı demək olar, bütünlüklə 1918-ci ilin martındakı Bakı qırğınlarının 15 illiyinə həsr edilib. Azərbaycan Cümhuriyyəti Hökuməti həm 1919-cu, həm də 1920-ci il martın 31-ni Milli Matəm günü kimi qeyd edib.

## "Xəstə idim, əməliyyata ehtiyac var idi"- Rəsulzadənin səhhətindən şikayəti

Azərbaycan Cümhuriyyəti devriləndən sonra Rəsulzadə mühacirətə getməli olur. Yeni quruluş isə onun ailəsi və yaxın qohumlarını da təqib edir. 19 yaşlı oğlu Rəsul güllələnir, həyat yoldaşı, anası, qızları və körpə oğlu Qazaxıstana sürgün edilir.

M.Ə.Rəsulzadə böyük cəhdlə ailəsini xilas etməyə - Türkiyəyə gətirməyə çalışıb. Oğlu Azərin dediyinə görə, hətta bir dəfə qatara minib getməyə də hazırlaşıblar. Lakin M.Ə.Rəsulzadənin atası Axund Hacı Ələkbər məsləhət bilməyib və onlar Bakıda qalıblar. 1932-ci ilə qədər isə M.Ə.Rəsulzadə müxtəlif adamlarla ailəsinə maddi yardımlar göstərib, hətta geyim, paltar da alıb göndərib. Sonradan sərhədlər bağlandığından bu mümkün olmayıb. Bakıda gizli fəaliyyət göstərən müsavatçılar isə imkan daxilində M.Ə.Rəsulzadənin ailəsinə müəyyən köməklik edib.

Deyilənə görə, onların arasında 35 məlum məktublaşma var. Naməlumlar təbii ki, daha çoxdu. Lakin oxuculara ardıcıl olaraq təqdim etdiyimiz üçüncü məktubu o birilərilə bir amil birləşdirir.- Rəsulzadənin acı həyatı və qürbət dərdi. O, nasazdır, səhhətindən şikayətçidir. Amma ömrünün sonuna qədər bir daha görə bilməyəcəyi ailəsi üçün çox nigarandır. Yaxşısı budur, oxuyaq: Yeri gəlmişkən, bundan əvvəlki iki məktubu da saytdan oxuya bilərsiniz:

"Əzizim Ceyhun bəy! Özümü müqəssir hesab edirəm. 21 iyun tarixli məktubunuza ancaq indi cavab yaza bilirəm. Rica

edirəm, bunu başqa yerə yozmayasınız. Xəstə idim. Dişim şişmişdi. Əməliyyata ehtiyac hasil oldu. Bir həftə onunla məşğul oldum. Sonra o keçər-keçməz qulağım şiddətlə ağrımağa başladı. Beş gün də onunla əlləşdim. İndi də üç gündür qripə düçar olmuşam. Buna görə heç yerə çıxa bilmirəm. Bu məktubu da havanın isti vaxtında qapalı otaqda yazıram. Nə isə, buraya gəlib-gələli heç bir rahatlıq görmədim. Bu günə qədər mədəm belə normal olmamışdır. Parisdə olarkən iki kilo arıqladım. Buranın iqlimi bataqlıq! Əli Mərdan bəy haqqında Sizin yazdıqlarınızdan artıq elə bir məlumata malik deyiləm. Vəziyyəti həqiqətən də elədirsə, bu təəssüfə layiqdir. Bu gün söylədiyini iki il əvvəl söyləsəydi, haqqınız vardı. Sizin Əli Mərdan bəylə əlaqədar olmayıb, öz müqəddaratınızı şəxsən təyin edərək, bundan sonra tam səmimiyyətlə bizimlə əməkdaşlığa hazır olduğunuz haqqındakı bəyanatınıza məmnun oldum. Bizimlə həmrəy olduğunuza təşəkkür edirəm." (1930-cu il, 7 avqust)

*Qaynaqlar: М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков.*

*Məhəmməd Əmin Rəsulzadə "Məktublar. Şəfibəyçilik".*

## Rəsulzadənin ailəsi ilə dəhşətli vida günü – "Ailəsi göz yaşına boğularaq onu yola salırdı"

O, Cümhuriyyət devrildikdən sonra Lahıca çox böyük çətinliklə gedib. Çünki hər yerdə təqib olunurdu. Adicə faytona minəndə də ehtiyat etdiyi deyilir. Bu şübhələrində haqlı idi. Çünki ətrafda Rəsulzadəni satmaq üçün növbədə dayanan insanlar çox idi. Bu səbəbdən də faytonuna minmək istədiyi qoca faytonçunun ona baxışından şübhələnir. Lakin qorxulu heç nə yox idi. Sonradan hadisənin nə yerdə olduğunu biləndə dünyagörmüş

faytonçu etiraf edəcəkdi: mən ömrümdə ilk dəfə idi ki, elə işıqlı, nurlu sifəti olan adam görürdüm. Necə ağıllı baxışı, mədəni davranışı vardı! Hiss olunurdu ki, çox da səliqəli adamdır.

**"Gizli otağ"ın sakinləri**

***Araşdırmaçı Nəsiman Yaqublu Rəsulzadənin ömrünün Lahıc mərhələsi haqqında özünün "Məhəmməd Əmin Rəsulzadə" kitabında bunları yazır:***

"Lahıcda Atabala Qasımovun "ərəb əmi" adı ilə məşhur olan qardaşıgildə qalırdı. İlk günlər bu evdə yaşadı. Evin zəngin kitabxanası vardı. Kitabxananı Ağabala Qasımov yaratmışdı. Məmməd Əmin Rəsulzadə bu kitabxanadan götürdüyü "Şahnamə" əsərini də burada oxudu. "Şahnamə"ni oxuyandan sonra "Əsrimizin Səyavuşu" əsərini yazdı. Oxunaqlı, ağrılı, təsirli bir üslubla yaratdığı milli hökumətin - Azərbaycan Demokratik Respublikasının aqibətini Səyavuşun acı taleyinə yaxın gördü. Min bir müşkülatla yaranıb çiçəklənən, çox yaşamadan boğulub məhv olan Azərbaycan Cümhuriyyətinin taleyindən danışdı. "Əsrimizin Səyavuşu" əsərini sonradan Türkiyədə ona çatdırdılar. Həmin adama dərin minnətdarlığını bildirdi. Amma adını çəkmədi. Fikirləşdi ki, çekistlər həmin adamı tapıb incidərlər.

Günlərin bir günü Lahıca gedib Məmməd Əmin Rəsulzadəni evlərində saxlayan adamların oğul-uşaqlarını tapıb söhbət edəcəyəm. Həmin adamlardan biri belə deyəcək: "Balaca uşaq idik. Bizi o biri tərəfdəki otağımıza sarı buraxmırdılar. Deyirdilər ki, ora yaxın düşmək olmaz. Bir gün marağımı saxlaya bilmədim. Gedib qapının deşiyindən içəri baxdım. Gördüm ki, iki nəfər kişi qabaqlarına çoxlu kağızlar qoyub nə isə yazırlar".

**Rəsulzadəni satan adamlar…**

Başqa bir araşdırmaçı alim Ədalət Tahirzadə araşdırmalarının birində Rəsulzadənin Lahıcda necə həbs olunması barəsində maraqlı məqamlara toxunub:

"""1920-ci ilin aprelində Sovet hakimiyyəti qurulandan sonra Məhəmməd Əmin Rəsulzadə bir qrup silahdaşı ilə birgə İsmayıllı rayonunun Lahıc kəndində qalmalı olur. Lakin orada çox qala bilmirlər. Yerlərini dəyişmək məqsədilə yola çıxırlar və İsmayıllı rayonunun Aşıq Bayram kəndi yaxınlığında hökumət qüvvələri onları həbs edir. Rəsulzadənin və yoldaşlarının yerini isə Lahıc kənd sakini **Əliabbas bəy Nəsrulla bəy oğlu Səfərbəyov** xəbər verib. Bu "xidmətinə" görə kommunistlər ona qoşalülə tüfəng bağışlayıblar.

Bu hadisədən bir müddət sonra Ə.Səfərbəyovu həbs edirlər. O da hökumətə sədaqətini sübut etmək üçün o zaman M.Ə.Rəsulzadəni satdığını bildirir. Mən bu məlumatları Ə.Səfərbəyovun istintaqa verdiyi ifadələrindən götürmüşəm. Başqa mənbələrdə də bu haqda məlumatlar var.  Lakin sonradan izi itirmək üçün onu güllələyirlər".

**Stalinlə üz-üzə, yaxud, borcun qaytarılması….**

Həbs olunandan sonra Rəsulzadə Pankratov kimi cəlladla üz-üzə qalmalı, onun tənəli suallarına və sərt rəftarına davam gətirməli olub. Rəsulzadəni  bir müddət çox şəraitsiz yerdə saxlayıblar. Lakin bir gün Bakıya Stalinin gəlişi hər şeyi dəyişdirir.

**Nəsiman Yaqublunun araşdırmalarına görə Məmməd Əmin Rəsulzadə həbs olunanda "Gizli müsavat"ın tapşırığı ilə Ağabala Qasımov Vladiqafqaza gedib Stalinə məlumat çatdırır. Və Stalin də keçmiş mübarizə dostunu - onu neçə dəfə ölümdən qurtarmış Məmməd Əmini xilas etməyə gəlir:**

"Stalinin göstərişi ilə Pankratov çölə çıxır. Köhnə mübarizə

dostları tək qalır. Və aralarında açıq, yalnız həqiqət faktlarını üzə çıxaran söhbət gedir. Stalin Məmməd Əmin Rəsulzadəyə bildirir ki, vəziyyətiniz çox ağırdır. Azərbaycanlı kommunistlərin bir qismi güllələnməyinizi, digəri isə ömürlük həbsxanada qalmağınızı məsləhət görürlər. Amma mən bunların heç birini rəva bilmirəm və məqsədim sizi xilas etməkdir, Stalin məsləhət görür ki, onunla birlikdə Moskvaya getsin, çünki azərbaycanlı kommunistlər onu sakit buraxmayacaqlar. Məmməd Əmin Rəsulzadə Stalinlə söhbətində çox məsələlərdən danışdı. Stalinə sübut etdi ki, siz haqqımızı, istiqlalımızı tapdayıb buraya gəlmisiniz. Böyük millətlərdən kömək gözləməyin də faydası yoxdur. Çünki onlar Türkiyə ilə düşmən vəziyyətindədir. Siz isə "Türkiyəyə kömək" şüarını irəli sürüb xalqımızı əsarətə aldınız. Məmməd Əmin Rəsulzadə Stalinə çox həqiqətləri söylədi o görüşdə. Bir saata kimi aralarında danışıq getdi. Həmin o danışıqda Stalin Məmməd Əmin Rəsulzadəyə bir söz də dedi: "Nəriman bizimlə yox, biz Nərimanla anlaşdıq". ...Məmməd Əmin Rəsulzadə "dörd divar arasından" çıxmağa razı olub Stalinin təklifini qəbul edir. Stalin isə Pankratovu içəri çağırıb deyir: "Bura bax, bu adamı qaranlıq bir mətbəxdə saxlayırsınız, dərhal onu münasib bir otağa köçürün və ailəsinə də onunla görüşmək imkanı verin".

Pankratov Stalinin göstərişini yerinə yetirir. Məmməd Əmin Rəsulzadəni balkonlu, münasib bir otağa köçürürlər. Bir neçə gündən sonra Stalinlə birlikdə Moskvaya yola düşürlər. Yola düşməzdən qabaq ailəsi ilə görüşmək imkanı verilir…

**Dəhşətli bir gün…**

Gəlin, o dəhşətli gün haqqında mən danışmayım. Həyatını Rəsulzadəyə həsr etmiş Nəsiman Yaqublu ola-ola bizə ancaq

dinləmək və oxumaq düşər. Nəsiman müəllim də 1991-ci ildə yazdığı "Məhəmməd Əmin Rəsulzadə" kitabında həmin dəhşətli vida günü haqqında bunları yazıb:

"..Qohum-əqrəba evdə onu gözləyirdi. Hadisəni eşidib vidalaşmağa gəlmişdilər. Otaqdakılardan yalnız birini ilk dəfə idi görürdü. Bu onun iki aylıq oğlu Azər idi. Lahıcda olanda balaca oğlu dünyaya göz açmışdı. İndi balaca Azər sakit halda yatırdı. Sevimli oğlunu qucaqlayıb bağrına basdı. Uşaq atasının öpüşlərindən ayılıb ağlamağa başladı. Yazıq körpə hardan biləydiki, atası bu anda nələr çəkir? Bu, Məmməd Əmin Rəsulzadənin sevimli oğlanları Rəsulla, Azərlə, qızları Lətifə, Xalidə ilə, həyat yoldaşı Ümbülbanu xanım və başqa qohumları ilə son görüşü idi. Övlad şirinliyini də bundan sonra yaşayacağı otuz beş ildə bir də dadmayacaqdı. Həmişəlik olaraq ailə səadətindən məhrum olurdu. Ayrılıq ağır oldu. Evdəkilər göz yaşlarından boğula-boğula onu yola salırdılar. Amma bu görüşün son olduğunu bilmirdilər.

Vağzala gəldilər. Stalin Orconikidze ilə vaqonda oturmuşdu. Görüşdülər. Az sonra Nərimanov gəlib çıxır və soruşur:

- Bəs Abbasqulu hanı?

Cavab verirlər ki, Abbasquluya getməyə icazə verməyiblər. Nərimanov təəccüblənir ki, axı biz onun da getməyinə razılıq vermişdik. Məmməd Əmin Rəsulzadə deyir: "Siz demiş ola bilərsiniz, ancaq fakt meydandadır, icazə verməmişlər"

Bu sözü deyib Nərimanova baxdı. Düz gözlərinin içinə baxdı. Demək istədi ki, müstəqil Sovet Azərbaycanı qurmuşam desən də, buranın öz ağaları var. ...Qatar astadan hərəkətə başladı. Bu qatar ayrılıq qatarı idi. O bu qatarla bir də geri dönməyəcəkdi. Qatar onu həmişəlik doğma elindən, obasından alıb aparırdı. Sevimli şəhəri Bakını al qan içində qoyub gedirdi…

## Məhəmməd Əmin Rəsulzadənin dəhşətli ailə faciəsi...

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) devriləndən sonra məcburiyyət səbəbindən Məhəmməd Əmin Rəsulzadə vətəni tərk edib. Onun Novxanı kəndində yaşayan ailəsi olmazın məşəqqətlərə qatlaşıb.

**Sürgündə acından ölən ana: "Gedin o bığlı oğlana deyin ki..."**

Həmin bığlı oğlan "xalqlar atası" Stalin idi. Məhəmməd Əmin Rəsulzadə ilə birgə onun evində duz-çörək kəsmişdi. Elə Rəsulzadənin anası Maral xanım da həbs olunarkən Stalinə onu tutanlara bu cür xəbər yollamışdı:

"Gedin o bığlı oğlana deyin ki, Maral xanımı həbs etmişik. O adamı həbs etmişik ki, onun evində sən neçə dəfə çörək yemisən". Biçarə qadın hər şeyi öz saflıq arşını ilə ölçürdü. Elə bu arşınla da ölçə-ölçə acından rəhmətə getdi. Qazaxıstana sürgün olunarkən gündə bir-iki dəfə qəndi suya salaraq sümürürdü. 28 gün qatarda sürgün yolu gedən qadın çox dindar idi:

"Mən acından ölərəm, amma kafir yeməyi yemərəm" deyirdi. Ailəsinin başına gətirilən bu cür faciələr onu onsuz da ölü halına salmışdı. Bakıdan gətirdiyi əncir qurusu qurtardıqdan sonra ümumiyyətlə, heç nə yeməyən Maral xanımı fəlakət içdən yedi və o elə həmin il, yəni 1937-ci ildə dünyasını dəyişdi.

**Oğul dərdindən bağrı çatlayan Ümbülbanu**

Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı olan həyat yoldaşı Ümbülbanu xanımın ürəyi iki səbəbdən partladı. Qazaxıstan

sürgününə də dözə bilərdi. Amma bütün ruhunu oğlu Rəsulun yanında qoyub gəlmişdi. Rəsulu hamıdan birinci həbs etdilər. O zaman vur-tut 19 yaşı vardı. Sonra da yerdə qalan ailə üzvlərini həbs edib Qazaxıstan çöllərinə yolladılar. Ümbülbanu xanımın bütün ruhu oğlunun yanında qaldı. Elə bütün günü "Rəsulu nahaq tutdular" deyib ağlayırdı. Bir tərəfdən də ailəsinin ağır sürgün həyatı onu tamam sarsıtmışdı.

Hələ bunlar son deyildi. O öz həyat yoldaşından da xəbərsiz idi. Məktublaşmaların arası kəsildiyindən ərinin harada olması və vəziyyəti haqqında heç nə bilmirdi. Amma Rəsulzadənin tərəfini heç zaman vermirdi. Ona "Məhəmməd Əmin xaricdə rahat yaşayır, siz isə əzab çəkirsiz" desələr də, bütün bunlara məharətlə sinə gərirdi. Daim onunla əlaqə yaratmağa çalışırdı. Oğlu Azər də sonralar xatirələrində anasını bu cür təsvir edib:

"Anam soyuğa da dözərdi, aclığa da. Amma o qürbət elə gedən gündən Rəsulun adı dilindən düşmürdü. "Oğlumu nahaq güllələdilər" deyib ağlayırdı. Elə bu dərdlə də dünyadan köçdü. Tez-tez bu sözləri eşidirdik: "Məhəmməd Əmin sizi burada qoyub özü aradan çıxdı. İndi xaricdə kefi kök, damağı çağ yaşayır. Siz heç yadına da düşmürsünüz". Bu sözlərə anam əhəmiyyət vermirdi. O, atama inanırdı. Atamın heç bir günahının olmadığını da hərdən danışırdı. Bu söz-söhbət ən çox qardaşım Rəsulu dilxor edirdi. Məktəbdən gələn kimi hirslə çantasını bir küncə atıb deyirdi: "Müəllimlərim məni bezdiriblər. Hər gün dərsdə deyirlər ki, "Məhəmməd Əminlər belə etdi, Məmməd Əminlər elə etdi...". Anam sakitləşdirirdi Rəsulu. Deyirdi ki, elə sözlərə fikir vermə...".

Ümbulbanu xanım savadlı və fədakar qadın olduğundan Məhəmməd Əminin böyüklüyünü o olmayanda belə, ailədə qoruyub saxlayıb. Amma o da bir qadındır. Üzləşdiyi ağır faciələrə

sinə görə bilməyərək, 1940-cı ildə sürgündə 51 yaşında vəfat edir. 1937-ci ildə istintaq zamanı onun mübarizliyi erməni zabitlərini belə, heyrətə gətirir:

İstintaq materiallarından:

**- Deyin görək həyat yoldaşınız Məhəmməd Əmin Rəsulzadə hazırda harada yaşayır?**

- Həyat yoldaşım Məhəmməd Əmin Rəsulzadə 1920-ci ildən xaricdə, Türkiyənin İstanbul şəhərində yaşayır.

**- Həyat yoldaşınızla bu müddətdə əlaqəniz olubmu? Olubsa necə?**

- 1929-cu ilə qədər mən onunla məktublaşırdım. 1934-cü ildə isə ondan 18 dollar məbləğində göndərilən pul kağızı aldım. Bundan sonra heç bir yazışmamız olmadı.

**- Nəyə görə ərinizlə yazışmağa son qoydunuz?**

- Yazdığı məktublarda həyat yoldaşım uşaqlardan narahat olduğunu bildirirdi və uşaqları təhlükədə qoymamaq üçün biz onunla məktublaşmamağı qərara aldıq... (Nəsiman Yaqublu: “Məhəmməd Əmin Rəsulzadə”, Bakı, Gənclik, 1991)”.

**Soyuqdan donaraq ölən Lətifə**

Lətifə Rəsulzadənin ilk övladı idi. Elə faciələrin ən ağırını yaşamaq da deyəsən onun payına düşmüşdü. 1912-ci ildə anadan olan Lətifə atasını sonuncu dəfə 8 yaşı olarkən görmüşdü. 1930-cu ildə isə bu xanıma ailə qurmaq nəsib olur. Üç qız uşağı dünyaya gəlir. Amma heyhat, sən demə, elə faciələr bundan sonra başlayırmış…

Lətifə xanımı iki qızı ilə birgə Qazaxıstana sürgün edirlər. Lətifə uzaq Qazaxıstan soyuğuna və işgəncəli şəraitə dözə bilmədi. 1944-cü ilin soyuq yanvar gecəsində qızı Evşənlə birlikdə həyata göz yumdu. O, biri qızı 13 yaşlı Firuzə səhər yuxudan ayılanda sevimli anasını və bacısını ölmüş gördü...

Təbii ki, bundan sonra Firuzənin taleyini təsvir etmək o qədər də asan deyil. Amma onun bir bacısı var idi ki, uşaq sanatoriyasına verildiyindən onlarla birgə sürgünə gəlməmişdi. Sona adlı bu xanımın taleyi haqqında indi də heç nə bilinmir.

Belə ki, Rəsulzadənin itkin nəvəsi Sona ilə yanaşı, onun ikinci qızı Xalidə də itkin düşdü.

1940-cı ildə Ümbulbanu xanımın vəfatından sonra kiçik övladlar Azərlə Xalidə tək qalırlar. Artıq ailə darmadağın olunur. Xalidə xanım sürgündə nənəsi Maral xanımı, anası Ümbülbanu xanımı qürbət torpaqda dəfn edir. Bundan sonra isə faciə növbəsi ona çatır. 24 yaşında ikən Qazaxıstandan baş götürüb Bakıya qaçır. Nakam qız Bakıya gəlib çatsa da, az keçməmiş itkin düşür. İndiyə kimi də harda olduğu bilinmir.

Qardaşı Azər onu hər yanda axtarır. Çox yerlərə xəbər göndərir. Amma ölənə qədər bu istəyinə çata bilmir. Əli bütün ailəsindən üzülən Azər ömrünün son günlərinə qədər Xalidə ümidi ilə yaşayır…

**Rəsulzadə ailəsinin oğul qurbanı - Rəsul**

“Qırmızı dəyənək” Rəsulzadə ailəsindən ilk olaraq, oğlu Rəsula dəymişdi. O, 1937-ci ildə həbs olunarkən vur-tut 19 yaşı var idi. Onu uzun müddət məktəbdə və digər yerlərdə incitdilər. Artıq gənc yaşında həyatdan bezmişdi. Lakin günlərin bir günü qardaşı Azərlə birgə Novxanıda olarkən onu haqlayırlar. Rəsulun həbsi bütün ailəyə zərbə vurur. Ölümü isə artıq bütün

ailəsinin ölümü idi. Hətta kiçik qardaşı Azər də bununla barışmayıb özünü quyuya atıb öldürmək istəyirmiş… Rəsul haqqında qohumları sonradan öz xatirələrini danışarkən məyusluqlarınız gizləyə bilməmişlər.

**Nəhayət, sonuncu övladı - Azər**

O Azər ki, Məhəmməd Əminin uzun ömür yaşayan yeganə övladı oldu. Əgər buna yaşamaq demək olarsa. Azər iki aylıq olanda Məhəmməd Əmin evə gələrək öz körpəsini öpür, adının nə olduğunu soruşur. Ümbülbanu xanım isə uşağın adını Əliheydər qoyduqlarını deyib.

Məhəmməd Əmin oğlunu bağrına basıb narazılıq dolu coşğunluqla deyir:

- Yox, bu, Əliheydər olmayacaq. Bu azəri oğludur: Azər olacaq.

Məhəmməd Əmin oğlu Azərlə belə görüşüb ayrılır. Və onlar bir daha görüşmürlər. Gözünün qabağında bütün ailəsi pərən-pərən olan Azər sonradan Qazaxıstan sürgünündən Bakıya bir dəfə gəlsə də, yenidən geri dönür. Onu həmin illərdə Rəsulzadənin övladı kimi yox, sıravi bir şəxs kimi çox soyuq qarşılayırlar.

Məhəmməd Əmin irsinin araşdırmaçısı Nəsiman Yaqublu Azər bəylə Karaqandadakı (Qazaxıstan) olan söhbətində maraqlı bir detala toxunur. Ona Məhəmməd Əminin indi tamam başqa gözlə baxdıqlarını, bir qəhrəman kimi qəbul etdiklərini və Bakıya gələrsə, onun üçün də yaxşı olacağını bildirəndə oğul bu sualı verib: "Görəsən, ora gəlsəm, mənə ev verərlərmi?".

Bu sualın cavabı indi o qədər də əhəmiyyət kəsb etmir. İndi heç Azər bəy də yoxdur. Amma onun sürgün yaşantılarını əks etdirən xatirələr bu gün də qalmaqdadır:

“Axşamüstü anam getmişdi xalamgilə, maşınla bizi aparmağa gəldilər. Əvvəl anamın harda olduğunu soruşdular. Sonra məni də maşına mindirib apardılar xalamgilə. Anamı götürüb gəldilər. Evdəki şeylərdən heç nəyi götürməyə qoymadılar. Evimizdə bir tar var idi. Anam tarı o vaxtın pulu ilə 130 manata almışdı. Tarı götürmək istədim. İkisi etiraz etmədi, lakin üçüncüsü tarı əlimdən alıb bir qırağa atdı. (Anasının aldığı o yadigar tarı Azər müəllim sonradan soraqlayıb tapıb və geri alır). Sonra bizi maşına mindirib apardılar həbsxanaya. Yadımdadır ki, həmin günü güclü yağış yağırdı. “Azneft” meydanını su basmışdı. Bizi aparan maşın çətinliklə gölməçələri yarıb keçirdi. Əvvəl istədilər ki, hamımızı çoxlu kişilər olan kameraya doldursunlar, lakin bacım Xalidə etiraz etdi, qışqırıb hay-küy qopartdı...

Ailəmizi həbs edəndən sonra bizi Gəncəyə apardılar. Düz bir ay Gəncə həbsxanasında qaldıq. Sürgünə göndərilənlər çox olduğundan biz növbə gözləyirdik. Nəhayət, gəlib sabah yola düşəcəyimizi dedilər. Vəziyyətimiz yaxşı deyildi. Özümüzlə demək olar ki, heç nə götürməmişdik. Başqa ailələrə pal-paltar, yorğan-döşək götürməyə imkan vermişdilər. Bizim ailəyə isə hər şey qadağan olunmuşdu. Düz, 28 gün qatarda yol getdik. Şəraitimiz dəhşətli dərəcədə dözülməz idi. Hər vaqonda beş-altı ailə gedirdi. Qoca nənəm dindar adam idi. Özgə kişilərin yanında bayıra çıxmamaq üçün düz 28 gün heç nə yemədi, elə hərdən qəndi suya batırıb sümürürdü, aclığa tab gətirsin. Min bir əzablı, əziyyətli yol səfərindən sonra gəlib Qazaxıstana, Taldı-Kurqana çatdıq. Əvvəlcə bizi oradakı bir orta məktəbin siniflərinə doldurdular. Qazaxıstanın 40-50 dərəcə soyuğunda hamımız donurduq. Yerli qazax uşaqları gəlib maraqla bizə baxırdılar. Bəzən gətirib çörək də verirdilər. Həmin vaxt ikinci bir ağır zərbə aldıq. 28 gün çörək yeməyən nənəm uzun müddətin aclığından və bizə

verilən xörəyi yeyəndən sonra dünyaya göz yumdu... "(Nəsiman Yaqublu: "Məhəmməd Əmin Rəsulzadə" kitabından).

P.S. Hamını bircə şey düşündürürdü: Görəsən, Məhəmməd Əminin bütün bu faciələrdən xəbərin varmı? Təbii ki, var idi. Amma o bu zaman Azərbaycan adlanan bir ailənin uğrunda vuruşurdu. 1955-ci ilin axırlarında son nəfəsində üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyərək dünyasını dəyişəndə ailəsindən yalnız Azər qalmışdı. Amma bu ailə dağılarkən beləŞ Azərbaycan və Azərbaycançılıq ideyalarını qura bilmişdi. Bəlkə də biz bu gün həmin o başı bəlalı ailənin faciəsinin məhsulu olan bir ideologiyanın varisləriyik….

# IV bölüm - Şərqin ilk qaranquşu – Cümhuriyyət parlamenti

## Seçilən komissiya üzvləri və Rəsulzadənin təxirə saldığı qanun layihəsi – Cümhuriyyət parlamentinin ilk iclası

Parlamentin ilk iclası 1918-ci ilin 7 dekabr tarixinə təsadüf edir. O zaman ilk çıxışı Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə edir. O, tarixi çıxışında parlamenti Şərq tarixində ən böyük hadisələrdən biri sayır.

Daha sonra isə baş nazir Fətəli Xan Xoyski parlament qarşısında hesabat verir. Üstəlik, özü başda olmaqla Cümhuriyyət hökumətini istefaya yollayır.

Daha sonra isə parlamentə sədr seçilir. Böyük diplomat Əlimərdan bəy Topçubaşov bu etimada layiq görülür. Lakin Bakıda olmadığı üçün onu parlamentə sədr müavini seçilən Həsən bəy Ağayev əvəzləyir.

İndi keçək, ilk iclasdakı bəzi məsələlərə. Birinci iclasda parlamentin komissiyaları və komissiya üzvləri təyin edildi. Xəyalən də olsa, 1918-ci ilin 8 dekabrına səfər edək. Özü də birbaşa iclas zalına: (Cümhuriyyət parlamenti ilə bağlı stenoqramlara istinad edərək, natiqlərin dil-üslubu qorunub saxlanılıb)

**Məmməd Əmin:** Təklif edirəm ki, hökumət təşkilinə vəkil şimdiki hökumət iş başında qalsın.

**Sədr:** Buna etiraz edən yoxdur? Deməli təklif qəbul olunur. Əfəndilər! Üç komisyon intixabini təklif edirəm: Etimadnamə komisyonu, Tərtibat və ləvazimat komisyonu, Nizamnamə komisyonu. Hər komisyona neçə üzv intixab edilməsi barəsində rəyinizi deyiniz.

**Camalbəyov:** Hər firqədən bir nəfər.

**Səfikürdski:** Hər komisyon beş nəfərdən ibarət olmalıdır.

**Məmməd Əmin:** Hər firqədən birər, "Müsavat" və bitərəflərdən isə ikişər nəfər intixab olmağını təklif edirəm. Zatən "Müsavat" firqəsi ən böyük firqədir.

**Miryəqub:** Hələlik şəkli-fraksiyon məlum olmadığından naşi hər firqədən bir nümayəndə, əyalət, şəhərlər nümayəndələrindən isə bir nəfər üzv təklif edirəm.

**Məmməd Əmin:** Mən təklifimdə israr etmirəm.

**Səfikürdski:** Mən təklifimi geri götürürəm.

**Sədr:** Deməli "İttihad" firqəsinin təklifi qalır. Rica edirəm, namizədlərinizi göstəriniz.

Bu namizədlər təklif edilir: "Müsavat" və bitərəflərdən: Şəfi bəy Rüstəmbəyov Mandat komisyonuna, Məmməd Yusif Səfərov Nizamnamə komisyonuna, Kazımzadə Tərtibat və ləvazim komisyonuna;

**Sosialistlər ittifaqı tərəfindən:** Məhərrəmov Mandat, Səfikürdski Nizamnamə, Hacınski Tərtibat və ləvazim komisyonuna;

"**Hümmət" firqəsindən:** Qarayev Etimadnamə, Camalbəyov Tərtibat və ləvazim, Şeyxülislamov Nizamnamə komisyonuna!

"İttihad" firqəsindən Vəzirov Zeynal bəy Etibarnamə, Məhəmmədbəyov - Tərtibat və Ləvazim, Qarabəyov Nizamnamə komisyonuna;

**Sədr:** Buna etiraz edən var isə əlini qaldırsın! Deməli, təklif qəbul olunur.

**Daha sonra çox maraqlı bir qanun layihəsinin müzakirəsinə başlanılır. Lakin Rəsulzadə ilk iclas olduğundan həmin məsələnin müzakirəsini təxirə salır:**

**Qarabəyli:** Məclisi-Məbusanına güşadı münasibətilə "İttihad" firqəsi siyasi məhbuslar üçün əfvi-ümumi elanını təklif edir.

Şeyxülislamov : "Hümmət" firqəsi "İttihad"ın arzu etdiyi təklifi qəbul və təbrik edir. Bu məsələni fraksiya da qaldırmaq istəyirdi. Fəqət bugünkü iclasda müzakirə edilməyəcəyini nəzərə alaraq qaldırmadı. Bu məsələni firqələrin deklarasiyasında oxunmasına təsir etdik. Hər halda əfvi-ümumi əleyhinə heç kəs etiraz etməz. Biz təbrik və "İttihad"a təşəkkür edirik.

**Məmməd Əmin:** Təbiidir ki, Məclisi-Məbusan yığıldığı zaman əfvi- ümumidən sərfi-nəzər etməyəcəkdir. Şübhəsiz ki, Məclisi-Məbusan əfvi-ümumi məsələsinə yanaşacaqdır. Fəqət, bunu hər fraksiya öz deklarasiyasında bildirəcəkdir. Bununla belə, mən "Müsavat" və bitərəflər namindən "İttihad" firqəsinin işbu təklifini təbrik edirəm. Əfvi-ümumiyə heç kəs etiraz etməz. Fəqət, hələ bu xüsusda qəti bir qərarnamə qəbulundan sərfi-nəzər ilə bəyannamələrin nəşrinə təkin bu məsələni təxir edəlim"

## Azərbaycan Cümhuriyyətinin son günündən "reportaj" – Top lüləsinin hədəfində olan parlament

Əziz oxucu, kiçik yazıda Azərbaycan Cümhuriyyətin sonuncu gününün xəyali təsvirini diqqətinizə çatdırmaq istəyirik. Amma təbii ki, sənədlərin, faktların dili ilə... Həmin ağrı-acılı gündə sapı özümüzdən olan baltaların nə qədər əlimyandıda olduğunu, canfəşanlıq etdiyini siz də görün...

Çingiz İldırım kursantları tərki-silah edir ki, vətəninə hücum edən bolşeviklərə silah çevirə bilməsinlər. Daha sonra özü dənizdən topların lüləsini parlamentə tərəf tuşlayır.

Nə isə... Gəlin, həmin gündən xəyali reportajı özünüz oxuyun. Faktlar Manaf Süleymanova aiddir. Allah rəhmət eləsin, yaxşı araşdırmaçı olub. Amma bolşeviklərin Bakını zəbtini az qala, bayram kimi qeyd edib. Parlamentin təslim olmaq haqqında qərarını qələbə kimi verir. Biz isə heç vaxt həmin hissələri siz dəyərli oxuculara təqdim etmərik. Bu həm şanlı Cümhuriyyətimizə, həm də dəyərlərimizə qarşı hörmətsizlik olar:

*"1920-ci il aprelin 27-də Azərbaycan İnqilab Komitəsi dərhal kömək üçün radio ilə Moskvaya –*

*V.İ.Leninə müraciət etdi. Müraciətnamədə deyilirdi ki, Bakı proletariatı üsyan edərək Müsavat hökumətini yıxmışdır. İnqilab Komitəsi Gənc Rusiya Sovet Respublikası hökumətinə qardaşlıq ittifaqı bağlamağı təklif edir. Xarici və daxili əksinqilabın birləşmiş qüvvələrinə qarşı öz gücü ilə müqavimət göstərməyə imkanı olmayan İnqilab Komitəsi kömək üçün dərhal Qızıl Ordu hissələrinin göndərilməsini xahiş edir. Qızıl Ordunun Qafqaz cəbhəsinin sərkərdəsi M.N. Tuxa*çevskinin əsgərləri Denikinin

könüllü ağqvardiyaçı dəstələrini tar-mar edib Zaqafqaziyaya yaxınlaşmışdı. XI Qızıl Ordu artıq Dağıstanı təmizləyib Azərbaycan sərhədlərində idi. Bakı proletariatı var qüvvəsilə silahlı üsyana hazırlaşırdı. Mədən və zavodlarda, fabrik və ema*latxanalarda, dəmir yolunda və donanmada, xüsusən hərbi gəmilərdə və əsgərlər arasında əlahiddə dəstələr yaradılmışdı; təbliğatçılar əhali arasında qızğın fəaliyyət göstərirdilər"*.

Bu da Manaf Süleymanovun məşhur "Oxuduqlarım, eşitdiklərim, gördüklərim" kitabında yazdığı sözlər... Görəsən, o zaman Cümhuriyyəti devirmək üçün can atan Çingiz ildırımkimilər sonradan "qızıl, qızıl" dedikləri ordu sahiblərinin onları nə günə salacaqlarını təsəvvür edirdilərmi?!

Aprelin 25-də M. Q. Yefremov Qırmızı Ordunun İnqilab Şurasına çağırılır. Ona Bakıya hərəkət etmək əmri verilir. Aprelin 26-da Azərbaycan Kommunist Partiyasının və RKP-nin Qafqaz Ölkə Komitəsinin Bakı bürosu ilə birgə təcili iclasında əksinqilabçı Cümhuriyyət hökumətini silahlı üsyan yolu ilə yıxmaq üçün operativ plan tərtib edilir. Qaraşəhər və Bayıldakı gizli anbarlardan fəhlələrə silah paylanır, Çingiz İldırım, Mirzə Davud Hüseynov, Həmid Sultanov və başqa bolşeviklərin topladıqları silahlar proletar inqilabına xidmət edəcəkdi. Eynilə Balaxanı, Sabunçu, Ramana, Binəqədi və sair mədənlərdə, Ağşəhər və Qaraşəhərdəki zavodlarda, dəmir yolu deposu və emalatxanalarında əhaliyə silah paylanır. Gəmilərdə, körpülərdə və tərsanələrdəki fəhlələrə isə Çingiz İldırımın göstərişilə silah verilir. Mədən və zavodlarda törədilə biləcək təxribat və yanğının qabağını almaq məqsədiylə xüsusi silahlı gözətçilər təyin edilir. Aprelin 26-da Azərbaycan Kommunist Partiyası MK nümayəndələri Q. Musabəyov, H. Cəbiyev və sairələri Dağıstan

- Azərbaycan sərhədinə gəlirlər. Aprelin 27-si səhər AKP MK Müvəqqəti İnqilab Komitəsi yaradır və Nəriman Nərimanov Komitəyə sədr seçilir. Hərbi donanmanı üsyana hazırlamaq Çingiz İldırıma tapşırılır. Donanmada 7 hərb gəmisi vardı. Onlara güclü toplar qoyulmuşdu. Hərb gəmilərinin heyəti bütünlüklə kommunistlərdən və onların tərəfində olan adamlardan ibarət idi. Aprelin 26-dan 27-nə keçən gecədə, Çingiz İldırım gəmilərə top gülləəri yollayır. Bayılda, ən hündür yerdə uzaqvuran sahil topları qoyulmuşdu.

"Aprelin 27-də səhər tezdən, Çingiz İldırım bir dəstə dənizçi ilə gözlənilmədən Bakı hərbi yunker məktəbinə daxil olub, bütün kursantları tərksilah etmişdilər. Bir az sonra fəhlələrlə bərabər birinci şəhər polis şöbəsini tutub və hökumətin Bayıldakı silah anbarını zəbt edirlər. Limanı tutandan sonra Bayıl həbsxanasındakı siyasi məhbusları azad edirlər. Dadaş Bünyadzadə, Rəhim Hüseynov, Qasım İsmayılov və digər bolşeviklər həbsdən xilas olurlar. Azərbaycan KP MK-nın sərəncamı ilə Xəzər hərbi donanması əmrə hazır idi. Bütün gəmilərdən aypara və səkkiz guşəli ulduz və üç (qırmızı, abı və yaşıl) rəngli müsavat bayraqları çıxardılıb əvəzinə Sovet Azərbaycanının çəkicoraqlı, ay-ulduzlu qırmızı bayraqları sancılır. Aprelin 27-də səhər saat 10-da Çingiz İldırımın komandası altında limandakı hərb gəmiləri top lülələrini Parlamentin binasına tuşlamışdı".

**Sonuncu gündən reportaj**

Bakıda çox gərgin, qeyri-adi, təhlükəli vəziyyət yaranmışdı, hərbi donanma bütünlükdə, ordunun bir hissəsi, dəmir yolu, poçt, teleqraf, radio artıq bolşeviklərin əlində idi. Müsavat

hökumətinin başçısı Nəsib bəy Yusifbəyov, hərbiyyə naziri Mehmandarovdan soruşur: "Müsavat ordusu düşmənin qarşısını saxlaya bilərmi?" Hərbi nazir Səmədbəy suala sualla cavab verir: "Siz hansı düşməndən danışırsız?" - Və özü də cavab verir. – "Əgər daşnakları və menşevikləri deyirsinizsə, buna ümid etmək olar, lakin Qırmızı Ordunu nəzərdə tutursunuzsa, bu mənasızdır, cənab baş nazir. Onlara qarşı bir an belə gücümüz çatmaz! Biz bolşeviklərlə döyüşməyəcəyik!"

Vəziyyəti müzakirə etmək üçün aprelin 27-də səhər saat 10-da parlamanın fövqəladə iclası çağırılır. Hamı toplanır. Birdən salona başda Həmid Sultanov olmaqla üç nəfər daxil olur. Həmid Sultanov cəld addımlarla yaxınlaşıb içində ultimatum olan zərfi parlamanın sədrinə verir. Salonda hamı özünü itirir, hamı susur. Parlamanın sədri ultimatumu oxuyur: "Azərbaycan İnqilab Komitəsi parlamanı buraxıb, Müsavat hökumətinin dərhal inqilabi komitəyə təslim olmağını tələb edir!" Elə bu vaxt, Çingiz İldırımın hərbi Qızıl Donanma adından Müsavat hökumətinə və parlamana göndərdiyi ultimatumu gətirdilər.

Parlaman sədri ultimatum gətirənlərə müraciət edərək dedi: "Quracağınız hökumətin siyahısını verin, məsələni fraksiyalarda müzakirə edək!"

Həmid Sultanov Azərbaycan inqilabi komitəsinin siyahısını təqdim edir. Müzakirə başlandı.

**Bu zaman şəhərdə…**

**Adını çəkdiyimiz mənbədən oxuyuruq:** "Bu zaman şəhərdə dövlətlilər arasına neçə gün əvvəl çaxnaşma düşmüşdü. Dəmir yolu vağzalında, bina qarşısındakı meydanda, perronlarda

adam əlindən tərpənmək olmurdu. Dəniz qırağında da körpülərdə eyni vəziyyət idi. Bolşeviklərə "Yardım alayı" dəstələrində şəhərdəki idarə və dövlətlilərin imarətlərini, Bank və ticarət müəssisələrini, zəngin mağazaları qorumaq, yanğına, soyğunçuluğa yol verməmək tapşırılmışdı. "Təzəpir" məscidindəki "Yardım alayı" dəstəsində məşq edən kommunist Məhərrəm Sultanov nəql edirdi ki, komandirimiz türk kommunisti Məmməd Tahir bizi "Tacirlər" bankı, "Volqa – Kama" bankı və "Şimal bankı" yerləşən binaların dövrəsində gözətçi qoydu və dedi: "Şurası müdafiə məntəqəsi. Sayıq bulunun!"

Çox sərt və fikirli idi, adi vaxtlardakı mülayim rəftardan əsər-əlamət yox idi. Özü də silahlanmışdı. Danışanda səsi zəhmli, danışıq tərzi sərt idi. Qonşuluqdakı damı uçmuş, divarları dağılmış müsəlman teatrının xarabalığı adamın ürəyini göynədirdi. Küçələrdə də, ətrafda da qeyri-adi bir səs-küy, bir qarışıqlıq başlayırdı. Silahlı fəhlələrlə dolu maşınlar sürətlə şütüyürdü..."

Birdən vağzal tərəfdən parovozun və yardıma gəlmiş "III İnternasional", "Ulyantsov" zirehli qatarlarının sürəkli, qorxulu fit səsləri ucaldı... Hərb gəmilərinin fit sədaları da onlara qoşuldu.

Aprelin hələ 27-də axşam qaranlığı düşəndə ultimatumu müzakirə etmiş fraksiyaların qərarını parlaman sədri elan etdi: "Azərbaycan parlamanı bu gündən öz fəaliyyətini dayandırır və Müsavat hökuməti bütün hakimiyyəti doktor Nəriman Nərimanovun sədrliyi altında qurulmuş Azərbaycan inqilabi komitəsinə təslim edir". Qaranlıq tündləşirdi. Minarələrdən ucalan azan səsləri qızıllı kilsədə çalınan boğuq zəng səslərinə qarışırdı.

Amma o günə də çox qalmamışdı. Hansı günə ki, Nərimanov da, Qarayevlər də, İldırımlar da öz günahlarından asılacaqdılar…

Azərbaycan isə yenidən müstəqil olacaqdı!

## Cümhuriyyət parlamentinin verdiyi ilk qərar-Məhbuslar əfv edildi

Cümhuriyyət parlamentinin açılış mərasimini hadisələrin şahidi olan bir professor belə nəql edirmiş: "Dekabrın 7-də bazar günü idi… Baxmayaraq ki, cümə günü deyildi, amma parlamanın açılışı münasibətilə bütün dükanları bağlamışdılar; məktəblərdə də dərs keçmirdilər. Bayram elan olunduğundan müəssisələr də işləmirdi. Səhər-səhər parlaman olan küçəyə bir neçə zirehli avtomobil gəlir. Binanın qabağında, küçənin o tayında, qarşı səkilərdə çoxlu adam toplaşıb, hərə bir söz deyirdi. İstiqbaldan, hürriyyətdən danışırdılar, keçmiş istibdaddan, gələcək istiqlaldan söhbət edirdilər. Arabir belə atmacalar da eşidilirdi: "Bu hürriyyətin hamısı Oktyabr inqilabının bərəkətindəndir... Onun qələbəsinin nəticəsidir...". Başqası təsdiq edir: "Əlbəttə, Leninin zərbdəstindəndir, yoxsa müsəlman hara, parlaman hara...".

Bir nəfər mollanüma adam kənardan onlara acıqlanır. Yarızarafat, yariciddi tənbeh edir. Adamlar hırıldayır, höcətə, zarafata keçir.

Poluxin küçəsinə qədər ingilis və Azərbaycan əsgərlərindən, binanın qabağında isə ancaq Azərbaycan əsgərlərindən ibarət mühafizə dəstələri durmuşdular. Şəhadətnaməsi olmayanları içəri buraxmırdılar. Damda ucalan üç rəngli bayrağı külək oynadırdı. Dəvətnamə vərəqəsini göstərib içəri girdim. Qapıdan salona qədər pillələrdə gözəl geyimli azərbaycanlı əsgərləri fəxri qaraulda durmuşdular. Lojalara xırda bayraqlar sancılmışdı. İçəridə kübar xanımlar da vardı. Diplomatik elçilər üçün ayrılmış yerdə İran, Dağıstan və Gürcüstan nümayəndələri əyləşmişdilər. Hümmət təşkilatından Səmədağa Ağamalı oğlu, Əliheydər

Qarayev, Camalbəyov, Əbilov, Şeyxülislamov və başqaları sol tərəfdə oturmuşdular. Saat ikinin yarısında Azərbaycan parlamanının ilk iclası açıldı; bu münasibətlə əfvi-ümumi elan edib siyasi məhbusları azad etmək təklif olundu. Hamı əl çaldı, təklif qəbul edildi. Nümayəndələrdən bir nəfər təbrik teleqramlarını oxudu. Milli şuralar və təşkilatlar tərəfindən də bu tarixi günü qeyd edib sevinc duyğuları izhar olundu, parlamana xalq və millətlər mənafeyi naminə müvəffəqiyyətli fəaliyyət arzulandı.

Çıxışlarda cari və vacib məsələlərdən danışıldı. Saat beşdə parlamanın iclası qurtardı".

Qaynaq: Manaf Süleymanov, "Oxuduqlarım, eşitdiklərim, gördüklərim".

## Cümhuriyyət parlamentində müəllimlərin maaşının müzakirəsi, Nəsib bəyin tarixi çıxışı- "Əgər müəllim, ac olsa…"

Hörmətli oxucu, sizinlə birlikdə, 1919-cu ilin mayına, Cümhuriyyət parlamentinin iclas zalına xəyali səfər edəcəyik. Bilirsiz, niyə? Çünki həmin gün Cümhuriyyət parlamenti qısa tarixinin ən vacib qərarlarından birini qəbul etdi: müəllimlərin maaşını artırdı. Həm də bilirsiz niyə? Çünki hökumətin baş naziri Nəsib bəy Yusifbəyli  (baş nazir ola-ola atasından borca pul istəyən Nəsib bəy) deputatlara imkan verməyərək, hökumətin bütün çətinliklərini göz önünə alaraq, müəllimlərin maaşlarının artırılması üçün tarixi çıxışını etdi. Tələsməyin, öz sonra həmin çıxışı da oxuyacaqsınız. Hələlik, görək, iclas necə başlayıb, necə davam etdi?

1919-cu il 12 may… Günorta saatları.. Parlamentin sədr əvəzi Həsən bəy Ağayev sayca 36-cı iclası açıq elan edir. Bildirir

ki, bu gün müzakirə edəcəyimiz əsas məsələ maarif işçilərinin məvacibi ilə bağlı olacaq.

Deputatlar da sanki bunu gözləyirmişlər. Fraksiya üzvləri söz almaq üçün yarışa girir, bir növ. Amma ilk söz Əhməd Cövdətə verilir. Uzun danışıqdan, qərarın müzakirəsinin indiyə qədər niyə ləngidiyini irad tutandan sonra konkret təklifə keçir:

“Parlamana da təklif edirik ki, nöqsanla da olsa, təcili surətdə qəbul edilsin, müəllimlərin fəna halları təmin edilsin. Bu qanun layihəsinin iki cəhəti vardır: Biri müəllimlərin məvaciblərinin artması, digəri isə “xozyaystvenni” məxariclərin artmasıdır. Dünən maliyyə-büdcə komisyonunun iclasında qət olundu ki, “xozyaystvenni” məxariclər məsələsinə baxılarsa, ola bilər ki, bir iki iclasa qədər məvaciblərə növbə çatmasın. Bu da gec olar. Ona görə də əvvəlcə məvaciblər məsələsinə baxılıb, müəllimlərə tez pul verilsin. Ondan sonra isə idarə məxaricinə baxılar. Xozyayski məxarici məsələsi gələn səfərə qalıb. Bu layihənin üçüncü qiraəti ilə bir yerdə baxılar. Ona görə təklif edirəm ki, təcili olaraq bu layihəyə baxılaraq qəbul edilsin”.

**Hə, əziz oxucu, onu da qeyd edək ki, Azərbaycan Cümhuriyyətinin parlament stenoqramlarına istinad edərək, deputatların danışıq üslubunu olduğu kimi saxlamışıq. İndi keçək, növbəti natiqə. Həsən bəy sözü daha sonra Hacı Kərim Sanılıya verir:**

“Burasını artıq danışmaq istəmirəm ki, elm və oxumaq nə qədər yaxşıdır. Burasını isbat etmək artıqdır. Biz öz uşaqlarımızı müəllimlərə tapşırırıq ki, uşaqlarımızı gələcək Vətən üçün hazırlasın, onların təhti nəzarətində adam olsunlar. Məlumdur ki, Nikolay zamanında müəllimlərə 33 manat 33 qəpik məvacib verilirdi. O zamanın başqa politikası, başqa fikri vardı. Bizim

fikrimiz isə büsbütün başqadır. Biz gorürük ki, yaxşı və qabil müəllimlər öz sənətlərini buraxıb başqa xidmətlərə girirlər. Əgər məvacib yaxşı olsa, o zaman bunun əksi olar, Qabil adamlar öz sənətlərini buraxıb müəllimliyə girərdilər. Əbilovun təklif etdiyi 1500 manat da azdır. Məəmafiyə artıq deməyib məndə ona şərik oluram".

**Daha sonra danışan əksər parlaman üzvləri maaşların 1200-1500 manat civarında olmasını təklif edirlər:**

İbrahim Əbilov (sosialist) –"İbtidai məktəb müəllimlərinə 1200 manat təyin olunubdur. Bizim əqidəmizcə vaxtın bahalığına görə 1200 manat müəllimlərə kifayət eyləməz. hamıya məlumdur indiki bahalıqda 1200 manat deyil 3000 manatla da dolanmaq olmaz. Sosialistlər fraksiyası tərəfindən təklif edirəm, müəllimlərə 1200 manat əvəzinə 1500 manat verilsin. Xidmətçilərin də məvacibi azdır. O da artırılmalıdır. O da 600 əvəzinə 900 manat, 700 manat əvəzinə 1000 manat olsun"…

**Deputatların bu yöndə çıxışları çox olur. Bütün fraksiya üzvləri "müəllim" adının qarşısında nəsə deməyi lazım bilmirlər. Bu yerdə, hökumət başçısı Nəsib bəy söz alır:**

"Möhtərəm məbuslar! Müəllimlərin maaşını nə qədər artırsanız, yəqin ediniz ki, bundan bir şey qeyb etməyəcəksiniz. Çünki bizim varlığımız və istiqbalımız ancaq müəllimlərin əlindədir. Nə qədər müəllim ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbət ki, o müəllim bir şey verə bilməz və o məktəbdən də bir şey çıxmaz. Əlbəttə, bu layihə təklif edilərkən hökumət tək bir müəllimlər deyil, bütün dövlətin halını və xəzinənin gəlir və çıxarını nəzərə alıbdır. Hər bir şeydən, hətta maşınların dişindən də kəsib hökumət bir şey artırmaq istəyirdi. Məlumi-alinizdir ki, əgər gəlirimiz, çıxarımızı ödəməsə, gəlir az olsa, o zaman gəlir ilə çıxar

arasında bir açıqlıq əmələ gəlir ki, bunu da doldurmaq üçün yenə də stanoqa müraciət olunmalıdır. O zaman gələcək üçün bir şey artırmamış olacağıq. Çünki nə qədər pul çox çap olunsa, o qədər manatın qiyməti azalar. Bu hesab ilə yəni hər bir müəllimə beş yüz manat artırmaq hesabilə baxsanız, o zaman ibtidai məktəb müəllimlərinin məvacibi artırsa, edadi və ali məktəb müəllimlərinin də maaşlarını, bununla mütənasibən başqa məmurlarımızın da məvaciblərini artırmalı olacaqsınız. Nəticədə çox təfavüt olacaqdır və çox məbləğ tələb olunacaqdır. İndi deyə bilirəm, nə qədər lazım olacaqdır. Hər halda milyonlar və o milyonlarla təfavüt olacaqdır. Hökumət müəllimlərin maaş miqdarını qət edirkən bildirdiki müəllimlərin dişindən kəsir. Fəqət, buna da hökuməti mümkün əhvali maliyyəsi məcbur edirdi. üudcəyə baxsanız orada olan açıqlığı örtmək üçün siz özünüz hamının, hətta müəllimlərin də dişindən kəsib qənaət etməyə məcbur olacaqsınız. Müəllimlərin maaşının artmasına və bəzi məmurların maaşlarının artıq olmasına hökumət tərəfindən etiraz olmayacaq”

Bu da son!!!

## Cümhuriyyətin aylardır maaş ala bilməyən məmurlarına Novruz sovqatı – Parlamentin qərarı

Cümhuriyyət parlamentinin 1919-cu il 19 mart yəni Novruz bayramı ərəfəsində keçirilən bayram ruhiyyəli iclasında hökumət bir neçə aydır ki, maaş ala bilməyən məmurlarını bu cür sevindirir. Bu məsələ parlamentdə müzakirə ediləndə əvvəlcə sədr Həsən bəy Ağayev danışır və konkret rəqəmlərlə çıxış edir:

“Növbədəki məsələ hökumət məmurlarına bayram münasibətilə bir dəfəlik fevral maaşının 75 faiz əlavəsi ilə müavinəti-

nəqdiyyə verilməsi üçün hökumət maliyyə və büdcə komissiyonuna bir layihə təqdim etmişdir. Maliyyə komissiyası həmən layihəyə baxıb böylə qərar verdi: Əvvəla bu müavinəti-nəqdiyyə nə üçün təklif olunur. Hökumət bu bəyannaməsində səbəb olmaq üzrə göstərir ki, hamıya məlumdur, bahalıq günü- gündən artır, maaş çatışmır, hökumət bu barədə lazım bilir ki, bütün idarələrdə qulluqçuların məvaciblərini artırsın. Ona da beynəl idarə bir komissiyon təşkil edilib bu komissiyaya da 15 nəzarətin vəkilləri daxil olubdur. Bu komissiya müzakiratında və komissiya məkulatın bahalanması davamını nəzərə almayıb müzakiratında davamla işini bitirə bilmir. Yalnız bir proje hazır edibdir. Ona görə hökumət təklif edir ki, fevral ayının məvacibindən başqa müavinəti-nəqdiyyə olmaq üzrə həmən məvacibin 75 faizi də birdəfəlik verilsin və bu müavinəti-nəqdiyəyi Novruz bayramı münasibəti ilə verməyi təklif edir. Büdcə və maliyyə komissiyası layihəyə baxıb bir qədər təbdil etdikdən sonra parlamentə təqdim edir. Hökumət təklif edir ki, bütün idarə məmurlarına 75 faiz müavinəti-nəqdiyyə verilsin. Amma komissiyon isə təklif edir ki, bütün qulluqçuları üç qismə bölmək. Birinci qismi 1400 manatadək maaş alana 70 faiz, 1400-dən 2000-dək alana 60 faiz, 2000-dən artıq alana 40 faiz verilsin. Bu təbəddülatdan başqa bütün layihə qəbul edilmişdir. Və layihə də belədir. (oxuyur).

Hökumət idarələri qulluqçularına Novruz bayramı münasibətilə birdəfəlik müavinəti-nəqdiyyə verilməsi haqqında qanun layihəsi. 1. Novruz bayramı münasibətilə bütün hökumət idarələrinin heyəti və gərək qeyri heyəti qulluqçularına bu sənə fevral maaşının 75 faizi miqdarında bir dəfəlik müavinəti-nəqdiyyə verməli.

2. Birinci maddədə zikr olunan müavinəti-nəqdiyyəyi almaq haqqı hərbiyyə idarələri qulluqçularına və bu sənə yanvar və

fevral aylarında artırılmış olan digər idarə qulluqçularına aid deyildir.

3. Bir dəfəlik müavinət-nəqdiyyə almaq haqqı fevral ayının 28-ə qədər Azərbaycan hökuməti qulluğunda bulunan xidmətçilərə aiddir.

**Lakin bu qanun layihəsini hamı razılıqla qəbul etmir. Bir neçə deputat buna kəskin etiraz edir. Aralarında ən məşhuru isə Əhməd bəy Pepinov olub:**

“Əfəndilər! Sosialistlər fraksiyası əsas etibarı ilə bu layihənin əleyhinədir. Bu barədə hökumətin göstərdiyi dəlildən anlaşılır ki, həqiqətən hökumət qulluqçuları aldıqları məvacib ilə çətin keçinirlər. Bu müşkül vəziyyətdən onları qurtarmaq üçün yalnız bir dəfəyə məxsus olmaq üzrə bayram münasibətilə 75 faiz müavinəti-nəqdiyyə verilsin, böyləliklə bəlkə bayram əyyamını bir dərəcə yaxşı keçirə bilsinlər, bu çətin əhvallarda bir az məmurlara kömək olsun. Biz isə deyiriz ki, hər bir qulluqçuya; hər bir zəhmətkeşə öz işlədiyinə, öz xidmətinə və zəhmətinə görə para versin, tainki qulluqçuya aldığı maaş ilə özünü dolandırmaq mümkün olsun, nəinki onlara bəxşiş verilsin. Bu pul bəxşişdir. Bunu biz rədd ediriz. Bu bəxşişin məmurlara verilməsinə tərəfdar olmayırız. İkinci məsələ də budur ki, müavinəti-nəqdiyyə hamıya verilmir. Əzcümlə dəmir yol qulluqçularına aid deyildir. Bu yaxın zamanda onların maaşı artırıldığına görə bəxşişdən məhrum edilirlər. Hökumət özü qulluqçularının aldıqları məvacib ilə əzlərini idarə edə bilmədiklərini bilir və bunu nəzərə alaraq məvaciblərin artırılması üçün bir beynülidarə komissiyon təşkil etmişdir. Bu komissiyon məvacibləri artıracaq və bu sürətlə qulluqçulara insan kimi yaşamaq imkanı

verəcəkdir. Amma komissiya öz fəaliyyətində hənuz bir nəticə göstərməmişdir. Heç olmazsa bir ay zərfində deyə bilərdi ki, hökumət qulluqçularına nə qədər verməlidir və bir də bu müavinəti-nəqdiyyə niyə 60-70 faiz olub 100 və ya 50 və qeyri miqdarda verilmir. Bunun da səbəbi bizə məlum deyildir. Əlimizdə bir şey yoxdur ki, bu faizlərin miqdarını təyin edək və yaxud müəyyən bir qayda yox ki, qiyas edək olçək. Yenə bir məsələ var ki, məlum olmur hökumət xəzinəsindən bu barədə nə qədər para veriləcəkdir. 5-10-100 milyon nə qədər. Bu pul bəlkə bayramın axırınadək bizə çatmayacaq və bugünkü sualda görəcəksiniz ki, əmələlər və fəhlələr hələ fevral məvacibini almamışlardır. Buna görə də tətillər başlanıb, hətta Nobel əmələləri tətil etmişlərdir".

Səhəri gün dövri mətbuatda məmurların Novruz bayramında müavimət alması barəsində silsilə xəbərlər dərc olundu...

Qaynaq: *"AXC ensiklopediyası"*

## Mehmandarovun Cümhuriyyət ordusunun ağır durumu ilə bağlı parlamentdə çıxışı və verdiyi təkliflər

Bu dəfə AXC-nin hərbiyyə naziri Səməd bəy Mehmandarovun Cümhuriyyət paramentindəki çıxışının qısa xülasəsini təqdim edəcəyik.  O qədər də uzun olmayan çıxışda Cümhuriyyət ordusunun durumu açıq-aydın öz əksini tapıb. Çıxış parlamentin 16-cı iclasında, 1919-cu il, 26 fevralda edilib: (Natiqin dil və üslubu qorunub)

"Həzarat, mən hərbiyyə nəzarətinin fəaliyyəti və əsgəri işlər haqqında bir qədər məlumat verməyi lazım bilirəm. Əlbəttə heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane olamaz. Hərbiyyə nəzarəti Gəncəyə

köçənədək bizə xəbər verdilər ki, əksər işlərimiz yaxşıdır və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Mən Gəncəyə belə gözəl ümüdlə getdim. Hər yeri gəzdim, qətati-əsgəriyyəmizə baxdım, fəqət, iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarıyla dəyişməyə məcbur olduq.Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və komandanları öz vəziyyətlərindən sui-stifadə edirlərdi. Çox vaxt bir külfətin yeganə çörək gətirənini əsgər alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru Paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir haldadır. Məlumdur ki, Türkiyə komandanlığı başında duran adamları aldatmışlardı. Türklər gedərkən mənə bilmərrə libas verməmişlərdi. Ona görə mən əsgəri təşkilat ilə bərabər maddi cəhətdən çalışmalı idim. Nəki mümkünü idi etdim. Amma türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Külli miqdarda taxıl, heyvan və sair məmulat qalmışdır. Ona görə mən əmr etdim ki, əsgərlərə yarım girvənkə əvəzinə üç rüb ət, girvənkə yarım çörək əvəzinə bir rüb çörək verilsin, xörəkləri öz camaatımızın adət etdiyi kimi olub, onlara dolma, bozbaş və sairə versinlər, həftədə bir dəfə plov verilsin. Bundan əlavə əmr etdim əsgərlərə gündə 6 misqal qənd, yarım misqal çay versinlər. Qızdırma, yatalaq və sairə kimi azar olan yerlərə əsgərlərə su içməmək üçün 9 misqal qənd verilir. Libas məsələsi daha da fəna idi. Gürcüstan hərbiyyə nazirinə kağız yazdım ki, libas məsələsində mənə kömək etsin, mütəəsifanə bir şey çıxmadı. İndi Gürcüstan hökuməti nəzdində siyasi nümayəndəmiz Cəfərovun yanında pulumuz və adamlarımız var ki, parça alsınlar. Bundan əlavə Şuşadan fabrikada yaxşı əsgəri

libasa yarar parça toxunur. haman fabrika ilə müqavilənamə bağlamışıq. Orada külli miqdarda yararlı parça əldə etdik. Bu surətlə bu məsələ də hüsnü-həll olunacaqdır. Əlbəttə, möcüzə göstərmək olmaz. Amma nəki mümkündür edəcəyəm. Hal-hazırda hərbiyyə nəzarəti smetasının bir qismini təqdim etmişdir. Bütün smeta martda təqdim ediləcəkdir, çünki ərzaq nəzarəti ambarlarında olan şeylərin miqdarını təyin etmək lazımdır. Hərbiyyə nəzarətinin təhti-idarəsində bu saat 3 anbar var: Hacıqabulda, Gəncədə və Ağdamda. İndi hökumətin qərarlarına görə ərzaq nəzarəti ixtiyarında olan sair ambarların da həpsi hərbiyyə nəzarətinə veriləcəkdir. Ona görə ərzaq mövcudiyyətinin tamamilə hesablamalıdır. Mən ümdə diqqətimi əsgər yığmaq işlərinə verdim. Bu vaxtadək əsgər alınmalı, olanların siyahısı tərtib verilmişdi. Hər yerdə kasıblar əsgər alınırdılar. Hər yerdə qoşun içində bir dövlətli ya bəy, ya xan oğlu görmədim. Ona görə əmr etmişəm əsgər düşənlərin siyahısı tutulsun və bir surəti hərbiyyə nəzarətinə göndərilsin, tainki yığılanlara diqqət verək.

Hal-hazırda 6 ilin əsgəri silah altına çağırılır. Amma güman edirəm ki, bu ilin axırında daha buna ehtiyac olmayacaqdır. Ancaq 2 ilin, yəni 19 və 20 yaşıdları yığmaq kifayət edəcəkdir. Əsgərlikdən qaçmaq məsələsinə gəlincə, bu da deyilən kimi olmayıb, o qədər də layiqi-əhəmiyyət deyildir. Hər yerdə mükəlləfiyyati-əskəriyyət tətbiq olunanda belə şeylər olur. Məsələn, 1888-ci sənə mükəlləfiati-əskəriyyə qanunu ermənilərə və gürcülərə təmsil ediləndə çox adam əsgərlikdən qaçırdı. hələ indi də qaçan çoxdur. Bizdə də çox adam qaçırdı, fəqət, əksilməmişdir. Bu da tədriclə olar. Gəncədə son zamanlar bir adam qaçıb. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtı ilə heç

kəs qaçmayacaqdır. Qətəati əsgəriyə barəsində məni bağışlayın, əsgəri sirləri açıq danışmazlar".

## 100 yaşlı Cümhuriyyət parlamenti-
## Faktların və rəqəmlərin dili ilə

1918 il dekabrın 7-də saat 13.00-da H.Z.Tağıyevin qız-məktəbinin binasında- indiki Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi məkan - Azərbaycan parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılan ilk parlament idi. Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli qanununa əsasən, parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da təmsil olundular. Cümhuriyyət parlamentində yerlər aşağıdakı kimi bölüşdürüldü: türk-müsəlman əhali - 80, ermənilər -21, ruslar - 10, almanlar - 1, yəhudilər-1, gürcülər- 1, polyaklar- 1, Bakı həmkarlar ittifaqları - 3, Bakı Neft Senayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı - 2.

Azərbaycan parlamentinin fəaliyyətə başladığı dövrdəki tarixin çox mühüm ibrət dərslərindən biri də budur ki, Cümhuriyyət xadimlərinin, sülhsevər Azərbaycan xalqının özünün ilk Parlamentində ermənilərə 21, ruslara isə 10 yer ayırmasına baxmayaraq, onlar Parlamentin açılışında iştirak etmədilər.

Parlamentin açılışında öncə Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə geniş təbrik nitqi söylədi. "Müsavat" fraksiyasının təklifi ilə bu zaman səfərdə olan Əlimərdan bəy Topçubaşov, qiyabi olaraq, parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Rəhim bəy Əlağa oğlu Vəkilov

Parlamentin katibi təsdiq olundu. Ə.Topçubaşov Azərbaycanda olmadığı üçün Parlamentin fəaliyyətinə H.Ağayev rəhbərlik etdi. Parlamentin ilk iclasında Fətəli xan Xoyski Hökumətinin istefası qəbul edildi və yeni Hökumətin təşkil olunması qərara alındı. Bu barədə bir az ətraflı danışaq:

Fətəli xan Xoyski 1918-ci ilin 7 dekabrında-parlamentin açıldığı tarixdə qanunverici orqanın ilk iclasındakı çıxışında Azərbaycan hökumətinin bir neçə aylıq fəaliyyəti barədə hesabat verdikdən sonra onun istefası haqqında bəyanatı da təqdim edir. Bu, artıq Xoyski şəxsiyyətinin böyüklüyü demək idi:

"Fəaliyyətimizdə xətalar işləmişiksə də, hər zaman fikrimiz bu olmuşdur: Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstərəsiniz, tənqidə ixtiyarınız var və tənqid xeyirli şeydir. Parlamentin əsas vəzifəsi də yol göstərməkdir. Hər nazir öz nəzarətləri barəsində bəyanat verəcəkdir. Hökumətin ixtiyarı bu günə qədər idi. Şimdi isə siz yığıldınız. Hökumət başında parlamentin etimadına müzəhhər və parlamentə istinad edən bir kabinə olmalıdır. Heç bir hökumət parlament açıldıqdan sonra iş başında qalamaz. Ona görə də mən bütün yoldaşlarım tərəfindən xəbər verirəm: hökumət hüzurunuzda istefasını verir".

**Elə ilk iclasdan və fraksiyaların sayından görünür ki, parlament ifrat demokratizmə meyl edib. Bu addım parlamentin sonrakı işində bir çox maneələrə səbəb oldu. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının birinci cildindən oxuyuruq:**

"Ölkədə ali hakimiyyəti öz əlində cəmləşdirən və sayı 100 nəfərə çatmayan parlamentdə 11 fraksiya və qrupun fəaliyyət

göstərməsi də olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqil dövlət quruculuğuna ciddi əngəl törədirdi. Ayrı - ayrı fraksiya və qruplar bir çox hallarda özlərinin məhdud fraksiya və qrup mənafələrini ümummilli mənafədən üstün tuturdular. Məsələn, parlamentin sosialist bloku "yoxsulların mənafeyini müdafiə etmək" pərdəsi altında, müntəzəm olaraq, Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsini təbliğ edir, Sovet Rusiyasında diplomatik nümayəndəlik açılması barədə qərar qəbul edilməsinə nail olmuş, nəhayət, Qırmızı Ordunun ölkəyə müdaxiləsinə tərəfdar çıxmışdı ki, bu da, mahiyyətcə, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq işi aparmaqdan başqa bir şey deyildi. Digər tərəfdən, fraksiyalararası mübarizə nəticəsində aqrar məsələ haqqında qanun layihəsinin iclasdan-iclasa ötürülməsi və nəticə etibarilə qəbul olunmaması da Azərbaycan Xalq Cümhuriyyətinin xalq içərisində nüfuzunu itirməsində və süqutunda az rol oynamadı".

Bununla belə, Azərbaycan  Cümhuriyyətinin parlamenti 17 aylıq aramsız və gərgin fəaliyyəti ərzində həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoydu.

**Azərbaycan  Cümhuriyyəti dövründə parlamentçilik tariximiz iki dövrə ayrılır: birinci dövr -1918 il mayın 27-dən noyabrın 19-dək davam edib. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk deputatdan ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etdi:**

“İlk parlament 1918 il mayın 28-də Azərbaycanın müstəqilliyini elan edib, ölkənin idarə olunmasını öz üzərinə götürüb və tarixi İstiqlal Bəyannaməsini qəbul edib. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə - Qafqaz canişinin iqamətgahında elan etdiyi İstiqlal bəyannaməsi Azərbaycanın demokratiya və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirildi. İlk iclas 1918 il mayın 27-də Tiflisdə, son iclas -1918 il noyabrın 19-da Bakıda baş tutdu. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olundu, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti Hökumətə verdi. Xalq Cümhuriyyəti Hökuməti 1918 il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etdi. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssislər Məclisinin - geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və özfəaliyyətini dayandırdı”. (həmin mənbədən)

Beləliklə, Azərbaycan parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövri 1918-ci il dekabrın 7-dən 1920 il aprelin 27-dək - cəmi 17 ay davam etdi. Bu dövrdə parlamentin cəmi 145 iclası baş tutdu.

Bu iclaslarda parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarıldı. Onlardan 230-a yaxını qəbul olundu:

"Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə olunur, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardı. Parlamentin fəaliyyəti xüsusi olaraq bu məqsəd üçün hazırlanmış nizamnamə - "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" əsasında idarə olunurdu. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətinə belə qiymət verirdi: "Millət məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə - vəzifə yox idi. Parlament hakimimütləq idi"

***(Qaynaq: Azərbaycan Cümhuriyyəti parlamentinin stenoqramları)***

Parlamentdə aşağıdakı fraksiyalar vardı: "Müsavat" və bitərəflər fraksiyasi, İttihad" fraksiyası, "Əhrar" fraksiyası, Sosialistlər fraksiyası, Bitərəflər fraksiyası, Müstəqillər fraksiyası, Sol müstəqillər fraksiyası, "Slavyan-rus cəmiyyəti" fraksiyası, Milli azlıqlar fraksiyası, Erməni fraksiyası, "Daşnaksutyun" fraksiyası

Həmçinin, parlamentdə 11 komissiya fəaliyyət göstərirdi: - maliyyə-büdcə komissiyası, qanunvericilik təklifləri komissiyası, Müəssislər məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat komissiyası, hərbi işlər üzrə komissiya, aqrar

məsələlər üzrə komissiya, sorğular üzrə komissiya, təsərrüfat sərəncamverici məsələlər üzrə komissiya, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət komissiyası, fəhlə məsələləri üzrə komissiya və nəşriyyat-redaksiya komissiyası.

*Qeyd: Həm fraksiyalar, həm də komissiyalarla bağlı mənbə: Azərbaycanın Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar).*

*Yazıda həmçinin Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının I və II cildlərindən, "Fətəli Xan Xoyski" monoqrafiyasından istifadə edilib.*

## Parlamentdə məmur maaşının mübahisəsi – Hiddətlənən Rəsulzadə, iclası tərk edən deputatlar

AXC parlamentinin iclaslarının birində maraqlı hadisə yaşanır. Hadisə deyərkən, təbii ki, qeyri-adi bir əhvalat deyil, parlamentdə edilən cəsarətli və tarixə həkk olunan çıxışlardan, müzakirələrdən danışacağıq. Belə gərgin müzakirələrdən biri də Milli Şuranın banisi Məhəmməd Əmin Rəsulzadənin adı ilə bağlıdır. O, 1919-cu ilin 4 may tarixində, parlamentin sayca 33-cü iclasında müzakirəyə çıxarılan vacib məsələlərin qəbulu zamanı yaşanan mübahisələrə qarışmalı olur. Xəyalən də olsa, 1919-cu ilin mayına, Cümhuriyyətin parlament zalına səfər edək. O zaman parlamentdə 3 vacib qanun müzakirəyə çıxarılmışdı:

1.Gəncə bələdiyyə idarəsinə bir milyon rubl borc verilməsi haqqında layiheyi-qanuniyyə; 2. Hökumət məmurlarının məaşlarının təzyidi haqqında layiheyi-qanuniyyə; 3. Sərmayə vergisi;

Sənədlilik baxımından qanunların adını olduğu kimi təqdim etdik. Amma hər üç qanunun müzakirəsi xeyli mübahisələrə

səbəb olub. Hər üçünün də müzakirəsi zamanı verilən qərarla razılaşmayan deputatlar iclas zalını tərk etməyə qalxıb. Gəlin, iclasdan "reportaja" başlayaq:

**Demək, hər üç qanun oxunub. Rəsulzadə ondan sonra söz alaraq, məsələyə münasibət bildirir:** Təklif olunan bu üç maddədən 1-2-ci məmləkətin iqtisadiyyatından başqa vəziyyəti-siyasiyyəsi ilə əlaqədardır. Bu siyasət ilə uğraşmağa da, intixab edib inandığımız və məmləkətin təkiyəgahi olan hökumət vardır. Bu onun borcudur. Ona vaküzar olunmalıdır ki, bu siyasi məsələni həll edib lazımi tədbirlər görsün. Neft ticarəti üçün Həştərxan yolunun açılmasına lüzum olduğunu hökumət öz bəyənnaməsində söyləmiş olduğundan böylə nazik siyasi zamanlarda burada fəzlə izahatlarda bulunmaq artıqdır. Ona görə böylə nazik siyasi məsələlərdə vaqe olan təklifləri etimad etdiyimiz hökumətə demək və buna meydan verməyi artıq bilirik. Fəqət, 3-cü maddəyə onsuz da müvafiqət edib rəy verəcəyik.

**Sədr -** Söz Əhməd Cövdət bəy Pepinovundur.

Əhməd Cövdət bəy - Əfəndilər! Biz də öylə zənn ediriz ki, maliyyə nazirinin dediyi kimi bizə izahat verilməli idi. Fəqət, parlaman qət etdi ki, müzakirat bitsin, biz isə deyirik ki, müzakirat qət olunmasın və camaət tərəfindən vəkil olduğumuzda bizə gizli və aşkar da olsa məlumat verməlidir. Taki doğru tədbir görmək mümkün olsun. Təkliflərə gəldikdə Məmməd Əmin əfəndi söylədilər ki, birinci və ikinci təkliflər barəsindədanışmaq artıqdır. Hökumət nümayəndəsi maliyyə naziri isə deyir ki, birincini qəbul etmək olar. Biz də bilirik ki, bu məsələ mühüm və nazikdir. hər halda açıq olmazsa da qapalı iclas qura bilərik ki, orada hökumət nümayəndəsi izahat versin. Yoxsa gözümüz qapalı bu pulların buraxılmasına razı ola bilmərik. Camaət nümayəndələrindən heç bir şey gizlətmək olmaz. Əgər hökumət

nümayəndəsi bizə izahat verməyə söz vermirsə və buna görə qapalı iclas olmasını lazım görürsə biz təklifimizi növbədən götürərik.

**Rəis -** təklifləri bir-bir səsə qoyuram...

**Məhəmməd Əmin (yerindən) -** Mən elə bilirəm təklif geri alınıb, qapalı iclasa buraxılmışdır.

**Rəis -** Yox, mən səhv etdim. Təqsir məndədir ki, bunu buraxdım. Mən üzr istəyirəm. Təklif imzasız olub.

Nakaz ilə düz deyildir. İmza atan özü danışar idi.

**Məhəmməd Əmin (yerindən)** - O vaxt müzakirə edə bilmərik.

Səslər - Fraksiya tərəfindən deyildir.

**Məhəmməd Əmin (yerindən) -** Nizamnamə ilə düz deyildirsə, səsə qoymaq olmaz.

**Sədr -** Söz maliyyə naziri Əliağa Həsənovundur.

Əliağa Həsənov - Əvvəlinci maddəni hər gah dedim ki, qəbul etmək olar. Mən öz fikrimi dedim. Əvvəlcə

dedim ki, hökumətin bu barədə müzakirəsi olmayıbdır. Mən əvvəlinci maddə barəsində dedim ki, öz rəyimlə qəbul edə bilərəm. İkincinin buraxılması mümkün deyildir. Buyurdular qapalı iclasda izahat verilsin.

Ərz elədim ki, bu barədə müzakirə olunacaqdır. O vaxt rəyinizi deyərsiniz. O vaxt hökumət öz rəyini deyər, parlamanda mən güman edirəm ki, bir neçə ay saxlanıb duran şeyi bir neçə gün də saxlana bilər. Yenə təkrar edirəm **ki, birinci maddə mənim öz rəyimdir.**

**Məhəmməd Əmin (yerindən) -** Gözləyə bilmərik ki, imza edilsin. Təklif varsa qoyun səsə.

**Sədr -** Təklif var ki, məclis qapanıb qalan məsail yarına qalsın. Bu təklifi Abdulla bəy Əfəndizadə, Qarabəy

Qarabəyli, Heybətqulu Məmmədbəyov imza etmişlər. Kim

bunun əleyhinə danışmaq istəyir?

**Məmməd Əmin (yerindən)** - Məsələ bitdi, danışan yoxdur.

**Sədr** - Onda səsə qoyuram. Bu məsələ qurtarsın, qalanı sabaha qalsın. Hər kəs buna tərəfdardısa əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə təklif qəbul olunur. (Məbuslar qalxıb getmək istəyirlər, sədr zəng vurur) İltifat edin. İclası hələ qapamamışam. Məsələ həll olundu. Amma hələ iclası qapamadım. Təklifi səsə qoyuram (katibə). Təklifin birinci maddəsini oxuyunuz.

**Katib -** birinci maddəni oxuyur.

**Sədr -** Hər kəs bu arzunun tərəfdarıdırsa rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir?

Əksəriyyət rəyilə rədd olunur.

**Məmməd Əmin (yerindən) -** O biri ikisi işinə getdi?

**Sədr -** Xayır, bu birdir hələ o bir maddəbəmaddə səsə qoyacağam. (Katibə) İkinci maddəni oxuyunuz?

**Katib** - İkinci maddəni oxuyur.

**Sədr -** Hər kəs bunun tərəfdarıdırsa əlin qaldırsın. Sollar əllərini qaldırırlar. Kim əleyhinədir? (Əllər qalxır).

Əksəriyyət rəy ilə 2-ci maddə rədd olunur. (Katibə) 3-cü maddəni oxuyunuz.

**Katib -** Oxuyur. (Əllər qalxır).

**Sədr -** İltifat ediriz, səsə qoymuşam. Əcələ edirsiniz. Əlan gəlir vergisi hökumət tərəfindən tələb olunur. Bu barədə mənə də kağız gəlib. Üzvlərin hamısına da. Güman edirəm Əhməd bəyə də gəlmişdir. Daha səsə qoymaq nəyə lazımdır.

**Səslər** - Bizə də gəlibdir.

**Məmməd Əmin (yerindən)** - Əhməd bəyə təbliğ üçün kürsüdən danışmaq lazım idi.

**Qarabəy (yerindən)** - Qoy səsə, o da rədd olunacaq.

**Sədr -** Hər kəs öz məlumatını verməlidir. Bunu nə üçün səsə qoyaq bilmirəm. hər kəs gəlir vergisinin yığılmasını arzu edirsə əlini qaldırsın.

**Məmməd Əmin (yerindən)** - Açıq qapını zorlamıyacağız ki!

**Sədr -** Təklif olunur iki il. Rica edirəm müəlliflər göstərsinlər. Hansı illərdir.

**Səslər -** 17-18-ci illər üçün... 18-19-ci illər üçün.

Sədr - Biri deyir 17-18, digəri 18-19. Bu barədə maliyyə nazirinin sözü var.

Əliağa Həsənov - O cür təklifi səsə qoymaq olmaz. hökumət qalıqların penyəsilə bərabər yığılmasını qərara almışdır. İstər 15 ayın, istər 10 ilin qalığı olsun. Bu barədə də otuz minə qədər taza povestkalar gedib padatnı inspektorlara. Onlar tezlik ilə yığacaqlar. İndi təklif olunur 17-18-ci illər üçün yığılsın. Guya bu qayda ilə parlament qabaqki vergiləri müəaf edir. Bunu qəbul etmək olmaz. Əgər olunsa tamam keçmiş qalıxlar müaf olunmuş olar.

**Rəis -** Söz Əhməd Cövdət bəyindir.

Əhməd Cövdət bəy - Biz öz təklifimizin üstündə dururuq. Çünki bu qanun 15-ci ildə qəbul olunmuşdu və

bu vaxta kimi 17-18-ci illərin vergisi toplanmamışdır. Ona görə biz də bu iki sənənin vergisinin toplanmasını təklif edirik.

**Sədr -** Səsə qoyuram. Hər kəs 17-18-ci illərin gəlir vergisinin toplanmasına tərəfdardısa, rica edirəm əllərini qaldırsın.

**Məmməd Əmin (yerindən) -** Təshih olarmı?

**Sədr -** Kim bu təklifin tərəfdarıdirsə əlini qaldırsın. (Sollar əl qaldırır). Kim əleyhinədir? Rica edirəm iltifat ediniz. Sizin təklifiniz müəyyən surətdə verilməyibdir. Oxunur, bir azdan də-

yişdirirsiniz. Deyirsiniz, düzəldirik.

(Alqış). Müəyyən edin, bir də oxuyun, tərcümə edin. Mən özüm də başa düşmürəm.

**Katib (oxuyur**) - Sonra bizim təklifimiz müəyyəndir. Axırıncı illər üçün deyirik. (507 – 508)

**Sədr -** Səsə qoyuram. Hər kəs buna tərəfdardısa əlini qaldırsın. (Əllər qalxır). Lehinə 19. Hər kəs əleyhinədir əlini qaldırsın. Yoxdur. Kim səs vermir? Beləliklə, məsələ keçmir.

**Məmməd Əmin (yerindən)** - Rəy verməməyiniz xüsusunda danışmaq olarmı?

**Sədr -** Məsələ keçmədi.

(Məbuslar yerindən qalxıb getmək istəyirlər).

**Sədr** - Rica edirəm əyləşiniz. İki-üç məclisdir ki, komisyon üzvləri seçilmirlər. Komisyonlar onsuzda işləmirlər. Natamam olduqlarından daha işləmirlər. Rica edirəm namizədlər vərəqəsini sabaha hazırlayın. Seçək

qurtaraq. Namizədlər məlumdur.

**Məmməd Əmin (yerindən)** - Mən söz istəmişəm. Səs verməməmiz barəsində.

**Sədr** - Ola bilməz, məclis qapanır. bu barədə məsələdən qabaq danışmalı idiniz.

**Qara bəy -** Məsələ daha keçdi.

**Sədr -** İclas qapanır.

Qeyd:Azərbaycan Cümhuriyyətinin stenoqramlarından götürülən iclas mətnində sənədliliyi qorumaq üçün natiqlərin dil-üslubu saxlanılıb.

## Cümhuriyyət parlamentinin yeganə qadını – Başıaçıq çıxış etdiyi üçün təhdid olunan maarifçi xanım

Cümhuriyyət dövrünün ziyalı qadınları əsasən mədəni- maarifçi, sosial ictimai sahədə fəaliyyət göstərirdilər. Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik missiyası duran bu xanımlar heç də dövrün kişilərindən geri qalmırdılar. Buna səbəb əslində Cümhuriyyət hakimiyyətinin qadın məsələsi və qadın hüquqları istiqamətində apardığı düzgün siyasət idi. Şərqdə ilk dəfə olaraq qadına seçkidə iştirak etmək hüququ verilir. Yeni qız məktəbləri açılır və xanımlar hazır kadr kimi cəmiyyət üçün yetişdirilirdi. Məhz, bu addımlar cəmiyyətdə qadının da rolunu artırdı.

**Onlardan biri də…**

...Şəfiqə xanım Əfəndizadədir. O, Azərbaycan Cümhuriyyəti parlamentinin yeganə qadın əməkdaşı, Cənubi Qafqazın ilk qadın jurnalisti hesab edilir.

Şəfiqə xanım 1882-ci ildə Gürcüstanın tarixən türklərin yaşadığı Cavahetiya bölgəsində, Axalsix rayonunun Azqur kəndində doğulub. Atası Məmmədəmin Şeyxzadə dövrünün tanınmış ziyalısı və müəllimi idi. Övladlarının təhsil alması ilə şəxsən özü məşğul olurdu. Şəfiqə də bacısı Səidə ilə təhsillərini məhz atasından alıb. On dörd yaşında ikən o, Şəki şəhərinə gedir. Burada atasının çalışdığı "Darrüssiyada" məktəbinin nəzdində qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlayır. Lakin burada çox qalmır, həmin il Bakıya gəlir. Qadın savadsızlığına qarşı mübarizə aparan ziyalılarla çiyin-çiyinə çalışır.

Bu zaman böyük mesenant, milyonçu Hacı Zeynalabdin Tağıyev Bakıda ilk qızlar məktəbini açır. Bununla da, müsəlman Şərqində qadınların yüksək təhsil almasının təməli qoyulur. Görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov Məmmədəmin Şeyxzadəyə məktub yazaraq ondan qızını həmin məktəbdə dərs deməyə göndərməsini xahiş edir. Ata bu dəvətdən məmnun qalır. Ancaq qızının dövlət məktəbində təhsil almadığı üçün belə bir hüququ olmadığını bildirir. Belə olan halda Şəfiqə 1901-ci ildə Tiflisə qayıdır, orada imtahan verir və müəllimlik attestatı alır. Sonra yenidən Bakıya dönür. Rus-müsəlman qızlar məktəbində ana dilindən dərs deyir.

**Mollaların qənimi**

Şəfiqə xanım Cümhuriyyət dövrünün ən fəal xanımı hesab olunur. O, ali təhsil almamasına baxmayaraq, həm publisist , həm də pedaqoq kimi çox dəyərli fəaliyyətə sahiblənib. O, həmçinin, Cümhuriyyət parlamentində stenoqramçı kimi çalışaraq, orada bütün Azərbaycan qadınlarını təmsil etmiş olur. Bu xanım mütərrəqqi fikirlərinə görə xeyli təzyiqlərə də məruz qalır. Məsələn, bir gün yas məclisində kişilərin yığışdığı məkana daxil olur və mollanın qələtini düzəldir. Baxmayaraq ki, o zaman qadının kişi məclisində olması qadağan idi. Amma buna rəğmən Şəfiqə xanım savadsız molla ilə də mübahisə edir ki, bu da məclisdəkilərin hiddətinə səbəb olur.

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova Şəfiqə xanım barəsində bir məqamı xüsusi qeyd edir: “Milli istiqlal hərəkatının yüksəlişində qadınlarımızın da öz payı var. Onlar əsasən “Nəşri Maarif”, “Nicat” cəmiyyətlərində ictimai, maarifçi və xeyriyyə işləri ilə məşğul olurdular. Cümhuriyyət

dövrünün fəal xanımlarından Şəfiqə Əfəndizadəni göstərə bilərik. Qeyd edək ki, həm Şəfiqə xanım və dövrün digər ziyalı qadını Sara xanım qurultayda başıaçıq çıxış edəndə az qala böyük İsmailiyyə binası alqışlardan titrəyirdi. İnsanlar bir ağızdan "yaşasın hüruriyyəti nisvan" deməklə bu iki xanımı alqışlayırdılar. Daha sonra Kazanda ümumrus müsəlmanlar qurultayı keçirildi. Orada da Şəfiqə xanım Əfəndizadə, Səlimə xanım Yaqubova iştirak edirdilər. Şəfiqə xanım həm parlamentdə stenoqramçı işləyir, həm gimnaziyada dərs deyir, həm də publisistik fəaliyyət göstərirdi. "Şərq qadını", "Dəbistan" jurnalında çalışıb. "İşıq" jurnalı var idi ki, o Azərbaycanın ilk qadın jurnalı olub".

**İctimai fəalların sevimlisi**

Ş.Əfəndizadə həm də ictimai işlərlə də məşğul olurdu. O, Hacının qızlar məktəbində dərs deyən zaman müəllimə rəfiqələri - Hənifə xanım Məlikova, Səkinə Axundzadə, Sara Vəzirova ilə birlikdə dram dərnəyi yaratmışdı. Eyni zamanda qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar verir, onları o dövrdə çıxan mətbuat xülasələri ilə tanış edirdi".

O, cəhalətin hökm sürdüyü bir vaxtda müəllimə rəfiqəsi Səkinə Axundzadə ilə birlikdə dram dərnəyi yaradır. Qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar verir, dövrün mətbuat xülasələri ilə tanış edir. Bir müəllimə kimi də, şagirdlərdə Azərbaycan ədəbiyyatına maraq və həvəs yaradır. Qızlara nəinki ədəbi əsərləri, dərslikləri oxumağı, eyni zamanda sərbəst, aydın, savadlı yazmağı da öyrədir. Gənc qızların yüksək təhsil almasına çalışan Şəfiqə xanım 1910-cu ilədək bu məktəbdə müəllimə işləyir. Fars, rus və ərəb dillərini, Şərq klassik ədəbiyyatını dərindən öyrənir. Eyni zamanda, qadın pedaqoji məktəbindəki müəllimlik kurslarında dərs deyir.

**Cümhuriyyət dövrü mətbuatının araşdırıcısı Qərənfil Quliyeva Şəfiqə xanımın fəaliyyətinin çox az öyrənildiyini qeyd edir:**

"1917-ci ilin aprelində Bakıda "İsmailiyyə" binasında Zaqafqaziya müsəlmanlarının qurultayı keçirilib. Qurultayda müxtəlif təbəqələrdən olan kişilərlə yanaşı, cəmi üç qadın - Tiflisdən Sara Talışinskaya, Bakıdan Şəfiqə Əfəndizadə və Sara Vəzirova iştirak ediblər. Fars, rus və ərəb dillərini yaxşı bilən, Şərq ədəbiyyatını mükəmməl öyrənən, Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanımın səlis, aydın və savadlı çıxışı hamını heyran edir. Şəfiqə xanım çıxışının sonunda qadınların maariflənməsi üçün yeni məktəblərin və teatrların açılmasını tələb edir. Onun çıxışı salonda böyük əks-səda doğurur".

## İKİ HAŞİYƏ

*Tarixçi M.Oruclu yazır: "Şəfiqə Əfəndizadə və Sona Talışxanova adlı iki azərbaycanlı qadının çıxışından sonra vəziyyət nümayəndələri qadın məsələsinə ciddi münasibət bildirməyə vadaretdi. Qadınların çıxışından sonra keçmiş Bakı qazısı Ağa Məhəmməd Kərim tribunaya çıxaraq onları şəriət qanunlarına zidd olaraq kişilər qarşısında çıxış etdiklərinə görə mühakimə etdi. Bu zaman bütün zal qızışaraq kimin kimlə savaşdığı məlum olmadı. Maarifpərvər ziyalılar aranı sakitləşdirərək qadınları gizlincə dal qapıdan cıxarmağa nail oldular".*

***

*C.Məmmədquluzadənin "Ölülər" pyesi ilk dəfə Bakıda 1916-cı ildə tamaşaya qoyulub. Tamaşa zamanı Şəfiqə xanım*

*salonda bir qadının ağladığını görərək ona yaxınlaşıb. Nə üçün ağladığını soruşandaqadın "Bu ki mənim həyatımdır, çəkdiyim əzablardır", - deyə həyəcanla cavab verib. "Ağlama, bacım. Bu, təkcə sənin yox, bütün Azərbaycan qadınlarının həyatıdır", - deyə Şəfiqə xanım onu sakitləşdirib. Bu hadisə onu çox təsirləndirib. "Açıq söz" qəzetində "Ölülər" pyesi haqqında məqalə yazıb.*

**Cümhuriyyət dövründəki çətinliklər**

**Araşdırmaçı Qərənfil Quliyeva Şəfiqə xanımın AXC dövründəki fəaliyyəti haqqındakı araşdırma yazısında onun xeyli çətinliklər yaşadığını göstərir:**

"1918-ci ilin martında ermənilər tərəfindən törədilən mart faciəsi Şəfiqə xanımın da həyatına ağır zərbələr vurub. Bu qanlı olayda Şəfiqə xanımın başına bəlalar gəlib. Bir müddət Qubada, Azqurda və İstanbulda yaşayıb. Lakin Azərbaycanda baş verən hadisələri mütəmadi olaraq izləyib və münasibət bildirib. Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsindən sonra 1919-cu ilin aprelində Bakıya qayıdan Şəfiqə xanım yenidən pedaqoji işinə bərpa olunub".

**Son dayanacaq – Sovet dövrü…**

Amma o, Sovet dövründə də dinc oturmur. Bu illərdə də müəllimliklə yanaşı, publisistik fəaliyyətini davam etdirib. 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinin üzvü seçilib, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olub. Jurnal o zaman onun haqqında yazırdı: "Şəfiqə xanım bütün Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi və bununla yanaşı, ilk Azərbaycan qadın jurnalistivə publisisti olmuşdur". Tədqiqatçıların yazdığına görə, 1932-ci ilə

qədər pedaqoji fəaliyyətlə məşğul olan Şəfiqə xanım Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilən qadın konfrans və qurultaylarında nümayəndə kimi iştirakedirdi. Bütün ömrünü Azərbaycan qadınının maariflənməsinə, azadlığına həsr edən Şəfiqə xanım Əfəndizadə 1959-cu ildə Bakıda dünyasını dəyişib.

## Fətəli xan Xoyski hökuməti niyə istefa vermişdi? - TARİXİ NİTQ

Fətəli xan Xoyskinin 1918-ci il 7 dekabr tarixində, yəni, Azərbaycan Cümhuriyyətinin parlamentinin açılışında səsləndirdiyi tarixi nitq haqqında təəssüf ki, elektron və çap mediasında çox az bilgiyə rast gəlmişik. Azərbaycan Cümhuriyyəti parlamentinin tərtib edilən stenoqramlarında və Fətəli xan Xoyskidən bəhs edən bəzi araşdırma məqalələrdə həmin tarixi nitq və o nitqə aparan yollar barəsində müəyyən məqamlar işıqlandırılıb.

Xoyski çıxışında 1918-ci ilin 28 mayından bugünədək keçdikləri keşməkeşli yoldan danışır. Üzləşdikləri çətinliklər, yaşadıqları basqılardan söz açan Xoyski, bununla belə, may ayından bəri rəhbərlik etdiyi hökumətin Azərbaycan xalqı üçün əlindən gələni əsirgəmədiyini bildirib.

Xoyskinin rəhbərliyi dövründə yaşanan ən acı tarixi faktlardan biri də İrəvanın güzəştə gedilməsidir. Amma biz tarixi situasiyanı dəyərləndirməliyik. Cəmi bir neçə ay bundan əvvəl qurulan, təhlükəsizliyi türk ordusundan asılı olan, ordusuz bir hökumət başqa nə cür qərar qəbul edə bilərdi ki?

Cümhuriyyətin xarici işlər naziri Məhəmməd Həsən Hacinskiyə yazdığı məktubunda Xoyski bu məsələyə qısa izahat verib:

**“Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik”.**

Sonrakı proseslər bunun tam əksini göstərsə də, yenə də Xoyski və rəhbərlik etdiyi hökuməti nədəsə qınamaq olmaz. Xoyski bayaq dediyimiz tarixi nitqdə bu barədə deyirdi:

“Hökumətimiz öylə bir zamada təşəkkül etmişdi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi. Gecə yatanda sabaha çıxmaq ümidi yox idi. Heç kəsin irzi, namusu, canı, malı əmniyyətdə deyildi… İdarələrin adı varsa da, özü yox idi. Hərə başına beş-on addam yığıb bir hökumət, bir qanun düzəltmiş idi. Güclü olanlar özünü ağa hesab edirlərdi”.

Buna baxmayaraq, Fətəli xan Xoyski 1918-ci ilin 7 dekabrında-parlamentin açıldığı tarixdə qanunverici orqanın ilk iclasındakı çıxışında Azərbaycan hökumətinin bir neçə aylıq fəaliyyəti barədə hesabat verdikdən sonra onun istefası haqqında bəyanatı da təqdim edir. Bu, artıq Xoyski şəxsiyyətinin böyüklüyü demək idi:

“Fəaliyyətimizdə xətalar işləmişiksə də, hər zaman fikrimiz bu olmuşdur: Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstərəsiniz, tənqidə ixtiyarınız var və tənqid xeyirli şeydir. Parlamentin əsas vəzifəsi də yol göstərməkdir. Hər nazir öz nəzarətləri barəsində bəyanat verəcəkdir. Hökumətin ixtiyarı bu günə qədər idi. Şimdi isə siz yığıldınız. Hökumət başında parlamentin etimadına müzəhhər və parlamentə istinad edən bir kabinə olmalıdır. Heç bir hökumət parlament açıldıqdan sonra iş başında

qalamaz. Ona görə də mən bütün yoldaşlarım tərəfindən xəbər verirəm: hökumət hüzurunuzda istefasını verir".

**Lakin o sıradan bir insan yox, Fətəli xan Xoyski idi. Ona ehtiyac hər zaman olacaqdı. Bu səbəbdən də AXC parlamentinin sədri Həsən bəy Ağayev bu çıxışdan cəmi bir həftə sonra – 1918-ci il 13 dekabrda- yeni hökumət qurmaq üçün Xoyskiyə məktub yazır:**

**"Alişan Fətəli xan Xoyski hüzüri-alilərinə!**

Azərbaycan Cümhuriyyəti məclisi-məbusanın 10 kanuni-əvvəl tarixli iclasında yeni kabinə təşkili üçün baş vəkkili intixab və dəvəti mənə mühəvvəl edilmişdi. Parlaman fraksiyalarının rəyini nəzərə alaraq, zati –alilərin məharəti-siyasilərini və bu anadək vətən və millət üçün göstərdikləri hüsn-xidmət və fədakarlıq böylə mühüm və müşkül məsələ üçün zati-alilərini dəvət etməsinə məbna baş vəkaləti qəbul və müştərək bir kabinə təşkil etməyini arzu edirəm, əfəndim.

Parlaman rəisi doktor H. Ağayev".

**Lakin Xoyski Tiflisdən yolladığı teleqramla bu dəvəti rədd edir. Bunu bir neçə səbəblə əlaqləndirir. Amma parlament üzvləri Xoyski fikrində israrlı olur. Sədr Həsən bəy ikinci dəfə ona xahiş məktubu ünvanlayır:**

"Yeni hökumət təşkili üçün zat-alilərinizə 13 kanunda (dekabrda) yazdığım məktubuma rədd cavabı almağıma baxmayaraq, təkraran zat alilərinizdən millət naminə rica ediyorum ki, Vətənin bu ağır zamanında hökumət təşkili kimi məsuliyyətli bir vəzifədən bərkənar olmayıb, yeni müştərək bir kabinə təşkilini

öhdənizə götürəsiniz.

Parlaman rəisi Həsən bəy Ağayev”.

Mürəkkəb siyasi proseslərdən yorulmasına baxmayaraq, Xoyski gənc dövləti tək buraxmır. Doğrudur, o bundan sonra hökumətə az rəhbərlik edir. Amma hərbiyyə və xarici işlər naziri kimi Cümhuriyyət və cümhuriyyətçilərin yanında olur.

Mənbə: “Fətəli xan Xoyski monoqrafiyası.”

## Parlament sədri deputatlara niyə əsəbiləşdi?

Azərbaycan Cümhuriyyətinin yüzillik yubileyi ilə bağlı silsilə yazılarına davam edir. Qeyd edək ki, bu il həm də Cümhuriyyət parlamentinin 100 yaşıdır. Ona görə də, silsilə materiallarda parlament mövzusunu da unutmuruq.

Azərbaycan Cümhuriyyətinin parlamenti kifayət qədər mütərəqqi bir qurum olub. İki ilə yaxın müddətdə keçirdiyi iclaslarda bir sıra vacib qərarlar verib. Lakin parlamentin tarixində 15 iclas baş tutmamış bitib. Buna səbəb isə iclasın keçirilməsi üçün yetərsayın olmaması idi.

Amma bir neçə iclas olub ki, orada yetərsayın olmamasının özü belə müəmmalı qalıb. Parlamentə daxil olan sədr əvvəlcə deputat sayını iclas üçün uyğun bilməyib. Sayca 28-ci olacaq həmin iyirmi səkkizinci iclasda isə say çatışmazlığının səbəbini öyrənmək istədikdə maraqlı cavabla qarşılaşır.

10 aprel 1919-cu il tarixində olan iclasın stenoqramı belədir:

“Rəis - Həsən bəy Ağayev. Katib - Mehdi bəy Hacınski.

Rəis - Məclis açılır, lakin kvorum olmadığına görə məclisi davam etdirə bilməyəcəyəm. Hərçəndi 41-dən artıq adam yazılıbdır, lakin burada yoxdurlar, bilmirəm haradadırlar. Mənə

belə gəlir ki, bəlkə otaqlardadırlar. (Kyüstərə) Gedin bir baxın. (Kyüster gedib baxandan sonra qayıdır).

Kyüster - Bir dəstə dayanıb söhbət edirdilər.

(Səs-küy. Səslər: Məclisə ehtiramsızlıqdır, bağlayın).

Rəis - Belə şey olmaz ki...

Səslər - İclası qapayın, qapayın! Rəis - Kvorum olmadığına görə iclas qapanır".

**Rəsulzadənin qərarından incimək**

Təqdim edəcəyimiz yazıda görəcəyik ki, yeni qurulan AXC hökuməti parlament üzvlüyü haqqında qərar qəbul edir. "Müsavat" fraksiyasının qərarına görə, parlamentdə dövlət məmurluğu olan şəxslər üzv ola bilməzdilər. Lakin bir neçə yüksək çinli məmurlara bu şamil edilmirdi. Elə bu qərar da parlamentdə etirazla qarşılaşır. Üzeyir bəy bu haqda yazır:

"Parlaman üzvü olan bir şəxs eyni zamanda dövlət məmuru ola bilərmi?

Bu suala Müsavat fraksiyasının cavabı böylə olmuşdur:

- Xeyr, ola bilməz! Vəzirlərdən savayı.

Müsavatın bu qərarı bütün parlamanı təşvişə saldı. O idi ki, parlaman əzasından Vansoviç cənabları kürsüyə çıxıb dəvi vəkillərinə məxsus bir əda ilə şirin nitq söylədi. Amerika, İngiltərə, Fransa parlamanlarından misallar gətirdi, axırda onu dedi ki, hələ tərzi-idarəsi dürüst təyin edilməmiş olan Azərbaycanda bu növ məsələlərin həlli tezdir.

Bunlara müqabil "Müsavat" fraksiyası sədri Məhəmməd Əmin Rəsulzadə cənabları söz deməyə məcbur idi.

Güman edirdim ki, Rəsulzadə cənabları bu qədər dəli və bürhandan sonra "Müsavat" fraksiyasının nəzəriyyəsini yanlış he-

sab edib, parlamandan üzr istəyəcək və deyəcək ki, bağışlayın, biz səhv etmişik.

Lakin Rəsulzadə cənabları nəzəriyyələrii müdafiəyə başladı və özündən qabaqkı natiq əfəndilərin dəlillərini nəqz və cərh etməyə qalxdı.

İşə gəldikdə, aya bu Azərbaycan dövləti irfanca o qədər kasıb oldu ki, bir iyirmi nəfər “savad əhli”tapa bilmədi ki, məmurluqlarını tərk edəcək məbusların yerinə qoysun?!

Doğrudur, biz özgələrə nisbətən irfanca bir az kasıbıq.

Lakin kasıblığımızı mübadilə yolu ilə bir qədər daha kasıblatmağa lüzum yoxdur. Çünki bu cürə söhətlərin axırı böylə olur ki, Azərbaycan dövlətinin ümuri-xeyriyyə nəzarəti parmalanı kasıb hesab edir. Kağızları da rusca yazır ki, parlamanadaki ruslar oxuyub, ordakı müsəlmanları başa salsınlar”.

## Cümhuriyyət parlamentində çalışanlar nə qədər maaş alırdı?

Cümhuriyyət parlamenti özünün 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirib. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olub. Yetərsay olmadığı üçün bu iclaslardan 15-i baş tutmayıb. Qalan 130 iclasdan ikisi tarixi - 28 may və 15 sentyabr 1919-cu il - Azərbaycanın İstiqlalının və Bakının azad edilməsinin birinci ildönümləri münasibətilə; dördü təntənəli 12 mart 1919 və 12 mart 1920-ci illər - Böyük Rus İnqilabının 2-ci və 3-cü ildönümləri; 27 iyun 1919-cu il - Azərbaycanla-Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında müqavilə bağlanması və 14 yanvar 1920-ci il Paris sülh konfransı iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin

de-fakto tanınması münasibətilə keçirilib. İkisi isə fövqəladə - 1918-ci il dekabrın 20-də Ermənistanın Gürcüstana müharibə elan etməsi və 1920ci il martın 17-də Gürcüstanla-Azərbaycan arasında bağlanmış iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqi münasibətilə keçirilmiş iclaslardı. Qalan iclaslarda ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və sair məsələlər müzakirə olunub. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu. Öz fəaliyyəti dövründə Azərbaycan Cumhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılıb ki, onlardan da 230-a yaxına təsdiq edilib. Parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi rolu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi. Parlamentdə bir çox ştatlarda işçilər çalışırdı.

## Cümhuriyyət parlamentində "realni" məktəblərin açılmasına etiraz - *Dövrün təhsil mənzərəsi*

AXC parlamentinin 121-ci iclasında tədris və maarifin inkişafı üçün bir çox yerlərdə realnı məktəblər açılması təklif edilir. Lakin təhsilin birbaşa içində olan və həyatını buna həsr edən deputatların bir neçə buna qarşı çıxır. Səbəb isə müxtəlifdir. Lakin əsas səbəbi ömrünü bütünlüklə maarifçiliyə həsr edən Sultan Məcid Qənizadə deyir.

Azərbaycan Cümhuriyyəti parlamentinin stenoqramlarına istinadən Sultan Məcidin bu xüsusda ərz etdiyi nitqini diqqətinizə çatdırırıq.Təbii ki, müəllifin dil və üslubuna toxunmadan...

Burada təkcə realni məktəblər haqqında danışılmır, eləcə də ADR dövrünün təhsil mənzərəsi açıq-aşkar göstərilir:

"Əlbəttə, mən Göyçayda məktəb açılmasının tərəfdarıyam. Zira bu mədəniyyətdir. Özüm də çox zaman maarif işində işləmişəm. Lazım bilirəm məlum edim ki, Göyçayda açılacaq məktəb ali-ibtidai məktəblərin nüfuzunu azaldacaqdır. Əgər şəhər üçün açılırsa, qoy açılsın. Fəqət, mən yenə təkrar edirəm, orada on beşdən artıq uşaq olmayacaq. Necə ki, Salyanda da elə oldu. Axırı bir şey çıxmadı. Realni məktəbin açılması ali- ibtidailərin bağlanmasına səbəb ola bilər. Onlar da bağlanarsa camaat üçün böyük bədbəxtlik üz verə bilər. Ali- ibtidai məktəbin nəfi camaat üçün daha artıqdır. Bəs, ziyanı olanda gərək ali-ibtidailərdə olsun. Mən ona görə dedim ki, bununla bir şey çıxmaz, sentyabrdan açarıq. Gələn yıl o yerlərdə, ətraf realni məktəb yoxdur. Şamaxıda da iki-üç yıl ola bilməyəcəkdir. Onların həpsi oraya gələcəkdirlər. Hərçəndi buna riza verə bilmirlər ki, Muxtar əfəndi. Ərəşdən oraya gəlirlər. Mən deyirəm ki, ehtiyac özü gətirir. Ərəşdən də gəlir. Ali-ibtidai məktəb Ərəşdə, Ağdaşda da var. Kürdəmirdə də açılır. Onlardan da gəlirlər. Altmış-yetmiş uşaq yığılıb gəlirlər. Hələlik dayansın, Bakıda da realnidə pansion var idi, bağlandı. Bağlanması lazımdı da. Neçün lazımdı? Bir vaxt var idi, ətrafda, Qarabağda və başqa yerlərdə realni yox idi, həp buraya daxil idi. Onda da pansiyon var idi. Vaxta ki, Qarabağda, Salyanda, Lənkəranda realni açıldı, artıq Bakıda bulunan pansiyon lazım olmadı. Çünki bakılılar uşaqlarını pansiyona vermirlər idi. Kənardan da uşaq gəlmirdi, bir yandan da bahalıq başlandı, ona körə də bağlamaq lazım gəldi. Mən özüm də bağlanmasına səs verdim, çünki lazım deyildi. Amma Göyçayda pansiyon lazımdır. Kənardan gələn uşaqlar oraya girsinlər. Orada bir-iki indigent ailə tapılar ki, uşağını oraya verər-

lər, 10-15 ailə ançaq ola bilər. Qalanları yığma, o yandan, bu yandan gəlmiş qara adamlardır. Mən uşağımı necə verəyim? Görə-görə haraya aparacaq, mənim balama nasıl tərbiyə verəcəklər? Mən görmüşəm çox yerdə uşaqlar çayçı dükanlarda qalmışlardır. Çayçı dükanında nə öyrənəcəklər? İstibdad vaxtında bizim uşaqlarımıza pansiyon açmağa qoymurdular. İndi, bizim hökumətimizdir, məmləkətimizdir, uşaqlarımız üçün pansiyon açmaq lazımdır. Bir də tək hökumət olmayacaq, o adamlar oğlu üçün pul verəcək, çünki pansiyonda müəllim var, tərbiyə var. Ancaq indi Göyçayda bir ev yoxdur ki, pansiyon və məktəb üçün yarasın. Çünki məktəb və pansiyon üçün hər ev yaramaz; onun gərək klassaları olsun. Məktəb üçün xüsusi ev olsun, xüsusi ev tikmək lazımdır. Məktəbin hər yerdə olmasına biz razı olmadıq. Biz gərək pansiyon və məktəbimiz üçün xüsusi ev tikmək tədarükünə düşək. Bununla belə, para hazırlığına başlamaq 9 min manata qədər xərcimiz var. Dayanmalı, iyulun əvvəlindən başlamalı, müəllimlər dəvət etməlidir. Bu para da qalar Göyçay məktəbi üçün. Mən bu məktəbi boğmaq deyil, istəyirəm ki, vüsətli açılıb yaşasın.

Ondan başqa biz darülfunun açanda hökumətin qərarı bu idi ki, mümkün qədər edadi çox açılsın. Biz gərək hər yerdə orta məktəblər açaq. Əlbəttə, Göyçayda realni məktəbi açılanda, özgə yerlərdə də açılacaqdır. Sabahısı realni Şamaxıda da açılacaqdır. Ora böylə qalmayacaqdır. Müvəqqəti bağlanıbdır. Kürdəmirdə də əşyası var, açılar. Ümid vardır ki, ətrafdakı otuz-qırx məktəb, bir yerə yığılanda klasslar açılar oxuyarlar. Ona görə dediyim budur ki, əvvəl internat olsun. Yoxsa, təəssüf edirəm ki, pessimist (bədbin) olmağa məcburam. Sonra məktəbin binası olsun, xalqvəsət məktəbləri olsun. O yerlərdə ki, bir şey yoxdur,

orada mən bir realni məktəb açıram. Realni açmaq üçün əvvəla, ibtidai məktəb olmalıdır. Yoxsa, oraya neredən uşaq gələcəkdir? Birinci klassa 20 uşaq gələrsə, 2-ci klassa keçəndə qalacaq 10 nəfər. Baxıb görəcəksən ki, axırıncı sinifdə 2-3 nəfər qaldı. Buna da ki, heç vaxt razı olmaq olmaz. Həmişə ümid ibtidai məktəblərədir. Kəndlərdə olan ibtidai məktəblərdə oxuyan mütəallimlər toplayıb 40-50 nəfərə kimi bir kom- plekt hazırlayırlar və ali-ibtidaiyə girirlər. Mənim məlumatıma görə, Göyçay dairəsində 52 ibtidai məktəb var ki, onların şagirdləri qurtarandan sonra ali-ibtidai (məktəb) açmaq lazım gəlir. Bu da Göyçayda və Kürdəmirdə açılacaq. Bunun hamısı ona görə deyil ki, məktəbi istəməyirəm. Biləks, məktəblərin daha da geniş və rövnəqli olmasını arzu edirəm. Deməsinlər ki, məktəb apara bilməyirik. Öylə olmasın ki, istibdad zamanında olan kimi məktəblər yaramaz bir halda qalsın”.

# V bölüm - Ədəbi Cümhuriyyət

## "Mən çeynənən bir ölkənin, haqq bağıran səsiyəm" - Əhməd Cavad

Xalq Cümhuriyyəti dövrünə aid olan rəsmi sənədlərdə, eləcə də ədəbi-elmi və kulturoloji mətnlərdə ən çox rast gəlinən imzalardan biri də böyük istiqlal şairi Əhməd Cavaddır. Professor Səlahəddin Əli yazır: "O, Türkiyədə təhsil almış və Türkiyə - Azərbaycan arasında ədəbi, mədəni əlaqələrin möhkəmlənməsində fəal iştirak etmiş, bu cəbhədə Hüseyin Cavid və Abdulla Sur kimi görkəmli şəxsiyyətlərlə çiyin-çiyinə vuruşmuş böyük maarifçi Sehvat Cavadın qardaşıdır. Şair onunla eyni dövrdə yaşamış, Türkiyənin böyük dilçi alimi və şairi olan Ahmet Cevaddan öz təxəllüsünü götürüb. Həmin alimin Azərbaycan məktəblərində dərs vəsaiti kimi keçirilən dilçiliyə aid iki əsəri (Sərf və Nəhv) sənədlərdə səhvən azəri Əhməd Cavadın adı ilə qeyd olunub".

Hüseyn Baykaranın "Azərbaycan istiqlal hərakatı" əsərində qeyd olunur: "1912-13-cü illərdə Azərbaycanda türk ordusu üçün ianə(maddi yardım) toplanır, bir çox gənc türk ordusunda vuruşmaq üçün İstanbulda qurulan "Qafqaz Könüllüləri Birliyinə" yazılırlar. 1912-ci ildə 20 yaşlı, təhsilini də tam başa vurmamış Əhməd Cavad da onların arasında idi".

Vaxt keçəcəkdi və bir gün, yəni 1937-ci ildə Əhməd Cavad onu istintaq edən müstəntiqin suallarına bu cür cavab verəcəkdi: ”Bəli, mən 1912-ci ildə Türkiyədə oldum. Buna səbəb Balkan savaşalarında türk ordusuna kömək etmək idi. Mən ora Batumidə pasport alış-verişi ilə məşğul olan bir nəfərdən İran pasportu alaraq getdim. Mənimlə birlikdə İdris Axundzadə və İsa Əlizadə də oraya gəldilər. Biz hamımız könüllü qrupa qəbul olunduq və onun tərkibində bolqarlara qarşı vuruşduq. Mən 1913-cü ilin son baharında savaş bitəndən sonra geri döndüm”.

Ə.Cavadın Birinci Dünya müharibəsi illərində yazdığı şeirlər, məqalələr dildən-dilə gəzirdi. Vətən nisgili, yurd sevgisini çiyinlərində daşıyan bu şeirlər dövrünün demək olar ki, bütün qəzet və jurnallarında çap olunurdu. Şairin 1916-cı ildə Cəmiyyeti-Xeyriyyə tərəfindən “Qoşma “ adlı şeirlər kitabı nəşr olunur. Bütün türk dünyasının sevinc və iztirabını əks etdirən bu şeirlər Qafqazdakı türk əsirlər arasında daha çox sevilir. Nağı Şeyxzamanlı xatirələrində yazır: ”Gəncədəki türk əsgərlərini mütəmadi olaraq ziyarət edirdik. Onlara müxtəlif dərgilər, eyni zamanda Rəsulzadənin nəşr etdirdiyi “Açıq söz” qəzetəsini aparardıq. Onların incidilməsinə qətiyyən imkan verməzdik və bütün ziyalılar da bunun üçün çalışardı. Amma əsirlərin ən çox sevdiyi tək kişi Əhməd Cavad idi”. Ə.Cavadın şeirləri tək türk əsirlər arasında deyil, Türkiyənin özündə də sevilirdi. Türkçülüyün atası sayılan Ziya Göyalp “Yeni-Məcmuə”də yazır: “Ruslarla savaşdığımız zamanda Qafqazda nəşr olunmuş bir şeir kitabı əlimizə keçdi. Kitabın adı “Qoşma” müəllifi isə Əhməd Cavad adında bir türk idi. Bu millətpərvər şairin bütün şeirləri millətə, türklüyə, vətənə və orduya ithaf edilmişdi. Biz o şeirləri birər-birər öz məcmuəmizdə yayımlayacağıq“.

Birinci Dünya müharibəsi illərində Ə.Cavad “İqbal”, “Yeni İqbal”, “Açıq söz” qəzetlərinin xüsusi müxbiri kimi çalışmışdı. Bir türkün insanının üzləşdiyi faciələri özünəməxsus şəkildə poetik dildə yazan Əhməd Cavad məqalələrində insanları dostluğa, qardaşlığa və birliyə çağırırdı. Bir yazısında yazır: “Həmd olsun Cənabi-Hakka! Bizim də canı yananlarımız var imiş. Qardaş öləndə də qardaşının qucağında ölməlidir. Var olsun birlik və qardaşlıq!” O bütün yazı və şeirlərində “mən çeynənən bir ölkənin, haqq bağıran səsiyəm” deyir. Əslində, biz bunu o yazıların özündən də eşidirik...

## Əhməd Cavad xatirələrin dili ilə – Bir şeirin tarixçəsi

**“Şükriyyə, taleyim şükür Xudaya...”**

“Şükriyyə” Əhməd Cavad şəxsiyyətinin daha bir parlaq tərəfi idi. Çünki Əhməd Cavad şəxsiyyətinin formalaşmasında həyat yoldaşı Şükriyyə xanım əsas səbəbkarlardan olub. Şairlə yaxın dostluq münasibətində olub, dövrünün el ziyalısı sayılan Paşa Hüseynov xatirələrində yazır: “1908-1912-ci illər idi. Əhməd Cavadla qonşu idik. Keçmiş Zərdabi küçəsində kirayədə qalırdı. Sənət məktəbində oxuyurdu. Tay-tuş idik. Sözümüz-söhbətimiz tuturdu. Bilirdim ki, gözaltısı var. Acar qızını sevir. Xəlvəti şeir yazırdı. Çoxu da sevgidən, məhəbbətdən. İlk vaxtlar demirdi, oxumurdu heç kəsə. Nəsə gizlədirdi. Utanırdı, yaman həyalı, çəkingən idi. Bir gün sevincək gəldi ki, ay Paşa, xeyir iş var, mütləq gəl. Əlbəttə, getdim. O zaman hələ çoxunun tanımadığı şairin toyunda iştirak etdim. Yığcam bir sağlıq da söylədim. Hər görəndə deyirdi ki, lələ, sən də əməlli şairsənmiş.

Toydan bir neçə gün sonra Şükriyyə xanımı Gəncədən Şəmkirə aparır. Bir müddət Seyfəlidə, ata yurdu Mehrilidə qonaq qalır. Sonra onlar yenidən Gəncəyə qayıdırlar".

Şükriyyənin atası sərt, ötkəm adam idi. Qızına vaxtında xeyir-dua verməmişdi. Lakin aylar-illər keçdikcə ata ürəyi dözmür. Süleyman bəy 20 ildən sonra – 1936-cı ildə qızının sorağı ilə Gəncəyə gəlir. Şükriyyə xanımla, kürəkəni Əhməd Cavadla, nəvələri ilə görüşür. Bir neçə gün Gəncədə qonaq qalandan sonra evinə qayıdır. Beləcə yollar açılır, gediş-gəliş başlanır. Amma bir ildən sonra Əhməd Cavad həyatla vidalaşmalı olur.

Atası Əhməd Cavad ailəsi ilə yaxın dostluq münasibətində olan başqa bir şəxs Gəncə sakini Hamlet Allahverdiyev də bu xatirələrə toxunur: "Eşitdiyimə görə, Batumda Süleyman bəylə tanış olan Cavad onun Şükriyyə adlı qızına aşıq olur. Qız da şairi sevir. Cavad utanır özü Süleyman bəydən Şükriyyəni istəmir, yaxın dostu Əli Səbridən məsələni Süleyman bəyə açmağını xahiş edir. Dostunun elçiliyini edən Əli Səbri Süleyman bəydən soruşur: "Cavad əfəndi nasıl biridi? İyi oğlandırmı?" Qız atası: "İyi, iyi. Gözəl şeirlər də yazıyor". Süleyman bəyin müsbət cavabından ürəklənən elçi Şükriyyəni Cavada istəyir. Amma Süleyman bəy "qızılbaşa qız verməm", – deyir. Çünki onlar sünni, Cavad isə şiə idi. Süleyman bəy qızı verməsə də, Şükriyyə Cavad əfəndiyə qoşulub qaçır. Qızı Batumdan Gəncəyə dayım Məşədi Ağanın evinə gətirir.

Anam danışardı: "Bir gün Cavad əfəndi 15-16 yaşında hündürboylu, ağbəniz, alagözlü, qıvrımsaçlı çox gözəl bir qızla bizə gəldi. Qızı Batumdan qaçırmışdı. Beş gün bizdə qalıb sonra getdilər". Həmin ev indiki Heydər Əliyev prospektində idi. 1945-ci ildə o evi uçurdular.  Anam Cavad əfəndini də çox tərifləyərdi. Çoxları Əhməd Cavada ortaboylu deyir. Amma anam danışardı

ki, o, hündürboylu, qonurgözlü, yaraşıqlı kişi olub. Şükriyyə ilə bir-birilərini çox sevərmişlər".

Əhməd Cavad bu qənirsiz gözəli tükənməz məhəbbətlə sevirmiş. Ömrünün axırına kimi ona etibarlı ömür-gün yoldaşı, sədaqətli ər olur.

Şükriyyə şairə beş övlad bağışlayıb. Türk-acar gözəli şairin ilham mənbəyi idi. Ona yazdığı bir sıra şeirlər, eləcə də "Şükriyyənamə" indi də dillər əzbəridir. Şükriyyə xanım da Əhməd Cavad repressiyaya uğradığı vaxt əsil qadınlıq mücəssəməsi nümayiş etdirir. Şairdən heç vəchlə imtina etmir. O, uşaqlarından təcrid edilərək Qazaxıstana sürgün edilir.

## Rəsulzadənin ədəbi-ideoloji fikirləri

M.Ə. Rəsulzadə özünün "Çağdaş Azərbaycan ədəbiyyat"ı və digər əsərlərində, eləcə də publisistikasında Cümhuriyyət dövrü və ondan sonrakı Azərbaycan ədəbiyyatının taleyinə toxunub. Burada bir çox şair və nasirləri qeyd etməklə, onların mübarizə meydanında ağır təqiblərə məruz qalmasına rəğmən geri çəkilməməsini vurğulayır. O, ədəbi tənqidçi kimi çıxış edərək, ədiblərin əsərlərində istiqlala çağırış, hürriyyət ideyalarını araşdırıb. Həmçinin, bir ideoloq kimi həmin əsərlər və onların müəlliflərinin kommunizm qulları tərəfindən necə təqib olunduğunu və incidildiyini bizlərə çatdırır: "*Bir neçə ay əvvəl Azərbaycanın mədəni ənənələrindən bəhs edərkən bu mövzunun bir hissəsinə toxunduq, orada XIX yüzillikdə Azərbaycan ədəbiyyatının keçdiyi mərhələləri göstərdik, onun 1905-ci il rus inqilabından sonrakı inkişaf mərhələsindəki şəxsiyyətlərini qeyd etdik və nəhayət, 1918-ci ildə milli Azərbaycan Respublikasının qu-*

*rulması və istiqlalının elanına qədər baş verən ədəbi hadisələr üzərində dayandıq və söhbətimizi burada qurtardıq. İndi söhbətimizi həmin yerdən başlayacaq və sözü yaşadığımız günlərə keçirməyə səy edəcəyik. Bunu edərkən dəmir pərdə arxasındakı hadisələrə aid qaynaqlardan kifayət qədər istifadə etmək üçün bütün imkanlara, təəssüf ki, malik olmadığımızı nəzərə almanızı da ayrıca rica edəcək, yol veriləcək nöqsanlar üçün öncədən üzr istəyəcəm".*

M.Ə. Rəsulzadə çox ağır bir şəraitdə yazdığı əsərlərində Azərbaycan ədəbiyyatının ağır dönəmini, onun ümumi istiqamətlərini, yazıçının zamana, situasiyaya görə dəyərləndirilməsini çox böyük ustalıqla əks edə bilib. Həmin dövrdə ədəbiyyatın istiqlal həyəcanının tərcümanı olmasını və bu şövqü insanlara lazımı şəkildə çatdırmasını böyük hadisə kimi dəyərləndirir. Bu ağır missiyanı üzərinə götürən qələm adamlarını xüsusi minnətdarlıqla xatırlayır. "Çağdaş Azərbaycan ədəbiyyatı"nda nakam taleli şair Əliyusifin adını xüsusi qeyd edir. İndi ədəbiyyat tarixində çox xatırlanmasa da Məhəmməd Əminin ilk olaraq məhz, onu yada salması heç də təsadüfi deyil: "*İndi soyuq Sibirin uzaq tundralarında, sovet cəlladlarının vəhşi işgəncələrinə davam gətirməyərək vətən mücahidlərinin bəxtinə əcəl camını içmiş şair Əliyusif hadisələrin inkişafını bu ilhamlı beytlərlə təsvir edirdi:*

"*Çox dolaşdım əski Şərqin ölü, hissiz yurdunu Sübh olmuşdu, fəqət bir oyanan görmədim Anlamazdı kimsə onun o şübhəli dərdini. Ağlamazdı ona kimsə, qəlbi yanıq görmədim."*

Rəsulzadə daha sonra toxunduğu məsələlərdə ədəbi xadimlərin komunizm "cəfakeş"ləri tərəfindən rahatsız edildiyini və yazılarındakı pantürkist, millətçi ideyalarına görə "böyük

vətən"ə xəyanət edilərək suçlandıqlarını ürək ağrısı ilə qeyd edir: *"Hürriyyətin feyzli havasından doymadan, milli istiqlalın verdiyi bütün nemətlərdən hələ faydalanmadan, Azərbaycan ədəbiyyatı yenidən tarixin ona ayırdığı faciəli və həzin qismətinə qatlanmaq zərurətinə düşdü. Sovet istilası ədəbiyyatın maneəsiz irəliləməsi üçün əngəllər törətdi. Milli ruha yabançı olan kommunist hökuməti formaca milli olan ədəbiyyata əvvəlcə səbrlə yanaşdısa da, məlum olduğu kimi, ona beynəlmiləl proletar məzmunu verməyə çalışdı. Lakin sovet işğal hökuməti milli Azərbaycan ruhunu çürütmək və burada "proletkult" deyilən bir mədəniyyət yaratmaq sahəsində sərf etdiyi əməklərində müvəffəq ola bilmir, bu iş üçün o özünə lazım olan vasitələrə malik deyildi. Ədəbiyyat əski ustadların əlində idi. Görünüşdə mövcud vəziyyətə uyğun olaraq, yeni hökumətin bəzən sərtliyini, bəzən də diplomatca yumşaqlığını dadan bu yazıçılar öz çətin və ağır işləri ilə məşğul idilər. "* Rəsulzadə həmin şərəfli və çətin işlə məşğul olan yazarların təsnifatını aşağıdakı kimi aparır:

**Cəlil Məmmədquluzadə**: Böyük nasirdən danışarkən Rəsulzadə "Molla Nəsrəddin" əski müdirinin" "Kamança" və "Anamın kitabı" pyeslərindən və o pyeslərin dərin alt qatından bəhs edir: *"Cəmiyyəti öz ana kökündən ayırmaq istəyən kommunistlərə, xalqı "Anamın kitabı"na çağıran bu əsər xoş gəlməmiş, onun üçün də oynanması uzun zaman qadağan edilmişdi."*

**Süleyman Sani Axundov**: Rəsulzadə Axundovun "Laçın yuvası" adlı əsərini qeyd edir. Bu əsərdə imperializmə çağırış olsa da o, bir tənqidçi kimi bu çağırışın alt qatında Şərq hökmranlığının bərpası istəyini yazır: "*Pyesin sosial səbəbə deyil, sadəcə siyasi taktikaya dayanan bu inqilabçılığı qırmızı senzuraya çox da xoş gəlməmişdi. Bu, senzuraya görə Azərbaycan*

*öz qüvvələri ilə və ictimai-iqtisadi motivlərlə sovetləşmişdir. Halbuki "Laçın yuvası"nı tutan Azərbaycanlı kommunist oranı sadəcə olaraq imperializmin Şərqdəki səngərini daha yaxşı yıxa bilmək üçün tutur. İnqilab məqsəd ikən burada vasitə kimi göstərilib".*

**Hüseyn Cavid**: Rəsulzadə demək olar ki, ən çox Hüseyn Caviddən bəhs edir. Əsərlərindəki Turan sevdasını dəyərləndirən Məhəmməd Əmin onun bu dövrdə yazdığı "Topal Teymur", "Peyğəmbər", "Siyavuş", "İblis" və "Uçurum" əsərlərini təhlil edir: *"Topal Teymur" müəllifinə uzun zaman hiddətlənmiş hökumətin şiddətli cəzalarına qatlanmaq lazım gəlir. Onu sıxışdırırlar, qəzet sütunlarında tənqid edirlər. Şairin ikinci əsəri nisbətən daha yaxşı qarşılanır. Lakin "Peyğəmbər" mənzuməsində də bolşevik məzhəbli marksizm əqidəçiliyi burada da az "küfr" tapmamışdı".*

**Əhməd Cavad**: Hürriyyət aşiqi kimi tanınan Əhməd Cavaddan bəhs edərkən daha çox onun ağrılı həyatına toxunur: *"Milli cərəyanın digər nümayəndəsi Cavad Axundzadənin işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir müsavatçı olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmirlər və nəşr olunanları isə toplayırlar. Bütün bunlara baxmayaraq onun yazdığı parçalar əldən-ələ gəzərək gənc kommunistlərin arasında belə yayılır. Gənc bolşevik şairlər öz yazdıqları şerlərini Cavadın tənqid və təqdirinə ərz edəcək dərəcədə onun təsirinə düşürlər. Siyasi olmayan parçaları bəzən fürsət olduqda mətbuat səhifələrində özünə yer tapır. Bunların çoxu rəmzidir. Bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub şairə hücum üçün bir vasitə olur".*

Rəsulzadənin təhlil etdiyi ədiblər arasında Cəfər Cabbarlı Sabit Rəhman, H.Axundlu, Cəfər Xəndan da var. Amma onun Səməd Vurğun və nakam taleli şair Gültəkin haqqında dedikləri daha çox maraq doğurur. O əvvəlcə bir qeydində Səməd Vurğundan narazılıq edir: *"Azərbaycan ədəbiyyatı indi bu şəraitdə yaşamağa məcburdur. Bu məcburiyyətlər və təzyiqlər nəticəsində ayaq üstə durmaq istəyən bir yazıçı, ədib və şair təsadüfi deyil ki, tarixcə bağlı olduğu islam və türk ideallarından üz çevirəcək, mədəni dünya ölçülərinə xor baxacaq və hətta 1939-cu ildən əvvəlki illərdə yazılan sovet Azərbaycanı ədəbiyyatının əsərlərini belə rədd və inkar edəcəkdir. Necə ki, əsil sovet dövründə yetişən və bir kommunist ədib və şair olaraq şöhrət qazanan adamlar belə əvvəlki yazılarından imtina etmişlər, "böyük" Stalinin iltifatını qazanmaq və kökslərinə Lenin ordenini taxmaqla karyera düzəldə bilmək üçün Səməd Vurğun kimi əski şerlərinin öldüyünü elan etmişlər."*

M.Ə. Rəsulzadə Səməd Vurğunun nöqsanını göstərməklə yanaşı onun məziyyətlərindən də söz açır: *"Səməd Vurğun Stalini idealizə edən əsərlər yanında bir də "Vaqif" adlı mənzum dram yazmışdır. "Vaqif" XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır. Ümumi sovet vətənpərvərliyinə rəvac verən son rus əsərlərindən öyrənməklə Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır.* Gənc şair Gültəkindən söz açarkən isə şair öz kövrəkliyini saxlaya bilmir: *"İstiqlal, o yaşayan millətin qəlbində can, İstiqlal, o səadət, həyat, zəfər, şərəf, can, İstiqlal, o sönməyən müəbbəd bir məşalə, Könüllərdə tutuşur, gözlərdə sönsə belə, – deyən Gültəkin adını daşıyan alovlu şairin yazıları xüsusi bir yer tutur. Gültəkinin şerlərində biz həqiqi milli-inqilab müba-*

*rizəsinin nəşidələrini görürük. Mübarizənin ədalətliliyinə və qələbə ilə nəticələnəcəyinə bağlanan ümid, Gültəkində adətən dini bir mahiyyət alır“.* Rəsulzadə Gültəkinin bir beytini də sitat kimi qeyd edir. Hansı beyt ki, illər əsirlər keçəcək lakin Məhəmməd Əmin Rəsulzadə yenə o misraları hər bir azərbaycanlının qulağına pıçıldayacaq:

*Sən bizimsən, bizimsən, durduqca bədəndə can*
*Yaşa-yaşa çox yaşa ey şanlı Azərbaycan!!!*

## Əhməd Cavada kamerada verilən işgəncələr

1892-ci ildə Şəmkirin Seyfəli kəndində anadan olan şair 1937-ci ildə repressiyaya məruz qalaraq, güllələndi.

Əhməd Cavad ismi nə yaxşı ki, digər repressiya qurbanları kimi unudulmadı. Şair mütəmadi olaraq xatırlansa da, cavadşünaslığın görməli olduğu işlər hələ çoxdur. Məsələn, onun xatirələri, oğlanları və arvadının çəkdiyi əziyyətlər hələ tam dəqiqliklə öyrənilməyib.

Əhməd Cavad çox böyük şəxsiyyətdir. Amma təəssüf ki, bu gün də onun haqqında bir çox həqiqətlər gizlədilir. Onu güllələyəndən sonra arvadı Şükriyyə xanımı həbs edirlər. 3 oğlunu da həbs edib, hərəsini ayrı-ayrı yerlərə yollayırlar. Bircə yaş yarımlıq kiçik oğlunu tapa bilmirlər. Amma həmin oğlanlar da atalarına çəkdilər:Niyazi də, Yılmaz da o biriləri də qeyrətli oğul oldular. Ara sakitləşəndən, repressiya illərindən çox keçəndən sonra” “1950-ci illərdə onlar barəsində araşdırma apardılar. Özləri təsdiqlədilər

ki, Əhməd Cavadın oğlanları II Dünya Savaşında böyük rəşadət göstəriblər.

Ə. Cavadın özü üç dəfə həbs olunub: birinci dəfə , 1920-ci il üsyanından sonra- 1923-cü ildə, ikinci dəfə isə "Göy göl" şeirinə görə 1925-ci ildə tutulub. Şeiri tərcümə edib yuxarılara yollamışdılar. Amma sonradan Əhməd Cavadı azad etdilər. Buna baxmayaraq, "ləkə" onun üzərində qalıb, 1937-ci il repressiyaları zamanı öz sözünü dedi. Elə Seyid Hüseyn Sadıqzadə də üstündəki bu "ləkə" ilə öldürüldü. Baxmayaraq ki, birinci dəfə tutulanda Mir Cəfər Bağırovun özü onu azad etmişdi və demişdi ki, Seyid get, bundan sonra sənə heç kim toxuna bilməz. Amma 1937-ci ildə onu da repressiya qurbanı etdilər".

**Tədqiqatçı Aslan Kənan Əhməd Cavad haqqında maraqlı bir məsələyə də toxunub. Təkcə Əhməd Cavad yox, əksər repressiya qurbanlarını ağır işgəncələrə dözməyərək, başqalarının əleyhinə ifadə verməkdə qınayırlar. Aslan Kənan buna da aydınlıq gətirir:**

"Sizə bir söz deyim. Bəzən, repressiya qurbanlarını başqalarının əleyhinə ifadə verməkdə günahlandırırdılar. Amma inanın ki, onların heç birində zərrə qədər də günah olmayıb. Mən arxivlərdə repressiya qurbanlarının acı taleyini araşdırmışam. Çox dəhşətli faktlarla tanış olmuşam. Onlara verilən işgəncələr kimə verilsəydi, həmin addımı atardılar. Doğrudur, elələri var ki, mənsəb üçün kimisə satırdı. Bunları heç zaman bağışlamıram. Amma ağır işgəncələrdən sonra başqasının əleyhinə danışanı da anlamaq gərək. Əhməd Triniçi döyə-döyə öldürdülər. Başqalarını ölümcül hala saldılar.

Şəxsən, Əhməd Cavada hansı işgəncələr verilib, bunu dəqiq demək olmaz. Ümumi işgəncə qaydaları var ki, ona da tətbiq olunub. Sabir Azərinin bir dəyərli məktubunda yazılır ki, dindir-

mələr zamanı repressiyya qurbanlarının kameralarına siçanlar buraxılırdı. Onları uzun müddət suda saxlayırdılar. Gözlərinə fasiləsiz gur işıq vururdular. Bütün bunlara dözməkmi olardı?! Çox təəssüflər olsun ki, Əhməd Cavad kimi şəxsiyyət də bu cür işgəncələrə məruz qaldı. Yazıçı Böyükağa Talıblının əleyhinə ifadə almaq üçün onun başına rezin çəkmə ilə zərbə vururdular".

## Əhməd Cavadın dostundan əzbərləyib, sonra da cırıb atmasını istədiyi məşhur şeiri

1936-cı ildə repressiyaların çağlayan vaxtlarında Əhməd Cavad vaxtilə Gəncədə Kənd Təsərrüfatı İnstitutunda bir yerdə işlədiyi müəllim yoldaşıyla şəhər bağında gəzişirmiş. Oradan-burdan danışandan sonra şair yoldaşından bir xahiş edib, deyir ki, indi sənə bir şeir verəcəm, onu oxu, əzbərlə və cır. Zamanı gələndə üzə çıxar. Müəllim şairin sözlərinə əməl edir. Şeiri əzbərləyir, kağızı cırır. 1937-ci ildə Əhməd Cavadı tuturlar. Bir müddət sonra 15-20 dəqiqə sürən "məhkəmə"ylə güllələnir...

Şairin müəllim yoldaşı uzun bir ömür yaşayır. Şeir də heç kəsə söylənmədən onun yaddaşında qalır. Ta 1988-ci ilə kimi. Ölümünə bir az qalmış müəllim oğlunu yanına çağırır və şeiri öz oğluna əzbərlədir. Hələ Sovetlər dağılmayıb. Odur ki, ata oğluna şeiri yaddaşında saxlamağı xahiş edir. "Susmaram!!!" bu dəfə oğulun hafizəsinə köçür .

90-cı illərdə təhlükənin sovuşduğunu görən oğul Fazil Məmmədov şeiri yaddaşından dilinə ötürüb, ara-sıra məclislərdə səsləndirir. Nəhayət, bir xeyirxah təşəbbüslə şeir 2004-cü ildə "Gəncəbasar" qəzetində çap olunur. 68 ildən sonra üzə çıxan şeir budur:

## Susmaram!!!

Mən bir qulam, yük altında
        əzilmişəm, qardaşım!
Sevinc bilməz bir məhkumam,
        ahu-zardır sirdaşım...

Damğa vurub, zəncirləyib
        tullamışlar zindana,
Qarlı-buzlu cəhənnəmlər
        məskən olmuşdur mana...

Mənə "dinmə, sus!" - deyirsən,
        nə vaxtacan susacam?!
Böhranların, hicranların
        məhbəsində qalacam?!

Niyə  susum,  danışmayım,
        insanlıqda payım var,
Mənim ana Vətənimdir
        talan olan bu diyar?!

Niyə susum, danışmayım,
        türk yurdudur bu torpaq!
Oğuzların, Elxanların
        Vətənində kimdir bax!

Susmayacam!!! Qoy atsınlar
        yük altında ölüncə

Təhqirlərə dözə-dözə
        düşmən mənə gülüncə...

Süd verərkən doğma anam
        belə demişdir mənə:
"Səni qurban bəsləyirəm
        türk yurduna– Vətənə!"

Bu dünyada azadlığı
        şan-şöhrətdən üstün tut,
Alçaqlığı, yaltaqlığı,
        rəzilliyi sən unut!

Sənin sevgin Vətən olsun,
        millət olsun, mən olum,
Südüm sənə haram olsun
        xəyanət etsən, oğlum!"

Necə susum, danışmayım,
        mən eləyim xəyanət?!
Hanı sevgi, hanı Vətən,
        di harda qaldı millət?!

Mən bir qulam, yerim altun,
        suyum gümüş, özüm ac...
Atam məhkum, anam salih,
        elim hər şeyə möhtac!

Dil yaranıb danışmağa
        mən danışa bilmirəm,

Aç qəlbimi, yar sinəmi
        ciyər vərəmdir-vərəm...

Koramal tək sürünməkdə
        denən varmıdır məna?
Nə vaxtacan çörək üçün
        girək hər alçaq dona?

Mən Azəri övladıyam,
        dərin əqlim, zəkam var,
Nə vaxtacan çiynimizdə
        gəzəcəkdir yağılar?

Nə qədər ki, hakimlik var,
        məhkumluq var, mən varam!
Zülmə qarşı üsyankaram,
        əzilsəm də SUSMARAM!!!

## Nəriman Həsənzadənin Əhməd Cavad söhbəti

### Cavad əfəndi

Sürgün ayağında Cavidin xanımı Müşkünaza dediyi son söz bu olub:"Cavad əfəndi kişi adamdı". Görüşün vaxtı bitdiyindən onlar ayrılıblar.

### Əhməd Cavad və Mir Cəlal

Mən 60-cı illərdə Mir Cəlalın aspirantı idim. Görüşlərimiz zamanı tutulan qələm dostlarını ürəkağrısı ilə arabir xatırla-

yırdı. Əhməd Cavadın aparılmasını birinci dəfə onun dilindən eşitmişəm. Hiss edirdim ki, Cavadı Gəncə illərindən daha yaxşı tanıyır.

Onlar- Əhməd Cavad, Səməd Vurğun, Mir Cəlal, Əhməd Cəmil Azərbaycan Proletar Yazıçılar İttifaqı Gəncə şöbəsinin üzvü olublar. Müşfiq də Mir Cəlalla Püstə xanımın nikah mərasimində yaxın qələm dostu kimi iştirak edib.

**Bir az da Cavid və Bağırov haqqında**

Onlara nəinki yazıb-yaratmağa, hətta yaşamağa belə imkan verilmədi. Onların birindən danışdıqda gərək o birinin də adını çəkək. Cavidin “Yad eylədikcə vəslini, ey mahi-tələtim” qəzəlini radiodan dinləyən Mir Cəfər Bağırov müğənni Haşım Kələntərlinin dediyinə görə, ağlamışdı.

Özü tutulanda isə ağlayanı qalmamışdı. İnandığı markaryanlar, sumbatovlar, topuridzelər, borşaklar, atakişiyevlər və başqa “yevlər” və “yanlar” onun imzası ilə millətə dağ çəkmişdilər.

**“Yoxa çıxan” əsər**

Altı ay gecə-gündüz üzərində işlədiyi və orijinalda tərcümə etdiyi Şota Rustavellinin “Pələng dərisi geymiş qəhrəman” şairin həbsindən sonra nəşriyyatda “yoxa çıxdı”. Yalnız bəraət aldıqdan uzun müddət sonra “tapıldı”. Yalnız 1978-ci ildə filologiya elmlər doktoru Dilarə Əliyevanın məzmunlu müqəddiməsi ilə çapdan çıxdı.

Amma bundan əvvəl isə hələ qanlı 1937-ci ildə nadir ədəbi hadisə baş vermişdi: yeddi min misralıq gürcü poeması hələ çap olunmamış müsabiqədə birinci yeri tutur və mükafat qazanır.

**"Qanlı" şeir**

Bakıya gəldiyim 1953-cü ili gözəl xatırlayıram. Bakı şəhər kitabxasının fəal oxucularından idim. Orada Məsumə Ağazadə adlı bir gəncəli qızı işləyirdi. Gəncədən gəldiyimi bildiyi üçün Əhməd Cavadın "Göygöl" şeirini gətirdi ki, oxuyum. Göy göl haqqında yazılan ən təsirli şeirlərdən idi. Bu şeirə görə şairi 1925-ci ildə həbs etdilər. Proletar yazıçıları mühitinin "içində və çölündə" fəaliyyətdə olan ayıq-sayıq, maaşlı-maaşsız, eynəkli-eynəksiz işçiləri hər gün yeni bir sensassiya marağında idilər. Ədəbiyyatı "astar üzündən" oxuyurdular.

**İstintaq materiallarına ötürülənlər**

Şairin "Pambıq" poemasını "astar üzündən" oxuyan "sensassiya tədqiqatçıları bu dəfə də sədaqət göstərərək əsərdən ayrı-ayrı şah misraları götürüb istintaq materiallarına ötürür, quruluş əleyhinə "fakt" kimi istifadə edirlər:

Sən Muğana gələli
Biz yaylağa köçmədik.
Sərin-sərin sulardan
Bir əyilib içmədik".

Ə. Cavadın onlara mübariz cavabı da özünü çox gözlətmir:

Bürümüş dövranı...
Mənə həm it hürür, həm qara çaqqal

**Himnimizin bərpası**

Şairin sonbeşiyi Yılmaz Axundovu yaxından tanıyırdım. 1991-ci ildə Ali Sovetə deputat seçilmişdik. İkimiz də o vaxt Müstəqillik Aktına ilk qol çəkən deputatlardan idik. Dövlət atributlarının bərpası zamanı yaradılan komissiyada himnimizin mətninin bərpası həm deputat, həm də şair kimi mənə həvalə edilmişdi.

Müzakirədə müxtəlif fikirlər səsləndi. Hətta himnin mətninin və musiqisinin yenidən yazılmasını təklif edənlər də oldu...

Nəhayət, Cumhuriyyətinin 1919-cu ildə yaradılmış Dövlət Himni bərpa edildi.

**Qeyd: Yazıda xalq şairinin 2008-ci ildə mərhum Əhməd Cavada həsr etdiyi "İstintaq materiallarına ötürülən şah misralar" adlı irihəcmli məqaləsindən istifadə edilib.**

**"Qardaşımı qurtarmaya, Türküstana gediyorum"**

Cümhuriyyətin ən çox diqqət ayırdığı sahə təbii ki, ordu quruculuğu olub. Hərb tariximizin ilk marşı da məhz Cümhuriyyət dövrünə təsadüf edir. Marşın sözlərinin müəllifi də sizcə kim ola bilərdi? – Əlbəttə ki, Əhməd Cavad!

O, 1918-ci il 12 haziran (iyun ayının 12) tarixində Gəncədə qələmə alındığını qeyd edən Əhməd Cavad yazır: "Bu marş Qafqaz İslam Ordusu komandanı Nuru Paşa həzrətlərinin arzusuna müvafiq Azərbaycan Türk Ordusu üçün söylədim. Fəqət, hələlik bəstələnmədiyinə görə, nasıl çaxmağı bəlli deyil".

Millətimin tarixinə,
Şan və şərəf əkməliyəm.
Şu qarşıda yad qanıyla
Bir al bayraq tikməliyəm.
Düşmənlərə göstərdim ki,
Mənim kimi əsgəri yox.

Mənim fateh Orxan-zatım,
Dünyanın heç yerində yox.
İsmarladım nişanlıma
Mən Turana gediyorum.
Qardaşımı qurtarmaya,
Türküstana gediyorum.
Şu bayrağa xain baxan,
Xain gözə bir tikanam.
Ölürəmsə, kölgəsində
Halal olsun ona qanım.
Şəhid olsam, dost elində,
Mənə məzar qazılmasın.
Qazanarsam əsir adı
Xaqanıma yazılmasın.

QEYD: Marşın mətnini ilk dəfə "Şərq" qəzetinin baş redaktoru, tanınmış araşdırmaçı Akif Aşırlı aşkarlayıb. O, bu

mükəmməl əsəri 1918-ci ildə işıq üzü görmüş “Gənclər yurdu” qəzetinin səhifələrində arasında aşkarlayıb. Qeyd edək ki, Akif müəllimin bu dəyərli işi mətbuatda və ziyalı mühitində rezonans yaratmışdı.

## Çəmənzəminli - ağır günlərin hekayəsi

2018-ci il cənab Prezident tərəfindən “Azərbaycan Xalq Cümhuriyyəti” ili elan edilib. Qeyd edək ki, 2018-ci ilin 28 mayinda həmin şanlı tarixin - Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyi tamam olur. Yüzillik yubileylə də bağlı 2017-ci ildə Sərəncam verilmişdi.

Əksəriyyət Cümhuriyyət barəsində son zamanlar yazılan heç bir böyük romanın olmadığını düşünür. Nəinki son zamanlar, ümumiyyətlə, bu məzmunda heç bir romanın olmadığı vurğulanır.

Lakin yazıçı-tərcüməçi Nəriman Ədürrəhmanlı bunun əksini söyləyir və iki il bundan əvvəl yazdığı “Qurban” romanında Cümhuriyyətə aid xeyli maraqlı məsələlərin işıqlandırdığını bildirib:

“Cümhuriyyətin Ukraynadakı, Krımdakı, İstanbuldakı səfiri Yusif Vəzir Çəmənzəminlinin həyatı, Cümhuriyyət hökumətinin xaricə təhsil almaq üçün göndərdiyi 100 nəfər tələbənin taleyi, sovet quruluşuna qarşı aparılan gizli mübarizə, Cümhuriyyət tərəfdarlarının repressiyalara məruz qalması romanın başlıca mövzusudur. Romanda Cümhuriyyətin qurulması və süqutu da kifayət qədər təsvir olunub. Hamısı da tarixi faktlara, hadisələrə söykənir”.

Romandan bir parça.

Birinci fəsil – dördüncü hissə

O günlərin birində daha gözləməyin mümkün olmadığını, müttəfiq komandanlığınım icazəni qəsdən yubatdığını görüb başqa yola əl atmaq qərarına gəldi: özünü limanın polis rəisinə "tacir" kimi qələmə verdi, axır ki, onu inandırmağı bacarıb Trabzona yola düşən gəmiyə minə bildi. Heyəti Cahangir bəyə tapşırdı, Batumda qalıb rəsmi icazəni gözləyəcəkdilər – başqa çıxış yolu yox idi.

Bir bürkülü avqust günü İstanbulda gəmidən enəndə möhtəşəm şəhəri beləcə, pərişan gördü. Boğazda ingilis, fransız, italyan gəmiləri lövbər salmışdılar, bayraqları mehdə asta-asta dalğalanırdı. Limanda rastlaşdığı adamların ovqatı cürbəcür idi: türklər qaşqabaqlıydılar, əcnəbilərə nifrət dolu nəzərlərlə baxırdılar; yəhudilər özlərini ehtiyatlı, bitərəf aparmağa can atırdılar; yunanlar və ermənilər qalibanə görkəmlə addımlayırdılar, hələ ki, himayədarları sayəsində özlərini məmləkətin ağası kimi aparırdılar. Küçələrdə asayişə nəzarət eləyən əcnəbi əsgər-zabitlərə də rast gəldi. Belə vaxtda səfarət nə iş görə biləcəkdi?

"Midhəd əfəndi Bayezid meydanı ilə gedərkən Türkiyənin keçirdiyi macəranın təhlili ilə məşğul idi. Müharibə qaib olmuş, məmləkət bilfel ingilislər, fransızlar, italyanlar, yunanlar tərəfindən parçalanmış, İzmir və civarı yıxılmış, türk qanı ilə boyanmış! İstambul işğal altında, məmləkətin bütün münəvvər və alimləri Malta cəzirəsinə sürülmüş…

Midhəd əfəndi durdu, ayaqlarına bir zəf gəlmişdi; yürüyə bilmədi. Qəmli gözləri ilə ətrafa baxdı: hər yerdə ingilis polisinə və əcnəbi əsgərinə rast gəldi. Bütün türkləri ac, səfil və sönük çöhrəli gördü… bu fəci mənzərədən acı bir həqarət duydu… "Bu işlər düzəlirmi?" deyə içində bir şübhə doğdu. Bədbin bir halda yoluna davam etdi. Divan-yolundan Sirkəçiyə endi; yeni camenin yanından Qalata körpüsünə çıxdı. Sağ tərəfdən

körpünün sürahisinə söykənib qaldı. Yazın gözəl günlərindən biri idi. Günəşin yaldızlı şuası boğaza dilfirib bir süs vermişdi – mavi dalğaların içində cilvələnirdi. Əzəmətli Dolma-Bağça sarayı sönmüş bir qürur ilə önündəki yunan zirehlisinə tamaşa etmədə idi. Bəyoğlu başdan-başa yunan və əcnəbi bayraqları ilə donanmışdı… Midhəd əfəndi gözlərini yumdu, başını çevirdi. Qarşıdakı Üsküdar xaraba bir qəbiristanı andırırdı. Arxa tərəfdən çıxan tüstü göyləri bürümüşdü – ingilislər meşələri millətçilərə məskən olmasın deyə yandırırmış…

Sağ tərəf mənzərəsi daha acı idi: gözəl Gülxanə bağçası viranəyə dönmüşdü. Çiçəkliklər depo olmuş, ağaclar sınmış, güllər solmuş, bağçada daş kömür təpələnmiş, tel atılmışdı. "

Yusif Vəzir yeddi il sonra üzə çıxaracağı "Zeybək qızı" hekayəsində o kədərli günlərdə gördüklərini bu cür təsvir eləyəçəkdi.

Bununla belə, tanamilə ruhdan düşmək niyyətində də deyildi. "Aləm İstanbuldadır: siyasi iplərin ucu, əfkari-ümumiyyənin gözü… hamısı buradadır… Hansı millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən və bağırmağı bacarmayan bir millət həmişə əzilər". Bu da onun fikriydi.

…Sultan Vahidəddinin taxta çıxmasından bir il keçməmişdi ki, artıq dördüncü hökumət qurulmuşdu. Sultanın yavəri Əhməd İzzət Paşanın kabinəsini Tevfik Paşanın iki kabinəsi əvəz eləmişdi, indi bir ay idi ki, Damad Fərid Paşanın hökuməti qurulmuşdu. Hökumətə müvafiq xariciyyə nazirləri də bir-birini əvəz eləyirdi: nazirlər yerlərini isitməmiş adlarının əvvəlinə "sabiq" sözü əlavə olunurdu. İlin əvvəlindən Mustafa Rəşid Paşa, Yusif Franko Paşa, Damad Fərid Paşa bir-birlərini əvəz eləmişdilər, hələ ki, Damad Fərid Paşa hökumətində xariciyyə vəkili kreslosunda Mustafa Rəşid Paşa bəy otururdu, etibarnaməsini də

yəqin ona təqdim eləyəcəkdi. Sultan Vahidəddin yəqin ki, indiki vəziyyətində Azərbaycan Cümhuriyyəti elçisini qəbul eləmək iqtidarında deyildi.

Yola düşməzdən əvvəl xariciyyə naziri Məmmədyusif Cəfərovla görüşmüşdü. Nazir hər şeyə rəğmən Sultanla görüşə cəhd göstərməsini, İstanbulda baş verən hadisələr barədə vaxtında və müfəssəl məlumat göndərməsini tövsiyə eləmişdi. Əlbəttə, buna cəhd göstərəcəkdi. Amma hələlik özü belə hadisələrdən baş açmaqda çətinlik çəkirdi. Görünür, Sultan məmləkətin düşdüyü vəziyyət müqabilində məsuliyyətini yaxşı dərk eləyirdi, müttəfiq qüvvələrilə millətçilər arasında qalmışdı – müttəfiqlərlə ehtiyatlı dolanmağa, millətçilərin məmləkəti qurtarmalarına şərait yaratmaşa çalışırdı. Bütün bunları o ilk günlərdə oxuduğu qəzetlərdən, eşitdiyi söhbətlərdən dərk eləyir, vəzifəsinin icrasına başlayanda neyləyəcəyini düşünürdü.

***

Bakıdan gələn xəbərləri  diqqətlə izləyirdi. Məmmədbağır bəy öz ərizəsilə Əksinqilabla Mübarizə Təşkilatının rəhbərliyindən istefa vermiş, yerinə "Difai" zamanından bu işlərdə böyük təçrübə toplamış qardaşı, Müsavat Partiyasının üzvü Nağı bəy təyin edilmişdi. Əvvəllər denikinçilərə qarşı mübarizə aparan təşkilat indi fəaliyyətini bolşevik təhlükəsinə və ölkədə təxribatlar törədən daşnaklara qarşı yönəltmişdi. Görünür, bu xəmir hələ çox su aparacaqdı..

Avqustun axırlarında Məclisi-Məbusanın qiraət zalında Seyid Hüseyn Sadıq Əfəndinin rəhbərliyilə "Yaşıl qələmlər" cəmiyyəti təsis olunmuşdu. İnandığı, hörmət elədiyi qələm adamlarının çoxu – Məmməd Əmin Rəsulzadə, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Uzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev,

Nəcəfbəy Vəzirov, Salman Mümtaz, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Almas Yıldırım, Mirzəbala Məmmədzadə, Əlabbas Müznib… o yeniyetmə oğlan – Mikayıl Rəfizadə həmin cəmiyyətin üzvüydülər, "Yaşıl yarpaq" adlı məcmuə buraxmağa hazırlaşırdılar. Əlbəttə, belə bir məqamda onların arasında olmaq, darıxdığı qaynar ədəbi həyatda iştirak eləmək, kağıza köçürmək istədiyi mövzulara qayıtmaq istəyirdi, amma tale yolunu yenə Vətəndən uzaqlara salmışdı.

Payızın əvvəllərində də başqa bir dəstənin yığışıb "Qızıl qələmlər" cəmiyyəti təsis elədiklərindən xəbər tutdu. Əliheydər Qarayev, Ağababa Yusifzadə, Bayraməli Abbaszadə, Ağahüseyn Rəsulzadə, Əlisəttar İbrahimov, Nemət Bəsir, Salman Nərimanov… kimi solçular Seyid Cəfər Pişəvərinin başçılıq elədiyi bu cəmiyyətdə yığışmışdılar, "Məşəl" adlı satirik məcmuə buraxmağa hazırlaşırdılar. Hətta deyilənə görə, artıq Cəfər Cabbarlını, Mikayıl Müşfiqi, Almas İldırımı da öz tərəflərinə çəkə bilmişdilər.

Deməli, ölkədə ideoloji qarşıdurma kəskinləşirdi, hələ milli düşüncənin tam qələbəsindən danışmaq olmazdı…

Axır ki, o günlərdə heyət gəlib İstanbula yetişdi. Səfarətin birinci katibi Zeynal bəy İstanbulda iki dəfə olmuşdu, şəhərə bələdliyi vardı. Yer-yurd düzəldənəcən Sirkəçidə münasib müsafirxana tapdı, iki günlüyə orda yerləşib kirayə bina axtarmağa başladılar. Bu işi elə Zeynal bəyə tapşırdı, mümkün qədər Topqapıya – Babi-Aliyə yaxın yerdə bina tapmağın vacib olduğunu dönə-dönə söylədi: cərəyan eləyən hadisələrə yaxın olmaq, Sarayla rahat əlaqə saxlamaq vacib idi. Özü Cahangir bəylə elçi təyin olunması barədə vəkalətnaməsini Babi-Alidə xariciyyə vəkilinə nə vaxt təqdim eləyə biləcəyini aydınlaşdırmaqla məşğul oldu. Bundan ötrü Cahangir bəy xariciyyə vəkilinin məqamına getməli, bunun nə vaxt münasib olacağını dəqiqləşdirməliydi.

Cibində səfarətin xərcləri üçün ayrılmış əlli min franklık çek, qəlbində ağlagəlməz səksəkə vardı. Hey bu məbləğə səfarəti neçə ay yola verə biləcəyini hesablayırdı. Binanın kirayəsinə, özüylə birgə yeddi nəfərin məvacibinə, qeyri xərclərə ayrılan məbləği çıxanda məlum olurdu ki, ən yaxşı halda altı ay tab gətirərlər. Vəziyyət bir qədər aydınlaşan kimi, Bakıya – xariciyyə nazirinə, ya da hökumət başçısına çətinliklərini bildirməliydi. Özünə ayrılmış ayda üç min frank məvacib ilk baxışda sanballı görünürdü: bu məbləğə əvvəlcə özünə abırlı paltar almalıydı, olub-qalanı yollarda əldən çıxmışdı: dövləti təmsil eləyən, hökumət adından cəmiyyət arasına çıxan kəsin geyim-keçiminə, görkəminə fikir verməməyə haqqı yox idi; üstəlik, mümkün qədər abırlı ev kirayələməli, qulluqçu tutmalıydı – təbii ki, təkcə məqamına yox, evinə də gəlib-gedən olacaqdı, ölkəsinin keçirdiyi maddi sıxıntını kimsə bilməməliydi, bu da diplomatiyanın incəliklərindən biriydi.

Cahangir bəyi Kiyevdən tanıyırdı, hüquq təhsilini iki il ondan sonra başa vurmuşdu. Haqq üçünə, nə Nəsib bəy, nə xariciyyə naziri səfarət heyətinin seçilməsinə qarışmışdı, elə Zeynal bəyi də, digər katib Mirzə Qədiri də özü seçmişdi, təkcə əməkdaşların və kuryerin məsələsilə ciddi maraqlanmamışdı, həmin dörd nəfəri sərəncamına göndərmişdilər, o da etiraz eləməmişdi. Zeynal bəy Peterburqda təhsil almışdı, Bakıya ayaq basmamışdan tanış idilər, qabiliyyətinə, savadına bələd idi.

Sirkəçidəki müsafirxananın sahibi Xeyri əfəndi gəlişlərinin səbəbini bilib sevinmişdi, yerbəyer olub, nahar eləyib bir qədər dincələndən sonra hörmətini bildirmək üçün otağına gəldi:

“Sizi görməyimə şadam, – dedi, – qardaşlarımızın azadlığa çıxmaları bizə də ümid verir. İnşallah, bu yabançılar məmləkətimizdən tezliklə rədd olub gedəcəklər, asudə nəfəs alacağıq”.

“Əlbəttə, əlbəttə, Xeyri əfəndi, yəqin çox çəkməz. Hər bir millətin öz taleyinin sahibi olmağa haqqı var”.

“Qardaşım oğlu Nuru Paşa qoşunuyla Bakını qurtarmağa sevinə-sevinə getdi. Hələ də harda olduğunu bilmirəm…” – Xeyri əfəndinin səsi titrədi.

“Sağ-salamat qayıdar, toxtaq olun, – əlini onun çiyninə qoydu, inşallah, işə başlayan kimi onun barəsində səhih xəbər öyrənməyə çalışıram”.

“Allah sizdən razı olsun, – Xeyri Əfəndi bir qədər rahatlandı, – nə arzunuz olsa, qulluğunuzda hazıram”.

Elə Xeyri Əfəndinin tövsiyəsi üzrə də səhəri gün Cahangir bəylə Qapalıçarşıya getdilər, müsafirxana sahibinin tanışı öz dükanında ikisini də bəh-bəhlə geyindirdi, qiymətdə də çox çənə-boğaz eləmədi, alveri hər iki tərəfə sərf eləyən qiymətlə başa vurdular. Cahangir bəy əsa gəzdirməyə öyrəşməmişdi, ancaq məsləhətə qulaq asdı: məsələ cavanlıqda deyildi, əsa adamı daha kübar göstərirdi.

Otuz iki yaşındaydı, Kiyevdə, Krımda səfirliyindən sonra Osmanlı imperiyasına elçi göndərilmişdi. İndi dünyanın qəlbi burda – İstanbulda döyünürdü. Zəifləmiş, gücdən düşmüş imperiya, aciz sultan, yunanların, ermənilərin, kürdlərin, ərəblərin göz dikdikləri, ingilislərin, fransızların, italyanların ağalıq elədikləri, rusların maraq göstərdikləri məmləkət – Fatih Mehmet Sultan zamanından bəri ən faciəvi günlərini yaşayırdı. Qurulan hökumətlər yıxılır, məclislər hərc-mərclik yuvasına çevrilir, millətçilər içdən korun-korun yanırdılar. Belə bir vaxtda, az qala, eyni taley yaşayan, erməni-bolşevik təhdidinə, terroruna, solçu firqələrin daxildəki dağıdıcı fəaliyyətinə qarşı müqavimət göstərən məmələkətinin səsini dünyaya çatdırmaq üçün bütün çətinlikləri nəzərə almalıydı.

Müsafirxanadakı otağının pəncərəsindən Qalata körpüsü, lövbər salmış, boğazdan keçən gəmilər, qayıqlar, bir az uzaqlarda Qalata qülləsi görünürdü. Yazı-pozudan çoxdan ayrılmışdı,

Bakıda və Batumda qaldığı günlərdə bütöv bir şey yaza bilməsə də qeydlər aparır, yadında qalan hadisələri, təfərrüatları, xarakterləri kağıza köçürürdü. Yəqin belə getməyəcəkdi, hər iki məmləkətdə əmin-amanlıq, asayiş bərqərar olacaqdı, onda o qeydlər karına gələcəkdi. Yazmaq imkanı yaransa belə, hələ istədiklərini yox, vacib saydıqlarını qələmə almalıydı.

## Cümhuriyyət hökumətinin Çəmənzəminliyə yolladığı 8000 min manat ona niyə çatmır?

Yazıda  Nəsib bəyin baş nazir olduğu vaxt Azərbaycanın böyük yazıçılarından olan Yusif  Vəzir Çəmənzəminli ilə əlaqələrindən söhbət açılacaq. Həmin əlaqələrin kökündə o dövrün ziyalısının ürək ağrıları və çətin həyat tərzi əks olunub. Təsəvvür edin ki, Nəsib bəy baş nazir ola-ola yaşamaq üçün atasından borc pul istəyir. Bu tərəfdən də Cümhuriyyətin Ukraynadakı diplomatik nümayəndəsi Yusif Vəzir Çəmənzəminli oradakı həmvətənlərinin ağır həyat şəraitini Nəsib bəyə çatdırır və ondan , Azərbaycan dövlətindən bir kömək istəyir. Ən maraqlı məqam isə budur ki, həmin vaxt səfir olmasına baxmayaraq Yusif Vəzirin özü də məvacib almırdı. Kirayə qaldığı evin pulunu belə zorən ödəyirdi.

Yusif Vəzirə tapşırılan əsas missiya Ukrayna ilə Azərbaycan arasında münasibətləri bərpa etmək və Azərbaycan tarixini ədəbiyyatını mədəniyyətini orda təbliğ etmək idi. Yusif Vəzir işə çox həvəslə başlayır. Simferopolda olarkən səfir təyin edilir. Səfir təyin olunması barədə etimadnamə ona gedib çatmır. Çünki xarici işlər nazirliyinin diplomatik kuryeri etimadnamə

ilə birgə 8000 manat pulu səhvən Kiyevə aparır. Yollar və Kiyevdəki vəziyyət təhlükəli olduğundan işin arxasınca getmirlər. Yusif Vəzir mədəniyyətin və ədəbiyyatın təbliğində aktiv fəaliyyətə başlasa da bəzi çətinliklər ev və maliyyə problemi onun işini çətinə salır. Qeyd edək ki hökumət diplomatik nümayəndə kimi ona maaş təyin etməmişdi. Buna görə də Yusif Vəzir hətta kirayə qaldığı evin pulunu belə verə bilmirdi. Bu haqda o, Cümhuriyyətin Xarici İşlər Nazirliyinə Odessadan göndərdiyi məktubunda yazırdı:

Yazdığı məktubda səfir olmasına baxmayaraq Yusif Vəzirin acınacaqlı yaşayışını həmən hiss etmək olar. Ən çətin məsələ bundadır ki, orada yaşayan həmyerliləri də Yusif Vəzirdən kömək istəyirdilər. Hər bir sahədə hətta ticarət etdikləri məhsulların Bakıya gətirilməsini belə ondan tələb edirlər. Odessada o zaman başlanan hərc-mərclik Yusif Vəzirin Bakıya qayıtmasını labüdləşdirir.

Yusif Vəzir Bakıya çox çətinliklə qayıdır. “Boris” adlı bolqar gəmisi ilə əvvəlcə İstanbula sonra isə vətənə qayıdır. İstanbulda olarkən oradakı azərbaycanlıların ağır yaşayışı onu qayğılandırır. Bakıya dönən kimi həmən Cümhuriyyətin Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin qəbulunda olur. İstanbuldakı Azərbaycan qaçqınlarının məşəqqətli həyatı , onların viza problemləri barədə Nəsib bəyə danışır. Sonda isə İstanbulda Azərbaycan səfirliyinin açılmasını təklif edir.

Görüşdən həmən sonra Çəmənzəminli “Azərbaycan” qəzetində “Xarici siyasətimiz” adlı məqalə yazır.

Çəmənzəminli dəlillərini Nəsib bəyin qəbulunda bir daha səsləndirir. Həm də Maarif naziri olan Nəsib bəyə maarifin inkişafı və azərbaycanlı tələbələrin təhsili üçün İstanbulun çox əlverişli bir yer olmasını çatdırır. Nəhayət Nəsib bəy 1919-cu

ilin payızında Nazirlər Şurasının sədri kimi demokratik Respublikanın İstanbulda səfirliyinin açılması barədə qərar verir. Səfirin kim olması barədə isə onun öz namizədi var idi - Yusif Vəzirov. Nəsib bəyin bu təklifi kimsə tərəfindən etirazla qarşılanmır. Beləliklə, həm təhsil, həm siyasət həm də iqtisadiyyat baxımından gənc Azərbaycan üçün çox əhəmiyyətli işlər görəcək bir insan öz missiyasına başlayır.

Həmin vaxt Yusif Vəzirin cəmi 32 yaşı var idi...

## Çəmənzəminli hansı səbəbdən "Müsavat"dan getmişdi?

**O, "Müsavat"dan incimişdimi?**

Çəmənzəminlinin publisistikasını araşdıran mütəxəssislər ədibin "Müsavatçıya cavab" adlı məqaləsinin üzərində çox dayanır və onu Azərbaycan publisistika tarixində ən səs-küylü məqalələrdən biri hesab edirlər. Əvvəlcə, buradakı müsavatçının kim olduğunu qeyd edək: bu adını gizli saxlayan, "Müsavatçı" imzası ilə Yusif Vəzir Çəmənzəminlinin Müsavat partiyasından imtinasına sərt reaksiya verən anonim şəxsdir. Onun ittihamlarla dolu məqaləsinin adı Yusif Vəzirin nə şəxsiyyətinə, nə də Müsavatda, AXC hakimiyyətindəki xidmətlərinə yaraşmadığı üçün bu yazıda qeyd etmirik. O zaman çıxılmaz problemlər məngənəsində əzilən, vərəmdən əziyyət çəkən qardaşının xilası üçün tanımadığı Paris şəhərində fəhləlik edən Çəmənzəminli ona ünvanlanan məqaləni oxuyandan sonra müəllifə cavab yazır. Məlum "Müsavatçıya cavab" yazısının yaranma səbəbi də bununla bağlıdır.

Ümumiyyətlə, Çəmənzəminlinin "Müsavat" partiyası üzvlüyündən istefa verməsi haqqında bir neçə versiya var:

Bir versiyada onun İstanbul və Kiyevdə (AXC-nin Türkiyədə və Ukraynada səfiri olub) səfir kimi çalışarkən böyük sıxıntılar çəkdiyini, hökumətdən qəti maaş almadığını və bunun da yaratdığı çətinlikləri əsas gətirirlər. Başqa bir versiyada isə, onun AXC dağıldıqdan sonra, qürbətdə məşəqqətli həyatına son qoymaq və vətənə qayıtması üçün bu addımı atmağın vacibliyini qeyd edirlər. O zaman hökumətin  və "Müsavat" partiyasının əsas simalarından olan Çəmənzəminlinin vətənə qayıtması və burada işlə təmin olunması üçün onun qarşısına partiyadan istefa şərti qoyulmuşdu.

Bəzi versiyalarda isə, Çəmənzəminli partiyadan ümumiyyətlə istefa verməyib. Sadəcə bəzi məqamlarda incik olub.

**O və Rəsulzadə**

Əsas məsələ odur ki, Yusif Vəzir Rəsulzadə başda olmaqla, AXC-çilərlə heç vaxt  pis münasibətdə olmayıb. Konkret məsələlərdə narazılıq etmək, hansısa tədbirlər planı ilə razılaşmamaq tərəflərin bir-birinə olan pis münasibəti kimi anlaşılmamalıdır. Əsas məsələ Çəmənzəminlinin Rəsulzadəyə hər zaman göstərdiyi ali hörmətdir ki, bunu elə yazıçının öz doğma nəvəsi Leyla Vəzirovanın "Yusif Vəzir Çəmənzəminlinin publisistikası" adlı monoqrafiyasında da görə bilərik:

"Yusif Vəzir Çəmənzəminli "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kitabını Rəsulzadəyə ithaf edib. 1921-ci ildə İstanbulda çap edilən kitabın üzərində "Yusif Vəzirov. Azərbaycan Cumhuriyyətinin sabiq İstanbul elçisi"sözləri yazılıb. Həmin vaxt Rəsulzadə Moskvada idi. Onların əlaqələri demək olar ki, kəsilmişdi. Lakin müəllif  Rəsulzadə haqqında "böyük mürşid", "əziz yoldaş " kimi sevgi dolu ifadələr işlədir.

## Cumhuriyyət və Yusif Vəzir

Ümumiyyətlə, AXC hökumətinin Yusif Vəzirə, həmçinin yazıçının da gənc dövlətə münasibəti hər zaman yaxşı olub. Ayrı-ayrı yüksək post sahibləri ilə aralarından su keçib ki, bu da başqa söhbətin mövzusudur. O, ilk növbədə AXC qurucularından biri olan Fətəli Xan Xoyskinin rəğbətini qazanmışdı. Bu səbəbdən də Xoyski tərəfindən ona vacib missiya tapşırılır.

Yusif Vəzirə tapşırılan əsas missiya Ukrayna ilə Azərbaycan arasında münasibətləri bərpa etmək və Azərbaycan tarixini, ədəbiyyatını, mədəniyyətini orda təbliğ etmək idi. Yusif Vəzir işə çox həvəslə başlayır. Simferopolda olarkən səfir təyin edilir. Səfir təyin olunması barədə etimadnamə ona gedib çatmır. Çünki xarici işlər nazirliyinin diplomatik kuryeri etimadnamə ilə birgə 8000 manat pulu səhvən Kiyevə aparır. Yollar və Kiyevdəki vəziyyət təhlükəli olduğundan işin arxasınca getmirlər. Yusif Vəzir mədəniyyətin və ədəbiyyatın təbliğində aktiv fəaliyyətə başlasa da, bəzi çətinliklər ev və maliyyə problemi onun işini çətinə salır. Qeyd edək ki, hökumət diplomatik nümayəndə kimi ona maaş təyin etməmişdi. Buna görə də Yusif Vəzir hətta kirayə qaldığı evin pulunu belə verə bilmirdi. Bu haqda o, Cümhuriyyətin Xarici işlər nazirliyində Odessadan göndərdiyi məktubunda yazırdı:

"Xahiş edirəm tutduğum vəzifəyə görə mənə məvacib verəsiniz İşçilərin ştatını isə özüm sizə yollayacağam. Odessada pulsuz böhransız bir vəziyyətdə yaşayıram. Ayda 1200 manat mənzil pulu verirəm, çörəyin girvənkəsi isə 20 manatdır."

Yazdığı məktubda səfir olmasına baxmayaraq Yusif Vəzirin acınacaqlı yaşayışını həmən hiss etmək olar. Ən çətin məsələ bundadır ki, orada yaşayan həmyerliləri də Yusif Vəzirdən kömək istəyirdilər. Hər bir sahədə hətta ticarət etdikləri məhsulların Bakıya gətirilməsini belə ondan tələb edirlər. Odessada o zaman başlanana hərc-mərclik Yusif Vəzirin Bakıya qayıtmasını labüdləşdirir.

## Çəmənzəminlini məhv edən yazıçı dostları kimlərdi?

Yusif Vəzir Çəmənzəminli digər repressiya qurbanları ilə müqayisədə bir neçə il gec həbs edilib. 53 il ömür sürən yazıçı həyatdan "oğurladığı" bir neçə ildə də xeyli sarsıntılar keçirib. Bakıda uzun müddət işsiz qaldıqdan sonra Özbəkistanda Xarəzm əyalətinin Ürgənc şəhərindəki universitetdə rus dili və ədəbiyyatı müəllimliyi üçün müsabiqəyə qatılır və qalib gəlir. Çəmənzəminli qısa müddətdə Ürgənc Universitetindəki bütün kollektivin rəğbətini qazanır və kafedra müdirliyinə qədər yüksəlir. Amma bütün bunlar onu üzləşdiyi mənəvi sarsıntılardan xilas edə bilmir. Çünki Çəmənzəminli Ürgəncdə ailəsinin dolanışığını təmin etmək üçün işləsə də, onun bu şəhərdə qalmağının əsas məqsədlərindən biri də özünü repressiyadan xilas etmək idi. Bu səbəbdən də Ürgəncdə olduğu illərdə çox ehtiyatlı davranır. Ailəsinə yollamaq istədiyi pulu birbaşa evə yox, qohumlarının, qayınanasının evinə göndərir. Bakıya gələndə də həmişə çalışırmış ki, evə gecə çatsın və elə gecə ikən də ailəsi ilə sağollaşıb evdən çıxsın. Çünki izlənildiyini bilirdi. Elə onu izləyənlər də Çəmənzəminlinin bu "oğurluq" Ürgənc həyatına son qoydular. Lazımı orqanlara həbs edilməli olan ziyalıların siyahısının yenidən tərtib etmək tapşırıldı. Məhz bu zaman Çəmənzəminli yenidən xatırlandı və Ürgənc Universitetində həbs olunaraq Bakıya gətirildi.

Onun həbs edilməsində o vaxtın əsas reytinqli orqanı olan Azərbaycan Yazıçılar İttifaqının da rolu çox oldu. 1937-ci ildə ittifaqın sıralarından xaric olunan yazıçının həbs tarixçəsi də məhz o gündən başladı. Araşdırmaçı Aslan Kənanın "XX əsrdə repressiyaya məruz qalanlar" monoqrafiyasında bu barədə yazılır:

"İclasda "Kommunist" qəzetində çap olunan bir məqalə haqqında fikrini açıqlayan S. Vurğun bu yazı ilə tamamilə razı olduğunu bildirir. Sonra geniş çıxış etməmişdən öncə H.Cavid, M.Müşfiq, S.Hüseyn, Y.Vəzir və başqalarının ittifaq sırasından xaric etməyi idarə heyətindən tələb edir. Məhz bundan sonra tələb Azərbaycan Sovet Yazıçılar İttifaqı üzv və namizədlərinin ümumi iclasının qərarında həllini tapır.

Daha sonra Yusif Vəzirin "Həzrəti-Şəhriyar" pyesi və "İki od arasında" romanının nəşrinə qadağa qoyulur, "Altunçay" ssenarisi "Azərfilm" kinostudiyası tərəfindən bəyənilsə də, son anda çəkilişinə icazə verilmir. Bu azmış kimi Yazıçılar İttifaqı Y. Vəzirin illərlə gözlədiyi 3 otaqlı mənzili tikilib hazır olduğu ərəfədə, onu "öz qruplarında" olan şəxsə verirlər.

Təsadüfi deyil ki, Ümumazərbaycan Birinci Şura Yazıçılarının Qurultayında çıxış edən Mikayıl Rəfilinin "... Yusif Vəzir yoldaşın "Qızlar bulağı" əsəri 31-ci ildə yazılmış, lakin 34-cü ildə çapdan çıxmışdır. Bu biabırçılıqdır" deməsi, iclası aparan K. Ələkbərliyə xoş gəlməmiş, çıxışçıya "vaxtınız qurtarmışdır" replikası atmağla onunla razılaşmadığını bildirmişdir".

Araşdırmaçıdan verdiyimiz sitatda Səməd Vurğunun Çəmənzəminlinin ittifaqdan xaric olunması üçün etdiyi çabaları görməmək mümkün deyil. Amma tək Səməd Vurğun deyildi ki...

**Başqaları da Əhməd Cavada, Cavidə, Müşfiqə göstərdikləri münasibəti asanlıqla Yusif Vəzirə də tətbiq edib:**

"Qurultayda M. Rəfilinin bu fikri ilə razılaşmayan yazıçı Mehdi Hüseyn də 1936-cı ilin "Ədəbiyyat qəzeti"ndə yazırdı: "Onun son əsərləri, xüsusilə "Qızlar bulağı" və "Studentlər" romanı Şura ədəbiyyıtının fikri yüksəlişini ifadə etməyir".

Tənqidçi Hidayət Əfəndiyev Çəmənzəminli haqqında qələmə aldığı məqalədə yazırdı: "Çəmənzəminlinin "Qızlar bulağı" və "Studentlər" əsərinin bu son ildə çapdan çıxmış, ikinci hissəsi də tarixi janr rolunda atılmış müvəffəqiyyətli addımlardan biridir. Bu əsərlərin canlı tarixi materiallar üzərində oxucu keçmişi dərk edir. Hal-hazırın və gələcəyin mahiyyətini düşünməyə başlayır". Bu günün prizmasından baxanda yalnız sıravi ədəbi tənqid materialı kimi görünə bilər. Lakin bu cür çıxışlar Çəmənzəminlinin ittifaqdan xaric olunmasına səbəb oldu. O zaman xüsusi çəkisi olan ittifaqdan qovulmaq isə elə həbsin kandarına atılmağa bərabər idi".

**Burada kiçik bir müqayisə aparaq. Yusif Vəzir həbs olunan zaman ondan yazıçı dostları haqqında soruşurlar. O isə onlardan fərqli olaraq bu cür cavablar verir:**

S.Vurğun - onunla ədəbiyyat haqqında söhbətimiz alınmır, onun siyasi fikirləri haqqında deməyə çətinlik çəkirəm.

A.Şaiq –Neft İnstitutunda bir işləmişik. O pedaqoji işinə çox bağlı idi.

M.Arif – Arif bizim ən gözəl tərcüməçilərdən biridir. O nəinki bilikli, həm də vicdanlı adamdır.

S.Mümtaz – S.Mümtaz böyüklərin yanında bal, kiçiklərin yanında istiot idi.

Əbülhəsən – Əbülhəsən istedadlı yazıçıdır".

Təkcə bu müqayisədən hər şeyi aydınlaşdırmaq, kimin kim olduğunu anlamaq olar...

## Ağır durumda olan Çəmənzəminliyə cəmi 3 dollar maddi yardım təklif etdilər

XIX əsrin sonlarında, haradasa 1897-ci ildə hələ on yaşı olmayan kiçik bir uşaq çəkdiyi əziyyətlərdən bezərək rus dilində "Şikayət" adlı şeir yazır. Bununla da həyatının proqramını hazırlayır. Bu uşaq böyüyəcək, gənc bir dövlətin iki ölkədə səfiri, olacaq, ictimai xadim, alim, yazıçı kimi məşhurlaşacaq. O balaca Yusif böyük Yusif Vəzir Çəmənzəminli olacaq. Amma harada olmasına baxmayaraq, onunla əkiz qardaş kimi dünyaya gələn Zülm ondan əl çəkməyəcək. Çəmənzəminli repressiya illərində soyuq Sibirin şaxtasında dünyasını dəyişəndə də həmin Zülm ona yoldaşlıq edəcək. Dağ başında yazı, yayı yaşıllığa bürünmüş doğma şəhəri Şuşa isə ondan çox uzaqlarda olacaq...

Repressiya qurbanlarından olan, ictimai xadim, diplomat, araşdırmaçı, folklorşünas, yazıçı Yusif Vəzir Çəmənzəminlinin acı həyatı haqqında nəvəsi Leyla Vəzirova və gəlini Fəridə Vəzirova danışacaq:

**-Sizcə, Çəmənzəminli bir ziyalı, bir şəxsiyyət kimi hansı tərəflərilə gizli qalıb, öyrənilməyib?**

-Çəmənzəminlinin həyat və yaradıcılığı haqqında yazılan elmi işlərin əksəriyyəti ilə tanışam. Orada bir çox məsələlərə toxunulub. Amma onun etnoqrafik dünyagörüşü, folklorşünas kimi fəaliyyəti və ən əsası "Avesta", Zərdüştçülük ideologiyası haqqındakı çoxsaylı məqalələri hələ də öyrənilməyib. Babamın folklora olan sevgisi çox böyük idi. Novruz bayramı, məişət mərasimləri və mövsümlərlə bağlı miflər onu çox maraqlandırırdı. Onun folklorşünaslıq dünyagörüşünə aid Bəhlul Abdulla bir monoqrafiya yazıb. Amma Zərdüşt ideologiyası, "Avesta" mətnlərinə aid apardığı araşdırmalar tədqiqatlardan tamamilə kənarda qalıb. Halbuki Yusif Vəzir "Avesta"nı çox gözəl bilirdi. Bu mövzuda heç vaxt toxunulmayan məsələlərə- "Avesta" miflərinə, bu dini inanc sistemində olan bəzi qəribə, hətta bizim üçün ikrah yarada biləcək məqamlara ilk dəfə o müraciət etmişdi.

**-Həmçinin atəşpərəstlik dünyagörüşünün, Zərdüşt ideologiyasının toxunulduğu "Qızlar bulağı" kimi dəyərli əsər də bu gün nisbətən kölgədə qalıb:**

-Nəvəliyi bir kənara qoyuram. Adi oxucu kimi kimi düşünürəm ki, "Qızlar bulağı" elə bir əzəmətli, möhtəşəm romandı ki, onu dünya ədəbiyyatının bir çox nümunələri ilə eyni sıraya qoymaq olar. Bu əsər çoxobrazlı və çoxqatlı məna yükünə malikdir. Onu anlamaq üçün dəfələrlə oxumaq lazımdır.

**-Çəmənzəminlinin Cumhuriyyət rəhbərləri- M.Ə.Rəsulzadə, Xəlil bəy Xasməmmədov, N. Yusifbəyli ilə münasibətləri barəsində birmənalı fikirlər səslənmir. Siz onun publisistikasını araşdırmısınız. Həmin publisistik məqalələrində bu barədə nələr qeyd olunur?**

-Sualınıza ən yaxşı cavabı onun "Müsavatçıya cavab" adlı məqaləsi verə bilər. Bu məqalədə dediyiniz məsələlər öz əksini tapıb. Onları mətbuat üçün demək bəlkə də yaxşı deyil. Amma bəli, AXC rəhbərlərindən incidiyi məqam olub və bu küskünlük həmin məqalədə öz əksini tapıb. Təsəvvür edin, yazır ki, böyük maddi sıxıntı içindəyəm, amma Rəsulzadə bu çətinliklərə rəğmən ona cəmi 3 dollar təklif edir. Dəfələrlə müraciət edir ki, ona aylıq məvacib kəsilsin.

Mən onun publisistikasını araşdırmışam. Babam elə insan deyildi ki, şəxsi münasibətlərini, problemlərini məqalələrində işıqlandırsın.

Onun publisistikasında da cəmiyyətin ümumi problemləri-qadın azadlığı və xurafata qarşı münasibət öz əksini tapır. Hətta xurafata- üz cırmaq, sinə vurmaq kimi əməllərə qarşı yazdığı məqaləsindən sonra ona deyirlər ki, bir neçə gün evdən çıxma, çünki din adamları səni öldürə bilərlər.

**-Çəmənzəminlinin qürbətdə keçən həyatı daha acınacaqlı olub. Məsələn, Parisdə ölüm ayağında olan qardaşını yaşatmaq üçün fəhləlik də edib. Bir az bu barədə danışaq:**

-O, bütün ömrü boyu əziyyət görüb. Hələ uşaq olanda çəkdiyi əziyyətlərdən təsirlənərək rus dilində "Şikayət" adlı şeir yazıb. Cumhuriyyət süqut edəndən sonra oranın İstanbuldakı səfirliyi də bağlanır. Bir müddət İstanbulda işləsə də, məcbur olub Parisə gedir. Amma yenə də zülm babamdan əl çəkmir. Parisdə yaşayan qardaşı Miri vərəm xəstəsi idi. Onun sağalması üçün çox əziyyət çəkir. O boyda vəzifədə çalışan adam yad bir şəhərdə

birdən-birə fəhlə işləməyə məcbur olur. Mən indi də bu faktı deməkdən utanmıram: bu əslində bir rəşadətdi, mərdlikdir-fəhlə işləyə -işləyə xəstə qardaşa baxmaq. Qardaşı Mirinin dözülməz ağrıları, xəstəliyi ona mənəvi sarsıntı yaşadırdı. Həyatın hər sınağından çıxmışdı. Amma kiçik qardaşının dözülməz qışqırıqları qarşısında aciz qalmağı Yusif Vəziri tamam çökdürdü. Bir çox adama maddi yardım göstərilməsi üçün müraciət etdi. Bircə, Ceyhun bəy Hacıbəyli Mirinin sağalması üçün maddi yardım göstərdi. Miri ilə Ceyhun bəy həm dost, həm də qohum olublar. Parisdə biri hüquq, o biri isə diplomatiya üzrə təhsil almışdı. Ceyhun bəy Miriyə çox yaxşılıqlar edib. Onu sanatoriyalara aparıb. Buna baxmayaraq, Miri cəmi 29 yaşında vəfat etdi. Heç Mirinin məzarı da yoxdu. Çünki Fransa qanunlarına uyğun olaraq bunun üçün də vəsait lazım idi. O da olmayanda Mirini 5 illik müvəqqəti yerdə dəfn edirlər.

Təsəvvür edin ki, onlar ailədə üç qardaş olublar. Amma demək olar ki, heç birinin məzarı yoxdu. Özü sürgündə öldüyü üçün harada dəfn olunduğu bilinmir, erkən yaşda olan qardaşlarının biri Parisdə, o biri isə Şuşada basdırıldı. Yəni, bizim üçün heç birinin məzarı yoxdu.

Qürbətdəki həyatı bu cür acınacaqlı olub. Elə Kiyevdə oxuyanda da, səfir kimi çalışanda da maddi və mənəvi çətinliklərə rastlaşıb. Orada səfir olanda AXC hökumətinin baş naziri Nəsib bəy Yusifbəyliyə məktubla yazırdı ki, xahiş edirəm, mənə maaş təyin edin. Kirayə və yaşayış xərclərinin hamısı öz üzərimdədir.

**Bu yerdə Çəmənzəminlinin gəlini Fəridə xanım söhbətə qoşulur:**

-İstanbulda olarkən oradakı idarəetmə sistemini, çox bəyənir, Cümhuriyyət rəhbərlərinə təklif edir ki, orada bizim səfirliyimiz açılsın. Ondan sonra AXC hökuməti bu haqda qərar qəbul edir. Çəmənzəminli İstanbula böyük çətinliklə gedib çıxır. Bakıdan ora iki aya çatır. Çünki yol xərcləri və başqa problemlər var idi. Axırda məcbur olub, özünü tacir kimi qələmə verir. Birtəhər İstanbula yerləşə bilir.

İstanbulda səfir olanda Azərbaycan Xalq Cümhuriyyəti dağılır. Təbii ki, səfirlik də bağlanır. Çəmənzəminli oradakı tələbələri toplayıb deyir ki, daha məndən heç nə gözləməyin. Heç öz aqibətinin necə olacağını bilmirdi. Ondan sonra Çəmənzəminlinin yaşayışı daha da çətinləşir. Üç il müxtəlif işlərlə məşğul olur. Kitabxanalarda çalışır.

**-Çəmənzəminlinin həyatında maraqlı dövr 1927-ci ildən 1937-ci ilə qədər, yəni repressiyaya uğradığı ana qədərki mərhələdir. Leyla xanım, atanız Orxan Vəzirov həmin dönəmi necə xatırlayırdı?**

-Çəmənzəminli 1927-ci ildən sonra Bakıya qayıdır. O qədər çətinliklər, mərhumiyyətlər görmüşdü ki, evlənmək də istəmirmiş. Artıq onun üçün şəxsi həyatın heç bir mənası qalmamışdı. Amma ailəsinin təkidilə Bilqeyis xanımla tanış olur və ondan sonra özü evlənməyə razılıq verir. 1928-ci ildə atam dünyaya gəlir. Evlililiyin ilk illəri çox yaxşı keçib. Universitetdə, mətbuat orqanlarında çalışıb, ailəsini dolandırıb. Çəmənzəminli repressiyaya məruz qalanda atamın 10 yaşı var idi. On yaş da az yaş deyil. Atam hər dəfə o illərdən danışanda uşaqlaşırdı. Çünki atasını uşaq ikən itirmişdi, ata həsrəti ilə yaşamışdı. Atam 81

yaşında vəfat etdi. Atası ilə birgə səhər yeməyinə necə oturmaqlarından, Yusif Vəzirin onlarla necə maraqlanmağından, ailəsini hər dəfə istirahətə apardığı şəhərlərdən danışırdı. Üzeyir bəylə bağ qonşusu idilər. Hər yay birgə istirahətlərindən söz açardı.

**-Yusif Vəzirdən danışada gərək ağır repressiya illərinə də toxunaq. Repressiyaya uğrayandan sonra onun ailəsi nə kimi çətinliklərlə üzləşdi?**

**Fəridə Vəzirova:-** 1938-ci ildə Orxan dördüncü sinifdə oxuyurdu. Evə gələrkən qəribə bir mənzərə il rastlaşır. Görür ki, evdə hər şey dağıdılıb, aləm bir-birinə qarışıb. Anası Bilqeyis xanım isə bir küncdə oturub ağlayır. Artıq hər şey bitmişdi. O illərin "qara yeli" bu dəfə onların qapısın döymüşdü. Deməli, artıq onun da atasını həbs ediblər. Atanı soyuq Qorki vilayətinə göndərdilər, ailəsi isə Bakıda həbsdə qalmalı oldu. Bir ana və 3 uşaq həddindən artıq rütubətli bir yerdə-soyuq tərəvəz saxlama bazasında yaşayıblar. Belə şəraitdə onlar xəstələnir, bir sözlə ailə çıxılmaz duruma düşür. Onları yük maşını ilə tərəvəz bazasına aparıblar. Amma Bilqeyis xanımın qardaşı Fərhad onlara sahib durub.

**-Bu qədər məşəqqətli həyat sürən, buna baxmayaraq sürgündə belə yazıb-yaradan bir yazıçıya Azərbaycan ziyalı elitasının, cəmiyyətinin bu günki münasibəti sizi-yəni onun ailəsini qane edir?**

-Son illər Çəmənzəminli çox xatırlanır. Bir neçə gündən sonra Mədəniyyət kanalında onun haqqında maraqlı veriliş olacaq. Haqqında xeyli yazılar yazılıb. Bizə də material üçün müraciət edənlər var.

Çəmənzəminli Kiyevdə Şevçenko adına Dövlət Universitetini 1915-ci ildə bitirib. Onun həmin universiteti bitirməyinin 100 illiyi münasibətilə Kiyevdə maraqlı konfrans keçirildi. Bizim ondan xəbərimiz belə yox idi. Ora dəvət alanda bildik və qardaşım Yusiflə getdik. Deməк, Yusif Vəzir heç zaman unudulmur.

***Müsahibə əsnasında söhbətlərə qulaq asa-asa otaqda sanki kimlərinsə göz yaşı içində gülüşünü görürdük. Bu, 1938-ci il repressiya qurbanının uşaqlarının göz yaşları idi. Böyüyü Orxan idi ki, onun da cəmi 10 yaşı vardı. Onu da hiss edirdik ki, bizə hər şeyi bu "10 yaşlı ağsaqqal" danışır. Özü də qızı Leyla və həyat yoldaşı Fəridə xanımın gözüylə. Özünün isə ancaq sevincdən gülən gözlərini xəyalən göstərə bilirdi. Ona görə sevinirdi ki, ömrünü həsr etdiyi Çəmənzəminçilik mahiyyəti bu gün də unudulmur.***

Gülən uşaq gözləri ilə bərabər, uzaqda bir ağlayan şəhər də var... Şuşa... Hələ ki, dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bu şəhər göz yaşlarına sahib çıxa bilmir. Bu onun, o balaca Yusifin şəhəridir...

## Çəmənzəminlinin son məktubu:
## *"Əli və Nino"nu necə qorumaq istəyirmiş?*

Yusif Vəzir Çəmənzəminli Sibirə sürgün ediləndən sonra Bakıda qalan ailəsi çox əzab-əziyyət çəkir. Məcburiyyət qarşında qalıb bir neçə dəfə yaşadıqları evi dəyişməli olurlar. Repressiya qurbanlarının ailələri üçün nəzərdə tutulan müvəqqəti saxlama yerlərindən tutmuş Dərbəndə qədər yerləri gəzirlər. Nəhayət,

1943-cü ildə Yusif Vəzirin həyat yoldaşı Bilqeyisin qardaşı Fərhad Acalov Şəkiyə baş aqranom göndərilir. O, daim yardım etdiyi bacısı uşaqlarının qürbətdə tək-tənha yaşamalarına dözməyib onları öz yanına dəvət edir. Ailə 1943-cü ildə çox çətin şəraitdə, oturacağı və pəncərəsi olmayan qatarla Bakıya gəlirlər.

Bakıda ilk açdıqları qapı isə Bilqeyisin anası Kiçikxanımın yaşadığı ev olur. Yusif Vəzirin pərən-pərən olan ailəsi bir gün burada, sabahısı gün isə baş yerdə yaşamalı olduğundan yazıçının bütün əlyazmalarını, əsərlərini məhz həmin Kiçikxanım özünün sandığında gizləyir.

Növbəti fakt Kiçikxanımın qoruduğu məktubla bağlıdır. 1941-ci ildə göndərilən məktub Yusif Vəzirin ailəsinə sonuncu naməsidir. O, ailəsinin hansı durumda olduğunu bilmədiyi üçün məktubu sürgündən qabaq yaşadığı ünvana yollayır. Kiçikxanım isə yalnız 2-3 ildən sonra gördüyü nəvələrinə həmin məktubu verir:

“Əziz Bilqeyis, yeganə xiffətim sən və uşaqların xiffətidir. Səbrim tükənib, tale bizi nə vaxt qovuşduracaq? Imkan varsa, yazın və çalışın ki, bağlama göndərməyə icazə versinlər. Əgər icazə verilsə, bu, mənə çox böyük kömək olar, xüsusən papiros barədə....”

Qısa məktubun sonrakı hissəsində Yusif Vəzir ailəsinin sağ-salamat olduğuna sevindiyini və hamıya salam göndərdiyini deyir. Amma həm o, həm də ondan əvvəlki bir neçə məktubda diqqətçəkən məqam da var idi: Yusif Vəzir məktubları “sizin Əli” imzası ilə yazırdı.

Yazıçının oğlu Orxan Vəzirov atası ilə bağlı yazdığı xatirələrində Yusif Vəzirin bu imza ilə məşhur “Əli və Nino” əsərinə işarə etdiyini bildirib

## Çəmənzəminlinin sürgündən ailəsinə yolladığı yeganə məktubdakı dəhşət

Böyük yazıçı və ictimai xadim Yusif Vəzir Çəmənzəminli 1938-ci ildə repressiyaya məruz qalıb sürgünə göndərilir. Soyuq Qorki vilayətindəki həbs düşərgəsinə göndərilən ədibin səhhətindəki problemlər durmadan şiddətlənir. Onsuz da, repressiyaya qədər yaşadığı acınacaqlı həyatın ona “bəxş etdiyi” bir neçə xəstəlik var idi.

Amma talesiz yazıçıya ən çox əzab verən isə ailəsinin müqəddəratından xəbərsiz qalması idi. Ailəsi ondan sonra xeyli çətinliklərlə üzləşir. Bir neçə şəhərdə yarıac-yarıtox yaşamalı olur. Amma bütün çətinliklərə baxmayaraq, ailəsi 1941-ci ildə Çəmənzəminliyə məktub yollaya bilir ki, həmin məktub yazıçı üçün böyük təsəlli mənbəyi olur. Ən azından ailəsinin sağ olmasını və bir damın altında yaşadığından xəbərdar idi.

Ondan sonra Çəmənzəminli ailəsinə cavab məktubu yazır. Lakin məktub ailəsinə çatmır. Çünki həyat yoldaşı Bilqeyis üç azyaşlı oğlu ilə birlikdə məcburiyyət qarşısında qalaraq Bakını tərk etməli olur. Gənc qadın üç uşağını da götürərək qardaşı Fərhad Acalovun köməyi ilə əvvəlcə Qubaya, sonra isə Dərbəndə gedib bir müddət bu şəhərlərdə qalır. 1943-cü ildə Dərbənddən Bakıya qayıdan Bilqeyis xanım anası Kiçikxanımın evinə gəlir.

Çəmənzəminlinin bütün arxivini qoruyub saxlayan Kiçikxanım onun ailəsi yazıçının 1941-ci ilin 20 dekabr tarixli məktubunu təqdim edir. Bu məktub ailəsinin Çəmənzəminlidən aldığı sonuncu məktub, onun sağ qalmasını göstərən sonuncu işarət idi.

Əziz Bilqeyis.

Mən sağ və salamatam. Yeganə xiffətim sənin və uşaqların xiffətidir. Səbrim tükənib! Nə vaxt tale bizi qovuşduracaq?! Əgər imkan varsa, yazın və çalışın ki, bağlama göndərməyə icazə versinlər. Əgər icazə versələr, bu mənə çox böyük kömək olar, ələlxüsus papiros barədə...

Sizin hələ yayda yazdığınız məktubları indi almışam. Çox şad oldum ki, uşaqlar sağ və salamatdırlar və yaxşı oxuyurlar.

Səhhətinizi qoruyun. Qohumlara və tanışlara salam deyin. Bərk-bərk öpürəm sizi.

Bütünlüklə sənin, Yusif"

## Çəmənzəminlini "erotik" hekayələrinə görə ittifaqdan çıxardılar

1937-ci ilin yayı... Konkret desək iyunun əvvəlləridir. Yazıçılar İttifaqının başbilənləri yenə bir araya yığışaraq bəzi vacib məsələlər barəsində qərarlar verirdilər. Səməd Vurğun öncə "Kommunist" qəzetində çıxan "Averbaxçılığın kökünü kəsməli" adlı məqalədən danışır. Ardıyca da Hüseyn Cavid, Mikayıl Müşfiq, Seyid Hüseyn və Çəmənzəminlinin ittifaqın sıralarından çıxarılmasını təklif edir. Bu təkliflər sonradan ayrı-ayrı bəhanələrlə silahlanaraq öz parlaq həllini tapır.

Cavidin, Müşfiqin, Seyid Hüseynin aqibətindən sonra dördüncü şəxsin “təqsir”i səbəbindən həbs olunmaması hamını təəccübləndirirdi. Axı o AXC-nin nüfuzlu xidmətkarlarından biri olmuşdu? Nə əcəb onun “günah”ını hələ  də görməzdən gəliblər?

Amma bu kimi işlərdə artıq peşəkarlaşmış şəxslər dəmiri yavaş-yavaş döyməyə başladılar. Əvvəlcə Çəmənzəminlinin bir neçə əsərinin nəşrinə qadağa qoydular. “Azərfilm” tərəfindən bəyənilən “Altun saç” kinossenarisini isə geri qaytardılar. Təsəvvür edin ki, Mehdi Hüseyn bir il bundan qabaq təriflədiyi “Qızlar bulağı” əsərini həmin yığıncaqdan sonra tənqid etdi.

Lakin sakit təbiətli yazıçını elə gülməli “səbəb”lərə görə günahlandırırdılar ki, sonradan bəlkə özləri də buna inanmırdılar.

Moderator.az həmin “səbəblər”dən birini təqdim edir:

Dövrün tanınmış tənqidçilərindən biri olan Hidayət Əfəndiyev isə bu hadisələrdən bir  neçə ay əvvəl” “1936-cı ildə “Qızlar bulağı” kimi möhtəşəm əsəri tənqid atəşinə tutaraq yazırdı:

“Heç bir bədii gözəlliyə və funksiyaya malik olmayan və şəhvət oyadan çirkin momentlərə biz, Yusif Vəzirin əsərlərində də təsadüf edirik. Yusif Vəzirin “Qızlar bulağı” əsərində belə bir yer var: “Onun vücudu yetişmiş dişilərə məxsus rayihə sarındı” yaxud Ninni soyunub gəncin yatağına girdi, gənc Ninninin bütün gözəlliklərinə malik oldu”. (mənbə:  Aslan Kənan, “XX əsrdə repressiyaya qurban gedənlər”)

Tənqidçi  “Qızlar bulağı” ilə kifayətlənməyib “Studentlər” romanını da eyni “maddə” ilə günahlandırır:

“Yusif Vəzirin bu əsəri (“Studentlər”) özünün çılpaq, şəhvət oyadan erotik təsvirləri ilə oxucuların zövqünü və əxlaqını pozmağa doğru çevrilmişdir” (yenə orada)

Bir ildən sonra isə artıq meydan daha da geniş açılmışdı. Çünki Çəmənzəminli Mir Cəfər Bağırovun qara siyahısının əvvəlində gələn 4 ziyalıdan biri idi. Elə bu səbəbdən ittifaqdan onun payına düşəcək evi yazıçıya vermədilər.

Böyük yazıçı həm partiya sıralarından, həm ittifaq üzvlüyündən, həm də işindən məhrum oldu. Üç uşaqla xanımını da belə çətin vəziyətdə saxlamaq müşkül idi. Ümidi öz şəxsi kitabxanasına qalmışdı. İş o yerə çatmışdı ki, Çəmənzəminli evə çörək gətirmək üçün öz kitablarını satırdı.

Əlacının hər yerdən kəsildiyini görüb yenidən Mir Cəfər Bağırova məktub yazır. Amma bir müddət əvvəl onu, Salman Mümtazı, Hüseyn Cavid və Seyid Hüseyni sıralarında saxladığı üçün Yazıçılar İttifaqını tənqid edən Bağırov bu məktuba əhəmiyyət vermir.

Günəş bir dəfə Yusif Vəzirin üzünə gülür. O, Özbəkistanda bir institutun təşkil etdiyi müsabiqədə qalib gəlib işə qəbul olunur. Hətta kafedra müdiri vəzifəsinə də yüksəlir. Oradan aldığı maaşı gizlicə ailəsinə yollaya bilirdi. Doğrudur,məlum hadisələrə görə onu izləyirdilər. Amma nə etmək olardı ki?! Həyat yoldaşı üç uşağı ilə birgə ac qalacaqdı.

Bir gün də dözməyib Bakıya gəlir. Ailəsi ilə görüşər. Lakin çox keçmir ki, gizli agentlər o illərin məşhur qara rəngli “Emadin”ini (avtomobil markası) onun da qapısının ağzına gətirir...

# İÇİNDƏKİLƏR

ÖN SÖZ ........................................................................9
Müəlliflər adına “müəllif”dən ..............................................12

**I bölüm - Cümhuriyyət fədailəri – ruhla tarix yazanlar .....16**

“Xanımımdan sonra bütün həyatım məhv oldu” – Cümhuriyyət generalının fəryadı .......................................16

Sürgündən sonra Bağırova “yox” deyərək, güllələnməyi seçən Cümhuriyyət naziri....................................................18

Cümhuriyyətin xaricə yolladığı tələbələrin acınacaqlı taleyi - Bəziləri dözməyib intihar etdi................................24

Cümhuriyyətin baş nazirlərinin sirli qətli ...........................28

Nəm kamerada aclıq və işgəncə içində dünyasını dəyişən Cümhuriyyət naziri................................33

Hüseyn Cavidin həbs olunduğu gecə üzünə duran nasir və onu ələ salan tələbə ...........................38

Ceyhun Hacıbəylinin Üzeyir bəyə məktubu: “ Borclular məni əldən saldı, arvadımdan çox utanıram” ...42

Aldığı maaşı işçilərinə bağışlayan, ölüm gününü bilən parlament sədri ...................................50

Hüseyn Ərəblinskinin müəmmalı qətli – Aktyorun dəfn günündən “reportaj”....................................57

Onun layihələri AXC-ni dünyanın ən güclülərindən birinə çevirəcəkdi - Kasıb və ixtiraçı Cümhuriyyət naziri .............61

Bir danosun dedikləri .........................................................64

Dueldə gözünü zədələyən, həbsdə ölümdən son anda qurtulan Cümhuriyyət naziri ...............................................66

Müşfiqin üzünə duranlar, xanımını döyüb, bacısına şər atanlar ....................................................68
Xoyskinin ailəsinin aqibəti və daha bir tarixi nitqi ..............73
Nəsib bəy Yusifbəylinin sirli qətli haqqında daha bir neçə söz .................................................................75
İki müəmmalı versiya.........................................................77
"Koroğlu"nu ermənilərdən qoruyan, Bağırov və Beriyaya "sui-qəsd edən" alim..............................................81
Qohumları tərəfindən məzarı axtarılan Cumhuriyyət naziri...85
Amma Xəlil bəy Xasməmmədovun qardaşı nəvəsi Toğrul Cuvarlı bundan sonra da qohumunun məzarını tapa bilmir: .......................................................................89
Əlimərdan bəy Topçubaşovun Rəsulzadəni ağladan məzarı......89
Ömrünü soyuq daxmada başa vuran Cümhuriyyət generalı......92
Öldürüləndə çantasında bir köynək və diş fırçası olan baş nazir – Tanımadığımız NƏSİB BƏY .............................96
Osmanlı jurnalisti ilə müsahibə...........................................97
"Vallah, billah, yoxdu"........................................................98
Xain plan ............................................................................99
Rəsulzadənin iki misra ilə tanıtdırdığı nakam şair GÜLTƏKİN kim olub? .....................................................100
Əfsanəvi təyyarəçi – Cümhuriyyət yetirməsi........................104
Əbdürrəhman Fətəlibəyli-Düdənginski haqqında................109
Azərbaycanlının azərbaycanlı qatili....................................111
Dünya siyasi tarixində aclıq aksiyası keçirən ilk şəxs - Azərbaycanlı Əli Yusif..........................................113
Buzun dəhşət çaları ...........................................................114

Ömrü boyu bolşeviklərlə mübarizə aparan,
bolşevik qayınatası Fətəli xan Xoyski....................................118
Ceyhun bəy Hacıbəyli – nakam taleli insan..........................123
Mustafa bəy Vəkilov ..........................................................126
Stalin repressiyalarının qurbanı............................................128
Nuru Paşanın özünə qardaş sandığı,
Beriyanın ilk rəisi olan Cümhuriyyət fədaisi ........................130
Cümhuriyyətin gizli qəhrəmanı – quldur erməniyə
qan udduran qaçaq oğlu .....................................................135
Çəmənzəminlinin həyatı haqqında "reportaj"......................139
Cümhuriyyətin 100 tələbəsindən biri –
İsmayıl Saryalın nəvəsi: "Babam Bakıda
güllələnməyini istəyirmiş" – MÜSAHİBƏ..........................149

**II bölüm - Cümhuriyyət naxışları –
ağ-qara rəngi hadisələr..........................................................157**
Cümhuriyyətin Milli Matəm elan etdiyi
Mart soyqırımının ildönümü: "Həmin gün məscidlərdə…" 157
Cümhuriyyətin baş nazirini pərt edən şair-
"Mənimki nazirlə tutmaz"....................................................160
Şıxlinskinin Cümhuriyyətin Müdafiə naziri
təyinatına etirazı – "Hökumət iradlarıma baxmadı" ............162
Cümhuriyyətin aşağılandığı Azərbaycan filmləri ................164
"Əsgərlərin isti otaqları, yorğan-döşək və yeməkləri
olacaq" – Mehmandarovun xalqa müraciəti ........................166
"Ağlaya-ağlaya zabitə dedim ki, məni atama görə niyə
döyürsüz?" – Cümhuriyyət generalı və nazirinin oğlu ........168
Qarabağ səfərindən reportaj .................................................169

Cümhuriyyət nazirinin Nərimanovun həbsi barəsində sərəncamı – Arxiv faktı ........................................................172
Zakir Sadatlının üzə çıxardığı Cümhuriyyət sirləri və ağrıları - “AXC araşdırmaçıları”..........................................173
Rədd edilən eşq, qocalıqda evlilik, olmayan övlad- Nuru Paşanın uğursuz ailə həyatı.........................................180
Quba dəhşətləri ilə bağlı protokol:”Bir erməniyə görə, 200 müsəlman öldürüldü, 75 qadın zorlandı” ......................182
Ermənilər axundun burnunu, qulağını kəsib, başının dərisini soydu - Mart qırğınları................................184
Bakı Dövlət Universitetinin yaranma tarixi .........................186
Nərimanovun sirli qətli – “Məni tez xəstəxanaya aparın, ölürəm” ...............................191
Əhməd Cavadın Nuru Paşaya imzalayaraq bağışladığı kitabın aqibəti ..................................................193
Nuru Paşa ordusunun Azərbaycana daxil olduğu gün yaşanan təsirli hadisə – “Hamı bu mənzərəyə ağlayırdı”.....194
Cümhuriyyət nazirinin qapısında partlayan bomba – Baş tutmayan sui-qəsd...........................................196
Partlayışın zərərləri ............................................................199
Zakir Sadatlının üzə çıxardığı sirlər və ağrılar - II Hissə - “AXC araşdırmaçıları”........................................200
Üzeyir bəyin ağrılı günləri – Səməd Vurğunun göz yaşları, qardaşına yolladığı çörək pulu…..............................206
Xalq Cümhuriyyətinin əlifba və ana dili uğrundakı çabaları – Dil və Əlifba Günü.............................................209
Ermənilərin şərlədiyi, ingilislərin tutduğu Nuru Paşanın həbsxanadan qaçırılması - Xatirələr .............212

"Gözlədiyimdən çox yaşadım, nəyim var idisə
hamısını satdım" – Şıxlinskinin vəsiyyəti............................215
Almas İldırım .............................................................................218
Hüseyn Cavidin bədxahlara möhtəşəm cavabı ..................222
Nuru Paşa bu xəbəri eşidib təcili
Azərbaycana doğru yola düşdü...........................................224
Cümhuriyyət hökuməti mart soyqırımını
Milli Matəm Günü kimi qeyd etdi .....................................233
Bir daha Nəsib bəy haqqında ...............................................233
Nəsib bəy onun xidməti maşınından istifadə
etdiyi üçün bacısını danladı .................................................235
Cümhuriyyət ordusunun ilk marşının sözləri:
"Qardaşımı qurtarmaya, Türküstana gediyorum"................241
Cümhuriyyətin "Xalq artisti" olan yeganə xanəndə kim idi? ....243
Müsavat sıralarından qovulan Cümhuriyyət fədaisi –
Rəsulzadənin iradları..........................................................244
Nəsib bəy haqqında daha bir neçə söz ................................246
Cümhuriyyət hökumətinin imzaladığı
tarixi qərar və onun əsas memarı ........................................255
Cümhuriyyətin Almaniyaya göndərdiyi tələbər
nədə səhv etdilər?...............................................................257
Xoyskinin general Tomsona sərt cavabı:
"Sizdən ölkədən çıxmağı tələb edirəm"...............................258
Cümhuriyyət hökuməti qərar verməzdən əvvəl
bu jurnalistin yazılarından faydalanırdı ...............................259
Cümhuriyyətin 32 əfsanəvi əsgərinin faciəli sonluğu .........261
"Nəriman Nərimanov və başqalarının xəyanəti aprel
istilasında əsas rol oynadı"..................................................265

**III bölüm - Məhəmməd Əmin Rəsulzadə - anılar və anlar...........................................................270**

İnildəyən məzar...............................................................270

Cümhuriyyət nazirinin "üzrxahlıq" ifadəsi: "Rəsulzadə ilə fikir ayrılığında idim" ................................272

Seçilən komissiya üzvləri və Rəsulzadənin təxirə saldığı qanun layihəsi – Cümhuriyyət parlamentinin ilk iclası........274

Rəsulzadəni qınadığı üçün sonralar ondan üzr istəyən Cümhuriyyət nazirinin oğlu ................................................276

"Xəstəxana xarab, dərman tapılmır, fəhlə aclıqdan xəstələnir" – Rəsulzadənin parlamentdəki üsyanı................278

Rəsulzadənin gizli yollarla Finlandiyaya keçməsi – Təsirli məktub ...............................280

Oğlunu itirən Topçubaşova Rəsulzadənin yazdığı kədərli məktub.......................................................282

Lahıcda Rəsulzadəni sataraq qoşalülə tüfənglə mükafatlandırılan satqının öldürülməsi...............................283

"Parasızlıq məni düşündürür, ailəmi bura köçürmək istəyirəm" – Rəsulzadənin qürbət dərdi ..............................288

Rəsulzadənin Atatürkdən "incikliyi" – "O, qurtulan Şərqin simvoludur" .......................................290

Rəsulzadənin məzarı tapılan xanımı zirzəmidə dünyasını dəyişib?............................................300

"Yerə sərilən çılpaq, ölü qadını canlı bir yavru əmməkdədir..." – Rəsulzadənin soyqırımı harayı ................303

"Xəstə idim, əməliyyata ehtiyac var idi"- Rəsulzadənin səhhətindən şikayəti......................................305

Rəsulzadənin ailəsi ilə dəhşətli vida günü – "Ailəsi göz yaşına boğularaq onu yola salırdı"...................306

Məhəmməd Əmin Rəsulzadənin dəhşətli ailə faciəsi... .......311

**IV bölüm - Şərqin ilk qaranquşu – Cümhuriyyət parlamenti.......................................................318**
Seçilən komissiya üzvləri və Rəsulzadənin təxirə saldığı qanun layihəsi – Cümhuriyyət parlamentinin ilk iclası........318
Azərbaycan Cümhuriyyətinin son günündən "reportaj" – Top lüləsinin hədəfində olan parlament ...............................321
Cümhuriyyət parlamentinin verdiyi ilk qərar- Məhbuslar əfv edildi .........................................................326
Cümhuriyyət parlamentində müəllimlərin maaşının müzakirəsi, Nəsib bəyin tarixi çıxışı- "Əgər müəllim, ac olsa…"................................................327
Cümhuriyyətin aylardır maaş ala bilməyən məmurlarına Novruz sovqatı – Parlamentin qərarı..................................330
Mehmandarovun Cümhuriyyət ordusunun ağır durumu ilə bağlı parlamentdə çıxışı və verdiyi təkliflər.........................333
100 yaşlı Cümhuriyyət parlamenti- Faktların və rəqəmlərin dili ilə............................................336
Parlamentdə məmur maaşının mübahisəsi – Hiddətlənən Rəsulzadə, iclası tərk edən deputatlar............341
Cümhuriyyət parlamentinin yeganə qadını – Başıaçıq çıxış etdiyi üçün təhdid olunan maarifçi xanım ...347
Fətəli xan Xoyski hökuməti niyə istefa vermişdi? - TARİXİ NİTQ..........................................................352
Parlament sədri deputatlara niyə əsəbiləşdi?........................355
Cümhuriyyət parlamentində çalışanlar nə qədər maaş alırdı? ............................................................357
Cümhuriyyət parlamentində "realni" məktəblərin açılmasına etiraz - Dövrün təhsil mənzərəsi .......................358

**V bölüm - Ədəbi Cümhuriyyət ............................................362**

"Mən çeynənən bir ölkənin, haqq bağıran səsiyəm" - Əhməd Cavad ..............................................................362

Əhməd Cavad xatirələrin dili ilə – Bir şeirin tarixçəsi ........364

Rəsulzadənin ədəbi-ideoloji fikirləri ....................................366

Əhməd Cavada kamerada verilən işgəncələr .......................371

Əhmed Cavadın dostundan əzbərləyib, sonra da cırıb atmasını istədiyi məşhur şeiri ..............................................373

Nəriman Həsənzadənin Əhməd Cavad söhbəti ....................376

Çəmənzəminli - ağır günlərin hekayəsi................................381

Cümhuriyyət hökumətinin Çəmənzəminliyə yolladığı 8000 min manat ona niyə çatmır? .......................................388

Çəmənzəminli hansı səbəbdən "Müsavat"dan getmişdi? ....390

Çəmənzəminlini məhv edən yazıçı dostları kimlərdi? .........393

Ağır durumda olan Çəmənzəminliyə cəmi 3 dollar maddi yardım təklif etdilər ................................................396

Çəmənzəminlinin son məktubu:
"Əli və Nino"nu necə qorumaq istəyirmiş? .........................402

Çəmənzəminlinin sürgündən ailəsinə yolladığı yeganə məktubdakı dəhşət ................................................404

Çəmənzəminlini "erotik" hekayələrinə görə ittifaqdan çıxardılar ..........................................................405

**Mətbəənin direktoru:** **Elman Qasımov**
**Dizayner:** **Azər Aydın**

Çapa imzalanmışdır: 07.12.2018.
Formatı 60x84 1/16.
Həcmi 26 ç.v. Sifariş № 34. Tiraj 250

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru